ƏQİDƏ ÜSULLARININ TƏLİMİ

AYƏTULLAH MİSBAH YƏZDİ

نام کتاب:.....آموزش عقائد
مولف:..... آیت الله مصباح یزدی
مترجم:.....م. سلیمان اف
ناشر:..... .شهریار
تاریخ چاپ:.....1385
نوبت چاپ:.....اول
تیراژ:.....3000

Kitabın adı:.....Əqaid üsullarının təlimi
Müəllif:.....Ayətullah Misbah Yəzdi
Tərcümə edən:.....M.Əlizadə
Tiraj:.....3000
Çap növbəsi:.....Birinci
Çap tarixi:.....2006

964-5934-73-7

MÜQƏDDİMƏ

Əsaslı əqidə və düşüncələr agahlıq üzündən olub-olmamasına baxmayaraq hər cür dəyər sisteminin əsasını, mütəşəkkil bir ideologiyanın bünövrəsini təşkil edir və insanların rəftar, davranış və əməllərinin formalaşmasına əsaslı təsir qoyur. Buna görə də islami rəftar və dəyərlərin bərqərar edilib möhkəmlənməsi üçün bərəkətli və güclü islam ağacının kökünü təşkil edən əqidə üsulları insanların qəlbində möhkəm yer tutmalıdır ki, onun ürək oxşayan şirin meyvələri həmişə çiçək açsın və insanın hər iki dünyadakı səadət və xoşbəxtliyini təmin etsin.

Buna görə də islam alimləri dinimizin yarandığı ilk dövrlərdən etibarən əqidə üsullarını müxtəlif şəkillərdə və müxtəlif üslublarla bəyan etmiş, kəlam alimləri (teoloqlar) müxtəlif səviyyələrə uyğun kitablar yazmışlar. Müasir dövrdə də hər gün zahir olan yeni-yeni şübhələri nəzərə almaqla müxtəlif əqidə kitabları yazılmış və hamının istifadəsinə verilmişdir. Bu kitablar bir-biri ilə tamamiilə fərqli olan iki səviyyədə yazılmışdır. Onların bəziləri sadə bəyanlarla və ümumi səviyyədə olur, çoxlu izahlar verilir, digəri isə çox mürəkkəb bəyanlar, ağır ifadələr və elmi istilahlarla yalnız mütəxəssislər səviyyəsində yazılır.

Buna görə də orta səviyyədə tədris olunacaq kitabların yerində boşluq hiss olunur. Çoxdan bəri dini mədrəsələrdə belə bir dərsliyə çox ehtiyac duyulur.

Buna görə də islam təbliğat təşkilatının möhtərəm məsullarının təklifi və "Haqq yolunda" müəssisəsinin fəzilətli alimlərindən bir qrupunun köməyi ilə əlinizdəki kitab yazıldı. Kitab aşağıdakı xüsusiyyətlərə malikdir:

1. Səy göstərilmişdir ki, kitabın mətləbləri məntiqi tərtib üzrə tənzim olunsun və məsələlərin bəyan olunması mümkün qədər sonraya saxlanılmasın.
2. İmkan olduqca sadə və aydın ifadələrdən istifadə edilməyə səy olunmuşdur.
3. Hər hansı bir mətləbin isbat edilməsi üçün nisbətən möhkəm, aydın və az dəlillərdən istifadə etməyə səy olunmuşdur.
4. Tələbələrin ruhən yorulmasına səbəb olan əlavə izahatlardan imtina edilmiş, mətləblər xülasə və qısa şəkildə bəyan edilmişdir.
5. Bu kitabın orta səviyyəli tələbələr üçün tədris olunması nəzərdə tutulduğundan, fəlsəfə, təfsir, yaxud fiqh elmlərindən müəyyən qədər məlumatlı olmağı tələb edən bir çox mürəkkəb və dərin sübutların gətirilməsindən çəkinilmişdir. Zəruri hallarda lazım olan müqəddimələri bəyan etməklə kifayətlənilmiş və məsələnin başqa yönlərinin araşdırılıb təkmil edilməsi başqa kitablara həvalə edilmişdir ki, tələbələrdə təhqiq və təhsilin davam etdirilməsinə olan maraq sönməsin.
6. Kitab ayrı-ayrı dərslərə bölünmüş və təqribən bir dərs saatına lazım olan mətləblər bir dərs adı altında müəyyən olunmuşdur.

7. Bəzi dərslərin mühüm məsələləri və incə nöqtələri gələcək dərslərdə təkidli şəkildə, bəzən də yığcam şəkildə təkrar olunur ki, tələbələrin zehnində daha yaxşı yer alsın.

8. Hər dərsin sonunda dərsin daha yaxşı öyrənilməsinə kömək edəcək suallar tərtib olunmuşdur.

Şübhəsiz, bu kitabda zəif nöqtələr ola bilər. Ümidvarıq ki, möhtərəm ustadların təklif və tənqidlərindən istifadə edərək onların bəziləri sonrakı çaplarda islah olunacaq.

Ümidvarıq ki, bu kiçik xidmət həzrəti Vəliyyi Əsrin (ərvahuna fədah və əccələllahu fərəcəhuş-şərif) müqqəddəs hüzurunda qəbul olunsun və bizim elmiyyə hövzələri və yüksək məqamlı şəhidlər qarşısındakı vəzifələrimizin bir qisminin yerinə yetirilməsi istiqamətində müəyyən bir addım kimi qiymətləndirilsin.

Qum, Məhəmməd Təqi Misbah Yəzdi.
Şəhrivər, Şəmsi 1365-ci il.

BİRİNCİ DƏRS

DİN NƏDİR

–Din məhfumu
–Üsuliddin və füruiddin
–Dünyagörüş və materialist
–İlahi və maddi dünyagörüş
–Asimani dinlər və onların prinsipləri

DİN MƏFHUMU

Bu kitabın əsas məqsədi dini terminalogiyada "üsuliddin" adlandırılan islami əqidə prinsiplərini bəyan etməkdən ibarətdir. Buna görə də hər şeydən əvvəl "din" kəlməsi və onunla əlaqədar olan digər kəlmələr barədə bir qədər izahat verməyi lazım görürük. Çünki məntiq elmində deyildiyi kimi, təssəvür yönünə malik olan müqəddimələr (təriflər) hər şeydən öncə bəyan olunmalıdır.

Din – itaət, cəza, mükafat və sair kimi mənaları ifadə edir. Dini termin kimi isə insan və dünyanın yaradanına etiqad bəsləməyə və bu əqidələrə mütənasib olan əməli göstərişlərə deyilir. Deməli, ümumiyyətlə Yaradana inanmayanlar, aləmdə mövcud olan hadisə və varlıqların təsadüfi olaraq yarandığını iddia edənlər, yaxud bunu maddi və təbii proseslərin nəticəsi hesab edənlər dinsiz adlandırılır. Amma kainatın bir yaradanı olduğuna inananlar, hətta əgər onların dini mərasimləri və əqidələri inhiraf və xurafatla yanaşı olsa belə dindar hesab olunurlar. Buna əsasən insanların arasında mövcud olan dinlər haqq və batil olaraq iki yerə bölünür. Haqq din real gerçəkliklə müvafiq və düzgün əqidəyə malik olan bir dindir. O, səhihlik və etibarlılıq üçün kifayət qədər zəmanət verən müəyyən davranış, rəftar və əməlləri tövsiyə və təkid edir.

ÜSULİDDİN VƏ FÜRUİDDİN

Din sözünün terminoloji məhfumu barəsində verilən izahdan aydın olur ki, hər bir din ən azı iki hissədən təşkil olunur:

1. Onun əsasını və kökünü təşkil edən əqidə, yaxud əqidələr.
2. Bu əqidəvi əsaslara uyğun olan əməli göstərişlər.

Deməli, hər bir dində əqidə bölməsinin üsuliddin (dinin kökləri), onun əməli hökmlərinin isə füruiddin (dinin budaqları) adlandırılması tamamilə düzgündür. İslam alimləri də islam əqidəsi və əhkamı barədə məhz bu iki termini işlətmişlər.

DÜNYAGÖRÜŞ VƏ İDEOLOGİYA

Dünyagörüş və ideologiya kəlmələri bir-birinə yaxın olan mənaları daşıyır. Dünyagörüşü "insan və aləm, ümumiyyətlə varlıq aləmi barəsində bir-biri ilə uyğun olan ümumi nəzərlər və etiqadlar silsiləsi"dən ibarətdir. İdeologiya barəsində isə bunu demək olar ki, o, "insanın rəftarları ilə mütənasib olan ümumi rəylər silsiləsidir."

Bu iki mənanı nəzərə alaraq hər dinin üsuli və əqidəvi sistemini həmin dinin dünyagörüşü, onun əməli hökmlərinin ümumi sistemini isə onun ideologiyası hesab etmək və onları dinin üsul və fürusuna tətbiq etmək olar. Amma nəzərə almaq lazımdır ki, dünyagörüş istilahı cüzi etiqadlara şamil olmadığı kimi, ideologiya istilahı da cüzi hökmlərə şamil edilmir.

Bunu da qeyd edək ki, bəzən ideologiya kəlməsi daha ümumi mənada

işlənərək dünyagörüşə də aid edilir.[1]

İLAHİ VƏ MADDİ (MATERİALİST) DÜNYAGÖRÜŞ

Qədim zamanlardan insanlar arasında indiyə qədər müxtəlif növ dünyagörüşlər mövcud olmuşdur. Bunların hamısını təbiətin fövqündə olan varlıqların qəbul edilib edilməməsindən asılı olaraq iki ümumi qismə ayırmaq olar: İlahi dünyagörüş və materialist dünyagörüş.

Maddi (materialist) dünyagörüş ardıcılları qədimdə təbiilər, dəhrilər, bəzən də zındıqlar və mülhidlər adlandırılırdı. Bizim dövrümüzdə isə maddilər və ya materialistlər adlandırılır.

Materializmin müxtəlif qismləri vardır. Onların ən məşhuru bizim əsrimizdə olan marksizm ideologiyasının fəlsəfə bölməsini təşkil edən dialektik materializmdir.

Bütün bunlardan aydın olur ki, "dünyagörüş" kəlməsi dini əqidələrdən daha geniş və ümumi bir məna kəsb edir. Çünki o həm ilahi, həm də materialist əqidələrə aid olur. "İdeologiya" kəlməsi də təkcə dini hökmlər məcmuəsinə məxsus deyildir.

DİN, ASİMANİ DİNLƏR VƏ ONLARIN PRİNSİPLƏRİ

Din tarixçiləri və sosioloqlar arasında müxtəlif dinlərin necə yaranması haqqında müxtəlif nəzəriyyələr mövcuddur. Amma islami mənbələrdən əldə olunanlara əsasən deməliyik ki, dinin yaranması insanın yaranması ilə eyni vaxtda təsadüf edir. İlk insan (Həzrət Adəm (ə)) Allahın peyğəmbəri, tövhid carçısı olmuş və yeganə Allaha pərəstiş etmişdir. Şirklə qarışmış dinlərin hamısı da şəxsi, yaxud ictimai qərəz və məqsədlərin onlara daxil edilməsi və təhriflər nəticəsində yaranmışdır.[2] Həqiqi və asimani din hesab olunan tövhid dinində isə üç müştərək və ümumi prinsip vardır:

1. Yeganə Allahın varlığına etiqad bəsləmək.
2. Hər bir insan üçün axirət aləmində əbədi həyatın varlığına bu dünyada yerinə yetirilən əməllərə görə o dünyada cəza və ya mükafat veriləcəyinə inanmaq.

---

[1] Dünyagörüş və ideologiya barəsində daha artıq məlumat əldə etmək üçün birinci dərsin "tətbiqi ideologiya" bölməsinə baxa bilərsiniz.

[2] Zalımların və padşahların razılığını cəlb etmək üçün bəzi asimani dinlərə artırılan təhriflərdən biri də budur ki, dinin çərçivəsini insanın Allahla olan rabitəsində və din hökmlərini xüsusi məzhəb mərasimlərinin yerinə yetirilməsi ilə xülasələndirirdilər. Xüsusilə siyasət və cəmiyyətin idarə işlərini dini vəzifələrdən kənar bir iş kimi təqdim edirdilər, halbuki hər bir asimani din bəşər övladının dünya və axirətdəki səadətə çatması üçün ehtiyac duyulan bütün məsələləri öz öhdəsinə alır və adi insanların əqli onları tanıyıb yoluna qoymaq üçün kifayət deyildir. (Bu mətləb öz yerində bəyan olunacaqdır). Mütəal Allah tərəfindən axırıncı olaraq məbus olan Peyğəmbər (s) insanların dünyanın axırına qədər ehtiyac duyacağı məsələlərə və maarifə malik olmalıdır. Buna görə də islam təlimlərinin mühüm bir qismi ictimai, iqtisadi və siyasi məsələlərlə əlaqədardır.

3. Bəşəriyyəti son kamala, yəni dünya və axirət səadətinə hidayət etmək üçün Allah tərəfindən peyğəmbərlər göndərilməsinə inanmaq.

Bu üç prinsip həqiqətdə hər bir agah insan üçün aşağıda yaranan sualların cavabıdır: "Varlığın mənşəyi nədir?", "Həyatın sonu nədən ibarətdir?", "Ən yaxşı yaşayış proqramını necə əldə etmək olar?".

Vəhy vasitəsilə zəmanət verilən yoldan ibarət proqramlar məcmusu, elə ilahi dünyagörüşdən irəli gələn dini ideologiyadan ibarətdir.

Əqaidin əsaslarını müxtəlif təsir, nəticə və təfsilləri vardır ki, bunlar məcmu halında dinin əqidə sistemini təşkil edir. Bu kimi etiqadlarda olan ixtilaflar müxtəlif dinlərin, firqələrin və məzhəblərin yaranmasına səbəb olmuşdur. Eləcə də ilahi peyğəmbərlərin bəzilərinin nübüvvətində, mötəbər asimani kitabların təyin olunmasındakı fərqlər də yəhudi, məsihi və İslam dinləri arasında əsaslı ixtilafların nəticəsidir. Bunun da ardınca bəzi hallarda əqidə və əməllərdə etiqadın əsasları ilə uyğun olmayan digər ixtilaflar meydana gəlir. Məsələn, məsihiyyətdə üçlüyə (Müqəddəs Ata, Oğul və Ruhul-qüds) olan etiqad tövhid prinsipi ilə uyğun gəlmir. Halbuki, məsihilər bu barədə özlərinə bəraət qazandırmaq istəyirlər. Eləcə də Peyğəmbərin canişinin Allah tərəfindənmi, yoxsa camaat tərəfindən təyin olunması ilə əlaqədar yaranan ixtilaf İslam dinində sünnü və şiələrin arasında əsaslı ixtilafa səbəb olmuşdur.

Belə nəticə alınır ki, tövhid, nübüvvət və məad bütün asimani dinlərdə əsas etiqadlardır, lakin onların təhlil olunmasından, yaxud təfərrüatından yaranan başqa etiqadları xüsusi terminlərə uyğun olaraq əsl əqaidin bir hissəsi hesab etmək olar. Məsələn, Allahın varlığına etiqadı İslam əqaidinin bir əsli, Onun vahid olmasına olan etiqadı isə bu əqaidin ikinci bir əsli, yaxud həzrət Peyğəmbəri-Əkrəmin (s) nübüvvətinə olan etiqadı bunun digər bir əsli saymaq olar.

Şiə alimlərindən bəziləri tövhidin etiqadının şöbələrindən biri olan ədaləti müstəqil bir prinsip, nübüvvətin davamı olan imaməti isə digər bir prinsip hesab etmişlər. Həqiqətdə "əsil" kəlməsinin termin kimi bu kimi etiqadlarda işlənməsi əsas şərtlərdən hesab olunmuşdur və bu barədə münaqişəyə yer yoxdur.

Deməli, üsuliddin kəlməsini ümumi və xüsusi olaraq iki mənada işlətmək olar. Ümumi mənada bu füruidinin və İslam hökmlərinin müqabilində dayanır və bütün mötəbər etiqadlara da şamildir. Xüsusi mənada isə ən əsaslı etiqadlara məxsusdur. Bütün asimani dinlər arasında müştərək olan tövhid, nübüvvət və məad kimi bəzi etiqadları mütləq şəkildə üsuliddin, onlara bir və ya bir neçə digər prinsipi əlavə etməklə bu etiqadları xüsusi üsuliddin, yaxud ayrıca şəkildə xüsusi bir firqə ya məzhəbə aid olan bir neçə etiqadı da bu etiqadlara artırmaqla onları din və məzhəb prinsipləri, yaxud da bir məzhəbin etiqad üsulları hesab etmək olar.

SUALLAR

1. Dinin lüğəti və terminoloji məfhumunu bəyan edin.
2. Dünyagörüş və ideologiyanın tərifini deyin və onlar arasındakı fərqi bəyan edin.
3. Dünyagörüşün iki ümumi növünü izah edin.
4. Üsuliddinin ümumi və xüsusi olaraq iki mənasını şərh edin.
5. Bütün asimani dinlər arasında müştərək olan prinsiplər hansıdır? Onların əhəmiyyəti nədən ibarətdir?

İKİNCİ DƏRS

DİN BARƏDƏ TƏHQİQAT

–Təhqiqatın məqsədi
–Din barədə axtarış aparmağın əhəmiyyəti
–Bir şübhənin həlli

TƏHQİQATDAN MƏQSƏD

İnsanın ruhi və psixoloji xüsusiyyətlərindən biri də real gerçəkliklər və həqiqətlər barədə mərifət kəsb etməyə olan fitri və instinktik meyldir. Bu meyl hər insanın uşaqlıq dövründən etibarən zahir olur və ömrünün axırına qədər davam edir. Bəzən fitri olan və axtarışçılıq hissi adlandırılan həqiqətaxtarma insanı din çərçivəsində irəli sürülən məsələlər barədə təfəkkür etməyə və dinlə bağlı mərifət kəsb etməyə vadar edir. İnsan həm də bu fitri hiss ilə aşağıdakı suallara cavab tapmaq istəyir: Hiss üzvləri ilə hiss olunmayan qeyri-maddi varlıq mövcuddurmu? Mövcud olduğu təqdirdə qeyb aləmi ilə maddi və hiss olunan dünya arasında bir əlaqə varmı? Bu əlaqənin varlığını fərz etdikdə maddi dünyanı yaradan, özü isə zahirdə hiss olunmayan bir varlıq varmı? İnsanın varlığı onun maddi bədəni ilə, həyatı da dünyəvi həyatı ilə xülasələnirmi, yoxsa başqa bir həyat da vardır? Başqa bir həyatın varlığı fərz olunduqda dünya və axirət arasında bir bağlılıq varmı? Bu əlaqənin mövcud olduğunu qəbul etdikdə hansı növ dünya hadisələri axirət işlərində təsirlidir? Həyatın düzgün proqramı barədə məlumat kəsb etmək üçün bir yol varmı? Hər iki dünyada insanın səadətini təmin edən bir proqram varmı? O proqram hansıdır?

Deməli, insanın həqiqət axtaran qərizəsi (instinkti) insanı bütün məsələlərin, o cümlədən dini məsələlərin araşdırılmasına və haqq din barədə mərifət kəsb etməyə sövq edən ilk amildir.

İnsanın həqiqətlər haqqında mərifət əldə etməsinə olan rəğbətini gücləndirən digər amil də bundan ibarətdir ki, hər biri bir, yaxud bir neçə başqa fitri meylə (həqiqətlərə yol tapmaq meylindən başqa) aid olan digər istəklərinə nail olmaqdan ötrü insan xüsusi mərifət kəsb etməlidir. Necə ki, müxtəlif maddi və dünyəvi nemətlərdən bəhrələnmək üçün elmi səylər tələb edilir. Təcrübi elmlərin inkişafı insanın öz istəklərinə nail olmasında çox böyük rol oynayır. Halbuki din də insanın mənafe, məsləhət və istəklərinin təmin olunmasına kömək edərək ziyanların, xətərlərin, təhlükələrin qarşısını alar və onun üçün istənilən səviyyədə ola bilər. Mənfəəti kəsb edib ziyandan uzaqlaşmaq qərizəsi din haqqında təhqiqat aparmaqdan ötrü digər bir amil sayılır.

Lakin məlumat əldə ediləsi şeylərin həcminin böyüklüyünə, bütün həqiqətlər barədə mərifət kəsb etmək üçün kifayət qədər şəraitin olmamasına diqqət yetirməklə insanın elə məsələlərlə bağlı tədqiqat aparmağı mümkündür ki, onların həll olunması daha asan, nəticələri daha çox nəzərəçarpan və ona nail olmaq çox asan olsun. Məhz buna görə də dini məsələlərin xüsusi və mühüm əhəmiyyətə malik olduğunu araşdırmalıyıq. Hətta, demək olar ki, heç bir məsələnin dəyəri bu mövzular ətrafında aparılan təhqiq və araşdırılmanın dəyərindən az deyil.

Qeyd etmək lazımdır ki, bəzi psixoloqlar[1] Allaha pərəstişin ümumiyyətlə müstəqil fitri bir istək olduğunu deyib onun mənşəyini dini hiss adlandırır, onu da axtarış aparmaq, yaxşılıq etmək və gözəllik hissləri ilə yanaşı qeyd edir və insan ruhunun dördüncü yönünü təşkil etdiyini qeyd edirlər.

Onlar arxeoloji qazıntılara və tarixi şahidlərə istinad edərək xatırladırlar ki, Allaha pərəstiş insanların arasında müxtəlif formalarda hər dövrdə mövcud olmuşdur. Allaha pərəstişin hər dövrdə bütün insanlar arasında mövcud olması da onun fitri bir hiss olmasını göstərir.

Əlbəttə, fitri yönəlmənin ümumi mənası həmişə və bütün fərdlərdə fəal olması və insanı agahlıq üzündən öz istədiyinə tərəf sövq etməsi deyildir. Əksinə onun mühit amillərinin və düzgün olmayan tərbiyənin təsiri altına düşərək fəaliyyətdən dayanması, yaxud özünün düzgün yolundan çıxması da mümkündür. Belə ki, digər qərizələrdə də bu kimi qafillik və inhiraflar müəyyən qədər müşahidə olunur.

Bu nəzəriyyəyə əsasən, din barəsində tədqiqat müstəqil fitri bir məqsədə, stimula malikdir, onun dəlil-bürhan yolu ilə isbat olunmasına heç bir zərurət yoxdur.

Qeyd olunanları dinin fitri olmasına dəlalət edən Quran ayələri və rəvayətlərdən də müəyyən qədər isbat etmək olar. Lakin bu fitri meylin təsirinin agahlıq üzündən olmaması və bəzi şəxslərin mübahisə məqamında belə meylin özlərində mövcud olduğunu inkar etmələri mümkün olduğundan biz bu bəyanla kifayətlənmir və dinlə bağlı təhqiqatın əhəmiyyətini əqli yollarla isbat edirik.

DİNLƏ BAĞLI TƏDQİQAT APARMAĞIN ƏHƏMİYYƏTİ

Aydın oldu ki, bir tərəfdən həqiqətlər barəsində mərifət kəsb etməyə olan fitri meyl, digər tərəfdən isə insanın mənfəət və məsləhətini kəsb edib ziyan və təhlükələrdən amanda olması ilə əlaqədar təfəkkür etməsi onu elm və dünyagörüş əldə etməyə vadar edən güclü bir amildir. Deməli, bir şəxs "filan tarixdə görkəmli şəxsiyyətlərdən bir qrupu bəşərin hidayəti və hər iki dünyada xoşbəxtliyə çatması üçün yol göstərmək məqsədilə Allah tərəfindən seçilmiş və öz sözlərini çatdırıb bəşəriyyəti hidayət etməkdə heç bir səydən çəkinməmiş, hər növ çətinlik və əzab-əziyyətə dözərək hətta öz canlarını da bu hədəf yolunda fəda etmişlər" kimi sözləri eşidib agah olsa, din barəsində qeyd olunan məqsədlərlə tədqiqat aparmaq fikrinə düşür ki, peyğəmbərlərin iddialarının düzgün və kifayət qədər məntiqi dəlillərə malik olub-olmadığını öyrənsin. Xüsusilə, onların əbədi nemət və səadətlə müjdələyən, əbədi əzab və bədbəxtçiliklə qorxudan dəvətləri barədə məlumat əldə etsə daha artıq təhqiqat aparmaq fikrinə düşər. Çünki onların dəvətini qəbul etmək ehtimal verilən sonsuz mənfəətlərə nail olmaq, onlarla

[1] Maraqlananlar "Məzhəb hissi", "İnsan tanınmamış mövcuddur", "Din və psixika" kitablarına müraciət etsinlər. (Fars dilində)

müxalifət etmək isə ehtimal verilən sonsuz zərərlərə düşməkdən ibarətdir. Belə bir şəxs özünün din barədə qafil olub bu işə laqeyd yanaşmasına, onun haqqında tədqiqat aparmamasına dair hansı bir bəhanə gətirə bilər?!

Bəli, bəzilərinin tənbəllik və etinasızlıq üzündən tədqiqat aparmaq üçün özlərini zəhmətə salmaq istəməməsi, yaxud dinin qəbul edilməsində müxtəlif məhdudiyyətlər olduğunu və onları ürəkləri istəyən bəzi işlərdən saxladıqları üçün din barəsində tədqiqat aparmaqdan imtina edə bilmələri mümkündür.[1] Amma belə şəxslər bu kimi tənbəlliyin və etinasızlığın ağır və acınacaqlı aqibətinə dözməli, nəhayət əbədi əzabı və bədbəxtçiliyi qəbul etməlidirlər.

Belə şəxslərin vəziyyəti acı dərmanı qəbul etməkdən qorxaraq həkimin yanına getməyən və qəti ölümə razı olan nadan xəstə uşağın vəziyyətindən qat-qat ağırdır. Çünki belə uşağın əqli özünün fayda və ziyanını ayırd etmək üçün kifayət qədər inkişaf etməmişdir. Həkimin göstərişləri ilə müxalifət etməsinin zərəri də dünya həyatındakı bir neçə günlük həyatdan məhrum olmaqdan başqa bir şey deyildir. Lakin həddi-büluğa çatmış və agah olan insan özünün fayda və ziyanı haqqında fikirləşərək ötəri ləzzətləri əbədi əzabla müqayisə etmək qüdrətinə malikdir.

Buna görə də Qurani-kərim qəflətdə olan belə şəxsləri heyvanlardan da alçaq səviyyəli olduğunu bildirərək buyurur:

“Onlar heyvan kimidirlər, hətta yolunu onlardan da çox azmışlar. Qafil olanlar da məhz onlardır.”[2]

Başqa bir ayədə onlar canlıların ən pisi kimi təqdim edilərək buyurulur:

“Həqiqətən, Allah dərgahında canlıların ən pisi həqiqəti dərk etməyən karlar və lallardır.”[3]

BİR ŞÜBHƏNİN HƏLLİ

Bəziləri bəhanə gətirib deyə bilərlər ki, bir məsələni həll etmək üçün göstərilən səylər o zaman bəyənilər ki, insan onun həll yollarını tapmağa ümidvar olsun. Lakin biz din və onunla əlaqədar məsələlər barədə düşünməyin nəticə verəcəyinə o qədər də ümidvar deyilik. Buna görə də vaxt və qüvvəmizi nəticələrinə daha artıq ümidvar olduğumuz işlərə sərf etməyimiz daha ağlabatan işdir. Belə şəxslərə demək lazımdır ki: **Əvvəla,** dinin əsas məsələlərinin həll olunmasına ümid heç bir vəch ilə digər elmi məsələlərdən az deyildir və bildiyimiz kimi elmi məsələlərdən çoxunun həll olunması alimlərin apardıqları uzun fəaliyyətlər və səylərin nəticəsində müyəssər olmuşdur.

İkincisi, ehtimalın dəyəri yalnız ehtimalın miqdarına tabe deyil, əksinə ehtimal olunan şeyin də miqdarını nəzərə almaq lazımdır. Məsələn, bir işin

---

[1] “Qiyamət” surəsi, ayə 5.

[2] “Əraf” surəsi, ayə 179.

[3] “Ənfal” surəsi, ayə 22.

fayda və qazancının ehtimalı beş faiz, başqa birininki isə on faiz olsa, lakin birinci işdə ehtimal verilən qazancın miqdarı min manat, ikinci işdə isə yüz manat olsa, birinci iş ikinci işdən beş mərtəbə yuxarıdadır. Halbuki onun miqdarının (beş faiz) ehtimalı ikinci işdə olan ehtimalın miqdarının (on faiz) yarısına bərabərdir.

Dinlə bağlı axtarış aparmaq barədə olan ehtimal mənfəəti sonsuz olduğundan ondan qəti nəticələr əldə etmək ehtimalı nə qədər zəif olsa da, o yolda çalışmağın dəyəri yenə də yetərli nəticəyə malik olmayan hər hansı bir işdə səy göstərib çalışmağın dəyərindən qat-qat artıqdır. Dinlə bağlı tədqiqatı tərk etmək əqlən o zaman üzrlü sayılır ki, insan dinin düzgün olmamasına, yaxud onun hər hansı məsələni həll etməyə qadir olmadığına tam əmin olsun. Amma, görəsən, belə bir inam haradan əldə oluna bilər?

SUALLAR

1. İnsanın həqiqətləri tanımaqda məqsədi nədir?
2. Nə üçün insanlar bütün həqiqətlər barədə tədqiqat aparmır?
3. «Dini hiss» ifadəsindən məqsəd nədir? Onun varlığına hansı dəlil gətirmişlər?
4. Dini prinsiplər (üsuliddin) barədə tədqiqat aparmağın zərurətini bəyan edin.
5. Dini məsələlərin qəti həllinə ümid bəsləməmək bu barədə tədqiqatın tərk olunmasına bəhanə ola bilərmi? Niyə?

ÜÇÜNCÜ DƏRS

YAŞAMAQ İNSAN ÜÇÜN ŞƏRTDİR!

–Müqəddimə.
–İnsan kamillik dalıncadır?
–Əqlə tabe olmaq insan kamilliyinin göstəricisidir.
–Əqli surətdə olan fəaliyyət nəzəri mənbəyə əsaslanır.
–Nəticə.

MÜQƏDDİMƏ

Keçən dərsdə din barədə təhqiqat aparılmasının və haqq dini tanımaq üçün səy göstərmək zərurətinin insanın fitri olan mənfəət əldə edib ziyandan qaçmaq istəyinə əsaslandığını sadə yolla sübut etdik.[1] Belə bir istəyi hər kəs öz daxilində müşahidə edə bilər. Başqa sözlə desək, insanın fitrətində heç vaxt xətaya yol verməyən elmi-hüzuri (heç bir yardımçı vasitənin köməyi olmadan insanın daxilində olan biliklər məcmusu) adlanan daxili hiss vardır.

Bu dərsdə isə həmin mətləbi daha dəqiq məsələlər əsasında qurulan başqa bir yolla isbat etmək istəyirik. Onun nəticəsi bundan ibarətdir ki, əgər bir şəxs din barəsində düşünməsə, səhih dünyagörüşə və ideologiyaya inanmasa, heç vaxt insani kamilliyə çatmayacaqdır və ümumiyyətlə, onu həqiqi insan hesab etmək olmaz. Başqa sözlə desək, insan kimi yaşamağın şərti düzgün dünyagörüşə və ideologiyaya malik olmaqdır. Bu dəlil üç müddəaya əsaslanır:

1-İnsan kamillik axtaran bir varlıqdır.

2-İnsani kamillik əqlin hökmündən qaynaqlanan şüurlu davranış sayəsində hasil olur.

3-Əqli fəaliyyət xüsusi nəzəri mərifət sayəsində formalaşır ki, bu da dünyagörüşün üç əsas prinsipindən ibarətdir. 1) Varlığın mənşəyini tanımaq (tövhid). 2) Həyatın sonu (məad). 3) İnsanı səadətə çatdıran proqramları ona göstərməkdən ötrü zəmanət verilmiş vasitə (nübüvvət). Başqa sözlə desək, varlıq aləmilə tanışlıq, insanla tanışlıq, yolla tanışlıq.

İndi isə bu üç müddəanı araşdırırıq.

İNSAN KAMİLLİK AXTARAN BİR VARLIQDIR

Hər kəs özünün ruhi meyllərinə və batini məqsədlərinə diqqət yetirib onlar barədə bir qədər fikirləşsə, onların çoxunun təkamülə meyilli olduğunu görəcəkdir. Ümumiyyətlə, heç kəs öz varlığında hər hansı bir çatışmazlığın olmasını istəməz. O daim çalışar ki, mümkün qədər hər növ çatışmazlığı, eyb və nöqsanı özündən uzaqlaşdırsın ki, istənilən təkamülə çata bilsin. Nöqsanlı halları və çatışmazlıqları aradan qaldırmaqdan qabaq onu başqalarından gizlədir.

---

[1] Qeyd olunan dəlil bundan ibarətdir: Əgər mənfəət əldə etmək və ziyandan qaçmaq insanın fitri istəyidirsə, o zaman sonsuz mənfəət qazanmaq və sonsuz zərərlərdən amanda qalmağa doğru səhih bir yol göstərməsini iddia edən bir din barəsində tədqiqat aparmaq zəruridir. Mənfəətə çatıb zərərdən amanda olmaq da insanın fitri istəyi olduğu üçün belə bir din barəsində tədqiqat aparmaq zəruridir. Qeyd olunan bu əqli dəlil şüurlu fəaliyyət barəsində olan xüsusi məntiqi təhlil əsasındadır. Əgər insani kamala çatmaq fitri bir istəkdirsə, ruhun təkamülü üçün mühüm şərtdən ibarət olan dünyagörüş prinsiplərini tanımaq da zəruri olacaqdır. Kamala çatmaq fitri bir istəkdir, deməli, həmin prinsipləri tanımaq zəruridir.

Bu meyl, özünün fitri yolunda cərəyan etdiyi təqdirdə insanın hər növ – həm maddi, həm də mənəvi təkamül və tərəqqisinin amili olmalıdır. Əgər insan müəyyən səbəb və şəraitlər nəticəsində düzgün olmayan yola düşsə riyakarlıq, təkəbbürlük və s. kimi rəzil sifətlərin özünü büruzə verməsinə səbəb olacaqdır.

Bir sözlə desək, təkamülə olan meyl insan ruhunun dərinliklərində olan güclü fitri bir amildir ki, əksər hallarda o, agahlıq ilə yanaşı diqqət mərkəzində olur, lakin azacıq diqqət yetirməklə onların hamısının əsasının "kamillik axtarmaq" olduğu məlum olur.

İNSANIN KAMİLLİYƏ ÇATMASI ƏQLİNƏ TABE OLMAQLA MÜMKÜNDÜR

Bitkilərin inkişaf edib təkamülə çatmaları xarici səbəb və şəraitlərin varlığına bağlı olub icbari xarakter daşıyır. Heç bir ağac öz ixtiyarı ilə inkişaf etmir və öz istəyi ilə meyvə vermir. Çünki onun şüur və iradəsi yoxdur.

Canlıların təkamülündə də az-çox iradə və seçim görmək olar. Amma bu iradə kor-koranə heyvani qərizədən qaynaqlanmaqla yanaşı, çox məhdud və təbii ehtiyaclar səviyyəsində olub heyvani hisslər və instinktlə məhdudlaşır.

Amma insan heyvanların və bitkilərin xüsusiyyətlərindən əlavə iki ruhi fərqə da malikdir. Əvvəla, onun fitri istəkləri təbii ehtiyaclarla hüdudlanmır, digər tərəfdən də əql qüvvəsinə malikdir ki, onun vasitəsilə məlumatlar dairəsini sonsuzluğa tərəf genişləndirə bilər. Məhz bu xüsusiyyətlər əsasında onun iradəsinin həddi-hüdudu təbiətin məhdud sərhədlərini aşır və sonsuzluğa doğru meyl edir.

Bitkinin təkamülünün xüsusi nəbati qüvvədən, heyvanın isə qərizə və hissi idraklardan qaynaqlanan iradə sayəsində olduğu kimi insanın xüsusi təkamülü də (onun ruhi təkamülü) agahlıq üzündən olan iradə, eləcə də istənilən və bəyənilən şeyin müxtəlif mərtəbələrini tanıyan və bir-biri ilə müqayisə etdikdə onların ən yaxşısına üstünlük verən əqlin yol göstərməsi sayəsində hasil olur.

Buna əsasən, o rəftar məhz insana məxsusdur ki, həmin rəftarı insana məxsus olan meyllərdən qaynaqlanan iradə və əqlin himayəsi altında baş vermiş olur. Heyvani məqsədlərlə yerinə yetirilən rəftarlar heyvani, eləcə də mexaniki qüvvələrin təsirindən insan bədənində vücuda gələn hərəkətlər isə sadəcə olaraq, fiziki hərəkətlər olacaqdır.

ƏQLİ FƏALİYYƏT NƏZƏRİ ƏSASLARA EHTİYACLIDIR

İxtiyar üzündən olan rəftar lazımi nəticəyə çatmaq üçün bir vasitədir. Həmin rəftarın dəyəri onun nəticəsinin və onun nəzərdə tutulan hədəfinin nə dərəcədə əhəmiyyətli olmasına bağlıdır. Bu ruhun təkamülündə təsir qoyur. Belə ki, əgər hər hansı rəftar bir müəyyən ruhi kamilliyin əldən verilməsinə səbəb olsa, mənfi dəyərə malik olacaqdır.

Deməli, əql ixtiyari rəftarlar barəsində o zaman mühakimə yürüdüb onları dəyərləndirə bilər ki, insan kamillikdən və onun mərtəbələrindən agah olsun, insanın necə bir varlıq olduğunu, onun həyat dairəsinin şüalarının hara qədər gedib çatdığını və kamilliyin hansı dərəcəsinə çata biləcəyini başa düşə bilsin. Başqa sözlə desək, onun vücudunun hansı imkanlara malik olduğunu və onun yaradılışında hədəfin nə olduğunu bilsin.

Buna əsasən düzgün ideologiyanın, yəni şüurlu davranışa hakim kəsilən dəyər sisteminin müəyyən olunması düzgün dünyagörüşə malik olmağa və onun məsələlərini həll etməyə bağlıdır. Bu məsələləri həll etməyincə rəftarların dəyəri barəsində qəti mühakimə yürütmək olmaz. Eləcə də hədəf məlum olunmayınca ona tərəf gedən yolun müəyyən olunması da mümkün deyildir. Deməli, dünyagörüşün əsas məsələlərini təşkil edən bu nəzəri mərifətlər həqiqətdə əqli fəaliyyətin və dəyər sisteminin əsasını, bünövrəsini təşkil edir.

NƏTİCƏ

Bu müqəddimələrə diqqət yetirməklə dinlə bağlı axtarış aparmaq, düzgün ideologiya və dünyagörüş əldə etmək üçün səy göstərməyin zəruri olmasını belə isbat edirik:

İnsan fitri olaraq özünün insani kamalını axtarır və müəyyən işləri yerinə yetirməklə həqiqi kamilliyə çatmaq istəyir. Amma hansı işlərin onu öz istədiyi hədəfinə yaxınlaşdırdığını bilməsi üçün ilk növbədə özünün son kamilliyini tanımalıdır. Onu tanıması isə öz vücudunun həqiqəti, onun mənşəyi və sonu haqqında mərifət kəsb etməsinə bağlıdır. Sonra kamalının müxtəlif mərtəbələrini və eləcə də müxtəlif əməllər arasında müsbət, yaxud mənfi rabitəni ayırd etməlidir ki, özünün insani təkamülü üçün düzgün olan yolu tapa bilsin. Bu nəzəri mərifətləri (dünyagörüş prinsiplərini) əldə etməyincə düzgün rəftar sistemini (ideologiyanı) qəbul edə bilməz.

Deməli, düzgün ideologiyaya və dünyagörüşə malik olan haqq din barədə mərifət kəsb etmək üçün çalışmaq zəruridir və bu iş olmadan insani kamilliyə çatmaq olmaz. Eləcə də şüurlu fəaliyyət belə nəzəriyyə və dəyərlərdən qaynaqlanmasa o, insani rəftar olmayacaqdır. Haqq din barədə mərifət kəsb etmək əzmində olmayanlar, yaxud onu tanıdıqdan sonra inadkarlıq edərək küfr yolunu seçənlər, həmçinin, özlərini yalnız ötəri maddi ləzzətlər və heyvani istəklərlə qane edənlər həqiqətdə heyvandırlar. Belə ki Qurani-kərim buyurur:

“Kafirlər (dünyada) səfa sürər, heyvan kimi yeyib içərlər.”[1]

Öz insani istedadlarını puç etdiklərinə görə dərdli cəzalara mübtəla olacaqlar:

“Qoy (kafirlər) hələ (istədikləri kimi) yeyib-içsinlər, (dünyadan) ləzzət alsınlar, arzuları-ümidləri başlarını qatsın. (Düçar olacaqları

[1] “Məhəmməd” surəsi, ayə 12.

müsibəti) sonra biləcəklər.”[1]

SUALLAR

1. Dinlə bağlı tədqiqat aparmağın zərurətinə dair ikinci dəlilin hansı məsələləri vardır?
2. İnsanın kamillikaxtarma hissini bəyan edin.
3. İnsanın əsas xüsusiyyətləri hansılardır?
4. Bu xüsusiyyətlərlə insanın həqiqi təkamülü arasında hansı əlaqə vardır?
5. İdeologiya hansı dünyagörüşə əsaslanır?
6. İkinci dəlilin məntiqi yolunu bəyan edin.

[1] “Hicr” surəsi, ayə 3.

DÖRDÜNCÜ DƏRS

ƏSASLI MƏSƏLƏLƏRİN HƏLLİ YOLU

–Müqəddimə
–Tanışlıq yolları
–Dünyagörüşün növləri
–Tənqidlər və araşdırmalar
–Nəticə

MÜQƏDDİMƏ

İnsan dünyagörüşün əsaslı məsələlərini həll etmək və haqq dinin əqidə prinsipləri ilə tanışolma məqamına gəldiyi vaxt ilk növbədə bu suallarla qarşılaşır: Bu məsələləri hansı yolla həll etməlidir? Səhih və əsaslı nəzəriyyəni hansı yolla əldə etmək lazımdır və ümumiyyətlə, tanışlıq üçün hansı yollar mövcuddur? Tanışlıq əldə etmək üçün bu yollardan hansını seçməlidir?

Bu mətləblərin ətraflı və peşəkar səviyyədə araşdırılması fəlsəfənin mərifətşünaslıq (epistimologiya) bölməsinin öhdəsinə düşür. O, insan tanışlığının (mərifətinin) müxtəlif növlərini araşdırıb müəyyən edir. Bu kitabda onların hamısının araşdırılması bizi öz hədəfimizdən yayındırar. Buna görə də ehtiyac duyulan mətləblərdən bəzilərini qeyd etməklə kifayətlənir və bu barədə ətraflı tədqiqat aparmağı oxucuların özünə həvalə edirik.[1]

MƏRİFƏTİN (TANIŞLIĞIN) NÖVLƏRİ

İnsan mərifətini dörd növə bölmək olar:

1.Elmi və təcrübi mərifət. Bu cür tanışlıq hiss orqanlarının köməyi ilə əldə olunur. Lakin hiss orqanları ilə yanaşı bu tanışlıqda əqlin də özünəməxsus rolu var. Təcrübi mərifət fizika, kimya və s. kimi elmlərdə istifadə olunur.

2.Əqli mərifət. Bu cür mərifət fəlsəfi məfhumlar vasitəsilə formalaşır və onun əldə olunmasında əsas rolu əql ifa edir. Amma bəzi hallarda deduksiyadan da istifadə olunması mümkündür. Bu mərifətin hüdudunu məntiq, fəlsəfi və riyazi elmlər təşkil edir.

3.Təəbbüdi mərifət. Bu ikincilik (sanəvi) yönünə malikdir və etimad olunan mənbəyin ilkin mərifəti əsasında olub və müxbiri-sadiqin (doğruçu, sadiq xəbərverənin) verdiyi xəbər vasitəsilə əldə olunur. Din ardıcıllarının dini rəhbərlərin sözləri əsasında qəbul etdikləri, bəzən də hiss və təcrübədən qaynaqlanan etiqadlardan qat-qat güclü olan etiqadi mətləblər bu qəbildəndir.

4.Şühudi mərifət. Bu növ mərifət yuxarıda qeyd olunan növlərin əksinə olaraq zehni məfhumların və surətlərin vasitəçiliyi olmadan və heç bir xəta və səhvə yol verilmədən birbaşa məlumun eyni zatına aid olur. Amma öz yerində izah ediləcəsi kimi irfani və şühudi mərifət adlanan bu şey həqiqətdə müşahidə olunan şeylər barəsində zehni bir mülahizədir. Səhvə və xətaya düşməsi mümkündür.[2]

---

[1] Əlavə məlumat almaq üçün "Amuzeşi fəlsəfə" kitabına və "Pastari əz əngarhayi ideolojik" kitabının "Şenaxt" məqaləsinə və "İdeolojiye tətbiqi" kitabının 5-16-cı dərslərinə müraciət edin.

[2] "Amuzeşi fəlsəfə" kitabının 13-cü dərsinə müraciət olunsun.

DÜNYAGÖRÜŞÜN NÖVLƏRİ

Mərifət barəsində qeyd olunan təsnifata əsasən dünyagörüşü də aşağıdakı növlərə bölmək olar:

1.Elmi dünyagörüş. Yəni, insan təcrübi elmlərin nailiyyətləri əsasında varlıq aləmi barəsində ümumi bir nəzər əldə etmiş olur.

2.Fəlsəfi dünyagörüş. Bu da əqlin səylər və elmi dəlillər vasitəsi ilə əldə etdiyi nəzəriyyəyə əsaslanır.

3.Dini dünyagörüş. Bu, din rəhbərlərinə iman gətirmək, onların sözlərini qəbul etməklə hasil olur.

4.İrfani dünyagörüş. Bu da kəşf, müşahidə və işraq yolu ilə hasil olur.

İndi bu dörd yolun hər birinin dünyagörüşün əsaslı məsələlərini həll edib-etməməsi və bu dörd yolun bir-birindən üstün olub-olmaması məsələsini araşdıraq.

TƏNQİD VƏ ARAŞDIRMALAR

Maddi və təbii varlıqlar və hadisələr çərçivəsində məhdud olan hissi və təcrübi mərifətə diqqət yetirməklə aydın olur ki, dünyagörüş prinsiplərini və onunla əlaqədar məsələləri təkcə təcrübi elmin nailiyyətləri əsasında tanıyıb həll etmək olmaz. Çünki bu kimi məsələlər təcrübi elmlərin hüdudları xaricindədir və heç bir təcrübi elm onların isbat və ya inkar olunması barəsində söz deməmişdir. Məsələn, Allahın varlığını laboratoriyalarda aparılan analiz və tədqiqatlar vasitəsilə isbat etmək, yaxud (nəuzu billah) inkar etmək olmaz. Çünki hissi təcrübə o qədər məhduddur ki, heç vaxt təbiətin fövqündə olan şeylərə yol tapa və maddi varlıqların və hadisələrin hüdudlarından xaricdə heç bir şeyi isbat, yaxud inkar edə bilməz.

Deməli, (əvvəldə qeyd olunan) elmi və təcrübi dünyagörüş ilğımdan başqa bir şey deyildir və onu tam mənada dünyagörüş adlandırmaq olmaz. Onu təkcə maddi aləmlə tanışlıq hesab etmək olar və bu cür mərifət dünyagörüşün əsaslı məsələlərinə cavab verə bilməz.

Amma təəbbüdi yollarla əldə olunan mərifət, qeyd olunduğu kimi, ikinci dərəcəli yönə malikdir və bu mərifət onun bir və ya bir neçə mənbəyinin etibarlı olmasının sübut olunmasından sonra gəlir. Yəni ilk növbədə bir şəxsin peyğəmbərliyi isbat olunmalıdır ki, onun sözləri mötəbər sayılsın. Bundan da əvvəl peyğəmbəri göndərənin, yəni Mütəal Allahın varlığı isbat olunmalıdır. Aydındır ki, peyğəmbəri göndərinin varlığını peyğəmbərə və həmçinin, peyğəmbərin peyğəmbərliyini onun sözlərinə istinad edərək isbat etmək olmaz. Məsələn, heç vaxt "Quran Allahın varlığı barədə bizə xəbər verdiyinə görə Onun varlığı bizim üçün isbat olunub" deyə bilmərik. Əlbəttə, Allahın vücudunun isbat olunmasından, İslam Peyğəmbəri (s) barədə mərifət kəsb edib onu tanıdıqdan və Quranın haqq olmasını bildikdən sonra füruiddini və digər əməli göstərişləri sadiq xəbərverənə və mötəbər mənbəyə istinadən qəbul etmək olar. Amma əsaslı məsələləri əvvəlcədən başqa bir yolla həll etmək lazımdır.

Deməli, təəbbüdi yol da dünyagörüşün əsaslı məsələlərini həll etmək üçün yetərli deyildir.

İrfani və işraqi üsluba gəldikdə isə çoxlu mülahizələr və məsələlər meydana gəlir:

Əvvəla: Dünyagörüş zehni məfhumlardan təşkil olunan bir mərifətdir. Lakin şühudda (müşahidə olunan şeylərdə) zehni məfhumlara yer yoxdur. Deməli, zehni məfhumların şühuda istinad edilməsi bir növ məcazi məna daşıyır və onların mənşəyi mülahizə olunur.

İkincisi: Müşahidə olunan şeylərin açıqlanması və onların məfhum və sözlər formasında bəyan edilməsi xüsusi zehni hazırlıq tələb edir ki, bu da əqli səylər və dərin fəlsəfi təhlillər olmadan mümkün deyildir. Belə hazırlığa malik olmayan şəxslər mütəşabih (oxşar) məfhumlar və sözlər işlədirlər ki, bu da inhirafa və azğınlığa düşməyin başlıca amilidir.

Üçüncüsü: Çox hallarda həqiqi mənada müşahidə edilən şey onun xəyali inikası ilə, eləcə də zehnin onlar barədə etdiyi açıqlama ilə, hətta müşahidə edən şəxsin özü belə səhvə yol verə bilər.

Dördüncüsü: Zehni açıqlanmanın dünyagörüş adlandırdığı həqiqətləri tapmaq uzun illər irfani seyr-süluk tələb edir. Əməli mərifət qəbilindən olan seyri-süluk üslubunu qəbul etməkdən qabaq dünyagörüşün əsaslı məsələləri və nəzəri əsasları mənimsənilməlidir. Deməli, seyri-süluka başlamazdan əvvəl bu məsələlər həll olunmalıdır, halbuki şühudi mərifət işin axırında hasil olur. Əsas etibarı ilə həqiqi irfan o kəslər üçün mümkün olur ki, Mütəal Allaha bəndəçilik yolunda sədaqətlə çalışsın. Belə səylər və çalışmalar da Mütəal Allahı, Ona bəndəçiliyi və itaət barəsində əvvəlcədən məlumat kəsb etməyi tələb edir.

NƏTİCƏ

Bu araşdırmadan belə nəticə alınır ki, dünyagörüşün əsaslı məsələlərini həll etmək üçün yol axtarmaq istəyən şəxsin qarşısında yeganə yol əql qüvvəsini işə salmaqdır. Buna görə də həqiqi dünyagörüşün fəlsəfi dünyagörüşdən ibarət olduğunu demək lazımdır.

Əlbəttə, diqqət yetirmək lazımdır ki, həmin məsələlərin həlli yolunun əql yolundan ibarət olduğunu, dünyagörüşün fəlsəfi dünyagörüşdən ibarət olduğunu deməyin mənası bu deyildir ki, düzgün dünyagörüşü əldə etmək üçün bütün fəlsəfi məsələləri həll etmək lazımdır. Hətta, bir neçə sadə fəlsəfi məsələnin həll olunması dünyagörüşün ən əsas məsələsi sayılan Allahın varlığını isbat etmək üçün kifayətdir. Baxmayaraq ki, bu cür məsələlərdə mütəxəssis olmaq, yaranan hər bir şübhə və iradla əlaqədar cavabvermə qüdrəti kəsb etməyin daha artıq fəlsəfi tədqiqata ehtiyacı vardır.

Həmçinin, əsaslı məsələlərin həll edilməsi üçün faydalı mərifətin əqli mərifətdə məhdudlanması bu demək deyildir ki, bu məsələlərin həll olunmasında başqa məlumatlardan əsla istifadə olunmasın. Əksinə, elmi

məsələlərin çoxunda hüzuri elm, yaxud hissi və təcrübi yolla əldə edilən müddəalardan istifadə etmək olar. Eləcə də ikinci dərəcəli məsələləri və fəri etiqadları (füruiddini) həll etmək üçün təəbbüdi mərifətdən istifadə etmək və onları kitab və sünnənin mövhtəvası əsasında (dinin mötəbər mənbələri) isbat etmək, nəhayət, düzgün dünyagörüş və ideologiya əldə etdikdən sonra seyri-süluk mərhələsini ötməklə mükaşifələrə və müşahidələrə çatmaq və əqli dəlillər vasitəsilə isbat olunan şeylərin çoxunu zehni məfhumların vasitəçiliyi olmadan dərk etmək olar.

SUALLAR

1.İnsani mərifətin növlərini və onların hər birinin həddini bəyan edin.
2.Neçə növ dünyagörüş təsəvvür olunur?
3.Dünyagörüşün əsaslı məsələlərini hansı yolla isbat etmək olar?
4.Elmi dünyagörüşü tənqid edib araşdırın.
5.Dünyagörüş məsələlərinin bəyan olunması üçün təcrübi mərifətdən necə istifadə etmək olar?
6.Əqidə məsələlərini isbat edərkən hansı hallarda təəbbüdi mərifətdən faydalanmaq olar?
7.İrfani dünyagörüş nədir? Dünyagörüşün əsaslı məsələlərini irfani şühud əsasında həll etmək olarmı? Niyə?

BEŞİNCİ DƏRS

ALLAHI TANIMAQ

–**Müqəddimə**
–Hüzuri və hüsuli mərifət
–Fitri mərifət

MÜQƏDDİMƏ

Qeyd olundu ki, dinin əsasını dünyanı yaradan Allahın varlığına etiqad təşkil edir, ilahi dünyagörüşlə maddi dünyagörüş arasında əsas fərq də məhz həmin etiqadın olması və ya olmamasıdır. Buna əsasən həqiqət axtaran şəxs üçün irəli çıxan və hər şeydən əvvəl düzgün cavab verilməsi lazım olan ilk məsələ "Allah vardır, ya yox?" sualıdır. Bu sualın cavabını tapmaq üçün, əvvəlki dərsdə bəyan olunduğu kimi, əql qüvvəsini işə salmaq lazımdır ki, qəti bir nəticə hasil olsun – istər mənfi nəticə olsun, istərsə də müsbət.

Nəticənin müsbət olduğu təqdirdə onun fəri məsələlərini (Allahın sifətləri, vəhdət, ədalət və s.) araşdırmağın növbəsi gəlib çatır. Nəticənin mənfi olduğu fərz olunduqda maddi dünyagörüş sübuta yetir və artıq dinlə əlaqədar başqa məsələlərin araşdırılmasına ehtiyac qalmır.

HÜZURİ VƏ HÜSULİ MƏRİFƏT

Mütəal Allah barəsində iki növ mərifət mövcuddur: hüzuri və hüsuli mərifət.

Allah barəsində **"hüzuri mərifət"** dedikdə insanın Allahı zehni məfhumların və heç bir yardımçı vasitənin köməyi olmadan batini idrak və qəlbi müşahidə ilə tanınması nəzərdə tutulur.

Aydındır ki, bir şəxs Allah barəsində agahlıq üzündən şühuda malik olsa, (belə ki, yüksək irfan mərtəbəsi bunu iddia edir) əqli bürhanlara və dəlillərə ehtiyac olmayacaqdır. Amma əvvəldə qeyd olunduğu kimi, belə hüzuri və şühudi elm[1] adi şəxslər üçün irfani seyri-süluk mərhələlərini ötüb ruhu aludəliklərdən, rəzil sifətlərdən paklandıqdan sonra müyəssər olur. Amma onun zəif mərtəbələrinin adi şəxslərdə də olmasına baxmayaraq, bu həmin şəxslərdə agahlıqla yanaşı olmur və buna görə də onlarda olan hüzuri elm agahlıq üzündən olan dünyagörüşü əldə etməyə kifayət etmir.

Hüsuli mərifət dedikdə isə məqsəd budur ki, insan müəyyən məfhumlar vasitəsilə, məsələn, yaradan, ehtiyacsız, hər şeyi bilən, hər şeyə qadir olan və s. kimi ümumi məfhumların vasitəsilə Mütəal Allah haqqında qaibanə mənada olan zehni bir mərifət tapır və belə bir varlığın olması "O **kəs ki, dünyanı yaradıb və..."** etiqadına malik olur. Daha sonra hasil olan digər mərifətləri ona əlavə edir ki, mütənasib etiqadi bir sistemə (dünyagörüşə) nail olsun.

Əqli tədqiqatlardan və fəlsəfi bürhanlardan birbaşa əldə olunan məlumat, elə hüsuli mərifətdir, lakin belə bir mərifət hasil olduğu zaman insan agahlıq üzündən olan hüzuri mərifət tapmaq fikrinə düşür.

---

[1] Əlbəttə, agahlıq üzündən belə bir şühuda malik olan müstəsna şəxslərin varlığını inkar etmək olmaz. Belə ki, bizim məsum rəhbərlərlə bağlı, etiqadımız budur ki, onlar uşaqlıqda da və hətta, bəziləri ana bətnində belə mərifətə malik olmuşlar.

FITRI MƏRIFƏT

Din rəhbərlərinin, ariflərin və hikmət sahiblərinin sözlərinin çoxunda aşağıdakı ifadələrlə rastlaşırıq: "Allahı tanımaq fitridir", "İnsan fitri olaraq Allahı tanıyır". Bu cümlələrin mənasını düzgün başa düşmək üçün fitrət kəlməsi barədə bir qədər izah verməyi lazım görürük.

Fitrət kəlməsi ərəb mənşəli söz olub "yaradılış növü" deməkdir. O işləri fitri (fitrətə məxsus olan) hesab etmək olar ki, hər hansı bir varlığın yaradılışı onları tələb etsin. Buna görə də onlar üçün üç xüsusiyyəti nəzərə almaq lazımdır:

1.Varlıqlardan hər bir növün fitri işləri həmin növün bütün fərdlərində mövcuddur, baxmayaraq ki, zəif və ya güclü olmaq baxımından fərqli ola bilər.

2.Fitri işlər bütün tarix boyu sabit olmuşdur. Hər hansı bir varlığın fitrətinin tarixin müəyyən dövründə xüsusi bir şeyi tələb etməsi, başqa dövrdə isə başqa bir şeyi tələb etməsi mümkün deyildir.[1]

3.Fitri işlər varlığın yaradılışının tələbi olduğundan onların öyrənib-öyrədilməyə ehtiyacı yoxdur, amma onlar gücləndirilib istiqamət verilməkdə yol göstərənə ehtiyaclı ola bilər.

İnsanın fitri işlərini iki qismə bölmək olar:

a) Fitri mərifətlər: Belə ki, hər bir insan təlimə ehtiyac olmadan onlardan bəhrələnir.

b) Fitri meyllər. Belə ki, bu hər bir fərdin yaradılışının tələbidir.

Deməli, əgər hər bir fərd üçün Allah barəsində sübut olunsa və öyrənib təlim görməyə ehtiyacı olmasa, onu **fitri allahşünaslıq** adlandırmaq olar. Əgər Allaha bir növ meyletmə və Ona pərəstişetmə hissi hər bir insanda tapılsa, onu **fitri allahpərəstlik** adlandırmaq olar.

İkinci dərsdə qeyd olundu ki, nəzər sahibləri və mütəxəssislərdən çoxu dinə və Allaha olan meyli insanın ruhi xüsusiyyətlərindən hesab edərək onu **dini hiss**, yaxud **dini atifə** adlandırmışlar. Bunu da əlavə edirik ki, Allah mərifəti də insan fitrətinin tələbi hesab edilmişdir. Amma Allaha pərəstiş fitrəti agahlıq üzündən olan meyl olmadığından Allahı tanımaq fitrəti də agahlıq üzündən olmayan mərifətdir. O mərifətdir ki, adi şəxsləri Mütəal Allahı tanımaq üçün əqli səylərdən ehtiyacsız edir.

Lakin unutmaq olmaz ki, hər bir fərd, heç olmazsa, fitri-hüzuri mərifətin zəif mərtəbəsindən bəhrələndiyindən azacıq fikir və istidlalla Allahın varlığını qəbul edə bilər. Tədricən agahsızlıq üzündən olan şühudi mərifəti gücləndirərək onu agahlıq mərtəbəsinə çatdıra bilər.

Bir sözlə, "Allah barəsində mərifət kəsb etmək fitridir", dedikdə mənası budur ki, insanın qəlbi (ruhu) Allahla tanışdır və ruhunun dərinliklərində agahlıq üzündən Allahı tanımaq üçün bir vasitə vardır ki, bu da inkişaf edib çiçəklənmək qabiliyyətinə malikdir. Amma bu fitri sərmayə adi insanlarda

[1] "Rum" surəsi, ayə:30

elə bir səviyyədə deyildir ki, onları əqli istidlal və təfəkkürdən tamamilə ehtiyacsız edə bilsin.

SUALLAR

1.Dünyagörüş məsələsinin əsası hansıdır? Onun əsas olması səbəbi nədir?
2.Mütəal Allah barəsində hüzuri və hüsuli mərifəti bəyan edin.
3.Hüzuri mərifəti əqli istdilal vasitəsilə əldə etmək olarmı? Niyə?
4.Hüsuli mərifət hüzuri mərifətlə bağlı hansı rolu ifadə edə bilər?
5.Fitrətin mənasını bəyan edin.
6.Fitri işlərin xüsusiyyətlərini söyləyin.
7.Fitri işlərin növlərini göstərin.
8.Hansı fitri iş Allaha aiddir?
9.Allahı fitri tanımağın nə olduğunu izah edin.
10.Allahı tanımaq fitrəti adi insanları əqli istidlaldan ehtiyacsız edirmi? Niyə?

ALTINCI DƏRS

ALLAHI TANIMAĞIN SADƏ YOLU

–Allahı tanımağın yolları
–Sadə yolun xüsusiyyətləri
–Tanış nişanələr

ALLAHI TANIMAĞIN YOLLARI

Mütəal Allahı tanımaq üçün çoxlu yollar mövcuddur ki, müxtəlif fəlsəfə və kəlam kitablarında, dini rəhbərlərin sözlərində, eləcə də asimani kitablarda onlara işarə edilmişdir. Bu dəlil və bürhanlar bir-biri ilə müxtəlif cəhətlərdən fərqlənirlər. Məsələn, onların bəzilərində hissi və təcrübi müqəddimələrdən istifadə olunur, halbuki digərləri sırf əqli müqəddimələrdən təşkil olunmuşdur. Bəziləri Həkim (hikmət sahibi) olan Allahı birbaşa isbat etmək məqsədi güdür, halbuki bəziləri yalnız varlığı başqa bir varlıqdan asılı olmayan bir vücudu (Vacibül-vücudu) isbat etmək istəyir. Onun sifətlərini tanımaq üçün başqa dəlillər gətirmək lazımdır.

Allahı tanımaq dəlillərini çayın üstündən keçmək üçün qoyulan müxtəlif körpülərə oxşatmaq olar, onların bəziləri çayın üzərinə salınan sadə taxta körpüdür ki, yüngül şeylər oradan asanlıqla keçərək tez bir zamanda öz məqsədinə çata bilər. Bəziləri isə ağır və uzun körpülərə bənzəyir ki, onların da möhkəmliyi daha artıqdır, lakin bunların yolu bir qədər uzaqdır. Bəziləri də əyri-üyri dəmir yolları kimi çoxlu yüksəkliyə, alçaqlığa, böyük tunellərə malikdir ki, ağır qatarların keçməsi üçün nəzərdə tutulmuşdur.

Sadə zehnə malik olan bir şəxs Allahı çox sadə yollarla tanıyaraq Ona bəndəçilik edə bilər. Amma üzərinə şübhələrdən ibarət olan ağır bir yük götürən şəxs daş körpüdən keçməlidir, nəhayət həddindən artıq şübhələr və vəsvəsələr yükünü daşıyan bir şəxs də çox möhkəm bünövrəsi olan yollardan keçməlidir, onun hətta çoxlu əyrilikləri, eniş-yoxuşları olsa da belə.

Biz, ilk növbədə, Allahı tanımağın sadə yolunu, sonra da orta səviyyəli yolu bəyan edəcəyik. Lakin çoxlu mürəkkəb fəlsəfi məsələlərin həll olunmasını tələb edən mürəkkəb yolları da o kəslər ötməlidir ki, onların zehnləri çoxlu şübhələrlə qarışmış olsun, yaxud şübhələri təmizləmək və yoldan azmış şəxslərə nicat vermək istəyində olsunlar.

SADƏ YOLUN XÜSUSİYYƏTLƏRİ

Allahı tanımağın sadə yolunun müəyyən imtiyaz (üstünlük) və xüsusiyyətləri vardır ki, onların ən mühümü aşağıdakılardır:

1.Bu yolun mürəkkəb və mütəxəssis səviyyəsində olan müqəddimələrə ehtiyacı yoxdur və bu barədə mümkün olan ən sadə bəyanı irəli çəkmək olar. Buna görə də məlumat səthinin hansı səviyyədə olmasından asılı olmayaraq bütün insanlar üçün dərk olunası bir tərzdədir.

2.Bu yol insanları birbaşa elmli, qüdrətli və yaradan Allaha doğru hidayət edir, amma bir çox fəlsəfi və kəlami bürhanlar bunların əksinədir. Belə ki, onlarda ilk növbədə Vacibül-vücud ünvanlı bir varlıq isbat edilir, onun qüdrət, hikmət, elm, xaliqiyyət, rübubiyyət və s. kimi digər sifətləri də başqa dəlillərlə isbat olunmalıdır.

3.Bu yol hər şeydən artıq fitrəti qəflətdən oyatmaq, fitri mərifəti agahlığa çatdırmaq rolunu ifa edir, ona diqqət yetirmək nəticəsində insanda irfani bir halət yaranır ki, sanki varlıqların yaradılıb idarə olunmasında Allahın qüdrətini - onun fitrətinə ilk əvvəldən tanış olan qüdrəti müşahidə edir.

Dini rəhbərlər və asimani dinlərin başçıları da bu yolu məhz adi kütlə üçün seçmiş, hamını bu yoldan istifadə etməyə dəvət etmişlər. Başqa üslubları isə ya xüsusi şəxslərə öyrətmiş, yaxud da maddi fəlsəfəçilər və dinsiz alimlərlə elmi mübahisə aparan zaman bundan istifadə etmişlər.

TANIŞ NİŞANƏLƏR

Allahı tanımağın sadə yolu Allahın kainatdakı nişanələri barədə dərindən fikirləşmək, Quranın təbiri ilə desək, "ilahi ayələrdə təfəkkür" etməkdən ibarətdir. Sanki yerdə, göydə və insanın varlığında olan hər şey tanış olan bir məqsədin nişanəsidir və qəlbin oxunu hər yerdə və həmişə hazır olan varlıq mərkəzinə doğru istiqamətləndirir.

Əlinizdəki kitab da Onun nişanələrindən biridir. Məgər onu oxumaqla agah və hədəfli bir yazıçı ilə tanış olmursunuzmu? Heç bu kitabın bir sıra hədəfsiz və maddi reaksiyalar nəticəsində yaranmış olmasını və onu yazanın da heç bir hədəfi olmamasını ehtimal edirsinizmi? Bir şəxsin bir neçə yüz cilddən ibarət olan ensiklopediyanın bir filiz mədənində baş verən partlayış nəticəsində yaranmasını güman etməsi səfehlik deyilmi?! Belə ki, onun zərrələri hərflər şəklinə düşmüş olsun, kağız parçaları ilə təsadüfi toqquşma zamanında yazıları vücuda gətirsin və sonra kağızlar təsadüfü olaraq tənzim olunub cildlənmiş olsun?!

Belə bir mürəkkəb aləmin, məlum və naməlum hikmət və sirlərlə dolu olan dünyanın təsadüf üzündən yaranmasını qəbul etmək yuxarıdakı təsəvvürdən də minlərlə dəfə gülüncdür!

Bəli, hər bir məqsədyönlü nizam onu icad edənin bir nişanəsidir və belə nəzmlər dünyanın hər yerində müşahidə olunur və onların hamısını ümumi bir nizamı təşkil edir. Bunu hikmətli yaradan vücuda gətirmiş və həmişə Onun Öz əli ilə idarə olunmuşdur.

Bağda mövcud olan və torpağın, gübrənin arasından cücərən rəngarəng ləçəklər və insanı məst edən ətrə malik gül budağı, kiçik bir dənədən yaranan və hər biri ləzzətli, ətirli və dadlı meyvələr verən alma ağacı, eləcə də müxtəlif şəkilli, rəngarəng ağaclar, gül budağının üstünə qonan bülbül, yumurtadan çıxaraq torpağı dimdikləyən cücə, təzə doğulub anasının döşünü tutan buzov, anasının döşündə onun üçün hazırlanmış süd - bunların hamısı Allahın qüdrət nişanələridir.

Doğrusu, körpənin doğuşu ilə eyni zamanda ananın döşündə südün yaranmasında nə qədər təəccüblü və insanı heyrətə gətirən uyğunluq vardır! Hər il kürü qoymaq üçün kilometrlərlə yolu ilk dəfə ötən balıqlar, öz yuvalarını çoxlu dəniz bitkiləri arasında tanıyan və heç vaxt səhv edərək başqasının yuvasına getməyən dəniz quşları, sübh tezdən öz yuvasından

çıxıb uzun-uzadı yollar qət etdikdən sonra ətirli güllərdən istifadə edərək gecələr öz yuvalarına qayıdan arılar və s. hamısı Allahın nişanələridir.

Daha maraqlısı budur ki, bal arısı, süd verən inək və qoyun özü üçün lazım olan miqdardan qat-qat artıq süd və bal istehsal edir ki, müstəsna və seçilmiş varlıq olan insan onlardan bəhrələnsin. Amma nankor insan özünün Nemət Sahibini tanımır, Onun haqqında yersiz mübahisələrə girişir!

Elə insan orqanizminin özündə olan bir çox hikmət, qüdrət nişanələri insanı heyrətə gətirir. İnsan bədəni bir-biri ilə tam uyğun və mütənasib olan "cihazlardan", hər cihazın tərkibi də özünə münasib olan əzalardan təşkil olunmuşdur. Hər bir üzv milyonlarla canlı və xüsusi hüceyrədən ibarətdir, halbuki onların hamısı vahid bir ana hüceyrədən əmələ gəlmişdir. Hər bir hüceyrənin müəyyən lazım olan maddədən təşkil olunması, hər bir hissəciyin bədənin ən münasib yerində qərar tutması, üzvlərin məqsədyönlü hərəkət və fəaliyyətləri, ağ ciyərin vasitəsilə oksigenin cəzb olunub qırmızı qan cisimcikləri vasitəsilə hüceyrələrə ötürülməsi, qara ciyərin vasitəsilə lazımi qədər şəkər hazırlanması, yeni hazırlanan hüceyrələr vasitəsilə xəsarət alan toxumaların bərpa olunması, ağ qan cisimcikləri vasitəsilə bədənə hücum edən yad cisimlər və mikroblarla mübarizə, bədənin həyat işlərinin tənzim olunmasında mühüm rolu ifa edən vəzilər vasitəsilə müxtəlif hormonların ifraz edilməsi və s. Bunların hamısı Allahın nişanələridir.[1] Minlərlə alimin uzun əsrlər boyu tədqiqat aparmasından sonra incəlikləri hələ də dəqiq şəkildə öyrənilə bilməyən bu qəribə quruluş kim tərəfindən yaradılmışdır? Hər bir hüceyrə kiçik, amma hədəfli bir sistemdir. Hüceyrələrdən təşkil olunan bir məcmu hüceyrələrə nisbətən daha böyük və məqsədyönlü sistem olan bir üzvü təşkil edir. Müxtəlif və mürəkkəb sistemlər məcmuəsi bədənin ümumi və müəyyən hədəfə malik olan sistemini təşkil edir. Amma iş bununla bitmir. Canlı və cansız varlıqlardan təşkil olunan və sayı-hesabı məlum olmayan sistemlər böyük və qeyri-sabit bir sistemi təşkil edir. Bu da "təbiət aləmi" adlanır ki, son dərəcə nəzm və vahid bir hikmət sayəsində idarə olunur.

«Budur Allah! Axı siz Ondan nə cür döndərilirsiz?»[2]

Aydındır ki, bəşərin elmi nə qədər irəliləsə, təbiət varlıqları arasındakı əlaqə və qanunlar nə qədər artıq kəşf olunsa yaradılışın hikmət və sirləri də bir o qədər aşkar olacaqdır. Bu sadə və aydın nişanələrə dərindən diqqət yetirmək aludə olmamış, günah çirkabına düşməmiş pak qəlblər üçün kifayətdir.

---

[1] Bu məsələ ilə daha artıq maraqlananlar aşağıdakı kitablara müraciət etsinlər: "Razi afərineşi insan", "İsbati vücudi Xuda, nişanəhayi u".

[2] "Ənam" surəsi, ayə:95

SUALLAR

1.Allahı tanımağın müxtəlif yollarını və onların xüsusiyyətlərini bəyan edin.

2.Allahı tanımağın sadə yolu hansıdır? Hansı xüsusiyyətlərə malikdir?

3.Varlıqların məqsədyönlü nişanələrinin bəyan edin.

4.Nəzm dəlilinin məntiqli şəklini bəyan edir.

YEDDİNCİ DƏRS

VACİBUL-VÜCUDUN İSBAT OLUNMASI

–Müqəddimə
–Bürhanın mətni
–İmkan və vücud
–İllət və məlul
–İllətlər sonsuzluğunun qeyri-mümkün olması
–Bürhanın bəyan edilməsi

MÜQƏDDİMƏ

Əvvəlki dərsdə qeyd etdik ki, ilahi filosoflar və kəlam alimləri (teoloqlar) Mütəal Allahın isbat olunması barəsində çoxlu dəlillər gətirmişlər ki, bunlar müfəssəl fəlsəfə və kəlam kitablarında qeyd olunmuşdur. Biz onların arasında daha az müqəddiməyə ehtiyac duyulan, eyni halda möhkəm bir dəlil və düşünüləsi sadə olan bir bürhanı seçmişik və onu izah edəcəyik. Lakin diqqət yetirmək lazımdır ki, bu bürhan Allahı yalnız Vacibul-vücud, yəni vücudu zəruri və yaradana ehtiyacı olmayan bir varlıq kimi isbat edir. Onun elm, qüdrət, cism olmamaq, zaman və məkana daxil olmamaq kimi xüsusiyyət və sifətləri başqa dəlillərlə sübut olunmalıdır.

BÜRHANIN MÖVZUSU

Mövcud (əqli fərz əsasında) ya Vacibul-vücuddur, ya da mümkünəl-vücud. Heç bir varlıq əqlən bu iki fərzdən xaric deyildir və varlıqların hamısını mümkünəl-vücud hesab etmək olmaz, çünki mümkünəl-vücudun illətə (səbəbə, yaradana) ehtiyacı vardır və əgər bütün illətlər də mümkünəl-vücud və öz növbəsində başqa illətə ehtiyaclı olsa heç bir vücudun yaranışı gerçəkləşməyəcəkdir. Başqa sözlə, illətlərin sonsuzluğa qədər getməsi qeyri-mümkündür. Deməli illətlər silsiləsi hökmən özü başqa bir varlığın məlulu olmayan, yəni Vacibul-vücud olan bir varlıqda sona çatmalıdır.

Bu bürhan Allahın isbat olunması üçün fəlsəfi dəlillərin ən sadəsidir. O, bir neçə sırf əqli müqəddimədən təşkil olunmuşdur və heç bir təcrübi və hissi müqəddiməyə ehtiyacı yoxdur. Lakin bu bürhanda fəlsəfi məfhum və istilahdan istifadə olunduğuna görə yuxarıdakı bürhanı təşkil edən bu müqəddimə və istilahların ətrafında bir qədər izahat veririk.

İMKAN VƏ VÜCUB

Nə qədər sadə olsa belə, hər bir hadisə iki əsas məfhumdan (mövzu və məhmul-obyekt və predikat) təşkil olunur. Məsələn, günəşin işıqlığının sübut olunmasına dəlalət edən "günəş işıqlıdır" hadisəsində "günəş" hadisənin mövzusu, "işıqlıdır" isə onun məhmulu hesab olunur.

Məhmulun mövzu üçün sübut olunması təkcə üç haldan ibarətdir: Ya qeyri-mümkündür (məsələn "üç dörddən böyükdür" kimi), yaxud zəruridir (iki dördün yarısıdır kimi), yaxud da nə qeyri-mümkündür, nə də zəruridir (məsələn, "bizim başımızın üstündə günəş vardır" kimi).

Məntiqi terminlərə uyğun olaraq birinci surətdə hadisə "imtina", ikinci surətdə "zərurət", yaxud "vücub", üçüncü surətdə isə "imkan" adları altında müəyyən olunur.

Fəlsəfədə mövcud (varlıq) barəsində söhbət olunduğundan və qeyri-mümkün olan şeyin heç bir xarici vücudu olmadığından filosoflar mövcudu əqli fərz əsasında Vacibul-vücud və mümkünül-vücud olaraq iki yerə bölürlər. Vacibul-vücud o varlıqdır ki, öz-özünə mövcud olsun və başqa bir

varlığa ehtiyacı olmasın. Təbiidir ki, belə bir varlıq əzəli və əbədi olacaqdır. Çünki hər hansı bir varlığın müəyyən zaman dövründə mövcud olmaması bunu göstərir ki, onun varlığı özündən deyildir və onun varlıq səhnəsinə gəlməsi üçün başqa bir varlığa ehtiyacı vardır ki, onun gerçəkləşməsinin səbəbi, yaxud şərtidir və onun olmaması ilə yoxa çevrilir. Mümkünül-vücud isə o varlığa deyilir ki, özündən olan vücudu yoxdur və onun vücuda gəlməsi başqa bir varlıqdan asılıdır.

Əqli fərz əsasında gerçəkləşən bu bölgü varlığı qeyri-mümkün olan şeyi zəruri olaraq inkar edir, lakin xarici varlıqlardan hər hansı birinin bu iki qismdən hansı birinin (vacibul-vücud və mümkünül-vücud) olmasına dəlalət etmir. Başqa sözlə desək, bu qəziyyənin (hadisənin) üç halda gerçəkləşməsi, yaxud tətbiq olunması təsəvvür olunur: 1.Hər bir varlıq Vacibül-vücud olsun, 2.Hər bir varlıq mümkünül-vücud olsun, 3.Varlıqlardan bəzisi vacib, bəzisi mümkün olsun.

Birinci və üçüncü fərziyyəyə əsasən Vacibul-vücudun varlığı sübuta yetir. Deməli, bu fərziyyəni araşdırmaq lazımdır ki, görəsən, bütün varlıqların mümkünül-vücud olması mümkündür, ya yox? Məhz bu fərzin batil edilməsi ilə Vacibul-vücudun varlığı qəti və yəqin surətdə sübuta yetir. Amma onun vahid olması, eləcə də digər sifətləri ayrı dəlillərlə sübut olunur.

İkinci fərziyyəni batil etmək üçün qeyd olunan bürhana digər bir müqəddimə də əlavə etmək lazımdır. O da bundan ibarətdir ki, bütün varlıqların mümkünül-vücud olması qeyri-mümkündür. Lakin bu müqəddimə bədihi (çox aşkar, məlum) olmadığından onu isbat edərək belə bəyan etmişlər: Mümkünül-vücudun səbəbə ehtiyacı vardır. Səbəblər sonsuzluğu isə qeyri-mümkündür. Deməli, səbəblər silsiləsi elə bir varlıqda sona çatmalıdır ki, o mümkünül-vücuda və başqa bir səbəbə ehtiyaclı olmasın, yəni Vacibul-vücud olsun. Buna görə də digər bir fəlsəfi məfhumdan istifadə olunur ki, onun barəsində bir qədər izahat verilməlidir.

SƏBƏB VƏ NƏTİCƏ

Əgər bir varlıq başqa bir varlığa ehtiyaclı olsa, yəni onun varlığı müəyyən bir şəkildə başqasına bağlı olsa, fəlsəfi terminologiyada ehtiyaclı varlığa "nəticə", digərinə isə "səbəb" deyilir. Amma hər hansı bir illətin mütləq şəkildə ehtiyacsız olmaması da mümkündür, yəni onun özü də ehtiyaclı və başqa bir məlula bağlı ola bilər. Amma əgər hər hansı bir illət heç bir növ ehtiyaclı və başqasının məlulu olmazsa, o mütləq illət və mütləq ehtiyacsız olacaqdır.

Fəlsəfədəki illət və nəticə termini və onların tərifi ilə tanış olduqdan sonra hər mümkünül-vücudun səbəbə ehtiyaclı olması ilə əlaqədar müqəddiməni araşdırırıq.

Mümkünül-vücudun vücudu özündən olmadığına görə hökmən onun varlığı başqa bir varlıq, yaxud varlıqların gerçəkləşməsi ilə şərtlənəcəkdir. Çünki aydın məsələdir ki, hər hansı bir mövzu üçün nəzərdə tutulan bir məhmul ya zatən (təbiətən, öz-özlüyündə) sabitdir, yaxud başqasının nəticəsində (bil-ğeyr) sabit olur. Məsələn, hər bir şey ya öz-özünə aydın və işıqlıdır, yaxud başqa bir şeyin (nurun) vasitəsilə işıqlanır. Hər bir maddə ya öz-özünə yağlıdır, ya başqa bir şeyin (yağın) vasitəsilə yağlı olur. Bir şeyin nə öz-özünə işıqlı və yağlı olması, nə də başqasının tərəfindən verilməklə bu iki sifətə malik olması olmadan eyni zamanda işıqlı və yağlı olması qeyri-mümkündür.

Deməli, bir mövzu üçün vücudun sübutu ya biz-zatdır, ya da bil-ğeyr. Biz-zat deyildirsə, hökmən bil-ğeyr olmalıdır. Buna əsasən öz-özünə vücudla sifətlənməyən hər bir mümkünül-vücud başqa bir varlığın səbəbi ilə vücuda gəlir və onun nəticəsi sayılır. Bu da "hər mümkünül-vücudun səbəbə ehtiyacı vardır" kimi təbir olunan danılmaz əqli prinsipdən ibarətdir.

Lakin bəziləri güman etmişlər ki, səbəbiyyət qanununun məfhumu bundan ibarətdir ki, "ümumiyyətlə hər bir mövcudun səbəbə ehtiyacı vardır" və buna əsasən irad tutub deyirlər ki, Allah üçün də bir illət nəzərdə tutmaq lazımdır! Halbuki səbəbiyyət (səbəb-nəticə) prinsipinin mövzusu mütləq şəkildə olan mövcud deyildir; onun mövzusu mümkünül-vücud və nəticədir. Başqa sözlə desək, hər bir ehtiyaclı və bir şeyə bağlı olan varlıq səbəbə ehtiyaclıdır, nəinki, ümumiyyətlə hər bir varlıq.

SƏBƏBLƏR SİLSİLƏSİNİN SONSUZ OLMASI QEYRİ-MÜMKÜNDÜR

Bu bürhanda istifadə olunan sonuncu müqəddimə bundan ibarətdir ki, səbəblər silsiləsi özü nəticə olmayan bir varlıqda sona çatmalıdır. Başqa sözlə desək, səbəblərin sonsuzluğa qədər davam etməsi qeyri-mümkündür. Buna görə də Vacibul-vücudun varlığı, vücudu özündən olan və başqa bir varlığa ehtiyacı olmayan ilkin səbəb kimi sübut olunur.

Filosoflar sonsuzluğa qədər gedən səbəblərin (səbəblər səbəbi) batil olmasını isbat etmək üçün çoxlu bürhanlar gətirmişlər, lakin həqiqət bundan ibarətdir ki, səbəblər barəsində sonsuzluğun batil olması təqribən aksiomadır (çox aşkardır, məlumdur) və azacıq təfəkkürlə aydın olur. Yəni nəticənin varlığının səbəbə ehtiyaclı olub onun vücudu ilə şərtləndiyinə diqqət yetirməklə bu nəticəlik və kauzallığın ümumi olmasını fərz etsək, heç vaxt heç bir mövcud gerçəkləşməyəcəkdir. Çünki bir-birindən asılı varlıqlar məcmuəsinin fərz edilməsi onların bağlandığı tərəfdə olan bir varlıq olmadan ağlasığan deyildir.

Fərz edin ki, müsabiqədə bir dəstə start xəttinin qarşısında dayanaraq qaçmağa hazırlaşırlar, lakin onlardan hər biri qərara alır ki, digəri qaçmayınca o da qaçmasın. Əgər bu qərar doğrudan da ümumi olsa, onlardan heç biri, heç vaxt qaçmağa başlamayacaqdır! Həmçinin, əgər hər bir varlığın vücudu digər bir varlığın vücudunun yaranmasına bağlı olsa, heç bir vaxt heç bir mövcud yaranmayacaqdır. Deməli, xarici varlıqların vücuda gəlməsi göstərir ki, ehtiyacsız və şərtlənməyən bir varlıq mövcuddur.

BÜRHANIN BƏYANI

Qeyd olunan müqəddimələrə diqqət yetirməklə bürhanı bəyan edirik:

Mövcud adlandırıla bilən şey iki haldan xaricdə deyildir: Ya vücud onun üçün zəruridir ki, öz-özünə mövcud olur və Vacibul-vücud adlanır, ya da onun vücudunun zərurəti yoxdur və başqa mövcuda bağlıdır və mümkünül-vücud adlanır. Aydındır ki, əgər hər hansı bir şeyin vücuda gəlməsi qeyri-mümkün olsa, heç vaxt vücuda gəlməyəcəkdir və onu heç vaxt mövcud hesab etmək olmaz. Deməli, hər bir mövcud ya Vacibul-vücuddur, ya da mümkünül-vücud.

Mümkünül-vücudun məfhumuna diqqət yetirməklə aydın olur ki, hər şey bu məfhumun nümunəsi olsa, nəticə sayılacaq və onun səbəbə ehtiyacı olacaqdır. Çünki əgər hər hansı bir mövcud öz-özlüyündə vücuda gəlməyibsə, hökmən başqa bir varlığın səbəbinə mövcud olmuşdur. Eləcə də zatən mövcud olmayan hər bir vəsfin isbatı bil-ğeyr olacaqdır. Səbəbiyyət qanununun məfhumu da bundan ibarətdir ki, hər bir **bağlı, asılı və mümkünül-vücudun** səbəbə ehtiyacı vardır, nəinki ümumiyyətlə hər bir mövcudun səbəbə ehtiyacı vardır ki, "Allahın da illətə ehtiyacı vardır", yaxud "səbəbsiz Allaha etiqad bəsləmək səbəbiyyət qanununu pozur" deyilərək irad tutulsun.

Digər tərəfdən, əgər bütün varlıqlar mümkünül-vücud və illətə ehtiyaclı olsa heç bir vaxt heç bir varlıq gerçəkləşməyəcəkdir. Bu ona oxşayır ki, bir qrupun üzvlərindən hər biri özünün işə başlamasını digərinin iş görməyə başlaması ilə şərtləndirsin ki, bu halda heç bir iş görülməyəcəkdir. Deməli, xarici varlıqların vücudu göstərir ki, Vacibul-vücud mövcuddur.

SUALLAR

1.İmkan və vücubun məntiqi və fəlsəfi mənasını bəyan edin.

2.Vacibul-vücud və mümkünül-vücudun tərifini deyin.

3.Varlığın Vacibul-vücud və mümkünül-vücud olaraq əqli bölüşdürülməsi neçə surətdə fərz olunur?

4.Səbəb və nəticənin tərifini deyin.

5.Səbəbiyyət qanununun məfhumu nədir?

6.Nə üçün hər bir mümkünül-vücudun səbəbə ehtiyacı var?

7.Səbəbiyyət qanunu Allahın da səbəbi olmasını tələb edirmi? Nə üçün?

8.Allahın heç bir yaradanın olmamasına etiqad bəsləmək səbəbiyyət qanununu pozurmu?

9.Səbəblərdə sonsuzluğun qeyri-mümkün olmasını izah edin.

10.Bu bürhanın məntiqi formasını bəyan edin və hansı mətləbi isbat etməsini dəqiq şəkildə izah edin.

SƏKKİZİNCİ DƏRS

ALLAHIN SİFƏTLƏRİ

–**Müqəddimə**
–Allahın əzəli və əbədi olması
–Səlbiyyə sifətləri
–Varlıq bağışlayan səbəb
–Varlıq bağışlayan səbəbin xüsusiyyətləri

MÜQƏDDİMƏ

Əvvəlki dərslərdə qeyd olundu ki, fəlsəfi bürhanlardan çoxunun məfhumu Vacibul-vücud ünvanlı bir varlığı isbat etməkdir və başqa bürhanların əlavə edilməsi ilə onun səlbiyyə və sübutiyyə sifətləri sübuta yetir. Onların məcmusundan Mütəal Allah Onu məxluqlardan seçən özünəməxsus sifətləri ilə məlum olur. Amma sırf şəkildə Vacibul-vücud olması Onu tanımaq üçün kifayət deyildir. Çünki bir şəxs, məsələn materiyanın (maddə və enerjinin) də Vacibul-vücudun nümunəsi olmasını güman edə bilər. Buna görə də bir tərəfdən Allahın səlbiyyə sifətləri sübut olunmalıdır ki, Vacibul-vücudun məxluqata məxsus olan sifətlərdən uzaq olması və onun məxluqlarından heç birinə tətbiq edilməməsi məlum olsun. Digər tərəfdən Allahın sübuti sifətləri isbat olunmalıdır ki, həm Onun pərəstişə layiq olması aydınlaşsın, həm də nübüvvət, məad və onların təfərrüatı kimi digər əqidə prinsiplərinin isbat olunmasına şərait yaransın.

Yuxarıda qeyd olunan bürhandan aydın oldu ki, Vacibul-vücudun səbəbə ehtiyacı yoxdur və o bütün mümkünül-vücudların səbəbidir. Başqa sözlə desək, Vacibul-vücud üçün iki sifət isbat olunur:

1.Onun hər hansı varlığa ehtiyacsız olması. Çünki əgər başqa bir varlığa azacıq belə ehtiyacı olsa həmin başqa varlıq onun illəti olacaqdır və bildiyimizə görə, fəlsəfi mənada səbəbin mənası budur ki, başqa varlıq ona ehtiyaclı olsun.

2.Mümkünül-vücud olan varlıqlar Onun (vacibul-vücud) məlulu və Ona ehtiyaclıdırlar. Bu da onların yaranması üçün ilkin səbəbdir.

Bu iki nəticədən istifadə edərək onlardan lazım gələnləri bəyan edir, Vacibul-vücudun səlbiyyə və sübutiyyə sifətlərini isbat edirik. Əlbəttə fəlsəfə və kəlam kitablarında onların hər birinin isbatına dair çoxlu bürhanlar qeyd olunmuşdur, lakin biz mətləbin mənimsənilməsinin asan olması, yığcamlığa riayət edilməsi və mətləblərin arasında bağlılığı nəzərə almaqla elə bürhanları seçmişik ki, onların yuxarıdakı bürhanla olan əlaqəsi saxlanılsın.

ALLAHIN ƏZƏLİ VƏ ƏBƏDİ OLMASI

Əgər hər hansı bir varlıq başqa bir varlığın nəticəsi olaraq ona ehtiyaclı olsa, vücudu onun (səbəbin) özünə tabe olacaqdır və illətinin aradan getməsi ilə vücudunu itirəcəkdir. Başqa sözlə desək, hər hansı bir zaman dövründə mövcudun yox olması (olmaması) onun ehtiyaclı və mümkünül-vücud olmasını göstərir. Vacibul-vücudun varlığı özündən olduğundan və heç bir varlığa ehtiyaclı olmadığı üçün həmişə mövcud olacaqdır.

Bununla da Vacibul-vücud üçün digər iki sifət isbat olunur: biri əzəli olmasıdır, yəni keçmiş heç bir dövrdə Onun üçün yoxluq təsəvvür olunmur, digəri isə əbədi olmasıdır, yəni o, gələcəkdə də heç vaxt yox olmayacaqdır. Bəzən bu iki sifətin cəmi "sərmədi" adı ilə bəyan olunur.

Buna əsasən əvvəllər yoxluğu, yaxud sonradan zavala uğraması mümkün olan bir varlıq Vacibul-vücud olmayacaqdır. Hər bir maddi varlığın Vacibul-vücud olması fərziyyəsinin batil olması da tamamilə aşkardır.

SƏLBİ SİFƏTLƏR

Vacibül-vücudun digər bir tələbi (zərurəti) Onun bəsit olması, cüzlərdən və hissələrdən təşkil olunmamasıdır, çünki hər bir mürəkkəb öz hissələrinə ehtiyaclıdır və Vacibül-vücudun isə heç bir şeyə ehtiyacı yoxdur.

Vacibül-vücudun hissələrinin həqiqətdə mövcud olmaması, hətta, bir xəttin üzərində nəzərdə tutulan iki xət parçası kimi olması fərziyyəsi də batildir. Çünki potensial hissələrə malik olan şey hərçənd xaricdə gerçəkləşməsə belə, əql baxımından analiz olunma qabiliyyətinə malik olacaqdır. Analizolunmanın mümkün olmasının mənası da ümuminin yoxluğa uğramasının mümkünlüyüdür. Belə ki, əgər birmetrlik xətt iki yarımmetrlik hissəyə bölünsə, artıq birmetrlik xətt mövcud olmayacaqdır. Əvvəllərdə qeyd olundu ki, Vacibül-vücudun yoxluğa uğraması mümkün deyildir.

Gerçəklik (bil-fel) və imkan (bil-qüvvə) səviyyəsində hissələrdən təşkilolunma cismlərin xüsusiyyətindən olduğundan heç bir cismani mövcudun Vacibül-vücud olmadığı aydın olur. Başqa sözlə desək, Mütəal Allahın mücərrəd olması və cismani olmaması sübuta yetir. Həmçinin aydın olur ki, Mütəal Allah gözlə görünüb, heç bir hiss orqanları ilə idrak oluna bilməz, çünki hissolunma cism və cismani olmağın xüsusiyyətlərindəndir.

Digər tərəfdən cism olmağı inkar etməklə məkana və zamana malik olmaq kimi cismin xüsusiyyətləri də Vacibül-vücuddan səlb olunur. Çünki məkan o şeylər üçün təsəvvür olunur ki, həcmə, enə, uzunluğa malik olsun. Zamana malik olan hər bir şey uzanma və zaman nöqteyi-nəzərindən bölünməyə qabildir və bu da bir növ imkan şəklində (bil-qüvvə) hissələrdən təşkil olunmaq hesab olunur. Buna əsasən Mütəal Allah üçün məkan və zaman təsəvvür etmək olmaz. Məkan və zamana malik olan varlıq da heç vaxt Vacibül-vücud olmayacaqdır.

Nəhayət, zamanın Vacibül-vücuddan inkar olunması hərəkət, dəyişiklik və təkamülü də ondan inkar edir, çünki heç bir hərəkət və dəyişiklik zaman və məkan olmadan mümkün deyildir.[1]

Buna əsasən Allah üçün ərş kimi bir yerin olduğuna inananlar, yaxud asimandan aşağı nazil olmağı Ona nisbət verənlər, yaxud Onun gözlə

[1] Allahın məkana malik olması, ərşdən aşağı nazil olması və gözlə görünməsi sünnilərdən bir qrupunun nəzəridir. Allahın dəyişikliyə və təkamülə məruz qalması da Hegel, Bergson, Vilyam Ceyms, Vaythed kimi qərb filosoflarından nəql olunmuşdur. Lakin bilmək lazımdır ki, Allahdan hərəkət və dəyişikliyin inkar olunması Onun üçün sükunəti isbat etmir, əksinə, bu Onun zatının sabit olması mənasındadır. Sabitlik də dəyişikliyin ziddidir. Amma sükunət, hərəkət xüsusiyyətinin olmamasıdır və hərəkət etməyə qabiliyyəti olan şeylərdən başqa heç nə onunla vəsf edilməz.

görünə bilməsinin mümkünlüyünü iddia edənlər, yaxud da Onun dəyişilib haldan-hala düşməsinə, təkamül etməsinə inananlar Allahı düzgün şəkildə tanımamışlar.

Ümumiyyətlə, hər cür çatışmazlıq, məhdudiyyət və ehtiyaca dəlalət edən məfhum Mütəal Allahdan uzaqdır. Allahın səlbi sifətlərinin mənası da məhz budur.

VARLIQ BƏXŞ EDƏN SƏBƏB

Qeyd olunan dəlildən əldə olunan ikinci nəticə budur ki, Vacibül-vücud mümkünlərin yaranış səbəbidir. İndi isə bu nəticənin zəruri olmasını araşdırırıq. Əvvəlcə səbəbin qismləri ilə bağlı bir qədər izahat verdikdən sonra ilahi səbəbiyyətin xüsusiyyətlərini bəyan edirik.

Səbəb özünün ümumi mənasında başqa bir şeyin bağlılıq tərəfi olan hər bir varlığa aid edilir, hətta şərtlərə və vasitələrə (müiddat) də səbəb deyilə bilər. Allah-taala üçün səbəb olmamasının mənası budur ki, başqa bir varlıqdan heç bir növ asılılığı yoxdur, hətta Onun üçün heç bir növ şərtiyyət və vasitəni də təsəvvür etmək olmaz.

Amma Allahın məxluqat üçün səbəb olmasına gəldikdə isə, bu, failin illiyyətinin xüsusi qismi olan varlıq bağışlamaq mənasınadır. Bu mətləbi izah etmək üçün səbəblərin qismlərini araşdırmalıyıq və onun müfəssəl izahı fəlsəfi kitablara həvalə olunur.

Bildiyimiz kimi, bitkinin cücərməsi üçün toxum, münasib torpaq, hava, su və s. kimi şeylərin olması zəruridir. Təbii bir amil, yaxud insan, toxumu torpağa səpməli və ona su verməlidir. Səbəb üçün qeyd olunan tərifə əsasən bunların hamısı bitkinin cücərməsinin səbəbləri hesab olunur.

Bu illətləri müxtəlif nəzərlərdən müəyyən qismlərə bölmək olar. Məsələn, varlıqları həmişə nəticəni vücudu üçün zəruri olan səbəblərə **həqiqi səbəblər,** qalmaqları nəticənin qalmağı üçün lazım olmayan digər səbəblər isə (bitki barəsində əkinçinin varlığı) vasitəli **səbəblər,** yaxud **muiddatlar** (vasitələr) adlandırılır. Eləcə də əvəz edilə bilən illətləri **əvəzolunan** səbəblər, başqa səbəbləri isə **əvəzolunmaz** səbəblər adlandırırlar.

Bir növ illət də vardır ki, bitkinin cücərməsi ilə əlaqədar deyilənlərin hamısı ilə fərqlənir və onun nümunəsini zehn və bəzi zehni varlıqlar barəsində mülahizə etmək olar. İnsan öz zehnində bir surəti yaradanda, yaxud hər hansı bir işi görməyi qərara alanda "**zehni surət"** deyilən ruhi və nəfsani iradə adlı bir varlıq gerçəkləşir ki, onun varlığı zehnin varlığına bağlı olduğuna görə də onun nəticəsi hesab olunur. Lakin bu növ nəticə elə bir şəkildədir ki, səbəbindən heç bir tərzdə ayrı və müstəqil, ondan ayrılıqda vücuda malik ola bilməz. Eyni halda, zehnin zehni surəti, yaxud iradə ilə əlaqədar failiyyəti müəyyən şərtlərə bağlıdır ki, onun nöqsanlı, məhdud və mümkünül-vücud olmasından irəli gəlir. Lakin varlıq aləmi üçün Vacibül-vücudun fail olması zehnin ruhi varlıqlarla əlaqədar olan failiyyətindən daha

yüksək və daha kamildir və sair faillərin arasında oxşarı, misli yoxdur. Çünki O öz nəticəsinə heç bir ehtiyacı olmadan onu yaradır, o nəticənin də bütün varlığı Ona bağlıdır.

VARLIQ BƏXŞ EDƏN SƏBƏBİN XÜSUSİYYƏTLƏRİ

Qeyd olunanlara diqqət yetirməklə varlıq bəxş edən səbəb üçün bir neçə mühüm xüsusiyyəti qeyd etmək olar:

1.Varlıq bəxş edən səbəb bütün nəticələrin kamallarına daha kamil şəkildə malik olmalıdır ki, hər bir varlığa onun tutumu qədərində əta edə bilsin. Amma maddi və vasitə olan səbəblər yalnız nəticənin dəyişikliyi üçün şərait yaradır, onların və öz nəticələrinin kamallarına malikolma zərurəti yoxdur. Məsələn, torpağın bitkinin kamalına malik olmasının, yaxud ata-ananın övladın kamalına malik olmasının zərurəti yoxdur. Amma varlıq bağışlayan Allah bəsit və bölünməz olduğu halda vücud kamallarının hamısına malik olmalıdır.[1]

2.Varlıq bəxş edən səbəb öz nəticəni yoxluqdan varlıq aləminə gətirir və başqa sözlə onu yaradır. Onu yartmaqla öz vücudundan heç bir şey azalmır. Amma təbii faillərdə iş tamamilə başqa cürdür. Onların işi mövcud nəticənin vəziyyətini dəyişdirmək, enerji və qüvvə sərf etməkdən ibarətdir. Vacibül-vücudun zatından hər hansı bir şeyin ayrılması fərz edilsə ilahi zatın dəyişilməsini və bölünməsini zəruri edir ki, bunun da batil bir şey olması sübut olundu.

3.Varlıq bəxş edən səbəb həqiqi səbəbdir. Buna görə də nəticənin qalması üçün onun varlığı zəruridir. Amma vasitə olan səbəblərdə nəticənin qalmasında onlara ehtiyac yoxdur.

Buna əsasən sünni mütəkəllimlərinin bəzilərindən nəql olunan "aləmin qalıb davam etməsində Allaha ehtiyacı yoxdur" kimi sözlər, eləcə də qərb filosoflarının bəzilərinin dediyi "təbiət aləmi bir dəfə həmişəlik üçün işə salınan olduğu üçün və artıq, Allahın idarə etməsinə ehtiyacı olmayan saata bənzəyir" kimi sözlər həqiqətdən çox-çox uzaqdır. Halbuki varlıq aləmi özünün bütün işlərində Mütəal Allaha ehtiyaclıdır, əgər bir anlığa varlıq əta etməsə, heç bir şeyin vücudu qalmaz.

SUALLAR

1.Allahın sifətlərini tanımağın nə kimi zərurəti var?

2.Keçən bürhandan hansı nəticələr əldə olunur?

3.Allahın sərmədi (əbədi və əzəli) olmasını isbat edin.

4.Allahın zatının bəsit olmsını, gerçəklik (bil-fel) və imkan şəklində (bil-qüvvə) hissələrdən təşkil olmamasını necə isbat etmək olar?

---

[1] Qeyd etmək lazımdır ki, məxluqatın kamallarına malik olmağın mənası, onların məfhumlarının (cism və insan məfhumu kimi) da Mütəal Allaha aid edilə bilməsi deyildir. Çünki bu kimi məfhumlar məhdud və nöqsanlı varlıqlardan ibarətdir və buna görə də sonsuz kamala və vücuda malik olan Mütəal Allaha aid edilə bilməz.

5.Allahın cismani olmamasının dəlili nədir?
6.Nə üçün Allahı görmək olmaz?
7.Hansı dəlilə əsasən Allahın zaman və məkana ehtiyacı yoxdur?
8.Hərəkət və sükunəti Allaha aid etmək olarmı? Niyə?
9.Səbəbin qismlərini bəyan edin.
10.Varlıq bağışlayan səbəbin xüsusiyyətlərini şərh edin.

DOQQUZUNCU DƏRS

ZATİ SİFƏTLƏR

–**Müqəddimə**
–Zati və feli sifətlər
–Zati sifətlərin isbatı
–Həyat
–Elm
–Qüdrət

MÜQƏDDİMƏ

Qeyd olundu ki, dünyaya varlıq bəxş edən səbəb – Mütəal Allah vücudun bütün kamallarına malikdir, həmçinin hər bir varlıqda mövcud olan hər növ kamal Onun tərəfindəndir və onu mövcudata, məxluqlara bəxş etməklə Öz kamalından heç nə əskilmir. Mətləbin daha yaxşı düşünülməsi üçün aşağıdakı misallardan istifadə etmək olar: Müəllim öz elmindən şagirdlərə öyrədir, amma onun elmindən heç nə azalmır. Əlbəttə, Mütəal Allah tərəfindən varlıq və vücud kamallarının verilməsi bu misallarla müqayisə olunmayacaq dərəcədə yüksəkdir. Bu barədə ən yaxşı cümlə bəlkə də bu ola bilər: Bütün varlıq aləmi Allahın müqəddəs Zatının nuru və cilvəsidir, belə ki, bu, aşağıdakı ayədən də bu məlum olur:

"Allah göylərin və yerin nurudur."[1]

Sonsuz ilahi kamallara diqqət yetirməklə kamala dəlalət edən və özündə heç bir nöqsan və məhdudiyyət daşımayan hər növ məfhum Allah-taalaya aid edilə bilər. Belə ki, Quran ayələrində, rəvayətlərdə və Məsumların (ə) münacatlarında nur, kamal, camal, məhəbbət, nuranilik və s. kimi məfhumlar Allah-taalaya aid edilir. Amma İslami kəlam, fəlsəfə və əqidə kitablarında "ilahi sifətlər" ünvanı ilə irəli çəkilənlər sifətlərin müəyyən qədəridir. Onlar zati və feli sifətlər olaraq iki yerə bölünür. Buna görə də əvvəlcə bu bölgü barəsində izahat verəcək, daha sonra onların ən mühümünü isbat edəcəyik.

ZATİ VƏ FELİ SİFƏTLƏR

Mütəal Allaha aid edilən sifətlər ya Allahın zatına aid olunan və Onun kamalına dəlalət edən həyat, elm, qüdrət kimi məfhumlardır. (Allahın) yaxud da xaliqiyyət və raziqiyyət kimi Mütəal Allahla Onun məxluqları arasında olan rabitədən irəli gələn məfhumlardır. Birinci qismə aid olan sifətlərə **zati sifətlər**, sonunculara isə **feli sifətlər** deyilir.

Bu iki qism sifətlər arasında əsaslı fərq bundan ibarətdir ki, birinci dəstədə Allahın müqəddəs Zatı ona aid olunan sifətlərlələ eynilik təşkil edir. Lakin ikinci dəstə sifətlər Mütəal Allah ilə məxluqat arasında əlaqədən irəli gəlir. Allahın zatı ilə məxluqatın zatı bu əlaqənin qarşılıqlı tərəfləri kimi nəzərə alınır. Məsələn, "xaliqiyyət" sifəti varlıq aləminin Allahın zatından olan asılılıqdan irəli gəlir və Allah və Onun məxluqatı bunun iki tərəfini təşkil edir. Allahın müqəddəs zatı və məxluqların zatı xaricində isə ayrılıqda yaratmaq adlı həqiqi bir şey mövcud deyildir. Əlbəttə, Mütəal Allah Öz zatında yaratmağa qüdrətlidir, lakin qüdrət Onun zat sifətidir, yaratmaq məfhumu isə əlavə bir məfhum olub fel məqamından irəli gəlir. Buna görə də "yaratmaq" feli-sifətlərdən sayılır. Amma yaratmağa qadir olmaq məsələsinə gəldikdə isə bu, qüdrət sifətinə qayıdır.

[1] "Nur" surəsi, ayə:35.

Allahın zati sifətlərinin ən mühümü həyat, elm və qüdrətdir. Eşitmək və görməyə gəldikdə isə əgər eşidilənlərə və görülənlərə alim olmaq, yaxud eşitmək və görməyə qadir olmaq nəzərə alınsa, bu halda eşitmək və görmək "əlim" və "qədir" sifətlərinə qayıdır. Əgər onlardan məqsəd fel olaraq eşitmək və görmək olsa, bu halda o, eşidən və görən Zatın eşidilməyə və görülməyə qabiliyyəti olan əşyalar arasındakı əlaqəsindən əldə olunur. Bu da feli-sifətlərdən sayılmalıdır. Belə ki, bəzən elm də həmin mənada işlədilir və "feli elm" adı ilə tanınır.

Bəzi mütəkəllimlər kəlam və iradəni də zati sifətlərdən hesab etmişlər ki, bu barədə sonralar söhbət olunacaq.

ZATİ SİFƏTLƏRİN İSBAT OLUNMASI

Allahın həyat, qüdrət və elmini isbat etməyin ən sadə yolu bundan ibarətdir ki, bu məfhumlar məxluqat barəsində işlədilən zaman onların kamallarından söhbət açır. Deməli, onların ən kamil mərhələsi varlıq bəxş edən səbəb kimi mövcud olmalıdır. Çünki hər bir məxluqda mövcud olan hər hansı kamal Mütəal Allahdandır və onu bəxş edən onlara malik olmalıdır ki, başqalarına əta edə bilsin. Həyatı yaradan bir şəxsin özünün ondan məhrum olması, yaxud məxluqata elm və qüdrət verən şəxsin özünün cahil və bacarıqsız olması qeyri-mümkündür. Deməli, bəzi məxluqlarda bu kimi kamal sifətlərinin olması onların Mütəal Allahda mövcud olmasını göstərir. Bunların heç birində nöqsan və məhdudiyyət yoxdur. Başqa sözlə desək, Mütəal Allah sonsuz həyata, elmə və qüdrətə malikdir. İndi isə bu sifətlərin hər biri barədə əlavə izahat veririk.

HƏYAT

Həyat (diri olmaq) məfhumu iki dəstə məxluq barəsində istifadə olunur: Biri inkişaf etmək qabiliyyətinə malik olan bitkilərdə, ikincisi isə şüur və iradəyə malik olan heyvan və insanda. Birinci məna naqisliyi və ehtiyacı tələb edir. Çünki inkişaf etmək inkişaf edən varlığın ilk əvvəldə kamaldan məhrum olmasını, xarici amillər nəticəsində onda müəyyən dəyişikliklərin yaranmasını və tədrici olaraq yeni kamal mərhələsinə çatmasını tələb edir. Səlbiyyə sifətlərdə qeyd olunduğu kimi, belə xüsusiyyətləri Allaha aid etmək olmaz. Amma həyatın ikinci mənası kamal məfhumudur, onun mümkün nümunələrinin nöqsan və məhdudiyyətlərlə yanaşı olmasına baxmayaraq, Onun üçün heç bir nöqsan, məhdudiyyət və ehtiyacın olmadığı sonsuz bir mərtəbə nəzərə almaq olar. Belə ki, kamalın və vücudun məfhumu da belədir.

Əsas etibarı ilə iradə üzündən olan failiyyət, elm ilə yanaşı olan həyat qeyri-maddi varlığın tələbidir. Çünki həyatın canlı maddi varlıqlara aid edilməsinə baxmayaraq, həqiqətdə isə bu, onların ruhunun sifətidir, bədənlər isə ruhla əlaqədar həmin xüsusiyyətlərə malik olurlar. Başqa sözlə desək, həcm cismlərin, cismani varlıqların tələbi olduğu kimi həyat da mücərrəd (qeyri-cismani) varlığın tələbidir. Bu mətləbə diqqət yetirməklə

Allahın diriliyinə başqa bir dəlil də tapılır və o da bundan ibarətdir: Allahın müqəddəs Zatı mücərrəd və qeyri-cismanidir. (Bu, keçən dərsdə isbat olundu.) Hər bir mücərrəd varlıq zatən həyata malikdir, deməli, Mütəal Allahın da zatən həyatı vardır.

ELM

Elmin məfhumu ən açıq-aşkar məfhumlardandır, lakin onun məxluqlar arasında mövcud nümunələri məhdud və nöqsanlıdır və bu xüsusiyyətlərlə Mütəal Allaha aid edilə bilməz. Amma qeyd olunduğu kimi əql bu kamal məfhumu üçün heç bir nöqsan və məhdudiyyəti olmayan, alimin zatı ilə eyniyyət təşkil edən müəyyən nümunələr nəzərə ala bilər, bu da Mütəal Allahın Zatının elmidir.

Allahın elmini müxtəlif yollarla isbat etmək olar. Onlardan biri zati sifətlərin isbat olunmasında qeyd olunan yoldur. Yəni məxluqların arasında elm mövcud oluduğuna görə onun ən kamil mərtəbəsi onları yaradanda mövcud olmalıdır.

Digər bir yol isə nəzm bürhanından istifadə etməkdir. Yəni, hər hansı bir varlıq nə qədər dəqiq nizam-intizama malik olsa onu yaradanın elm və biliyinin bir o qədər artıq olmasına dəlalət edəcəkdir. Belə ki, elmi bir kitab, yaxud gözəl şer kitabı, yaxud digər incəsənət əsəri onu yaradanın elm, zövq və məharətinə dəlalət edir. Heç bir aqil insan elmi, yaxud fəlsəfi bir kitabın nadan və savadsız şəxs tərəfindən yazılmasını iddia etməz. Elə isə bu böyük kəhkəşanın, mövcud olan heyrətli sirlər və qəribəliklərin elmsiz varlıq tərəfindən yaradılmasını necə ehtimal vermək olar?!

Üçüncü yol isə nəzəri-fəlsəfi (yəni qeyri-bədihi) müqəddimələrdən istifadə etməkdir. Misal üçün bu fəlsəfi qaydanı qeyd etmək olar: "Hər bir müstəqil mücərrəd varlığın elmi vardır." Bu məsələ əlaqədar kitablarda isbat olunmuşdur.

Allahın elminə diqqət yetirmək insanın özünü və ruhunu saflaşdırmasında çox mühüm rol ifa edir. Buna görə də Qurani-kərim təkrar-təkrar və təkidlə buyurur:

"Allah xəyanətkar gözlərdən və qəlblərin gizlətdiyi şeylərdən agahdır."[1]

QÜDRƏT

Öz iş və fəaliyyətini iradə və ixtiyar üzündən görən hər bir fail barəsində deyilir ki, "özünün gördüyü işlərə qüdrəti çatır". Deməli, qüdrət faili-muxtarın (ixtiyar sahibi olan failin), ondan baş verməsi mümkün olan iş üçün başlanğıc (məbdəiyyət) olmasından ibarətdir. Vücudi mərtəbə baxımından fail nə qədər kamil olsa, bir o qədər artıq qüdrətə malik

[1] "Mumin" surəsi, ayə:19.

olacaqdır. Təbiidir ki, sonsuz kamala malik olan varlığın qüdrəti də sonsuz olacaqdır.

"Həqiqətən Allah hər bir şeyə qadirdir."[1]

Burada bir neçə məsələni xatırlatmaq lazımdır:

1.Qüdrətin aid olduğu bir işin gerçəkləşməsi mümkün olmalıdır. Deməli, qüdrəti zatən qeyri-mümkün olan, yaxud qeyri-mümkün olmayan, amma öz ardınca qeyri-mümkün bir işi gətirən şeyə aid etmək olmaz. Allahın hər bir işə qadir olmasının mənası bu deyildir ki, misal üçün Özü kimi başqa bir Allah da yaratsın (çünki Allah yaradılası deyildir), yaxud iki ədədini üç ədədindən böyük etsin, yaxud övladı, övlad olmaq məqsədi ilə atasından qabaq xəlq etsin.

2.Hər bir işə qadir olmaq onların hamısını yerinə yetirilməsini tələb etmir. Əksinə istədiyi hər işi görə bilməyi nəzərdə tutur. Hikmətli Allah da layiqli və hikmətli işlərdən başqa heç nə istəməz və heç bir iş görməz. Halbuki, Onun xoşagəlməz və çirkin işlər görməyə qüdrəti vardır. (Gələcək dərslərdə ilahi hikmət barəsində artıq izahat veriləcəkdir.)

3.Qüdrət özünün qeyd olunan mənası ilə yanaşı, ixtiyara da malikdir. Mütəal Allah ən yüksək qüdrətə malik olduğu kimi ixtiyarın da ən yüksək, kamil mərhələsinə malikdir. Heç bir amil Onu bir işi görmək ilə əlaqədar təzyiqə məruz qoya, yaxud ixtiyarı Ondan ala bilməz. Çünki hər bir varlığın vücudu və qüdrəti məhz Ondandır və Özünün başqalarına verdiyi qüdrətlər qarşısında heç vaxt məğlub olmaz.

SUALLAR

1.Hansı məfhumları Mütəal Allah barəsində işlətmək olar?
2.Zati və feli sifətlərin tərifini deyib onların fərqini göstərin.
3.Zati sifətlərin isbat olunmasının ümumi yolu hansılardır?
4.Həyat hansı mənada işlənir və onun hansı mənası Allaha aid edilə bilər?
5.Allahın diri olmasına dair xüsusi dəlili qeyd edin.
6.Allahın elmini üç yolla isbat edin.
7.Qüdrətin məfhumunu bəyan edin və Allahın sonsuz qüdrətini isbat edin.
8.Hansı işlər qüdrət dairəsində ola bilməz?
9.Nə üçün Allah çirkin və yaramaz işləri görməz?
10.Mütəal Allahın ixtiyar sahibi olmasını bəyan edin.

[1] "Bəqərə" surəsi, 20-ci və başqa ayələr.

ONUNCU DƏRS

FELİ SİFƏTLƏR

–**Müqəddimə**
–Xaliqiyyət
–Rübubiyyət
–Üluhiyyət

MÜQƏDDİMƏ

Əvvəlki dərsdə qeyd olunduğu kimi, feli sifətlər Allahın müqəddəs Zatının Onun məxluqları ilə müqayisə olunması zamanı nisbət və xüsusi rabitəni nəzərə almaqla Ona aid olunan məfhumlardan ibarətdir ki, yaradan və yaradılan bu əlaqənin iki tərəfini təşkil edir. Yəni, yaratmaq məfhumunun özü məxluqatın vücudunun Mütəal Allaha bağlılığını mülahizə etməklə əldə olunur. Əgər bu bağlılıq nəzərə alınmasa, heç vaxt belə bir məfhum əldə oluna bilməz.

Allah ilə məxluqların arasında nəzərdə tutulan izafələr və rabitələrin həddi-hüdudu yoxdur, lakin bir baxımdan onları iki ümumi qismə bölmək olar: Birinci qism birbaşa Allah ilə məxluqatın arasında nəzərə alınan əlaqələrdir, o cümlədən, icad etmək, xəlq etmək və s. Amma digər əlaqələr başqa rabitə və əlaqələri nəzərə aldıqdan sonra əldə olunur. Məsələn, ruzi vermək. Çünki əvvəlcə ruzi yeyəni onun qidalandığı şey ilə birlikdə nəzərə aldıqdan sonra Allah tərəfindən onun təmin olunması diqqət mərkəzində saxlanılmalıdır ki, "raziq" və "rəzzaq" kimi məfhumlar alınsın. Hətta mümkündür ki, bəzən Mütəal Allaha bir feli sifət aid olunmazdan qabaq məxluqlar arasında bir neçə rabitə və əlaqə növü nəzərə alınsın, yaxud Allah ilə məxluq arasında əvvəlcədən olan bir neçə əlaqə nəzərə alındıqdan sonra onların Allah ilə olan rabitəsi nəzərə alınsın. Məsələn, məğfirət (bağışlamaq) Allah tərəfindən təklifi (vacib) hökmlərin təyin edilməsi, Onun hüquqi rübubiyyəti və bəndələrin bu hökmlər qarşısında itaətsizlik etməsi nəticəsində yaranır.

Bir sözlə, feli sifətləri əldə etmək üçün Mütəal Allahla məxluqlar arasında müqayisə aparılmalı, yaradan ilə yaranan arasında bir növ rabitə və əlaqə nəzərə alınmalıdır ki, əlaqənin iki tərəfi ilə vücuda gələn mütəzayif məfhum əldə olunsun. Buna görə də Allahın müqəddəs Zatı öz-özünə və bu nisbət və əlaqələri nəzərə almadan feli sifətlərin ayrı-ayrı nümunələri meydana gələcəkdir. Zati və feli sifətlər arasında əsaslı fərq də məhz bundan ibarətdir.

Əlbəttə, əvvəllər qeyd edildiyi kimi, feli sifətlərin, onların mənşəyini nəzərə almaqla zati sifətlərə qaytarılması da mümkündür. Belə ki, əgər xaliq, yaxud xəllaq "yarada bilən şəxs" kimi nəzərdə tutulsa qüdrət sifətinə qayıdır, yaxud səmi (eşidən) və bəsir (görən) sifətləri əgər "eşidilənlərə və görünənlərə alim olmaq" mənasınadırsa, elm mənasına qayıdır.

Digər tərəfdən, zati sifətlərdən hesab oluna bilən məfhumlardan bəzilərinin əlavə və feli mənada olması da mümkündür, bu surətdə feli sifətlərdən hesab olunacaqdır. Belə ki, elmin məfhumu Qurani-kərimin çox

yerlərində feli sifət formasında işlədilmişdir.[1]

Qeyd olunmalı mühüm məsələ bundan ibarətdir ki, Mütəal Allahla maddi varlıqlar arasındakı rabitə nəzərə alınan və bunun əsasında Allah üçün xüsusi feli sifətlər müəyyən olunan zaman qeyd olunan sifətin əlaqənin bir tərəfini təşkil edən maddi varlıqlara aid olan təqdirdə, zaman və məkan məfhumları da qeydə alınır. Halbuki, həmin sifətlər bu əlaqəni digər tərəfi olan Allaha aid edilərkən zaman bu cür qeyd və şərt hüdudlarından uzaq olur. Məsələn, ruzi yeyən bir varlığa ruzi verilməsi xüsusi zaman və məkan daxilində baş verir. Amma bu, həqiqətdə ruzi verənə deyil, ruzi yeyən varlıqla əlaqədardır, Allahın müqəddəs Zatı hər növ zaman və məkan qeydlərindən uzaqdır.

Bu mühüm məsələ Allahın fel və sifətlərini tanımaqla əlaqədar mühəqqiqlər arasında yaranan şiddətli ixtilafları və çoxlu çətinlikləri həll edə bilər.

XALİQİYYƏT

Vacibül-vücudun mümkünül-vücudların yaranışı üçün ilkin səbəb ünvanı ilə isbat edilməsindən sonra onların hamısının öz varlığında Allaha ehtiyaclı olmalarını nəzərə almaqla Vacibül-vücuda **"xaliqiyyət"**, mümkünlərə **"məxluqiyyət"** sifəti mənsub edilir. Bu vücudi rabitə əsasında əldə olunan xaliq məfhumu icad edən və varlıq bağışlayan illətlə bərabərdir. Ehtiyaclı və mümkün varlıqların hamısı onun əlaqəsinin bir tərəfində olub məxluqiyyət sifəti adı ilə müəyyən olunur.

Lakin bəzən xəlq etmək kəlməsi daha məhdud mənada işlənərək yalnız əvəlki maddədən vücuda gələn və onun əlaqədar olduğu tərəf mövqeyində dayanan varlıqlara aid edilir. Bunun müqabilində ibda məfhumu durur ki, ilkin maddədən yaranmayan (məsbuq olmayan) varlıqlarda işlənir (mücərrədlər və ilkin maddə). Beləliklə, icad etmək xəlq və ibda olaraq iki yerə bölünür.

Allahın xəlq etməsi insanların əşyalardan istifadə edib ondan müxtəlif şeylər hazırlaması mənasına deyildir ki, bədənin hərəkət edib işləməsinə ehtiyac duyulsun və hərəkət "fel", ondan hasil olan varlıq isə "felin nəticəsi" kimi cilvələnsin və nəticədə yaratmaq yaradılmışla fərqlənsin. Çünki Mütəal Allah cism və cismani varlıqların xüsusiyyətlərindən və hərəkətlərindən pak olmaqdan əlavə, əgər Allahın yaratmağı yaradılanın zatına olunan əlavə olsaydı, mümkünül-vücuddan və Allahın məxluqatından olan bir varlıq hesab olunacaqdı. Deməli, feli sifətlərin tərifində deyildiyi kimi, bu cür sifətlər Allah və məxluqların arasında nisbət və sifətlərdən əldə olunan məfhumlardır, yəni əlavə və nisbət əqlin mülahizəsinə bağlıdır.

---

[1] "Bəqərə" surəsi, ayə:187 və 235, "Ənfal" surəsi, ayə:66, "Fəth" surəsi, ayə:18 və 27, "Ali-İmran surəsi, ayə 140 və 142, "Maidə" surəsi, ayə:94, "Tövbə" surəsi, ayə:16, "Məhəmməd" surəsi, ayə:31.

RÜBUBİYYƏT

Allah ilə məxluqlar arasında mülahizə olunan əlaqələrdən biri də budur ki, məxluqlar təkcə vücudun əslində və yaradılışlarında Allaha ehtiyaclı deyillər, həm də onların vücudi işlərinin hamısı Mütəal Allaha bağlıdır, onların heç bir növ müstəqillikləri yoxdur, Allah onlarda istədiyi kimi təsərrüf və onların işlərini idarə edir.

Bu əlaqəni ümumi tərzdə nəzərə alsaq, bundan **"rübubiyyət"** məfhumu irəli gəlir. Rübubiyyət bütün işlərdə tədbir tələb edir. O cümlədən, qoruyub saxlamaq, həyat vermək, öldürmək, ruzi vermək, inkişaf etdirib kamala çatdırmaq, yol göstərmək, əmr və nəhy etmək və s. qeyd etmək olar.

Rübubiyyətin müxtəlif işlərini iki ümumi dəstəyə bölmək olar:

1.Təkvini rübubiyyət. Bu bütün varlıqların işlərinin idarə edilməsinə, ehtiyaclarının təminatına bir sözlə, kainatın idarə olunmasına aid edilir.

2.Təşrii (hüquqi) rübubiyyət. Bu, şüurlu və ixtiyar sahibi olan varlıqlara aid olub, peyğəmbərlər göndərmək, asimani kitablar nazil etmək, təklif və vəzifələri təyin etmək, hökm və qanunlar yaratmaq kimi işlərə şamildir.

Allahın mütləq rübubiyyətinin mənası budur ki, məxluqlar hər bir vücudi işdə Mütəal Allaha bağlıdırlar. Bir-birinə olan bağlılıqlar da axırda Ona bağlılıqla nəticələnir. Məxluqların bəzilərini digərlərinin vasitəsilə idarə edən, canlıları Özünün yaratdığı ruzi ilə qidalandırıb təmin edən məhz Odur. O, şüurlu varlıqları həm batini vasitələrlə (əql və s. kimi idrak qüvvələri), həm də xarici vasitələrlə (peyğəmbərlər və asimani kitablar) hidayət edir, mükəlləflər üçün hökmlər və qanunlar yaradır və vəzifələr müəyyən edir.

Xaliqiyyət kimi, rübubiyyət də əlaqəli bir məfhumdur. Fərqləri bundan ibarətdir ki, onun (rübubiyyətin) müxtəlif hallarında məxluqatın özləri arasında da xüsusi bir əlaqə nəzərə alınır. (Belə ki, bu, rəzzaqiyyət barəsində deyildi.)

Xaliqiyyət və rübubiyyət məfhumlarına və onların əlaqəli olmasına diqqət yetirməklə aydın olur ki, bu ikisinin arasında zərurət vardır və aləmin Rəbbinin onun Xaliqindən başqası olması qeyri-mümkündür, yəni məxluqları xas səciyyələrlə bir-birinə bağlı yaradan elə onları qoruyub idarə də edir. Həqiqətdə rübubiyyət və tədbirin mənası məxluqatın yaradılışı və onların arasında bağlılığın necəliyindən irəli gəlir.

ÜLUHİYYƏT

"İlah" və **"üluhiyyət"**in mənaları barədə nəzər sahibləri və mütəxəssislər arasında çoxlu mübahisələr baş vermişdir ki, bunlar da təfsir kitablarında qeydə alınmışdır. Bizim nəzərimizə görə, onun ən yaxşı mənası budur ki, "ilah" pərəstişedilmə, yaxud ibadət və itaətə layiqolma mənasınadır. Necə ki, onunla eyni vəzndə olan "kitab"ın mənası "yazmaq və yazmağa layiq olan bir şey"dir.

Bu mənaya uyğun olaraq üluhiyyət elə bir sifətdir ki, onun həqiqətini müəyyən etməkdən ötrü bəndələrin itaət və ibadətini də nəzərə almaq lazımdır. Baxmayaraq ki, yolunu azanlar batil və puç məbudları özlərinə ilah seçmişlər, amma itaət və ibadət olunmağa ləyaqəti olan Kəs məhz onların Xaliqi və Rəbbidir. Bu da hər bir şəxsin Mütəal Allah barəsində malik olduğu etiqadın meyarıdır. Yəni Allah-taalanı Vacibül-vücud, dünyanın ixtiyar sahibi, idarə edəni və yaradanı hesab etməkdən əlavə Onu ibadət və itaət olunmağa layiqli də bilməlidir. Ona görə də bu məfhum İslamın şüarı olan "La ilahə illəllah"da əxz edilmişdir.

SUALLAR

1.Zati və feli sifətlərin qarşılıqlı əlaqəsini və onların bir-birinə necə qayıtmasını bəyan edin.

2.Hansı əsasa görə feli sifətlər zaman və məkan qeydləri ilə yanaşı olur?

3.Xaliqiyyətin məfhumunu şərh edin və onun xəlq və ibda ilə olan fərqini deyin.

4.Nə üçün "yaratmaq" üçün məxluqatın zatlarından ayrı olan eyni nümunələri nəzərə almaq olmaz?

5.Rübubiyyətin məfhumunu bəyan edin.

6.Rübubiyyətin qismlərini sadalayın.

7.Xaliqiyyətlə rübubiyyət arasındakı zərurəti bəyan edin.

8.Üluhiyyətin məfhumunu və onun xaliqiyyət və rübubiyyətlə olan zərurətini bəyan edin.

ON BİRİNCİ DƏRS

DİGƏR FELİ SİFƏTLƏR

–Müqəddimə
–İradə
–Hikmət
–Kəlam
–Sidq (doğruçuluq)

MÜQƏDDİMƏ

Kəlam elmində münaqişəli məsələlərdən biri də ilahi iradə məsələsidir. Bu barədə bir çox cəhətlərdən, məsələn, "iradə zati sifətdir, yoxsa feli sifət", yaxud "qədimdir, ya yeni?", "vahiddir, yoxsa çoxdur?" deyə ixtilaf və mübahisə yaranmışdır. Bütün bunlar fəlsəfədə iradə, xüsusilə ilahi iradə barədə aparılan bəhslərdən ayrıdır.

Aydındır ki, indiki mövzu barədə geniş bəhs bu kitaba sığmaz. Ona görə də əvvəlcə iradənin məfhumu haqqında şərh verir, daha sonra ilahi iradə ətrafında qısa söhbətə başlayırıq.

İRADƏ

Camaat arasında "iradə" kəlməsi iki mənada işlədilir: biri sevmək, digəri isə işi görmək üçün qərara gəlmək.

Birinci mənası işlənmə baxımından çox geniş yayılmışdır. Həm xarici əşyaları, həm şəxsin öz işlərini, həm də başqalarının işlərini sevməyə deyilir.[1] Amma ikinci mənası yalnız şəxsin öz işlərilə bağlı işlədilir.

İnsan barəsində iradənin birinci mənasının (məhəbbət, istəmək) nəfsani səciyyələr və nəfsin zahiri xüsusiyyətlərindən olmasına baxmayaraq, əql onun nöqsanlı cəhətlərini təcrid etməklə cövhəri (əsli, mahiyyəti olan) varlıqlara, hətta Mütəal Allaha belə aid edilə bilən ümumi bir məfhum əldə edə bilər. Belə ki, elm barəsində də həmin işi görür. Buna görə də Allahın Öz Zatına nisbət verdiyi məhəbbətə aid edilən "hübb" kəlməsi zati sifətlərdən biri hesab olunur. Əgər "ilahi iradə" dedikdə məqsəd kamalı sevmək olsa (belə ki, ilk mərtəbədə sonsuz ilahi kamala aid olur. Sonrakı mərtəbələrdə digər varlıqların kamallarına aid edilir), məhz Onun kamalının əsərləri olduğuna görə bunu zati, qədim, vahid sifətlərdən və Müqəddəs Zatının eyni hesab etmək olar.

Amma bir işi görmək üçün qərara gəlmək mənasında olan iradə, şübhəsiz, feli sifətlərdəndir. Hadis (yeni) və yaranan işə aid olması baxımından zamanla şərtlənməyə qabildir. Buna Quranda da rast gəlmək olur.[2] Lakin diqqət yetirmək lazımdır ki, Mütəal Allahın feli sifətlərlə vəsf olunmasının mənası Onun zatında dəyişikliyin hasil olması, yaxud Onda bir ərəzin (zahiri xüsusiyyətin) yaranması deyildir. Əksinə, mənası budur ki, Allahın zatı ilə məxluqatın arasında olan əlaqə və nisbət xüsusi nəzərdən və müəyyən şəraitlərdə mülahizə olunur. Buradan da feli sifətlərdən biri olan məfhumun meydana çıxmasına səbəb olur ki, məhdud və müqəyyəd (qeyd və şərti olan) şeyə aid edilmə baxımından müəyyən şərtlərə malik olacaqdır. Bu da "harada isə olmaq" və "çoxluq" ifadə edən əlaqəli bir məfhumdur. Çünki əlaqə iki tərəfə tabedir. Tərəflərdən birinin hadis və çoxluğu bu

[1] "Ənfal" surəsi, ayə 87.

[2] "Yasin" surəsi, ayə:82.

xüsusiyyətlərin əlaqəyə də sirayət etməsi üçün kifayətdir.

HİKMƏT

İlahi iradə haqqında qeyd olunan izahlara diqqət yetirməklə aydın olur ki, bu iradə bir şeyin icad olunmasına elə-belə, boş-boşuna aid olmur. Əksinə, əşyaların ilahi iradə əsasında yaranması onların kamal, xeyir və məsləhətinə əsaslanır. Maddiyyatın qarşılıqlı mübarizəsi onlardan bəzilərinin digərinin vasitəsi ilə azalıb-artmasına səbəb olduğundan ilahi məhəbbətin kamalı tələb edir ki, onların məcmusu, onlara daha artıq xeyir və kamal çata biləcəyi şəkildə olsun. Bu kimi əlaqələrin müqayisə olunmasından **"məsləhət"** məfhumu əldə olunur. Halbuki məsləhət məxluqatın vücudundan ayrı bir iş deyildir, buna görə də o, nəinki ilahi iradəyə, hətta, onların yaranmasına da təsir qoya bilməz.

Bir sözlə, Allahın işləri Onun elm, qüdrət, kamal və xeyrə məhəbbət kimi zati sifətlərindən qaynaqlandığından həmişə məsləhətə malik olan bir şəkildə gerçəkləşir, yəni onlara ən çox kamal və xeyir çatır. Belə bir iradə **"hikmətli iradə"** adlandırılır. Buradan da Mütəal Allah üçün fel məqamında həkim adlı digər bir sifət də irəli gəlir ki, feli sifətlərdə olduğu kimi zati sifətlərə qayıtmağa qabildir.

Əlbəttə, diqqət yetirmək lazımdır ki, hər hansı bir işi məsləhətə görə yerinə yetirməyin mənası məsləhətin Mütəal Allah üçün əsas məqsəd olması deyildir; əksinə, o bir növ ikinci dərəcəli hədəf sayılır, əsl səbəb işlərin görülməsi üçün sonsuz zati kamala olan məhəbbətdir ki, onun nəticəsində bu, varlıqların kamalına da aid olur. Məhz buna görə də deyilir ki, Allahın felləri üçün əsl (köklü) səbəb elə faillik səbəbidir və Mütəal Allah Öz zatına əlavə ola biləcək digər hədəf və məqsədə malik deyildir. Amma bu məqsədin varlıqların kamal, məsləhət və xeyrinin ikinci dərəcəli və əsas hədəf ünvanı kimi hesab olunması ilə ziddiyyət təşkil etmir. Bu mənaya əsasən Qurani-kərimdə Allahın felləri müəyyən işlərlə əlaqələndirilmişdir ki, onların da hamısı məxluqatın xeyir və kamalına qayıdır. Necə ki, işlərin ən yaxşısının seçilməsi, imtahan, Allaha bəndəçilik, Allahın əbədi və xüsusi rəhmətinə nail olmaq da insanın yaradılışı üçün müəyyən hədəflər kimi zikr olunmuşdur ki, onlardan hər biri digərinin müqəddiməsidir.[1]

ALLAHIN KƏLAMI

Allah-taalaya mənsub edilən məfhumlardan biri də danışmaqdır. Qədim zamanlardan etibarən mütəkəllimlər arasında Allahın kəlamı barəsində geniş təhqiqat aparılmış və bəhslər irəli sürülmüşdür. Hətta, kəlam elminin belə adlandırılmasının səbəblərindən biri də bu elmin ardıcıllarının ilahi kəlam barədə təhqiqat aparmalarıdır. Əşərilər onu zati, mötəzililər isə feli

[1] "Hud" surəsi, ayə:7, "Mülk" surəsi, ayə:2, "Kəhf" surəsi, ayə:7, "Zariyat" surəsi, ayə:56, "Hud" surəsi, ayə:108 və 119, "Casiyə" surəsi, ayə:23, "Ali-İmran" surəsi, ayə:15, "Tövbə" surəsi, ayə:72-yə müraciət edin.

sifət hesab etmişlər. Bu iki dəstədən olan mütəkəllimlərin arasındakı kəskin ixtilaflı məsələlərdən biri də Allahın kəlamı olan Quranın məxluqmu, yoxsa qeyri-məxluq olmasıdır. Hətta onlar bu məsələ ilə əlaqədar bir-birlərini kafir hesab edirdilər.

Zati və feli sifətlər barədə verilən izah və tərifl ərə diqqət yetirməklə asanlıqla anlamaq olar ki, danışmaq feli sifətlərdəndir və bunu müəyyən etmək üçün xitab olunan şəxsi nəzərə almaq lazımdır ki, səsi eşitmək, yazını görmək, zehnində bir məfhumu tapmaq, yaxud başqa bir şey vasitəsilə danışanın məqsədini başa düşsün. Əslində bu məfhum həqiqəti bir şəxs üçün aşkar etmək istəyən Allah ilə o həqiqəti dərk edən məxluq arasındakı əlaqədən irəli gəlir. Əgər danışıq üçün başqa bir məna nəzərə alınsa və misal üçün söz danışmağa qadir olmaq, yaxud sözün mənasından agah olmaq mənasına yozulsa, bu halda zati sifətlərə aid olur. (Bunun oxşarını feli sifətin digər qismləri barəsində demişdik.)

Amma Qurani-kərim yazılar, sözlər, zehnlərdə mövcud olan məfhumlar, nurani və mücərrəd həqiqət mənasında nəzərdə tutulsa, o zaman o, məxluqdur. Bir şəxs Allahın zati elmini Quran həqiqəti kimi qələmə versə, o halda o, zati sifət olan elmə qayıdacaqdır. Lakin Allah kəlamı, Qurani-kərim və s. barəsində bu cür yozumlar mövcud ürfdən kənardadır və bundan uzaq olmaq lazımdır.

SİDQ (DOĞRUÇULUQ)

Allahın sözləri əmr, nəhy və inşa surətində olsa, bəndələrin əməli vəzifələrini müəyyən etdiyi halda "doğru" və ya "yalan" kimi məfhumlar vasitəsilə ifadə olunmaz. Amma mövcud həqiqətlərdən, yaxud keçmişdə olmuş və ya gələcəkdə olacaq hadisələrdən xəbər vermək surətində olsa, doğruçluqula vəsf olunur. Belə ki, Qurani-kərim buyurur:

"Danışmaq baxımından kim Allahdan daha doğruçu ola bilər?!"[1]

Bunları qəbul etməməkdə heç kəsin üzürlü bəhanəsi olmayacaqdır.

Bu sifət əsas etibarı ilə dünyagörüşün fəri məsələlərinin, eləcə də ideoloji məsələlərdən çoxunun isbat olunması üçün digər bir istidlalın əsasını təşkil edir. Bu sifətin isbat olunması üçün gətirilə bilən əqli dəlillərdən biri budur ki, Allahın ilahi rübubiyyət işləri, insan və dünyanın idarə olunması barəsində danışması elm və hikmət əsasında olub, varlıqları hidayət etmək və dinləyicilər üçün düzgün mərifət vasitəsi hazırlamaq məqsədi ilədir. Əgər reallıqla müxalifət mümkün olsaydı onlara etimad edilməz və bu da əsas məqsədi poza bilərdi ki, ilahi hikmətin əksinə olardı.

SUALLAR

1.İlahi iradə hansı mənada zati sifətlərdən və hansı mənada feli sifətlərdən sayılır?

[1] "Nisa" surəsi, ayə:87.

2.İradə məfhumunu feli sifət adı ilə müəyyən etmək üçün məxluqlar ilə Allah arasında hansı növ rabitə nəzərdə tutulur?

3.Allahın iradəsi hüdus və kəsrətlə necə vəsf olunur?

4.İlahi hikməti bəyan edin.

5.Məsləhətin məfhumu necə əldə edilir?

6.Hansı mənaya əsasən məxluqatın məsləhət, xeyir və kamalını yaradılışın hədəfi hesab etmək olar?

7.İlahi kəlamı şərh edin.

8.Mütəal Allahın sadiq olmasına əqli dəlil bəyan edin.

ON İKİNCİ DƏRS

DÜZ YOLDAN ÇIXMAĞIN SƏBƏBİ

–Müqəddimə
–Yoldan azmağın səbəbləri
–Psixoloji səbəblər
–İctimai səbəblər
–İdeoloji səbəblər
–İnhiraf amilləri ilə mübarizə

MÜQƏDDİMƏ

Birinci dərsdə qeyd olundu ki, dünyagörüşü iki ümumi qismə – ilahi və materialist dünyagörüşünə bölmək olar. Onların arasında ən mühüm ixtilaf elmli və qüdrətli yaradanın olub-olmaması. İlahi dünyagörüş onu əsaslı bir prinsip kimi qəbul edir, materialist dünyagörüş isə inkar edir.

Əvvəlki dərslərdə Allahın varlığının isbat olunması, ən mühüm səlbi, sübuti, zati və feli sifətləri bu kitabın həcminə uyğun olan bir səviyyədə araşdırdıq. İndi bu əsas prinsipə etiqadın möhkəmlənməsi üçün maddi dünyagörüşü qısa şəkildə araşdırıb tənqid edirik ki, ilahi dünyagörüşün mövqeyini möhkəmlətməkdən əlavə materialist dünyagörüşün süst və əsassız olması da birbaşa aydın olsun.

Bu məqsədlə əvvəlcə ilahi dünyagörüşdən azıb inhirafa yuvarlanmanın, dinsizliyə yönəlmənin amil və səbəblərinə qısa işarələr edib daha sonra materialist dünyagörüşün zəif nöqtələrinin ən mühümünü izah edəcəyik.

DÜZ YOLDAN AZMANIN SƏBƏBLƏRİ

Bəşər tarixində dinsizlik və materializmin qədim keçmişi vardır. Arxeoloji qazıntılar və tarixi şahidlərin göstərdiyinə əsasən, bəşər tarixində yaradana olan etiqad həmişə mövcud olmuşdur. Qədim zamanlardan etibarən dinsiz və Allahı inkar edən (mülhid) şəxslər olmuşlar. Lakin dinsizlik 18-ci miladi əsrindən etibarən əvvəlcə Avropa ölkələrində güclənib, daha sonra isə yavaş-yavaş dünyanın digər məntəqələrinə yayılmağa başladı.

Bu hadisənin kilsə üsul-idarəsinin diktatorçuluq prinsiplərinə qarşı və məsihiyyətin ziddinə olan bir əksül-əməl kimi yaranmasına baxmayaraq, onun dalğaları başqa dinləri və məzhəbləri də bürüdü. Qərb ölkələrində dinsizliyə olan meyl onların sənətkarlıq və texnologiyası ilə yanaşı, dünyanın başqa ölkələrinə də nəql olunmuşdur. Son əsrdə marksizmin ictimai-iqtisadi təfəkkürü ölkələrin çoxunda yayılmış və insaniyyət üçün böyük bir bəlaya çevrilmişdir.

Bu inhirafçı nəzəriyyənin yaranıb inkişaf etmə və yayılma səbəbləri çoxdur və onların hamısının araşdırılması üçün ayrıca bir kitab yazılmalıdır.[1] Lakin ümumi halda onu üç əsas amildə xülasələndirmək olar:

1.Psixoloji amillər. Yəni dinsizliyə meyl etmək üçün şəxslərdə yarana biləcək məqsədlər; hətta şəxsin özü bunun təsirindən agah olmaya da bilər. Onların ən mühümü rahattələblik, açıq-saçıqlığa meyl etmək və məsuliyyət hissi keçirməməkdir. Belə ki, bir tərəfdən xüsusilə maddi və hiss olunan ləzzətlərlə uyğun gəlməyən tədqiqatın zəhmətləri tənbəl, rahatlıq axtaran və himməti olmayan şəxslərin tədqiqat aparmasına mane olur, digər tərəfdən heyvanlara məxsus olan qeydsiz-şərtsiz azadlıq, açıq-saçıqlıq, məsuliyyət

[1] Bu amillərin bir qismini mərhum Ustad Mütəhhəri "Materializmə yönəlmənin səbəbi" kitabında araşdırmışdır.

hissi keçirməmək və məhdudiyyətə razı olmamaq onların ilahi dünyagörüşə meyl etməsinin qarşısını alır. Çünki ilahi dünyagörüşü qəbul edib hikmətli yaradana etiqad bəsləmək bir sıra digər etiqadların da əsasını təşkil edir ki, onlar insanın bütün ixtiyari davranış və rəftarlarında məsuliyyət hissi keçirməsini tələb edir. Bu da çox hallarda öz istəklərindən keçməsini və müəyyən məhdudiyyətləri qəbul etməsini istəyir. Bu məhdudiyyətlərin qəbul edilməsi şəxsin açıq-saçıqlıq meylləri ilə uyğun gəlmədiyindən bu heyvani hiss, hətta özünün agahlığı olmayan bir şəkildə olsa belə, insanın bu məsuliyyətlərdən boyun qaçırmasına və nəticə etibarı ilə Allahın varlığını inkar etməsinə səbəb olur.

Digər psixoloji amillər də dinsizliyə meyl etməkdə təsirlidir və başqa amillərin ardınca yaranır.

2.İctimai səbəblər. Yəni bəzi cəmiyyətlərdə yaranan xoşagəlməz mühitlər və ictimai şəraitlər, eləcə də dini işləri öhdəsinə alan şəxslər dinsizliyin yaranmasında, yaxud yayılmasında müəyyən rol oynayır. Belə bir şəraitdə əqli təfəkkür və idrak baxımından zəif olan, mövcud məsələləri düzgün şəkildə təhlil edib araşdıra bilməyən, hadisələrin həqiqi səbəblərini dərk edə bilməyən insanlardan çoxu bu kimi uyğunsuzluq və xoşagəlməz halların baş verməsində dindarların rol oynadığını bəhanə edərək bu məsələləri ideologiya və dinin hesabına yazır və belə təsəvvür edirlər ki, bu kimi xoşagəlməz şəraitin yaranmasına məhz dini etiqad səbəb olmuşdur. Buna görə də dindən uzaqlaşırlar.

Bu kimi amillərin nümunəsini Avropanın renesans dövründəki ictimai şəraitində mülahizə etmək olar: kilsə məmurlarının siyasi, hüquqi və dini sahələrdəki yaramaz işləri camaatın məsihiyyətdən və ümumiyyətlə, din və dindarlıqdan uzaqlaşmasının mühüm amili olmuşdur.

Bu kimi amillərin təsirinə diqqət yetirməklə bütün din işçilərinə öz məsuliyyətlərinin əhəmiyyətini və həssas mövqeyini dərk etmələri zəruridir. Onlar bilməlidirlər ki, onlardan baş verən yaramaz hərəkətlər cəmiyyətin yoldan azıb bədbəxtliyə düçar olmasına səbəb ola bilər.

3.İdeoloji səbəblər. Yəni şəxslərin zehninə gələn, yaxud başqalarından eşitdikləri şübhələr. Belə ki, çoxları onları dəf etməyə qadir deyil və onlardan müəyyən qədər təsirlənirlər. Heç olmazsa onların fikirlərinin təşvişə düşüb iztirablı olmasına səbəb olur. Nəticədə bu şübhələr yəqin və xatircəmliyin hasil olmasına mane olur.

Bu amillər də öz növbəsinə kiçik dəstələrə bölünə bilər, o cümlədən, hissə (təcrübəyə) meyldən yaranan şübhələr, yanlış əqidələrdən törənən şübhələr, düzgün olmayan bəyanlardan və zəif sübutlardan meydana gələn şübhələr, ilahi ədalət və hikmətin əksinə olduğu təsəvvür olunan xoşagəlməz hadisələrlə əlaqədar yaranan şübhələr, dini əqidələrin ziddinə qələmə verilən elmi fərziyyələrdən törənən şübhələr, bir sıra dini qanunlar və hökmlər, o cümlədən, hüquqi və siyasi məsələlər barəsindəki hökmlərlə bağlı yaranan şübhələr.

Bəzən iki, yaxud daha artıq amil şəkk və tərəddüdə, inkar və dinsizliyə səbəb olur. Bəzən də müxtəlif psixoloji çatışmazlıqlar şübhələrə şərait yaradır və öz ardınca fikirdə vəsvəsə kimi ruhi xəstəlik əmələ gətirir və bu xəstəliyə tutulan şəxs heç bir dəlillə, bürhanla qane olmur. Necə ki, əməldə vasvasılığa düçar olan şəxs yerinə yetirdiyi işin düzgün olmasına heç vaxt xatircəm olmur. Misal üçün əlini on dəfələrlə suya batırır, yenə də onun paklanmasına əmin olmur, halbuki elə əvvəldən pak imiş və paklamağa da ehtiyac yoxmuş!

İNHİRAFA SƏBƏB OLAN AMİLLƏRLƏ MÜBARİZƏ

İnhiraf amillərinin müxtəlif olduğuna diqqət yetirməklə aydın olur ki, onlardan hər biri ilə mübarizə aparmaq üçün xüsusi üslub, yer və şərait lazımdır. Məsələn, əxlaqi və psixoloji amilləri düzgün tərbiyə etmək və onların ardınca gələn zərərləri başa salmaqla aradan qaldırmaq olar. İkinci və üçüncü dərsdə din barəsində tədqiqat aparmağın zərurəti və ona qarşı laqeyd yanaşmağın zərərlərini bəyan etdik.

Eləcə də ictimai amillərin mənfi təsirlərinin qarşısını almaq üçün bu cür amillərin özünü büruzə verməsinin qarşısını almaqdan əlavə, gərək "dindarların əməlinin düzgün olmaması" ilə "dinin düzgün olmaması" arasında olan fərq aydınlaşdırılsın. Lakin ümumiyyətlə, ictimai və psixoloji amillərin təsirinə diqqət yetirməyin ən az faydası budur ki, şəxs özü bilmədən onların təsiri altına düşməyi çox az hallarda baş verir.

İdeoloji amillərin mənfi təsirlərinin qarşısını almaq üçün də münasib üslublar seçmək lazımdır. O cümlədən, azdırıcı, inhirafçı əqidələri düzgün əqidələrdən ayırmaq, dini əqidəni isbat etmək üçün zəif və məntiqsiz dəlillərdən uzaq olmaq lazımdır. Həmçinin bunu aşkar etmək lazımdır ki, dəlilin zəif olması müddəanın düzgün olmamasına bir əsas deyildir.

Bütün inhirafçı və azdırıcı amillərin araşdırılması, onların hər biri ilə mübarizə yolunun müəyyən olunması kimi məsələlərin hamısının bəyan edilməsi bu kitaba sığmadığından, dinsizliyə meyletmənin amillərindən bir neçəsini və onlarla əlaqədar şübhələrin cavabını verməklə kifayətlənəcəyik.

SUALLAR

1.Materialist dünyagörüşünün tənqid və təhlil edilməsinin hansı faydaları vardır?

2.Son əsrlərdə dinsizliyə olan meyl necə yaranmışdır?

3.Dindən inhirafa düşməyin psixolji səbəblərini bəyan edin.

4.Bu hadisənin ictimai səbəblərini araşdırın.

5.İdeoloji səbəblər və onun növlərini bəyan edin.

6.Fikri cəhətdən vəsvəsələr necə yaranır?

7.İnhiraf səbəbləri ilə mübarizənin səbəbləri hansıdır?

ON ÜÇÜNCÜ DƏRS

BİR NEÇƏ ŞÜBHƏNİN HƏLL EDİLMƏSİ

–Hiss olunmayan varlığa etiqad
–Allaha etiqad bəsləməkdə qorxu və cəhalətin rolu
–Səbəb-nəticə prinsipi ümumi bir prinsipdirmi?
–İctimai elmlərin nailiyyətləri

HİSS OLUNMAYAN VARLIĞA ETİQAD

İlahiyyat barəsində icad edilən ən sadə şübhələrdən biri budur: hiss duyğuları və orqanları ilə dərk olunmayan bir şeyin varlığına necə inanmaq olar?

Bu şübhənin sadəlövh insanların zehnində qəbul olunması çox uzaq nəzərə çarpır, lakin öz təfəkkürlərinin əsasını hissiyyata üstünlük vermək əsasında quran, hiss olunmayan şeyin varlığını inkar edən, yaxud heç olmazsa onun yəqin şəkildə tanınmağa qabil olmamasını deyən bəzi alimlər də vardır.

Həmin şübhənin cavabı bundan ibarətdir ki, hissi idraklar bədən üzvlərinin cismlər və cismani şeylərlə təmasda olmasından hasil olur. Bizim duyğu üzvlərimizdən hərəsi bir növdən olan və özünə münasib maddi varlıqları, özü də müəyyən şərtlər daxilində dərk edir. Məsələn, gözün səsləri eşitməsi, yaxud qulağın rəngləri görməsini istəmək düzgün deyildir ki, bizim hiss orqanlarımızın məcmusu bütün varlıqları dərk edə bilsin.

Əvvəla, maddi varlıqlar arsında elələri vardır ki, hisslə dərk oluna bilmir. Məsələn, bizim hiss orqanlarımız ultrabənövşəyi və infraqırmızı şüaları, elektromaqnit dalğalarını və s. dərk etməkdə acizdir.

İkincisi, biz həqiqətlərin çoxunu zahiri hiss orqanlarından başqa yollarla dərk edir, onların varlığına yəqin olan bir etiqad tapırıq. Halubki onlar hiss üzvləri ilə dərk oluna bilmir. Məsələn, bizim hamımız özümüzün qorxu və məhəbbətindən, yaxud iradə qərarından agahıq, onların varlığına etiqadımız vardır. Halbuki bu ruhi halətlər ruhun özü kimi hissi yollarla dərk olunmağa qabil deyil. Əsas etibarı ilə idrakın özü də qeyri-maddi və hiss olunmayan bir işdir.

Deməli, hər hansı bir şeyin hiss orqanları vasitəsilə dərk olunmaması nəinki onun yoxluğuna bir dəlil ola bilməz, hətta onu zehnlərdən uzaq hesab etmək də olmaz.

ALLAHA ETİQAD BƏSLƏMƏKDƏ QORXU VƏ CƏHALƏTİN ROLU

Bəzi sosioloqlar digər bir şübhəni irəli sürərək iddia edirlər ki, "Allahın varlığına etiqad təhlükələrdən, xüsusilə zəlzələ, ildırım və s. kimi təbii hadisələrdən yaranan qorxudan əmələ gəlmişdir, həqiqətdə bəşər özünə ruhi aramlıq və təskinlik vermək üçün *(nəuzibillah)* xəyali bir varlıqdan Allah düzəldərək ona pərəstiş etməyə başlamışdır. Buna görə də həmin hadisələrin təbii amilləri və təhlükələrdən amanda qalmaq üçün yollar nə qədər artıq kəşf olunsa, Allahın varlığına olan etiqad da bir o qədər zəifləyəcəkdir."

Marksistlər bu şübhəni öz kitablarında çox hay-küylə "sosiologiyanın nailiyyətlərindən biri" kimi irəli çəkir və ondan agah olmayan insanları aldatmaq üçün bir vasitə kimi istifadə edirlər.

Onların cavabında demək lazımdır:

Əvvəla, bu şübhənin əsası sadəcə bir fərziyyədir ki, onu sosioloqların

hamısı deyil, bəziləri irəli çəkmişlər və onun düzgünlüyünə heç bir elmi dəlil yoxdur.

İkincisi, elə yaşadığımız bu əsrdə hadisələrin səbəbinə başqalarından daha artıq agah olan böyük alimlərdən çoxu hikmətli Allahın varlığına yəqin etmişlər və etməkdədirlər.[1] Deməli, Allahın varlığına etiqad bəsləmək cəhalət və qorxudan irəli gəlmir.

Üçüncüsü, əgər bəzi hadisələrdən qorxmaq, yaxud bəzi hadisələrin təbii amillərini tanımamaq Allaha inanmağa səbəb olsa, bunun mənası "Allah insanın cəhalət və qorxusunun yaratdığı bir şeydir" demək olmayacaqdır. Necə ki, ləzzəttələblik, şəhvətpərəstlik və s. kimi psixi məqsədlərdən çoxu da elmi və fəlsəfi səylərə səbəb olur, lakin onların dəyər və etibarına xələl yetirmir.

Dördüncüsü, əgər müəyyən şəxslər Allahı səbəbi məlum olmayan hadisələrin yaratdığı bir şey ünvanı kimi tanısalar və hətta əgər onların təbii amillərinin kəşf olunması ilə imanları azalsa belə, bunu Allaha etiqadın etibarsız olduğunu deyil, onların öz nəzəriyyə və imanlarının zəifliyi hesab etməliyik. Çünki həqiqət bundan ibarətdir ki, Allah-taalanın, dünya varlıqlarına nisbətən olan səbəbkarlığı (illiyyəti) təbii səbəblərdən və onlarla eyni səviyyədə deyildir. Əksinə, daha geniş miqyaslı səbəb olub bütün maddi və qeyri-maddi səbəblərin hamısının fövqündədir. (Gələn dərslərdə bu barədə daha artıq məlumat veriləcəkdir.) Təbii səbəblərin kəşf olunub-olunmaması da onun isbat və ya inkar olunmasına əsla təsir göstərmir.

SƏBƏBİYYƏT (SƏBƏB-NƏTİCƏ) PRİNSİPİ ÜMUMİ BİR QANUNDURMU?

Bəzi qərb alimlərinin ortaya atdığı şübhələrdən biri də budur ki, əgər səbəbiyyət prinsipi ümumidirsə, Allah üçün də bir səbəb təsəvvür etməliyik. Halbuki, O, ilkin səbəbdir və Onun heç bir səbəbi yoxdur. Deməli, illətsiz bir Allahın qəbul edilməsi səbəbiyyət qanununu pozur və onun ümumi bir qanun olmadığını göstərir. Əgər onun külliyətini qəbul etməsək, Vacibül-vücudu isbat etmək üçün bu prinsipdən istifadə edə bilmərik.Çünki deyilə bilər ki, maddənin və ya enerjinin əsli öz-özünə, heç bir səbəb olmadan yaranmış, onda baş verən dəyişikliklər də digər varlıqların yaranmasına səbəb olmuşdur.

Yeddinci dərsdə də qeyd etdiyimiz kimi, bu şübhə səbəbiyyət prinsipinin düzgün şəkildə izah və təfsir edilməməsindən yaranmışdır. Onlar belə təsəvvür etmişlər ki, qeyd olunan prinsipin mənası "hər bir şeyin səbəbə ehtiyacı vardır" - deməkdir. Halbuki onun səhih və düzgün təbiri belədir: "Hər bir mümkünül-vücudun, yaxud başqasına bağlı və ondan asılı olan varlığın səbəbə (illətə) ehtiyacı vardır." Bu da ümumi, heç bir istisna qəbul

[1] Eynşteyn, Karsi Muris, Aleksis Karl və eləcə də Allahın varlığı barədə çoxlu məqalələr yazan digər alimlərin adını qeyd etmək olar, onların sözləri "İsbati vücudu Xuda" kitabında qeyd olunmuşdur.

etməyən və zəruri bir qanundur. Amma maddənin və enerjinin barəsində deyilən "o, heç bir səbəb olmadan öz-özünə yaranmışdır, onda baş verən dəyişikliklər də sair varlıqların yaranmasına səbəb olmuşdur" sözünə gəldikdə isə, onun həddindən artıq çatışmazlıqları vardır ki, gələcək dərslərdə bəyan edəcəyik.

TƏCRÜBİ ELMLƏRİN NAİLİYYƏTLƏRİ

Şübhələrdən digər biri də budur ki, insan və dünya (kainat) üçün bir Yaradanın varlığına etiqad bəsləmək müasir elmi nailiyyətlərin bir qismi ilə uyğun gəlmir. Məsələn, kimya elmində sübut olunmuşdur ki, enerji ilə maddənin miqdarı həmişə sabit və dəyişilməzdir. Buna əsasən, heç bir varlıq və fenomen yoxluqdan əmələ gəlməmişdir və heç bir varlıq da birdəfəlik olaraq (küll şəklində) məhv olub aradan getmir. Halbuki, Allaha inananların etiqadına görə, Allah bütün varlıqları yoxdan xəlq etmişdir.

Həmçinin biologiyada sübut olunmuşdur ki, bütün canlı varlıqlar cansızlardan əmələ gəlmişlər, tədrici təkamül nəticəsində inkişaf etmiş və nəticədə insan yaranmışdır. Halbuki, Allaha inananların nəzərinə görə, Allah bütün varlıqların hər birini ayrıca xəlq etmişdir.

Bunun cavabında deməliyik ki:

Əvvəla, maddə və enerjinin itməməsi qanunu elmi və təcrübi bir pirinsip ünvanı ilə yalnız bölünə bilən varlıqlarda mötəbərdir, amma onun əsasında "maddə və enerji əzəli və əbədidir, yoxsa yox?" kimi fəlsəfi məsələni həll etmək olmaz.

İkincisi, maddə və enerjinin məcmusunun miqdarının sabit və həmişəlik olması onların yaradandan ehtiyacsız olması mənasına deyildir. Əksinə, dünyanın ömrü (yaşı) nə qədər uzun olsa belə, Yaradana daha artıq ehtiyaclı olacaqdır. Çünki nəticənin səbəbə olan ehtiyacında əsas meyar, onun zaman baxımından hüdus və məhdudiyyətli olması deyil, onun zati bağlılığı və imkan məsələsidir.

Başqa sözlə desək, maddə və enerji kainatın yaradan səbəbini deyil, maddi səbəbini təşkil edirlər, özləri də yaradan səbəbə ehtiyaclıdırlar.

Üçüncüsü, maddə və enerjinin miqdarının sabit olması yeni-yeni varlıqların yaranmasının, həmçinin onların artıb-azalmasının inkar olunmasını gərəkli etmir. Ruh, həyat, şüur, iradə və s. kimi varlıqlar maddə və enerji qəbilindən deyillər ki, onların artıb və ya azalması maddə və enerjinin dəyişməməsi, sabit qalması qanunu ilə ziddiyyət təşkil etmiş olsun.

Dördüncüsü, təkamül nəzəriyyəsi (fərziyyəsi) hələ də kifayət qədər elmi etibara (dəyərə) malik olmamaqdan, eləcə də çoxlu alimlər tərəfindən məqbul sayılmamaqdan əlavə Allaha etiqadla əsla ziddiyyət təşkil etmir və ən çoxu canlı varlıqlar arasında bir növ edadi səbəbiyyəti (səbəbdə vasitə olmağı) isbat edir, nəinki onların varlıq bağışlayan Allah ilə olan əlaqə və rabitəsini inkar etmiş olur. Şahidimiz də budur ki, bu nəzəriyyənin

tərəfdarlarından çoxu insan və kainat üçün yaradanın olduğuna inanmışlar, indi də belə alimlər çoxdur.

SUALLAR

1.Təcrübəyə meylin və hiss olunmayan şeyləri inkar etməyin nə kimi nöqsanları vardır?

2.Allaha etiqad bəsləməyin mənşəyini insanın cəhalət və qorxusu hesab edən bəzi sosioloqların fərziyyələrinin nə kimi çatışmaz cəhəti vardır?

3.Allaha etiqad bəsləməyin, səbəbiyyət (səbəb-nəticə) qanununun ümumi olması ilə ziddiyyəti vardırımı? Niyə?

4.Maddə və enerjinin sabitliyi qanunu dünyanın yaradanına etiqad bəsləməklə ziddiyyət təşkil edirmi? Niyə?

5.Təkamül nəzəriyyəsi Allahın varlığına etiqadı inkar edirmi? Niyə?

ON DÖRDÜNCÜ DƏRS

MATERİALİST DÜNYAGÖRÜŞÜ NƏZƏRİYYƏSİ VƏ ONUN TƏNQİDİ

–Materialist dünyagörüşün prinsipləri
–Birinci prinsipin araşdırılması
–İkinci prinsipin araşdırılması
–Üçüncü prinsipin araşdırılması
–Dördüncü prinsipin araşdırılması

MADDİ DÜNYAGÖRÜŞÜN PRİNSİPLƏRİ

Materialist dünyagörüşü üçün aşağıdakı prinsipləri qeyd etmək olar:

Birincisi: Varlıq maddə ilə, yaxud maddi şeylərlə bərabərdir[1] və yalnız o şeyləri mövcud (var) hesab etmək olar ki, ya maddə olub həcmə və en, uzunluq və hündürlüyə malik olsun, ya da maddənin xassələrindən sayılsın və maddəyə tabe olaraq kəmiyyətə malik olub bölünə bilsin. Bu prinsipin əsasında Allahın varlığı, qeyri-maddi və təbiətin fövqündə olan bir varlıq ünvanı ilə, inkar olunur.

İkincisi: Materiya əzəli, əbədidir, bir kəs tərəfindən yaradılmayıb, heç bir səbəbə ehtiyacı yoxdur və bizim fəlsəfi terminlə desək, materiya "vacibül-vücud"dur.

Üçüncüsü: Materiya aləm üçün heç bir hədəf və əsli (əsasi) səbəb olduğuna inanmaq (qəbul etmək) olmaz, çünki onun şüurlu və iradəli faili yoxdur ki, hansısa hədəfi ona nisbət verə bilək.

Dördüncüsü: Kainatın fenomenləri (nəinki maddənin əsli) maddənin zərrələrinin nəql olunması və onların bir-birinə təsir qoyması nəticəsində əmələ gəlir, buna görə də əvvəlki fenomenləri sonrakı fenomenlər üçün bir növ şərt və edadi səbəb (vasitə rolunu oynayan səbəb) hesab etmək olar, ən çoxu da maddiyyat arasında təbii failiyyət kimi qəbul etmək olar. Məsələn, ağacı meyvə üçün təbii fail hesab etmək olar, yaxud fiziki və kimyəvi fenomenləri onların amillərinə nisbət vermək olar, lakin heç bir fenomen ilahi və varlıq bağışlayan failə ehtiyaclı deyildir.

Bu qeyd olunanlara **beşinci** bir müddəanı da əlavə etmək olar. Bu da mərifətşünaslıqla əlaqədardır və bir baxımdan sair prinsiplərdən ilkindir. O da bundan ibarətdir ki, yalnız o mərifətin etibarı vardır ki, təcrübi hisslərdən qaynaqlanmış olsun. Hissi təcrübələr də yalnız materiyanı və maddi varlıqları isbat etdiyindən, bundan başqa heç bir şeyin varlığı qəbul olunmur.

Amma bu prinsipin düzgün olmaması keçən dərsdən aşkar oldu[2]. Onun yenidən araşdırılıb tənqid edilməsinə ehtiyac yoxdur. Buna görə də qalan prinsipləri araşdırırıq.

BİRİNCİ PRİNSİPİN ARAŞDIRILMASI

Materialist təfəkküründə ən əsas bir prinsip sayılan bu pirinsip dəlilsiz

---

[1] Maddənin tərifi və məfhumu ilə tanış olmaq üçün bax: "Pasdari əz səngərhayi ideolojik, Cahanbiniye maddi", səh.292-297, "Amuzeşi fəlsəfə", 2-ci cild, 41-ci dərs.

[2] Əlavə məlumat almaq üçün bax: "İdeolojiki tətbiqi", 8-16-cı dərslər, "Amuzeşi fəlsəfə", 13-18-ci dərslər.

iddiadan başqa bir şey deyildir. Onun vasitəsi ilə təbiətin fövqündə olan varlıqların inkar olunmasına heç bir dəlil gətirmək olmaz, xüsusilə də hiss və təcrübənin ilkin olması əsasında qurulan materialist mərifətşünaslığı əsasında. Çünki, aydındır ki, heç bir hissi təcrübə özünün maddə və maddi şeylərdən ibarət olan hüdudlarından kənarda bir şeyi isbat və ya inkar edə bilməz. Hissin əsl qərar verilməsi əsasında, uzağı, bunu izhar etmək olar ki, onun əsasında təbiətin fövqündə olan şeyləri isbat etmək olmaz. Belə isə, ən azı, onun (yəni təbiətin fövqündə olan şeylərin) varlığına ehtimal vermək olar. Əvvəllər də qeyd etdik ki, insan, maddə və onun xüsusiyyətlərinə malik olmayan şeylərin çoxunu, o cümlədən, öz ruhunu özünün hüzuri elmi ilə dərk edir. Mücərrəd varlıqların mövcudluğuna dair çoxlu əqli dəlillər də gətirilmişdir ki, bu da fəlsəfə kitablarında qeyd olunmuşdur.[1] Mücərrəd ruhun varlığına dair ən yaxşı dəlil düzgün yuxular, murtazların (yoqların) bir çox işləri, eləcə də peyğəbərlərin (ə) və ilahi övliyaların (ə) möcüzə və kəramətlərini göstərmək olar.[2] Ümumiyyətlə, Mütəal Allahın varlığına və Onun cismani olmamasına dair gətirilən dəlil və bürhanlar bu prinsipin batil edilməsinə kifayətdir.[3]

İKİNCİ PRİNSİPİN ARAŞDIRILMASI

Deyilən prinsipdə əvvəlcə materiyanın əzəli və əbədi olmasına təkid edilir və onun kimsə tərəfindən yaradılmaması iddia olunur.

Amma **əvvəla**, bunu qeyd etmək lazımdır ki, materiyanın əzəli və əbədi olması elmi və təcrübi dəlillər əsasında isbat oluna bilməz, çünki təcrübənin dairəsi məhduddur və heç bir təcrübə dünyanın zaman və məkan baxımından sonsuz olmasını isbat edə bilməz.

İkincisi, materiyanın, onun əzəli olması fərz olunduqda belə, Yaradana ehtiyacsız olması lazım gəlmir, necə ki, əzəli bir mexaniki hərəkətin fərz olunması onun mühərrik qüvvəsindən ehtiyacsız olmasını deyil, sadəcə əzəli mühərrik qüvvəsinin fərz olunmasını tələb edir.

Əlavə, madənin yaradılan olmaması onun vacibül-vücud olması deməkdir və biz, səkkizinci dərsdə maddənin vacibül-vücud olmasının qeyri-mümkünlüyünü isbat etdik.

ÜÇÜNCÜ PRİNSİPİN ARAŞDIRILMASI

Üçüncü prinsip dünyanın hədəfli olmasının inkar edilməsidir ki, bu da Yaradanın inkar olunmasının təbii nəticəsidir. Təbiidir ki, hikmət sahibi olan Allahın varlığının isbat olunması ilə bu prinsip də batil edilir (qüvvədən salınır). Bundan əlavə, belə bir sual yaranır ki, əql sahibi olan bir insan dünyanın heyrətamiz nizamını, onun varlıqları arasında mövcud olan sıx

---

[1] Nümunə olaraq bax: "Amuzeşi fəlsəfə", 2-ci cild, səh.44 v 49

[2] Bax: "Marksizmə qısa tənqidlər", 2-ci dərs.

[3] Bu kitabın 7 və 8-ci dərslərinə, eləcə də "Amuzeşi fəlsəfə" kitabının 62 və 63-cü dərslərinə baxa bilərsiniz.

uyğunluğu və qırılmaz bağlılığı, bunun ardınca gələn saysız-hesabsız faydaları müşahidə edə-edə dünyanın hədəfli olmasını necə dərk edə bilməz?

DÖRDÜNCÜ PRİNSİPİN ARAŞDIRILMASI

Materialist dünyagörüşün dördüncü prinsipi səbəbiyyətin, fenomenlərin yalnız maddi əlaqələrdə məhdudlaşdırılmasıdır ki, bu prinsiplə əlaqədar çoxlu iradlar yaranır, onların ən mühümləri aşağıdakılardır:

Birincisi, bu prinsipə uyğun olaraq dünyada heç vaxt yeni bir varlıq yaranmamalıdır, halbuki, xüsusilə insanlar arasında və heyvanlar aləmində yeni-yeni varlıqların yaranmasının şahidiyik ki, onların ən mühümü həyat, şüur, ülvi-insani duyğular, hislər, fikir və iradədir.

Materialistlər belə deyirlər: «Bu kimi fenomenlər də materiyanın xassələrindən başqa bir şey deyildir!» Cavabında deməliyik ki, **əvvəla**, materiya və maddiyyatın ondan heç vaxt ayrıla bilməyən xüsusiyyəti imtidad (dartılma) və bölgüyə məruz qamasıdır, halbuki, bu xüsusiyyətlər yuxarıda qeyd olunan fenomenlərdə yoxdur.

İkincisi, "Materiyanın xassələri" adlandırılan bu fenomenlər şəksiz, cansız materiyada mövcud olmamışdır. Başqa sözlə desək, nə vaxtsa materiya bu xassələrə malik olmamış və sonradan onlarda olmuşdur. Deməli, "materiyanın xassələri" adlandırılan bu fenomenlərin vücuda gəlməsi onu yaradana, vücuda gətirənə ehtiyaclıdır ki, onları materiyada yaradıb əmələ gətirsin. Bu da məhz icad edən, yaradan, varlıq bağışlayan illətdir.

Bu nəzəriyyənin ən mühüm iradlarından biri də budur ki, onun əsasında dünyanın bütün varlıqları icbari olmalıdır, çünki, materiyanın təsir qoyması və təsirlənməsində ixtiyara və seçkiyə əsla yer qalmır. İxtiyarın inkar olunması da zərurət və bədahətin əksinə olmaqla yanaşı, hər növ məsuliyyətin, əxlaqi və mənəvi dəyərin də inkar olunmasını tələb edir. Bunların da insan həyatında nə kimi acınacaqlı hallara gətirib çıxaracağı gün kimi aydındır.

Nəhayət, materiyanın vacibül-vücud ola bilməsinin qeyri-mümkünlüyünə diqqət yetirməklə onun varlığı üçün bir səbəbi qəbul etməliyik. Belə səbəb də təbii və idadi (vasitə yönlü) səbəb qəbilindən olmayacaqdır. Çünki bu kimi əlaqə və bağlılıqlar yalnız maddiyyatın arasında, onların bir-biri ilə əlaqəsində təsəvvür olunur. Amma maddə öz illəti ilə belə bir rabitəyə malik ola bilməz. Deməli, maddəni yaradan illət onu icad edən, təbii amillərin fövqündə olan bir varlıqdır.

SUALLAR

1.Maddi (materialist) dünyagörüşünün əsaslarını bəyan edin.
2.Maddəni və maddi varlığın tərifini deyin.
3.Birinci prinsipin iradlarını deyin.
4.İkinci prinsipin iradlarını deyin.
5.Üçüncü prinsipi tənqid edin.
6.Dördüncü prinsipin iradlarını şərh edin.

ON BEŞİNCİ DƏRS

DİALEKTİK MATERİALİZM VƏ ONUN TƏNQİDİ

-Tarixi və dialektik materializm
-Əksliklərin vəhdəti və mübarizəsi qanunu və onun tənqidi
-Kəmiyyətin keyfiyyətə keçməsi qanunu və onun tənqidi
-İnkarı inkar qanunu və onun tənqidi

DİALEKTİK VƏ TARİXİ (MEXANİKİ) MATERİALİZM

Materializmin müxtəlif qismləri vardır ki, onların hər biri dünya və onun varlıqlarını, fenomenlərini xüsusi şəkildə izah etmişdi. Müasir əsrin əvvəllərində materialistlər yeni fizikanın məfhumlarından istifadə edərək dünyanın yaranışını mexaniki hərəkət əsasında izah edir və hər bir hərəkəti, xaricdən mütəhərrik (hərəkət edən) cismə daxil olan xas bir mühərrik (hərəkət verən) qüvvəsinin nəticəsi (məlulu) hesab edirdilər. Başqa sözlə desək, dünyanı "böyük bir maşın" kimi təsəvvür edirdilər ki, mühərrik qüvvəsi onun bir hissəsindən digər hissəsinə ötürülür və nəticədə bu "böyük maşının" hər bir hissəsi hərəkətə gəlir.

"Mexaniki materializm" adlanan bu fərziyyədə mövcud olan nöqsanlı hallara görə müxaliflər tərəfindən tənqid atəşinə tutulurdu. O cümlədən: Əgər hər bir hərəkət xarici qüvvə nəticəsində yaranarsa, dünyanın ilkin maddəsinin hərəkəti üçün də bir qüvvə nəzərdə tutumaq lazımdır ki, xaricdən ona daxil olmuş olsun. Bu da təbiətin fövqündə dayanan bir varlığın qəbul edilməsini gərəkli edir ki, heç olmazsa, maddə aləmində ilkin hərəkətin mənşəyi ola bilsin.

Digər irad budur ki, yalnız məqsədyönlü və yerdəyişmə əsasında olan hərəkəti mexaniki qüvvə ilə izah etmək olar. Halbuki, dünyanın bütün varlıqlarını (fenomenlərini) yalnız mexaniki dəyişikliklərdə məhdudlaşdırmaq olmaz, başqa fenomenlərin yaranışı üçün mütləq digər bir amil və səbəb olduğunu qəbul etməliyik.

Mexaniki materializmin bu etirazlara qaneedici bir cavab verə bilməməsi nəticəsində materialistlər dünyada baş verən dəyişikliklər üçün digər bir amil tapmaq, heç olmazsa, bəzi hərəkətləri dinamiki surətdə təfsir etmək və maddə üçün bir növ "özündən hərəkətetmə" nəzərə almaq qərarına gəldilər.

O cümlədən, materializmin banilərindən olan Marks və Engels Hegelin fəlsəfi məfhumlarından istifadə etməklə hərəkətin amilini maddi fenomenlərdəki daxili təzad kimi qələmə verdilər, materiyanın əbədiliyini, heç kəs tərəfindən yaradılmamasını, hərəkətin ümumi olmasını və təbiətdə bütün varlıqların bir-birinə təsir qoymasını qəbul etməkdən əlavə, öz fərziyyələrini bəyan etmək üçün aşağıdakı üç əsli müddəanı da irəli sürdülər:

1.Əksliklərin vəhdəti və mübarizəsi
2.Kəmiyyətin keyfiyyətə keçməsi
3.İnkarı inkar qanunu

Burada, qeyd olunan müddəaların hər birini qısa şəkildə izah edir, sonra onların irad və çatışmayan cəhətlərini bəyan edəcəyik.[1]

[1] Əlavə məlumat üçün bax: "Pasdari əz səngərhayi idoelojik", "Hərəkət məqalələri", "Dialektika" və materialist dünyagörüşü"

ƏKSLİKLƏRİN VƏHDƏTİ VƏ MÜBARİZƏSİ

Dialektik materialistlər inanırlar ki, hər bir fenomen bir-biri ilə zidd olan iki ünsürdən (tez və anti tez) təşkil olunmuşdur, onların arasındakı təzad da onların hərəkət və dəyişikliyinə səbəb olur. Nəhayət "anti tez" qəlbə çalır və onların sintezindən ibarət olan yeni bir varlıq əmələ gəlir. Məsələn, yumurtadakı nütfə tədrici olaraq inkişaf edir, daxilindəki qida maddələrini həzm edir, sonra onların sintezi olan cücə əmələ gəlir. Mənfi və müsbət elektrik sahəsi fiziki fenomenlərdə təzadın nümunələrindəndir. Eləcə də toplama və çıxma ibtidai riyaziyyatda, inteqral və törəmə də ali riyaziyyatda təzadın nümunəsidir.

Bu cərəyan ictimai və tarixi fenomenlərdə də mövcuddur, o cümlədən, kapitalizm cəmiyyətlərində kapitalistlərin anti tezi olan proletar (fəhlə) sinfi inkişaf edir və tədricən ona qələbə çalır, onların sintezi olan sosializm və kommunizm cəmiyyəti (quruluşu) kerçəkləşir.

MÜLAHİZƏLƏR VƏ TƏNQİDLƏR

Əvvəlcə buna diqqət yetirmək lazımdır ki, iki maddi varlığın bir-birinin yanında – birinin digərini zəiflətməsi və onun məhv olması ilə nəticələnməsi şəklində yerləşməsini heç kəs inkar etmir. Bunu su ilə atəşin misalında görmək olar. Lakin **əvvəla,** bu cərəyan ümumi deyildir və bunu bütün kainat miqyasında gerçəkləşə biləcək bir qanun kimi qəbul etmək olmaz. Çünki dünyada bunun yüzlərlə, minlərlə əksini tapmaq olar.

İkincisi, bəzi maddi fenomenlərin arasında belə bir təzadın, varlığı metafizik fəlsəfədə və klassik məntiqdə qeyri-mümkün sayılan təzadla heç bir əlaqəsi yoxdur. Çünki qeyri-mümkün sayılan şey "vahid mövzu"da olan ziddiyyətlərdir, amma qeyd olunan misallarda mövzu vahid deyildir. Marksistlərin ziddlərin bir yerə toplanmasına dair gətirdikləri toplama-çıxma, törəmə-inteqral kimi məzhəkəli misalları, həmçinin kapitalist ölkələrində fəhlə sinfi tərəfindən təşkil olunacaq proletar hökuməti barədə verdikləri "qeybi xəbərlər"i bir tərəfə qoyaq.

Üçüncüsü, əgər onların dedikləri fenomenlər bir-biri ilə zidd olan iki ünsürdən təşkil olunsalar, onda onlardan biri üçün deyil, həm tez, həm də anti-tezin hər ikisi üçün digər bir tərkib nəzərdə tutmalıyıq. Çünki onların hər biri fenomendir və qeyd olunan prinsipə görə iki ziddən təşkil olunmalıdır. Nəticədə hər bir məhdud fenomen sonsuz sayda ziddlərdən təşkil olunmalıdır!

Amma onların varlığın daxilindəki təzadı hərəkətin amili hesab etmələrinə və bununla da mexaniki materializmin zəif və çatışmayan cəhətlərini aradan qaldırmaq istəklərinə gəlincə, onun ən kiçik iradı budur ki, belə bir fərziyyənin düzlüyünə heç bir elmi dəlil yoxdur. Bundan əlavə, xarici qüvvə nəticəsində yaranan mexaniki hərəkətlərin varlığı heç bir vəchlə inkar oluna bilməz. Əks halda, futbol topunun, futbolçunun ayaq zərbəsi nəticəsində deyil, onun daxilindəki təzad nəticəsində hərəkət etdiyini deməliyik!!!

KƏMIYYƏTIN KEYFIYYƏTƏ KEÇMƏSI

Bunu nəzərə alaq ki, dünyada baş verən bütün dəyişikliklər tədricidir və vahid bir xətt üzrə baş vermir. Çox hallarda yeni bir varlıq yaranır ki, əvvəlki varlığa heç oxşamır və onu sabiq hərəkətin və dəyişikliyin davamı hesab etmək olmaz. Lakin marksistlər "sıçrayış", yaxud "kəmiyyətin keyfiyyətə keçməsi" prinsipi adı altında belə iddia edirlər ki, kəmiyyət dəyişiklikləri xüsusi bir mərhələyə (nöqtəyə) çatdıqda növdə və keyfiyyətdə bir dəyişikliyin yaranmasına səbəb olur. Məsələn, qızdırılan suyun temperaturu müəyyən bir dərəcəyə çatdıqda su buxara çevrilir. Hər bir metalın müəyyən ərimə dərəcəsi vardır. Temperaturu həmin dərəcəyə çatdıqda maye halına keçir. Cəmiyyətdə də ixtilaflar şiddətlənərək müəyyən bir həddə çatdıqda inqilab baş verir.

TƏNQİDLƏR VƏ MÜLAHİZƏLƏR

Əvvəla, heç bir halda kəmiyyət keyfiyyətə çevrilmir. Uzağı budur ki, xüsusi bir fenomenin vücuda gəlməsi müəyyən bir kəmiyyətin yaranması ilə şərtlənsin. Məsələn, suyun temperaturu buxara çevrilmir, əksinə, suyun buxara çevrilməsi istiliyin müəyyən dərəcədə olması ilə şərtlənir.

İkincisi, lazım olan bu kəmiyyətin sabiq kəmiyyətlərin tədrici artımı nəticəsində hasil olmasının heç bir zərurəti yoxdur. Hətta əvvəlki kəmiyyətin azalması nəticəsində gerçəkləşməsi də mümkündür. Belə ki, buxarın suya çevrilməsi tumperaturun azalması ilə şərtlənir.

Üçüncüsü, keyfiyyət dəyişikliyi həmişə sıçrayışla deyildir. Hətta çox hallarda belə tədrici şəkildə hasil olur. Mumun və şüşənin tədriclə əriməsini buna misal göstərmək olar.

Deməli, təbii fenomenlərdən bəzilərinin vücuda gəlməsi üçün xas bir kəmiyyətin zəruriliyini qəbul etmək olar, nəinki kəmiyyətin keyfiyyətə çevrilməsini və ya kəmiyyətin tədrici artmasının zərurətini, yaxud da belə bir şərtin bütün növ və keyfiyyət əsasında olan dəyişikliklərin hamısı üçün ümumi olmasını. Deməli, "sıçrayış", yaxud "kəmiyyətin keyfiyyətə keçməsi" adlı dünya səviyyəli ümumi bir qanun mövcud deyilidir.

İNKARI İNKAR QANUNU

Bəzən "ziddlərin təkamülü" adlandırılan "inkarı inkar" qanunu dedikdə məqsəd budur ki, ümumi dialektik dəyişikliklər cərəyanında «tez» daim «anti tez»in vasitəsi ilə inkar olunur və anti tez də öz növbəsində sintezin vasitəsilə inkar edilir. Məsələn, bitki (ondan cücərmiş olduğu) toxumu inkar edir, onun özü də yeni bir toxumla inkar olunur. Nütfə yumurtanı inkar edir, onun özü də cücə vasitəsilə inkar olunur. Amma hər bir yeni fenomen köhnədən daha kamildir. Başqa sözlə desək, dialektik seyr, həmişə üzüyuxarı, təkamülə doğrudur. Bu prinsipin əhəmiyyəti də elə bundadır ki, dəyişikliyin seyretmə istiqamətini göstərir və dəyişiklik cərəyanının təkamül istiqamətində olduğunu təkidləndirir.

TƏNQİDLƏR VƏ MÜLAHİZƏLƏR

Şübhəsiz, hər bir dəyişiklik zamanı sabiq vəziyyət və mövqe aradan gedir, yeni bir vəziyyət yaranır. Əgər inkarı-inkar qanununu bu mənaya götürsək, onda bu, dəyişikliyin zərurətindən başqa bir şeyi bəyan etməyəcəkdir. Amma bu prinsip üçün irəli sürülən və onu hərəkətin cəhəti və təkamülünün bəyanedicisi kimi edilən açıqlamaya diqqət yetirməklə, demək lazımdır ki, dünyada baş verən bütün hərəkət və dəyişikliklərin təkamül yönünə malik olması, yəni "hər bir yeni varlıq (fenomen) mütləq əvvəlkindən daha kamil olmalıdır" sözü qəbul olunası deyildir. Radioaktiv çevrilmə nəticəsində qurğuşuna çevrilən uran, daha da kamilləşirmi? Buxara çevrilən su, yaxud suya çevrilən buxar təkamülə çatırmı? Quruyan və heç bir dənəsi və meyvəsi qalmayan bir ağac kamilləşirmi? Qəbul oluna biləcək yeganə şey budur ki, təbii varlıqlardan bəziləri hərəkət və dəyişiklik nəticəsində daha da kamilləşir. Deməli, təkamülü də bütün dünya varlıqları üçün ümumi bir qanun kimi qəbul edə bilmərik.

Mövzunun sonunda bir daha xatırladırıq ki, bütün bu qanunların hamısı, hətta dünya miqyaslı və ümumi qanun şəklində qəbul edilsə belə, sadəcə olaraq təbiət elmlərində sübuta yetmiş digər qanunlar kimi varlıqların necə yaranmasını bəyan edə bilər, amma dünyada ümumi və sabit qanunların varlığı mövcud olanların Yaradandan, varlıq bəxş edən illətdən ehtiyacsız olması mənasına deyildir. Keçən dərslərdə də qeyd etdiyimiz kimi, maddə və maddi varlıqlar mümkünül-vücud olduğundan zəruri olaraq vacibul-vücuda ehtiyaclı olacaqlar.

SUALLAR

1.Dialektik və mexaniki materializm arasındakı fərqi bəyan edin.
2.Əkslikliyi şərh edin, onun iradlarını və çatışmayan cəhətlərini deyin.
3.Keyfiyyət prinsipi və onun iradlarını bəyan edin.
4.İnkarı inkar prinsipini bəyan və onu tənqid edin.
5.Bu prinsiplərin düzlüyünü və ümumi olmasını qəbul etdikdə belə, dünyanın Yaradandan ehtiyacsız olmasını isbat edirmi? Niyə?

ON ALTINCI DƏRS

ALLAHIN YEGANƏLİYİ

–Müqəddimə
–Allahın yeganəliyinə dair bürhan

MÜQƏDDİMƏ

Keçən dərslərdən dünya üçün bir Yaradanın – dünyanı vücuda gətirən, onu hikmət əsasında idarə edən qüdrətli və elmli Allahın varlığının zəruri olması sübuta yetdi. Sonuncu dərslərdə maddi dünyagörüşü araşdırdıq. Bu kimi müxtəlif növ dünyagörüşlərin irad və çatışmaz cəhətləri bəyan edilməklə aydın oldu ki, Allahsız bir dünyanın varlığının fərz olunması əqlə uyğun deyil və bu müddəaya dair gətirilən izahlar əsla qəbuledilməzdir. İndi isə tövhid məsələsini araşdırmağın və müşriklərin düşüncələrinin düzgün olmamasını isbat etməyin vaxtı gəlib çatmışdır.

İnsanlar arasında şirklə qarışıq əqidələrin necə yaranması, hansı mərhələləri keçməsi haqqında sosioloqlar tərəfindən müxtəlif nəzəriyyələr irəli sürülmüşdür. Lakin onların heç biri qəbul olunub etimad ediləcək bir nəzəriyyə, aydın bir dəlil deyildir.

Bəlkə də bunu demək olar ki, şirkə və çox məbudluğa yönəlmənin ilkin səbəbi yerdə və səmada müxtəlif hadisə və varlıqların müşahidə olunmasıdır ki, onlardan hər birinin xüsusi bir ilahənin fərmanı altında olduğunu təsəvvür etmişlər. O cümlədən, bəziləri yaxşılıqların xeyir ilahəsinə, pisliklərin isə şər ilahəsinə istinad edildiyini təsəvvür etmiş, nəticədə dünya üçün iki mənşəyin varlığına inanmışlar.

Günəş, Ay və ulduzlar yerdəki hadisələrdə müəyyən təsirlər qoyduğundan, onların yerdəki varlıqlar üzərində bir növ rəbblik məqamında bulunduğunu güman edənlər də olmuşdur.

Digər tərəfdən də fərz olunan məbudlar üçün heykəllər və simvolik əlamətlər düzəltmələrinə səbəb olmuş və onlara pərəstiş etməyə başlamışlar. Yavaş-yavaş bütlərin özü dar düşüncəli kütlələr arasında əsas əqidəyə çevrilmiş, hər bir millət, hətta qəbilə belə öz xəyalları əsasında bütlərə pərəstiş etmək üçün müəyyən ayinlər təşkil etmişlər ki, bununla bir tərəfdən Allaha pərəstişin fitri meyllərini təmin etsinlər, digər tərəfdən də özlərinin heyvani meyllərinə və həvəslərinə müqəddəslik donu geyindirərək onları dini mərasimlər qəlibinə salsınlar. Hələ də bütpərəstlərin arasında rəqs, şərab və şəhvətbazlıqla yanaşı olan bayramlar, dini mərasimlər mövcuddur.

Bütün bunlardan əlavə zalımlar və qüdrət sahibləri camaatın sadə, saf əqidə və fikirlərindən sui-istifadə etmələrinə səbəb olan şəxsi mənafeləri və qərəzləri nəticəsində öz qüdrət və istilaçılıqlarını genişləndirmək üçün şirklə qarışıq olan fikirləri tələqin edib yayırdılar. Özləri də bir növ rübubiyyətə inanır və tağutlara pərəstiş etməyi dini mərasimlərin bir hissəsi kimi qələmə verirdilər. Bu kimi qərəzlərin və məqsədlərin aydın nümunələrini Çin, Hindistan, İran, Misir və başqa ölkələrdə tapmaq olar.

Hər bir halda şirklə qarışıq olan ayinlər müxtəlif amil və səbəblərdən təsirlənərək insanlar arasında formalaşıb yayılmış, onların ilahi din və tövhid sayəsində həqiqi təkamülə çatıb inkişaf etməsinə mane olmuşdur. Buna görə də ilahi peyğəmbərlərin fəaliyyətinin böyük bir qismi şirklə və

müşriklərlə mübarizəyə sərf olunurdu. (Onların başlarına gələn hadisələr Quranda dəfələrlə bəyan edilmişdir.)

Deməli, şirklə qarışıq əqidənin əsasını Mütəal Allahın deyil, Ondan başqa digər varlıqların rübubiyyət məqamına malik olduğuna inam təşkil edir. Hətta müşriklərdən bəziləri dünyanın yeganə yaradanına etiqad bəsləməklə həqiqətdə xaliqiyyətdə tövhidi qəbul etmişlər, lakin bunun özü də son dərəcə zəif mərtəbədə idi. Onlar öz gümanlarına əsasən dünyanın idarə olunmasını müstəqil şəkildə öhdələrinə alan ikinci dərəcəli məbudlara inanır, yaradan Allahı da həmin məbudların başçısı və Rəbbül-ərbab adlandırırdılar.

Bəziləri belə güman edirdilər ki, iş görən bu məbudlar mələklərdir, (müşrik ərəblər onları "Allahın qızları" kimi təsəvvür edirdilər), bəzilərinin inancına görə isə bunlar cinlər və pərilər, başqa bir qrupun inancına görə ulduzların, yaxud qədim insanların ruhları, yaxud gözəgörünməz varlıqların xüsusi növüdür.

Onuncu dərsdə qeyd olundu ki, həqiqi xaliqiyyət və rübubiyyət bir-birindən ayrılmazdır, Allahın xaliq olmasına etiqad başqasının rübubiyyətinə etiqadla uyğun gəlmir. Bir-birinə zidd olan belə etiqad sahibləri bunların arasındakı ziddiyyətə diqqət yetirməmişlər. Onların əqidələrinin puç olmasını göstərmək üçün bu ziddiyyəti aşkar etmək kifayətdir.

Mütəal Allahın yeganə olmasını isbat etmək üçün müxtəlif fəlsəfə və kəlam kitablarında çoxlu dəlillər gətirilmişdir. Biz burada birbaşa rübubiyyətdə tövhidi isbat edən və müşriklərin əqidələrini rədd edən dəlili bəyan edirik.

ALLAHIN YEGANƏ OLMASININ DƏLİLİ

Dünyanın iki, yaxud daha artıq yaradanı olmasını fərz etdikdə bir neçə hal təsəvvür olunur: Ya dünya varlıqlarından hər biri onların hamısının məxluqu və məlulu fərz olunur, ya onlardan bir qrupu fərz olunan məbudlardan birinin məlulu hesab olunur, yaxud da hamılıqla bir məbudun yaradılanı hesab olunur, yerdə qalan məbudlar isə dünya işlərinin idarə olunmasını öhdəsinə alır.

Hər bir varlığın bir neçə yaradanı olması fərziyyəsi qeyri-mümkündür. Çünki iki, yaxud daha artıq yaradanın (dəqiq desək, varlıq bağışlayan səbəbin) hər hansı bir varlığı yaratmasının mənası budur ki, onlardan hər biri ona bir vücud versin. Nəticədə bir neçə vücud yaranır. Halbuki hər bir varlığın yalnız bir vücudu vardır və əks halda vahid mövcud olmayacaqdır.

Onlardan hər birinin məxluqlardan birinin, yaxud məxluqatın xüsusi bir məcmuəsinin yaradanı fərz olunsa, onda hər bir məxluqun öz yaradanı vasitəsilə vücuda gəlməsi və başqa bir varlığa ehtiyac duymaması lazım gələr. Yalnız o ehtiyaclar istisnadır ki, axırda onu yaradana gəlib çatsın və belə bir ehtiyac yalnız həmin varlığı yaradana olan ehtiyac olacaqdır.

Başqa sözlə desək, aləm üçün bir neçə məbudun fərz olunması bir-birindən ayrı olan çoxlu nizamların varlığını tələb edir. Halbuki aləmdə vahid bir nizam hökm sürür. Eyni zamanda mövcud olan varlıqların bir-biri ilə qarşılıqlı əlaqəsi var. Onlar bir-birinə təsir edir və bir-birinə ehtiyac duyurlar. Həm keçmişdəki, həm hazırkı, həm də gələcəkdəki varlıqların arasında rabitə bərqərardır və əvvəlki varlığın hər biri sonrakı varlığın yaranması üçün lazım olan şəraiti hazırlayır. Deməli, bir-biri ilə sıx bağlı, əlaqəli olan vahid nizam və sistemin hökm sürdüyü belə aləm bir neçə varlıq bağışlayan illətin məlulu ola bilməz.

Bütün yaradanları yaradanın vahid olduğu, başqalarının isə dünyanın idarə və tədbirini öhdəsinə alması fərz olunsa, bu fərziyyə də düzgün olmayacaqdır, çünki hər bir nəticə özünün bütün varlıq işləri ilə birgə olaraq varlıq bağışlayan səbəbin vasitəsilə vücuda gəlir və heç bir başqa müstəqil mövcudun onda təsərrüf etməsinə yol yoxdur. Yalnız bir səbəbin nəticələri arasında təsiretmə və təsir qəbuletmə hasil olur. Hamısı da varlıq bağışlayan failin qüdrəti dairəsində qərar tutaraq onun təkvini icazəsi ilə yerinə yetir. Bu halda onlardan heç biri həqiqətdə rəbb olmayacaqdır. Çünki rəbbin həqiqi mənası budur ki, o, tərbiyə etdiyi şeydə müstəqil şəkildə təsərrüf edir, halbuki fərzimizə görə bu cür təsərrüflər və təsirlər müstəqil olmayıb hamısı yaradanın rübubiyyəti dairəsində və onun verdiyi qüvvə əsasında yerinə yetirilir. Belə ərbabların və işçilərin fərz olunması rübubiyyətdə tövhidlə zidd deyildir. Allahın izni ilə olduğu surətdə onların xaliqiyyətlərinin xaliqiyyətdəki tövhidlə ziddiyyəti olmayacaqdır. Quran ayələri və şərif rəvayətlərdə bəzi Allah bəndələri üçün bu cür xəlqetmə, müstəqil olmayan və Allah tərəfindən lütf sayılan tədbirlər və xəlqetmələr gözə dəyir. Belə ki, həzrət İsanın (ə) barəsində buyurulur:

"Və (yada sal) o zamanı ki, palçıqdan quş surəti yaradır, Mənim iznimlə ona ruh üfürürdün, o da quş olurdu."[1]

Başqa bir ayədə buyurulur:

"And olsun işləri tədbir edənlərə"[2]

Deməli, dünya üçün bir neçə məbudun olması fərziyyəsi Allahın maddi vasitə və səbəblərlə müqayisəsindən irəli gəlir ki, vahid nəticə üçün onların sayının çox olmasının eybi yoxdur. Halbuki varlıq bağışlayan səbəbi bu cür illətlərə oxşatmaq, hər hansı bir nəticə üçün bir neçə varlıq bağışlayan səbəb, yaxud bir neçə rəbb, yaxud bir neçə müstəqil tədbirçi fərz etmək olmaz.

Buna əsasən bu yanlış fikri dəf etmək üçün bir tərəfdən varlıq bağışlayan səbəbin mənası və bu cür səbəbiyyət növünün xüsusiyyətlərində diqqət etmək, dərindən düşünmək lazımdır ki, vahid nəticə üçün bir neçə səbəbin olmasının qeyri-mümkün olmaması nəticə olsun. Digər tərəfdən dünyanın

[1] "Maidə" surəsi, ayə:110.

[2] "Naziat" surəsi, ayə:5.

sıx qanunauyğunluqları və bağlılıqları barəsində düşünmək lazımdır ki, belə bir sıx bağlı sistemin bir neçə Allah tərəfindən yaradıla bilməməsi, yaxud bir neçə müstəqil rəbbin tədbiri altında ola bilməməsi məlum olsun.

Deməli, Allahın bəzi layiqli bəndələri üçün təkvini vilayətin varlığına inanmaq, müstəqil rübubiyyət və xaliqiyyət mənasında olmadıqda tövhidlə zidd olmayacaqdır. Eləcə də Peyğəmbəri-Əkrəmin (s) və Məsum imamların (ə) təşrii vilayəti Allahın təşrii rübubiyyəti ilə zidd deyildir. Çünki Allah tərəfindən və Onun iznilədir.

SUALLAR

1.Şirklə qarışıq əqidələrin yaranmasının əsas səbəblərini şərh edin.

2.Şirklə qarışıq əqidənin əsası nədir?

3.Xaliqiyyətlə rübubiyyət arasındakı zərurəti bəyan edin.

4.Niyə hər bir varlıq üçün bir neçə yaradan təsəvvür olunmur?

5.Nəyə görə yaradılanların hər bir dəstəsinin xüsusi bir yaradanın məxluqu olmasını hesab etmək olmaz?

6.Bütün dünyanın vahid bir Allahın yaradanı olmasına etiqad bəsləməklə yanaşı dünya üçün müxtəlif idarəedicilər və ərbabların (rəbblərin) fərz olunmasının nə kimi eybi vardır?

7.Məbudlar çoxluğunun mümkünlüyü kimi yanlış bir fikrin mənşəyi nədir və necə dəf edilir?

8.Allah övliyaları üçün təkvini vilayətə etiqad bəsləmək xaliqiyyət və rübubiyyətdəki tövhidlə niyə zidd deyildir?

ON YEDDİNCİ DƏRS

TÖVHİDİN MƏNALARI

–**Müqəddimə**
–Çoxluğun inkar olunması
–Tərkibin inkar olunması
–Zata artırılan sifətlərin inkar olunması
–Feli tövhid
–Təsirdə müstəqillik
–İki mühüm nəticə
–Bir şübhənin dəf edilməsi

MÜQƏDDİMƏ

Lüğətdə “yeganə bilmək”, “vahid hesab etmək” mənasında olan tövhid kəlməsi fəlsəfə, kəlam, əxlaq və irfan alimləri arasında müxtəlif mənalarda işlədilir ki, onların hamısında Mütəal Allahı xüsusi cəhətdə yeganə bilmək nəzərdə tutulur. Bəzən onlar “tövhidin qismləri”, yaxud “tövhidin mərtəbələri” kimi qeyd edilir. Onların hamısının araşdırılması bu kitabın həcmi ilə uyğun olmadığından onun ən məşhur və münasib istilahlarını araşdırmaqla kifayətlənirik.

1. ÇOXLUĞUN İNKAR EDİLMƏSİ

Tövhidin ilk məşhur istilahı Allahın vahid olmasına etiqad və zatından kənardakı çoxluğu inkar etməkdir. Bu da ikiliyə, yaxud daha artıq məbuda inanmağın və aşkar şirkin qarşısında dayanır ki, hər birinin digərindən ayrılıqda və müstəqil şəkildə vücuda malik olsun.

2. TƏRKİBİN İNKAR OLUNMASI

Tövhidin ikinci istilahı Allahın zatı daxilində əhədiyyətə və bəsitliyə malik olmasına, zatının hissələrdən tərkib tapmadığına tam yəqinliklə etiqad bəsləməkdir.

Bu məna əksər hallarda səlbi sifət formasında (tərkibin inkar olunması) bəyan edilir. (Bu, yeddinci dərsdə qeyd olundu.) Çünki bizim zehnimiz bəsitlik məfhumuna nisbətən tərkib məfhumu və bunun qarşısında onun inkar olunması ilə daha çox tanışdır.

3. ZATA ARTIRILAN SİFƏTLƏRİN İNKAR EDİLMƏSİ

Tövhidin üçüncü mənası zati sifətlərin Allahın zatının özü ilə yeganə olmasına (eyniyyət təşkil etməsinə) inanmaq və zata artırılan sifətləri inkar etməkdir ki, bu da “sifati tövhid” olub rəvayətlərdə “nəfyi-sifat” adı ilə qeyd olunur. Bu da əşərilər kimi Allahın sifətlərinin zatına artırıldığını güman edən və “qədim səkkizlik”ə (“qüdəmai səmaniyə”) inananların müqabilində dayanır.

Sifati tövhid belə isbat olunur ki, əgər Allahın sifətlərinin hər birinin ayrılıqda nümunələri və müqabili olsaydı bir neçə haldan xaric olmazdı:

1.Onların nümunələri ilahi zatın daxilində fərz olunur. Bu da Allahın zatının hissələrdən təşkil olunmasını gərəkli edir və əvvəldə isbat edildi ki, belə bir şey qeyri-mümkündür.

2.Onların nümunələri zatdan xaricdə, yaxud da mümkünül-vücud və Allahın yaratdığı təsəvvür olunur. Amma onların Vacibül-vücud olması fərzi zatın çoxluq mənasında olduqda aşkar şirkdir və heç bir müsəlmanın ona inandığı güman olunmur. Sifətlərin mümkünül-vücud olması fərziyyəsi bunu tələb edir ki, fərzimizə görə, bu sifətlərə malik olmayan ilahi zat onları yaratsın və sonradan onlarla vəsf edilsin. Məsələn, zatən həyata malik olmayan bir şey həyat adlı bir varlığı yaratsın və onun vasitəsilə həyata

malik olsun. Eləcə də elm, qüdrət və s. kimi sifətlərdə də bunu demək olar. Halbuki varlıq bağışlayan illətin məxluqunun kamallarından məhrum olması zatən qeyri-mümkündür. Bundan da pisi odur ki, öz yaratdıqlarının sayəsində həyat, elm və qüdrətə malik olsun və sair kamal sifətləri ilə vəsf edilsin!

Bu fərzlərin batil olması ilə aydın olur ki, ilahi sifətlərin bir-birindən və Allahın zatından ayrı nümunələri yoxdur, onların hamısı elə bir məfhumlardır ki, əql bunu Allahın müqəddəs zatından ibarət olan bəsit vahidin nümunəsindən bilir.

4. ƏFALİ TÖVHİD (fellərdə tövhid)

Filosofların və mütəkəllimlərin istilahında əfali tövhid adlanan dördüncü istilahın mənası bundan ibarətdir ki, Mütəal Allahın Öz işlərini yerinə yetirməkdə heç kəsə və heç nəyə ehtiyacı yoxdur, heç bir varlıq Ona heç bir kömək edə bilməz.

Bu mətləb varlıq bağışlayan illətin özünün bütün məlullarına qarşı qəyyumiyyətindən ibarət olan xüsusiyyətlərinə diqqət yetirməklə sübuta yetir. Çünki belə bir illətin məlulu bütün vücudu ilə illət vasitəsi ilə qaimdir, fəlsəfə istilahında isə ona "eyni-rəbt və təəllüq" deyilir, onun özündən heç bir istiqlaliyyəti yoxdur.

Başqa sözlə desək, hər kəsin nəyi varsa, Allahdandır, Onun təkvini və həqiqi qüdrəti, səltənəti və malikiyyəti dairəsindədir, başqalarının qüdrət və malikiyyəti ilahi qüdrətdən sonrakı mərhələdədir və onun təfərrüatındandır, nəinki onunla ziddiyyətdədir. Buna qulun malikiyyətini misal gətirmək olar. Onun kəsb etdiyi mal-dövlət öz ağasının mal-dövləti vasitəsi ilədir. (Yəni, sərmayə də, qazanc da, hətta özü də ağasına məxsusdur.) Bu halda Mütəal Allahın kiminsə köməyinə ehtiyac duyması necə mümkün ola bilər? Halbuki bütün varlıqlar və onların vücud işləri Allahın hesabınadır və Onunla qaimdir.

MÜSTƏQİL TƏSİR

Tövhidin beşinci istilahı təsirdə müstəqil olmağı inkar etməkdir,[1] yəni Allahın məxluqları öz işlərində də Mütəal Allahdan ehtiyacsız deyillər. Onların bir-birinə təsir göstərmələri də Mütəal Allahın izni və onlara verdiyi qüvvə sayəsindədir. Həqiqətdə hər yerdə və hər şeydə müstəqil şəkildə və başqasına ehtiyacı olmadan təsir qoyan varlıq məhz Allahın müqəddəs zatıdır. Başqalarının failiyyəti və təsiri də Onun failiyyəti və təsiri sayəsindədir.

Məhz buna görə də Qurani-kərim təbii və qeyri-təbii faillərin (mələk, cin və insan) əsər və təsirlərini Mütəal Allaha mənsub edir. Misal üçün yağışın yağması, bitkinin cücərməsi, ağacın meyvə verməsi də Ona aid edilir. Quran

[1] Ariflər feldə tövhidi bu mənada işlədirlər.

camaatı digər faillərə istinad verərkən Allaha istinad verməni də dərk edərək, qəbul etməsinə və həmişə bu məsələyə diqqətli olmalarına israr edir.

Mətləbi daha yaxşı başa düşmək üçün şərti işlərdən misal gətiririk: Əgər idarənin rəisi öz işçilərinə müəyyən bir işi görməyi əmr etsə, həmin işin işçinin əli ilə yerinə yetirilməsinə baxmayaraq eyni halda rəisə və başçıya istinad verilir, hətta əql sahibləri də işin fərman verən şəxsə istinad edilməsini daha məqsədəuyğun hesab edirlər.

Təkvini failiyyətin də müxtəlif mərtəbələri vardır. Hər bir failin vücudu Allahın iradəsinə əsaslandığından və müəyyən cəhətdən hər hansı bir şeyi təsəvvür edən şəxsin zehni təsəvvürlərinə oxşadığından "və lillahil-məsəlul-əla – yüksək məsəllər Allaha məxsusdur" - deyə buyurulur. Buna görə də hər bir faildə və təsir edəndə yaranan vücud əsərlərinin hamısı daha yüksək mərtəbədə təkvini ilahi olan iradə və izn ilə şərtləndirilir və Mütəal Allaha istinad verilir "la hovlə və la qüvvətə illa billahil-əliyyil-əzim". (Allahın qüdrət və qüvvətindən başqa qüdrət və qüvvət yoxdur.)

İKİ MÜHÜM NƏTİCƏ

Fellərdə tövhidin nəticəsi bundan ibarətdir ki, insan Allahdan başqa heç kəsi və heç bir şeyi sitayişə layiq görməsin. Çünki əvvəllər də işarə etdiyimiz kimi bəndənin xaliqi və rəbbi olan kəsdən başqası ibadətə layiq deyildir. Başqa sözlə desək bu məsələ üluhiyyət, xaliqiyyət və rübubiyyəti gərəkli edir.

Digər tərəfdən tövhidin sonuncu mənasından belə nəticə alınır ki, insan yalnız Allaha etimad etməlidir, bütün işlərdə Ona təvəkkül etməli, yalnız Ondan kömək istəməli, yalnız Ona ümidvar olub, yalnız Ondan qorxmalı, hətta adi səbəblər onun ehtiyac və istəklərini təmin etmək üçün mövcud olmazsa, yenə də ümidini kəsməməlidir, çünki Allah qeyri-adi yollarla da onun ehtiyacını təmin edə bilər.

Belə bir şəxs Allahın xüsusi vilayəti altında qərar tutur, sonsuz və misilsiz ruhi asayişdən bəhrələnir.

"Agah olun ki, Allah dostları üçün heç bir qorxu yoxdur və onlar qüssələnməzlər."[1]

Bu iki nəticə hər bir müsəlmanın gündə heç olmazsa on dəfə təkrar etdiyi aşağıdakı şərif ayədə yerləşdirilmişdir:

"İyyakə nəbudu və iyyakə nəstəin – Yalnız Sənə ibadət edir və yalnız Səndən kömək istəyirik."

[1] "Yunis" surəsi, ayə:62.

BİR ŞÜBHƏNİN DƏF EDİLMƏSİ

Burada belə bir şübhə yarana bilər ki, əgər kamil tövhid insanın Allahdan başqa heç kəsdən kömək istəməməsini gərəkli edirsə, o zaman Allah övliyalarına təvəssül etmək də düz olmayacaq.

Cavab bundan ibarətdir ki, Allah övliyalarına təvəssül edən zaman onlardan müstəqil şəkildə və Allahın izni olmadan hər hansı bir işi görmələri təvəqqe olunarsa, belə təvəssülün tövhidlə əsla uyğunluğu yoxdur. Amma əgər Allahın onları Öz rəhmətinə çatmaq üçün bir vasitə qərar verdiyi və camaata da onlara təvəssül etməyi göstəriş verməsi ünvanı ilə olsa bunun tövhid ilə heç bir ziddiyyəti yoxdur, üstəlik ibadətdə və itaətdə tövhidin kamil nümunələrindən olacaqdır. Çünki bu işlər Onun əmri ilə baş verir.

Amma Allahın nə üçün belə vasitələri qərar verdiyinə, camaatı nə üçün onlara təvəssül etməyə əmr etməsinə gəldikdə isə cavab bundan ibarətdir ki, Allahın bu əmrinin müxtəlif hikmətləri vardır. O cümlədən aşağıdakıları qeyd etmək olar: Layiqli bəndələrin yüksək məqamının göstərilməsi, başqalarının belə bir məqama çatmağına səbəb olacaq qədər ibadət və itaətə təşviq edilməsi, bəzi şəxslərin öz ibadətlərindən qürurlanaraq özlərini insani kamalın ən yüksək məqamlarına nail olmasını güman etməsinin qarşısını almaq. Çox təəssüflər ki, bu kimi işlər Əhli-beytin (ə) vilayət nemətindən və onlara təvəssül etməkdən məhrum olan çoxlu şəxslərdə baş verir.

SUALLAR

1.Tövhidin lüğəvi və istilahdakı mənalarını bəyan edin.
2.Sifətdə tövhidin dəlili nədir?
3.Fellərdəki tövhidi necə isbat etmək olar?
4.Müstəqil təsirdə yeganəlik mənasına olan tövhidi izah edin.
5.Tövhidin son iki qismindən alınan nəticələr hansılardır?
6.Allah övliyalarına təvəssül etməyin tövhidlə ziddiyyəti varmı? Niyə?
7.Allahın təvəssül etməyə əmr etməsinin hikməti nədir?

ON SƏKKİZİNCİ DƏRS

CƏBR VƏ İXTİYAR

–Müqəddimə
–İxtiyarın izahı
–Cəbrə inananların şübhələrinin dəf edilməsi

MÜQƏDDİMƏ

Əvvəlki dərsdə qeyd olunduğu kimi, tövhid insanların ruhi cəhətdən tərbiyə olunmasına müstəqil surətdə təsir göstərən son dərəcə dəyərli olan bir maarifdir. Buna görə də Qurani-kərimdə bu məsələyə çox təkid olunmuş, müxtəlif bəyanlarla onun düzgün dərk olunmasına şərait yaradılmışdır. Onlardan biri də hər hadisə və varlığın Allahın izn, iradə, qəza və qədərinə əsaslanmasıdır.

Bu mətləbin düzgün şəkildə dərk olunması bir tərəfdən əql və fikir baxımdan inkişafa səbəb olsa da, düzgün təlim və bəyana ehtiyaclıdır. Ya kifayət qədər əqli inkişafdan məhrum olan, ya da məsum rəhbərlərin və Quranın həqiqi təfsirçilərinin təlimlərindən istifadə etməyən şəxslər bu məsələ barədə azğınlığa düşərək hər növ təsir və illətin birbaşa Mütəal Allaha məxsus olmasını düşünmüşlər, çoxlu Quran ayələrinin açıq-aşkar buyurduğunun əksinə olaraq hər bir illiyyətdən və təsirdən hər növ səbəb və vasitəçiliyi inkar etmiş və «Allah Öz ənənəsinə uyğun olaraq odu yaradan zaman hərarəti icad edir», yaxud «yemək yeyən zaman doymağı və su içmək zamanı sirab olmağı vücuda gətirir, əks halda odun hərarətdə, yeməyin doymaqda və suyun sirab olmaqda heç bir təsiri yoxdur» kimi fikirlər irəli sürmüşdür.

Bu cür fikir azğınlığının acınacaqlı və mənfi təsirləri o zaman aşkar olur ki, onun insanın ixtiyari işləri və məsuliyyətləri barəsində törətdiyi təsirlərini araşdıraq. Belə təfəkkür tərzinin nəticəsində insana məxsus olan fellər də birbaşa Allaha aid edilir və insanın onlar barəsindəki failiyyəti birdəfəlik ləğv olunur. Belə olan halda heç kəs öz işinə cavabdehlik daşımayacaqdır.

Başqa sözlə desək, bu cür yanlış fikirlərin nəticələrindən biri insanın cəbrə meyl edərək işlərinin məsuliyyətini boynundan atmasıdır. Bunun da mənası insanın ən mühüm xüsusiyyətinin inkar olunması, hər növ tərbiyəvi, əxlaqi, hüquqi sistemin, o cümlədən İslam şəriətinin əbəs olmasıdır. Çünki insan öz işlərini görməkdə ixtiyar sahibi olmasa, daha vəzifə və təklifə, əmr və nəhyə, mükafat və cəzaya heç bir əsas qalmır. Hətta bu, təkvin aləminin əsassız və əbəs olmasını belə gərəkli edir. Çünki Quran ayələrindən[1], şərif rəvayətlərdən və əqli dəlillərdən məlum olduğu kimi, təbiət aləminin yaradılmasında hədəf insanın yaranışına şərait yaratmaqdır ki, özünün ixtiyari felləri, ibadətləri və Mütəal Allaha bəndəçiliyi ilə imkan aləminin kamalının ən yüksək həddinə və ilahi qürb məqamına nail olsun, Pərvərdigarın xüsusi rəhmətlərini əldə etməyə ləyaqət tapsın. Əgər insanın ixtiyar və məsuliyyəti olmazsa Allahın əbədi mükafatlarını, nemətlərini və rizvanını əldə etməyə ləyaqəti olmayacaq və yaradılışın hədəfi nöqsanlı

[1] “Hud” surəsi, ayə:7, “Mülk” surəsi, ayə:2, “Kəhf” surəsi, ayə:7, “Zariyat” surəsi, ayə:56, “Tövbə” surəsi, ayə:72.

olacaqdır, yaradılış sistemi geniş bir səhnədə təşkil edilən teatr səhnəsinə bənzədiləcəkdir ki, onun da gəlincikləri (kuklaları) insanlardan ibarətdir, onlarda özlərinin ixtiyarı olmadan müəyyən hərəkətlər yaranır, sonra isə bəziləri məzəmmət və cəzaya, bəziləri isə tərif və mükafata layiq görülür!

Bu təhlükəli əqidənin yaranıb genişlənməsinin ən mühüm amili zalım hökumətlərin siyasi məqsədləri olmuşdur. Onlar bu fikirlərin vasitəsilə özlərinin yaramaz, qəddar əməl və rəftarlarına bəraət qazandırmaq, qəflətdə olan xalq kütlələrini özlərinin istila və hakimiyyətlərini qəbul etməyə vadar etmək, onları müqavimət və qiyam etməkdən saxlamaq məqsədi güdmüşlər. Həqiqətdə cəbr əqidəsinə uymağı millətlərin başını xarab edən ən mühüm amillərdən biri hesab etmək olar.

Digər tərəfdən bu əqidənin zəif cəhətlərini müəyyən qədər dərk edən, amma nə özləri kamil tövhidi qəbul etməklə cəbri inkar etmək əsasında olan bir mövqe seçmə qüdrətinə malik olan, nə də Peyğəmbərin (s) və onun Əhli-beytinin (ə) təlimlərindən bəhrələnməyən şəxslər təfvizə (tam ixtiyara) inanaraq insanın ixtiyari işlərini Allahın failiyyət dairəsindən tamamilə çıxdığını güman etmiş, başqa bir növ inhirafa mütbəla olmuş və nəticədə İslam maarifindən və onun yüksək nəticələrindən məhrum olmuşlar.

Amma həm bu maarifi dərk etmək üçün kifayət qədər istedada malik olan, həm də Quranın həqiqi müfəssir və müəllimlərini tanıyan şəxslər bu azğınlıqdan amanda qalmışlar. Onlar bir tərəfdən öz ixtiyari failiyyətini Allahın onlara əta etdiyi qüdrət dairəsində bilərək onun ardınca gələn məsuliyyətləri qəbul etmiş, digər tərəfdən də Allahın ali-istiqlali təsirini yüksək səviyyədə dərk etmiş və bu dəyərli mərifətin nəticələrindən bəhrələnmişlər.

Peyğəmbər (s) və onun Əhli-beytindən (ə) gəlib çatan rəvayətlərdə bu barədə çoxlu bəyanlar mövcuddur. Hədis kitablarında "istitaət (bacarıq)", "cəbr və təfvizin inkar edilməsi", eləcə də ilahi izn, iradə, qəza və qədər bölmələrində qeyd olunmuşdur. Həmçinin bəzi rəvayətlər istedad və idrak qabiliyyəti az olan şəxsləri bu kimi incə məsələlərə baş qoşmasından çəkindirmişdir ki, inhirafa düçar olmasınlar.

Bəli, cəbr və ixtiyarın müxtəlif yönləri vardır ki, onların hamısının araşdırılması bu kitaba sığmaz, amma mövzunun əhəmiyyətinə görə müxtəlif yönlərdə və ehtiyac duyulan qədər sadə bəyan təqdim etmək istəyirik. Bu barədə daha artıq tədqiqat aparmaq istəyənlərə məsələnin fəlsəfi və əqli bünövrəsinin öyrənmək yolunda səbrli olmalarını tövsiyə edirik.

İXTİYAR BARƏDƏ İZAH

Qərar qəbuletmə və seçim qüdrəti insanın tanınmasından ötrü ən dəqiq yoldur. Çünki hər kəs daxilində xətaya yol verməyən hüzuri elmi vasitəsilə özünün ixtira sahibi olduğunu hiss edir. Ümumiyyətlə, insan məhz bu elm vasitəsilə özünün digər ruhi halətlərindən agah olur. Hətta, bir şey haqqında

şəkdə olsa belə, şəkkin özünü heç bir tərəddüd etmədən hüzuri elmlə dərk edir.

Hər kəs batini aləmə azacıq diqqət yetirməklə anlayır ki, hər hansı bir sözü deyib-deməməkdə, yaxud əlini hərəkət etdirib-etdirməməkdə, yemək yeyib-yeməməkdə ixtiyar sahibidir.

İstənilən işi görməyə dair qərar qəbul etmək bəzən heyvani və qərizəvi meyllərin təmin olunması istiqamətində olur, məsələn, ac yemək istəyir, susuz şəxs su içmək istəyir. Bəzən də ürəyindən əqli istəklərini təmin etmək, yüksək insani məramları həyata keçirmək keçir. Məsələn, xəstə sağalmaq naminə acı dərmanı içir, amma ləzzətli xörəkdən çəkinir, yaxud elm əldə etmək və həqiqətləri kəşf etmək yolunda çalışan bir mühəqqiq maddi ləzzətlərdən keçir, əziyyətlərə sinə gərib qatlaşır, yaxud fədakar bir əsgər yüksək məramlara çatmaq yolunda həyatını belə qurban verir.

Həqiqətdə insanın dəyəri yalnız o zaman zahir olur ki, onun müxtəlif istəkləri arasında qarşıdurma yaransın və şəxs əxlaqi fəzilətlərə, əbədi ruhi kamallara və Allahın razılığına – qürb məqamına çatmaq üçün özünün alçaq və heyvani istəklərindən keçsin. Hər hansı iş daha artıq ixtiyar və daha çox agahlıq üzündən olan seçki ilə baş verərsə, ruhi və mənəvi təkamüldə, yaxud tənəzzüldə daha çox təsir qoyacaq, mükafat və cəza üçün daha artıq ləyaqət hasil edəcəkdir.

Əlbəttə, nəfsani istəklər müqabilində müqavimət qüdrəti bütün şəxslərdə və bütün şeylərə qarşı eyni səviyyədə deyildir, lakin hər insan bu ilahi nemətdən (azad iradədən) müəyyən qədər bəhrələnir. Nə qədər çox məşq edərsə, onu bir o qədər gücləndirə bilər.

Buna əsasən iradə və ixtiyarın varlığında heç şübhə yoxdur və insan müxtəlif şübhələrin zehnə düşməsi vasitəsilə təşviş keçirib bu cür açıq-aşkar şeyin varlığı barəsində özündə şəkk yaratmamalıdır. Qeyd etdiyimiz kimi, ixtiyarın varlığı ən aşkar prinsip və müddəa ünvanı ilə bütün tərbiyəvi və əxlaqi sistemlərdə, asimani din və şəriətlərdə qəbul olunmuşdur və onsuz vəzifə, təklif, məzəmmət, tərif, cəza və mükafat öz mənasını itirər.

Bu açıq-aşkar həqiqətdən azaraq cəbrə meyl etmənin səbəbi araşdırılıb cavab verilməlidir ki, vəsvəsə və şəkk-şübhəyə yer qalmasın. Buna görə də o şübhələrin ən mühümlərini qısa şəkildə araşdırırıq.

CƏBRƏ MEYL EDƏNLƏRİN YARATDIĞI ŞÜBHƏLƏRİN DƏF EDİLMƏSİ

Cəbrə meyl edənlərin yaratdığı şübhələrin ən mühümləri aşağıdakılardır:

1.İnsanın iradəsi batini meyllərin həyəcanlanması və təhrik olunması sayəsində formalaşır. Nə bu meyllərin özü insanın ixtiyarındadır, nə də onun xarici amillər vasitəsilə təhrik edilməsi. Deməli, bu barədə ixtiyar və seçkiyə heç bir yer qalmır.

Cavab bundan ibarətdir ki, meyllərin təhrik olunması iradə və qərara gəlmək üçün şərait hazırlayır, nəinki müəyyən bir iş görmək barəsində qərar

meyllərin təhrik olunmasının cəbri nəticəsi olaraq müqavimət göstərmə qüdrətini insandan alır. Şahidimiz də budur ki, çox hallarda insan üçün şəkk-şübhəli və tərəddüdlü vəziyyət yaranır. Bu hallarda o, qərara gəlib dərindən fikirləşməyə və ziyanla faydanı müqayisə etməyə ehtiyac duyur və bəzən də bu iş çox çətinliklə baş verir.

2.Müxtəlif elmlərdə isbat olunduğuna əsasən vərasət (irsiyyət), vəzlərdən hormonun ifrazı (bunlar xüsusi yeyinti məhsulları və dərmanların təsirindən olur) kimi müxtəlif amillər, eləcə də ictimai və mühit amilləri insan iradəsinin formalaşmasında təsirlidir. İnsanların rəftarındakı fərqlər də bu amillərin fərqlərinə tabedir. Belə ki, dini mənbələrdə də bu məsələ müəyyən qədər təsdiq olunmuşdur. Deməli, insanın fellərini onun azad iradəsindən qaynaqlandığını hesab etmək olmaz.

Bu cür şübhənin cavabı odur ki, ixtiyar və azad iradənin qəbul olunması bu amillərin təsirinin inkar edilməsi mənasına deyil. O mənadadır ki, insan belə amillər vasitəsilə müqavimət göstərərək müxtəlif məqsədlərin çarpazlaşdığı nöqtədə birini seçə bilər.

Əlbəttə, bu amillərdən bəzilərinin güclü olması müəyyən vaxtlar onların əksinə olan işi seçmək və müqaviməti çətinləşdirir, lakin əvəzində belə seçki və müqavimət kamalda daha artıq təsir qoyur, mükafata daha çox layiq olmağa səbəb olur. Belə ki, son dərəcə güclü ruhi həyəcanlar və sair çətin şəraitlər günahın yüngülləşdirilməsinə və cəzanın azaldılmasına səbəb olur.

3.Cəbrə meyl edənlər üçüncü şübhədə deyirlər ki, Mütəal Allah dünyadakı bütün varlıqlara, o cümlədən, insanın fellərinə ona başlamazdan əvvəl agahdır və ilahi elmdə xətaya yol verilmədiyindən, bütün hadisələr hökmən Allahın əzəli elminə uyğun olaraq baş verməlidir və onda heç bir qanun pozuntusu mümkün deyildir. Buna əsasən insanın ixtiyar və seçkisi üçün yer qalmayacaqdır.

Cavab bundan ibarətdir ki, Allahın bütün hadisələrə olan elmi həmin hadisələr necə baş verəcəksə, o cür də olur və insanın ixtiyari felləri də Mütəal Allah üçün ixtiyari olmaqla məlumdur. Deməli, əgər icbari olmaq şərti ilə gerçəkləşsə, o zaman Allahın elminin əksinə olmuş olar. Məsələn, Allah-taala filan şəxsin filan tarixdə müəyyən bir iş görməyi qərara alacağını və o işi görəcəyini bilir. Nəinki, Allahın elmi yalnız işin baş verməsinə və həmin işin failin ixtiyar və iradəsi ilə əlaqəsini nəzərə almadan aid olsun. Deməli, Allahın əzəli elmi insanın azad iradə və ixtiyarı ilə zidd deyildir.

Cəbrə meyl edənlərin şübhələrindən biri də qəza və qədər məsələsi ilə əlaqədardır ki, onlar qəza və qədərin insanın ixtiyarı ilə uyğun gəlmədiyini təsəvvür edirlər. Biz gələn dəsrdə bu məsələ ilə bağlı izahat verəcəyik.

SUALLAR

1.Cəbrə meyletmə və onun yayılmasının səbəbini şərh edin.

2.Bu meylin pis təsirlərini bəyan edin.

3.İnsanın azad iradə və ixtiyarını izah edin.

4.Batini meyllərin təsiri və onları təhrik edən amillər insanın ixtiyarı ilə ziddirmi? Niyə?

5.Son dərəcə həyəcanlara və ağır şəraitlərin təsirinə məruz qalan şəxslərlə başqaları arasında fərq nədir?

6.İrsiyyətin, ətraf mühitin və ictimai şəraitin təsirləri cəbri gərəkli edirmi? Niyə?

7.Allahın əzəli elmi insanın ixtiyarını əlindən alırmı? Nəyə görə?

ON DOQQUZUNCU DƏRS

DİN NƏDİR?

–Qəza və qədərin məfhumu
–Elmi qəza və qədər və eyni qəza və qədər
–Qəza və qədərin insanın ixtiyarı ilə olan əlaqəsi
–Çoxlu səbəblərin təsir növləri
–Qəza və qədərə etiqadın əsərləri

QƏZA VƏ QƏDƏRİN MƏFHUMU

“Qədər” kəlməsi ölçü və əndazə, təqdir isə ölçmək, ölçü tutmaq və hər hansı bir şeyi müəyyən əndazədə düzəltmək deməkdir. **“Qəza”** işi birdəfəlik qurtarmaq, sona çatdırmaq, yekun mühakimə yürütmək mənalarında istifadə olunur (bu da bir növ etibari və şərti sona çatdırmaqdır). Bəzən bu iki kəlmə sinonim kimi “tale” mənasına işlədilir.

“İlahi təqdir” dedikdə məqsəd budur ki, Mütəal Allah hər bir varlıq üçün kəmiyyət, keyfiyyət, zaman və məkan baxımından xüsusi əndazə qərar vermişdir ki, bu da tədrici amil və səbəblərin təsiri altında gerçəkləşir. **“İlahi qəza”** dedikdə məqsəd budur ki, hər hansı bir hadisə və varlığın müqəddimati işləri, səbəb və şəraitləri mövcud olduqda onu son və labüd olan mərhələyə çatdırır.

Bu izaha əsasən təqdir mərhələsi qəza mərhələsindən qabaq olub, tədrici mərtəbələrə malikdir, yaxın, orta və uzaq müqəddimələrə də şamildir. O bəzi səbəb və şəraitlərə uyğun dəyişilir. Məsələn, rüşeymin nütfədən əlaqə və müzğə mərhələlərini keçib kamil bir insan formasına düşdüyü tədrici yol onun təqdirinin müxtəlif mərhələləridir ki, zaman və məkan parametrlərinə də şamildir. Onun hər hansı mərhələlərin birində düşməsi onun təqdirindəki dəyişiklik hesab olunur. Lakin qəza mərhələsi tədrici deyil, birbaşa olub bütün səbəb və şərtlərin yaranması ilə əlaqədardır və bu, labüd, dəyişikliyə qabil olmayan bir işdir.

“Allah bir şeyi hökm edəndə ona “ol!” deyir, o da dərhal vücuda gəlir.”[1]

Qeyd olunduğu kimi, qəza və qədər sinonim şəklində də işlənir, buna görə də labüd və qeyri-labüd olaraq iki yerə bölünür. Bu mənada ki, rəvayətlərdə və dualarda “qəzanın dəyişdirilməsi” adı ilə qeyd olunur. Məsələn, sədəqə vermək, valideynə ehsan və yaxşılıq etmək, qohum-əqrəba ilə əlaqələri bərqərar etmək, dua oxumaq qəzanın dəyişdirilməsi amilləri kimi təqdim olunmuşdur.

ELMİ QƏZA VƏ QƏDƏR VƏ EYNİ QƏZA VƏ QƏDƏR

Bəzən ilahi təqdir və qəza Allah-taalanın hər hansı varlığın vücuda gəlməsi üçün lazım olan şəraitlər, səbəblər və müqəddimələrin yaranmasına, eləcə də, onların mütləq baş verməsinə olan elmi mənasında işlənir, buna **“elmi qəza və qədər”** deyilir. Bəzən isə hadisə və varlıqların tədrici seyrinin, onların əyani olaraq gerçəkləşməsinin Mütəal Allaha mənsub edilməsi mənasında işlənir və buna da **“eyni qəza və qədər”** deyilir.

Quran ayələri və rəvayətlərdən məlum olur ki, Allahın bütün varlıqlara olan elmi xaricdə əyani olaraq gerçəkləşdiyi kimi, şərif və yüksək məqamlı

---

[1] “Ali-İmran” surəsi, ayə:47. Eləcə də aşağıdakı ayələrə müraciət edin: “Bəqərə” surəsi, ayə:117, “Məryəm” surəsi, ayə:35, “Ğafir” surəsi, ayə:68.

varlıq olan Lövhi-məfhuzda da inikas olunur; hər kəs Allahın izni ilə lövhi-məfhuzla əlaqə tapa bilsə keçmişdəki və gələcək hadisələrdən agah olar. Ondan aşağı mərtəbədə olan lövhlər vardır ki, hadisələr natamam və müəyyən şərtlərlə inikas olunur. Ondan məlumat əldə edə bilən şəxslər dəyişikliyə məruz qala bilən, müəyyən şərtləri olan məhdud məlumatlar qazanılar. Bəlkə də aşağıdakı ayə bu iki növ taledən söhbət açır:

"Allah istədiyini məhv edir, istədiyini sabit, bərqərar edir və Ümmül-kitab Onun yanındadır."[1]

Qeyri-labüd olan, başqa şeylərlə şərtlənən təqdirlərin dəyişilməsi rəvayətlərdə **"bəda"** adlandırılmışdır.

Hər bir halda elmi qəza və qədərə etiqad bəsləmək Allahın əzəli elminə etiqaddan başqa heç bir problem yaratmır. Əvvəlki dərsdə cəbrə inananların Allahın elmi ilə əlaqədar yaratdıqları şübhələr araşdırılaraq onların süstlüyü və əsassızlığı aydınlaşdırıldı.

Amma eyni qəza və qədərə, xüsusilə labüd taleyə etiqad bəsləmək daha çətin bir məsələ yaradır. Tövhidin müstəqil təsirqoyma barədə olan bəhsdə onun cavabı qısa şəkildə məlum olmasına baxmayaraq, bu məsələnin cavabları verilməlidir.

QƏZA VƏ QƏDƏRİN İNSANIN İXTİYARI İLƏ OLAN ƏLAQƏSİ

Məlum oldu ki, Allahın eyni qəza və qədərinə etiqad bəsləmək bunu gərəkli edir ki, varlıqların vücudunun yarandığı ilk vaxtdan inkişaf etdikləri və ömürlərinin axırına qədər, hətta uzaq müqəddimələrin yaranıdığı vaxtdan belə Allahın hikmətli tədbiri altında olduğunu bilək, yekun mərhələyə çatmağın və vücuda gəlməyin şərtlərinin hazırlanmasını da Allahın iradəsinə istinad edək.[2]

Başqa sözlə desək, hər bir varlığın özü Allahın təkvini iradəsinə və izninə mənsub edildiyi və Onun izni olmadan heç bir şeyin vücuda gəlmədiyi kimi, hər bir şeyin vücuda gəlməsi də ilahi təqdir və qəzaya istinad verilir, bu olmadıqda heç bir varlıq özünəməxsus hədd-hüdud və formaya malik olmur, özünün yekun mərhələsinə çatmır. Bu mənsubedilmənin bəyanı həqiqətdə təsirdə müstəqillik mənasında olan tövhidin tədrici təlim verilməsidir ki, bu da tövhidin ən yüksək mərtəbələrindən olub insanların ruhi-mənəvi baxımdan qurulmasında əzəmətli rol oynayır.

Amma varlıqların və hadisələrin Allahın izninə və hətta məşiyyətinə istinad verilməsi daha asan dərk olunasıdır. Son mərhələnin və onların qəti şəkildə təyin olunmasının ilahi qəzaya istinad verilməsi isə belə deyildir. O çox çətin dərk olunduğuna görə daha artıq araşdırılmışdır. Çünki belə bir etiqadla insanın özünün taleyində həlledici rola malik olan ixtiyarını qəbul

---

[1] "Rəd" surəsi, ayə:39.

[2] İlahi qəza və iradənin bir-birinə tətbiq olunması (müxtəlif halların tələbinə görə) "Ali-İmran" surəsinin 47-ci ayəsinə "Yasin" surəsinin 82-ci ayəsinə tətbiq etməklə aydın olur.

etməyin bir yerə cəm olunması çox çətindir. Buna görə də mütəkəllimlərdən bəziləri (əşərilər) ilahi qəzanın insanların rəftarına şamil olmasını qəbul etdiklərinə görə cəbrə meyl etmişlər. Digər bir qrupu isə (mötəzililər) cəbr və onun acınacaqlı, qorxulu nəticələrini qəbul edə bilmədiklərindən ilahi qəzanın insanın ixtiyari fellərinə şamil olmasını inkar etmişlər və hər iki dəstə öz nəzəriyyələri ilə müxalif olan ayə və rəvayətləri başqa mənalara yozmuşlar. Belə ki, müfəssəl kəlam kitablarında, eləcə də cəbr və təfviz barədə yazılan xüsusi risalələrdə bu məsələ qeyd olunmuşdur.

İradın ümdə yeri bundan ibarətdir ki, əgər insanın işi doğrudan da ixtiyari olsa və onun iradəsinə nisbət verilsə, onu ilahi qəza və iradəyə necə aid etmək olar? Əgər ilahi qəzaya istinad verilirsə, onu insanın ixtiyar və seçkisinə tabe olduğunu necə demək olar?

Buna əsasən bu iradın aradan qaldırılması və işlərin insanın ixtiyar və iradəsinə nisbət verilməsi ilə bərabər, onun ilahi qəza və iradəyə də istinad verilməsi arasında **cəm etmək** üçün vahid bir məlulun bir neçə illətə nisbət verilməsinin növlərini bir qədər izah etməliyik ki, ixtiyari işin insana və Mütəal Allaha istinad verilməsi növü aşkar olsun.

MÜXTƏLİF İLLƏTLƏRİN TƏSİR NÖVLƏRİ

Bir neçə illətin bir məlulun yaranmasındakı təsiri bir neçə cür təsəvvür olunur:

1.Bir neçə illət birlikdə təsir edir, məsələn, toxum, su, enerji və s. kimi şeylər toxumun cücərib bitki olmasına təsir göstərir.

2.Onlardan hər biri növbə ilə təsir edir, məsələn, bir neçə motor növbə ilə işə düşərək təyyarənin hərəkətinin davam etməsinə səbəb olur.

3.Onların təsiri bir-birinə əlaqəli (mütərəttib) şəkildə olur. Məsələn, bir neçə topun bir-biri ilə toqquşması zamanı, yaxud zəncirvari yol qəza hadisələrində bu mülahizə olunur. Onun digər nümunəsi insan iradəsinin əlin hərəkətində, əlin isə qələmin hərəkətində, qələmin də yazının yaranmasındakı təsiridir. Belə ki, varlıqların ömrünün uzunluğu onların sayına bölünür və onların hər bir hissəsi amillərdən birinin məluludur.

4.Bir neçə amilin mütərəttib təsiri. Yəni onlardan hər birinin vücudu digərinin vücuduna bağlı olsun. Bu, əvvəldə fərz olunanın əksinədir. Belə ki, qələmin varlığı əlin varlığına, əlin varlığı da insan iradəsinə bağlı deyildir.

Bu növlərin hamısında vahid məlulun yaranması üçün bir neçə illətin toplanması mümkün, hətta, zəruridir. İxtiyari işdə də insanın iradəsi ilə ilahi iradənin təsiri sonuncu qismdən olacaqdır. Çünki insanın varlığı və onun iradəsi ilahi iradəyə bağlıdır.

Amma iki illətin vahid bir məlula cəm olmasının mümkün olmadığı hal isə iki varlıq bağışlayan illətin bir yerdə cəm olması, yaxud eyni zamanda bir-birininə bərabər tərzdə və növbə ilə təsir edən, bir-birinin bir yerə yığışması qeyri-mümkün olan iki illət kimidir. Məsələn, iradə sahibi olan iki

faildən vahid bir iradənin baş verməsi, yaxud iki vahid varlığın iki illət məcmuəsinə (iki tam illət) istinad verilməsi kimi.

ŞÜBHƏNİN DƏF EDİLMƏSİ

İnsanın ixtiyari fellərinin varlığının Mütəal Allaha istinad verilməsi ilə onların insanın özünə istinad verilməsi arasında ziddiyyət yoxdur, çünki bu istinadlar bir-birinin davamındadır və bir-birinə maneçilik törətmir.

Başqa sözlə desək, felin insani failə istinad verilməsi bir səthdədir və onun varlığının Mütəal Allaha istinad verilməsi isə daha yüksək bir səthdədir ki, bu səthdə insanın özünün varlığı, işi üzərində gördüyü maddənin varlığı, işi onların vasitəsilə gördüyü alətlərin varlığı hamılıqla Ona istinad verilir.

Deməli, insan iradəsinin öz işində "tam illətin sonuncu hissəsi" kimi təsir göstərməsi ilə tam illətin bütün hissələrinin Mütəal Allaha istinad verilməsi arasında ziddiyyət yoxdur. Dünyanı, insanı və onun bütün vücud işlərini Öz qüdrəti əlində saxlayan, onlara arasıkəsilmədən vücud bağışlayan, onların növbənövlərini yaradan məhz Allahdır və heç bir varlıq, heç bir halda və heç bir zamanda Ondan ehtiyacsız, Allah qarşısında istiqlaliyyətə malik deyildir. Deməli, insanın ixtiyari işləri Allahdan ehtiyacsız və Onun iradəsi hüdudlarından kənarda olmayacaq, onların bütün sifətləri, xüsusiyyətləri, həddi-hüdudu da ilahi qəza və təqdirə bağlı olacaqdır. Belə deyildir ki, "ya insanın iradəsinə istinad verilmiş olsun, ya da Allahın iradəsinə". Çünki bu iki iradə bir-biri ilə eyni səviyyədə, bir-birinə mane olacaq tərzdə deyildir və onların işlərin gerçəkləşməsindəki təsiri bədəl üzrə (növbə ilə) baş vermir. Əksinə, insanın iradəsi onun varlığının özü kimi Allahın iradəsinə bağlıdır və onun gerçəkləşməsində Mütəal Allahın iradəsi zəruridir:

"Və aləmlərin Rəbbi olan Allahın istədiyi şeydən başqa heç nə istəyə bilməzsiniz."[1]

QƏZA VƏ QƏDƏRƏ ETİQAD BƏSƏLMƏYİN TƏSİRLƏRİ

İlahi qəza və qədərə etiqad bəsləməyin Allaha mərifətin dəyərli dərəcəsinə çatmasından, insanın əqli baxımdan təkamülə yüksəlməsindən əlavə, çoxlu əməli təsirləri də vardır ki, onların bəzilərini aşağıda qeyd edirik:

Hadisələrin baş verməsinin Mütəal Allahın hikmətli iradəsinə tabe olduğunu, ilahi təqdir və qəzaya istinad verildiyini bilən şəxs xoşagəlməz hadisələrdən qorxmaz, onların qarşısında özünü itirməz, ah-nalə etməz. O bu hadisələrin dünyanın hikmətli nizamının bir hissəsi olduğunu, hikmət və məsləhət üzündən baş verdiyini və gələcəkdə də baş verəcəyinə diqqət yetirməklə onları gülərüzlə qarşılayır, səbr, təvəkkül, razılıq və təslim kimi fəzilətli səciyyələri və insani keyfiyyətləri əldə edir. Həmçinin dünyanın ötəri xoşluqlarına, şad günlərinə məftun olmur, onlarla məğrurlaşıb məst

[1] "Təkvir" surəsi, ayə:29.

olmur, Allahın verdiyi nemətləri özünü hamıdan üstün hesab etmək və qürurlanmaq vasitəsi hesab etmir.

Bu dəyərli təsirlər də aşağıdakı ayənin işarə etdiyidir:

"Yer üzündə baş verən və sizin öz başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, bir kitabda (lövhi-məhfuzda) yazılmamış olsun. Bu, Allah üçün çox asandır! Bu sizin əlinizdən çıxanlara kədərlənməyiniz və sizə verilənə də qürrələnməyiniz üçündür. Allah özünü bəyənən, (özü ilə) fəxr edən heç kəsi sevməz."[1]

Eyni zamanda diqqət yetirməliyik ki, qəza və qədər və tövhidin müstəqil təsirində əldə edilən yanlış məlumatlar süstülüyə, tənbəlliyə, zəlilliyə, zülmü qəbul etməyə, məsuliyyətdən imtina etməyə səbəb olmasın. Bilməliyik ki, əbədi səadət və bədbəxtlik bizim ixtiyari işlərimizdən asılıdır: "Hər kəsin qazandığı pis əməl də, yaxşı əməl də özünə aiddir. İnsanın kəsb etdiyi şeylər onun xeyrinə, özünü oda-suya vurub əldə etdiyi şeylər isə onun əleyhinədir."[2] Həmçinin "İnsan üçün, onun səy etdiyi şeylərdən başqa bir şey yoxdur."[3]

SUALLAR

1.Qəza və qədərin lüğətdəki mənalarını bəyan edin.

2.İlahi qəza və təqdir deməkdə məqsəd nədir?

3.Hansı mülahizəyə görə qəza və qədər labüd və qeyri-labüd olaraq iki yerə bölünür?

4.Bəda nədir?

5.Elmi qəza və qədəri və eyni qəza və qədəri bəyan edin.

6."Lövhi-məfhuz", "lövhi-məhv və isbat" eləcə də onların labüd və qeyri-labüd tale ilə olan əqalələrini şərh edin.

7.Qəza və qədərin insanın ixtiyarı ilə bir yerə cəm olunmasındakı iradı və bu mövzu ətrafında mütəkəllimlərin ixtilafını izah edin.

8.Çoxlu illətlərin vahid bir məlula təsir növlərini bəyan edin və bir neçə illətin vahid məlulun üzərinə yığışmasının hansı növünün qeyri-mümkün olmasını deyin.

9.Qəza və qədər məsələsində cəbr şübhəsinin cavabını verin.

10.İlahi qəza və qədərə etiqad bəsləməyin müsbət təsirlərini şərh edin.

---

[1] "Hədid" surəsi, ayə:22-23.

[2] "Bəqərə" surəsi, axırıncı ayə

[3] "Nəcm" surəsi, ayə:39.

İYİRMİNCİ DƏRS

İLAHİ ƏDALƏT

–**Müqəddimə**
–Ədalətin məfhumu
–İlahi ədalətin dəlili
–Bir neçə şübhənin həlli

MÜQƏDDİMƏ

Keçən dərslərdə iki kəlami firqə olan əşəri və mötəzilə arasındakı ixtilaflarla tanış olduq. Onlardan biri də ilahi iradə və kəlam, sifətlərdə tövhid, cəbr, ixtiyar, qəza və qədər məsələləri idi. Əksər hallarda onların nəzəriyyələri ifrat və ya təfrit kimi iki istiqamətdə olur. Onların arasındakı əsaslı ixtilaflardan biri də ilahi ədalət məsələsidir. Bu məsələdə şiələrin nəzəri mötəziləyə müvafiq hesab edilmişdir və bu iki məzhəb məcmu halında əşərilərin qarşısında "ədliyyə" adlandırılır. Bu məsələnin kəlam elmində malik olduğu əhəmiyyətə görə əsaslı məsələlərdən sayılır və hətta şiə və mötəzilənin kəlami məzhəb xüsusiyyətlərindən və əqidə üsullarından da hesab edilir.

Diqqət yetirmək lazımdır ki, əşərilər ilahi ədaləti inkar etmir və nəuzibillah, Allahı zalım hesab etmirlər. Çünki Qurani-kərimin aşkar və heç bir şərhə ehtiyacı olmayan başqa mənalara yozula bilməyən ayələri Allahın ədalətli olmasını isbat edərək onun hər hansı bir zülmü rəva görməsini inkar edir. Əsas bəhs insanın əqlinin öz-özünə və şəri bəyanlar (yəni Quran və sünnət) olmadan fellərin, xüsusilə ilahi fellərin qanunlarını nəzərə alaraq onların əsasında bir işin yerinə yetirilməsinin, yaxud digər işin görülməsinin zərurətinə hökm etməsi, yaxud "Mütəal Allah gərək möminləri behiştə kafirləri isə cəhənnəmə aparsın" - deməsi, yoxsa bu cür mühakimələrin yalnız vəhy əsasında baş verməli olması və onları nəzərə almadan əql təklikdə qəzavət edə bilməməsi əsasındadır.

Deməli, ixtilafın əsas nöqtəsi **"hüsn və qübhi əqli"** (əqli gözəllik və çirkinlik) adı ilə tanınan məsələdir. Əşərilər bu məsələ barəsində əqlin hökmünü inkar edərək inanırlar ki, təkvini işlərdə Allahın gördüyü işlər gözəldir, şəriət işlərində isə Allahın əmr etdiyi işlər yaxşıdır, nəinki yaxşı iş olduğuna görə Allah onu yerinə yetirir, yaxud ona əmr edir.

Amma ədliyyəçilər inanırlar ki, fellər, onların təkvini və təşrii cəhətdən Mütəal Allaha mənsub edilməsi nəzərə alınmadan gözəllik və ya çirkinliklə vəsf edilə bilər, yəni insanın əqli də fellərin gözəllik və çirkinliyini, Allahın çirkin iş görməkdən uzaq olmasını müəyyən qədər dərk edə bilər. Əlbəttə bu, nəuzibillah, Allaha əmr və nəhy etmək mənasında deyil, əksinə, bu mənadadır ki, müəyyən bir işin onlarla olan tənasübünü kəşf etsin və bunun əsasında qəbahətli və çirkin işlərin Allahdan baş verməsini qeyri-mümkün hesab etsin.

Aydındır ki, bu məsələnin ətraflı şəkildə araşdırılması, əşərilər tərəfindən əqli gözəllik və çirkinliyin inkar olunmasına dair yaradılan şübhələrə cavab verilməsi və nəhayətdə, onları ədliyyə ilə qarşı-qarşıya qoyan şübhələrə cavab verilməsi bu kitabın həcminə sığmaz. Həmçinin mötəziləçilərin sözlərinin müəyyən zəif cəhətləri də ola bilər ki, öz yerində araşdırılmalıdır. Amma şiələr "əqli gözəllik və çikrinliyin" əslinə etiqad bəsləməyi qəbul edir

və bu Allahın kitabı və Peyğəmbərin (s) sünnəsi və məsum İmamların (ə) kəlamında təsdiq olunur.

Buna görə də biz əvvəlcə ədalətin məfhumu barədə bir qədər izah verdikdən sonra bu sifətin Allahın feli sifətlərindən olmasına əqli dəlil gətirəcəyik, sonda isə bu məsələ ilə əlaqədar ən mühüm şübhələri həll edib araşdıracağıq.

ƏDALƏTİN MƏFHUMU

Ədalətin lüğətdəki məfhumu "bərabərlik və bərabər etmək", ümumcamaat arasında isə "başqalarının hüquqlarına riayət etmək"dir və zülmün (başqalarının hüququnu tapdalamağın) qarşısında işlədilir. Buna görə də ədaləti "itau kulli zi həqqin həqqəh" yəni hər bir haqq sahibinin haqqını özünə vermək kimi tərif edirlər. Buna əsasən əvvəlcə elə bir varlığı nəzərə almaq lazımdır ki, ona riayət edilməsi ədalət, tapdalanması isə zülm adlandırıla biləcək haqqa malik olsun. Lakin bəzi vaxtlar ədalət məfhumu daha geniş mənada, yəni "hər bir şeyi öz yerində qərar vermək", yaxud "hər bir işi layiqli olduğu tərzdə görmək" mənasında işlədilərək aşağıdakı kimi tərif edilir: "Vəzu kulli şəyin fi məvziihi." Bu tərifə əsasən ədalət hikmət, ədalətli iş isə hikmətli işlə bərabər (sinonim) olur. Amma haqq sahibinin haqqı, hər şeyin öz məqamına layiq tərzdə təyin olunmasına gəldikdə isə bu barədə çox geniş mətləblər vardır ki, əxlaq və hüquq fəlsəfəsinin mühüm sahələri bu işlə məşğuldur. Həmin məsələləri bu kitabda araşdırmağa macal yoxdur.

Burada diqqət yetirilməli məsələ belədir: hər bir aqil insan dərk edir ki, heç bir üzrlü səbəb olmadan bir tikə çörəyi yetim uşağın əlindən alsan, yaxud günahsız insanın qanını nahaq yerə axıtsan, bu işlərin zülm hesab olunur və qəbahətli işə mürtəkib olursan. Əksinə, əgər oğurlanmış çörək tikəsini onu oğurlayan şəxsin əlindən alıb yetim uşağa qaytarsan, cinayətkar qatili öz cəzasına çatdırsan, ədalətli və təqdirəlayiq bir iş görmüş olarsan. Əqlin bu mühakiməsi ilahi nəhy və əmrə əsaslanmır, hətta Allahın varlığına inanmayan şəxs olsa belə, yenə həmin qaydada mühakimə yürüdəcəkdir.

Amma "görəsən, bu mühakimənin sirri nədir və hansı idrak qüvvəsi bu gözəlliyi və çirkinliyi dərk edir?" kimi məsələlər müxtəlif fəlsəfi bəhslərdə araşdırılmalıdır.

Bir sözlə, ədalət üçün ümumi və xüsusi olaraq iki məfhum nəzərdə tutmaq olar: Onlardan biri başqalarının hüququna riayət etmək, digəri isə hikmətli iş görməkdir. Başqalarının hüququna riayət etmək də ikincinin nümunələrindən hesab olunur.

Buna əsasən ədalət bütün insanları, yaxud bütün şeyləri eyni bir səviyyədə tutmaq mənasına deyil. Misal üçün ədalətli müəllim o kəs deyil ki, bütün şagirdlərə – istər çalışqan olsun, istərsə də tənbəl-yaxşı qiymət versin. Ədalətli qazi o kəs deyil ki, münaqişəli mal-dövləti münaqişə tərəfləri arasında bərabər bölsün. Əksinə, ədalətli müəllim o kəsdir ki, şagirdlərdən

hər birinə layiq olduğu qiyməti yazsın, ədalətli qazi də odur ki, münaqişəli malı həqiqi sahibinə qaytarsın.

İlahi ədalət və hikmətin də tələbi bu deyildir ki, bütün məxluqatı eyni səviyyədə yaratsın və misal üçün, insana da buynuz, qanad və s. versin. Əksinə, Yaradanın hikməti dünyanı mümkün olan ən çox xeyir və kamaldan bəhrələnəcəyi şəkildə, onun müxtəlif hissələrini təşkil edən varlıqları da yekun hədəflə mütənasib olacaq şəkildə yaratmasını tələb edir. Həmçinin Allahın hikmət və ədaləti bunu tələb edir ki, hər insanı onun istedad və bacarığı qədərində mükəlləf etsin[1], ixtiyari səyinə və bacarığına diqqət yetirərək onun barəsində mühakimə yürütsün[2] və nəhayət, ona işlərinə münasib olan mükafat, yaxud cəza versin.[3]

İLAHİ ƏDALƏTİN DƏLİLİ

Qeyd olunduğu kimi, bir təfsirə görə ilahi ədalət ilahi hikmətin bir hissəsidir, digər bir təfsirə əsasən, onunla eyniyyət təşkil edir. Təbiidir ki, on birinci dərsdə işarə edildiyi kimi, onun isbat olunmasının dəlili də məhz ilahi hikməti isbat edən dəlildən ibarət olacaqdır. Burada da əlavə izahat veririk.

Bildik ki, Mütəal Allah qüdrət və ixtiyarın ən yüksək mərtəbəsinə malikdir və heç bir qüvvənin təsiri altına düşmədən, məcbur olmadan mümkünül-vücuda aid olan hər bir işi istəsə, yerinə yetirər, istəməsə - yox. Amma qüdrəti çatdığı işlərin hamısını yerinə yetirmir, əksinə, istədiyi və iradə etdiyi işləri görür.

Həmçinin bildik ki, Onun iradəsi hesabsız-kitabsız deyildir, əksinə, O Özünün kamal sifətlərinin tələbinə uyğun olaraq iradə edir. Əgər Onun kamal sifətləri hər hansı bir işin görülməsini tələb etməsə, heç vaxt həmin işi görməyəcəkdir. Mütəal Allah sırf kamaldan ibarət olduğundan Onun iradəsi də ilk əsasda məxluqatın xeyir və kamalına aid olur və əgər hər hansı bir məxluqun vücuda gəlməsi aləmdə müəyyən nöqsanların və şər işlərin yaranmasına səbəb olsa, onun şəri müəyyən məqsədlərə tabe olacaq, yəni bir çox inkarolunmaz xeyirlərin həyata keçməsindən ötrü onun şəri ilahi iradə altında olacaqdır.

İlahi kamal sifətləri bunu gərəkli edir ki, dünya hasil olması mümkün olan ən çox kamal və xeyir məcmusunda olacaq bir vəziyyətdə yaradılsın. Buradan da Allah-taala üçün hikmət sifəti sübuta yetir.

Deməli, insanın vücuda gəlməsinin mümkünlüyü və onun vücudunun ən çox xeyir mənşəyi olacağı şəraitdə ilahi iradə vasitəsilə yaradılır. İnsanın əsas imtiyazlarından biri də ixtiyar və azad iradədir. Şübhəsiz ixtiyar və seçmək qüdrətinə malik olmaq varlıq kamallarından biri hesab olunur və

---

[1] "Bəqərə" surəsi, ayə:286.

[2] "Yunis" surəsi, ayə:54.

[3] "Yasin" surəsi, ayə:54.

ona malik olan bir varlıq ondan məhrum olan varlıqdan daha kamil hesab olunur. İnsanın ixtiyar sahibi olması da bunu gərəkli edir ki, həm yaxşı və layiqli işlər görərək yekun kamala, əbədi səadətə doğru irəliləməyə, həm də çirkin və yaramaz işlər görərək əbədi bədbəxtçiliyə və ziyankarlığa doğru sürüklənməyə qadir olsun. Əlbəttə, ilahi iradəsi ilk növbədə onun təkamülüdür, lakin insanın ixtiyari təkamülündə tənəzzül və süqut da mümkün olduğundan, (bunlar nəfsani istəklərə və şeytani məqsədlərə itaət etmək nəticəsində hasil olur) belə bir ixtiyari süqut da ilahi iradə çərçivəsində olur.

Agahlıq üzündən olan seçkidə xeyir və şər yollarının düzgün tanınmasına ehtiyacı duyulduğundan Mütəal Allah insanı onun xeyir və məsləhətinə səbəb olan şeyləri yerinə yetirməyi əmr etmiş, onun fəsada və süquta uğramasına səbəb olan işlərdən çəkindirmişdir ki, onun təkamülə doğru hərəkətinin vəsaitləri yaransın.

İlahi təkliflər insanın onlara əməl edərək nəticəsinə çatmaq məqsədilə yaradılmışdır və Allah üçün heç bir xeyir və mənfəət kətirmir. Buna görə də ilahi hikmət bu təkliflərin mükəlləf şəxslərin bacarıq və qüdrəti ilə mütənasib olmasını tələb edir, çünki itaət etməyə imkan olmayan təklif əbəs olacaqdır.

Beləliklə, ilk mərhələdə (xüsusi mənada) olan ədalət, yəni təklif məqamında ədalət belə sübuta yetir ki, əgər Mütəal Allah bəndələrin taqət və bacarığının fövqündə olan bir təklif təyin etsəydi, ona əməl edilməsi mümkün olmaz və əbəs iş görülmüş olardı.

Amma bəndələr arasında mühakimə yürütmək, hökm etmək məqamındakı ədalətə gəldikdə isə, sübut olunur ki, bu iş fərdlərin müxtəlif mükafat və cəzalara layiq olmasını ayırd etmək məqsədi ilə görülür, əgər ədalətin əksinə olarsa, nəzərdə tutulan məqsədin tam əksi hasil olacaqdır.

Mükafat və cəza vermək məqamındakı ədalətə gəldikdə isə, bu, yaradılışın son hədəfinə diqqət yetirməklə sübuta yetir. Çünki insanı, onun yaxşı və pis əməllərinin nəticəsinə çatmaq üçün yaradan kəs əgər onu, bu məqsədin tələbinin əksinə olaraq mükafat versə və ya cəzalandırsa, öz hədəfinə çatmayacaqdır.

Deməli, ilahi ədalətin səhih mənada və bütün növlərində olan dəlili bundan ibarətdir ki, Onun zati sifətləri ədalətli və hikmətli rəftar tələb edir, Onda zülmü, əbəs işləri tələb edən bir sifət mövcud deyildir.

BİR NEÇƏ ŞÜBHƏNİN CAVABI

1.Məxluqların, xüsusilə, insanların yaradılışında mövcud olan fərqlər Allahın hikmət və ədaləti ilə necə uyğun gələ bilər? Nə üçün ədalətli və hikmətli Allah bütün varlıqları eyni səviyyədə xəlq etməyib?

Cavab: Məxluqatın vücudundakı ixtilaflar yaradılış sistemi və ona hakim olan səbəb-nəticə qanunlarına tabedir. Onların hamısının eyni səviyyədə olması fərziyyəsi xam bir təsəvvürdür. Azacıq diqqət yetirdikdə

məlum olacaqdır ki, belə bir fərziyyə yaradılışın tərk edilməsi ilə bərabərdir. Misal üçün, bütün insanlar kişi, yaxud qadın yaradılsaydılar, nəsil artımı baş verməz və insan nəsli kəsilərdi. Əgər bütün varlıqlar insan yaradılsaydı, onun yemək, içmək və s. kimi ehtiyacları təmin olunmazdı. Həmçinin, əgər bütün heyvanlar və ya bitkilər bir növ və bir rəngdə yaradılıb, hamısı eyni xüsusiyyətlərə malik olsaydı, saysız-hesabsız fayda və gözəllik vücuda gəlməzdi. Varlıqlardan bu, yaxud başqa birisinin yaranması, həmçinin bu, yaxud başqa bir şəkildə olan xüsusiyyətlərdə yaranması, maddənin hərəkət və dəyişikliyi prosesinə tabe olan səbəb və şərtlərdən asılıdır. Heç kəsin yaradılışdan qabaq Allahın üzərində bir haqqı yoxdur ki, "onu belə, yaxud başqa cür yaratsın", yaxud "bu yerdə, yaxud başqa bir yerdə, bu zamanda, yaxud o zamanda qərar versin" deməklə ədalət və ya zülmdən danışmağa yer qalsın.

2.Əgər Allahın hikməti insanın bu dünyada yaşamasını tələb edirsə, onda nə üçün onu öldürür və həyatına son qoyur?

Cavab: Əvvəla, varlıqların bu dünyadakı ölüm və həyatları da təkvini və səbəb-nəticə qanunlarına bağlıdır və bunlar yaradılış sisteminin tələbidir. **İkincisi,** əgər canlı varlıqlar ölməsəydi, sonrakı varlıqların yaradılmasına şərait yaranmaz və gələcək nəsillər vücud və həyat nemətindən məhrum olardı. **Üçüncüsü,** əgər bütün insanların diri qalmasını fərz etsək, qısa bir zaman ərzində yer üzü onların həyatı üçün daralar və əzab-əziyyətdən, aclıqdan ölüm arzusu edərdilər. **Dördüncüsü,** insanın yaradılışında əsas hədəf əbədi səadətə çatmaqdır, insanlar ölüb bu dünyadan köçməyincə son hədəflərinə nail ola bilməzlər.

3.Mövcud oln bu qədər əzab-əziyyətlər, xəstəliklər, təbii fəlakət və bəlalar (sel və zəlzələ kimi), ictimai çətinliklər (zülmlər və müharibələr) Allahın ədaləti ilə necə uyğun gəlir?

Cavab: Əvvəla, xoşagəlməz təbii hadisələr maddi amillərin qarşıdurmasından və onların arasındakı qarşılıqlı təsirdən irəli gəlir. Onların xeyirləri şərlərinə qələbə çaldıqda hikmətin əksinə deyil. İctimai pozuntuların, haqsızlıqların yaranması insanın azad və ixtiyar sahibi olmasından irəli gəlir ki, bu da ilahi hikmətin tələbidir. Eyni zamanda ictimai həyatın mənafeyi onda mövcud olan pozuntulardan, haqsızlıqlardan daha artıqdır. Əgər pozuntular qələbə çalarsa, yer üzündə insan qalmaz.

İkincisi, bir tərəfdən bu qədər əzab-əziyyətlər, çətinliklər insanın təbiətin sirlərini kəşf etməsinə, müxtəlif elm və texnikanın yaranmasına səbəb olur, digər tərəfdən də bu kimi amillərlə mübarizə aparmaq istedadların çiçəklənib inkişaf etməsinə, insanların tərəqqi və təkamülünə səbəb olur. Nəhayət, bu dünyada hər cür əzab-əziyyətə və çətinliyə sinə gərmək düzgün məqsədlə olarsa, əbədi axirət dünyasında çox dəyərli mükafata malik olacaq və onun əvəzi ən gözəl şəkildə veriləcəkdir.

4.Bu dünyada məhdud zaman ərzində edilən günahlar üçün əbədi əzab verilməsi ilahi ədalətlə necə uyğun gələ bilər?

Cavab: Yaxşı əməl ilə axirət mükafatı və pis əməl ilə axirət cəzası arasında bir növ səbəbiyyət əlaqəsi mövcuddur ki, ilahi vəhy vasitəsilə camaata xatırladılmışdır. Elə bu dünyada bəzi cinayətlərin uzun-uzadı və acınacaqlı təsirləri olur, məsələn, insanın özünün, yaxud başqasının gözünü bir anda kor etməsinin nəticəsi ömrünün axırına qədər kor qalmasına səbəb olur. Böyük günahlar da axirətdəki əbədi təsirlərə malikdir. Əgər bir şəxs bu dünyada onların təsirinin aradanqaldırma vasitələrini (tövbə kimi) tədarük görməzsə, onun pis nəticələri əbədi nəsibi olacaqdır. İnsanların bir anlıq törədilən cinayət vasitəsilə ömürlərinin axırına qədər kor qalmaları ilahi ədalətlə zidd olmadığı kimi, böyük günahlar sayəsində əbədi əzaba düçar olmağın da ilahi ədalətlə ziddiyyəti yoxdur. Çünki bu, günahkar şəxsin agahlıq və qəsdən etdiyi əməlin nəticəsidir.

SUALLAR

1.İlahi ədalət məsələsindəki ixtilafın kökü nədir?
2.Ədalət məfhumunu izah edin.
3.Ədalət dedikdə bütün varlıqların bərabər və eyni səviyyədə olması düşünülürmü? Niyə?
4.İlahi hikmət və ədalət nəyi tələb edir?
5.İlahi ədalətin dəlili hansıdır?
6.İnsanın yaradılışındakı hədəf hansıdır?
7.Varlıqların təkvini ixtilafları ilahi ədalət və hikmətlə necə uyğun gəlir?
8.Hikmətli Allah Öz yaratdığını niyə öldürür?
9.İctimai və təbii bəlalar ilahi ədalət və hikmətlə necə uyğun gələ bilər?
10.Nəyə görə məhdud günah qeyri-məhdud əzaba səbəb olur?

İYİRMİ BİRİNCİ DƏRS

NÜBÜVVƏT MƏSƏLƏSİNƏ MÜQƏDDİMƏ

–**Müqəddimə**
–Bu bölmənin bəhslərində hədəf
–Kəlam elmində təhqiqin tarixi

MÜQƏDDİMƏ

Öyrəndik ki, hər kəsin insan həyatının əqlə uyğun formasından bəhrələnməsi üçün həll etməli olduğu əsas məsələlər aşağıdakılardan ibarətdir:

1.Dünyanın və insanın varlığı kimin tərəfindəndir? Onların idarə olunması kimin öhdəsinədir?

2.İnsan həyatının sonu nədir və yekun məqsəd hara doğrudur?

3.Hər insanın düzgün həyat yolunu tanıması və onu ötməklə həqiqi səadətə və istənilən kamala çatması üçün zəmanət verilmiş vasitə vardırmı? Və bu kimin və kimlərin ixtiyarındadır?

Bu sualların cavabı bütün asimani dinlərin əsas əqidələri hesab olunan üçlük əqidə prinsipidir (tövhid, məad və nübüvvət).

Kitabın birinci bölməsində Allaha mərifət məsələlərini araşdırdıq. Belə nəticə alındı ki, bütün yaradılanlar öz varlığını yeganə Allahdan əldə edirlər və hamılıqla Onun hikmətli tədbiri altındadır. Onların heç biri, heç bir işdə, heç bir zaman və məkanda Ondan ehtiyacsız deyillər.

Biz sözügedən mətləbləri əqli bürhanlarla isbat edərkən[1] qeyd etdik ki, bu kimi məsələləri yalnız əql yolu ilə isbat etmək olar. Çünki Allahın kəlamına istinad edərək təəbbüdi yolla olan istidlal o zaman düzgün ola bilər ki, Allahın varlığı, Onun sözü və o sözün etibarı əvvəlcədən əqli dəlillərlə sübut olunmuş olsun. Belə ki, peyğəmbərin və imamın sözünə istinad edilməsi də onların nübüvvət və imamətinin isbat olunmasına və sözlərinin höccət olmasının sübuta yetməsinə bağlıdır. Deməli, nübüvvətin özünü də vəhy yolu ilə isbat etmək lazımdır. Məadın özü isə həm əqli, həm də nəqli dəlillərlə isbat oluna bilər.

Buna əsasən nübüvvət və məad məsələlərini bəyan etmək üçün ilk növbədə bu məsələləri həmin iki əsas əqli dəlillə isbat etmək lazımdır. Peyğəmbəri-Əkrəmin (s) nübüvvəti və Qurani-kərimin haqq olması sübuta yetdikdən sonra hər iki bölmənin məsələlərinin təfsilatı kitab və sünnət əsasında bəyan edilməlidir. Amma bu iki bölmənin məsələlərinin bir-birindən ayrılması təlim üçün daha münasib və ürəyəyatan olduğundan biz də klassik metoda uyğun olaraq əvvəlcə nübüvvət məsələlərini bəyan edir, sonra da məad məsələlərini araşdırırıq. Bəzi hallarda, sonralar isbat olunmalı müəyyən mətləblərə ehtiyac duyulduqda o mətləbi yerində isbat olunmasından ötrü əsas mövzu kimi qəbul edirik.

BU BÖLMƏNİN BƏHSİNDƏ HƏDƏF

Bu bölmədəki bəhsin ilkin hədəfi varlığın həqiqətlərini və həyatın düzgün yolunu tanımaqda hiss və əqldən başqa, xəta və səhvin yol verilmədiyi bir

[1] Bu bəhslərin əsnasında bəzi Quran ayələrinə işarə olunması dəlil ünvanı ilə deyil, bu məsələlərin Quranda irəli çəkildiyinə nəzər yetirmək üçün idi.

yolun da mövcud olduğunu isbat etməkdir. O da ilahi təlimdən ibarət olan vəhydir ki, Allahın seçilmiş bəndələrindən bəzilərinə məxsusdur. Ümumcamaat o həqiqətdən agah deyildir, çünki onun nümunələrini özlərində görmürlər. Amma müəyyən əsər və əlamətlərdən onun varlığını dərk edib, peyğəmbərlərin (ə) ilahi vəhyi almaqla əlaqədar olan iddialarını təsdiq edə bilərlər. Təbiidir ki, vəhyin nazil olması bir şəxsə sübut olunsa və onun xəbəri başqalarına çatsa onlar da bunu qəbul edib onun əsasında əməl etməyə vəzifəlidirlər, heç kəs onunla müxalifət etməkdə üzürlü sayıla bilməz. Yalnız xüsusi şəxsə, yaxud qrupa aid olan, yaxud müəyyən bir zamanla əlaqədar olan müəyyən xəbərlər istisna olunur.

Buna əsasən bu bölmənin əsas məsələləri aşağıdakılardan ibarətdir:

Peyğəmbərlərin göndərilməsinin zərurəti, vəhyin camaata çatdığı vaxta qədər qəsdən, yaxud səhvən olan hər növ dəyişilmədən amanda olması, başqa sözlə desək, peyğəmbərlərin ilahi kəlamı alıb camaata çatdırmaqda ismətli, günahsız olmaları, eləcə də onların nübüvvətinin başqalarına isbat olunması üçün bir yolun mövcud olmasının zəruriliyi.

Vəhy və nübüvvətin əsas məsələləri əqli dəlil vasitəsilə bəyan olunduqdan sonra peyğəmbərlərin, asimani kitabların və şəriətlərin sayı, axırıncı peyğəmbərin təyin olunması, axırıncı asimani kitabın göndərilməsi, eləcə də axırıncı peyğəmbərin canişinlərinin təyin olunması kimi digər məsələlər araşdırılmalıdır.

Bu məsələlərin hamısının əqli bürhan vasitəsilə isbat olunması müyəssər deyildir, çox hallarda nəqli dəlillərdən bəhrələnmək lazımdır.

KƏLAM ELMİNDƏ TƏHQİQ METODU

Qeyd olunanları nəzərə almaqla fəlsəfə ilə kəlam elmi arasındakı əsas fərqlər aydın olur. Çünki fəlsəfə yalnız əqli dəlillər vasitəsilə isbat olunan məsələlərə, kəlam elmi isə nəqli və təəbbüdi dəlillərdən başqa bir şeylə isbat oluna bilməyən məsələlərə şamildir. Başqa sözlə desək: Fəlsəfə məsələləri ilə kəlam elmi məsələləri arasında **ümum-xüsus min vəch** münasibəti vardır. Yəni kəlam və fəlsəfə müştərək məsələlərə malik olmaqla yanaşı, təəqqülü üslubla (əqli yolla) isbat olunurlar. Onların hər biri də bu məsələlərdə özünəməxsus mövzulara malikdir. Fəlsəfənin təəqqülü üslubla bəyan olunan xüsusi məsələləri vardır, amma kəlam elminin xüsusi məsələlərində belə deyildir; onlar nəqli üslublarla isbat olunur. Başqa sözlə desək, kəlam elmində təhqiqat metodu iki yönlüdür. Onda həm təəqqülü, həm də təəbbüdü yoldan istifadə olunur.

Bir sözlə, fəlsəfə ilə kəlam arasında iki əsas fərq vardır:

1.Onlardan hər biri öz aralarında müştərək məsələlərə malik olmaqla yanaşı (Allahı tanımaq məsələsində olduğu kimi), digərində araşdırılmayan xüsusi məsələyə də malikdir.

2.Bütün fəlsəfi məsələlərdə təhqiq metodu təəqqülü metoddur, amma kəlam elmində bəzi məsələlərdə (kəlam və fəlsəfə arasında müştərək

məsələlər kimi) təəqqülü metoddan, bəzi məsələlərdə (imamət məsələsi kimi) nəqli yollardan, bəzilərində isə (məad məsələsində olduğu kimi) hər iki yoldan istifadə olunur.

Qeyd olunmalıdır ki, kəlam elminin nəqli yolla isbat olunan xüsusi məsələlərinin hamısı eyni səviyyədə deyildir. Mətləblərin bir qrupu, o cümlədən, Peyğəmbəri-Əkrəmin (s) söz və əməlinin (yəni sünnətin) höccət olması birbaşa Quran ayələri vasitəsilə (əqli dəlil vasitəsilə Quranın haqq olması sübuta yetdikdən sonra) isbat olunur. Sonra o Həzrətin (s) canişininin təyin olunması və məsum imamların (ə) sözlərinin höccət olması kimi digər məsələlər bəyan olunur.

Aydındır ki, nəqli dəlillərdən əldə olunan nəticə o vaxt yəqin gətirən olacaqdır ki, qəti dəlillər vasitəsi ilə onların sənədinin mötəbər olması müəyyən olsun.

SUALLAR

1.Allahşünaslıq barəsində olan məsələlər niyə yalnız əqli dəlillərlə isbat olunur?

2.Nübüvvət bölməsinin əsas məsələlərin hansılardır?

3.Məad və nübüvvətin əsas məsələlərini nəqli dəlillərlə isbat etmək olarmı? Bu iki qrupdan olan məsələlər arasında fərq varmı?

4.Kəlam elminin məsələlərindən hansılarını nəqli dəlillərlə isbat etmək olar?

5.Nübüvvət bölməsinin məaddan qabağa salınmasının səbəbi nədir? Bu iki bölmənin məsələlərinin tənzim olunmasında digər məntiqi ardıcıllıq varmı?

6.Fəlsəfə və kəlam arasında hansı fərqlər vardır?

7.Kəlam elminin məsələlərini isbat etmək baxımından neçə qismə bölmək olar? Bu qismlərin tərtibini bəyan edin.

İYİRMİ İKİNCİ DƏRS

BƏŞƏRİN VƏHY VƏ NÜBÜVVƏTƏ OLAN EHTİYACI

–Peyğəmbərlərin göndərilmə zərurəti
–Bəşər elminin kifayət etməməsi
–Peyğəmbərlərin göndərilməsinin faydaları

PEYĞƏMBƏRLƏRİN GÖNDƏRİLMƏ ZƏRURƏTİ

Nübüvvət bölməsinin ən əsaslı məsələlərindən ibarət olan bu məsələni isbat etmək üçün aşağıdakı üç müqəddiməni təqdim edirik:

1.İnsanın yaradılışında əsas hədəf, onun ixtiyari işləri yerinə yetirməklə təkamülə, son kamala doğru yolunu qət etməsidir. Elə bir kamal ki, ixtiyar və seçki yolundan başqa bir şeylə ələ edilmir. Başqa sözlə desək, insan buna görə yaradılmışdır ki, Mütəal Allaha itaət və ibadət etməklə, kamil insanın xüsusiyyətlərindən olan ilahi rəhmətləri əldə etməyə ləyaqət tapsın. Allahın hikməti ilk növbədə insanın kamal və səadətə çatmasını iradə edir. Amma bu səadət və yüksək məqam ixtiyari felləri yerinə yetirməkdən başqa yolla hasil olmadığından insanın həyat yolu iki istiqamətdə qərar verilmişdir ki, onun üçün istədiyini seçməyə şərait yaransın. Təbiidir ki, onlardan biri insanı bədbəxtçiliyə və əzaba doğru aparacaqdır və bu da ilahi iradədən asılı olaraq baş verir. (Yəni ilahi iradəyə tabedir).

Bu müqəddimə ilahi ədalət və hikmət bəhslərində də aydın oldu.

2.Agahlıq üzündən olan seçki və ixtiyar bir işin görülməsinə qüdrət və bacarığın, müxtəlif işlər üçün xarici şəraitlərin və insan daxilində onlara doğru meylin varlığından əlavə yaxşı və pis işləri, layiqli və nalayiq yolları seçməkdə düzgün mərifətə də ehtiyac duyulur. İnsan o zaman özünün təkamül yolunu azadlıq və agahlıq üzündən seçə bilər ki, həm hədəfi, həm də ona aparan yolu tanıya bilsin, onun eniş-yoxuşlarından, uçurum və ya döngələrindən agah olsun. Deməli, Allahın hikməti belə bir mərifətin əldə edilməsi üçün lazım olan vasitələri insanın ixtiyarında qoymasını tələb edir. Əks halda, bu iş bir kəsi qonaqlığa dəvət edib amma evinin yolunu ona göstərməyən şəxsə bənzəyər. Aydındır ki, belə rəftar hikmətin əksinə və məqsədin ziddinədir.

Bu müqəddimədə artıq izaha ehtiyac duyulmur.

3.Əql və hiss vasitəsilə əldə olunan adi insanlar arasındakı mərifətlər həyat və məişət ehtiyaclarının təmin olunmasında mühüm əhəmiyyət ifa etməsinə baxmayaraq fərdi və ictimai, maddi və mənəvi, dünya və axirət yönlərində həqiqi səadət və kamal yollarını tanımaqda kifayət deyildir. Əgər bu ehtiyacların təmin olunması üçün başqa bir yol olmasa, Allahın insanı yaratmaqdakı hədəfi gerçəkləşməyəcəkdir.

Bu üç müqəddimədən belə nəticə alırıq ki, Allahın hikməti hərtərəfli təkamül yolunu tanımaq üçün əql və hissdən kənarda olan digər bir yolun bəşərin ixtiyarına qoyulmasını tələb edir ki, insanlar birbaşa, yaxud başqa şəxs və ya şəxslərin vasitəsilə onlardan bəhrələnə bilsinlər.[1] O da peyğəmbərlərin (ə) ixtiyarına verilən vəhy yolundan ibarətdir ki, onlar

[1] Bu bürhan əməli qəziyyələrin nəzəri qəziyyədən (varlar) istintacı (gərəklər) və məlul üçün illətin zərurəti yolun ilə bil-qiyas zərurətinin isbatı növlərindəndir, həmçinin ilahiyyatda "limmi bürhanların" cərəyan etməsi hallarındandır.

birbaşa, başqaları da onların vasitəsilə həmin yollardan bəhrələnir, son kamal və səadətə çatmaq üçün lazım olan şeyləri əldə edirlər.

Bu bürhanın müqəddimələri arasında sonuncu müqəddimədə şəkk edilə bilər. Buna görə də bunun ətrafında daha artıq şərh veririk ki, bəşər elminin insanın hərtərəfli təkamül yolunu ayırd etmək üçün naqis olması, eləcə də vəhy yoluna ehtiyacı olması tamamilə aşkar olsun.

BƏŞƏR ELMİNİN ÇATIŞMAZLIĞI VƏ KİFAYƏT ETMƏMƏSİ

Düzgün həyat yolunun özünün bütün yönlərində aydın olması üçün insanın varlığının başlanğıcı və sonu, başqa varlıqlarla olan bağlılığı, öz insan növləri və sair varlıqlar arasında bərqərar etdiyi rabitə, müxtəlif rabitələrin onun xoşbəxt və ya bədbəxt olmasında göstərə biləcəyi təsirlər aydın olmalıdır. Həmçinin, müxtəlif fayda və qazanclar, məsləhətlər və zərərlər arasında hesab-kitab ayırd edilməli və dəyərləndirilməlidir ki, müxtəlif ruhi və fiziki xüsusiyyətlərə malik olan, müxtəlif təbii və ictimai şəraitlərdə yaşayan milyardlarla insanın vəzifəsi müəyyən olunsun. Lakin bu işlərin hamısının öhdəsindən gəlmək nəinki bir və ya bir neçə nəfər üçün müyəssər deyildir, hətta minlərlə mütəxəssis belə, insanla əlaqədar, onların fərdi və ictimai, maddi və mənəvi, dünya və axirət mənafeyinə zəmanət verə biləcək, müxtəlif mənfəət və zərərlər arasında yaranan qarşıdurmalarda daha mühüm olan məsləhəti təyin edəcək elm sahələrinin mürəkkəb formullarını kəşf edərək dəqiq qayda-qanunlar şəklində bəyan edə bilməzlər.

Tarix boyu bəşəriyyətdə baş verən qanuni və hüquqi dəyişikliklərin inkişafı göstərir ki, minlərlə mütəxəssis və alimin yorulmaz tədqiqatları və səyləri min illərlə davam etsə də, hərtərəfli, kamil və hüquqi bir sistem yarada bilməmiş, dünyanın bütün hüquqi və qanunçu təşkilatları özlərinin yaratdıqları qanunların yetərli olmadığını dərk etmiş, müəyyən müddəaları əlavə etməklə, yaxud qüvvədən salmaqla təkmilləşdirib islah etmişlər.

Unutmaq olmaz ki, bu qanunların yaradılmasında belə ilahi hüquq sistemlərindən və asimani şəraitlərdən çox istifadə etmişlər. Diqqət yetirməliyik ki, bütün hüquqçuların və qanunçuların səy və himmətlərinin hamısı ictimai və dünyəvi məsləhətlərin təmin olunmasına sərf olunur. Onlar insanların axirət məsləhətlərinin təmin olunmasına, maddi və dünyəvi məsləhətlərinin axirət ilə uyğunlaşdırılmasına heç vaxt səy göstərməmişlər və bu cür ən mühüm cəhətə riayət etmək istəsələr belə, heç vaxt qəti bir nəticəyə çata bilməzlər. Çünki maddi və dünyəvi məsləhətləri elmi təcrübələrlə müəyyən qədər ayırd etmək olar, amma mənəvi və axirət məsləhətləri təcrübə ilə hiss olunmağa qabil deyildir və onları dəqiq şəkildə dəyərləndirmək, maddi və dünyəvi məsləhətlərlə qarşıdurma yarandığı şəraitdə onlardan hər birinin əhəmiyyətinin dəyərini təyin etmək olmaz.

Bəşər qanunlarının mövcud vəziyyətinə diqqət yetirməklə insanların elminin min, yaxud yüz minlərlə il qabaq nə qədər yararlı olmasını təxmini ehtimal vermək və belə bir qəti nəticəyə çatmaq olar ki, ibtidai insanlar

həyatın düzgün yolunu ayırd etməkdə müasir insanlardan çox-çox aciz imişlər. Müasir dövrdəki insanların min illik təcrübələrdən istifadə edərək düzgün, kamil və hərtərəfli bir sistemə çatdığını və belə bir sistemin əbədi və axirət səadətinə də zəmanət verməsini fərz etsək, yenə belə bir sual yaranır ki, tarix boyu milyardlarla insanı boşlayıb onları cəhalətdə qoymaq ilahi hikmət və insanların yaradılmasında olan məqsədlə necə uyğun gələ bilər?!

Bir sözlə, insanların əvvəldən axıra qədərki yaradılışında hədəf o zaman gerçəkləşə bilər ki, hiss və əqldən başqa həyat həqiqətlərini, fərdi və ictimai vəzifələrin ayırd edilməsində digər bir yol mövcud olsun və o, vəhy yolundan başqa bir şey olmayacaqdır.

Həmçinin, aydın olur ki, bu bürhana əsasən ilk insan Allah peyğəmbəri olmalıdır ki, düzgün həyat yolunu vəhy vasitəsilə tanısın, yaradılışın hədəfi onun barəsində həyata keçsin və sonra başqa insanlar onun vasitəsilə hidayət olunsunlar.

PEYĞƏMBƏRLƏRİN GÖNDƏRİLMƏLƏRİNİN FAYDALARI

İlahi peyğəmbərlər insanın həqiqi təkamülü üçün düzgün yol göstərməkdən, vəhy alıb camaata çatdırmaqdan əlavə, insanların təkamülündə digər mühüm təsirlərə də malik olmuşlar ki, onların ən mühümləri aşağıdakılardır:

1.İnsan əqli çox mətləbləri dərk edə bilər. Lakin bunun üçün zamanın keçməsinə və çoxlu təcrübə əldə etməyə ehtiyac var. Bir yandan da insanların maddi işlərə baş qoşması, heyvani xislətlərin və meyllərin onlara qələbə çalması nəticəsində qəflət və unutqanlığa düçar olmaq və yaxud da düzgün olmayan təlimlər və pis təbliğatlar sayəsində bu mətləblər xalq kütlələrindən gizlin qalır. Belə mətləblər peyğəmbərlərin vasitəsilə bəyan olunur, ardıcıl xatırlatmalar vasitəsilə onların tamamilə unudulmasının qarşısı alınır, düzgün və məntiqi təlimlərlə pis təlimatlara və çaşdırıcı fikirlərə sipər çəkilir.

Buradan da peyğəmbərlərin müzəkkir (xatırladan) və nəzir (ilahi əzabdan qorxudan), Qurani-kərimin isə zikr (xatırlatma) və təzkirə adlanmasının mühüm səbəbi aydınlaşır.

Əli (ə) peyğəmbərlərin besətinin hikməti barəsində belə buyurur: **“Mütəal Allah Öz peyğəmbərlərini bir-birinin ardınca göndərmişdir ki, öz fitri əhdi-peymanlarına vəfa etməyi camaatdan istəsin, unudulmuş nemətləri onlara xatırlatsın, həqiqətlərin təbliğ və bəyan edilməsi ilə höccəti onlara tamam etsin.”**

2.İnsanın təlim-tərbiyə, inkişaf və təkamül amillərindən ən mühümü davranış və rəftarda nümunə və ülgünün olmasıdır. Bunun əhəmiyyəti psixologiya elmində sübut edilmişdir. İlahi peyğəmbərlər kamil insanlar və Allahın tərbiyə etdiyi şəxslər olmaqla bu rolu ən gözəl formada ifa edir, müxtəlif təlimatlardan əlavə, insanların ruhən təlim-tərbiyəsinə və ruhlarının

aludəliklərdən təmizlənməsinə səy edirlər. Bildiyimiz kimi, Qurani-kərim təlim (elm öyrətmə) və təzkiyəni (saflaşdırma) yanaşı zikr etmişdir, hətta bəzi hallarda təzkiyə təlimdən qabaqda gəlir.

3.Peyğəmbərlərin insanların arasında olmasının bərəkətlərindən biri də budur ki, lazımi şərait yarandıqda camaatın ictimai-siyasi və mühakimə nəzərindən rəhbərliyini öz öhdələrinə alsınlar. Aydındır ki, məsum və günahsız bir rəhbər Allahın cəmiyyətə təqdim etdiyi ən böyük nemətlərdən biridir; onun vasitəsilə ictimai pozuntuların çoxunun qarşısı alınır, cəmiyyət ixtilafdan, pərakəndəlikdən, əyintilərdən xilas olaraq istənilən kamala doğru hidayət olunur.

SUALLAR

1.İnsanın yaradılmasında məqsəd nədir?

2.Allahın ilahi hikmət əsasında olan iradəsi insanın səadət və rəhmətinə aid olduğu kimi, onun bədbəxtçiliyinə və əzabına da aidiyyatı varmı? Bunların arasında fərq varmı?

3.İnsanın ixtiyari əməlləri, agahlıq üzündən seçim etməsi üçün hansı işlərə ehtiyacı vardır?

4.Nə üçün bəşər əqli lazım olan bütün mərifətləri təmin etməkdə kifayət deyildir?

5.Peyğəmbərlərin besətinin zərurətini göstərən dəlilləri qeyd edin.

6.Əgər insan uzun təcrübələrdən istifadə edərək özünün dünya və ictimai səadətini tanıya bilsəydi, onda vəhyə ehtiyac qalardımı? Niyə?

7.İlk insanın peyğəmbər olmasına əqli dəlil gətirmək olarmı? Necə?

8.Peyğəmbərlərin varlığının digər faydalarını bəyan edin.

İYİRMİ ÜÇÜNCÜ DƏRS

BİR NEÇƏ ŞÜBHƏNİN HƏLL EDİLMƏSİ

–İnsanların çoxu peyğəmbərlərin hidayətindən niyə məhrumdurlar?
–Mütəal Allah ixtilaf və inhirafların qarşısını nəyə görə almamışdır?
–Peyğəmbərlərin niyə texniki və iqtisadi imtiyazları olmamışdır?

BİR NEÇƏ ŞÜBHƏNİN HƏLL EDİLMƏSİ

Peyğəmbərlərin besətinin zəruri olmasına dair gətirilən dəlil və bürhanlar ətrafında müəyyən suallar və şübhələr meydana gəlir. İndi onları cavabları ilə birlikdə qeyd edirik:

1.Əgər ilahi hikmət bütün insanların hidayəti üçün peyğəmbərlərin göndərilməsini tələb edirsə onda nə üçün onların hamısı xüsusi coğrafi bir məntəqədə (Mərkəzi Asiyada) məbus olunmuşlar, yer üzünün sair məntəqələri isə bu nemətdən məhrum olmuşlar? Xüsusilə bunu nəzərə alsaq ki, qədimdə kütləvi informasiya vasitələri məhdud və zəif idi, xəbərlərin bir məntəqədən digər məntəqəyə nəql olunması çox zəif baş verirdi. Bəlkə də peyğəmbərlərin dəvətindən ümumiyyətlə heç bir məlumat əldə edə bilməyən müəyyən qövmlər və millətlər də olmuşdur.

Bu sualın cavabı budur ki, **əvvəla,** peyğəmbərlərin gəlişi xüsusi məntəqə ilə məhdudlaşmamışdır. Quran ayələri göstərir ki, hər qövm və ümmət üçün bir peyğəmbər olmuşdur. "Fatir" surəsinin 24-cü ayəsində buyurulur:

"Elə bir ümmət yoxdur ki, ondan bir peyğəmbər gəlib getməsin."

"Nəhl" surəsinin 36-cı ayəsində buyurulur:

"**Hər bir ümmətə rəsul (peyğəmbər) göndərdik (ki, onlara belə desin:) Allaha ibadət edin və tağutdan (şeytani qüvvələrdən) çəkinin."**

Quranda yalnız bir neçə peyğəmbərin adının çəkilməsi onların saylarının qeyd olunanlarla xülasələnməsi demək deyildir. Quranın özündə aşkar şəkildə göstərilir ki, peyğəmbərlərdən bir çoxunun adı bu kitabda qeyd olunmamışdır. "Nisa" surəsinin 164-cü ayəsində buyurulur:

"Və elə peyğəmbərlər ki, onların hadisəsini sənə nəql etmədik."

İkincisi, yuxarıdakı bürhan bunu çatdırır ki, camaatın hidayət olunması üçün hiss və əqlin fövqündə dayanan bir yol olmalıdır. Amma ayrı-ayrı fərdlərin hidayət olunmasının gerçəkləşməsinin iki şərti vardır: Biri budur ki, onların özləri bu ilahi nemətdən bəhrələnmək istəsinlər, ikincisi, başqaları onların hidayət olunmasına maneçilik törətməsi. Camaatın çoxunun peyğəmbərlərin hidayətindən məhrum qalması onların pis seçim etmələrinə görə olmuşdur. Digər çoxlu məhrumiyyətlər də başqalarının peyğəmbərlərin dəvətinin yayılması yolu üzərində yaratdıqları maneələr üzündən olmuşdur.

İlahi peyğəmbərlər həmişə bu maneələrin aradan qaldırılmasına çalışmış, Allah düşmənləri, xüsusilə zalımlar və güclülərlə mübarizə aparmış, onların çoxu ilahi risalətin təbliğ olunub camaatı hidayət etmək yolunda canlarını fəda etmişlər. Onlar özləri üçün müəyyən qədər ardıcıl və köməkçi tapdıqları halda, Allah dininin yayılması yolunda maneçilik törədən ən mühüm amillərlə, yəni zalımlarla və zülmkar dövlətlərlə mübarizəyə başlamışlar.

Diqqət yetirmək lazımdır ki, insanın təkamül istiqamətindəki hərəkətinin ixtiyari olmaq kimi xüsusiyyəti bu hadisə və cərəyanların hamısının haqq və

batil tərəfdarları üçün yaxşı, yaxud pis seçki şəraiti hazır ola biləcək bir tərzdə baş verməsini tələb edir. Amma əgər zorakı qüvvələrin və batil əhlinin hökmranlığı müəyyən bir həddə çatıb başqalarının hidayət yolunu tamamilə bağlasa və onlar cəmiyyətdə haqq və hidayət nurunu söndürsələr, bu halda Mütəal Allah qeyri-adi və qeybi yollarla haqq tərəfdarlarına yardım edəcəkdir.

Əgər peyğəmbərlərin yolu üzərində belə maneələr olmasaydı, onların dəvəti bütün dünya insanlarına çatar, hamılıqla vəhy və nübüvvət kimi ilahi nemətdən bəhrələnərdilər. Deməli, camaatın əksəriyyətinin peyğəmbərlərin hidayətindən məhrum olmasının günahı onların dəvətinin yayılmasının qarşısını alan şəxslərin öhdəsindədir.

2.Əgər peyğəmbərlər insanları təkamülə çatdırmaq üçün göndəriliblərsə, nə üçün onların varlığı ilə bu qədər fəsad və əxlaqi pozuntular yaranır, camaatın çoxu əksər dövrlərdə küfr və üsyankarlığa düçar olur, hətta asimani din ardıcılları belə bir-biri ilə mübarizə aparır, qanlı və amansız müharibələr törədirlər? Allahın hikməti bu fəsadların qarşısını almaq, yaxud heç olmazsa, peyğəmbərlərin ardıcıllarının bir-biri ilə mübarizə etməməsi üçün müəyyən səbəblər yaratmasını tələb etmirdimi?

Bu sualın cavabı, insanın təkamülünün ixtiyari olmaq kimi xüsusiyyətinə diqqət yetirməklə aydın olur. Çünki deyildiyi kimi, Allahın hikməti insanlar üçün (cəbri deyil) ixtiyari təkamül şərtlərinin və səbəblərinin vücuda gəlməsini tələb edir ki, istəyən şəxslər haqq yolunu tanıya bilsinlər və onu qət etməklə özlərinin kamal və səadətlərinə çatsınlar. Lakin belə bir təkamül üçün şərait və səbəblərin mövcud olmasının mənası bu deyildir ki, bütün insanlar onlardan gözəl məqsədlərlə istifadə edərək hökmən səhih yolu seçsinlər. Quran buyurur ki, Mütəal Allah insanları bu dünya şəraitində, onların hansının daha yaxşı əməl gördüyünü bilmək üçün imtahana çəkmək məqsədilə yaratmışdır.[1] Qurani-kərimdə təkrar təkid olunduğu kimi, əgər Allah istəsəydi hamını düz yolda saxlaya bilər, onların inhiraf və azğınlıqlarının kökünü tamamilə kəsə bilərdi.[2] Lakin bu halda ixtiyari seçki üçün heç bir şərait qalmaz, insanların əməl və rəftarları insani dəyərdən məhrum olar və Allahın, ixtiyar sahibi və seçki yolu ilə əməl edən insanı yaratmaqdakı məqsədi nöqsanlı olardı.

Deməli, insanların fəsada, təxribatçılığa, küfr və üsyankarlığa meyl etməsi onlara verilən azadlıqdan sui-istifadə etmələrinin nəticəsidir və belə rəftarlara qadir olmaq onların yaradılışı ilə qaynayıb-qarışdığından, onların nəticələrinə çatmaq da ona tabedir. İlahi iradə ilk növbədə insanların təkamülünə şamildir. Buna baxmayaraq bu iradənin aid olduğu şeylər

---

[1] "Hud" surəsi, ayə:7; "Kəhf" surəsi, ayə:7; "Mülk" surəsi, ayə:2; "Maidə" surəsi, ayə:48; "Ənam" surəsi, ayə:165

[2] "Ənam" surəsi, ayə:35, 107, 112, 137, 128; "Yunis" surəsi, ayə:99; "Hud" surəsi, ayə:118; "Nəhl" surəsi, ayə:9, 93; "Şura" surəsi, ayə:8; "Şuəra" surəsi, ayə:4; "Bəqərə" surəsi, ayə:253

ixtiyari olmaqla şərtləndiyindən düzgün olmayan seçki nəticəsində yaranan süqut və tənəzzülü istisna olunmur. İlahi hikmət bütün insanların ixtiyarsız olaraq düzgün yolda hərəkət etməsini, hətta onların öz iradələrinin əksinə olsa belə, tələb etmir.

3.Allahın hikməti insanların mümkün qədər artıq və yüksək kamala, səadətə çatmasını tələb etməsini nəzərə alaraq Mütəal Allahın təbiət sirlərini vəhy vasitəsilə onlara aşkar etməsi daha yaxşı olmazdımı ki, müxtəlif nemətlərdən bəhrələnərək öz təkamül yollarındakı hərəkətlərini sürətləndirsinlər?

Belə ki, son əsrlərdə çoxlu təbii qüvvələrin kəşf edilməsi və müxtəlif həyat vəsaitlərinin ixtira olunması mədəniyyətin çiçəklənməsində, insanların sağlamlığının qorunub saxlanmasında, xəstəliklərlə mübarizədə, məlumat mübadiləsində, əlaqələrin genişləndirilməsində və s. kimi işlərdə çox böyük təsirlər qoymuşdur. Aydındır ki, əgər peyğəmbərlər insanı heyrətə gətirən elm-texnika və sənətkarlığı təqdim etməklə, asayiş və firavanlıq vasitələrini tədarük görməklə camaata kömək etsəydilər, ictimai nüfuzlarını, siyasi qüdrətlərini artıraraq öz hədəflərinə daha yaxşı çata bilərdilər.

Cavab budur ki, vəyh və nübüvvətin varlığına olan ehtiyac bəşərin adi mərifət vasitələri ilə dərk edə bilmədiyi işlərlə əlaqədardır ki, onlar barəsində cahil olduqda həqiqi kamala doğru öz hərəkət istiqamətini müəyyən edib yolunda hərəkət edə bilmir. Başqa sözlə desək, peyğəmbərlərin əsas vəzifələri insanlara təkamülə və insani yaşayışa doğru istiqamətlənməkdə kömək etməkdir ki, hər bir şəraitdə öz vəzifələrini tanıyaraq qüvvələrini bəyənilən hədəflərə çatmaq yolunda sərf edə bilsinlər və istər səhralarda yaşayan köçərilər, istər okeanlarda, istərsə fəzalarda olan şəxslər əsl insani dəyərləri tanısınlar, ayrı-ayrı fərdlər istər Mütəal Allaha pərəstiş etmək, istərsə özlərinə, istərsə başqa insan və başqa canlılara qarşı hansı vəzifələrə malik olduqlarını bilsinlər və onları yerinə yetirməklə həqiqi və əbədi kamala, səadətə nail olsunlar. Amma təbii imkanların, istedadların və texnikanın fərqi (istər vahid zamanda, istərsə də müxtəlif zamanlarda) xüsusi səbəblər əsasında yaranır. Bunlar əbədi müqəddəratın və həqiqi təkamülün təyin olunmasında əsaslı rol ifa etmir. Belə ki, müasir dövrdə maddi bəhrələrin artmasına və elmi-texnikanın genişlənməsinə səbəb olan irəliləyişlər insanların mənəvi və ruhi təkamülündə azacıq belə təsir qoymamış, hətta demək olar ki, tamamilə əks nəticələr vermişdir.

Deməli, Allahın hikməti tələb edir ki, insanlar maddi nemətlərdən istifadə edərək öz dünyəvi həyatlarını davam etdirsinlər, əql və vəhydən bəhrələnərək özlərini həqiqi kamala və əbədi səadətə doğru olan hərəkət istiqamətlərini təyin etsinlər. Amma onların fiziki və ruhi qüdrətlərindəki fərqlər, eləcə də təbii və ictimai şəraitlərin bir-biri ilə fərqli olması, elm və texnologiyadan bəhrələnməkdəki ixtilaflar səbəb-nəticə qanunu əsasında yaranan xüsusi təkvini şərait və səbəblərə tabedir və bu ixtilaflar insanların

əbədi taleyinin təyin olunmasında rol oynamır. Çox hallarda ən sadə vəziyyətdə yaşayan, ən zəruri maddi və dünyəvi nemətlərdə istifadə edən bir şəxs, yaxud bir dəstə adamın eyni halda kamal və səadətin ən yüksək dərəcələrinə çatması mümkündür. Bunun əksinə ən çox inkişaf etmiş elm və texnologiyadan, ən yaxşı və gözəl həyat şəraitindən bəhrələnən, amma naşükürlük, təkəbbür, qürur və zülm sayəsində bədbəxtçiliyin ən aşağı dərəcələrinə enən fərdləri də müşahidə etmək olar.

Əlbəttə, ilahi peyğəmbərlər əsl vəzifələrini yerinə yetirməkdən, yəni bəşəriyyəti həqiqi və əbədi kamala, səadətə hidayət etməkdən əlavə, onların elə bu dünyada firavan yaşamalarına da çoxlu köməklər göstərmişlər. İlahi hikmət müəyyən naməlum həqiqətlərin və təbii sirlərin aşkar olumasını, bəşəriyyətin mədəni inkişafına kömək göstərməsini tələb etdiyi yerlərdə bu kimi köməkləri görmək olar. Məsələn, həzrət Davudun (ə), Süleymanın (ə) və Zulqərneynin (ə) həyatında bunu müşahidə etmək olar.[1] Peyğəmbərlər cəmiyyətin idarə olunmasında gözəl idarəçiliklə əlaqədar faydalı fəaliyyətlər etmişlər. Məsələn, həzrət Yusifin (ə) Misirdə göstərdiyi fəaliyyətlər buna misal ola bilər.[2] Lakin bunların hamısı peyğəmbərlərin əsl vəzifələrindən kənarda olan xidmətlər olmuşdur.

Amma ilahi peyğəmbərlərin öz məqsədlərini həyata keçirmək üçün niyə texniki, iqtisadi və hərbi qüdrətdən istifadə etmədiklərinə gəldikdə isə bunu demək lazımdır ki, dəfələrlə qeyd olunduğu kimi, peyğəmbərlərin əsas hədəfi insanların azad və agahlıq əsasında yol seçməsinə şərait yaratmaq olmuşdur. Əgər onlar qeyri-adi qüvvələrdən istifadə etsəydilər, insanlar üçün azadlıq əsasında olan təkamül və mənəvi inkişaf hasil olmazdı, camaat ilahi məqsəd və azad seçki əsasında deyil, qüdrət və təzyiqlərinin sayəsində onlara tabe olardılar.

Əli (ə) bu barədə buyurub: "Əgər Mütəal Allah istəsəydi peyğəmbərləri göndərən zaman qızıl-gümüş xəzinələrini, əldəyməz gövhər mədənlərini, bol meyvəli bağları və ağacları onların ixtiyarına verər, havadakı quşları, qurudakı heyvanları onlara xidmətçi edərdi. Əgər Allah belə etsəydi imtahan və mükafat üçün olan şərait aradan gedərdi... Əgər (Allah) istəsəydi, peyğəmbərlərə heç kəsin əli çatmayan bir qüdrət, məğlubedilməz bir izzət, eləcə də mülk və səltənət əta edərdi ki, başqaları qorxu və yaxud tamah üzündən onlara təslim olsunlar, inadkarlıq və təkəbbürdən çəkinsinlər. Belə olan təqdirdə məqsədlər və dəyərlər eyni səviyyədə olardı. Lakin Mütəal Allah istəmişdir ki, peyğəmbərlərə tabe olmaq, Onun kitabını təsdiq etmək, təvazökarlıq və təslim olmaq (kimi işlər) yalnız ilahi məqsədlə, heç bir

[1] "Ənbiya" surəsi, ayə:78-82; "Kəhf" surəsi, ayə:83-97; "Səbə" surəsi, ayə:10-13. Qeyd etmək lazımdır ki, bir neçə rəvayətə əsasən Zülqərneyn peyğəmbər deyil, ilahi övliyalardan imiş.

[2] "Yusif" surəsi, ayə:55

riyakarlıq olmadan baş versin. İmtahan və bəla nə qədər böyük olsa, ilahi mükafat və savab da bir o qədər artıq olar."[1]

Əlbəttə, insanlar azad seçki, rəğbət və meyl üzündən haqq dinə iman gətirsələr, həmçinin ilahi və Allah bəyənən bir cəmiyyət təşkil etsələr, ilahi hədəflərin irəliləməsi yolunda, xüsusilə təcavüzkarların məğlub edilib möminlərin hüququnu müdafiə etmək üçün müxtəlif qüdrətlərdən istifadə olunması bəyənilən olar. Bunun nümunəsini həzrət Süleymanın (ə) hakimiyyəti dövründə mülahizə etmisiniz.[2]

SUALLAR

1.Bütün peyğəmbərlər xüsusi coğrafi bir məntəqədə məbus olunmuşlarmı? Hansı əsasə görə?

2.Peyğəmbərlərin dəvəti niyə dünyanın hər yerinə yayılmamışdır?

3.Mütəal Allah fəsadın və qan axıdılmaların qarşısını almaq üçün niyə səbəblər tədarük görməmişdir?

4.Peyğəmbərlər təbiət sirlərini camaat üçün niyə kəşf etməmişlər ki, onların ardıcılları maddi nemətlərdən daha artıq bəhrələnsinlər?

5.Peyğəmbərlər öz məqsədlərini irəli aparmaqdan ötrü texnologiyadan və iqtisadi qüdrətdən niyə istifadə etməmişlər?

---

[1] "Nəhcül-bəlağə", "Qasiə" xütbəsi; "Fürqan" surəsi, 7-10-cu ayələr; "Zuxruf" surəsi, ayə:31-35

[2] "Ənbiya" surəsi, ayə:81-82; "Nəml" surəsi, ayə:15-44

İYİRMİ DÖRDÜNCÜ DƏRS

PEYĞƏMBƏRLƏRİN İSMƏTİ (HƏR BİR CƏHƏTDƏN GÜNAHSIZ OLMASI)

–Vəhyin toxunulmazlığının zərurəti
–İsmətin digər halları
–Peyğəmbərlərin isməti

VƏHYİN TOXUNULMAZLIĞININ ZƏRURƏTİ

Vəhyin lazımi mərifət əldə etmək üçün bir yol kimi zəruri olması, insanın əql və hissinin çatışmayan cəhətlərini bərpa etməsi aydın olduqdan sonra digər bir məsələ irəli gəlir:

Adi fərdlərin bu mərifət vasitəsindən birbaşa bəhrələnə bilmədiyindən, ilahi vəhyi almağa istedad və ləyaqəti olmadığından və ilahi xəbərlər çarəsizlikdən xüsusi şəxslər (peyğəmbərlər) tərəfindən onlara çatdırılmalı olduğundan belə xəbərlərin düzgün olmasına necə zəmanət verilə bilər? Peyğəmbərin özünün ilahi vəhyi düzgün almasına və onu camaata çatdırmasına necə xatircəm olmaq olar? Əgər Allahla peyğəmbərin arasında bir vasitə olmuşsa, onda peyğəmbərin öz vəzifəsini səhih şəkildə yerinə yetirib-yetirməməsi necə məlumdur? Çünki vəhy yolu o zaman lazımi dəyərə malik olar və bəşər elminin çatışmazlığını bərpa edə bilər ki, başlandığı mərhələdən insanlara çatdırıldığı mərhələyə qədər qəsdən və səhvən olan hər növ təhrifdən uzaq olsun. Əks halda, vasitədə, yaxud vasitələrdə səhv və unutqanlığa ehtimal verildiyi, yaxud onun məzmununda qəsdən təsərrüf edilməsi (əl gəzdirilməsi) gözlənildiyi halda insanlara çatdırılan xəbərdə xəta və düzgün olmamaq ehtimalı verilir. Bu da camaatın etimadının aradan getməsinə səbəb olur.[1] Onda ilahi vəhyin camaatın əlinə düzgün və toxunulmadan çatdığına hansı yolla xatircəm olmaq olar?

Aydındır ki, vəhyin həqiqəti camaata naməlum qalsa, həmçinin onu almaq və onun barəsində agahlıq əldə etmək onlar üçün mümkün olmasa, aradakı vasitələrin düzgünlüyünə nəzarət etmək üçün heç bir yol olmayacaqdır. Yalnız xəbərin məzmununun əql tərəfindən qəbul edilən hökmlərlə müxalif olduğu halda onda müəyyən çatışmazlıqların olduğunu başa düşəcəklər. Misal üçün, əgər bir şəxs zidd olan şeylərin bir yerə toplanmasının mümkün, yaxud, vacib olmasını, yaxud nəuzubillah, ilahi zatda çoxluq, tərkib, yaxud zavala yer olduğunu Allah tərəfindən ona vəhy olunmasını iddia etsə, əqlin danılmaz hökmü ilə belə bir mətləbin batil və bu iddianın yalan olmasını isbat etmək olar. Amma vəhyə olan əsl ehtiyac əqlin isbat və ya inkar etməyə qadir olmadığı, xəbərin məfhum və məzmununu dəyərləndirib onun səhih və ya səhv olmasını ayırd edə bilmədiyi məsələlərdə duyulur. Belə hallarda vəhyin möhtəvasının səhih olmasını və onun vasitələrin (vəhyi çatdıranların) qəsdən, yaxud səhv üzündən etdiyi dəyişikliklərdən amanda olmasını necə isbat etmək olar?

Sualın cavabı: əql ilahi hikmətə diqqət yetirməklə 22-ci dərsdə bəyan olunan bürhan əsasında anlayır ki, əməli vəzifələri və həqiqətləri tanımaq üçün, həqiqətindən agah olmasa belə, başqa bir yol da olmalıdır. Həm də dərk edir ki, onun xəbərləri ilahi hikmətin tələbinə görə heç bir təhrif

---

[1] Quran bu barədə buyurur: "Allah sizi qeybə agah etməz, amma Öz rəsullarından istədiyi bir kimsəni seçir." "Ali-İmran" surəsi, ayə:179

olmadan camaatın əlinə çatmalıdır. Əks halda, Allahın məqsədinə xələl gələr. Başqa sözlə desək, insanların ixtiyari təkamülləri üçün şəraitin yaranması və bəşərin xilqətindəki ilahi hədəfin gerçəkləşməsi üçün ilahi xəbərlərin bir, yaxud bir neçə vasitə ilə camaata çatmasının zəruri olması məlum olduqdan sonra ilahi kamal sifətlərinə istinad etməklə sübut olunur ki, bu xəbərlər qəsdən, yaxud səhvən olan dəyişilmədən mütləq amanda olmalıdır. Çünki əgər Mütəal Allah Özünün əmr və fərmanlarının bəndələrinə düzgün şəkildə çatmasını istəməsə, bu iş hikmətin əksinə olacaqdır. Halbuki, Allahın hikmətli iradəsi onu inkar edir. Əgər Allah Öz xəbərini bəndələrinə hansı yolla və kimlərin vasitəsilə göndərməsini bilməsə bu məsələ Onun sonsuz elmi ilə zidd olacaqdır. Əgər lazımi vasitələr seçərək onları şeytanların hücumlarından hifz edə bilməsə, bu məsələ də Onun sonsuz qüdrəti ilə uyğun gəlməyəcəkdir.

Deməli, Mütəal Allah hər şeyə alim olduğundan, Onun xətakarlığından agah olmadığı bir vasitə seçməsini ehtimal vermək olmaz.[1] Allahın sonsuz qüdrətinə nəzər yetirməklə Öz vəhyini şeytanların təhrifindən, səhv və unutqanlıq kimi amillərdən qoruya bilməməsini ehtimal vermək olmaz.[2] Eləcə də ilahi hikmətə nəzər yetirməklə Allahın Öz peyğamlarının xətadan amanda qalmasını istəməməsini qəbul etmək olmaz.[3] Deməli, Allahın elm və qüdrəti Öz əmrlərinin sağlam və təhrif olunmadan bəndələrinə çatdırmasını tələb edir. Beləliklə də ilahi vəhyin toxunulmazlığı əqli dəlillərlə isbat olunur.

Buna əsasən vəhy mələyi (yaxud mələklərinin), eləcə də peyğəmbərlərin vəhyi almaq, həmçinin, onların ilahi xəbərləri çatdırmaq məqamında unutqanlıq, səhv, yaxud qəsdən ola biləcək xəyanətlərdən amanda olması sübuta yetir.

Buradan da Qurani-kərimin vəhy mələyinin əmanətdar olması, onun ilahi əmanəti qorumaqda qüdrəti, şeytanların ona dəxalət etməsinin qarşısının alınması, peyğəmbərlərin əmanətdar olması və bir sözlə, vəhyin insanlara çatdığı vaxta qədər hər bir xətadan toxunulmazlığına təkid etməsinin səbəbi aydın olur.[4]

İSMƏTİN SAİR HALLARI

Yuxarıdakı bürhan əsasında mələklər və peyğəmbərlər üçün isbat olunan ismət məqamı vəhyin alınıb insanlara çatdırılmasına aiddir. Lakin ismətin digər halları da vardır ki, bu bürhanla sübuta yetmir. Onları üç qismə

---

[1] Quran bu barədə buyurur: "Allah Öz risalətini harada qərar verəcəyini daha yaxşı bilir." "Ənam" surəsi, ayə:124.

[2] "Cin" surəsi, ayə:26-28.

[3] "Ənfal" surəsi, ayə:42.

[4] "Əraf" surəsi, ayə:68, "Şüəra" surəsi, ayə:107, 125, 143, 162, 178, 198. "Duxan" surəsi, ayə:18, "Təkvir" surəsi, ayə:20, 21, "Nəcm" surəsi, ayə:5; "Haqqə" surəsi, ayə:44-47; "Cin" surəsi, ayə:26-28

ayırmaq olar: 1-Mələklərin isməti, 2-Peyğəmbərlərin isməti, 3-Məsum İmamlar (ə), həzrət Məryəm (ə) və həzrət Fatimə (ə) kimi pak insanların isməti.

Mələklərin vəhyi alıb çatdırmaqdan başqa hallardakı isməti ilə əlaqədar iki məsələni irəli çəkmək olar: Birincisi, vəhy mələyinin vəhyi alıb peyğəmbərə çatdırmasına aid olmayan digər hallardakı isməti, başqası vəhy məsələsi ilə əlaqəsi olmayan sair mələklərin isməti. Məsələn, insanların ruzisinə, əməllərin qeyd olunmasına, ruhların alınmasına əmr olunan mələklər və s.

Peyğəmbərlərin ilahi risalətləri ilə əlaqədar olmayan işlərdəki ismətində də iki məsələ irəli çəkilir: Biri peyğəmbərlərin qəsdən olan günah və üsyankarlıqdan uzaq olmaları, digəri isə onların səhv və unutqanlıqdan uzaq olmaları. Bunların hər ikisini peyğəmbərlərdən başqaları barəsində də araşdırmaq olar.

Mələklərin vəhyi alıb çatdırmaqdan başqa hallardakı isməti ilə əlaqədar məsələlər o zaman əqli bürhanla həll oluna bilər ki, mələyin mahiyyəti məlum olsun. Lakin onların mahiyyəti ilə əlaqədar məsələlər nə asandır, nə də bizim kitabımızın həcmi ilə münasibdir. Buna görə də mələklərin ismətinə dəlalət edən iki Quran ayəsini zikr etməklə kifayətlənirik. Onlardan biri "Ənbiya" surəsinin 27-ci ayəsidir. Orada buyurulur:

"Onlar (mələklər) möhtərəm qullardır. (Mələklər) Ondan qabaq söz danışmaz (Allahın əmrindən çıxmaz), yalnız Onun əmri ilə iş görərlər."

Digəri isə "Təhrim" surəsinin 6-cı ayəsidir.

"Allahın onlara əmr etdiyi şeylərdə üsyankarlıq etməz, onlara əmr olunanlara əməl edərlər."

Bu iki ayədə mələklərin dəyərli bir məxluq olması, işlərini yalnız Allahın hökmləri əsasında görmələri, Allahın fərmanlarına qarşı heç vaxt itaətsizlik etməmələri aşkar şəkildə görünür. Baxmayaraq ki, bu ayənin başqa mələklərlə əlaqədar olub-olmaması üzərində münaqişə irəli gələ bilər.

Peyğəmbərlərdən başqa digər insanlardan bəzilərinin isməti barəsində məsələ imamət bəhsi ilə daha münasib olduğuna görə, burada yalnız peyğəmbərlərin isməti ilə əlaqədar məsələləri araşdırırıq. Bu məsələlərin bəziləri yalnız nəqli dəlil əsasında həll oluna bilər. Lakin qayda üzrə bu, kitab və sünnənin höccət olmasının isbat edilməsindən sonra irəli çəkilməlidir. Buna baxmayaraq bu məsələnin mövzuları arasında uyğunluğa riayət olunması üçün onları elə burada araşdırır, kitab və sünnənin höccət olmasını isə bir əsas kimi qəbul edirik ki, öz yerində isbat olunsun.

PEYĞƏMBƏRLƏRİN İSMƏTİ

Peyğəmbərlərin günaha mürtəkib olmaqdan hansı həddə uzaq olmaları məsələsi ilə əlaqədar müsəlmanlar arasında ixtilaf mövcuddur. On iki imam şiələrinin etiqadına görə peyğəmbərlər təvəllüdün əvvəlindən ömürlərinin axırına qədər hər növ günahlardan (istər böyük olsun, istərsə də kiçik)

amandadırlar. Hətta səhv və unutqanlıq üzündən belə onlardan heç bir günah baş vermir. Amma başqa məzhəblərdən bəziləri peyğəmbərlərin yalnız böyük günahlar qarşısında, bəziləri həddi-büluğa çatdıqdan sonra, bəziləri isə peyğəmbərliyə seçildikdən sonra ismətli olduğuna mötəqiddirlər. Sünnülərin bəziləri (həşəviyyə və əhli-hədisin bəziləri) ümumiyyətlə, peyğəmbərlərin ismətini inkar etmiş, onlardan hər növ günah baş verməsini, hətta, nübüvvət dövründə və qəsdən günah etmələrini mümkün hesab etmişlər.

Peyğəmbərlərin ismətini isbat etməzdən əvvəl bir neçə məsələni xatırladırıq:

1.Peyğəmbərlərin, yaxud başqa insanlardan bəzilərinin məsum olması dedikdə məqsəd təkcə günaha mürtəkib olmamaları deyildir. Çünki adi bir insanın da günaha mürtəkib olmaması, xüsusilə ömrü qısa olduqda belə mümkündür. Məqsəd budur ki, şəxs güclü nəfsani bir səciyyəyə malik olsun ki, ən ağır şəraitlərdə belə, onu günahdan saxlasın. Bu səciyyə də günahın çirkin olması ilə əlaqədar kamil və daimi agahlığa, nəfsani istəkləri cilovlamaq üçün qüvvəli iradəyə malik olmaqla hasil olur. Belə bir səciyyə Allahın xüsusi inayəti sayəsində mümkün olduğundan onun failiyyəti Mütəal Allaha nisbət verilir. Amma Mütəal Allahın məsum insanı günahdan məcburi olaraq çəkindirməsi və onun ixtiyarını əlindən alması da düşünülməməlidir. Nübüvvət və imamət kimi ilahi mənsəblərə malik olan şəxslərin ismәti digər bir mənaya əsasən də Allaha nisbət verilir. Çünki, Allah onların günahdan amanda olmalarına zəmanət vermişdir.

Digəri budur ki, bir şəxs ismətli olduqda ona haram olan işləri tərk etməlidir. Məsələn, hər bir şəriətdə haram olan günahlar, həmçinin tabe olduğu əvvəlki şəriətdə mürtəkib olduğu haram olan işlər. Deməli, bir peyğəmbərin isməti onun öz şəriətində və onun özünə icazə verilən, amma əvvəlki şəriətlərdə haram olan, yaxud sonradan haram edilən işləri görməsi ilə zidd deyildir.

Üçüncüsü budur ki, məsum şəxsin ismətli olduğu günah dedikdə məqsəd fiqhdə haram adlandırılan əməldir. Eləcə də onun fiqh istilahında vacib olan əməlləri tərk etmək qarşısında da məsum olmasıdır. Amma günah və onun kimi kəlmələr daha geniş mənalara da malikdir ki, "tərki-övlaya" da buna şamildir. Belə günahların görülməsi ismət məqamı ilə zidd deyildir.

SUALLAR

1.Vəhyin hər növ təhrifdən amanda olmasını necə isbat etmək olar?

2.Vəhyin alınıb təbliğ edilməsindəki toxunulmazlıqdan başqa digər hansı ismət halları da vardır?

3.Mələklərin ismətini hansı yolla isbat etmək olar?

4.Peyğəmbərlərin isməti barəsində hansı nəzəriyyələr mövcuddur? Şiənin nəzəri hansıdır?

5.İsmətin tərifini və onun təsirlərini bəyan edin.

İYİRMİ BEŞİNCİ DƏRS

PEYĞƏMBƏRLƏRİN İSMƏT DƏLİLLƏRİ

–**Müqəddimə**
–Peyğəmbərlərin ismətinə əqli dəlillər
–Peyğəmbərlərin ismətinə nəqli dəlillər
–Peyğəmbərlərin ismətli olmasının sirləri

MÜQƏDDİMƏ

Peyğəmbərlərin günah qarşısında istər qəsdən, istərsə də səhvən olan ismətinə etiqad şiələrin məşhur və danılmaz əqidələrindən biridir. Bunu məsum imamlar (ə) öz ardıcıllarına təlim vermiş və bu barədə müxaliflər qarşısında müxtəlif bəyanlarla dəlil gətirmişlər. Onların bu barədə gətirdiyi elmi mübahisələrin ən məşhuru imam Rzanın (ə) hədis və tarix kitablarında qeyd olunan mübahisəsidir.

Amma adi və mübah işlərdə səhv və unutqanlıqların inkar olunması məsələsinə gəldikdə isə bir qədər ixtilaf gözə dəyir və Əhli-beytdən (ə) nəql olunan rəvayətlərin zahiri də ixtilafsız deyildir. Onların barəsində dərin tədqiqat aparmaq geniş vaxt tələb edir. Hər bir halda onu zəruri etiqadlardan biri kimi qələmə vermək olmaz. Amma peyğəmbərlərin isməti üçün qeyd olunan dəlillər iki dəstəyə bölünür:

1.Əqli dəlillər

2.Nəqli dəlillər

Bunların içərisində ən çox nəqli dəlillərə etimad olunur. Biz burada iki əqli dəlili qeyd etdikdən sonra bəzi Quran ayələrini də qeyd edəcəyik.

PEYĞƏMBƏRLƏRİN İSMƏTİ BARƏSİNDƏ ƏQLİ DƏLİLLƏR

Peyğəmbərlərin günaha mürtəkibolma qarşısında ismətinin zəruri olması barədə birinci əqli dəlil bundan ibarətdir ki, onların besətində əsas hədəf bəşəriyyətin Allah tərəfindən təyin olunan həqiqət və vəzifələrə doğru hidayət edilməsidir və onlar həqiqətdə Allahın insanlar arasında olan nümayəndələridir ki, başqalarını düz yola hidayət etməlidir. Deməli, əgər bu nümayəndələr ilahi göstərişlərə laqeyd yanaşsalar və öz vəzifələrinin əksinə əməl etsələr, camaat onların əməl və rəftarlarının dediklərinə zidd olduğunu görəcək, artıq onların sözlərinə lazımi qədər etimad etməyəcək və nəticədə onların besətində nəzərdə tutulan hədəf, ümumiyyətlə, həyata keçməyəcəkdir. Deməli, Allahın hikmət və mərhəməti peyğəmbərlərin pak, günah qarşısında məsum, hətta səhv və unutqanlıq üzündən belə, yaramaz işlər baş verməyən şəxslər olmasını tələb edir ki, camaat səhv və unutqanlıq iddiasını günaha mürtəkib olmaq üçün bir bəhanə qərar verdiklərini güman etməsinlər.

Peyğəmbərlərin ismətinə ikinci əqli dəlil budur ki, onlar öz risalətlərini və vəhyin möhtəvasını camaata çatdırıb onlara düz yolu göstərməyə, eləcə də onların ruhən və mənən təlim-tərbiyəsinə, aludəliklərdən təmizlənməsinə, istedadlı şəxsləri insaniyyətin kamal mərhələsinə çatdırmağa vəzifəlidirlər. Başqa sözlə, onlar təlim və yol göstərmək vəzifəsindən əlavə insanları tərbiyə edib onlara yol göstərməyi də öhdələrinə almışlar. Bu özü də cəmiyyət fərdlərinin ən görkəmli və ən istedadlı şəxslərinə şamil olan hərtərəfli tərbiyədən ibarətdir. Belə bir məqam yalnız özləri insani kamalın

ən yüksək dərəcələrinə çatan və nəfsani səciyyələrin (ismət məlakəsinin) ən kamil həddinə malik olan kəslərə layiqdir.

Bundan əlavə, əsas etibarı ilə bir mürəbbinin başqalarını tərbiyə edərkən özündən göstərdiyi davranış və rəftarın rolu onun sözündən daha mühümdür. Rəftar və davranış baxımından müəyyən nöqsanlı hallara və çatışmazlıqlara malik olan bir şəxsin sözləri də gözəl nəticələr və təsirlər qoymayacaqdır. Deməli, Allahın, peyğəmbərləri cəmiyyətin tərbiyəçiləri və mürəbbiləri ünvanı ilə göndərməkdə hədəfi yalnız o zaman kamil şəkildə həyata keçəcəkdir ki, onlar əməldə, rəftarda və danışıqda hər növ sapmadan, günahdan uzaq olsunlar.

PEYĞƏMBƏRLƏRİN İSMƏTİNƏ NƏQLİ DƏLİLLƏR

1.Qurani-kərim insanlardan bir qrupunu **müxləs** (Allah üçün xalis olunmuş) adlandırır[1] ki, hətta İblisin belə onları aldatmağa ümidi yoxdur. Belə ki, o, Adəm övladlarını aldadıb yoldan çıxaracağına dair and içdiyi zaman müxləsləri istisna etmişdir. "Sad" surəsinin 82-83-cü ayələrində İblisin dilindən belə deyilir:

"İblis dedi: (Pərvərdigara!) Sənin izzətinə and olsun, onların hamısını aldadıb yoldan çıxarcağam, yalnız Sənin müxləs bəndələrindən başqa."

Şübhəsiz, İblisin onları azdırmağa ümidi olmaması onların azğınlıq və aludəlik cəhətindən toxunulmaz və ismətli olduğuna görədir. Əks halda, onun düşmənçiliyi peyğəmbərlərə də şamil olar və əgər belə olmasaydı, onları azdırmaq fikrindən heç vaxt əl çəkməzdi.

Deməli, müxləsin mənası məsumla bərabər olacaqdır. Bu sifətin yalnız peyğəmbərlərə aid olmasına heç bir dəlil mövcud deyil, amma, buna baxmayaraq onlara da şamil olur. Belə ki, Quran peyğəmbərlərdən bir qrupunu müxləs hesab etmişdir. "Sad" surəsinin 45-46-cı ayələrində buyurulur:

"Bizim bəndəmiz İbrahimi, İshaqı, Yəqubu yada sal. Onlar əl (qüdrət) və bəsirət sahibi idilər. Biz onları xalis etdik..."

"Məryəm" surəsinin 51-ci ayəsində buyurulur:

"Kitabda Musanı zikr et. Həqiqətən o müxləs, rəsul və nəbi idi."

Həzrət Yusifin günaha düşməyin ən ağır şəraitlərində olmasına baxmayaraq, günahdan amanda qalmasının səbəbi onun müxləs olması hesab edilir. "Yusif" surəsinin 24-cü ayəsində belə buyurulur:

"Beləliklə, Biz ondan pisliyi və yaramaz işləri kənarlaşdırdıq. Həqiqətən o, Bizim müxləs bəndələrimizdən idi."

2.Qurani-kərim peyğəmbərlərə mütləq şəkildə itaət etməyi vacib bilmişdir. O cümlədən "Nisa" surəsinin 63-cü ayəsində buyurulur:

---

[1] Diqqət yetirmək lazımdır ki, müxləs kəlməsi müxlisdən fərqlənir. Birinci kəlmə göstərir ki, Allah bir şəxsi xalis etmişdir. İkincinin mənası budur ki, bir şəxs öz əməllərini ixlas üzündən yerinə yetirir.

“Biz hər bir peyğəmbəri göndərdiksə, yalnız Allahın izni ilə itaət olunsun deyə (göndərdik).”

Onlara mütləq şəkildə itaət edilməsi o zaman səhih ola bilər ki, Allaha itaət etmək məqsədilə olsun və onlara itaət edilməsi Mütəal Allaha itaət etməklə zidd olmasın. Əks halda Allah-taalaya mütləq şəkildə itaət əmri verilməsi ilə xəta və inhiraf ərəfəsində olan şəxslərə mütləq şəkildə itaət edilməsinə əmr edilməsi ziddiyyətə gətirib çıxarar.

3.Qurani-kərim ilahi mənsəbləri o kəslərə aid edir ki, onlar zülmə aludə olmasınlar. İbrahim (ə) imamət məqamının öz övladlarına da çatmasını Allahdan istədikdə cavabında buyuruldu:

“Mənim əhdim zalımlara çatmaz.”[1]

Bildiyimiz kimi, hər bir günah ən azı nəfsə zülm etmək sayılır və Quranın istilahında hər bir günahkar şəxs zalım adlandırılır. Deməli, peyğəmbərlər, yəni ilahi məqam, nübüvvət və risalət sahibləri hər növ zülm və günahdan amanda olmalıdırlar.

Digər ayələrdən və nəql olunan çoxlu rəvayətlərdən də peyğəmbərlərin ismətli olmasını aydınlaşdırmaq olar ki, onları burada qeyd etmirik.

PEYĞƏMBƏRLƏRİN İSMƏTİNİN SİRRİ

Bu dərsin sonunda peyğəmbərlərin ismətinin sirrinə işarə etmək lap yerinə düşərdi. Onların vəhyi almaq məqamında günahsız olmalarının sirri bundan ibarətdir ki, ümumiyyətlə, vəhy idrakı xətaya yol verilən idraklar qəbilindən deyildir. Onu almağa ləyaqət və istedadı olan şəxsdə bir elmi həqiqət vardır ki, hüzuri olaraq onu dərk edir və onun vəhy edən şəxslə olan rabitəsini müşahidə edir, istər mələk bunda vasitə olsun, istərsə də olmasın.[2]

Vəhyi alan şəxsin onu alıb-almamaq barəsində şəkkə düçar olması, yaxud kimin ona vəhy etməsi, vəhyin məzmun və məfhumunun nədən ibarət olması barədə şəkk etməsi qeyri-mümkündür. Amma bəzi saxta hədislərdə qeyd olunan “bir peyğəmbər öz peyğəmbərliyində şəkk etdi”, yaxud “vəhyin məzmununu dərk etmədi”, yaxud da “vəhy edən şəxsi tanımadı” kimi sözlərin hamısı sırf yalandır. Bu kimi batil mətləblər öz varlığında, yaxud öz hüzuri elmində şəkk etməsini deyən şəxsin sözünə bənzəyir!!!

Amma peyğəmbərlərin ilahi vəzifələrini yerinə yetirmək, yəni Pərvərdigarın sözünü camaata çatdırmaq məqamında ismətinin sirri bir neçə müqəddiməyə bağlıdır:

Bəşərin ixtiyari işləri belə baş verir: İstənilən işlə bağlı insanın daxilində bir meyl yaranır və müxtəlif amillər nəticəsində təhrik olunur. Şəxs müxtəlif elm və idrakların köməyi ilə istədiyi şeyə çatmaq yolunu ayırd edərək onunla münasib olan bir işə əl atır. Əgər bir-biri ilə zidd olan meyl və

---

[1] “Bəqərə” surəsi, ayə:124.

[2] Qurani-Kərim bu barədə buyurur: “Qəlb öz gördüyünü yalan bilmədi.” “Nəcm” surəsi, 11-ci ayə

keşməkeşlər mövcud olsa, onların ən yaxşısını və ən dəyərlisini seçib götürməyə çalışacaqdır. Lakin bəzi hallarda elmin yetərli olmadığına görə ən yaxşısını seçib dəyərləndirməkdə səhv edir. Yaxud daha yaxşı işdən qafil olması, daha pis işə adət edib onunla ünsiyyətdə olması pis seçimə səbəb olur və düzgün təfəkkür edib ən səlahiyyətlisini seçməyə macal qalmır.

Deməli, insan həqiqətləri nə qədər yaxşı tanıyıb onlar barəsində agahlıq əldə etsə və daha çox diqqət yetirib daha artıq müqavimət göstərsə, eləcə də batini həyəcan və meyllərinin cilovlanmasında daha güclü iradəyə malik olsa daha yaxşı seçimdən bəhrələnəcək və bir çox sapmalardan və əyintilərdən amanda qalacaqdır.

Məhz buna görə də istedadlı şəxslər lazımi nəzəriyyə və elmdən bəhrələndiklərinə, səhih tərbiyəyə malik olduqlarına görə fəzilət və kamalın müxtəlif mərtəbələrinə çatır, bəzən ismət sərhədlərinə belə yaxınlaşırlar, hətta günah və çirkin işin fikri belə onların başlarından keçmir. Məsələn, heç bir ağıllı adam öldürücü zəhəri içmək, üfunətli və murdar şeyləri yemək fikrini beynindən keçirməz.

İndi fərz edək ki, hər hansı bir fərdin həqiqətləri tanımaq üçün istedadları özünün son həddindədir. Onun ruhi səfası və qəlbinin paklığı da ən yüksək səviyyədədir. Qurani-kərimin dili ilə desək, "xalis və zülal zeytun yağı kimi yanmağa hazırdır, sanki odla təmasda olmadan öz-özünə şölə çəkib yanmaq istəyir." Onlar bu kimi güclü istedadların və zati sifətlərin sayəsində ilahi tərbiyədən bəhrələnir və Ruhul-qudsun vasitəsilə qüvvətləndirilirlər. Belə bir şəxs kamal mərhələlərini vəsfə sığmaz sürətlə qət edib adi insanın yüz ildə ötə biləcəyi yolu ani olaraq ötüb keçir, hətta uşaqlıq çağlarında və ana bətnində belə başqalarından üstün olur. Belə bir şəxs üçün bütün günahların çirkin olması başqalarının zəhər içməsi, murdar və iyrənc şeyləri yeməkdən çəkinməsi qədər aşkardır. Adi bir şəxs belə işlərdən çəkinməkdə məcbur olmadığı kimi məsum şəxsin də günahdan çəkinməsi onun ixtiyarı ilə heç bir ziddiyyət təşkil etmir.

SUALLAR

1.Peyğəmbərlərin ismətini əqli dəlillərlə isbat edin.

2.Quranın hansı ayələri peyğəmbərlərin ismətinə dəlalət edir?

3.Peyğəmbərlərin vəhy almaq məqamında xətadan uzaq olmasının əsası nədir?

4.Peyğəmbərlərin günah qarşısında ismətli olması onların ixtiyarı ilə necə düz gələ bilər?

İYİRMİ ALTINCI DƏRS

BİR NEÇƏ ŞÜBHƏNİN CAVABI

–Məsumun mükafat almağa necə ləyaqəti var?
–Nə üçün məsumlar günaha iqrar edirdilər?
–Şeytanın peyğəmbərlərdə təsərrüf etməsi onların isməti ilə necə uyğun gəlir?
–Həzrət Adəmə (ə) üsyankarlıq və unutqanlıq nisbəti
–Bəzi peyğəmbərlərə yalan nisbəti verilməsi
–Həzrət Musanın (ə) vasitəsilə qibti bir şəxsin qətlə yetirilməsi
–Peyğəmbəri-Əkrəmin(s)öz risalətində şəkdən çəkindiril-məsi

BİR NEÇƏ ŞÜBHƏNİN HƏLLİ

Peyğəmbərlərin isməti ilə əlaqədar bəzi şübhələr irəli çəkilmişdir ki, onların cavabını veririk:

Birinci şübhə: Əgər Mütəal Allah peyğəmbərləri günaha mürtəkib olmaqdan saxlayıbsa və bu da vəzifələrinin yerinə yetirilməsinə zəmanət verirsə, bu halda onlar üçün "ixtiyari olmaq" imtiyazı sübuta yetmir. Nəticədə vəzifələrini yerinə yetirmək və günahlardan çəkinmək üçün mükafata layiq görülməyəcəklər. Çünki əgər Mütəal Allah başqa bir şəxsi də məsum qərar versəydi, onlar da peyğəmbərlər kimi olardılar.

Bu şübhənin cavabı yuxarıda qeyd edilənlərdən aydın olur. Onun xülasəsi budur ki, məsum olmağın mənası vəzifələrin yerinə yetirib günahları təkr etməkdə məcbur olmaq deyildir. (Bu, əvvəlki dərsdə bəyan olundu.) Allahın da məsumlar üçün ismət bağışlayan və onları günahlardan qoruyan olmasını demək ixtiyari işlərin onlardan alınması demək deyildir. Çünki bütün varlıqların, nəticə etibarı ilə Allahın təkvini iradəsinə istinad verilməsinə baxmayaraq Allah tərəfindən xüsusi bir izahat (tövzih) mövcud olduqda işlərin Ona istinad verilməsi ikiqat olacaqdır, lakin Allahın iradəsi insanın iradəsi ilə eninə deyil, uzununadır və Onun iradəsinin əvəzedicisi ünvanı ilə deyildir.

Amma Allahın məsumlar ilə əlaqədar xüsusi inayətinə gəldikdə, xüsusi şəxslər üçün nəzərdə tutulan müəyyən imkanlar (şərait və səbəblərdə olduğu kimi) onların məsuliyyətini və işlərinin mükafatını, müxalifət edəcəkləri təqdirdə isə onların cəzalarını qat-qat artırır. Beləliklə, məsum şəxsin özünün gözəl seçim və ixtiyarına əsasən cəzaya layiq olmayacağına baxmayaraq, mükafat ilə cəza arasında tarazlıq yaranır. Bu uyğunluğu xüsusi nemətlərdən bəhrələnən şəxslər barəsində də mülahizə etmək olar. Belə ki, din alimləri və Peyğəmbər Əhli-beytinə (ə) bağlı olan şəxslər daha həssas və ağır məsuliyyətə malikdirlər.[1] Buna görə də onların yaxşı əməllərinin mükafatı daha çox, (günaha mürtəkib olduqları fərz edildikdə) günahlarının cəzası isə daha artıq olur.[2] Məhz buna görə də hər kəs yüksək mənəvi məqama malik olsa onun süquta düşmə təhlükəsi daha artıq, sapma qarşısında qorxusu daha çox olacaqdır.

İkinci şübhə: peyğəmbərlər və sair məsumlar dua və münacatlarında özlərini günahkar hesab edir və günahlarından istiğfar edirdilər. Onları, bu cür etiraf və iqrarları ilə necə məsum hesab etmək olar?

Bu sualın cavabı budur ki, mövcud dərəcələrindəki fərqlərlə yanaşı, kamalın ən yüksək mərhələsində, ilahi qürb məqamında olan məsumlar

---

[1] Qurani-Kərim bu barədə buyurur: "Ey Peyğəmbərin zövcələri, siz digər qadınlar kimi deyilsiniz..." "Əhzab" surəsi, ayə:30-32

[2] Rəvayətdə qeyd olunur ki, alim üçün bir günah bağışlananda cahil üçün yetmiş günah bağışlanar.

özləri üçün başqalarının vəzifələrindən qat-qat artıq olan vəzifə hiss edirdilər, onlar hətta məbuddan və öz məhbublarından başqasına diqqət yetirməyi belə böyük bir günah hesab edirdilər, məhz buna görə də üzrxahlıq məqamında istiğfar edirdilər. Əvvəldə qeyd olunduğu kimi, peyğəmbərlərin isməti dedikdə məqsəd hər hansı yolla günah sayıla bilən işlərdən amanda olması deyil, onların fiqhdə haram sayılan əməllərə mürtəkib olmaları, vacib vəzifələrlə müxalifət etmək qarşısındakı isməti nəzərdə tutulur.

Üçüncü şübhə: Quranın peyğəmbərlərin isməti barəsində gətirdiyi dəlillərdən biri də onların müxləs olması, şeytanın onlarda heç bir tamah gözünün olmamasıdır. Halbuki Qurani-kərimin özündə şeytanın peyğəmbərlərdə təsərrüf etməsi qeyd olunur. O cümlədən "Əraf" surəsinin 27-ci ayəsində buyurulur:

"Ey Adəm övladı! Şeytan sizin ata-ananızı (aldadıb) behiştdən çıxartdığı kimi, sizi də aldatmasın."

Belə ki, həzrət Adəm və Həvvanın aldadılaraq behiştən çıxarılması şeytana nisbət verilir. "Sad" surəsinin 41-ci ayəsində həzrət Əyyubun dilindən belə deyilir: "O, Rəbbini çağıraraq dedi: Şeytan mənə bəla və əzab yetirmişdir." "Həcc" surəsinin 52-ci ayəsində bütün peyğəmbərlər üçün şeytanın müəyyən təlqinləri olduğu göstərilərək buyurulur:

"Səndən əvvəl elə bir rəsul və elə bir nəbi göndərmədik ki, o, bir şeyi arzu edəndə Şeytan onun arzusuna bir xələl qatmasın."

Cavab budur ki, bu ayələrin heç birində peyğəmbərlərin vacib vəzifələrlə müxalifət etməsinə səbəb olacaq heç bir təsərrüf şeytana nisbət verilməmişdir. Amma "Əraf" surəsinin 27-ci ayəsi şeytanın qadağan olunmuş ağacın meyvələrindən yemək barəsindəki vəsvəsəsinə işarə edir ki, onun meyvələrini yemək barədə təhrimi nəhy (haram olması məqsədilə çəkindirmə) olmamışdır, yalnız Adəm və Həvvaya xatırladılmışdır ki, o ağacın meyvələrindən yemələri cənnətdən çıxaraq yer üzünə enmələrinə səbəb olacaqdır. Şeytanın vəsvəsəsi onların bu irşadi nəhy (tərbiyə məqsədi ilə çəkindirmə) ilə müxalifətinə səbəb oldu. Ümumiyyətlə, onların olduğu aləm təklif aləmi deyildi və hələlik şəriət də nazil olmamışdı. Amma "Sad" surəsinin 41-ci ayəsi şeytan tərəfindən həzrət Əyyuba yönələn əzab-əziyyətlər və giriftarçılıqlara işarə edir. Amma bunlar o həzrətin Allahın əmr və nəhyləri ilə müxalif olmasına heç bir dəlalət etmir. "Həcc" surəsinin 52-ci ayəsi şeytanın bütün peyğəmbərlərin camaatı hidayət etməklə əlaqədar arzularının gerçəkləşməsi yolunda törətdiyi maneələrə işarədir. Nəhayət, Mütəal Allah onun hiylə və məkrini batil edərək haqq dini möhkəmləndirir.

Dördüncü şübhə: "Taha" surəsinin 121-ci ayəsində həzrət Adəmə üsyankarlıq, həmin surənin 115-ci ayəsində isə unutqanlıq nisbəti verilir. Belə nisbətlər o Həzrətin isməti ilə necə uyğun gələ bilər?

Bu şübhənin cavabı keçən bəyanlardan aydın olur: belə üsyankarlıq və unutqanlıqlar vacibi təkliflərlə əlaqədar deyildi.

Beşinci şübhə: Qurani-kərimdə bəzi peyğəmbərlərə yalan nisbəti verilmişdir. O cümlədən "Saffat" surəsinin 89-cu ayəsində həzrət İbrahim (ə) "Mən xəstəyəm" - deyir, halbuki, o, xəstə deyildi. "Ənbiya" surəsinin 63-cü ayəsində o Həzrətin dilindən deyilir:

"Bu işi onların bu böyüyü etmişdir."

Halbuki bütləri özü sındırmışdı. "Yusif" surəsinin 70-ci ayəsində isə buyurulur:

"Sonra carçı: «Ey karvan əhli! Siz, həqiqətən, oğrusuzun!» - deyə haray çəkdi."

Halbuki Yusifin qardaşları oğurluq etməmişdilər.

Cavab budur ki, bəzi rəvayətlərdə daha mühüm məsləhətə riayət etmək üçün başqa mənanı nəzərdə tutmaqla digər sözlər işlədilmişdir. Bəzi ayələrdən də aydın olur ki, bu ilahi ilham sayəsində olmuşdur. Belə ki, həzrət Yusifin barəsində buyurulur:

"Biz Yusifə belə bir tədbir öyrətdik."

Hər halda belə yalanlar günah və ismətlə müxalif deyildir.

Altıncı şübhə: Həzrət Musanın (ə) əhvalatında qeyd olunur ki, o, Bəni-İsraildən olan bir nəfərlə dalaşan qibti bir şəxsi qətlə yetirdi. Buna görə də Misirdən qaçdı və Mütəal Allah tərəfindən fironçuları Allah yoluna dəvət etməyə məmur edildiyi vaxt dedi:

"Onlar qarşısında boynumda bir günah da var. Bunun üçün məni öldürücəklərindən qorxuram."[1]

Sonra Firon həmin qətl hadisəsini Musaya xatırlatdığı zaman onun cavabında dedi:

"Bunu etdiyim zaman mən cahillərdən idim."[2]

Bu hadisə peyğəmbərlərin hətta besətdən qabaqkı dövrdəki ismətləri ilə necə uyğun gələ bilər?

Cavab budur ki, **əvvəla** qibti bir şəxsin öldürülməsi qəsdən olan bir iş deyildi, əksinə o, təsadüfi olaraq yumruq zərbəsindən ölmüşdü. **İkincisi** "və ləhum ələyyə zənbun" (onların qarşısında boynumda bir günah da var) sözü fironçuların nəzərinə əsasən deyilmişdi. Məqsəd bu idi ki, onlar məni qatil və günahkar hesab edirlər. Qisas alaraq məni öldürmələrindən qorxuram. **Üçüncüsü "və ənə minəz-zalimin"** (cahillərdən idim) cümləsi ya fironçularla mülayim rəftar etmək üçün deyilmişdir, (yəni "tutaq ki, o zaman mən yolumu azmışdım, lakin indi Allah məni hidayət etmiş və qəti bürhanlarla sizə doğru göndərmişdir" demək istəyir), yaxud "zəlal" kəlməsindən məqsəd bu işin axır aqibətindən agah olmamaqdır. Hər halda bu ayə həzrət Musanın (ə) ilahi vacib təkliflərlə müxalifət etməsinə əsla dəlalət etmir.

Yeddinci şübhə: "Yunis" surəsinin 94-cü ayəsində Peyğəmbəri-Əkrəmə

---

[1] "Şüəra" surəsi, ayə:14.

[2] "Şüəra" surəsi, ayə:20.

(s) xitabən buyurulur:

"Əgər sənin, Bizim sənə nazil etdiyimizdə şəkkin olsa səndən qabaq kitab oxuyan şəxslərdən soruş. Həqiqətən, Rəbbin tərəfindən sənə doğru haqq gəlmişdir. Şəkk-şübhə edənlərdən əsla olma."

"Bəqərə" surəsinin 147-ci, "Ali-İmran" surəsinin 60-cı, "Ənam" surəsinin 114-cü, "Hud" surəsinin 17-ci, "Səcdə" surəsinin 23-cü ayəsində də o Həzrət (s) şəkk və tərəddüddən çəkindirilmişdir. Necə demək olar ki, vəhy idrakında şəkk və tərəddüdə yer yoxdur?

Cavabı budur ki, bu ayələr o Həzrət (s) üçün şəkk baş verməsinə dəlalət etmir. Əksinə bunu çatdırmaq istəyir ki, onun risaləti, Quranın haqq olması və onun məzmunu barəsində şəkk və tərəddüdə yer yoxdur. Həqiqətdə bu cür xitablar "qızım sənə deyirəm, gəlinim sən eşit" atalar sözünə bənzəyir.

Səkkizinci şübhə: Qurani-kərim Peyğəmbəri-Əkrəmə (s) müəyyən günahları nisbət vermiş və buyurmuşdur ki, Allah onları bağışlamışdır:

"Ta ki, Allah sənin keçmiş və gələcək günahlarını bağışlasın."[1]

Cavab budur ki, bu şərif ayədəki "zənb" kəlməsindən məqsəd müşriklərin hicrətdən qabaq və sonra o Həzrət üçün inandıqları günah idi. Çünki, Peyğəmbər (s) onların məbudlarını təhqir edirdi. "Onları bağışlamaq" dedikdə isə məqsəd həmin işlərin ehtimal veriləcək təsirinin aradan aparılmasıdır. Bu təfsirin şahidi budur ki, Allah Məkkənin fəthini onun bağışlanması hesab edərək buyurur: "İnna fətəhna ləkə fəthən mubina" (Həqiqətən, Biz sənə açıq-aşkar bir fəth bəxş etdik). Aydındır ki, burada məqsəd şəriət istilahında olan günah olsaydı, onun bağışlanmasının Məkkənin fəthi ilə əlaqələndirilməsinin heç bir əsası olmazdı.

Doqquzuncu şübhə: Qurani-kərim Peyğəmbərin (s) Zeydin boşadığı arvadla evlənməsi (Zeyd onun oğulluğu idi) ilə əlaqədar buyurur:

"Sən camaatdan qorxursan. Allah, Ondan qorxmağa daha layiqdir."[2]

Belə bir təbirin ismət məqamı ilə necə uyğunluğu var?

Cavab budur ki, Peyğəmbər (s) qorxurdu ki, camaat imanlarının zəif olduğuna görə Allahın göstərişi ilə və cahiliyyət dövrünün yanlış adət-ənənələrini (oğulluğu həqiqi övlad saymağı) pozmaq üçün gördüyü tədbiri o Həzrətin (s) şəxsi meylləri ilə əlaqələndirsinlər və bu da onların dindən çıxmalarına səbəb olsun. Mütəal Allah bu şərif ayədə Öz Peyğəmbərinə (s) bu adətin pozulmasındakı məsləhətin onun (s) əməli mübarizəsi əsasında ilahi iradə ilə bu yalnış təsəvvürə və əqidə arasında yaranacaq qorxudan daha mühüm olduğunu xəbər verir. Deməli, bu şərif ayə o Həzrətə heç bir vəchlə tənə vurmur.

Onuncu şübhə: Qurani-kərim Peyğəmbəri (s) məzəmmət edir. Onun (s) bəzi şəxslərə müharibədə iştirak etməmək icazəsi verməsi ilə əlaqədar

[1] "Fəth" surəsi, ayə:1

[2] "Əhzab" surəsi, ayə:37

buyurur:

“Allah səni əfv etsin, nə üçün onlara icazə verdin?!”[1]

Həyat yoldaşlarından bəzisini razılığını cəlb etmək məqsədi ilə bəzi halal işləri özünə haram etməsi barəsində isə buyurur:

“Ey Peyğəmbər! Nə üçün Allahın sənə halal etdiyi şeyləri haram edir və bununla da zövcələrinin razılığını qazanmaq istəyirsən?!”[2]

Bu cür tənə və məzəmmətlər o Həzrətin (s) ismət məqamı ilə necə uyuğun gələ bilər?

Cavab budur ki, bu cür xitablar həqiqətdə məzəmmət formasında olan mədh və tərifdən ibarətdir. Bu da Peyğəmbərin (s) (nəuzubillah) Allahın hökmünü dəyişdirib halalı camaata haram etmiş olmasını deyil, onun son dərəcə mehribançılıq və ürəyiyananlığına dəlalət edir. Belə ki, o, hətta münafiqləri və qəlbləri xəstə olanları belə ümidsiz etməyir, onların sirlərinin üstünü açmır, zövcələrinin razılığını öz istəklərindən qabağa salır, and içmək vasitəsilə mübah işi özünə haram edir.

Həqiqətdə bu ayələr bir baxımdan o Həzrətin (s) kafirlərin hidayəti üçün son dərəcə səy göstərib ürəyiyananlıq etməsini göstərən ayələrə bənzəyir. Belə ki, buyurulur:

“Onların iman gətirmədikləri üçün bəlkə özünü həlak edəcəksən?!”[3]

Yaxud Mütəal Allaha ibadət etmək üçün özünü həddindən artıq əzab-əziyyətə salmasını göstərən ayələr:

“Biz Quranı sənə nazil etmədik ki, məşəqqətə düşəsən.”[4]

Hər bir halda bu kimi ayələrin o Həzrətin ismət məqamı ilə heç ziddiyyəti yoxdur.

SUALLAR

1.Məsum şəxs başqalarına nisbətən hansı ixtiyari imtiyazlara malikdir? İlahi ismətə istinad verilən bir iş hansı mükafata layiqdir?

2.Nə üçün Allah peyğəmbərləri və övliyaları özlərini günahkar hesab edərək Allah dərgahında yalvarıb istiğfar edirdilər?

3.Şeytanın peyğəmbərlərdə təsərrüf etməsi onların ismət məqamı ilə necə uyğun gəlir?

4.Qurani-kərimdə həzrət Adəmə (ə) nisbət verilən üsyankarlıq və unutqanlıq onun isməti ilə necə düz gəlir?

5.Əgər bütün peyğəmbərlər məsumdurlarsa, onda nə üçün həzrət İbrahim (ə) və həzrət Yusif (ə) yalan danışdılar?

6.Həzrət Musanın (ə) isməti ilə əlaqədar şübhə və onun cavabını bəyan edin.

---

[1] “Tövbə” surəsi, ayə:43

[2] “Təhrim” surəsi, ayə:1

[3] “Şüəra” surəsi, ayə:3

[4] “Taha” surəsi, ayə:1

7.Əgər vəhy idrakında heç bir xətaya yol yoxdursa, nə üçün Mütəal Allah Peyğəmbəri-Əkrəmi (s) risaləti barəsindəki şəkk və tərəddüddən təkrar çəkindirir?

8.Fəth surəsində islam Peyğəmbərinə (s) günah nisbət verilməsi o Həzrətin ismət məqamı ilə necə uyğun gəlir?

9.Zeydin hadisəsi ilə əlaqədar şübhəni cavabı ilə birlikdə bəyan edin.

10.Peyğəmbərin (s) məzəmmət edilməsi ilə əlaqədar şübhə hansıdır? Onun cavabı nədir?

İYİRMİ YEDDİNCİ DƏRS

MÖCÜZƏ

–Nübüvvətin isbatolunma yolları
–Möcüzənin tərifi
–Xariqüladə işlər
–İlahi xariqüladələr
–Peyğəmbərlərin möcüzələrinin xüsusiyyətləri

NÜBÜVVƏTİN İSBATOLUNMA YOLLARI

Nübüvvət bölməsinin üçüncü əsas məsələsi başqaları üçün Həqiqi peyğəmbərlərin iddiasının doğruluğunu və yalançı iddiaçıların yalanını isbat etməkdən ibarətdir?

Əgər insan günaha və əql tərəfindən çirkinliyi dərk edilən işlərə mürtəkib olsa, artıq ona etimad edilməyəcəkdir. İsmət şərtini əldə əsas tutmaqla bir kəsin iddiasının yalan olduğunu isbat etmək olar. Xüsusilə, əgər o, insanları əql və fitrət ilə müxalif olan işlərə dəvət etsə, yaxud sözlərində ziddiyyət aşkar olunsa onun sözünün yalan olması daha tez aşkar edilər.

Digər tərəfdən də hər hansı şəxsin keçmişi pak-pakizə ola bilər və onunla şəxsi-qərəzi olmayanlar onun düzdanışan olmasını hər an təsdiq edib bu barədə xatircəm ola bilərlər. Xüsusilə, əgər əql də onun dəvətinin möhtəvasının düzgünlüyünə şahidlik etsə. Bir şəxsin peyğəmbərliyi digər bir peyğəmbərin əvvəlcədən xəbər verib onu təqdim etməsi və həqiqət axtaran şəxslər üçün heç bir şəkk-şübhəyə yer qalmadığı qədər sübuta yetməsi də mümkündür. Amma əgər camaat üçün yəqinlik və xatircəmlik gətirən əlamətlər olmasa, digər peyğəmbərlərdən bu barədə heç bir xəbər gəlib çatmasa, təbiidir ki, nübüvvətin isbat olunması üçün digər bir yola ehtiyac duyulacaqdır. Mütəal Allah da Özünün hikmətinə uyğun olaraq bu barədə çıxış yolu açaraq peyğəmbərlərə "ayələr" adlandırdığı möcüzələr vermişdir ki, onların iddiasının doğruluğu sübut olunsun.[1]

Deməli, həqiqi peyğəmbərlərin iddiasının doğruluğu üç yolla isbat oluna bilər:

1.Xatircəmlik gətirən əlamət və şahidlər yolu ilə. Məsələn, onun həyatı boyu düzlüyü, doğruçuluğu, yolundan azmaması, həmişə haqq yolda və ədalətli olması məlum olsun. Amma bu yol o peyğəmbərlərin barəsində doğrudur ki, insanların arasında uzun illər yaşamış və onların arasında xoş rəftarı ilə məşhur olmuşdur. Amma bir peyğəmbər cavan yaşlarında, xalqın onun şəxsiyyət və rəftarını tanımazdan öncə peyğəmbərliyə çatsa, bu yolla onun iddiasının doğruluğunu isbat etmək olmaz.

2.Əvvəlki, yaxud onunla müasir olan peyğəmbərlərin təqdim etməsi ilə. Bu yol da o insanlara məxsusdur ki, özündən əvvəlki digər peyğəmbəri tanımış olsun. Bundan əlavə, onun verdiyi xəbər və təsdiqlədiyi şəxs barədə əldə məlumat olsun. Təbiidir ki, bu yol ilk peyğəmbər barəsində mövcud olmayacaqdır.

3.Möcüzə göstərməklə.* Bu mövzu yüksək səviyyəli, geniş olduğundan onu daha artıq izah edirik.

---

[1] Ayət kəlməsi müxtəlif varlıqlarda (istər adi olsun, istərsə də qeyri-adi) müxtəlif mənalarda işlənir. İlahi hikmət, qüdrət və elm nişanələri də buna misaldır.

MÖCÜZƏNİN TƏRİFİ

Möcüzə Allahın iradəsi ilə nübüvvət iddiası edən şəxsdə baş verən və onun iddiasının doğruluq əlaməti olan xariqüladə işlərə deyilir. Göründüyü kimi, bu tərif üç məsələni əhatə edir:

a) Müəyyən xariqüladə hadisələr və varlıqlar vardır ki, adi səbəb və amillər vasitəsilə vücuda gəlmir.

b) Bu xariqüladə işlərdən bəziləri Allahın iradəsi və Onun xüsusi izni ilə peyğəmbərlər vasitəsilə zahir olur.

v) Belə xariqüladə bir iş peyğəmbərin iddiasının doğruluq əlaməti ola bilər və bu halda o möcüzə adlandırılır.

İndi yuxarıda qeyd olunan üç məsələ ilə əlaqədar əlavə izah veririk.

XARİQÜLADƏ İŞLƏR

Bu dünyada baş verən hadisələr əksər hallarda müxtəlif sınaqlar və təcrübələrlə, məlumat əldə ediləcəyi mümkün olan səbəb və amillərlə baş verir. Fiziki, kimyəvi, psixoloji və s. kimi hadisələrin əksəriyyəti buna misal ola bilər. Amma nadir hallarda bu hadisələrdən bir qrupu digər bir yolla baş verir və onların səbəb və amillərinin hamısını hissi və təcrübi sınaqlar vasitəsilə tanımaq olmaz. Müəyyən şahidlər bu cür hadisələrin baş verməsində başqa amillərin təsirli olduğunu göstərir. Belə ki, murtazların (yoqların) gördükləri heyrətli işlər buna misal ola bilər. Müxtəlif elm sahələrində mütəxəssis olanlar bu işlərin maddi və təcrübi elm qanunları əsasında baş vermədiyini təsdiq edirlər. Bu işlər xariqüladə işlər adlandırılır.

İLAHİ XARİQÜLADƏ İŞLƏR

Xariqüladə işləri iki ümumi bölmədə təsnif etmək olar: Onlardan birincisinin adi səbəb və amillərə malik olmamağına baxmayaraq onların qeyri-adi səbəbləri müəyyən qədər bəşərin ixtiyarındadır və xüsusi təlimlər və məşqlərlə onları əldə edə bilər. Murtazların işləri bunlara misal ola bilər. Digər bir qismi isə elə xariqüladə işlərdir ki, onlar yalnız Allahın xüsusi izni ilə həyata keçə bilər, onların ixtiyarı da Allahla əlaqəsi olmayan insanlara həvalə edilmir. Buna görə də belə işlər iki əsas xüsusiyyətə malikdir:

1.Bu kimi işlər öyrənməli və öyrədilməli deyildir. 2.Daha güclü qüvvələrin təsirinə məruz qalmır və başqa amillər tərəfindən məğlub edilmir.

Bu cür xariqüladə işlər Allahın seçilmiş və heç vaxt yollarını azmayan və həvayi-nəfsə uymayan bəndələrinə məxsusdur. Lakin təkcə peyğəmbərlərə də məxsus deyil. Bəzən başqa ilahi övliyalar da onlardan istifadə edirlər. Buna görə də kəlam istilahında onların hamısını möcüzə adlandırmırlar. Adətən peyğəmbərlərdən başqaları tərəfindən həyata keçən bu cür görünən işləri kəramət adlandırırlar. Eləcə də qeyri-adi ilahi elmlər də nübüvvət vəhyi ilə xülasələnmir. Bəzən belə elmlər başqalarına da verilir. Bunlar ilham, təhdis və s. adlanır.

Eləcə də ilahi və qeyri-ilahi olan iki xariqüladə işin ayırd edilməsi də məlum olur. Yəni əgər xariqüladə işin görülməsi öyrənib-öyrədilmək xüsusiyyətinə malik olsa, yaxud başqa bir fail onun qarşısını ala bilsə, yaxud davam etməsini dayandırıb onun təsirini aradan qaldırsa, o zaman bu, ilahi xariqüladə iş sayılmayacaqdır. Bu kimi hallarda şəxsin əqidə və əxlaq pozğunluğunu, şəxsi mənafe güdməsini onun Allahla əlaqədə olmamasının, işlərinin nəfsani və şeytani olması kimi başa düşmək olar.

Burada digər bir məsələni də qeyd etmək yerinə düşərdi. İlahi xariqüladə işlərin failini Allah olduğunu (bütün məxluqata, o cümlədən adi hadisə və varlıqlara qarşı failiyyətindən əlavə) hesab etmək olar. Çünki onların vücuda gəlməsi Allahın xüsusi izn və icazəsinə bağlıdır.[1] Onları mələk və peyğəmbərlərə də aid etmək olar. Çünki onlar vasitə, yaxud yaxın fail ünvanına malikdirlər. Qurani-kərim ölülərin dirildilməsini, xəstələrə şəfa verilməsini, quş xəlq edilməsini həzrət İsaya (ə) verilən möcüzə olduğunu bildirmişdir.[2] Bu iki nisbət arasında heç bir təzad yoxdur. Çünki bəndələrin failiyyətinin arxasında Allahın failiyyəti durur.

PEYĞƏMBƏRLƏRİN MÖCÜZƏLƏRİNİN XÜSUSİYYƏTLƏRİ

Möcüzənin tərifində qeyd olunan üçüncü mətləb bundan ibarətdir ki, peyğəmbərlərin möcüzələri onların öz iddialarında doğru olmaqlarının nişanəsidir. Buna görə də xariqüladə bir iş kəlam terminində möcüzə adlandırılan zaman Allahın xüsusi izninə istinad verilməkdən əlavə, peyğəmbərin peyğəmbərliyinin dəlili kimi qeyd olunur. Əgər bu məsələ ümumi götürülsə, imamət iddiasında olan şəxsin də iddiasının doğruluğuna dəlil olacaqdır. Beləliklə də, kəramət istilahı Allah övliyalarından baş verən digər ilahi xariqüladə işlərə aid olacaqdır. Bu da murtazların (yoqların) əməlləri, sehr və kahinlik kimi şeytani və nəfsani qüvvələrə istinad edilən xariqüladə işlərin müqabilində durur. Bu kimi əməllər həm öyrənib-öyrədilməyə qabildir, həm də daha güclü qüvvə tərəfindən məğlub edilir. Adətən, onların ilahi olmamasını bu işləri göstərənlərin əqidə və əxlaqlarının fasid olması ilə bilmək olar.

Digər bir məsələ budur ki, peyğəmbərlərin möcüzələri onların nübüvvət iddialarının doğruluğunu birbaşa isbat edir. Amma risalət məzmununun doğruluğu, onların möcüzədən qeyri yollarla təbliğ etdikləri fərmanlara itaət etmək zərurəti isə başqa yollarla sübut olunur. Başqa sözlə desək, əqli dəlillə peyğəmbərlərin nübüvvəti, nəqli dəlillərlə isə onların risalətinin möhtəvası isbat olunur.[3]

---

[1] "Rəd" surəsi, ayə:37, "Ğafir" surəsi, ayə:78

[2] "Ali-İmran" surəsi, ayə:49, "Maidə" surəsi, ayə:100

[3] Bu kitabın 21-ci dərsinə müraciət edə bilərsiniz.

SUALLAR

1.Həqiqi peyğəmbərləri hansı yollarla tanımaq olar? Bu yollar arasında fərq varmı?

2.Yalançı iddiaçıların yalanlarının əlaməti nədir?

3.Möcüzənin tərifini deyin.

4.Xariqüladə işlər hansılardır?

5.İlahi və qeyri-ilahi xariqüladə işlər arasındakı fərq nədir?

6.İlahi xariqüladə işləri hansı yollarla tanımaq olar?

7.İlahi xariqüladə işlər arasında peyğəmbərlərin möcüzələrinin xüsusiyyətləri hansılardır?

8.Möcüzə və kəramət istilahlarını bəyan edin.

9.Möcüzə Allahın işidir, yoxsa peyğəmbərin?

10.Möcüzə peyğəmbərliyin öz dəlilidir, yoxsa peyğəmbərin gətirdiyi dinin mövzusunun həqiqətini isbat edir?

İYİRİMİ SƏKKİZİNCİ DƏRS

BİR NEÇƏ ŞÜBHƏNİN HƏLLİ

–Möcüzə səbəb-nəticə qanununu pozmurmu?
–Xariqüladə iş ilahi qanunların dəyişilməsi demək deyilmi?
–İslam Peyğəmbəri (s) möcüzə göstərməkdən niyə imtina edirdi?
–Möcüzələr əqli dəlildir, yoxsa qənaətedici bir dəlil?

BİR NEÇƏ ŞÜBHƏNİN HƏLLİ

Möcüzə ilə əlaqədar müəyyən şübhələr irəli gəlir ki, onları qeyd edərək bu barədə izahat veririk:

Birinci şübhə. Hər bir maddi varlığın xüsusi bir səbəbi vardır. Bunu elmi təcrübələrin köməyi ilə müəyyən etmək olar. Sınaq və təcrübə vasitələrinin nöqsanlı olmasına görə hər hansı bir hadisə və varlığın səbəbinin naməlum qalmasını həmin varlıqlar üçün adi səbəbin mövcud olmamasına bir dəlil kimi göstərmək olmaz. Deməli, xariqüladə işləri yalnız bu ünvanla qəbul etmək olar ki, onlar naməlum səbəb və amillərdən irəli gəlmişlər. Ən çoxu budur ki, onların səbəblərinin məlum olmadığı bir dövrdə bu səbəblərdən agahlığı möcüzəli bir iş hesab etmək olar. Amma elmi sınaqlar vasitəsilə tanınmağa qabil olan səbəblərin inkar olunması səbəb-nəticə prinsipinin pozulmasına gətirib çıxartdığından rədd edilir.

Bunun cavabı budur ki, səbəb-nəticə prinsipi heç vaxt hər bir asılı varlıq və məlul üçün yalnız bir illətin sübut olunmasını tələb etmir. Amma hər bir illətin də hökmən təcrübi vasitələr ilə tanınmasının zəruri olması heç də illiyyət prinsipinin tələbi deyildir və bu məsələ ilə əlaqədar heç bir dəlil gətirmək olmaz. Çünki elmi təcrübə və sınaqların həddi təbii işlərlə məhdudlaşır və heç vaxt təbiətin fövqündə dayanan varlığın olub-olmamasına təcrübə vasitələri ilə sübuta yetirmək olmaz.

Amma möcüzənin tanınmaz səbəblərdən agah olmaq kimi təfsir olunması düzgün deyildir. Çünki əgər bu agahlıq adi səbəblər vasitəsilə əldə olunarsa, digər adi hadisələrlə heç bir fərqi olmayacaqdır və onu xariqüladə iş hesab etmək olmaz. Əgər qeyd olunan agahlıq qeyri-adi surətdə baş vermiş olsa, xariqüladə bir iş olacaq, Mütəal Allahın xüsusi izninə istinad verilsə və nübüvvətin doğruluğuna dəlil gətirilsə, möcüzənin (elmi möcüzənin) qismlərindən biri olacaqdır. Həzrət İsanın (ə) camaatın evlərində nə yeməsi və nəyi ehtiyat saxlaması ilə bağlı agahlığı o Həzrətin möcüzələrindən biri hesab olunurdu.[1] Lakin möcüzəni həmin qism ilə sona çatdığını da demək olmaz.

Nəhayət "səbəb-nəticə prinsipi ilə əlaqədar bu hadisə ilə digər xariqüladə işlər arasındakı fərq nədən ibarətdir?" sualı qalır.

İkinci şübhə: Allahın əbədi qanunu bu əsasda olmuşdur ki, hər bir varlığı xüsusi illət vasitəsilə vücuda gətirsin. Qurani-kərimin ayələrinə görə, Allahın qayda-qanununda heç bir dəyişiklik baş verməz.[2] Buna əsasən ilahi qanunlarda dəyişiklik hesab olunan xariqüladə işlər (adətin pozulması) belə ayələrin vasitəsilə inkar olunur.

Bu şübhə eynilə əvvəlki şübhəyə oxşayır. Fərq bundan ibarətdir ki, orada

---

[1] "Ali-İmran" surəsi, ayə:49

[2] "İsra" surəsi, ayə:77, "Əhzab" surəsi, ayə:62, "Fatir" surəsi, ayə:43, "Fəth" surəsi, ayə:23

sırf əqli dəlil gətirilirdi, burada isə Quran ayələrinə istinad edilir. Cavabı da budur ki, varlıqların səbəb və illətlərinin yalnız adi səbəb və illətlər vasitəsilə məhdudlanmasını Allahın dəyişməz qayda-qanunlarından hesab etmək dəlilsiz bir sözdür və eynilə bir şəxsin "hərarətin səbəbi yalnız odla məhdudlaşır" - deyə iddia edərək ilahi qayda-qanunlarda dəyişiklik olmamasını deməyə bənzəyir! Belə iddialar qarşısında demək olar ki, müxtəlif nəticələr üçün səbəblər çoxluğunun mövcud olması, qeyri-adi səbəblərin adi səbəblərin yerinə keçməsi dünyada həmişə mövcud olan bir işdir və buna görə də onu ilahi qanunlardan, səbəblərin yalnız adi səbəblərdə çərçivələnməsi onda dəyişiklik hesab olunmalıdır ki, bu da Quran ayələrində inkar edilmişdir. Hər bir halda ilahi qanunlarda dəyişikliyin inkar olunmasına dəlalət edən ayələrin adi səbəblərin başqa şeylə əvəz oluna bilməməsini dəyişiklik qəbul etməyən qanunlardan biri kimi hesab olunması əsassızdır. Əksinə, çoxlu Quran ayələri möcüzələrin və xariqüladə işlərin baş verməsinə dəlalət edir və bu məsələni düzgün olmamasına möhkəm bir dəlildir. Yuxarıdakı ayələrin düzgün şərhini təfsir kitablarında axtarmaq lazımdır. Burada qısa şəkildə qeyd edirik ki, bu qəbildən olan şərif ayələr illətlərin çoxluğunu, qeyri-adi illətlərin adi illətlərin yerinə keçməsini inkar deyil, məlulun illətdən kənara çıxmasını inkar etməyə nəzər yetirir. Hətta, bəlkə də demək olar ki, bu ayələrdən dəqiq məlum olan şey qeyri-adi illət və səbəblərin təsiridir.

Üçüncü şübhə. Qurani-kərimdə qeyd olunur ki, camaat təkrar olaraq Peyğəmbərdən (s) möcüzə və xariqüladə iş göstərməsini tələb edirdi və o Həzrət belə istəkləri yerinə yetirməkdən imtina edirdi.[1] Əgər möcüzənin gətirilməsi nübüvvətin isbatolunma yoludursa, islam Peyğəmbəri (s) bu yoldan niyə istifadə etmirdi?

Cavabı budur ki, bu cür ayələr o Həzrətin nübüvvətinin hər üç yolla (doğru əlamətlər, əvvəlki peyğəmbərlərin xəbərləri, möcüzə təqdim edilməsi ilə) isbat edildikdən və höccət tamam olunduqdan sonra inadkarlıq, yaxud başqa qərəzli məqsədlərlə möcüzə tələbetmə istəyi ilə əlaqədardır və ilahi hikmət də belə istəklərin yerinə yetirilməsini tələb etmirdi.[2]

İzah: Möcüzə göstərilməsində əsas hədəf camaatın peyğəmbərlərin dəvətini qəbul etməsi, onların qarşısında məcburi olaraq təslim olub itaətə vadar olması, eləcə də adi səbəblər əsasında cərəyan edən sistemləri bir-birinə qarışdırmaq, yaxud müəyyən əyləncə məqsədilə deyil, Allah Peyğəmbərini tanıtmaq və xalqa höccəti tamamlayaraq bəhanə yeri qoymamaq məqsədi güdürdü. Belə ki, möcüzə bu dünyaya hakim olan sistemlərdə istisna bir iş olub, bəzən camaatın istəklərini yerinə yetirmək

---

[1] "Ənam" surəsi, ayə:37, 109, "Yunis" surəsi, ayə:21, "Rəd" surəsi, ayə:7, "Ənbiya" surəsi, ayə:5.

[2] "Ənam" surəsi, ayə:25, 124, "Taha" surəsi, ayə:133, "Saffat" surəsi, ayə:14, "Qəmər" surəsi, ayə:2, "Şüəra" surəsi, ayə:3-4, 197, "İsra" surəsi, ayə:59, "Rum" surəsi, ayə:58.

üçün, (məsələn Salehin dəvəsində olduğu kimi) və bəzən də ibtidaən (həzrət İsanın möcüzələri kimi) baş verirdi. Belə bir hədəf də hər növ istəyə müsbət cavab verilməsini tələb etmir, əksinə, onlardan bəzilərinin qəbul edilməsi hikmətin əksinə və məqsədin ziddinədir. Məsələn, düz yolu camaatın üzünə bağlamaq, onları peyğəmbərlərin dəvətini qəbul etmək üçün təzyiqə məruz qoymaq, yaxud inadkarlıq üzündən olan, yaxud da həqiqəti axtarmaqdan başqa məqsədlərlə möcüzə istənilməsi bunlara misal ola bilər. Çünki bir tərəfdən bu kimi hallarda möcüzənin gətirilməsi bunu oyun-oyuncağa çevirir və camaat əylənmək üçün ona tamaşa edir, yaxud şəxsi mənafeni təmin etmək üçün peyğəmbərlərin ətrafına yığışırdılar. Digər tərəfdən imtahan, sınaq və azad seçki yolları bağlanırdı. Camaat ikrah üzündən təzyiq amillərinin təsirinə düşərək peyğəmbərlərə itaətçiliyi qəbul edərdilər. Bunların hər ikisi hikmətin və möcüzənin göstərilməsindəki hədəfin əksinə idi. Amma bundan başqa hallarda, eləcə də Allahın hikmətinin tələb etdiyi yerlərdə camaatın istəkləri qəbul olunurdu. Məsələn, Peyğəmbəri-Əkrəmdən (s) görünən çoxlu möcüzələrin əksəriyyəti mütəvatir nəql əsasında sübuta yetmişdir. Onların da başında həzrətin əbədi möcüzəsi olan Qurani-kərimdir ki, sonradan bu barədə izahat veriləcəkdir.

Dördüncü şübhə. Möcüzə xüsusi ilahi iznə bağlı olduğundan Mütəal Allah ilə möcüzə gətirən şəxs arasında özəl rabitə olduğunu, ona xüsusi izn verildiyini göstərir. Başqa sözlə desək, Allah Öz işini onun əli ilə, yaxud onun iradəsinin vasitəsilə həyata keçirir. Amma belə rabitənin zəruri olması o demək deyil ki, Mütəal Allah ilə möcüzə gətirən şəxsin arasında vəhy göndərmək və almaq kimi digər bir rabitə də bərqərar olsun. Deməli, möcüzəni nübüvvətlik iddiasının doğruluğuna əqli bir dəlil hesab etmək olmaz. Ən çoxu bir növ zənni və qənaətləndirici dəlil hesab etmək olar.

Cavab bundan ibarətdir ki, hətta ilahi olsa belə, xariqüladə işin öz-özlüyündə vəhy ilə əlaqəsi yoxdur. Buna görə də Allah övliyalarının kəramətini onların peyğəmbər olmasına dəlil hesab etmək olmaz. Lakin söhbət o kəslər haqqındadır ki, nübüvvət iddiası edir və möcüzəni öz iddiasının doğruluğuna bir nişanə kimi gətirir. Əgər belə bir şəxsin yalandan nübüvvət iddiası etdiyini, yəni ən ağır dünya və axirət fəsadına səbəb olan ən böyük və ən çirkin günaha mürtəkib olacağını fərz etsək[1] onun heç vaxt Allah ilə belə bir əlaqə bərqərar etməyə ləyaqət və səlahiyyəti olmazdı. İlahi hikmət də ona möcüzə göstərmək qüdrətini verilməsini və nəticədə bəndələrin azğınlığa düşməsinə səbəb olmasını tələb etməzdi.[2]

Bir sözlə, əql aydın şəkildə başa düşür ki, o kəsin Allahla xüsusi rabitə qurub möcüzə göstərməyə qüdrəti ola bilər ki, öz mövlasına xəyanət

[1] "Ənam" surəsi, ayə:21, 93, 144, "Əraf" surəsi, ayə:37, "Yunis" surəsi, ayə:17, "Hud" surəsi, ayə:18, "Kəhf" surəsi, ayə:15, "Ənkəbut" surəsi, ayə:68, "Şura" surəsi, ayə:24

[2] "Əl-haqqə" surəsi, ayə:44-46

etməsin, Onun bəndələrinin əbədi azğınlığa və bədbəxtçiliyə düçar olmasına səbəb olmasın.

Deməli, möcüzəni gətirmək nübüvvət iddiasının düzgünlüyünə qəti əqli dəlil olacaqdır.

SUALLAR

1.Səbəb-nəticə qanununun məzmunu nədir? O nəyi gərəkli edir?

2.Səbəb-nəticə qanununun qəbul edilməsinin möcüzəni qəbul etməklə niyə ziddiyyəti yoxdur?

3.Möcüzənin naməlum səbəblərdən agahlıq kimi təfsir edilməsi niyə səhih deyildir?

4.Möcüzəni qəbul etmək ilahi qayda-qanunların dəyişikliyə məruz qalmaması ilə ziddirmi? Niyə?

5.Peyğəmbərlər bədahətən möcüzə gətirirdilər, yoxsa, bu işi camaatın istəyi ilə görürdülər?

6.Nəyə görə peyğəmbərlər hər möcüzə istəyənin istəyinə cavab vermirdilər?

7.Möcüzənin yalnız qane edən bir dəlil olmadığını, əksinə, nübüvvət iddiasının doğruluğuna əqli bir dəlil olmasını izah edin.

İYİRMİ DOQQUZUNCU DƏRS

PEYĞƏMBƏRLƏRİN XÜSUSİYYƏTLƏRİ

–Peyğəmbərlərin çoxluğu
–Peyğəmbərlərin sayı
–Nübüvvət və risalət
–Ülul-əzm peyğəmbərlər
–Bir neçə məsələ

PEYĞƏMBƏRLƏRİN ÇOXLUĞU

İndiyə qədər nübüvvətin üç əsas məsələsi araşdırıldı və belə nəticə alındı ki, bəşər elmi dünya və axirət səadətində əsaslı rol oynayan məlumatların hamısını əldə etmək üçün yetərli olmadığından Allahın hikməti ehtiyac duyulan həqiqətləri insanlara öyrətsin deyə, peyğəmbər, yaxud peyğəmbərlər göndərilməsini tələb edir ki, bu həqiqətlər sağlam və təhrif olunmadan bütün insanlara yetişsin. Digər tərəfdən onları başqalarına elə təqdim etsin ki, höccət onlara tamam olsun. Onun ən ümumi yolu da möcüzə göstərməkdir.

Biz bu mətləbləri əqli bürhanlarla isbat etdik. Lakin yuxarıdakı bürhanlar peyğəmbərlərin, asimani kitab və şəriətlərin çoxluğunun zərurət olmasına dəxalət etmir. Hətta, əgər bəşər həyatı, dünyanın axırına qədər insanların ehtiyaclarının hamısının təkcə bir peyğəmbərin bəyan edə biləcəyi şəkildə olsaydı və hər bir fərd, yaxud qrup tarix boyu öz vəzifəsini həmin peyğəmbərin göstərişləri vasitəsilə ayırd edə bilsəydi, həmin bürhanların tələbinin əksinə olmazdı.

Amma bilirik ki, **əvvəla,** bütün insanların, o cümlədən, peyğəmbərlərin ömrü məhduddur və yaradılışın hikməti bir peyğəmbərin dünyanın axırına qədər diri qalaraq bütün insanları birbəbir hidayət etməsi əsasında olmamışdır.

İkincisi, insanların müxtəlif zaman və məkanlardakı həyat şəraitləri və vəziyyətləri eyni səviyyədə deyil, fərqlidir. Bu kimi mövcud fərqlər və şəraitin dəyişilməsi, xüsusilə ictimai münasibətlərin tədricən inkişaf edib mürəkkəbləşməsi ictimai qayda-qanunların və hökmlərin kəmiyyət və keyfiyyətinə təsir göstərib, bəzi hallarda yeni şəriət qanunlarını tələb edə bilər. Əgər bu qanunlar min illər bundan qabaq göndərilmiş peyğəmbərin vasitəsilə bəyan olunsaydı, bu, əbəs, onların qorunub saxlanılması və xüsusi şəraitdə tətbiq edilməsi isə olduqca çətin bir iş olardı.

Üçüncüsü, keçmiş zamanların çoxunda peyğəmbərlərin dəvətinin yayılması və təbliği üçün mövcud imkanlar elə bir səviyyədə deyildi ki, bir peyğəmbər öz sözlərini bütün insanlara çatdıra bilsin.

Dördüncü, zamanın keçməsi və müxtəlif amillərin təsiri ilə bir peyğəmbərin təlimləri onu əxz edən insanların arasında təhrif olunmuş və ondan düzgün olmayan təfsirlər edilmiş, bir müddətdən sonra xurafatçı və inhirafçı ayinə çevrilmişdir. Məsələn, İsa ibni Məryəmin (ə) tövhid dini bir müddətdən sonra "üçlüyə pərəstiş"ə çevrilmişdir.[1]

Bu kimi məsələlərə diqqət yetirməklə peyğəmbərlərin sayının çoxluğunun, bəzi ibadət hökmləri, yaxud ictimai qanunların bir qrupunda

[1] Bu kimi təhriflərin nümunələrindən agah olmaq üçün Əllamə Şeyx Məhəmməd Cavad Bəlağı Nəcəfinin "Əl-Hüda ila dinil-Müstəfa" kitabına müraciət edə bilərsiniz.

asimani şəriətin fərqlərinin hikməti aydın olur.[1] Halbuki, onların hamısı əqidə prinsiplərinə əsasən eyni, fərdi və ictimai əhkamlarda və əxlaqi normalarda da bir-biri ilə uyğun olmuşlar.[2] Misal üçün, namaz bütün asimani dinlərdə mövcud olmuşdur. Sadəcə olaraq onun qılınma tərzi, qiblələr müxtəlif olmuşdur. Yaxud zəkat və Allah yolunda infaq bütün şəriətlərdə mövcud olmuş, sadəcə olaraq onun miqdarı və xərclənmə yerləri eyni olmamışdır.

Ümumiyyətlə, bütün peyğəmbərlərə iman gətirmək, onların nübüvvətini təsdiq etmək, aralarında fərq qoymamaq, onlara nazil olan bütün maarif və göstərişləri qəbul etmək, onların arasında ayrılıq salmamaq hər bir insana vacibdir.[3] Peyğəmbərlərdən hər hansı birini təkzib etmək onların hamısını təkzib etmək sayılır. Bir ilahi hökmün inkar olunması bütün ilahi hökmlərin inkar olunmasına gətirib çıxarır.[4] Əlbəttə, hər bir ümmətin öz dövründəki əməli vəzifələri həmin ümmətin və həmin zamanda mövcud olan peyğəmbərin göstərişlərinə əməl etməkdir.

Xatırladılmalıdır ki, qeyd olunan məsələlərə diqqət yetirməklə əqlin peyğəmbərlərin çoxluğu, asimani kitabların varlığı, ilahi şəriətlərin fərqlərini dərk edə bilməsinə baxmayaraq, peyğəmbərlərin və asimani şəriətlərin sayı barəsində dəqiq bir formul əldə edə bilməz ki, onun vasitəsilə hansı zamanda və hansı məkanda başqa bir peyğəmbərin məbus olmasını, yaxud yeni şəriət nazil edilməsini hökm edə bilsin. Yalnız bunu başa düşə bilər ki, hər vaxt bəşərin həyatı bir peyğəmbərin dəvətinin bütün insanlara çata biləcəyinə, onun göstərişlərinin gələcək nəsillər üçün qorunub saxlanacağına zəmanət verəcək bir şəkildə olsa, ictimai şəraitin dəyişilməsi ilə yeni əsaslı şəriət qanunlarına ehtiyac duyulmasa, mövcud şəriət hökmləri və qanunlarının dəyişikliyinə zərurət olmasa onda digər bir peyğəmbərin göndərilməsinə zərurət də olmayacaqdır.

PEYĞƏMBƏRLƏRİN SAYI

Qeyd olunduğu kimi, bizim əqlimiz peyğəmbərlərin və asimani kitabların sayını təyin etməyə qadir deyildir. Bu kimi mətləblərin isbat olunması nəqli dəlildən başqa yolla müyəssər ola bilməz. Qurani-kərimin Mütəal Allahın hər bir ümmətə peyğəmbər göndərməsini iddia etməsinə baxmayaraq,[5] ümmətlərin və onların peyğəmbərlərin sayını müəyyən etməmiş, ilahi peyğəmbərlərdən iyirmidən bir qədər artığının adını qeyd etmiş, bəzilərinin də adını çəkmədən onların bir neçəsinin başına gələn

[1] "Maidə" surəsi, ayə:48, "Həcc" surəsi, ayə:67

[2] "Bəqərə" surəsi, ayə:131, 137, 285, "Ali-İmran" surəsi, ayə:19, 20

[3] "Şura" surəsi, ayə:13, "Nisa" surəsi, ayə:136, 152, "Ali-İmran" surəsi, ayə:84, 85

[4] "Nisa" surəsi, ayə:150, "Bəqərə" surəsi, ayə:85

[5] "Fatir" surəsi, ayə:24, "Nəhl" surəsi, ayə:36

əhvalatlara işarə etmişdir.[1] Lakin Əhli-beytdən (ə) nəql olunan bir neçə rəvayətdə qeyd olunur ki, Mütəal Allah 124 min peyğəmbər göndərmişdir.[2] Peyğəmbərlər silsiləsi bəşər atası həzrət Adəmlə (ə) başlanır və həzrət Məhəmmədlə (s) sona çatır.

Allahın peyğəmbərləri xüsusi ilahi mənsəb olan "nəbi" adına malik olmaqdan əlavə "nəzir", "münzir", "bəşir" və "mübəşşir" kimi sifətlərə də malik olmuş, salehlərdən və müxləslərdən sayılmışlar. Onlardan bəziləri risalət məqamına da nail olmuşlar. Bəzi rəvayətlərdə risalət sahibi olan rəsulların sayı 313 nəfər qeyd edilmişdir.[3]

Bununla bağlı «nübüvvət» və «risalət»in məfhumu, «nəbi» ilə «rəsul» arasındakı fərqlə əlaqədar bir qədər izah veririk.

NÜBÜVVƏT VƏ RİSALƏT

"Rəsul" kəlməsi xəbərgətirən, "nəbi" kəlməsi isə, əgər "nə-bə-ə" kökündən alınıbsa mühüm xəbər sahibi, əgər "nə-bə-və" kökündən alınıbsa yüksək məqam sahibi mənasınadır.

Bəziləri güman etmişlər ki, «nəbi» məfhumu «rəsul»dan daha ümumidir, belə ki, «nəbi» dedikdə Allah tərəfindən ona vəhy olunan şəxs nəzərdə tutulur, istər onu başqalarına çatdırmağa məmur olsun, istərsə olmasın. Lakin «rəsul» dedikdə vəhyin təbliğ olunmasına da məmur edilən şəxs nəzərdə tutmuşlar. Bu iddia düzgün deyildir. Çünki Quranın bəzi ayələrində "nəbi" sifəti "rəsul" sifətindən sonra gəlmişdir.[4] Halbuki, yuxarıdakı bəyana əsasən məfhum cəhətindən ümumi olan sifət – "nəbi" xüsusi sifət olan "rəsul"dan qabaq gəlməli idi. Bundan əlavə, vəhyin təbliğ olunması məmuriyyəti təkcə rəsullara məxsus deyildir.

Bəzi rəvayətlərdə qeyd olunur ki, nübüvvət məqamı vəhy mələyini yuxuda görüb oyaq halda yalnız onun səsini eşidir. Halbuki, risalət məqamının sahibi vəhy mələyini ayıq halda da görür.[5]

Amma bu fərqi də sözlərin məfhumuna aid etmək olmaz. Hər bir halda bunu qəbul etmək olar ki, nəbi xarici nümunə cəhətindən (nəinki, məfhum cəhətindən) rəsuldan daha ümumidir. Yəni bütün peyğəmbərlər nübüvvət məqamına malik olmuşlar, lakin risalət məqamı onlardan yalnız bir qrupuna məxsus olmuşdur. Əvvəldə qeyd olunan rəvayətlərə əsasən, rəsulların sayı 313 nəfər olmuşdur və təbiidir ki, onların məqamı digər peyğəmbərlərin məqamından yüksək olacaqdır. Rəsulların özü də məqam və fəzilət

---

[1] "Bəqərə" surəsi, ayə:246, 256

[2] Səduqun "Etiqadat" risaləsinə, "Biharul-ənvar"ın (yeni çap) 11-ci cildinin 28, 30, 32, 42-ci səhifələrinə baxa bilərsiniz.

[3] "Biharul-ənvar", 11-ci cild səh-32

[4] "Məryəm" surəsi, ayə:51 və 54

[5] "Üsuli-kafi", 1-ci cild, səh-176

baxımından eyni səviyyədə olmamışlar.[1] Onlardan bəziləri imamət məqamına çataraq iftixar etmişlər.[2]

ULUL-ƏZM PEYĞƏMBƏRLƏR

Qurani-kərimdə Allah peyğəmbərlərindən bir qrupu "ulul-əzm" kimi təqdim olunmuşdur.[3] Lakin onların xüsusiyyətləri bəyan edilməmişdir. Əhli-beyt (ə) rəvayətlərindən aydın olur ki, ulul-əzm peyğəmbərlər beş nəfərdir: Həzrət Nuh (ə), həzrət İbrahim (ə), həzrət Musa (ə), həzrət İsa (ə), həzrət Məhəmməd (s).[4]

Onların Qurani-kərimdə işarə edilən səbr və müqavimət kimi məziyyətlərindən əlavə, hər birinin müstəqil şəriət və kitabı da olmuşdur. Onlarla müasir olan, yaxud sonra gələn peyğəmbərlər də növbəti ulul-əzm peyğəmbər məbus olub yeni kitab və şəriət gətirənə qədər onların şəriətinə tabe olmuşlar.

Deməli, vahid zamanda iki peyğəmbərin bir yerdə olması mümkündür. Məsələn, həzrət Lut (ə) həzrət İbrahimlə (ə), həzrət Harun (ə) həzrət Musa (ə) ilə eyni zamanda peyğəmbərliyə çatmış, həmçinin həzrət Yəhya (ə) da həzrət İsanın (ə) dövründə yaşamışdır.

BİR NEÇƏ MƏSƏLƏ

Bu dərsin axırında nübüvvət məsələsi ilə bağlı bir neçə mətləbi qısa şəkildə qeyd edirik:

a) Allahın peyğəmbərləri bir-birini təsdiq edir və özündən sonra peyğəmbərin gələcəyini xəbər verirdilər.[5] Deməli, əgər bir kəs nübüvvət iddiası etsə, amma özündən əvəlki, yaxud onunla müasir olan peyğəmbəri təkzib etsə şübhəsiz yalançıdır.

b) Allah peyğəmbərləri ilahi risalət və peyğəmbərlik vəzifəsini yerinə yetirməkdə camaatdan heç bir muzd istəmirdilər.[6] Yalnız İslam Peyğəmbəri

---

[1] "Bəqərə" surəsi, ayə:253, "İsra" surəsi, ayə:55

[2] "Bəqərə" surəsi, ayə:124, "Ənbiya" surəsi, ayə:73, "Səcdə" surəsi, ayə:24

[3] "Əhqaf" surəsi, ayə:35

[4] "Biharul-ənvar", 11-ci cild, səh.33-34, "Məalimun-nübüvvət", səh.113

[5] "Ali-İmran" surəsi, ayə:81

[6] "Ənam" surəsi, ayə:90, "Yasin" surəsi, ayə:21, "Tur" surəsi, ayə:40, "Qələm" surəsi, ayə:46, "Yunis" surəsi, ayə:72, "Hud" surəsi, ayə:29 və 51, "Furqan" surəsi, ayə:57, "Şüəra" surəsi, ayə:109, 127, 145, 164, 180, "Yusif" surəsi, ayə:104, "Sad" surəsi, ayə:84

(s) özünün Əhli-beytinə (ə) məhəbbət bəsləməyi öz risalətinin əcr və muzdu kimi müəyyən etmişdir.[1] Bu, bir növ, onlara (ə) tabe olmaq üçün təkid məqsədi ilə müəyyən olunmuşdur. Həqiqətdə bu işin faydaları ümmətin özünə aid olur.[2]

v) Allah peyğəmbərlərinin bəzilərinin mühakimə, hakimiyyət və s. kimi digər ilahi mənsəblərə də malik olmuşlar. Peyğəmbərlər arasında nümunə olaraq həzrət Davud (ə) və həzrət Süleymanı (ə) göstərmək olar. "Nisa" surəsinin 64-cü ayəsində hər bir peyğəmbərə mütləq şəkildə itaət etməyin vacib edilməsindən aydın olur ki, bütün peyğəmbərlər belə məqama malik olmuşlar.

q) İxtiyar sahibi və mükəlləf məxluq olan, adi halda insanlar tərəfindən görünə bilməyən cinlər bəzi peyğəmbərlərin dəvətindən agah olmuşlar. Aralarında pərhizkar və əməlisalehləri onlara iman gətirmişlər. Onların arasında həzrət Musanın və həzrət Məhəmmədin (s) adrıcılları vardır. Bəziləri də İblisə tabe olaraq Allahın peyğəmbərlərini inkar etmişlər.[3]

SUALLAR

1.Peyğəmbərlərin çoxluğunun hikmətini bəyan edin.

2.Camaatın bütün peyğəmbərlərin dəvəti və onların göstərişləri ilə əlaqədar vəzifəsi nədir?

3.Hansı hallarda yeni peyğəmbərin göndərilməsinə zərurət olmayacaq?

4.Nəbilərin və rəsulların sayını bəyan edin.

5.Nəbi ilə rəsul arasında nə kimi fərq var? Onların arasında məfhum və nümunə (növ) baxımından nə münasibət var?

6.İlahi mənsəblər baxımından peyğəmbərlərin bir-birinə hansı üstünlükləri vardır?

7.Ulul-əzm peyğəmbərlər kimlərdir? Onların xüsusiyyətləri nədir?

8.Vahid zamanda bir neçə peyğəmbərin olması mümkündürmü? Əgər mümkündürsə, hansı nümunələri göstərə bilərsiniz?

9.İlahi peyğəmbərlərin daha hansı xüsusiyyətlərini bilirsiniz?

10.Cinlərin peyğəmbərlərə münasibətdə iman və küfr nəzərindən rəftarları necə olmuşdur?

---

[1] "Şura" surəsi, ayə:23

[2] "Səba" surəsi, ayə:47

[3] "Əhqaf" surəsi, ayə:29-32, "Cin" surəsi, ayə:1-14

OTUZUNCU DƏRS

İNSANLAR VƏ PEYĞƏMBƏRLƏR

–Müqəddimə
–İnsanların peyğəmbərlərə qarşı münasibəti
–Peyğəmbərlərlə müxalifətliyin səbəbləri
–Peyğəmbərlərlə qarşıdurma üsulları
–Cəmiyyətin idarə olunmasında bəzi ilahi qanunlar

MÜQƏDDİMƏ

Qurani-kərim əvvəlki peyğəmbərləri xatırlayıb parlaq və bərəkətli həyatlarını şərh edərkən, onların nurani tarixlərində istər qəsdən olan, istərsə qəsdən olmayan təhrifləri təmizləmək məqsədi ilə peyğəmbərlərin dəvətləri müqabilində ümmətlərin göstərdikləri reaksiyanı bəyan etməyə çox diqqət yetirmişdir. Bir tərəfdən camaatın ilahi peyğəmbərlər qarşısında sərt mövqe tutaraq müxalifət etmələrinin səbəb və amillərini araşdırır, digər tərəfdən isə peyğəmbərlərin insanları hidayətetmə və tərbiyələndirmə üslublarına, onların küfr, şirk və inhiraf amilləri əleyhinə mübarizələrinə işarə edir. Həmçinin, cəmiyyətin idarə olunmasında, xüsusilə, camaatın peyğəmbərlər müqabilindəki əlaqə cəhətdən mövcud olan ilahi qanunları xatırladır ki, onların hamısı da çox ibrətli dərslərdir.

Belə bəhslərin etiqadi və kəlami məsələlərlə birbaşa əlaqədar olmamasına baxmayaraq, nübüvvətlə bağlı çoxlu müəmmaları və anlaşılmazlıqları aradan qaldırmasının, həmçinin, insanlara təlim verib onların ruhiyyəsini qurmağın və mühüm tarixi hadisələrdən ibrət almaq əhəmiyyəti baxımından son dərəcə böyük əhəmiyyət kəsb edir. Buna görə də bu dərsdə onların ən mühümlərini qeyd edəcəyik.

CAMAATIN PEYĞƏMBƏRLƏRƏ MÜNASİBƏTİ

İlahi peyğəmbərlər qiyam edərək camaatı yeganə Allaha pərəstiş edib Onun göstəriş və əmrlərinə itat etməyə,[1] bütlərdən və batil məbudlardan imtina edib şeytani və tağut qüvvələrdən çəkinməyə, zülm, fəsad, günah və çirkin işləri tərk etməyə dəvət etdikləri zaman camaatın müxalifət və inkarları ilə qarşılaşırdılar.[2] Xüsusilə, bu dünyada eyş-işrətlə məşğul olan, dünya malı, öz elm və bilikləri ilə məğrur olan cəmiyyətin sərvətliləri və hakimləri onlarla çox ciddi şəkildə mübarizə aparır,[3] müəyyən kütlələr də öz ardınca çəkir və onları haqq yoluna getməkdən saxlayırdılar.[4] Əksər hallarda cəmiyyətin məhrum təbəqəsi olan az bir qrup peyğəmbərlərə iman gətirirdi.[5] Çox az hallarda düzgün əqidəyə malik olan, haqq-ədalət meyarları ilə uyğun olan, Allahın və peyğəmbərlərin fərmanlarına itaət edən bir cəmiyyət təşkil olunurdu. Misal üçün, həzrət Süleymanın (ə) dövründə belə bir hakimiyyət və cəmiyyət təşkil olunmuşdu. Buna baxmayaraq, peyğəmbərlərin təlimlərindən bir qismi tədricən cəmiyyətə hakim olan

---

[1] "Nəhl" surəsi, ayə:36, "Ənbiya" surəsi, ayə:21, "Fussilət" surəsi, ayə:14, "Əhqaf" surəsi, ayə:21

[2] "İbrahim" surəsi, ayə:9, "Mominun" surəsi, ayə:44

[3] "Səba" surəsi, ayə:34, "Ğafir" surəsi, ayə:83, "Qəsəs" surəsi, ayə:78, "Zümər" surəsi, ayə:49

[4] "Əhzab" surəsi, ayə:67, "Səba" surəsi, ayə:31-33

[5] "Hud" surəsi, ayə:40, 27-31.

mədəniyyətə nüfuz edir, bir cəmiyyətdən digər cəmiyyətə nəql olunur və bəzi hallarda küfr başçılarının öz şəxsi nəzəriyyələri kimi təqdim olunurdu. Belə ki, dünya hüquq sistemlərinin çoxu asimani şəriətlərdən əxz olunmuşdur, amma onun mənbəyini qeyd etmədən onu öz fikir və rəyləri kimi təqdim etmişlər.

PEYĞƏMBƏRLƏRLƏ MÜXALİFLİYİN SƏBƏBLƏRİ

Peyğəmbərlərlə müxalifliyin, həvayi-nəfsə itaət və açıq-saçıqlığa meyl etmək kimi ümumi bir məqsəddən əlavə[1] digər səbəbləri də olmuşdur. O cümlədən, bəzilərinin qürur və təkəbbürləri, özünü hamıdan üstün hesab etmələri (istikbar ruhiyyəsi) olmuşdur ki, bu da əksər hallarda özünü cəmiyyətin varlıları arasında büruzə verirdi.[2] Digər səbəblər kimi ata-babalarının yanlış adət-ənənələrinə vəfadar qalmaq, onların təəssübünü çəkmək, müxtəlif cəmiyyətlər arasında yaranan yanlış dəyərləri qeyd etmək olar.[3]

Həmçinin iqtisadi mənbələrin, ictimai məqam və mövqeyin qorunub saxlanması sərvətlilər, hökmranlar və alimlər üçün güclü bir məqsəd idi.[4] Digər tərəfdən xalq kütlələrinin cəhalət və məlumatsızlığı onların küfr başçıları tərəfindən aldadılmasında, cəmiyyətin əksəriyyətinə və böyüklərinə tabe olmaqda böyük bir amil idi ki, bu da onların öz yanlış təsəvvürləri ilə özlərinə təskinlik vermələrinə səbəb olurdu, nəticədə az bir dəstədən başqasının qəbul etmədiyi ayinə iman gətirməkdən imtina edirdilər. İman gətirənlər əksər hallarda da ictimai baxımdan yüksək mövqeyə malik olmayan, cəmiyyətin böyükləri və əksəriyyət təşkil edənlər tərəfindən qovulan şəxslər idi. Bu məsələdə hakim təbəqənin və zorakıların göstərdiyi təzyiqləri də nəzərdən qaçırmaq olmaz.[5]

PEYĞƏMBƏRLƏRLƏ QARŞIDURMA

Peyğəmbərlərin müxalifləri onların işinin irəliləməsinin qarşısını almaq üçün müxtəlif mübarizə üsullarından istifadə edirdilər:

a) Təhqir və istehza. İlk əvvəldə müəyyən bir qrup istehza, məsxərə vasitəsilə ilahi xəbər gətirənin şəxsiyyətini alçaltmaq istəyirdi ki, kütlə onlara etinasız olsun.[6]

---

[1] "Maidə" surəsi, ayə:70.

[2] "Ğafir" surəsi, ayə:56, "Əraf" surəsi, ayə:76

[3] "Bəqərə" surəsi, ayə:170, "Maidə" surəsi, ayə:104, "Əraf" surəsi, ayə:28, "Yunis" surəsi, ayə:78, "Ənbiya" surəsi, ayə:53, "Şüəra" surəsi, ayə:74, "Loğman" surəsi, ayə:21, "Zuxruf" surəsi, ayə:22-23

[4] "Hud" surəsi, ayə:84-86, "Qəsəs" surəsi, ayə:76-79, "Tövbə" surəsi, ayə:34

[5] "İbharim" surəsi, ayə:21, "Fatir" surəsi, ayə:47, "Hud" surəsi, ayə:27, "Şüəra" surəsi, ayə:11

[6] "Hicr" surəsi, ayə:11, "Yasin" surəsi, ayə:30, "Zuxruf" surəsi, ayə:7, "Mütəffifin" surəsi, ayə:29-32

b) İftira və yersiz nisbətlər. Daha sonra iftira və yalana əl atır, onlara yersiz nisbətlər verirdilər. O cümlədən, peyğəmbərləri səfeh və dəli adlandırırdılar.[1] Onlar möcüzə göstərdikdə isə onları sehrkarlıq, cadugərlik və gözbağlayıcıqda ittiham edirdilər.[2] Allahın buyurduğu xəbərləri isə "əsatir" və "əfsanə" hesab edirdilər.[3]

v) Yersiz mübahisə və höcətlər. Allahın elçiləri camaat ilə hikmət və bürhan əsasında danışdıqda, yaxud gözəl mübahisə və müzakirə üslubundan istifadə edərək söhbət etdikdə, camaata moizə etdikdə öyüd-nəsihət verdikdə, yaxud da küfr, şirk və tüğyanın acı nəticələri barəsində xəbərdarlıq edib Allaha pərstiş etməyin gözəl faydalarını xatırlatdıqda, möminlərə və salehlərə dünya və axirət səadətini müjdə verdikdə küfr başçıları camaatı onların sözlərinə qulaq asmaqdan çəkindirir və sonra çox zəif məntiqlə onlara cavab verib xalq kütlələrini zahirdə gözəl olan sözlərlə aldatmağa çalışır,[4] onları peyğəmbərlərə tabe olmasının qarşısını alır və əksər hallarda ata-babalarının keçmiş adət-ənələrinə istinad edirdilər.[5] Onlar özlərinin mal-dövlətlərini və iqtisadi inkişaflarını peyğəmbərlərdən üstün olmaları kimi göstərir, ardıcıllarının maddi çətinlikdə, gerilikdə və zəiflikdə olmalarını onların rəftar və əqidəsinin düzgün olmamasına bir əsas gətirirdilər.[6] Misal üçün deyirdilər: "Nə üçün Allah Öz rəsul və peyğəmbərlərini mələklərin arasından seçməmişdir?" "Onunla yanaşı niyə bir mələyi göndərməmişdir?", yaxud "Nə üçün onları böyük maddi və iqtisadi imtiyazlarla bəhrələndirməmişdir?".[7] Bəzi vaxtlarda onların inadkarlıqları elə bir həddə çatırdı ki, deyirdilər: "Biz özümüzə vəhy olunmayınca, yaxud Allahı gözümüzlə görməyincə və arada heç bir vasitə olmadan, Onun sözlərini eşitməyincə, heç vaxt Ona iman gətirmərik."[8]

q) Təhdidetmə və ya mal-dövlət vədəsi vermə. Qurani-kərimdə nəql olunur ki, Allahın peyğəmbərlərini və onların ardıcıllarını şəhərdən çıxartmaq, diyarından və vətənindən sürgün etmək, daşqalaq edib öldürmək

---

[1] "Əraf" surəsi, ayə:66, "Bəqərə" surəsi, ayə:13, "Muminun" surəsi, ayə:25

[2] "Zariyat" surəsi, ayə:39, 52-53, "Ənbiya" surəsi, ayə:3, "Qəmər" surəsi, ayə:2

[3] "Ənam" surəsi, ayə:25, "Ənfal" surəsi, ayə:31, "Nəhl" surəsi, ayə:24, "Muminun" surəsi, ayə:83, "Furqan" surəsi, ayə:5, "Nəml" surəsi, ayə:68, "Əhqaf" surəsi, ayə:17, "Qələm" surəsi, ayə:15, "Mütəffifin" surəsi, ayə:13

[4] "Nuh" surəsi, ayə:7, "Füssilət" surəsi, ayə:26, "Ənam" surəsi, ayə:112, 121, "Ğafir" surəsi, ayə:5, 35, "Əraf" surəsi, ayə:70-71, "Kəhf" surəsi, ayə:56

[5] "Bəqərə" surəsi, ayə:170, "Maidə" surəsi, ayə:104, "Əraf" surəsi, ayə:28, "Ənbiya" surəsi, ayə:53, "Yunis" surəsi, ayə:78, "Loğman" surəsi, ayə:21.

[6] "Yunis" surəsi, ayə:88, "Səba" surəsi, ayə:35, "Qələm" surəsi, ayə:14, "Məryəm" surəsi, ayə:77, "Müddəsir" surəsi, ayə:12, "Müzəmmil" surəsi, ayə:11, "Əhqaf" surəsi, ayə:11

[7] "Ənam" surəsi, ayə:7-9, "İsra" surəsi, ayə:90-95, "Furqan" surəsi, ayə:84.

[8] "Bəqərə" surəsi, ayə:118, "Ənam" surəsi, ayə:124, "Nisa" surəsi, ayə:153.

və işgəncələrlə təhdid edirdilər.[1] Digər tərəfdən də onları mal-dövlətlə tamahlandırırdılar və həm də çoxlu miqdarda mal-dövlət sərf edərək camaatın peyğəmbərlərə tabe olmasına mane olurdular.[2]

e) Kobud rəftar və qətl. Nəhayət onlar, peyğəmbərlərin və onların həqiqi ardıcıllarının səbr, müqavimət və dözümlülüyünü, bu yolda ciddi və dönməz olduqlarını gördükdə,[3] hər bir tədbir və əks təbliğatların təsir qoyacağından ümidsiz olduqda, onlara qarşı öz təhdidlərini əməli olaraq həyata keçirməyə və onlarla çox rəhmsiz davranmağa başladılar. Belə ki, onlar, peyğəmbərlərin çoxunu qətlə yetirir[4] və insan cəmiyyətini belə bir böyük ilahi nemətlərdən, ən səlahiyyətli və ləyaqətli islahatçılardan, ictimai rəhbərlərdən məhrum edirdilər.

CƏMİYYƏTİN İDARƏ OLUNMASINDA BƏZİ İLAHİ QANUNLAR

Peyğəmbərlərin göndərilməsində əsas hədəf insanların onları dünya və axirət səadətinə yetirə biləcək lazımi maarifə yiyələnib vəhy vasitəsilə əql və təcrübələrinin mövcud çatışmazlıqlarını aradan qaldırmaqdır. Başqa sözlə desək, məqsəd höccətin onlara tamam edilməsi olmasına baxmayaraq,[5] peyğəmbərlər zahir olarkən Allah-taala onların dəvətinin qəbul olunması üçün Özünün sonsuz rəhməti və hikmətli tədbirləri ilə xüsusi ruhi-mənəvi bir şərait yaradır ki, camaatın təkamül yolundakı hərəkətlərinə müəyyən qədər kömək olsun. Haqq qarşısında kafir olub Allahdan və peyğəmbərlərdən üz döndərməyin ən böyük amili ehtiyacsızlıq hiss etmək[6] və məxluqatın hərtərəfli ehtiyaclarından qafillik olduğundan hikmətli Pərvərdigar elə bir şərait yaratmışdır ki, camaat öz ehtiyaclarını dərk etsin, qəflət, qürur və təkəbbürdən əl çəksin. Buna görə də müəyyən çətinliklər yaradırdı ki, istər-istəməz özlərinin aciz və bacarıqsız olduğunu dərk edib Allah dərgahına üz gətirsinlər.[7]

Amma bu amilin də hərtərəfli və ümumi bir təsiri olmadı. Camaatın çoxu, xüsusilə, daha artıq maddi rifah halında yaşayan, uzun illər başqalarına zülm edərək özləri üçün eyş-işrət vasitələri hazırlayan və Quranın təbiri ilə desək "qəlbləri daş kimi bərkimiş" insanlar ayılıb özlərinə gəlmir,[8] qəflət yuxusunda qalaraq öz batil yollarını davam etdirirdilər.

---

1 "İbrahim" surəsi, ayə:13, "Hud" surəsi, ayə:91, "Məryəm" surəsi, ayə:46, "Yasin" surəsi, ayə:18, "Ğafir" surəsi, ayə:26

2 "Ənfal" surəsi, ayə:36

3 "İbrahim" surəsi, ayə:12

4 "Bəqərə" surəsi, ayə:61, 87, 91, "Ali-İmran" surəsi, ayə:21, 112, 181, "Maidə" surəsi, ayə:70, "Nisa" surəsi, ayə:155

5 "Nisa" surəsi, ayə:65, "Taha" surəsi, ayə:134

6 "Ələq" surəsi, ayə:6

7 "Ənam" surəsi, ayə:42, "Əraf" surəsi, ayə:94

8 "Ənam" surəsi, ayə:43, "Muminun" surəsi, ayə:76

Peyğəmbərlərin xəbərdarlıqları, öyüd-nəsihətləri və moizələri də onlara təsir göstərmirdi. Mütəal Allah göndərilən bəlaları və giriftarçılıqları aradan qaldırdıqdan və Öz nemətlərini camaata bir daha nazil etdikdən sonra deyirdi ki, bu cür dəyişikliklərin baş verməsi, çətinlik və asayişin bir-birini əvəz etməsi, qəmin şadlığa çevrilməsi həyatın tələbidir və elə keçmiş nəsillər üçün də baş vermişdir.[1] Bunun ardınca yenidən zülm edərək mal-dövlət toplamağa, qüdrət dairələrini genişəndirməyə başlayır, amma elə bu maddi imkanların artmasının Allah tərəfindən onların dünya və axirətdəki bədbəxtliklərinin artmasına səbəb olmasından qafil idilər.[2] Halbuki peyğəmbərlərin ardıcılları say və qüdrət baxımından elə bir həddə çatırdılar ki, artıq müstəqil bir cəmiyyət təşkil etmək, özlərini müdafiə etmək və Allah düşmənləri ilə mübarizə aparmaq imkanı kəsb edirdilər.[3] Onların vasitəsilə kafirlərə və zalımlara ilahi əzab nazil olurdu.[4] Bəzən möminlər peyğəmbərlərin göstərişi ilə kafirlərdən ayrılıb kənara çəkilirdilər. Haqq yoluna qayıdacaqlarına ümidi olmayan bir cəmiyyətə Allahın əzabı başqa bir yolla nazil olurdu.[5] Allahın bəşər cəmiyyətlərini idarə etməkdəki dəyişilməz qayda-qanunu məhz bundan ibarətdir.[6]

SUALLAR

1.Camaatın peyğəmbərlərin dəvətinə olan reaksiyası necə idi?

2.Peyğəmbərlərlə müxalifliyin səbəblərini bəyan edin.

3.Peyğəmbərlərin müxalifləri hansı yollardan istifadə edirdilər?

4.Peyğəmbərlərin besəti və camaatın onların qarşısındakı reaksiyası ilə əlaqədar ilahi qanunları bəyan edin.

---

[1] "Əraf" surəsi, ayə:96, 183

[2] "Əraf" surəsi, ayə: 182-183, "Ali-İmran" surəsi, ayə:178, "Tövbə" surəsi, ayə: 55, 85, "Muminun" surəsi, ayə:54-56

[3] "Ali-İmran" surəsi, ayə:146

[4] Həmin ayə

[5] "Ənkəbut" 41 və sair çoxlu ayələr

[6] "Fatir" surəsi, ayə:43, "Ğafir" surəsi, ayə:85, "İsra" surəsi, ayə:77

OTUZ BİRİNCİ DƏRS

İSLAM PEYĞƏMBƏRİ (S)

–Müqəddimə
–İslam Peyğəmbərinin (s) risalətinin isbat olunması

MÜQƏDDİMƏ

Tarixin müxtəlif dövr və zamanlarında on minlərlə peyğəmbər göndərilmiş və insanların hidayət və təlim-tərbiyəsində özlərinin parlaq rollarını ifa edərək bəşər cəmiyyətinin mənəviyyatında çox dərin izlər qoymuşlar. Onların hərəsi müəyyən bir qrup insanı düzgün əqidə və yüksək dəyərlər əsasında tərbiyə etmiş, başqalarına da dolayı yollarla təsir göstərmişdir. Bəziləri tövhid və ədalət əsasında bir cəmiyyət də yaradıb ona rəhbərlik etməyi öhdələrinə ala bilmişlər.

Onlardan həzrət Nuh (ə), həzrət İbrahim (ə), həzrət Musa (ə), həzrət İsa (ə) Mütəal Allah tərəfindən fərdi və ictimai qayda-qanunlara, hökmlərə, zaman şəraitinə uyğun olan qanuni və əxlaqi vəzifələrə şamil olan kitabları insanlara çatdırmışlar. Amma bu kitablar ya zamanın keçməsi ilə tamamilə məhv olub aradan getmiş, yaxud da məna və sözlərində çoxlu təhriflərə məruz qalmışdır. Nəticədə asimani şəriətlər və ayinlər məsx olunmuş, tam dəyişdirilmiş bir vəziyyətə düşmüşlər. Məsələn, həzrət Musaya (ə) nazil edilmiş Tövratda çoxlu təhriflər edilmişdir, "İsanın İncili" adlı bir şey qalmamış, o Həzrətin (s) ardıcıllarından sayılan bəzi şəxslərin əlyazmaları toplanaraq "Müqəddəs kitab" adı ilə təqdim olunmuşdur.

Şəxsi-qərəzi olmayan bir adam hazırkı Tövrat və İncilə nəzər saldıqda onlardan heç birinin Musaya, yaxud İsaya nazil edilmiş kitabın olmadığını biləcəkdir. Belə ki, Tövratda Mütəal Allah (nəuzubillah) bir insan kimi təcəssüm edilir. Guya, Onun əksər işlər barədə agahlığı yoxdur,[1] dəfələrlə gördüyü işdən peşman olub[2], bəndələrindən biri olan həzrət Yəqubla (ə) güləşir, ona qalib gələ bilmir və nəhayət, camaat öz Allahlarını belə bir vəziyyətdə görməsin deyə ondan əl çəkməsini istəyir.[3] Bu kitabda ilahi peyğəmbərlərə yaramaz nisbətlər verilir, məsələn, nəuzubillah, həzrət Davuda (ə) zina,[4] Həzrət Luta şərab içmək və öz məhrəmləri ilə zina etmək nisbəti verilir.[5] Bütün bunlardan əlavə, Tövratın nazil olduğu şəxsin, yəni həzrət Musanın (ə) vəfatı hadisəsi, harada və necə dünyadan getdiyi də şərh olunur.[6]

Məgər elə bu, həmin kitabın həzrət Musadan (ə) olmadığını başa düşmək üçün kifayət deyildirmi?

Hazırkı İncilin vəziyyətinə gəldikdə isə, o, Tövratdan da rüsvayçı vəziyyətdədir. Çünki həzrət İsaya (ə) nazil olmuş kitab hazırda mövcud deyildir və məsihilərin özləri də hazırkı İncilin Allahın həzrət İsaya (ə) nazil

---

[1] Tövrat, sifri-peydayiş, 3-cü bab, 8-13-cü nömrələr.

[2] Həmin mənbə, 6-cı bab, 6-cı nömrə.

[3] Həmin mənbə, 32-ci bab, 24-32-ci nömrələr.

[4] Əhdi-qədim, Səmuilin ikinci kitabı, 11-ci bab.

[5] Tövrat, sifri-peydayiş, 19-cu bab, 30-39-cu nömrələr.

[6] Tövrat, sifri-təsniyə, 34-cü bab.

etdiyi kitab olduğunu iddia etmirlər. Əksinə, onun içində mövcud olan məsələlər o Həzrətin (ə) ardıcıllarından bir neçəsinə mənsub edilən məlumatlar toplusudur. Məsihilər şərab içməyə icazə verməkdən əlavə, onun hazırlanmasını "İsanın möcüzəsi" kimi qələmə verirlər.[1]

Bir sözlə, bu iki böyük peyğəmbərə nazil olmuş vəhylər tamamilə təhrif edildiyindən insanları hidayət etməkdə öz rolunu oynaya bilməz.

Bu təhriflərin necə baş verməsinə gəldikdə isə, qeyd etmək lazımdır ki, onun müfəssəl bəyanı bu kitaba sığmaz.[2]

Həzrət Məsihin (ə) miladından 600 il keçəndə dünyanın hər yerini cəhalət və zülmət qaranlığı bürüdüyü, ilahi hidayət məşəllərinin hər diyarda söndüyü zaman Mütəal Allah Özünün son və ən fəzilətli peyğəmbərini o dövrün ən qaranlıq və irticaçı cəmiyyətindən seçib göndərmişdir ki, vəhyin parlaq məşəlini bütün insanların yolu üzərində və həmişəlik olaraq yanar saxlasın. Hər növ təhrifdən, dəyişdirmədən amanda olan əbədi ilahi kitabı insanların ixtiyarına versin, həqiqi maarifləri və asimani hikmətləri, ilahi qanun və hökmləri insanlara öyrətsin, bütün insanları dünya və axirətdəki səadətə doğru hidayət etsin.[3]

Əli (ə) Peyğəmbəri-Əkrəmin (s) zühuru zamanı bu dünyada mövcud olan vəziyyəti şərh edərkən belə buyurur:

"Mütəal Allah Rəsuli-Əkrəmi (s) elə bir dövrdə peyğəmbərliyə seçdi ki, əvvəlki peyğəmbərlərin besətindən çox vaxt keçmişdi, insanlar dərin və uzun qəflət yuxusuna dalmışdılar, fitnə-fəsad dünyanın hər yerində şölələnirdi, işlərin bir-biri ilə olan əlaqəsi tamamilə kəsilmişdi. Müharibə odu şölələnmiş, cəhalət və günah qaranlıqları hər yeri bürümüş, hiylə və məkrlər aşkar olmuşdu. Bəşər həyatının yarpaqları saralmış, onların səmərə vermək ümidi tamamilə aradan getmişdi. Sular qurumuş, hidayət məşəlləri sönmüş, zəlalət və azğınlıq bayraqları ucalmışdı. Alçaqlıq və bədbəxtlik insanlara hücum etmiş, özünün çirkin çöhrəsini aşkar etmişdi. Bu fəsadlar və qara günlər fitnə-fəsaddan başqa heç bir şey gətirmirdi, qorxu və ümidsizliyin hakim kəsildiyi insanlar qaniçənlərin qılıncından başqa bir sığınacaq yeri görmürdülər."[4]

Peyğəmbəri-Əkrəmin (s) zühuru dövründən etibarən həqiqət axtaran hər insan üçün Allahı tanımaqdan sonra ən mühüm məsələ o Həzrətin (s) nübüvvət və risaləti, müqəddəs İslam dininin haqq olması barədə tədqiqat aparmaqdır. Qurani-kərimin bəşər əlində mövcud olan yeganə asimani kitab ünvanı ilə haqq, etibarlı, hər növ təhrif və dəyişiklikdən salamat qalmasının isbat edilməsi ilə yanaşı digər düzgün əqidələrin isbat edilməsi, bütün

---

[1] İncil, Yuhənna, 2-ci bab.

[2] "İzharul-həqq" (Rəhmətullah Hindi), "Əlhuda ila dinil-Mustəfa" (Əllamə Bəlağı), "Rahi səadət" (Əllamə Şərani)

[3] "Cümə" surəsi, ayə:2-3

[4] "Nəhcül-bəlağə", 187-ci xütbə

insanlardan ötrü dəyər sisteminin və əməli vəzifələrin bəyan olunması üçün zəmanət verilmiş bir yoldur. Bunun vasitəsilə dünyanın axırına qədər ideologiya və dünyagörüşün başqa məsələlərinin həlli yolu aydınlaşır.

İSLAM PEYĞƏMBƏRİNİN (S) RİSALƏTİNİN İSBAT OLUNMASI

İyirmi yeddinci dərsdə qeyd olunduğu kimi, peyğəmbərlərin peyğəmbərliyi üç yolla isbat oluna bilər:

1.Onların əməl və rəftarları vasitəsilə insana xatircəmlik gətirən əlamətlər.

2.Əvvəlki peyğəmbərlərin verdiyi xəbər.

3.Möcüzə göstərmək.

İslam Peyğəmbərinin (s) peyğəmbərliyini sübut etməkdən ötrü bu üç yolun hər birindən istifadə etmək mümkündür. Bir tərəfdən Məkkə əhalisi 40 il müddətində o Həzrətin iftixarlı həyatını yaxından müşahidə etmişdi və onun həyatında azacıq olsa belə qaranlıq və ləkəli hadisənin olmadığını bilirdi. Onu elə doğruçu və düz əməl sahibi kimi tanıyırdılar ki, ona Əmin (əmanətdar) ləqəbi vermişdilər. Təbiidir ki, belə bir şəxsin yalançılığına ehtimal verilə bilməz.

Digər tərəfdən, əvvəlki peyğəmbərlər o Həzrətin (s) məbus olacağı xəbərini vermişdilər.[1] Kitab əhlindən bəziləri onun gəlişini gözləyir və onun zühur etməsi barəsində aydın nişanələri bilirdilər.[2] Hətta, ərəb müşriklərinə İsmailin (ə) övladları arasında (onlar ərəb qəbilələrini təşkil edirdilər) bir şəxsin peyğəmbərliyə məbus olacağını və onun əvvəlki peyğəmbərləri və tövhid dinləri təsdiq edəcəyi haqqında məlumat vardı.[3] Yəhudi və məsihi alimlərindən bəziləri əvvəlcədən verilən həmin xəbərlərə istinadən o Həzrətə (ə) iman gətirdi.[4] Bəziləri isə nəfsani və şeytani qərəzçiliklər üzündən İslam dinini qəbul etməkdən imtina etdi.

Qurani-kərim bu məsələyə işarə edərək buyurur:

"Bu, onlar üçün bir nişanə deyilmi ki, Bəni-İsrail alimləri onu tanıyırdılar?!"[5]

Peyğəmbəri-Əkrəmin (s) həm Bəni-İsrail alimlərinin, həm də əvvəlki peyğəmbərlərin əvvəlcədən xəbər verib təqdim etməsi ilə tanınması bütün əhli-kitab üçün o Həzrətin (ə) risalətinin düzgünlüyünə aydın bir dəlil olmaqdan əlavə, müjdə verən peyğəmbərlərin, həmçinin, İslam Peyğəmbərinin (s) haqq olmasına qaneedici bir höccət sayılırdı. Çünki onlar öncədən verilən bu xəbər və şahidlərin, təqdim olunan əlamətlərin o Həzrətlə (s) tam mənada düz gəlməsini gözləri ilə görüb, əqlləri ilə dərk edirdilər.

---

[1] "Səff" surəsi, ayə:6

[2] "Əraf" surəsi, ayə:157, "Bəqərə" surəsi, ayə:146, "Ənam" surəsi, ayə:20

[3] "Bəqərə" surəsi, ayə:89.

[4] "Maidə" surəsi, ayə:83, "Əhqaf" surəsi, ayə:10

[5] "Şüəra" surəsi, ayə:197

Maraqlıdır ki, hətta təhrif olunmuş Tövrat və İncildə belə, bu kimi müjdələrin məhv edilməsi üçün göstərilən bütün səylərə baxmayaraq haqq axtaranlara höccəti tamam edən bəzi məsələlər gözə dəyir. Belə ki, haqq-həqiqət axtaran yəhudi və məsihi alimlərindən bir çoxu bu incə mətləbləri və müjdələrdən istifadə edərək düz yola hidayət olunmuş və İslam dinini qəbul etmişdi.[1]

Peyğəmbəri-Əkrəmdən (s) çoxlu möcüzələr görünmüşdür. Bunlar tarix və hədis kitablarında qeyd olunmuş və onların çoxu təvatür həddində nəql edilmişdir.[2] Amma Allah-Taalanın son peyğəmbəri və Onun əbədi dinini təqdim etmək haqqında nəzəri bunu tələb edirdi ki, onun öz dövründə olanlara höccəti tamam etməkdən əlavə, başqaları da əql yolu ilə ondan agah olsunlar. Buna görə də ona höccəti bütün dövrdəki insanlara tamam edəcək əbədi bir möcüzə olan Quranı təqdim etmişdir.

Gələn dərsdə bu əziz kitabın möcüzə yönləri bəyan ediləcəkdir.

SUALLAR

1.Əvvəlki peyğəmbərlərin kitablarının vəziyyətini şərh edin.
2.Tövratın təhrifolunma nişanələrindən bir neçəsini qeyd edin.
3.Mövcud İncilin etibarlı olub-olmamasını sübut edin.
4.İslam Peyğəmbərinin (s) risalətinin əhəmiyyətini bəyan edin.
5.Peyğəmbəri-Əkrəmin (s) risalətinin isbat olunması yollarını bəyan edin.

---

[1] O cümlədən böyük yəhudi alimlərindən Mirzə Məhəmməd Rza (“İqaməttuş-şühud fi rəddil-yəhud” kitabının müəllifi), eləcə də Hacıbaba Qəzvini Yəzdi (“Məhzəruş-şühud fi rəddil-yəhud” kitabının müəllifi). Sabiq yəhudi yepiskopu professor Əbdül Əhəd Davud (“Məhəmməd dər Tövrat və İncil” kitabının müəllifi) və s. adlarını qeyd etmək olar.

[2] “Biharul-ənvar”, 17-ci cild, səh. 225 və sair mötəbər hədis və tarix kitablarına baxa bilərsiniz.

OTUZ İKİNCİ DƏRS

QURANIN MÖCÜZƏSİ

–Quranın möcüzə olması
–Quranın möcüzə və cəhətləri
–a) Fəsahət və bəlağət
–b) Onu gətirənin ümmi (heç bir təhsil görməyən) olması
–v) Ayələr arasında uyğunluq ixtilafının olmaması

QURANIN MÖCÜZƏ OLMASI

Qurani-kərim heç kəsin onun kimi bir kitab gətirməyə qadir olmayacağını tam aşkar şəkildə və qətiyyətlə elan edən yeganə asimani kitabdır. O buyurur: «Hətta, əgər bütün insanlar və cinlər bir-biri ilə həmkarlıq etsələr, yenə belə bir işi görə bilməzlər.[1] Onlar təkcə Quran kimi kamil kitabı gətirməyə deyil, hətta on surəni[2] və yaxud heç olmazsa, bir sətirlik ayəni belə gətirməyə qadir olmayacaqlarını iddia edir.»[3]

Sonra daha artıq təkidlə hamını təhəddi məqamına çağırıb onlardan mübarizə tələb edir. Onların belə iş görməyə qadir olmamalarını, bunun ilahi kitab olmasına və Peyğəmbəri-Əkrəmin (s) risalətinə bir dəlil hesab edir.[4]

Deməli, bu şərif kitab özünün möcüzə olmasını iddia edir. Onu gətirən şəxs də onu özünün peyğəmbərliyinə dair bir dəlil və əbədi möcüzə kimi ilə bütün dövrlərdə olan insanlara təqdim edir. On dörd əsrin keçdiyi hazırkı dövrdə belə bu ilahi çağırış gecə-gündüz dost və düşmən təbliğatları tərəfindən bütün dünyaya çatdırılaraq höccəti onlara tamam edir.

Digər tərəfdən Peyğəmbər (s) öz dəvətini aşkar etdiyi ilk günlərdə bu ilahi dinlə mübarizə aparmaq üçün heç nəyi əsirgəməyən çox qəliz, qəddar, kin-küdurətli və inadkar düşmənlərlə qarşılaşmışdı. Onlar təhdid və şirnikləşdirmə vasitələrinin təsir qoyacağından ümidsiz olduqdan sonra o Həzrəti (s) qətlə yetirmək istədilər. Allah da Öz tədbiri ilə onların bu məkrli planlarını gecə ikən Mədinəyə doğru hicrət əmri verməklə zərərsizləşdirdi. Hicrətdən sonra əziz ömrünün qalanını müşriklərlə və onların yəhudi həmkarları ilə müharibələrə sərf etdi. O Həzrətin (s) vəfatından bu günkü günə qədər daxili münafiqlər və xarici düşmənlər daim bu Allah nurunu söndürməyə çalışmış və əməllərindən usanmamışlar. Əgər Qurani-kərim kimi bir kitabı gətirmək mümkün olsaydı, heç vaxt bu fikirdən dönməzdilər.

Bütün dünya dövlətlərinin İslamı özlərinin zalımcasına rəftarları və istismarçı tədbirləri qarşısında ən böyük düşmən kimi görüb onunla ciddi mübarizəyə qalxdıqlarına və hər növ maddi, elmi, siyasi və təbliğat vasitələrindən istifdə edərək bu dinlə mübarizə aparmalarına baxmayaraq, Quranın kiçik surələrindən birinə oxşar olan heç olmazsa, bir sətir hazırlayaraq onu kütləvi təbliğat və informasiya vasitələri ilə dünyaya təqdim edə bilsəydilər, bunu mütləq edərdilər. Çünki bu iş İslamla mübarizə aparıb onun genişlənməsinin qarşısını almaq üçün ən sadə, ən az xərc tələb edən və ən təsirli yoldur.

---

[1] "İsra" surəsi, ayə:88

[2] "Hud" surəsi, ayə:13

[3] "Yunis" surəsi, ayə:38

[4] "Bəqərə" surəsi, ayə:23-24

Deməli, həqiqət axtaran hər bir ağıllı şəxs bu incəliklərə diqqət yetirməklə Quranın müstəsna bir kitab, heç nədən təqlid edilməyən və heç bir qrupun, şəxsin gətirə bilmədiyi kitab olduğunu anlayacaqdır. Yəni möcüzənin bütün xüsusiyyətlərinə (xariqüladə, ilahi olmaq, təqlidlə əldə edilməsi mümkün olmayan, nübüvvətin doğruluğuna bir dəlil ünvanı ilə gətirmək kimi xüsusiyyətlərə) malikdir. Məhz buna görə də Peyğəmbəri-Əkrəmin (s) dəvətinin doğruluğuna və müqəddəs İslam dininin haqq olmasına qəti bir dəlildir. Allahın bəşər cəmiyyətinə əta etdiyi ən böyük nemətlərdən biri də budur ki, bu şərif kitabı həmişəlik möcüzə surətində qalacaq, özünün doğru və səhihlik dəlillərinə malik olacaq formada nazil etmişdir. Özü də elə dəlil ki, bunu anlamaqdan ötrü mütəxəssis olmağa ehtiyac yoxdur və hər kəs üçün dərk olunub qəbul edilməyə qabildir.

QURANIN MÖCÜZƏVİ CƏHƏTLƏRİ

Quranın Allah kəlamı və möcüzəli bir kəlam olduğunu qısa şəkildə başa düşdükdən sonra onun bəzi möcüzəvi cəhətlərini araşdırırıq:

a) Quranın fəsahət və bəlağəti:

Qurani-kərimin möcüzə olmasının ilkin cəhəti onun fəsahəti (şirin söz üslubu) və bəlağətidir (söz ustalığıdır). Yəni Mütəal Allah Öz məqsədlərini bəyan etmək üçün hər bir məqamda sözlərin ən gözəlindən və ən dolğunundan, ən çox ölçülüb-biçilmişindən və gözəl ahəngindən müəyyən cümlə və ifadələr düzəltmişdir ki, bu da nəzərdə tutulan mənaları dinləyicilərə çox gözəl və dolğun şəkildə anladır. Yüksək mənalarla uyğun və münasib olan cümlə, ifadə və sözlərin, dəqiq mənaların seçilməsi o şəxsə müyəssər ola bilər ki, mənaların dəqiq incəliklərinə, sözlərin bütün xüsusiyyətlərinə, onların qarşılıqlı əlaqələrindən tam məlumatlı olsun, nəzərdə tutulan mənaların bütün yönlərini nəzərə almaqla, hal və məqamın tələbinə riayət etməklə ən gözəl sözləri və ifadələri seçə bilsin. Belə bir elmi əhatə də vəhy və ilahi ilham olmadan heç kəs üçün müyəssər ola bilməz.

Quranın cazibədar və mələkuti ahənginin gözəlliyi, gözəl söz üslubunda olması hamı üçün, məxsusən də ərəb dilinin qayda-qanunlarını, fəsahət və bəlağət fənlərini bilən şəxslər üçün məlumdur. Amma onun fəsahət və bəlağətinin möcüzə olmasının ayırd edilməsi o kəslərə müyəssər ola bilər ki, müxtəlif xitabət fənlərində məharət və ixtisasa malik olsun, onu başqa fəsahətli və bəlağətli sözlərlə müqayisə etsin və onun qarşısında öz qüdrətini yoxlaya bilsin. Bu iş də mahir ərəb şairlərinin öhdəsindən gəlirdi. Çünki Quranın nazil olduğu dövrdə ərəblərin ən böyük hünəri söz ustalığının ən yüksək zirvəsinə çatan xətiblik və söz ustası olmaq idi. Onlar gözəl şer nümunələrini ədəbi cəhətdən tənqid edib araşdırdıqdan sonra onların içərisindən ən gözəl incəsənət nümunəsi olan əsəri seçərək hamıya təqdim edirdilər.

Ümumiyyətlə, Allahın hikmət və inayəti hər bir peyğəmbərin möcüzəsini o dövrdə mövcud olan elm və hünərlə münasib olmasını tələb edirdi ki,

onun bəşər əsərlərinə olan möcüzəli üstünlük və imtiyazını gözəl şəkildə dərk etsinlər. İmam Hadi (ə) İbni Səkkitin "Nə üçün Mütəal Allah həzrət Musanın (ə) möcüzəsini işıqlı əl və əsanı əjdaha etmək, həzrət İsanın (ə) möcüzəsini xəstələrə şəfa vermək və İslam Peyğəmbərinin (s) möcüzəsini Qurani-kərim qərar verdi?" deyə soruşduqda cavabında buyurmuşdu: *"Həzrət Musanın (ə) dövründə camaat arasında yayılan hünər sehr və cadu olduğuna görə Mütəal Allah o Həzrətin (ə) möcüzəsini onların işinə oxşar qərar verdi ki, onun kimi işlər gətirməkdə özlərinin acizliklərini başa düşsünlər. Həzrət İsanın (ə) dövründə yayılan hünər təbabət olduğuna görə Mütəal Allah o Həzrətin (ə) möcüzəsini sağalmaz xəstələrə şəfa vermək qərar verdi ki, onun möcüzə olmasının gözəl şəkildə dərk etsinlər. Amma İslam Peyğəmbərinin (s) dövründə yayılan hünər gözəl söz ustalığı olduğuna görə Mütəal Allah Qurani-kərimi ən gözəl üslubda nazil etdi ki, onun möcüzəli üstünlüyünü başa düşsünlər."*[1]

Bəli, o əsrin ən böyük söz ustaları Vəlid ibni Muğeyrə Məxzumi, Ütbət ibni Rəbiə, Tüfeyl ibni Əmr Quranın son dərəcə fəsahət və bəlağətli olmasına, bəşər sözlərinin içərisində müqayisəolunmaz dərəcədə gözəlliyinə şəhadət verirdilər.[2] Təqribən bir əsrdən sonra İbni Əbil Övca, İbni Müqəffə, Əbu Şakir Deysani, Əbdül Məlik Bəsri kimi şəxslər Quranla mübarizə aparmaq üçün öz qüdrətlərini yoxlamaq qərarına gəldilər və bir il müddətində vaxtlarını buna sərf etdilər. Lakin azacıq da olsa belə bir iş görə bilmədilər və nəhayət, hamılıqla bu ilahi kitabın əzəməti müqabilində aciz qalıb diz çökdülər. Məscidül-Həramda bir illik işlərini araşdırmaq üçün yığıncaq təşkil etdikləri zaman imam Sadiq (ə) onların yanından keçərək bu ayəni tilavət etdi:

"De: Əgər insanlar və cinlər bir yerə yığışıb bu Qurana bənzər bir şey gətirmək üçün bir-birinə kömək etsələr, yenə də ona bənzərini gətirə bilməzlər.»[3]

b) Qurani-kərimi gətirən şəxsin ümmi olması.

Quran həcminin nisbətən kiçik olması ilə belə müxtəlif maarif, elm, əhkam, fərdi və ictimai qanunları özündə cəm edir. Bunların hər birinin də tam və dəqiq şəkildə araşdırılması uzun illər vaxt tələb edir. Bunlar barəsində tədqiqat aparmaq üçün mütəxəssis qrupları tələb olunur ki, tədricən bu hökmlərdə olan sirləri kəşf edərək daha artıq həqiqətlərə nail olsunlar. Bunu da qeyd edək ki, bütün həqiqətlər və onların sirlərinin kəşf olunması ilahi elmə malik olan, Allah tərəfindən dəstəklənən şəxslərdən başqalarına müyəssər ola bilməz.

---

[1] "Üsuli-kafi", 1-ci cild, səh-24

[2] "Elamul-vəra", səh 27-28 və 49, "Sireyi ibni Hişam", 1-ci cild, səh 293 və 410

[3] "İsra" surəsi, ayə:88, "Nurus-səqəleyn", həmin ayənin təfsirində.

Ən dolğun və gözəl maariflərə, ən yüksək əxlaqi göstərişlərə və dəyərli əxlaq normalarına, ən ədalətli və möhkəm hüquq sistemi və cəza qanunlarına, ən hikmətli ibadət əməllərinə, ictimai və fərdi hökmlərə, ən faydalı moizələrə və öyüd-nəsihətlərə, ən ibrətamiz tarixi hadisələrə, ən gözəl təlim-tərbiyə üslubuna malik olan, bir sözlə, bəşərin dünya və axirətdə ehtiyac duyduğu bütün prinsipləri əhatə edən, misli görünməmiş yeni üslubla yanaşı olan bu qanunlar elə bir səviyyədədir ki, cəmiyyətin bütün təbəqələri öz istedadlarının tutumu qədərincə ondan bəhrələnə bilərlər.

Bu qədər həqiqət və maarifin hamısının belə bir məcmuədə toplanması adi insanların qüdrət dairəsindən çox-çox yüksəkdədir. Amma onun qəribəliyini və möcüzəliyini artıran şey oudur ki, bu əzəmətli kitabı təlim görməmiş, dərs oxumamış, eləcə də yüksək mədəniyyətdən uzaqda olan bir mühitdə böyüyən şəxs təqdim etmişdir. Daha qəribəsi budur ki, besətdən əvvəlki qırx il müddətində bu kimi sözlərin nümunəsi və oxşarı ondan eşidilməmişdir. Risaləti dövründə də "ilahi vəhy" ünvanı ilə təqdim etdiyi şeylər xüsusi üsluba, vəznə, həmahəngliyə və tam uyğunluğa malik idi. Bu da onu onun (s) başqa sözlərindən tamamilə ayırd edirdi. Bu ilahi kitabın sözləri ilə o Həzrətin (s) digər sözləri arasındakı aşkar fərqlər dəqiq şəkildə müşahidə olunurdu.

Qurani-kərim bu məsələyə işarə edərək buyurur:

"Sən bundan əvvəl nə bir kitab oxumusan, nə də bir şey yazmısan. Əgər belə olsaydı, onda batilə uyanlar şəkk-şübhəyə düşərdilər.»[1]

Başqa bir ayədə buyurulur:

"De: Əgər Allah istəsəydi, mən onu sizə oxumazdım və Allah da onu sizə bildirməzdi. Mən ondan qabaq sizin aranızda ömür sürmüşəm. Məgər dərk etmirsinizmi?»[2]

Güclü ehtimala əsasən, "Bəqərə" surəsinin 23-cü ayəsi də ("Onun kimi şəxsdən bir surə gətirin") möcüzənin məhz həmin cəhətinə işarədir. Yəni böyük ehtimala görə «mislihi» kəlməsindəki «hu» əvəzliyi «əbdina» kəlməsinə qayıdır.

Bir sözlə, əgər qeyri-mümkün fərziyyəyə əsasən yüzlərlə alim və mütəxəssis qrupu həmkarlıq nəticəsində bir kitab hazırlaya bilsəydi, məlumdur ki, dərs oxumamış, təhsil görməmiş bir şəxs bunun öhdəsindən əsla gələ bilməzdi.

Deməli, belə xüsusiyyətlərə malik olan kitabın təhsil almamış şəxs tərəfindən gətirilməsi onun digər möcüzəvi cəhətini göstərir.

---

[1] "Ənkəbut" surəsi, ayə:48

[2] "Yunis" surəsi, ayə:16.

V) AYƏLƏR ARASINDA UYĞUNLUQ, IXTILAFIN İSƏ OLMAMASI

Qurani-kərim Peyğəmbəri-Əkrəmə (s) iyirmi üç il ərzində, özü də çox böhranlı və ağır şəraitlərdə, həmin dövrdə baş verən acılı-şirinli hadisələrlə yanaşı nazil olmuşdur. Lakin bu qəribə dəyişiklik və şərait Quranın möcüzəli üslubunda və mətləblərinin nizamlı olmasında azacıq belə təsir göstərməmişdir. Onun forma və məzmun baxımından tam uyğunluğu möcüzə olmasının digər göstəricisidir. Əvvəlki iki cəhət kimi Quranın özündə də ona işarə edilərək buyurulur:

"Onlar Quran barəsində düşünməzlərmi? Əgər o, Allahdan başqası tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyətlər tapardılar.»[1]

İzah: Hər bir insan, heç olmazsa, iki növ dəyişikliyə məruz qalır:

1.Onun məlumat və istedadı artır. Bu onun elmi, bilik və sözlərində inikas olunur. Təbiidir ki, iyirmi illik zaman ərzində onun sözləri arasında nəzərə çarpacaq ixtilaf və fərqlər aşkar olur.

2.Həyatda baş verən müxtəlif hadisələr, o cümlədən, qorxu, ümid, qəm-qüssə, şadlıq, həyəcan, asudəlik və s. insanda müxtəlif psixoloji, mənəvi halətlər, emosional xüsusiyyətlər və ehsasatların yaranmasına səbəb olur. Bu kimi fərqli hallar şəxsin düşüncə, danışıq və əməlində özünəməxsus təsirlər qoyur və təbiidir ki, bu dəyişikliklərin artması ilə onun sözləri arasındakı ixtilaf da artacaqdır. Həqiqətdə danışıqdakı dəyişikliklər ruhi halət və dəyişikliklərin nəticəsidir ki, onlar da öz növbəsində təbii və ictimai şəraitdən asılıdır.

Quranın Peyğəmbərin (s) şəxsən özü tərəfindən yazıldığı fərz edilərsə və o Həzrətin (s) bir insan kimi qeyd olunan dəyişikliklərə məruz qaldığı nəzərə alınsa, islam Peyğəmbərinin (s) həyatında baş verən çoxlu dəyişikliklərə əsasən, gərək Quran forma və məzmununa görə çoxlu ixtilaflara düçar olaydı. Halbuki, onda bu kimi ixtilaflar azacıq belə gözə dəymir.

Nəticə alırıq ki, Quranın möcüzəli bəlağət-fəsahətində və onun məzmununda ixtilafın olmaması bu şərif kitabın Mütəal Allahın sonsuz və sabit elm mənbəyindən qaynaqlandığını göstərir ki, o müxtəlif vəziyyət və hadisələrin qarşısında məhkum olmamış, əksinə təbiətə hakim kəsilmişdir.

SUALLAR

1.Qurani-kərim özünün möcüzə olmasını necə iddia edir?

2.Quranın möcüzə olmasına qısa dəlil hansıdır?

3.Belə bir ehtimal vermək olarmı ki, müxaliflərdən kimsə Quranın mislini gətirməyi istəməmiş, yaxud gətirmişsə də bizim ondan xəbərimiz olmamışdır? Niyə?

4.Quranın möcüzəli bəlağət üslubunu şərh edin.

5.Peyğəmbəri-Əkrəmin (s) ümmi olmasının Quranın möcüzə olması ilə

[1] "Nisa" surəsi, ayə:82.

nə kimi əlaqəsi vardır?

6.Quranda ixtilafın olmaması onun möcüzə olmasına necə dəlalət edir?

OTUZ ÜÇÜNCÜ DƏRS

QURANIN TƏHRİFDƏN AMANDA OLMASI

–**Müqəddimə**
–Qurana heç nəyin əlavə edilməməsi
–Qurandan heç nəyin azaldılmaması

MÜQƏDDİMƏ

Əvvəldə qeyd olunduğu kimi, nübüvvətin zəruri olması dəlilinə əsasən ilahi peyğamlar sağ-salamat və təhrif olunmadan insanların ixtiyarına verilməlidir ki, onun vasitəsilə dünya və axirətdəki səadət yollarını qət edə bilsinlər.

Deməli, Quran camaata çatdırılana qədər digər asimani kitablarda olduğu kimi, təhrifdən amanda olmasında heç bir münaqişə yeri yoxdur. Bildiyimiz kimi, başqa asimani kitablar insanların ixtiyarına verildikdən sonra müəyyən qədər təhriflərə məruz qalmış, dəyişdirilmiş, yaxud müəyyən müddətdən sonra unudulmuşdur. Belə ki, müasir dövrdə həzrət Nuhun (ə), həzrət İbrahimin (ə) kitabları ümumiyyətlə, mövcud deyildir. Həzrət Musa (ə) və həzrət İsanın (ə) kitabları da əslində olduğu kimi qalmayıb. Bunlara diqqət yetirməklə belə bir sual yaranır: Hazırda sonuncu səmavi kitab olan Quranın məhz Peyğəmbərə (s) nazil olmuş və onda heç bir dəyişikliyə məruz qalmamış Quran olmasını haradan bilmək olar? Əlbəttə, hər kəs İslamın və müsəlmanların tarixi ilə müəyyən qədər tanış olsa, Peyğəmbəri-Əkrəmin (s) və onun məsum canişinlərinin (ə) Quran ayələrini yazıb qorumaqda nə qədər səy göstərdiklərindən agah olsa, həmçinin, müsəlmanların Quran ayələrini qoruyub saxlamaqda ciddiyyətlərini başa düşsə, (belə ki, yalnız bir müharibədə Quran hafizlərindən 70 nəfər şəhid olmuşdu) eləcə də Quranın on dörd əsr ərzində mütəvatir şəkildə nəql olunmasından, onun ayə, kəlmə, hərf və s. sayına nə qədər diqqət yetirilməsindən agah olsa, bu şərif kitabda azacıq belə təhrifolunma ehtimalını qəbul etməyəcəkdir. Lakin Qurani-kərimin təhrif olunmamasını bu kimi qəti tarixi şahidlərdən əlavə, bir əqli və bir nəqli dəlildən mürəkkəb olmuş bəyanla da isbat etmək olar. Yəni ilk növbədə Qurani-kərimə hər hansı bir şeyin artırılmamasını əqli dəlillə isbat edib sonra hazırda mövcud olan Quranın Allah tərəfindən nazil olmasını, eləcə də ondan heç bir şey əskildilmədiyini onun ayələrinə istinadən isbat etmək olar.

Buna görə də Quranın hər növ təhrifdən amanda olması məsələsi bir-birindən ayrı olan iki mövzuda araşdırılır:

1.Qurana heç bir şey artırılmayıb.

Qurani-kərimə heç bir şeyin artırılmaması bütün müsəlmanların, hətta, dünyanın bütün agah şəxslərinin fikir birliyində olduğu məsələdir. Qurana nəyinsə artırılmasına ehtimal mənşəyi olan heç bir hadisə baş verməmiş, belə bir ehtimal üçün heç bir növ sənəd təqdim olunmamışdır. Eyni zamanda artırılma fərzini əqli dəlillər vasitəsilə inkar və batil etmək olar. Belə ki, əgər Qurana tam bir mətləb artırılsa, mənası bu olar ki, Quranın oxşarının gətirilməsi mümkündür və belə bir fərziyyə Quranın möcüzə olması, insanların onun oxşarını gətirməkdə bacarıqsız olması ilə uyğun deyildir. Əgər bir kəlmə, yaxud qısa bir ayənin (“Ərrəhman” surəsinin 64-cü ayəsi olan “müdhammətan» kəlməsi kimi) artırılması fərz olunduqda

gərək onun daxilindəki nəzm pozulsun və möcüzəlik surətindən xaric olsun. Belə olan halda onun mislini gətirmək və onu təqlid etmək olar. Çünki Quran ibarələrinin möcüzəli şəkildə olan nəzmi, kəlmə və hərflərin də necə seçilməsinə bağlıdır və onların dəyişdirilməsi ilə möcüzəlik halından xaric olur.

Qurani-kərimin möcüzə olmasını isbat edən həmin dəlillə onun bir şey artırılmasından da amanda olması isbat olunur və ayələrin möcüzəlik halından çıxmasına səbəb olan kəlmə və cümlələrin azaldılması da həmin dəlillə inkar edilir. Tam bir surənin, yaxud tam bir mətləbin digər ayələrin möcüzəlik halından çıxmağa səbəb olmayacaq qədər ixtisara salınması məsələsinə gəldikdə isə bunun üçün başqa bir dəlilə ehtiyac vardır.

2.Qurandan heç nə azaldılmayıb

Sünni və şiə alimlərindən olan böyük şəxsiyyətlər aşkar şəkildə buyurublar ki, Qurani-kərimə heç bir şey artırılmadığı kimi, ondan bir şey də azaldılmayıbdır. Bu mətləb üçün çoxlu dəlillər gətirmişlər. Lakin sünni və şiələrin hədis kitablarında bəzi saxta hədislərin nəql olunması, eləcə də bəzi mötəbər rəvayətlərdən düzgün olmayan nəticə alınması nəticəsində Qurani-kərimdən bəzi ayələrin ixtisara salınmasına və ya çıxarılmasına ehtimal verənlər və ya təkid edənlər olmuşdur.[1]

Qurani-kərimin hər növ təhrifdən – istər artırılmaqdan, istərsə də ixtisara salınmaqdan amanda qalmasına qəti tarixi dəlillər mövcuddur. Bundan əlavə, onun möcüzəli nəzminin pozulmasına səbəb olacaq ixtisar möcüzə olmaq dəlili vasitəsilə inkar olunur və bir ayənin, yaxud müstəqil surənin Qurandan ixtisara salınması kimi işdən də amanda olmasını dərk etmək olar. Yəni mövcud Quranın bütövlükdə Allah kəlamı olması, ona heç bir şey artırılmaması sübuta yetdikdən sonra onun ayələrinin məzmunu ən möhkəm nəqli dəlil ünvanı ilə höccət olur. Quran ayələrindən əldə olunan mətləblərdən biri də budur ki, Mütəal Allah bu kitabın hər növ təhrifdən amanda qalmasına zəmanət vermişdir. Halbuki, digər səmavi kitabların qorunub saxlanılması insanların öhdəsinə verilmişdi.[2]

Bu məsələ "Hicr" surəsinin 9-cu ayəsində belə buyurulur:

«Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu qoruyub saxlayacağıq.»

Bu şərif ayə iki cümlədən təşkil olunmuşdur. Birinci cümlə **"inna nəhnu nəzzəlnəz-zikrə"** təkid edərək göstərir ki, Qurani-kərim Mütəal Allah tərəfindən nazil edilmişdir və nazil olduğu zaman onda heç bir dəyişiklik baş verməmişdir. İkinci cümlədə isə **"və inna ləhu ləhafizun"** təkid

[1] Ayələrin təfsiri və onların bəzi nümunələrini göstərmək məqamında olan rəvayətlər, yaxud yanlış təfsirlərin və mənəvi təhriflərin batil olmasını göstərən hədisləri misal göstərmək olar. Belə ki, onlardan Qurani-kərimin müəyyən kəlmə və ibarələrinin ixtisara salınması düşünülə bilər.

[2] Belə ki, "Maidə" surəsinin 44-cü ayəsində yəhudi və məsihi alimləri barəsində deyilir.

ədatlarından, eləcə də davamiyyətə dəlalət edən cümlə quruluşu vasitəsi ilə Quranın əbədi olaraq hər növ təhrifdən uzaq qalmasına zəmanət verilmişdir.

Bu ayə Qurana bir şeyin artırılmaması barəsində dəlil olmasına baxmayaraq Quranda təhrifolunmanın inkar edilməsindən ötrü zəif istidlaldır. Çünki əgər Qurana bir şeyin artırılmasını fərz etsək onda yuxarıdakı ayənin də artırılması təsəvvür oluna bilər. Belə bir fərziyyənin düzgün olması bu ayənin özü ilə uyğun gəlmir. Buna görə də Qurani-kərimin möcüzə olmasına əsaslanaraq o fərziyyəni batil etdik, sonra isə bu şərif ayədən istifadə etməklə ondan hər hansı bir ayə, yaxud müstəqil surənin çıxarılmasından amanda qalmasını (belə ki, onun möcüzəli nəzmini bir-birinə qarışdırılmasına səbəb olmayacaq şəkildə) da isbat etdik. Beləliklə, Qurani-kərimin artırılıb-azaldılma kimi təhrifdən amanda olmasını bir əqli və bir nəqli dəlillə sübuta yetir.

Dərsin axırında bu məsələni xatırladırıq ki, Quranın təhrifdən amanda qalması dedikdə məqsəd bu deyildir ki, hər yerdə Quran adlı bir kitab tapılsa, kamil Quran olsun, yazıda və ya qiraətdə olan səhvdən uzaq olsun, onun barəsində heç bir növ yanlışlıq və mənəvi cəhətdən təhrifin olmaması mümkün olmasın və onun ayə və surələri nazilolma tərtibi ilə tənzim olunmuş olsun. Əksinə, məqsəd budur ki, Qurani-kərim bəşər arasında elə bir vəziyyətdə qalmalıdır ki, həqiqət axtaranlar üçün onun bütün ayələrini nazil olduğu şəkildə əldə etmələri mümkün olsun. Buna əsasən, bəzi Quran nüsxələrinin səhv yazılması, yaxud naqis olması, yaxud qiraət fərqləri, yaxud ayə və surələrinin nazil olduğunun əksinə olaraq tənzim olunması, yaxud mənəvi cəhətdən təhrif edilməsi, yaxud şəxsi rəy əsasında təfsir edilməsinin Quranın sözü gedən təhrifdən amanda qalması ilə heç bir ziddiyyəti yoxdur.

SUALLAR

1.Quranın təhrifdən amanda qalması məsələsinin irəliçəkilmə şərtlərini bəyan edin.

2.Quranın toxunulmaz olduğuna hansı tarixi dəlillər vardır?

3.Quranın təhrif edilmədiyini hansı dəlillə isbat etmək olar?

4.Qurana heç bir şeyin artırılmadığını isbat edin.

5.Hansı əsasa görə Qurandan bir şey azaldılmayıb?

6.Elə bu dəlilə əsasən Qurana bir şey artırılmadığını isbat etmək olarmı? Niyə?

7.Quran nüsxələrinin bəzilərinin səhv yazılması, yaxud naqis olması, qiraətdəki ixtilaflar, ayə və surələrin nazilolunma tərtibinin əksinə yazılması, düzgün olmayan təfsirlər və mənəvi təhriflərin varlığı Quranın sözü gedən təhrifdən amanda olması ilə zidd olmadığını bəyan edin.

OTUZ DÖRDÜNCÜ DƏRS

İSLAM DİNİNİN ƏBƏDİ DÜNYA SƏVİYYƏLİ OLMASI

–Müqəddimə
–İslam dininin dünya səviyyəli bir din olması
–İslamın dünya dini olmasına Quran dəlilləri
–İslamın əbədi olması
–Bir neçə şübhənin cavabı

MÜQƏDDİMƏ

Məlum olduğu kimi, bütün peyğəmbərlərə iman gətirib onların sözlərinin hamısını qəbul etmək islam dininin zəruri məsələlərindəndir.[1] Peyğəmbərlərdən birinin, yaxud onların söz və hökmlərindən birinin inkar edilməsi ilahi-təşrii rübubiyyətin inkar olunması deməkdir. Bu, eynilə İblisin kafir olmasına oxşayır.

Buna əsasən Peyğəmbəri-Əkrəmin (s) risaləti sübut olunduqdan sonra o Həzrətin (s) özünə və ona nazil olan bütün ayələrə, Allah tərəfindən gətirdiyi hökm və qanunlara iman gətirmək zəruri və lazımlı məsələlərdəndir.

Amma hər bir peyğəmbərə və onun asimani kitabına iman gətirmək onun şəriətinə uyğun olaraq əməl etməyi tələb etmir. Belə ki, müsəlmanlar bütün ilahi peyğəmbərlərə və onlara nazil olmuş asimani kitablara iman gətirirlər. Lakin əvvəlki şəriətlərə əməl edə bilməzlər və bunu etməməlidirlər də. Əvvəldə qeyd olunduğu kimi, hər bir ümmətin vəzifəsi həmin ümmətin peyğəmbərinin göstərişlərinə əməl etməkdir. Deməli, bütün insanların İslam şəriətinə əməl etməsinin zərurəti o zaman sübut olur ki, islam Peyğəmbərinin (s) risaləti xüsusi bir qövmə (ərəblərə) məxsus olmasın, həmçinin o Həzrətdən (s) sonra onun şəriətini qüvvədən sala biləcək bir peyğəmbər də məbus olmasın. Başqa sözlə desək, İslam dünya səviyyəli və əbədi bir din olmalıdır.

Buna görə də biz Peyğəmbəri-Əkrəmin (s) dininin dünya səviyyəli və əbədimi, yoxsa müəyyən bir zaman və ya qövm ilə məhdudlaşmasını araşdırmalıyıq.

Aydındır ki, belə bir məsələni sırf əqli yolla araşdırmaq olmaz. Əksinə bu məsələdə nəqli elmlər və tarixi tədqiqat üslubundan bəhrələnmək, yəni mötəbər sənədlərə və mənbələrə müraciət etmək lazımdır.

Bir kəs üçün Qurani-kərimin haqq olması, Peyğəmbərin (s) nübüvvəti, isməti və haqq olması sabit olsa, onun üçün Allahın kitabı və Peyğəmbərin sünnəsindən də mötəbər bir mənbə ola bilməz.

İSLAMIN DÜNYA SƏVİYYƏLİ BİR DİN OLMASI

İslamın dünya səviyyəli bir din olması, onun hansısa bir xüsusi qövmə, yaxud məntəqəyə aid olmaması bu ilahi dinin zəruri məsələlərindəndir. Hətta ona iman gətirməyən şəxslər belə islami çağırışın ümumdünya səviyyəsində olmasını, xüsusi coğrafi məntəqə ilə məhdudlaşmamasını bilirlər.

Bundan əlavə, mövcud olan çoxlu tarixi faktlara əsasən Peyğəmbər (s) Roma, İran, Misir, Həbəşistan və Şam padşahlarına, eləcə də müxtəlif ərəb və digər qəbilə başçılarına məktublar yazmış, onlara qasid göndərmiş,

[1] Bu kitabın 29-cu dərsinə müraciət edin.

hamısını bu müqəddəs dini qəbul etməyə çağırmış və islamı qəbul etmək qarşısında təkəbbür göstərib, küfr etməyin acınacaqlı nəticələri barədə onlara xəbərdarlıq etmişdir.[1] Əgər İslam dini dünya səviyyəli olmasaydı, heç vaxt belə bir ümumi dəvət baş verməzdi. Başqa qövmlər və ümmətlər də bunu qəbul etməməkdə müəyyən bəhanələr gətirərdi.

Buna görə də, İslamın haqq olmasına iman gətirməklə bu ilahi şəriətə əməl etməyin zərurəti arasında ayrılıq salmaq və boyunlarında vəzifə borcu olduğuna görə bu ilahi ayinə əməl edən kəsləri istisna etmək olmaz.

QURANIN İSLAMIN ÜMUMDÜNYA DİNİ OLMASINA DAİR DƏLİLLƏRİ

Bu cür mətləblərin isbat olunmasında ən mötəbər və ən yaxşı dəlil Qurani-kərimin özüdür ki, onun haqq olması və etibarlılıq dərəcəsi əvvəlki dərslərdə aydın oldu. Bu ilahi kitaba dərindən nəzər salan şəxs onun dəvətinin ümumi və dünya səviyyəsində olmasını, hansısa firqə və ya tayfaya məxsus olmadığını anlayar. Quran özünün çoxlu ayələrində bütün insanlara "ya əyyuhənnas», yəni "ey insanlar"[2] , yaxud "Ey bəni Adəm", yəni "ey Adəm övladları"[3] deyə xitab edir, öz hidayətinin bütün insanlara[4] və bütün aləmlərə[5] şamil olduğunu buyurur. Həmçinin, Quran ayələri Peyğəmbərin (s) risalətinin bütün insanlara aid olduğunu bildirmişdir.[6] Bir ayədə isə bu dəvətin onun barəsində agahlığı olan hər kəsə şamil olduğunu təkid edir ("Ənam"-19). Digər tərəfdən digər dinlərin ardıcıllarına "əhli-kitab" - deyə xitab edir, və onlara tənə vurur.[7] Peyğəmbəri-Əkrəmin (s) risalətinin onlara da aid olduğunu bildirir. Ümumiyyətlə, Qurani-kərimin Peyğəmbərə (s) nazil olmasında əsas hədəf İslamın digər dinləri qüvvədən salması hesab olunmuşdur.[8]

Bu ayələrə diqqət yetirməklə Qurani-kərimin dəvətinin hamıya aid olmasında və müqəddəs İslam dininin dünya səviyyəsində bir din olmasında şübhəyə yer qalmır.

İSLAMIN ƏBƏDİ BİR DİN OLMASI

Yuxarıdakı ayələrdə qeyd olunan ümumi sözlərdən ("ey bəni Adəm", "ey insanlar", "ey aləmdəkilər" kimi) istifadə etməklə və qeyri-ərəb qövmlərinə

---

[1] Peyğəmbəri-Əkrəm (s)-in məktubları mötəbər tarix kitablarında qeyd olunmuşdur və onların hamısı "məkatibir-Rəsul" adlı bir kitabda bir yerə toplanmışdır.

[2] "Bəqərə"-21, "Nisa"-1 və 174, "Fatir"-15.

[3] "Əraf" 26-28, 31, 35, "Yasin"-60.

[4] "Bəqərə"-185, 187, "Ali-İmran"-138, "İbrahim"-1, 52, "Casiyə"-20, "Zümər"-41, "Nəhl"-44, "Kəhf"-54, "Həşr"-21.

[5] "Ənam"-90, "Yusif"-104, "Sad"-87, "Təkvir"-27, "Qələm"-52.

[6] "Nisa"-79, "Həcc"-49, "Səba"-28, "Ənbiya"-107, "Furqan"-1.

[7] "Ali-İmran" surəsi, ayə:65, 70-71, 98-99, 110, "Maidə" surəsi, ayə:15, 19.

[8] "Tövbə" surəsi, ayə:33, "Fəth" surəsi, ayə:38, "Səff"-9.

və başqa din ardıcıllarına "kitab əhli" deyə xitab etməklə İslam dininin ümumi və dünya səviyyəli bir din olması sübuta yetir. Həmçinin zaman cəhətindən qeyd vurulmaması ayələrin müəyyən zamana aid edilməsi onun məhdud zamandan ötrü olmasını inkar edir. Xüsusilə **"liyuzhirəhu ələddini kullih"** ("onu bütün dinlərə qalib etsin deyə»[1]) ayəsi heç bir şübhəyə yer qoymur. "Fussilət" surəsinin 42-ci ayəsində buyurulur:

«Həqiqətən, o, əziz, çox dəyərli, qiymətli bir kitabdır. Nə öncə, nə də sonra batil ona yol tapa bilər. O, həkim (hikmət sahibi) və həmid (şükrə, tərifə layiq olan) Allah tərəfindən nazil edilmişdir.»

Bu ayə göstərir ki, Qurani-kərim heç vaxt özünün düzgünlük və etibarını əldən verməyəcəkdir. Rəsuli-Əkrəmin (s) sonuncu peyğəmbər olması dəlilləri də (bu məsələ sonrakı dərsdə araşdırılacaqdır) bu ilahi dinin digər bir peyğəmbər və şəriət vasitəsilə qüvvədən düşməsinin mümkünlüyü ilə əlaqədar yaranan şübhəni aradan qaldırır. Deyilən məzmunda da çoxlu rəvayətlər nəql olunmuşdur. O cümlədən:

"Həzrət Məhəmmədin (s) halal buyurduğu qiyamət gününə qədər halal, haram buyurduğu isə qiyamət gününə qədər haramdır.»[2]

İslamın əbədi olması onun dünyəvi bir din olmasını zəruri edən ilahi məsələlərdəndir və bu barədə əlavə dəlillər gətirməyə ehtiyac duyulmur.

BİR NEÇƏ ŞÜBHƏNİN CAVABI

İslamın dünyaya yayılmasının qarşısını almaq üçün var-qüvvələrini sərf edərək heç nəyi əsirgəməyən düşmənlər müəyyən şübhələr yaratmaqla Allah dininin yalnız Ərəbistan yarımadası üçün nazil olduğunu və qeyrilərinə gətirilmədiyini iddia edirlər. Onlar müəyyən ayələrə istinad edərək bildirirlər ki, həmin ayələrdə Peyğəmbəri-Əkrəmə (s) öz qohum-əqrəbalarını, yaxud Məkkədə və onun ətrafında yaşayanları dəvət etmək əmr olunur.[3] Həmçinin, "Maidə" surəsinin 69-cu ayəsində yəhudilər, sabeinlər və məsihilər haqqında da səadətin meyarı iman və saleh əməl hesab edilir, İslam dininin qəbul olunması səadətin şərti kimi qeyd olunmur. İslam fiqhində kitab əhli müşriklərlə eyni səviyyədə deyildir. Onlar (müsəlmanların verdikləri xüms və zəkatın yerinə) cizyə verməklə İslam dövlətinin sığınacağında yaşayırlar. Onların təhlükəsizliyi təmin olunur və öz şəriət hökmlərinə əməl edə bilərlər. Bu da həmin dinlərin rəsmi olaraq tanınması nişanəsidir.

Bunun cavabında demək lazımdır ki, Peyğəmbəri-Əkrəmin (s) yaxın adamlarını və Məkkə əhalisini haqqa dəvət edən ayələr sadəcə olaraq dəvətin mərhələləridir. Belə ki, bu mərhələlər o Həzrətin (s) qohum-

---

[1] "Tövbə"-33, "Fəth"-38, "Səff"-9.

[2] "Kafi", 1-ci cild, səh-57, 2-ci cild, səh-17, "Bihar", 2-ci cild, səh-260, 24-cü cild, səh-288, "Vəsailüş-şiə", 18-ci cild, səh-124.

[3] "Şüəra" surəsi, ayə:214, "Ənam" surəsi, ayə:92, "Şura" surəsi, ayə:7, "Səcdə" surəsi, ayə:3, "Qəsəs" surəsi, ayə:46, "Yasin" surəsi, ayə:5-6.

əqrəbasından başlanmalı, sonra Məkkə əhalisi və onun ətrafında yaşayanlara doğru genişlənməli və nəhayət, bütün dünyanı əhatə etməlidir. Bu kimi ayələr o Həzrətin (s) risalətinin ümumdünya səviyyəsində olmasını göstərən ayələrlə heç bir əlaqəsi yoxdur. Çünki bu ayələrin məzmunu məhdudlaşdırıla bilməz. Bundan əlavə, belə məhdudlaşdırma əql sahiblərinin nəzərində qəbahətli və qeyri-məqbul hesab olunur.

"Maidə" surəsinin yuxarıda göstərilən ayəsində isə qeyd olunan məsələ bundan ibarətdir ki, sadəcə olaraq hansısa dinə tabe olmaq həqiqi səadətə nail olmaq üçün kifayət deyildir, əksinə, səadətin amili, həqiqi imandan, Mütəal Allahın Öz bəndələrinə vacib etdiyi vəzifələrə əməl etməkdən ibarətdir. İslamın ümumdünya səviyyəsində və əbədi bir din olmasını isbat edən dəlillərə uyğun olaraq, İslam Peyğəmbəri (s) zühur etdikdən sonra bu dinin hökm və qanunlarına əməl etmək bütün insanların vəzifəsidir.

Amma İslam dinində kitab əhlinin kafirlərdən üstün hesab edilməsinə gəldikdə isə, bu onların İslamı qəbul etməməkdə və ona əməl etməməkdə üzürlü olması demək deyildir. Əksinə onlar haqqında rəva görülən məsləhətlərə uyğun olaraq dünyəvi güzəştlərdir. Şiələrin etiqadına görə, həmin güzəştlər də müvəqqətidir. Həzrət İmam Zamanın (ə) zühur etdiyi zaman onlara yekun hökm elan olunacaq və onlarla kafirlər kimi rəftar olunacaqdır. Bu mətləbi də «li yuzhirəhu ələddini kullih»[1] cümləsindən anlamaq olar.

SUALLAR

1.Bütün insanların İslam şəriətinə tabe olması vacibdirmi?

2.Qurandan İslam dininin dünyəvi və əbədi bir din olmasına dair dəlillər gətirin.

3.Bu mətləb üçün daha hansı dəlillər mövcuddur?

4.Peyğəmbəri-Əkrəmi (s) öz yaxın qohum-əqrəbalarını və Məkkə əhalisini hidayət etməyə məmur edən ayələrin o Həzrətin (s) risalətinin yalnız onlarla məhdudlaşmadığını izah edin.

5."Maidə" surəsinin 69-cu ayəsinə əsasən heç bir ümmətin İslama tabe olmamaqda üzrlü sayılmamasının dəlilini bəyan edin.

6.Zimmə əhlinin öz şəriətlərinə əməl etməyə icazəli olmaları, onların İslam şəriətini qəbul etməməkdə üzrlü olmalarına necə dəlil ola bilməz?

[1] Tövbə surəsi, ayə 33, Fəth surəsi, ayə 38, Səff surəsi, ayə 9.

OTUZ BEŞİNCİ DƏRS

XATƏMİYYƏT

–**Müqəddimə**
–Quranda xatəmiyyətin dəlili
–Xatəmiyyət barədə rəvayətlər
–Nübüvvətin sona çatmasının dəlili
–Bir şübhənin cavabı

MÜQƏDDİMƏ

İslamın əbədi din olmasını nəzərə almaqla İslam şəriətini qüvvədən sala biləcək yeni peyğəmbərin məbus olacağı ehtimalı aradan gedir. Amma belə bir şübhə yarana bilər ki, digər peyğəmbərin gəlib İslam dinini təbliğ edərək yaymağı mümkündür. Çünki əvvəlki peyğəmbərlərin çoxu belə bir məsuliyyəti öhdələrinə almışdılar, istər şəriət sahibi olan peyğəmbərlərlə müasir olsunlar (məsələn, həzərət Lut (ə) həzrət İbrahimin (ə) müasiri və onun şəriətinə tabe idi), istərsə də şəriət sahibi olan peyğəmbərdən sonra göndərilsinlər və ona tabe olsunlar (Bəni-İsrail peyğəmbərlərinin çoxu belə olmuşdur). Belə şübhələr yaranmasın deyə, islam Peyğəmbəri Həzrət Məhəmmədin (s) xatəmiyyət məsələsi ayrıca şəkildə araşdırılmalıdır.

QURANDA XATƏMİYYƏTƏ DAİR DƏLİL

İslamın zəruri və danılmaz məsələlərindən biri də peyğəmbərlər silsiləsinin İslam Peyğəmbəri (s) vasitəsilə sona yetməsidir. Yəni ondan sonra heç bir peyğəmbər gəlməmiş və gələcəkdə də gəlməyəcəkdir. Hətta islama yad olanlar da bu məsələnin hər müsəlmanın etiqad bəsləməli olduğu İslam etiqadlarından biri olduğunu bilirlər. Buna görə də dinin başqa zəruri etiqadları kimi heç bir dəlilə ehtiyacı olmayacaqdır. Eyni halda bu mətləbi həm Quran ayələri, həm də mütəvatir hədislərdən istifadə edərək isbat etmək olar.

Qurani-kərimdə buyurulur:

“Məhəmməd (s) aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın Rəsulu və peyğəmbərlərin sonuncusudur.»[1]

Bu ayə tam aşkar şəkildə Peyğəmbəri-Əkrəmi (s) bütün peyğəmbərlərin sonuncusu kimi təqdim edir. İslam düşmənlərindən bəziləri bu ayənin Peyğəmbərin (s) xatəmiyyəti ilə bağlı olmasına dair iki irad tutmuşlar:

Birincisi: “Xatəm kəlməsi üzük mənasında da işlənir, ola bilsin ki, ayədə üzük mənası nəzərdə tutulmuşdur” – deyirlər.

İkincisi: “Xatəm sözü özünün məşhur mənasına götürülsə belə, ayənin mənası bu ola bilər ki, nəbilər silsiləsi o Həzrətin (s) vasitəsilə sona çatır, amma bu, rəsullar silsiləsinin sona çatmasına dəlalət etmir” - deyə bildirirlər.

Birinci iradın cavabı budur ki, “xatəm” kəlməsi bir şeyin xətm edilməsi, sona çatdırılması vasitəsinə deyilir. Üzüyə də (qədimdə) məhz ona görə xatəm deyirdilər ki, onun vasitəsilə məktubu və s. kimi şeyləri sona çatdırıb möhürləyirmişlər.

İkinci sualın cavabı bundan ibarətdir ki, risalət məqamına malik olan hər peyğəmbər nübüvvət məqamına da malikdir. Nəbilər silsiləsinin sona çatması elə rəsullar silsiləsinin də sona çatması deməkdir. Bu əvvəllər də

[1] “Əhzab” surəsi, ayə:40.

qeyd olunmuşdur.[1] Məfhum cəhətindən nəbinin rəsuldan ümumi olmasına baxmayaraq, işlənmə cəhətində nəbi rəsuldan daha ümumidir.

XATƏMİYYƏTƏ DAİR RƏVAYƏTLƏR

Peyğəmbəri-Əkrəmin (s) xatəmiyyət məsələsi yüzlərlə rəvayətdə aşkar şəkildə bəyan olunmuşdur. Onlardan biri də həm sünni, həm də şiələr tərəfindən Peyğəməbrdən (s) mütəvatir şəkildə nəql olunan və məzmununda heç bir şübhəyə yer olmayan "Mənzilət» adlı hədisdir.[2] O hədisdə deyilir:

«Peyğəmbər (s) Mədinədən Təbuka hərəkət etdiyi zaman həzrət Əlini (ə) müsəlmanların işlərini idarə etmək üçün öz yerinə canişin təyin etdi. Həzrət Əli də (ə) bu cihadda iştirak etmək feyzindən məhrum olduğuna görə qüssələndi. Bu zaman Peyğəmbər (s) ona buyurdu: «***Mənimlə sənin bir-birimizə olan nisbətimizin Musa ilə Harunun bir-birinə olan nisbəti kimi olmasına razı olmazsanmı?!»*** Bundan sonra ***«Bu fərqlə ki, məndən sonra heç bir peyğəmbər yoxdur»*** -deyə buyurmaqla ki, heç bir şəkk-şübhəyə yer qoymadı.»

Başqa bir rəvayətdə Peyğəmbərdən (s) belə nəql olunur: ***"Ey insanlar! Məndən sonra heç bir peyğəmbər, sizdən sonra da heç bir ümmət yoxdur.»***[3]

"Nəhcül-bəlağə"nin bir neçə xütbəsində[4] və məsum imamlardan (ə) nəql olunan çoxlu rəvayət, dua və ziyarətnamələrdə bu mətləbə kifayət qədər toxunulmuşdur. Onların hamısını qeyd etməyə imkan yoxdur.

NÜBÜVVƏTİN TAMAMLANMASININ SİRRİ

Yuxarıda qeyd olunduğu kimi, peyğəmbərlərin sayının çoxluğu və onların bir-birinin ardınca gəlməsinin səbəbi budur ki, bir tərəfdən keçmiş zamanlarda ilahi risalətin yer kürəsinin hər yerində və bütün ümmətlər arasında təkcə bir şəxsin vasitəsilə təbliğ olunması müyəssər deyildi, digər tərəfdən də yeni ictimai hadisə və münasibətlərin yaranması, əlaqələrin mürəkkəbləşməsi və genişlənməsi əvvəlki qanunların dəyişilməsini tələb edirdi. Həmçinin, zamanın keçməsi, şəxslərin cəhalət və qərəz əsasında olan dəxalətləri vasitəsilə yaranan təhriflər və dəyişikliklər digər peyğəmbər vasitəsilə ilahi təlimlərə düzəliş verilməsini gərəkli edirdi.

---

[1] 29-cu dərsə baxa bilərsiniz.

[2] "Biharul-ənvar", 37-ci cild, səh-254, 289, "Səhihi-Buxari", 3-cü cild, səh-58, "Səhihi Müslim", 2-ci cild, səh-323, "Sünəni ibni Macə", 1-ci cild, səh28, "Müstədrəki Hakim", 1-ci cild, səh-28, 3-cü cild, səh-109, "Müsnədi ibni Hənbəl", 1-ci cild, səh-331 və 2-ci cild, səh 369, 437.

[3] "Vəsailüş-şiə", 1-ci cild, səh-15, "Xisal", 1-ci cild, səh-322 və 2-ci cild, səh-487.

[4] 1, 69, 83, 87, 129, 168, 193, 230-cu xütbələr.

Deməli, ilahi risalətin dünya səviyyəsində bir peyğəmbər və onun köməkçilərinin vasitəsilə təbliğ olunması müyəssər olduğu təqdirdə, bir şəriətin qanunlarının cəmiyyətin hazırkı və gələcəkdəki ehtiyaclarını təmin edəcəyi və qarşıya çıxan yeni məsələlər barəsində nəzər verə biləcəyi şəraitdə, eləcə də onun təhriflərdən uzaq qalıb davam etməsinə zəmanət verildikdə, yeni bir peyğəmbər göndərilməsinə lüzum qalmaz.

İnsanların adi elmləri belə şəraitləri ayırd edə bilmədiyindən Mütəal Allah Özünün sonsuz elm və qüdrəti ilə bu şəraitin yaranma zamanını bilir. Nübüvvətin də xətm olunmasını yalnız O, elan edə bilər. Belə ki, bu işi Özünün sonuncu səmavi kitabında bəyan etmişdir.

Bunu da qeyd edək ki, nübüvvətin xətm olunması Allah ilə bəndələr arasında hidayət əlaqələrinin tamamilə kəsilməsi demək deyildir. Əksinə, Mütəal Allah hər vaxt məsləhət görsə Özünün layiqli bəndələrinə qeyb elmini, hətta, nübüvvət vəhyi surətində olmasa belə əta edər. Belə ki, şiələrin inancına görə, Allah belə elmləri məsum imamlara əta etmişdir. Allahın istəyi ilə bu məsələni imamət ilə əlaqədar bölmələrdə araşdıracağıq.

BİR ŞÜBHƏ VƏ ONUN CAVABI

Yuxarıdakı bəyanlardan aydın olur ki, nübüvvətin xətm olunmasının sirri budur ki, **əvvəla,** Peyğəmbər (s) öz köməkçiləri və canişininin köməyi ilə özünün ilahi risalətini bütün dünyaya çatdıra bilərdi. **İkincisi,** onun gətirdiyi səmavi kitabın hər növ təhrifdən amanda qalacağına zəmanət verilmişdir. **Üçüncüsü,** İslam şəriəti dünyanın axırına qədər bəşəriyyətin ehtiyac duyduğu bütün məsələlərə cavab verməyə qadirdir.

Amma bəziləri sonuncu mətləb barəsində şübhə yaradıb deyə bilər ki, keçmişdə ictimai rabitələrin get-gedə mürəkkəbləşməsi yeni hökmlərin verilməsini, yaxud əvvəlki hökmlərin dəyişməsini tələb etdiyi zaman digər bir peyğəməbər məbus olduğu kimi islam Peyğəmbərindən də (s) sonra ictimai rabitələrdə nəzərə çarpacaq və daha mürəkkəb dəyişikliklər baş verdiyindən, belə dəyişikliklər yeni şəraitin yaranmasını və nəticədə yeni peyğəmbər göndərilməsini necə tələb etməyə bilər?

Cavabda deməliyik ki, hansı dəyişikliklərin əsaslı qanunlar gətirilməsini tələb etdiyini ayırd etmək adi insanların qüdrət və bacarıq dairəsindən xaricdədir. Çünki bizim hökm və qanunların hikmət və səbəblərinə elmi əhatəmiz yoxdur. Əksinə, biz İslamın əsas qanunlarının dəyişilməsinə ehtiyac duyulmadığını, bu dinin əbədi din olmasından və Peyğəmbəri-Əkrəmin (s) xatəmiyyətindən dərk edirik.

Əlbəttə, biz yeni qayda-qanunların qoyulmasını tələb edən yeni ictimai hadisələrin varlığını da inkar etmirik. Amma İslam şəriətində bu kimi cüzi qanunlar yaratmaq üçün müəyyən prinsip və qaydalar nəzərdə tutulmuşdur ki, səlahiyyətli məqam sahibləri onların əsasında lazımi qanunlar çıxara və icra edə bilər. Bu mətləbin təfsilatını İslam fiqhində, islami hökumətin ixtiyarı (məsum imam və vəliyyi-fəqih) bölməsində araşdırmaq lazımdır.

SUALLAR

1.İslam dininin əbədi bir din olmasını isbat etdikdən sonra xatəmiyyət barəsində bəhs aparmağa nə ehtiyac vardır?

2.Quran dəlili əsasında xatəmiyyəti necə isbat etmək olar?

3.Bu dəlillə bağlı şübhələri göstərərək cavabını bəyan edin.

4.Xatəmiyyətə aid olan rəvayətlərdən üçünü bəyan edin.

5.Peyğəmbərlər silsiləsi niyə İslam Peyğəmbərinin (s) gəlişi ilə sona çatmışdır?

6.Nübüvvətin tamamlanması ilahi elmlərdən istifadə yolunun bağlanması mənasındadırmı? Niyə?

7.İslam Peyğəmbərinin (s) zühurundan sonra baş verən ictimai dəyişikliklər yeni şəriətin gəlməsini tələb edirmi? Nəyə görə?

8.Qarşıya çıxan yeni-yeni hadisələrdə cəmiyyətin qanunlara olan ehtiyacı necə təmin olunur?

OTUZ ALTINCI DƏRS

İMAMƏT

–Müqəddimə
–İmamət məfhumu

MÜQƏDDİMƏ

İslam Peyğəmbəri (s) Mədinəyə köçdükdən və o şəhər əhalisinin (onlara "ənsar" deyilirdi), xüsusilə, Məkkədən köçüb oraya gələn mühacirlərin misilsiz kömək və himayələrindən bəhrələndikdən sonra islam cəmiyyətinin əsasını qoyaraq onu idarə etməyə başladı. "Peyğəmbər məscidi" ilahi risalətin təbliğ olunduğu, ibadət və camaatın təlim-tərbiyə mərkəzi olmaqdan əlavə, mühacirlərin və məhrum kütlələrin də mənəvi sığınacaq yeri idi. Peyğəmbər (s) onların maddi çətinliklərini və iqtisadi məsələlərini məhz həmin yerdə həll edirdi. Həmçinin münaqişəli məsələlərin çözülməsi, hərbi tədbirlər barədə qərar qəbul edilməsi, cəbhələrə kömək və s. kimi hökumət məsələləri də burada həll olunurdu. Bir sözlə, camatın dini və dünya işləri Peyğəmbərin (s) əlində idi və müsəlmanlar o Həzrətin (s) göstərişlərinə itaət etməyi özlərinə vacib bilirdilər. Çünki Mütəal Allah müsəlmanlara o Həzrətə (s) mütləq şəkildə itaət etməyi əmr etməkdən əlavə,[1] siyasi, məhkəmə, hərbi məsələlərdə də Rəsuli-Əkrəmə (s) itaət etmək barədə təkidli əmrlər vermişdi.[2]

Başqa sözlə, Peyğəmbər (s) nübüvvət və risalət, İslam hökmlərini ümmətə bəyan edib öyrətməkdən əlavə, islam cəmiyyətinə rəhbərlik etmək kimi bir öhdəçiliyə də malik idi. Daha sonra o, qəzavət (məhkəmə), hərbi rəhbərlik və s. kimi mühüm vəzifələri də icra edirdi. İslam dinində ibadi və əxlaqi vəzifələrdən əlavə siyasi, iqtisadi, hüquqi və s. hökmlər də mövcud olduğundan islam Peyğəmbəri də (s) insanlara təlim-tərbiyə vermək və Allah tərəfindən dini vəzifələri onlara çatdırmaqla yanaşı, ilahi hökm və qanunların icra olunmasını və bütün hökumət işlərini də öz öhdəsinə almışdı.

Aydındır ki, dünyanın sonuna qədər bütün bəşər cəmiyyətlərini düz yola hidayət etməyə qadir olmasını iddia edən bir din bu kimi mühüm məsələlərə laqeyd yanaşa bilməz. Təməlini bu din təşkil edən bir cəmiyyət də bu kimi siyasi və hökumət mənsəblərindən məhrum ola bilməz. Bu mənsəblər də məhz "imamət məqamı" adı ilə tanınır.

Amma yenidən belə bir sual yaranır: Peyğəmbərin (s) vəfatından sonra bu məqamı kim öhdəsinə almalıdır? Mütəal Allah bu məqamı Peyğəmbərə əta etdiyi kimi, başqa şəxslərə də verirmi? Bu məqam yalnız Allah tərəfindən təyin olunması ilə özünə qanunilik tapırmı? Yoxsa, bu məqamın

---

1 "Ali-İmran" surəsi, ayə:32, 132, "Nisa" surəsi, ayə:12, 14, 69, "Maidə" surəsi, ayə:92, "Ənfal" surəsi, ayə:1, 20, 46, "Tövbə" surəsi, ayə:71, "Nur" surəsi, ayə:51, 54, 56, "Əhzab" surəsi, ayə:66, 71, "Hücurat" surəsi, ayə:14, "Fəth" surəsi, ayə:16-17, "Məhəmməd" surəsi, ayə:32, "Mücadilə" surəsi, ayə:12, "Mümtəhinə" surəsi, ayə:12, "Təğabun" surəsi, ayə:12, Cin-23.

2 "Ali-İmran" surəsi, ayə:152, "Nisa" surəsi, ayə:42, 59, 65, 105, "Maidə" surəsi, ayə:48, "Həcc" surəsi, ayə:67, "Əhzab" surəsi, ayə:6, 36, "Mücadilə" surəsi, ayə:8-9, "Həşr" surəsi, ayə:8.

Allah tərəfindən əta olunması yalnız Peyğəmbərə (s) aiddir və o Həzrətdən (s) sonra camaat özü imam seçib özlərinə rəhbər təyin edir? Doğrudanmı camaatın belə bir haqqı var? Sünnilərlə şiələrin əsas ixtilafı da məhz bu məsələ üzərindədir. Belə ki, şiələrin inancına görə, imamət Allah tərəfindən olan bir mənsəb olub səlahiyyətli şəxslərə verilir. Mütəal Allah Peyğəmbəri-Əkrəmin (s) vasitəsilə həzrət Əlini (ə) o Həzrətin (s) özündən sonrakı canişini qərar vermiş, daha sonra onun on bir övladı biri digərindən sonra imamət məqamına təyin olunmuşdur. Sünnilər isə inanırlar ki, nübüvvət və risalətdə olduğu kimi, imamət də Peyğəmbərin (s) vəfatı ilə sona çatır və ondan sonra imam camaat tərəfindən təyin olunur. Sünnilərin bəzi böyük şəxsiyyətləri aşkar şəkildə iddia etmişlər ki, hətta əgər bir şəxs silah gücü ilə camaata hakim olsa, bundan sonra ona itaət etmək hamıya vacib olmalıdır![1] Halbuki, bu cür puç nəzəriyyələr hiyləgər, zalım və zorakı insanlar tərəfindən sui-istifadə edilərək müsəlmanları perik salıb tənəzzülə uğratmalarına şərait yaradır.

Həqiqətdə sünnilər imamətin Allah tərəfindən təyin olunmasını qanuni bir iş kimi qəbul etməklə "dinin siyasətdən ayrılığı" kimi istismarçı siyasətin əsasını qoymuşlar. Şiələrin əqidəsinə görə, məhz bu iş həqiqi İslamdan, Allaha pərəstiş yolundan azğınlığa düşmənin başlanğıcı, eləcə də Peyğəmbərin (s) vəfatından etibarən müsəlmanların arasında baş verən, yaxud gələcəkdə baş verəcək yüzlərlə inhiraf və azğınlığın mənşəyi olmuşdur.

Buna görə də müsəlman bir şəxs bu məsələni tam ciddiyyətlə, hər növ təqlidçilik və təəssübdən uzaq olmaq şərti ilə araşdırmalı[2] və haqq məzhəbi seçərək var-qüvvəsi ilə onu himayə etməlidir.

Aydındır ki, İslam dünyasının ümumi məsləhətini nəzərə alaraq, İslam düşmənlərinin mövcud ixtilaflardan və müxtəlif məzhəblərin qarşıdurmasından istifadə etməsinə şərait yaratmaqdan uzaq olmaq lazımdır. Biz elə bir iş görməməliyik ki, müsəlmanların cərgələrində təfriqə yaransın və kafirlər qarşısındakı sıx birlikləri aradan getsin. Bütün müsəlmanlara vacibdir ki, ziyanı özlərinə qayıdan, İslam cəmiyyətinin zəifləməsindən başqa bir nəticəsi olmayan işlərdən çəkinsinlər. Digər tərəfdən də müsəlmanların vəhdət və birliklərinin qorunub saxlanması haqq məzhəbin ayırd edilməsi və imamət məsələsinin araşdırılması üçün sağlam mühit yaradılmasına lazım olan təhqiq və səylərə mane olmamalıdırlar. Bu elə bir

---

[1] "Əl-əhkamus-sultaniyyə" (Əbu Yəla) Əbu Qasmi Səmərqəndinin "Əssəvadul-əzəm" kitabının tərcüməsi, səh 40-42.

[2] Xoşbəxtlikdən böyük alimlər bu barədə müxtəlif dillərdə və müxtəlif üslublarla minlərlə kitab yazmış, haqq-həqiqət axtaranlar üçün tədqiqat yolunu açmışlar. Nümunə üçün "Əbəqatul ənvar", "Əl-ğədir", "Dəlailus-sidq", "Ğayətul-məram", "İsbatul-hudat" kimi kitabları qeyd etmək olar. Daha artıq mütaliə etməyə imkanı olmayan şəxslərə iki sünni və şiə alimi arasında yazışmadan ibarət olan "əl-Müraciat" kitabına, eləcə də "Əsluş-şiə və usuluha" kitabına müraciət etmələrini məsləhət görürük.

məsələdir ki, onun düzgün şəkildə həll olunması müsəlmanların müqəddəratının həll edilməsində, onların dünya və axirət səadətlərində tam mənada təsirlidir.

İMAMƏT MƏFHUMU

"İmamət" sözünün lüğəti mənası rəhbərlik, başçılıq etmək deməkdir. Haqq və ya batil yolda olmasından asılı olmayaraq müəyyən bir qrupun rəhbərliyini öhdəsinə alan şəxsə **"imam"** deyilir. Belə ki, Qurani-kərim "əimmətəl-kufr"[1] kəlməsini kafir başçıları ilə əlaqədar işlətmişdir. Namazda başqalarının iqtida etdiyi şəxs də camaat namazının **imamı** adlandırılır.

Amma kəlam elmində «imamət» sözündən aşağıdakı kimi istifadə olunur:

"İslam cəmiyyətində müsəlmanların bütün dünyəvi və dini işləri ilə əlaqədar olan hərtərəfli rəhbərlik».

"Dünyəvi" kəlməsinin imamətin əhatə hüdudlarının genişləndirir. Çünki cəmiyyətin dünyəvi işlərinin idarə olunması İslam dininin ayrılmaz bir hissəsidir.

Şiələrin nəzərinə görə belə bir rəhbərlik yalnız o zaman qanuni olacaqdır ki, Mütəal Allah tərəfindən təyin olunsun. Belə bir məqama əsalətən malik olan şəxs islami hökmlərin və maarifin dəqiq şəkildə bəyan olunması üçün hər növ xətadan, eləcə də günahlardan uzaq olmalıdır. Həqiqətdə məsum imam Peyğəmbəri-Əkrəmin (s) nübüvvət və risalətdən başqa malik olduğu bütün məqamlara malikdir. Həmçinin onun sözləri islam maarifi və qayda-qanunlarının və dini həqiqətlərin bəyan olunmasında höccətdir. Həm də müxtəlif hökumət işləri ilə əlaqədar məsələlərdə ona itaət etmək vacibdir.

Deməli, sünni və şiələrin imamət məsələsindəki ixtilafı üç məsələdən ibarətdir:

1.İmam Allah tərəfindən təyin olunmalıdır.

2.İmam Allah tərəfindən verilən xüsusi elmə malik və xətalardan uzaq olmalıdır.

3.Günahlardan pak və məsum olmalıdır.

Əlbəttə, məsum olmaq imam olmağı zəruri etmir. Çünki şiələrin etiqadına görə, həzrət Fatimeyi Zəhra da (s) məsumdur, amma imamət məqamına malik deyildir. (Eləcə də həzrət Məryəm də (s) ismət məqamına malik olmuşdur.) Allah övliyaları arasında belə bir məqama malik olan digər şəxslərin də olması mümkündür, baxmayaraq ki, onların barəsində bizim məlumatımız yoxdur. Ümumiyyətlə, məsum şəxsin Allah tərəfindən təqdimolunma yolundan başqa bir yolla ayırd edilməsi müyəssər deyildir.

SUALLAR

1.İslam Peyğəmbəri (s) nübüvvət və risalətdən başqa daha hansı ilahi məqamlara malik idi?

[1] "Tövbə" surəsi, ayə:12.

2.Şiələrlə sünnilər arasında ixtilafın əsas mənşəyi nədir?

3.Allah tərəfindən təyin olunmayan imamın qəbul edilməsinin nə kimi nəticələri var?

4.İmamətin lüğətdəki və istilahdakı mənalarını bəyan edin.

5.İmamətin əsaslı məsələləri hansılardır?

OTUZ YEDDİNCİ DƏRS

İMAMIN VARLIĞINA EHTİYAC

–Müqəddimə
–İmamın varlığının zərurəti

MÜQƏDDİMƏ

Etiqadi məsələlərdə dərin düşüncəyə malik olmayanların çoxu belə təsəvvür edir ki, şiələrlə sünnilərin imamət məsələsindəki ixtilafları yalnız bundan ibarətdir: şiələrin inancına görə, Peyğəmbər (s) Əliyyibni Əbi Talibi (ə) cəmiyyətin işlərini idarə etmək üçün özünə canişin seçmişdir. Lakin sünnilər inanırlar ki, belə bir iş baş verməmişdir və camaat öz istəyi ilə özlərinə rəhbər təyin edərək onu şəxsən canişin təyin etmişlər. O da özündən sonrakı xlifəni təyin etmiş, üçüncü mərhələdə rəhbərin təyin edilməsi altı nəfərlik şuraya həvalə edilmiş və dördüncü xəlifə bir daha ümumcamaat tərəfindən seçilmişdir. Belə şəxslərin fikrincə müsəlmanlar arasında rəhbər təyin edilməsi üçün xüsusi bir üslub olmamışdır. Buna görə də dördüncü xəlifədən sonra hər kəsin daha artıq hərbi qüdrəti olmuşsa, bu məqamı öhdəsinə almışdır. Belə ki, qeyri-islami ölkələrdə də hakimiyyətəgəlmə əksər hallarda bu minvalla icra olunur.

Başqa sözlə desək, bəziləri belə güman edirlər ki, şiələr birinci imamın təyin olunmasında sünnilərin ikinci xəlifənin birinci xəlifə tərəfindən təyin olunması kimi etiqada malikdirlər. Fərq isə bundan ibarətdir ki, Peyğəmbərin (s) nəzəri camaat tərəfindən qəbul edilmədi, amma birinci xəlifənin nəzəri camaat tərəfindən qəbul edildi!

Lakin sual yaranır ki, görəsən, birinci xəlifə bu haqqı haradan əldə etmişdi? Nə üçün sünnilərin etiqadına əsasən Peyğəmbəri-Əkrəm (s) İslam üçün birinci xəlifə qədər ürək yandırmamışdı və bünövrəsi yenicə qurulmuş İslam cəmiyyətini başsız qoymuşdu?! Halbuki Mədinədən cihada getdiyi zamanlarda belə, öz yerində müəyyən bir şəxsi təyin edirdi. Həm də o Həzrət (s) öz ümmətinin arasında gələcək ixtilaf və fitnələrdən xəbər verirdi. Bu kimi çoxlu sualları nəzərə almasaq belə, əsas etibarı ilə buna diqqət yetirmək lazımdır ki, sünnilərin və şiələrin ixtilafı, hər şeydən öncə, imamətin dini bir məqam olub şəriət və Allah tərəfindən təyin edilməyə bağlı olmasımı, yoxsa, dünyəvi bir səltənət olub ictimai amillərə tabe olması ilə əlaqədardır. Şiələr inanırlar ki, hətta Peyğəmbərin (s) özü belə öz canişinini təyin etməkdə müstəqil deyilmiş, əksinə, onu ilahi vəhy əsasında təyin etmişdir. Həqiqətdə nübüvvətin sona çatması hikməti məsum imamın təyin edilməsi ilə tam mənada əlaqəlidir və Peyğəmbərin (s) vəfatından sonra İslam cəmiyyətinin əməl olunması lazım olan məsləhətləri məhz belə bir imamın varlığı ilə müəyyən olunur.

Buradan şiələrin nəzərində imamət məsələsinin nə üçün etiqadi bir prinsip kimi irəli çəkilməsi və ona füruiddindən olan fiqhi bir hökm kimi baxılmaması, nə üçün onların imamda üçlük təşkil edən şərtləri (Allah verən elm, ismət və Allah tərəfindən təyin olunma) mötəbər saymaları, nə üçün şiənin kəlam istilahında bu məfhumların – İslam cəmiyyətinə rəhbərlik, hökumət və ilahi hökmlərin tanınmasında mərcəiyyətin məfhumu ilə qarışması aydın olur və sanki imamət kəlməsi onların hamısına dəlalət edir.

İndi imamət məfhumu və onun şiə etiqadında tutduğu mövqeyə nəzər yetirməklə bu əqidə barəsində söhbətə başlayırıq.

İMAMIN VARLIĞININ ZƏRURƏTİ

22-ci dərsdən aydın oldu ki, insanın yaradılışındakı hədəfin gerçəkləşməsi vəhy vasitəsilə yol göstərməyə bağlıdır və Allahın hikməti bunu tələb edirdi ki, dünya və axirətdəki səadət yollarını insanlara öyrətmək üçün müəyyən peyğəmbərləri göndərərək onların bu ehtiyaclarını təmin etsin. Onlar da öz növbəsində istedadlı insanları tərbiyələndirsinlər və onları müyəssər olan kamalın son mərhələsinə çatdırsınlar Eləcə də münasib ictimai şərait yarandıqda dinin ictimai qanunlarının icra olunmasını öhdələrinə alsınlar.

34-35-ci dərslərdə izah edildi ki, müqəddəs İslam dini hərtərəfli və əbədi bir dindir, heç bir şəriət vasitəsilə qüvvədən salınmır və Peyğəmbəri-Əkrəmdən (s) sonra heç bir peyğəmbər gəlməyəcəkdir. Peyğəmbərliyin sona çatması peyğəmbərlərin besətinin hikməti ilə yalnız o vaxt uyğun gələ bilər ki, axırıncı asimani şəriət bəşəriyyətin bütün ehtiyaclarına lazımınca cavab verə bilsin və dünyanın axırına qədər onun toxunulmaz şəkildə qalmasına zəmanət verilmiş olsun.

Bu zəmanət Qurani-kərim barəsində mövcuddur: Mütəal Allah bu əziz kitabın hər növ dəyişiklik və təhrifdən amanda qalmasına zəmanət vermişdir. Amma İslamın bütün qanunları və hökmləri Quranın ayələrinin zahiri mənasından istifadə olunaraq əldə olunmur. Misal üçün, namazın rəkətlərinin sayı, onun necə qılınması, eləcə də yüzlərlə vacib və müstəhəb əməllərin hökmü Qurani-kərimdən əldə edilə bilmir və əsas etibarı ilə Quran ilahi hökmləri təfsilatı ilə bəyan etmək iqtidarında deyil. Onların incəliklərinin təlim verilməsi və öyrədilməsi Peyğəmbərin (s) öhdəsinə qoyulmuşdur. Peyğəmbər də (s) Allahın ona əta etdiyi elmdən faydalanaraq (Quran vəhyindən başqa yollarla) onları camaata bəyan etsin.[1] Beləliklə, o Həzrətin (s) sünnəsinin (İslamı tanımaq üçün əsas mənbələrdən biri kimi) höccət və mötəbər olmağı sübuta yetir. Amma o Həzrətin (s) ağır həyat şəraiti, o cümlədən, müsəlmanlarla birgə "Əbu Talib dərəsi"ndə bir neçə il mühasirədə qalması, İslam düşmənləri ilə onillik müharibə və s. kimi işlər bütün İslam qanunlarının və hökmlərinin camaata təfsilatı ilə öyrədilməsinə imkan vermirdi. Səhabələrin öyrəndiklərinin qorunub saxlanmasına da heç bir zəmanət verilmirdi, hətta uzun illər camaatın gözü önündə o Həzrətin (s) necə dəstəmaz almasına baxmayaraq yenə də dəstəmaz barəsində ixtilaf yaranmışdır. Belə aşkar əməllərin hökmlərində ixtilaf yarandığı halda (halbuki bu əməl bütün müsəlmanların gündəlik ehtiyac duyduğu və gələcəkdə də ehtiyac duyacağı məsələdir və onda qəsdən təhrif və dəyişiklik etməyə o qədər də qərəz yoxdur) dəqiq və mürəkkəb hökmlərin barəsində,

---

[1] "Bəqərə" surəsi, ayə:151, "Ali-İmran" surəsi, ayə:164, "Cümə" surəsi, ayə:2, "Nəhl" surəsi, ayə:64-66, "Əhzab" surəsi, ayə:21, "Həşr" surəsi, ayə:7.

xüsusilə, ayrı-ayrı şəxslərin həvayi-nəfsləri və müxtəlif qrupların mənafeləri ilə qarşı-qarşıya dayanan hökm və qanunlarda qəsdən təhrifedilmə və nəqledilmə zamanı xətaya yol verilməsi ehtimalı bir neçə qat artıq olacaqdır.[1]

Bu kimi məsələlərə diqqət yetirməklə aydın olur ki, İslam dini məhz o zaman kamil və insanların dünyanın axırına qədər olan ehtiyaclarına cavab verəcək bir din kimi irəli çəkilə bilər ki, bu dində cəmiyyətin zəruri mənafeyini təmin etmək üçün bir yol nəzərdə tutulmuş olsun. Elə mənafelər ki, Peyğəmbəri-Əkrəmin (s) dünyadan getməsi ilə təhdidlərə, məhv olmaq təhlükəsinə məruz qalırdı. Bu yol da Peyğəmbəri-Əkrəmin (s) özü üçün layiqli bir canişin təyin etməsindən başqa yolla mümkün deyildi. Həmçinin belə bir canişin Allah tərəfindən əta olunan elmə malik olmalıdır ki, dinin həqiqətlərini onun bütün yönləri və incəlikləri ilə yanaşı açıqlaya bilsin. Bundan əlavə, o, ismət səciyyəsinə də malik olmalıdır ki, nəfsani və şeytani məqsədlərin təsiri altına düşməsin, dində qəsdən təhrifə yol verməsin. Eləcə də o, Peyğəmbəri-Əkrəmin (s) insanları tərbiyələndirmə kimi ilahi vəzifəni də öhdəsinə almalı, istedadlı şəxsləri kamalın ən yüksək mərhələlərinə çatdırmalı, ictimai şərait münasib olduğu təqdirdə cəmiyyətin işlərinin idarə olunmasını və hakimiyyəti öhdəsinə götürə bilməli, islamın ictimai qanunlarını cəmiyyətdə icra edə bilməli və haqq-ədaləti dünya səviyyəsində yaymalıdır.

Deməli, nübüvvətin sona çatması yalnız o zaman ilahi hikmətlə uyğun olacaqdır ki, bu iş məsum imamın təyin edilməsi ilə yanaşı olsun və o imam da Peyğəmbərin (s) nübüvvət və risalətdən başqa bütün xüsusiyyətlərinə malik olsun.

Beləliklə, həm imamın varlığının, həm də onun üçün Allah tərəfindən verilən elm və ismət məqamının zəruriliyi sübuta yetir. Eləcə də o, Mütəal Allah tərəfindən təyin olunmalıdır. Çünki belə bir elmi və səciyyəni kimə əta etdiyini yalnız Allahın Özü bilir. Bəndələri üzərində əsalətən vilayət haqqına yalnız O malikdir. Belə bir haqqı aşağı mərtəbələrdə şəraitə malik olan şəxslərə verə bilər.

Qeyd olunmalıdır ki, sünnilər bu xüsusiyyətlərin heç birini xəlifələrdə zəruri və kafi şərt bilmirlər; nə onların Allah tərəfindən, nə də Peyğəmbər (s) tərəfindən təyin olunmasına inanırlar. Bundan əlavə, xəlifələr üçün Allah tərəfindən verilən elm və ismət səciyyəsinin olduğuna da etiqad bəsləmirlər. Hətta onların düz yoldan çıxmaları, yol verdikləri səhvlər və camaatın dini suallarına cavab verməkdə aciz qalmaları özlərinin mötəbər kitablarında qeyd olunmuşdur. Belə ki, birinci xəlifənin belə dediyi nəql olunmuşdur: ***"İnnə li şeytanən yətərini*** – mənim bir şeytanım vardır ki, məni yoldan azdırır». İkinci xəlifə də birinci xəlifəyə beyət edilməsini "fəltə" (ölçüb-

[1] Böyük islam alimi mərhum Əllamə Əmini özünün nəfis "Əl-Qədir» kitabında belə yalan hədis uyduranlardan yeddi yüzünün adını qeyd etmişdir ki, onlardan bəzilərindən yüz min hədis istinad edilmişdir. ("Əl-Qədir", 5-ci cild, səh-208-dən sonra).

bililmədən görülən tələm-tələsik iş) adlandırmışdır.[1] Həmçinin ikinci xəlifə bu cümləni dəfələrlə təkrar etmişdi: ***"Ləv la Əliyyun ləhələkə Ömər – əgər Əli olmasaydı Ömər hələk olardı».***[2] Üçüncü xəlifənin,[3] eləcə də Bəni-abbas və Bəni-üməyyə xəlifələrinin yol verdikləri ciddi nöqsanlar və rüsvayçı əməllər tarixin danılmaz məsələlərindəndir. Müsəlmanların tarixi barədə azacıq məlumatı olan hər kəs bu mətləblər barədə kifayət qədər məlumat əldə edə bilər.

Yalnız şiələr yuxarıda qeyd olunan üç şərtin on iki imamda olduğuna inanırlar. Qeyd olunanlardan onların imamət məsələsindəki etiqadlarının düzlüyü sübuta yetir və əlavə dəlilə ehtiyac duyulmur. Eyni zamanda gələn dərsdə Quran və Peyğəmbər (s) sünnəsindən istifadə olunan bəzi dəlillər qeyd olunacaqdır.

SUALLAR

1.Şiələrin imamət barəsindəki nəzərləri və onların sünnilərin nəzərləri ilə olan ixtilaflarını bəyan edin.

2.Şiələr niyə imaməti etiqad prinsiplərindən biri hesab edirlər?

3.İmamın varlığının zərurətini bəyan edin.

4.Bu bəyandan hansı nəticələr əldə olunur?

---

[1] "Şərhi Nəhcül-bəlağə", 1-ci cild, səh 142, 158, 3-cü cild, səh-57.

[2] "Əl-Qədir", 6-cı cild, səh-93-dən sonra.

[3] "Əl-Qədir", 8-ci cild, səh 97-dən sonra.

OTUZ SƏKKİZİNCİ DƏRS

İmamın təyin olunması

İMAMIN TƏYİN OLUNMASI

Əvvəlki dərsdə izah etdik ki, nübüvvətin məsum imam təyin olunmadan sona çatdırılması Allahın hikməti ilə ziddir və İslam dininin əbədi və dünya səviyyəsində olan kamil bir din olması bununla şərtlənir ki, Peyğəmbəri-Əkrəmdən (s) sonra onun üçün layiqli canişinlər təyin olunsun və bu canişinlər nübüvvət və risalət məqamından başqa Peyğəmbərin malik olduğu bütün ilahi məqamlara malik olsun.

Bu mətləbləri sünni və şiə alimlərinin öz kitablarında qeyd etdikləri çoxlu rəvayətlərdən, eləcə də müxtəlif Quran ayələrindən əldə etmək olar.

Məsələn, "Maidə" surəsinin 3-cü ayəsində Allah-taala buyurur:

"Bu gün sizin dininizi kamil etdim, nemətimi sizə tamamladım və sizin üçün bir din olaraq İslama razı oldum.»

Bütün müfəssirlərin fikir birliyinə əsasən "Vida həcci"ndə və Peyğəmbərin (s) vəfatından bir neçə ay öncə nazil olan bu ayədə kafirlərin İslam dininə ciddi xəsarət vura biləcəklərindən ümidsiz olduqlarına işarə edərək, **«əl-yovmə yəisəlləzinə kəfəru min dinikum»** - bu gün kafirlər sizin dininizdən ümidsiz oldular buyurulduqdan sonra, «bu gün sizin dininizi kamil, nemətimi sizə tamam etdim» - deyə qeyd olunur. Bu ayənin nazilolma səbəbi (şəni-nüzulu) ilə əlaqədar nəql olunan rəvayətlərə diqqət yetirməklə tamamilə aydın olur ki, kafirlərin İslam dininə xəsarət vuracaqlarından ümidsizliyini bəyan etməklə yanaşı bu dinin kamil olmasını və tamamlanmasını göstərən ayə Mütəal Allah tərəfindən Peyğəmbər (s) üçün bir canişinin təyin olunması əmri idi. Çünki İslam düşmənləri Peyğəmbərin (s) vəfatından sonra, xüsusilə onun oğlan övladı olmamasına istinad edərək İslamın rəhbərsiz qalacağını, nəticədə zəifləyib tənəzzülə uğramasının intizarını çəkirdilər. Lakin onun üçün canişin təyin olunması ilə İslam dini kamal həddinə çatdı, ilahi nemətlər tamamlandı və kafirlərin ümidi puça çıxdı.[1]

Hadisə belə olmuşdu: Peyğəmbəri-Əkrəm (s) "Vida həcci"ndən qayıdarkən bütün hacıları Qədir-Xum adlı bir yerdə topladı, uzun bir xütbə söylədikdən sonra camaatdan soruşdu: «*Allah tərəfindən mənim sizə vilayət haqqım yoxdurmu və sizə, sizin özünüzdən də artıq ixtiyar sahibi deyiləmmi?»*[2] Hamı bir səslə müsbət cavab verdi, sonra həzrət Əlinin (ə) əlindən tutub hamının görəcəyi bir yerdə yuxarı qaldırdı və buyurdu: «*Mən hər kəsin mövlası və ixtiyar sahibiyəmsə, Əli də onun mövlası və ixtiyar sahibidir».* Beləliklə də o Həzrət (ə) üçün ilahi vilayət məqamını elan etdi. Sonra bu böyük və izdihamlı yığıncaqda iştirak edənlərin hamısı həzrət Əliyə (ə) beyət etdilər. İkinci xəlifə Əli (ə) ilə beyət edərək onu təbrik etdi

[1] Bu ayənin nəyə dəlalət etməsi ilə əlaqədar "Əl-Mizan" təfsirinə müraciət edin.

[2] "Əhzab "surəsinin 6-cı ayəsinə işarədir.

və «*Mübarək olsun, mübarək olsun sənə, ya Əli, mənim və bütün mömin kişi və qadınların mövlası oldun*»[1]-deyə söylədi.

Məhz belə bir gündə ***"əl yovmə əkməltu ləkum dinəkum..."*** ayəsi nazil oldu və Peyğəmbəri-Əkrəm (s) Əlini (ə) təbrik edərək buyurdu: «***Əlinin vilayəti ilə Mənim nübüvvətim və Allahın dini tamam-kamal oldu.»***

Sünnilərin bəzi görkəmli şəxsiyyətlərindən də rəvayət olunan bir hədisdə qeyd olunur: Əbu Bəkr və Ömər yerlərindən qalxıb Peyğəmbərdən (s) soruşdular: «Bu vilayət yalnız Əliyə məxsusdurmu?» Həzrət (s) buyurdu: «Bu, Əliyə və mənim qiyamətə qədər olan vəsilərimə məxsusdur.» Soruşdular: «Sənin vəsilərin kimlərdir?» O həzrət buyurdu: "Əli mənim qardaşım, vəzirim, varisim, vəsim, ümmət içərisində xəlifəm, məndən sonra bütün möminlərin vəlisidir. Ondan sonra oğlum Həsən, sonra oğlum Hüseyn, sonra oğlum Hüseynin övladlarından olan doqquz nəfər biri digərindən sonra (bu ümmətin imamları olacaqlar). Quran onlarla, onlar da Quranladır. "Kovsər" hovuzunda mənim yanıma varid olan vaxta qədər onlar Qurandan, Quran da onlardan ayrılmaz.»[2]

Çoxlu rəvayətlərdən aydın olduğu kimi, Peyğəmbəri-Əkrəmə (s) bundan əvvəllər də Əlinin (ə) imamətini elan etmək rəsmi şəkildə əmr edilmişdi. Lakin Peyğəmbər (s) camaatın bu işi onun şəxsi nəzəri ilə əlaqələndirəcəklərindən və onu qəbul etməkdən boyun qaçıracaqlarından qorxurdu. Ona görə də bu iş üçün münasib şərait yaranacaq bir imkan gözləyirdi. Nəhayət aşağıdakı ayə nazil oldu:

"Ey Bizim Rəsulumuz! Rəbbinin tərəfindən sənə nazil edilənləri təbliğ et! Əgər bu işi görməsən, Onun risalətini yerinə yetirməmiş olarsan. Allah səni camaatın şərrindən qoruyacaqdır.»[3]

Bu ilahi vəzifənin təbliğ olunmasının zərurətini təkid etməklə yanaşı, (bu iş Peyğəmbərin (s) işlərinin hamısına bərabər idi və onun çatdırılmaması bütünlüklə ilahi risalətin çatdırılmamasına bərabər idi) həm də o Həzrətə (s) müjdə verdi ki, Mütəal Allah onu bu işin nəticələrindən amanda saxlayacaqdır. Bu ayənin nazil olması ilə Peyğəmbəri-Əkrəm (s) artıq münasib bir imkan yarandığını başa düşdü və bildi ki, bundan da artıq təxirə salmaq rəva deyildir. Ona görə də bu vəzifəni Qədir-Xum çölündə yerinə yetirdi.[4]

Əlbəttə, bu gündə əsas məqsəd həmin məsələnin camaata rəsmi şəkildə elan edilməsi və onlardan beyət alınması idi. Çünki Peyğəmbəri-Əkrəm (s)

---

[1] Bu hədisin sənəd və dəlalətinin qəti olmasını isbat etmək üçün "Əbəqatul-ənvar" və "Əl-Qədir" kitablarına müraciət edə bilərsiniz.

[2] "Ğayətul məram," 58-ci bab, 4-cü hədis, Həməvinin "Fəraid" kitabından nəqlən.

[3] "Maidə" surəsi, ayə:67. Bu ayənin nəyə dəlalət etməsi ilə əlaqədar ətraflı məlumat almaq üçün "əl-Mizan" təfsirinə müraciət edin.

[4] Bu məsələni sünnilərin böyük alimi Peyğəmbərin (s) adları qeyd olunan yeddi nəfər səhabəsindən nəql etmişdir: Zeyd ibni Ərqəm, Əbu Səid Xidri, İbni Abbas, Cabir ibni Əbdullah Ənsari, Bərra ibni Azib, Əbu Hüreyrə və İbni Məsud, Əl-Qədir, 1-ci cild.

öz risaləti dövründə dəfələrlə və müxtəlif şəkillərdə Əlinin (ə) canişinlik məsələsini camaata çatdırmışdı. Misal üçün, elə besətin ilk illərində **"öz qohum-əqrəbanı ilahi əzabdan qorxut»**[1] ayəsi nazil olduqda bütün qohum-əqrəbasını qonaqlığa dəvət edib onların hüzurunda buyurdu: "**Mənim dəvətimi qəbul edən ilk şəxs mənim canişinim olacaqdır."** Sünni və şiələrin fikir birliyinə əsasən, bu dəvətə müsbət cavab verən ilk şəxs Əliyyibni Əbi Talib (ə) idi.[2]

Eləcə də "Nisa" surəsinin 59-cu ayəsi ("**Ey iman gətirənlər, Allaha, Onun Peyğəmbərinə və sizlərdən olan əmr sahiblərinə itaət edin!»)** nazil olanda, başqa sözlə, "ulul-əmr" ünvanı ilə itaət olunmalarını mütləq şəkildə vacib sayan, onlara itaət edilməsini Peyğəmbərə (s) itaət edilməklə bərabər olduğunu göstərən bu ayə nazil olduqda Cabir ibni Əbdullah Ənsari soruşdu: "Ya Rəsuləllah! Onlara itaət edilməsi sizə itaət olunması ilə yanaşı (bir səviyyədə) olan ulul-əmr kimlərdir?"

Peyğəmbər (s) buyurdu: ***"Ey Cabir, onlar mənim xəlifələrim və məndən sonra müsəlmanların imamlarıdır. Birincisi Əliyyibni Əbi Talib, ondan sonra Həsən, ondan sonra Hüseyn, ondan sonra Əliyyibni Hüseyn, ondan sonra Məhəmməd ibni Əli. O, Tövratda "Baqir" ləqəbi ilə tanınır, Ey Cabir, sən onu görəcəksən. Onu gördükdə mənim salamımı ona yetirərsən! Ondan sonra Cəfər Sadiq ibni Məhəmməd, ondan sonra Musa ibni Cəfər, ondan sonra Əliyyibni Musa, ondan sonra Məhəmməd ibni Əli, ondan sonra Əliyyibni Məhəmməd, ondan sonra Həsən ibni Əli, ondan sonra isə adı mənim adımla, künyəsi də mənim künyəmlə eyni olan, Allahın yer üzündəki höccəti, bəndələri içərisində saxladığı şəxs – Həsən ibni Əlinin övladıdır.»***[3]

Peyğəmbəri-Əkrəmin (s) əvvəlcədən verdiyi xəbərə görə Cabir imam Baqirin (ə) dövrünə qədər yaşadı və Peyğəmbərin salamını ona çatdırdı.

Digər bir hədisdə Əbu Bəsir deyir: Mən "ulul-əmr" ayəsi barəsində imam Sadiqdən (ə) soruşduqda, o buyurdu: "Bu ,Əliyyibni Əbi Talib, Həsən və Hüseynin barəsində nazil olmuşdur."

Ərz etdim: «Camaat deyir ki, nə üçün Qurani-kərim Əlini və onun Əhli-beytini tək-tək adları ilə təqdim etməmişdir?» Buyurdu: Onlara de ki, namaz ayəsi nazil olduqda üç, yaxud dörd rəkət qılınması qeyd olunmamışdı. Onu Peyğəmbəri-Əkrəm (s) camaat üçün təfsir etmişdi. Zəkat, həcc və s. ayələri də eyni qayda ilə. Bu ayə də Peyğəmbəri-Əkrəm tərəfindən təfsir olunmalı idi və o Həzrət də (s) buyurmuşdu: **"Mən hər kəsin mövlası və ixtiyar sahibiyəmsə, Əli də onun mövlası və ixtiyar sahibidir".** Eləcə də buyurmuşdu: **"Allahın kitabını və Əhli-beytimi sizə tövsiyə edirəm.**

---

[1] "Şüəra" surəsi, ayə:214.

[2] "Əbəqatul-ənvar", "Əl-Qədir", "Əl-Müraciat" (20-ci müraciət).

[3] "Ğayətul-məram" (qədim çap), səh-267, 10-cu cild; "İsbatul-hudat", 3-cü cild, səh-123; "Yənabiul-məvəddət", səh-494.

Həqiqətən mən Allahdan istəmişəm ki, onları "Kövsər" hovuzunda mənim yanıma gətirdiyi vaxta qədər onların arasında ayrılıq salmasın və Allah da mənim bu duamı qəbul etdi.»

Yenə də buyurdu: **"Siz onlara bir şey öyrətməyin! Həqiqətən onlar sizdən daha biliklidirlər. Onlar heç vaxt sizi hidayət qapısından çıxarmaz və zəlalət qapısına aparmazlar.»**[1]

Eləcə də dəfələrlə, həmçinin mübarək ömrünün axır vaxtlarında buyurmuşdu: **"Həqiqətən mən sizin aranızda iki ağır əmanət qoyub gedirəm: Allahın kitabı və mənim Əhli-beytim. Onlar "Kövsər" hovuzunun yanında mənə gəlib çatana qədər bir-birindən ayrılmazlar.»**[2]

Həmçinin buyurmuşdu: **"Agah olun və bilin! Həqiqətən mənim Əhli-beytimin sizin aranızdakı məsəli Nuhun gəmisinin məsəli kimidir: hər kəs ona minsə nicat tapar, hər kəs ondan ayrılsa qərq olar.»**[3]

Peyğəmbər (s) dəfələrlə Əliyə (ə) xitab edərək buyurmuşdu: **"Sən məndən sonra bütün möminlərin vəlisi, rəhbərisən."**[4]

Bu barədə əlavə olaraq çoxlu hədislər də nəql olunmuşdur ki, onların hamısının qeyd olunmasına imkan yoxdur.[5]

SUALLAR

1.Quranın hansı ayəsi imamın təyin olunması ilə əlaqədardır? Onun nəyə dəlalət etdiyini bəyan edin.

2.Əlinin (ə) imamət məqamına seçilməsi hadisəsini bəyan edin.

3. Peyğəmbəri-Əkrəm (s) həzrət Əlinin (ə) imamətini elan etməyi niyə təxirə salırdı? Necə oldu ki, bu işi yerinə yetirdi?

4.Hansı rəvayət digər imamların imamətinə dəlalət edir?

5.Əhli-beytin (ə) imamətinə dəlalət edən başqa rəvayətləri bəyan edin.

---

[1] "Ğayətul məram" (qədim çap), 3-cü cild, səh-265.

[2] Bu hədis də mütəvatir rəvayətlərdəndir ki, böyük sünni alimləri, o cümlədən Termezi, Nəsai, Müstədrəkin müəllifi müxtəlif yollarla Peyğəmbərdən nəql etmişlər.

[3] Müstədrəki Hakim, 3-cü cild, səh-151.

[4] Həmən mənbə, səh-134 və səh-111, Səvayiqi ibni Həcər, səh-13, Müsnəd ibni Hənbəl, 1-ci cild, səh-331, 4-cü cild, səh-438 və s.

[5] Mərhum Səduqun "Kəmaluddin və tamamu nemət" və Məclisinin "Biharul-ənvar" kitablarına baxa bilərsiniz.

OTUZ DOQQUZUNCU DƏRS

İMAMIN İSMƏTİ VƏ ELMİ

–Müqəddimə
–İmamın ismәti
–İmamın elmi

MÜQƏDDİMƏ

36-cı dərsdə qeyd olundu ki, şiələrlə sünnilərin imamət məsələsi ilə əlaqədar ixtilafları əsas etibarı ilə üç məsələ üzərindədir. **Birincisi,** imamın Allah tərəfindən təyin olunması, **ikincisi**, imamın ismət səciyyəsinə malik olması və **üçüncüsü**, Allah tərəfindən verilən elmə malik olması. 37-ci dərsdə bu üç məsələnin hər birini əqli bəyanla isbat etdik, 38-ci dərsdə imamların Mütəal Allah tərəfindən təyin olunması ilə əlaqədar nəqli dəlillərdən bir neçəsini qeyd etdik. Bu dərsdə isə imamların ismət və Allah tərəfindən verilən elmə malik olmalarını araşdırırıq.

İMAMIN İSMƏTİ

İmamətin Allah tərəfindən təyin olunan bir məqam olması, eləcə də Allah-taalanın onu Əliyyibni Əbi Talib (ə) və onun pak övladlarına əta etməsi isbat olunduqdan sonra onların ismətini aşağıdakı şərif ayəyə istinadən isbat etmək olar:

"Mənim əhdim (imamət məqamı) zalımlara çatmaz.»[1]

Bu şərif ayədə belə bir ilahi məqamın günaha batan şəxslərə əta olunması inkar edilmişdir. Eləcə də, onlara mütləq şəkildə itaət edilməsini vacib bilən, onlara itaət etməyi Rəsuli-Əkrəmə (s) itaət etməklə yanaşı bəyan edən "ulul-əmr" ayəsindən də ("Nisa" surəsi, 59) məlum olur ki, onlara itaət edilməsi Mütəal Allaha itaət edilməsi ilə heç vaxt zidd olmayacaqdır. Deməli, onlara mütləq şəkildə itaət olunmasına olunan əmr ismətə zəmanət verilməsi mənasınadır.

Eləcə də Əhli-beytin (ə) ismətini "Təthir" ayəsindən də isbat etmək olar:

"Allahın iradəsi bu olmuşdur ki, yalnız siz Əhli-beytdən hər növ çirkinlikləri aradan aparıb sizi pak-pakizə qərar versin.»[2]

Belə ki, Allahın bəndələri paklamaq ilə əlaqədar təşrii iradəsi heç kəsə məxsus deyildir. Deməli, Əhli-beytə (ə) məxsus olan bu iradə Allahın təkvini iradəsidir və ondan heç cür qaçmaq mümkün deyildir. Belə ki, "Yasin" surəsinin 82-ci ayəsində buyurulur:

"Onun əmri budur ki, bir şeyi yaratmağı iradə etdiyi zaman ona "ol!" deyər, o da dərhal vücuda gələr.»

Mütləq şəkildə paklamaq və hər növ aludəlikləri onlardan aparmaq elə ismət mənasındadır. Bildiyimiz kimi, heç bir müsəlman firqəsi Peyğəmbərə (s) mənsub olan şəxslərdən heç birinin ismət məqamında olması iddiasını etməmişdi, yalnız şiələr həzrət Zəhra (ə) və on iki imamın (ə) ismətinə, yəni hər növ günahdan pak-pakizə olmalarına inanırlar.[3]

---

[1] "Bəqərə" surəsi, ayə:124.

[2] "Əhzab" surəsi, ayə:33.

[3] Bu ayə ilə əlaqədar əlavə izahat və məlumat almaq üçün "Əl-Mizan" təfsirinə və "Əl-İmamətu vəl-vilayətu fil-Quranil-Kərim" kitablarına müraciət edə bilərsiniz.

Qeyd olunmalıdır ki, əksəriyyəti sünni alimləri tərəfindən nəql olunan 70-dən artıq rəvayət bu şərif ayənin "Ali-əba" barəsində nazil olmasına dəlalət edir.[1] Şeyx Səduq həzrət Əlidən (ə) nəql etmişdir ki, Rəsuli-Əkrəm (s) belə buyurmuşdur: **«Ya Əli! Bu ayə sən, Həsən, Hüseyn və sənin nəslindən olan imamlar barəsində nazil olmuşdur.»**

Əli (ə) deyir: "Soruşdum ki, sizdən sonrakı imamlar neçə nəfərdir?"

Buyurdu: **"Sənsən, ya Əli, səndən sonra Həsən, ondan sonra Hüseyn, ondan sonra oğlu Əli, ondan sonra oğlu Məhəmməd, sonra onun oğlu Cəfər, sonra onun oğlu Musa, daha sonra onun oğlu Əli, ondan sonra onun oğlu Məhəmməd, ondan sonra da oğlu Əli, ondan sonra onun övladı Həsən, ondan sonra onun övladı olan Hüccətullah."**

Sonra əlavə edərək buyurdu: "Onların adları ilahi ərşdə beləcə yazılmışdır. Mən Allahdan onların kimlər olduğunu soruşduqda buyurdu: "Ya Məhəmməd! Onlar səndən sonrakı imamlardır, onlar paklaşdırılmışdır, məsumdur, onların düşmənləri də Mənim lənətimə düçar olacaqlar."[2]

Həmçinin "Səqəleyn" hədisində Peyğəmbəri-Əkrəm (s) öz Əhli-beytini (ə) Quranla eyni səviyyədə qərar verərək bildirmişdir ki, bunlar bir-birindən heç vaxt ayrılmayacaqdır. Bu hədis də onların ismətinə aydın bir dəlildir. Çünki, hətta, səhvən olsa belə ən kiçik günaha mürtəkib olmaq Qurandan ayrılmaq mənasınadır.

İMAMIN ELMİ

Şübhəsiz, Peyğəmbərin (s) Əhli-beyti (ə) başqalarına nisbətən o Həzrətin (s) elmindən daha artıq bəhrələnmişlər. Peyğəmbər (s) də onların barəsində buyurmuşdur: **«Onlara bir şey öyrətməyin, həqiqətən, onlar sizdən daha elmlidirlər.»**[3]

Xüsusilə, uşaqlıq dövrlərini Peyğəmbərin (s) qucağında keçirən, o Həzrətin (s) ömrünün axırına qədər bir an belə ondan ayrılmayan və daim onun elm və mərifətindən bəhrələnən Əli (ə) barəsində Peyğəmbər (s) buyurur: **«Mən elmin şəhəriyəm, Əli onun qapısıdır.»**[4]

Həzrət Əlinin (ə) özü də belə buyurmuşdur: «Rəsuli-Əkrəm (s) mənə min elm babı öyrətdi ki, hər babdan da digər min bab açılır. Onun məcmusu bir milyon bab olur. İndiyə qədər baş vermiş olan və qiyamət gününə qədər baş verəcək hadisələrdən agah oldum, «mənaya» və «bəlaya» (ölümlər və müsibətlər), «fəslul-xitab (haqq əsasında mühakimə etmək) elmlərini ondan öyrədim.»[5]

---

[1] "Ğayətul məram", səh.287, 293.

[2] "Ğayətul məram" (qədim çap), 6-cı cild, səh.293.

[3] "Ğayətul məram", səh.265, "Üsuli-kafi", 1-ci cild, səh.294.

[4] "Müstədrəki Hakim", 3-ci cild, səh.226. Maraqlıdır ki, sünnü alimlərindən biri "Fəthul-milkil-əliyyi bisihhəti hədisi mədinəti elmi-Əli" adlı bir kitab yazmışdır və bu kitab 1354-cü hicri ilində Qahirədə çap olunmuşdur.

[5] "Yənabiul-məvəddət", səh.88, "Üsuli-kafi", 1-ci cild, səh.296.

Lakin Əhli-beytin (ə) elm xəzinələri Peyğəmbəri-Əkrəmdən (s) birbaşa, yaxud müəyyən vasitələrlə əxz etdikləri ilə sona çatmır; onlar qeyri-adi elmlərdən də bəhrələnmişlər ki, bu da ilham və təhdis vasitəsilə onlara verilir.[1] Bu da həzrət Xızr (ə) və Zülqərneynə (ə) ilham olunan elmlər,[2] eləcə də həzrət Məryəmə (ə) və Musanın (ə) anasına vəhy olunan şeylər kimidir.[3] Bəzi hallarda Qurani-kərimdə "vəhy" təbiri gətirilmişdir ki, ondan məqsəd nübüvvət vəhyi deyildir. Məhz belə bir elm səbəbi ilə uşaqlıq çağlarında imamət məqamına çatan bəzi imamlarımız hər şeydən agah olmuş və kimdənsə bir şey öyrənməyə əsla ehtiyac duymamışlar.

Bu mətləb məsum imamlarımızdan nəql olunan çoxlu rəvayətlərdə qeyd edilmişdir. Onların ismət məqamına nəzər yetirməklə höccət olmaları aydınlaşır. Lakin onların nümunələrini göstərməzdən əvvəl Qurani-kərimin **«mən indəhu ilmul-kitab»**[4] ünvanı ilə buyurduğu, yaxud bir neçə şəxsi nümunə olaraq qeyd edirik ki, bu da Peyğəmbərin (s) haqq olmasına bir dəlil kimi gətirilir. O ayə aşağıdakıdır:

"De: Mənimlə sizin aranızda şəhadət vermək üçün Allah və ilmul-kitaba malik olan şəxs kifayətdir.»[5]

Şübhəsiz, verdiyi şəhadət Mütəal Allahın şəhadəti ilə yanaşı olan (məhz ilmul-kitaba malik olması onu belə şəhadətə layiqli edir) bir şəxs çox yüksək məqama malik olmuşdur.

Digər bir ayədə də bu şahidə işarə edərək onu Rəsuli-Əkrəmin (s) ardınca gələn şəxs kimi qeyd etmişdir: **"Əfəmən kanə əla bəyyinətin min Rəbbihi və yətluhu şahidun minhu..."** [6] Bu ayədəki «minhu» kəlməsi göstərir ki, bu şahid Peyğəmbəri-Əkrəmin (s) sülaləsindən və onun Əhli-beytindəndir. Sünni və şiələr tərəfindən nəql olunan çoxlu hədislərdə "şahid" dedikdə məqsədin Əliyyibni Əbi Talib olduğu nəql olunmuşdur.

İbni Məğazili Şafei, Əbdullah ibni Ətadan belə rəvayət etmişdir: «Bir gün imam Baqirin (ə) hüzurunda idim, Əbdullah ibni Salamın (Peyğəmbəri-Əkrəmin (s) dövründə iman gətirən kitab əhli alimlərindən biri idi) oğlu oradan keçirdi. O Həzrətdən (ə) soruşdum: "İndəhu ilmul-kitab" dedikdə məqsəd bu şəxsin atasıdırmı?" Buyurdu: "Xeyr! Məqsəd Əliyyibni Əbi Talibdir ki, **"və yətluhu şahidun minh»** ayəsi, eləcə də **"innəma vəliyyukumullah»** ayəsi onun şənində nazil olmuşdur."

Sünni və şiələr tərəfindən nəql olunan bir neçə rəvayətdə də "Hud" surəsindəki "şahid" sözündən məqsədin Əliyyibni Əbi Talib (ə) olduğu

---

[1] "Üsuli-kafi", Kitabul höccət, səh.264 və 270.

[2] "Üsuli-kafi", 1-ci cild, səh.267.

[3] "Kəhf" surəsi, ayə:65, 98, "Ali-İmran" surəsi, ayə:42, "Məryəm" surəsi, ayə:17-21, "Taha" surəsi, ayə:38, "Qəsəs" surəsi, ayə:7.

[4] "Rəd" surəsi, ayə:43.

[5] "Rəd" surəsi, ayə:43.

[6] "Hud" surəsi, ayə:17.

aşkar şəkildə bəyan edilmişdir.[1] Bu ayədəki "minhu» kəlməsinin xüsusiyyətlərinə diqqət yetirməklə onun nümunəsinin həzrət Əlidən (ə) başqa heç kəsin olmadığı aydın olur.

İlmul-kitaba malik olmağın mahiyyəti o zaman aydın olar ki, Qurani-kərimdə həzrət Süleymanın (ə) əhvalatları nəql olunarkən Bilqeysin taxtının bir göz qırpımında gətirilməsinə diqqət yetirək. Bu barədə buyurulur: «İlmul-kitabdan bəhrəsi olan bir şəxs dedi: Mən onun (Bilqeysin) taxtını bir göz qırpımında gətirərəm.»[2]

Bu ayədən məlum olur ki, ilmul-kitabın bəzi qismlərindən agah olmağın belə qəribə təsirləri vardır. Buradan da ilmul-kitabın hamısına malik olmağın nə kimi böyük təsirləri olduğu aydın olur. Bu məsələ Sədrin imam Sadiqdən (ə) nəql etdiyi bir hədisdən aydın olur. Sədir deyir: "Mən, Əbu Bəsir, Yəhya Bəzzaz və Davud ibni Kəsir imam Sadiqin (ə) məclisində idik, o Həzrət (s) qəzəbli halda məclisə girdi, oturduqdan sonra buyurdu: "Camaata təəccüb edirəm ki, bizim qeyb elminə malik olduğumuzu güman edirlər! Halbuki, Allahdan başqa heç kəsin qeyb elmi yoxdur. Mən kənizimi tənbeh etmək istəyirdim, o isə qaçdı. Hansı otağa girdiyini də bilmədim."[3]

Sədir deyir: Həzrət (ə) öz evinə (içəri otağa) getmək istəyəndə mən, Əbu Bəsir və Meysər onunla birlikdə gedib soruşduq: «Sənə fəda olum! Kənizin barəsində dediyin sözləri eşitdik. Biz inanırıq ki, sizin çoxlu elminiz vardır, lakin sizin barənizdə qeyb elmi iddiası etmirik.»

Həzrət (ə) buyurdu:

-Ey Sədir! Məgər Quran oxumamısanmı?

Ərz etdim:

-Əlbəttə!

Buyurdu:

-Aşağıdakı ayəni oxumamısanmı: "Qalələzi indəhu elmun minəl-kitab...»? (Yəni ilmul-kitabdan bir qədər nəsibi olan şəxs dedi...)

Dedim:

-Sənə fəda olum, oxumuşam.

Buyurdu:

-Bu şəxsin ilmul-kitabdan nə qədər məlumatı olduğunu bilirsənmi?

Ərz etdim:

-Siz buyurun.

---

[1] "Ğayətul məram" (qədim çap) səh 359-361.

[2] "Nəml" surəsi, ayə:40.

[3] Hədisin ardından məlum olur ki, əvvəlki sözləri naməhrəmlərin (dövlət məmurlarının) o yığıncaqda iştirak etdiyinə görə demişdir. Bilmək lazımdır ki, Mütəal Allaha məxsus olan qeybi elm dedikdə məqsəd təlimə ehtiyac duyulmayan elmdir. Belə ki, Əli (ə) "Sizin qeyb elminiz varmı?" - deyə soruşan bir şəxsin cavabında buyurdu: "Bu, elm sahibindən öyrənilir. Çünki bütün peyğəmbərlər və Allah övliyalarının çoxu onlara ilham olunan qeyb elmlərindən agah idi və heç bir şəkkin yol olmadığı hallardan biri də həzrət Musanın anasına ilham olunan qeyb xəbərləridir." (Qəsəs-7).

Buyurdu:

-Böyük bir dəryadan olan bir damla qədərində!

Sonra buyurdu:

-Bu ayəni oxumusanmı: "Qul kəfa billahi şəhidən...»?

Dedim:

-Bəli.

Buyurdu:

-Kitabın bütün elmlərinə malik olan şəxs daha bilikli olar, yoxsa ondan bir damla qədərində bəhrələnən şəxs?

Dedim:

-Əlbəttə ki, bütün kitab elminə malik olan!

Sonra mübarək sinəsinə işarə edib buyurdu:

-Allaha and olsun! Kitabın bütün elmi bizim yanımızdadır. Allaha and olsun! Bütün kitabın elmi bizim yanımızdadır.[1]

İndi isə Əhli-beyt (ə) haqqında nəql olunan bəzi hədisləri qeyd edirik:

İmam Rza (ə) imamət barəsində müfəssəl bir hədisi qeyd edərəkən buyurmuşdur:

"Mütəal Allah hər kəsi (imam ünvanı ilə) insanlara seçirsə, ona qəlb genişliyi əta edir. Onun qəlbində hikmət çeşmələri qərar verir və ona elm ilham edir ki, heç bir sualın cavabını verməkdə aciz və haqqı ayırd etməkdə naəlac qalmasın. Deməli, O, məsum, Allah tərəfindən tovfiq verilən və təyid olunan, xətalardan və günahlardan amanda olmalıdır. Mütəal Allah bu xüsusiyyətləri ona verir ki, bəndələrinə höccət və varlıqlara şahid olsun. Bu, Allahın Öz istədiyi bəndələrinə əta etdiyi bəxşişdir."

Sonra buyurdu: "Görəsən, camaat belə bir insanı tanıyıb seçə bilərmi? İnsanların seçdikləri adam belə xüsusiyyətlərə malik ola bilərmi?»[2]

Həsən ibni Yəhya Mədainidən nəql olunur: «İmam Sadiqdən (ə) soruşdum: «İmamdan bir şey soruşulanda ona necə (və hansı elm ilə) cavab verir?»

Buyurdu: "Bəzən ona ilham olunur, bəzən mələkdən eşidir, bəzən isə hər iki yolla."[3]

Digər bir rəvayətdə İmam Sadiq (ə) buyurur: *"Başına hansı müsibətin gələcəyini, işinin nə ilə nəticələnəcəyini bilməyən bir imam Allahın bəndələr üzərindəki höccəti ola bilməz."*[4]

İmam Sadiqdən (ə) nəql olunan başqa bir hədisdə buyurulur: «Hərgah imam müəyyən bir şeyi bilmək istəsə Mütəal Allah onu agah edər.»[5]

Həmçinin o Həzrətdən (ə) nəql olunan çoxlu rəvayətlərdə buyurulur: *«Ruh*

---

[1] "Üsuli-kafi", 1-ci cild, səh.257.

[2] "Üsuli-kafi", 1-ci cild, səh 198-203.

[3] "Biharul-ənvar", 26-cı cild, səh.58.

[4] "Üsuli-kafi", 1-ci cild, səh.258.

[5] "Üsuli-kafi", 1-ci cild, səh.258

Cəbraildən və Mikaildən daha böyük olan bir mələkdir ki, Rəsuli-Əkrəmlə (s) birgə olmuş və ondan sonra da imamlarla yanaşıdır və onu təsdid eləyir (qüvvətləndirir).»[1]

SUALLAR

1.İmamın məsum olmasını hansı ayələrlə isbat etmək olar?
2.Hansı rəvayət imamın ismətinə dəlalət edir?
3.İmamın xüsusi elmi hansı yollarla hasil olur?
4.Keçmişdə kimlər bu kimi elmlərdən bəhrələnmişlər?
5.Hansı ayə imamət elminə dəlalət edir? Necə dəlalət etməsini bəyan edin.
6.İlmul-kitabın əhəmiyyətini bəyan edin.
7.İmamların elmi ilə əlaqədar rəvayətlərdən bir neçəsini qeyd edin.

[1] "Üsuli-kafi", 1-ci cild, səh.273.

QIRXINCI DƏRS

HƏZRƏT MƏHDİ (ƏCCƏLƏLLAHU TƏALA FƏRƏCƏHUŞ-ŞƏRİF)

–Müqəddimə
–Ümumdünya ilahi hökumət
–İlahi vədə
–Rəvayətlərdən nümunələr
–Qeybət və onun sirri

MÜQƏDDİMƏ

Keçən dərslərdə on iki imamın adlarının qeyd olunduğu hədislərdən bir neçəsini bəyan etdik. Sünni və şiələrin Peyğəmbəri-Əkrəmdən (s) nəql etdikləri çoxlu rəvayətlərin bəzilərində yalnız onların sayları qeyd olunmuş, bəzilərində əlavə olaraq onların Qüreyşdən olduqları, bəzilərində isə onların sayı Bəni-İsrail nəqiblərinin sayı qədər qeyd olunur. Bir qism rəvayətlərdə isə onların doqquz nəfəri imam Hüseynin (ə) nəslindən olduğu buyurulur. Nəhayət sünni rəvayətlərinin bəzisində, eləcə də şiələrin vasitəsilə nəql olunan mütəvatir hədislərdə ayrı-ayrılıqda onların hər birinin adları da bəyan olunmuşdur.[1]

Şiələrin vasitəsilə nəql olunan çoxlu rəvayətlərdə imamların hər birinin imaməti barəsində də hədis qeyd olunmuşdur. Belə ki, bu müxtəsər kitabda onların hamısını qeyd etməyə imkan yoxdur.[2] Buna görə də bu bölmənin sonuncu dərsini on ikinci imam həzrət Məhdi Sahibəz-zəmanın (ə) imaməti barəsində mövzuya həsr edir və ixtisara riayət olunsun deyə, ən mühüm mətləbləri qeyd etməklə kifayətlənirik.

ÜMUMDÜNYA SƏVİYYƏSİNDƏ OLAN İLAHİ BİR HÖKUMƏT

Qeyd olunduğu kimi, peyğəmbərlərin göndərilməsində ilkin və əsaslı hədəf insanların agahlıq üzündən və tam azad şəkildə inkişaf edib formalaşması və təkamülə çatması üçün lazım olan şəraitin hazırlanmasıdır ki, bu kimi yüksək hədəflər də məhz ilahi vəhyin insanların ixtiyarına verilməsi ilə həyata keçir və digər hədəflərlə yanaşı bu da nəzərə alınır ki, onlardan ayrı-ayrı şəxslərin və cəmiyyət üzvlərinin əqli inkişaflarını, ruhi-mənəvi tərbiyələrini qeyd etmək olar. Nəticə etibarı ilə böyük peyğəmbərlər (ə) Allahpərəstlik, ilahi dəyərlər, haqq-ədalətin bütün dünya səviyyəsində genişləndirilərək bərqərar edilməsi əsasında olan ideal bir cəmiyyətin təşkil olunması məqsədini güdmüşlər. Onlardan hər biri imkanları həddində bu yolda müəyyən tədbirlər görmüş və bəziləri xüsusi zaman və coğrafi məkan hüdudlarında ilahi hökumət təşkil edə bilmişlər. Lakin onların heç biri üçün ümumdünya səviyyəsində ilahi hökumətin təşkil olunmasına şərait yaranmamışdır.

Əlbəttə, belə bir şəraitin yaranmaması peyğəmbərlərin ilahi proqramları və təlimlərinin natamam olması demək deyil, yaxud bu, onların idarəçilik və rəhbərliklərində nöqsanlı halları göstərmir. Eləcə də bu, onların göndərilməsində əsas ilahi hədəfin gerçəkləşməməsi də demək deyildir. Çünki qeyd olunduğu kimi, ilahi hədəf insanların ixtiyari hərəkəti və təkamülü üçün lazım olan şəraitin yaradılmasıdır. Belə ki, Allah-taala buyurur: **«Allah peyğəmbərləri göndərmişdir ki, onlar göndərildikdən**

[1] "Müntəxəbül-əsər fil-imamis-sani əşər", 3-cü çap, səh 10-140.

[2] Bax: "Biharul-ənvar", "Ğayətul məram", "İsbatul hudat" və s. hədis kitabları.

sonra insanların Allah qarşısında dəlilləri, bəhanələri olmasın.»[1]

Deməli, peyğəmbərlərin vəzifəsi insanları zorla haqq dinini qəbul etməkdir və onları ilahi rəhbərlərə tabe olmağa məcbur etmək olmamışdır.

Eyni zamanda Mütəal Allah Özünün səmavi kitablarında yer üzündə ümumdünya miqyaslı ilahi bir hökumətin qurulmasını vəd etmişdir ki, bunu da bir növ dünya səviyyəsində olan insan cəmiyyətlərində haqq dininin qəbul edilməsinə şərait yaranacağı ilə əlaqədar qeybi xəbərlərdən hesab etmək olar. Belə ki, bu hökumət çox fədakar şəxslərin və qrupların işgüzar fəaliyyətləri ilə müyəssər olacaq. Eləcə də qeybi köməklərdən istifadə etməklə ümumdünya səviyyəsində təşkil olunacaq hökumət qarşısındakı maneələr aradan qaldırılacaq. Zülmə məruz qalan, haqsızlıqdan cana yığılan, bütün nəzəri məktəblərdən və quruluşlardan ümidsiz olan məzlum kütlələrin arasında haqq-ədalətin bərqərar olunması ilə nəticələnəcəkdir. Məhz bunu da Peyğəmbəri-Əkrəmin (s) besətinin, eləcə də o Həzrətin (s) ümumdunya və əbədi dininin hədəfinin gerçəkləşməsi hesab etmək olar. Çünki onun barəsində buyurulur:

"Allah Öz Rəsulunu haqq dinlə göndərmişdi ki, onu bütün dinlərə qalib etsin.»[2]

İmamət nübüvvətin tamamlayıcısı, xatəmiyyət hikmətinin gerçəkləşdiricisi olduğundan belə nəticə almaq olar ki, bu hədəf axırıncı imamın vasitəsilə həyata keçməlidir. Bu da məhz həzrət Məhdi (ruhlarımız ona fəda olsun!) barəsində gəlib çatan mütəvatir hədisləri təsdiq edir.

Burada ilk növbədə belə bir hökumətin yaranacağını müjdə verən bəzi Quran ayələrini qeyd edəcək, daha sonra bu məsələ ilə əlaqədar rəvayətlərdən bir neçə nümunənin təqdim edəcəyik.

İLAHİ VƏDƏ

Mütəal Allah Qurani-kərimdə buyurur:

«Şübhəsiz, Biz kitabdan sonra Zəburda da yer üzünə yalnız Mənim saleh bəndələrimin varis olacağını yazmışdıq.»[3]

Başqa bir ayədə bu ayənin məzmununun oxşarı həzrət Musadan (ə) nəql olunur.[4] Şübhəsiz, bu vədə nə vaxtsa mütləq gerçəkləşəcəkdir.

Başqa bir ayədə insanları məzlumiyyətə düçar edən Firon barədə söhbət

---

[1] "Nisa" surəsi, ayə:165.

[2] "Tövbə" surəsi, ayə:33, "Fəth" surəsi, ayə:28, Səff" surəsi, ayə:9; "Biharul-ənvar", 51-ci cild, səh.50, 22-ci hədis və 60-cı səhifə, 58-59-cu hədislər.

[3] "Ənbiya" surəsi, ayə:105.

[4] "Əraf" surəsi, ayə:128.

etdikdən sonra buyurulur:

«Biz iradə etmişik ki, yer üzündə zəif düşüb əzilənlərə mərhəmət göstərək və onları imamlar və varislər qərar verək.»[1]

Bu ayənin Bəni-İsrail qövmünün Fironun zülmkar caynağından xilas olduqdan sonra qüdrətə çatmaları ilə əlaqədar nazil olmasına baxmayaraq (indiki zaman formasında gələn və davamiyyəti göstərən-müt.) "nuridu» ifadəsi Allahın davamlı bir iradəsini göstərdiyindən çoxlu rəvayətlərdə həzrət Məhdinin (ə) zühuruna aid edilmişdir.[2]

Başqa bir ayədə ümummüsəlmanlara xitab edilərək buyurulur:

«Allah sizlərdən iman gətirib saleh əməl və layiqli işlər görənlərə vədə vermişdir ki, onlardan əvvəlkiləri yer üzündə xəlifələr qərar verdiyi kimi, onları da yer üzündə xəlifə qərar verəcək. Onlar üçün razı olduğu dinə qüdrət verəcək, onların qorxularını əmin amanlığa çevirəcək. Onlar Mənə ibadət edər, Mənə heç bir şeyi şərik qoşmaz. Hər kəs bundan sonra kafir olsa, məhz onlar fasiqdirlər.»[3]

Rəvayətlərdə qeyd olunur ki, bu vədə həzrət Məhdinin (ə) dövründə kamil şəkildə həyata keçəcək.[4]

Həmçinin bir neçə ayənin o həzrətin dövranı ilə tətbiq olunmasına dair çoxlu rəvayətlər də vardır ki, ixtisara riayət olunsun deyə onları qeyd etmirik.[5]

RƏVAYƏTLƏRDƏN BİR NÜMUNƏ

Sünni və şiələrin həzrət Məhdi (ə) barəsində Peyğəmbərdən (s) nəql etdikləri hədislər təvatür həddindən artıqdır. Təklikdə sünni alimlərindən nəql edilən rəvayətlər onların bir qrupunun təsdiq etdiyinə görə təvatür həddinə çatmışdır.[6] Sünni alimlərindən bir qrupu o Həzrətin (ə) varlığına etiqad bəsləməyi bütün islami firqələrin qəbul etdiyi məsələlər sırasında qeyd etmiş,[7] bəziləri də o Həzrətin (ə) özü və zühuru barədə çoxlu kitablar

---

[1] "Qəsəs" surəsi, ayə:5.

[2] "Biharul-ənvar", 51-ci cild, səh.54, 35-ci cild, səh 63-64.

[3] "Nur" surəsi, ayə:55.

[4] "Biharul-ənvar", 51-ci cild, səh.58, hədis-50, 54-cü səhifə, 34 və 64-cü hədislər.

[5] "Biharul-ənvar", 51-ci cild, səh 44-64.

[6] "Əssəvaiq" (ibni Həcər) səh.99, "Nurul-əbsar" (Şəbləncı) səh.155, "Əsafur-rağibin", səh.140, "Əl-Futuhatul-islamiyyə", 2-ci cild, səh.211.

[7] İbni Əbil Hədid, "Nəhcül-bəlağə"nin şərhi, 2-ci cild, səh.535, "Səbaikuz-zəhəb" (Süveydi) səh.78, "Ğayətul-məmul", 5-ci cild, səh.362.

yazmışlar.[1]

Onlar Peyğəmbəri-Əkrəmin (s) belə buyurduğunu nəql etmişlər: **"Əgər dünyanın axırına bir gün qalmış olsa belə, Mütəal Allah o günü o qədər uzadacaqdır ki, mənim Əhli-beytimdən (ə) və mənimlə eyni adda olan bir şəxs hökumətə çatsın (və yer üzünü, zülm və haqsızlıqla dolduğu kimi, haqq-ədalətlə doldursun)."**[2]

Sünni alimləri Ümmü Sələmədən nəql edirlər ki, Peyğəmbər (s) buyurmuşdur: **"Məhdi mənim itrətimdən və Fatimənin övladlarındandır."**[3]

Sünni mühəddisləri İbni Abbasdan nəql etmişlər ki, Peyğəmbər (s) belə buyurub: "Həqiqətən, Əli məndən sonra ümmətin imamıdır, intizarı çəkilən Qaim onun övladlarındandır. O zühur edərkən, yer üzünü zülm və haqsızlıqla dolduğu kimi, haqq və ədalətlə dolduracaqdır."[4]

QEYB VƏ ONUN SİRRİ

Əhli-beytdən (ə) nəql olunan rəvayətlərdə on ikinci imamın (ə) xüsusiyyətləri kimi, o Həzrətin (ə) uzun müddət qeybdə olması qeyd olunur. Əbdül-Əzim Həsəni imam Məhəmməd Təqidən (ə), o da ata-babalarından, onlar da həzrət Əlidən (ə) belə nəql edirlər: *«Bizim Qaimimiz uzun müddət qeybətdə (qeybdə) olacaq. Şiələri görürəm ki, onun qeybəti dövründə otlaq axtaran ac heyvanlar kimi onu axtarır, lakin onu tapmırlar. Agah olun! Onlardan hər kəs öz dinində sabit qalsa və imamlarının qeybətinin uzun çəkdiyi dövrdə qəlbi qəsavətə düçar olmasa, qiyamət günü mənimlə birlikdə, mənim dərəcəmdə olacaqdır. (Sonra buyurdu:) Bizim Qaimimiz qiyam edən zaman onun üzərində heç kəsin beyəti olmayacaqdır (yəni heç bir zalım hökmdar ona hakim olmayacaqdır). Buna görə də məxfi şəkildə dünyaya gələcək və camaatın gözündən qeybə çəkiləcəkdir.»*[5]

İmam Səccad (ə) atasından, o da Əmirəl-möminin Əlidən (ə) belə nəql edir: «Bizim Qaimimizin iki qeybət dövrü vardır. Onlardan biri digərindən daha uzundur. Yalnız güclü yəqinə və düzgün mərifətə malik olanlar onun imaməti barəsində sabit əqidədə qalacaqlar.»[6]

---

[1] Məsələn: "Əl-Bəyan fi-əxbari sahibiz-zəman", müəllif: Hafiz Məhəmməd ibni Yusif Gənci Şafei. (7-ci hicri əsrində yaşamışdır). "Əl-Burhan fi əlamati Məhdi axiriz-zəman", müəllif: Müttəqi Hindi (10-cü hicri əsrində yaşamışdır).

[2] "Səhihi Termezi", 2-ci cild, səh.46; "Səhihi Əbu Davud", 2-ci cild, səh.207; "Müsnədi ibni Hənbəl", 1-ci cild, səh.378; "Yənabiul məvəddət", səh 186, 258, 440, 448, 490.

[3] "Əsafur-rağibin", səh.134, "Səhihi Müslüm", Əbu Davud, Nəsai, İbni Macə və Beyhəqidən nəql olunur.

[4] " Yənabiul-məvəddət", səh.494.

[5] "Müntəxəbül-əsər", səh.255.

[6] "Müntəxəbül-əsər", səh.251.

İmamın qeybə çəkilməsinin sirri aydın olsun deyə, imamların həyat tarixinə qısa bir nəzər salmalıyıq.

Bildiyimiz kimi, Peyğəmbərin (s) vəfatından sonra camaatın əksəriyyəti Əbu Bəkrə, sonra Ömərə, daha sonra Osmana beyət etdilər. Osmanın hakimiyyətinin axırlarında yersiz ayrı-seçkilikdən yaranan çoxlu iğtişaşlar nəticəsində camaat qiyam edərək onu qətlə yetirdi və daha sonra Əliyə (ə) beyət etdilər.

Həzrət Əlinin (ə) Allah tərəfindən və Peyğəmbərin (s) vasitəsilə seçilən bir xəlifə olmasına baxmayaraq üç xəlifənin hakimiyyəti dövründə bünövrəsi yenicə qurulmuş İslam cəmiyyətinin məsləhətinə riayət etmək və onu qoruyub-saxlamaq üçün sükut etdi və höccətin tamam edilməsi halları istisna olmaqla heç bir söz demədi. Eyni halda bu dövrlərdə İslamın və müsəlmanların xeyrinə, mənfəətinə olan tədbirləri əsirgəmədi. Amma özünün bir neçə illik hakimiyyəti dövrünü Cəməl səhabələri, Müaviyə və xəvariclə aparılan müharibələrdə keçirdi və axırda da xəvaricdən olan bir nəfərin əli ilə şəhid edildi.

İmam Həsən Müctəba (ə) da Müaviyənin ilə zəhərləndirilib şəhid edildi. Müaviyənin ölümündən sonra oğlu Yezid Üməyyə səltənətini ələ keçirdi, halbuki o, İslamın zahiri göstərişlərinə belə əhəmiyyət vermirdi. Bu da İslamdan hətta ad və nişanə belə qalmaması ilə nəticələnə bilərdi. Buna görə də imam Hüseyn (ə) qiyam etməkdən başqa bir çıxış yolu görmədi. O özünün şəhadəti ilə müsəlmanları uzun qəflət yuxusundan ayıltdı və İslamı məhvolma təhlükəsindən xilas etdi. Lakin islami ədalət hökumətinin təşkil olunması üçün ictimai şərait hələ də mövcud deyildi. Buna görə də digər imamlar (ə) islami hökmlər, maarif və əqidələrin əsaslarını möhkəmləndirməyə, istedadlı insanları tərbiyə etmək, onlara ali-insani keyfiyyətləri aşılamaq üçün çalışdılar və camaatı mövcud şəraitin icazə verdiyi qədər gizli şəkildə zalımlara qarşı mübarizəyə çağırdılar, onları ümumdünya səviyyəsində ilahi bir hökumətin qurulacağına ümidvar edirdilər. İmamların (ə) hər biri digərindən sonra şəhid edilirdi.

İmamlar (ə) iki əsr yarım müddət ərzində son dərəcə ağır təzyiqlərə, çətinliklərə və fiziki-mənəvi işgəncələrə sinə gərərək İslamın həqiqətlərini camaata bəyan edirdilər: onların bəzilərini ümumi şəkildə, bəzilərini isə xüsusi şəkildə özlərinin xas səhabələrinə və şiələrinə təlim verirdilər. Beləliklə, İslam maarifi özünün müxtəlif yönləri ilə cəmiyyətdə genişlənib yayıldı və bu, həzrət Məhəmmədin (s) şəriətinin qalmasına zəmanət verdi. Bunu da qeyd edək ki, İslam ölkələrinin bəzi yerlərində müəyyən qruplar zalım hakimlərə qarşı qiyam edir və heç olmazsa onların zülmlərinin qarşısını müəyyən qədər alırdılar.

Amma zalım hakimləri vəhşətə salan və iztirabını şiddətləndirən əsas məsələ həzrət Məhdinin (ə) zühur vədəsi idi ki, bu da onların bütün varlıqlarını təhdid edirdi. Buna görə də imam Həsən Əskərinin (ə) müasirləri olan zalım hakimlər o Həzrəti (ə) ciddi nəzarət altında

saxlayırdılar ki, əgər onun (ə) yeganə övladı dünyaya gələrsə onu qətlə yetirsinlər. (O Həzrətin (ə) özünü də cavan yaşlarında şəhid etmişdilər.) Amma Mütəal Allahın qaçılmaz iradəsi belə olmuşdu ki, həzrət Məhdi (ə) dünyaya gəlsin və bəşər cəmiyyətlərinin qurtuluşu və xilaskarlığı üçün ehtiyat saxlansın. Məhz buna görə də atasının sağlığında beş yaşına qədər xas şiələrdən başqa heç kəs onu ziyarət edə bilmirdi. Atasının vəfatından sonra İmam (ə) dörd nəfər naibin vasitəsilə camaatla əlaqə saxlayırdı.[1] Onlardan biri digərindən sonra iftixarlı naiblik məqamına seçildi. Bu dövr "kiçik qeybət dövrü" "qeybəti-suğra" adlanır. Bundan sonra naməlum müddətə qədər "qeybəti-kübra" başlanır. Bəşər cəmiyyətləri ümumdünya səviyyəsində ilahi bir hökuməti qəbul etmək üçün hazır olacaqları bir dövrdə Allahın əmri ilə zühur edəcəkdir.

Deməli, o Həzrətin (ə) qeybdə olmasının əsas sirri bundan ibarətdir ki, zalımların şərindən amanda qalsın. Rəvayətlərdə digər hikmətlərə də işarə olunur və buyurulur ki, onlardan biri insanların imtahana çəkilməsi, höccət tamam olduqdan sonra öz imanlarında nə dərəcədə sabit qalmalarını sınamaqdır.

Əlbəttə, qeybət dövründə də camaat o Həzrətin (ə) xeyir-bərəkətindən ümumi şəkildə istifadə edirlər. Başqa sözlə desək, rəvayətlərdə də qeyd olunduğu kimi, camaatın o Həzrətdən (ə) bəhrələnməsi buludlu havada insanların günəşdən istifadə etməsi kimidir.[2] Belə ki, çoxları tanınmaz surətdə olsa belə, o Həzrəti (ə) ziyarət etmiş, özlərinin maddi-mənəvi çətinliklərini o Həzrətin (ə) əli ilə həll etmişlər. Əsas etibarı ilə o Həzrətin (ə) həyatı insanların ümidvar olmasında ən mühüm amildir ki, özlərini islah edərək zühura hazırlaşsınlar.

SUALLAR

1.İslam Peyğəmbərinin (s) göndərilməsinin əsas və yekun hədəfi nədir?

2.Bu hədəf hansı yolla həyata keçirilir?

3.Hansı ayələr ümumdünya səviyyəsində ilahi hökumətin təşkil olunmasını müjdə verir?

4.Sünnilərin həzrət Məhdi (ə) barəsində olan rəvayətlərindən bir neçəsini qeyd edin.

5.Əhli-beytin (ə) o həzrətin qeybə çəkilməsi barəsindəki rəvayətlərindən bir neçəsini bəyan edin.

6.Böyük və kiçik qeybət dövrü və onların arasındakı fərqi bəyan edin.

7.İmam Zamanın (ə) qeybə çəkilməsinin sirrini izah edin.

8.Qeybət dövründə o Həzrətdən (ə) hansı yolla faydalanmaq olar?

---

[1] Osman ibni Səid, Məhəmməd ibni Osman ibni Səid, Hüseyn ibni Ruh, Əli ibni Məhəmməd Səmuri.

[2] "Biharul-ənvar", 52-ci cild, səh.92.

QIRX BİRİNCİ DƏRS

MƏADŞÜNASLIĞIN ƏHƏMİYYƏTİ

–**Müqəddimə**
–Məada etiqadın əhəmiyyəti
–Quranın məad məsələsinə yetirdiyi diqqət
–Nəticə

MÜQƏDDİMƏ

Kitabın əvvəlində din və onun etiqadi bünövrələri (tövhid, nübüvvət, məad) barəsində tədqiqat aparmağın əhəmiyyətini qeyd edərək dedik ki, həyatın insani yönə malik olması məhz bu kimi məsələlərin düzgün şəkildə həll edilməsinə bağlıdır. Birinci bölmədə Allahşünasılıq, ikinci bölmədə yol və yolgöstərən (nübüvvət və imamət) məsələsi araşdırıldı. İndi isə məad bəhsinin ən mühüm bölməsi olan məadşünaslığı araşdırırıq.

Əvvəlcə bu etiqadi prinsipin xüsusiyyətləri, eləcə də onun insanın ictimai-fərdi rəftar və davranışlarındakı xüsusi təsirini araşdıracaq, sonra məad barəsində düzgün və səhih təsəvvürə malik olmağın əbədi və hiss olunmayan (mücərrəd) ruhun varlığını qəbul etməklə nə dərəcədə şərtləndiyini qeyd edəcəyik. Yeganə Allaha etiqad bəsləmədən varlığın tanınması naqis olduğu kimi, əbədi ruha etiqad bəsələmədən də insanı tanımaq natamam olacaqdır. Bu kitabın yazılma qaydasına münasib olaraq məadın əsas məsələləri aşağıda araşdırılacaqdır.

MƏADA ETİQAD BƏSLƏMƏYİN ƏHƏMİYYƏTİ

Gündəlik həyat fəaliyyətlərində əsas məqsəd ehtiyacları, istəkləri təmin etmək, dəyərlərə və məramlara nail olmaq və nəhayət yekun səadət və kamala çatmaqdır. İşlərin keyfiyyət, kəmiyyət və istiqamətləndirilməsi o hədəflərin ayırd edilməsinə bağlıdır ki, həyatdakı edilən səy və faliyyətlər məhz onlara çatmaq üçün yerinə yetirilir. Deməli, həyatın yekun və son hədəfləri barəsində mərifət kəsb etmək iş və fəaliyyətlərin seçilib onlara istiqamət verilməsində əsas rol oynayır. Həqiqətdə həyatın hansı istiqamətdə seçilməsinin əsl amilini insanın öz həqiqəti, kamalı və səadətini tanıması və onun barəsindəki nəzəri təşkil edir. Öz həqiqətinin yalnız bir sıra maddi ünsürlərdən, mürəkkəb kimyəvi reaksiyalardan ibarət olduğunu təsəvvür edən, öz həyatını bu dünyanın bir neçə günlük ötəri həyatında məhdudlaşdıran və həmin həyatla əlaqədar olan bəhrələrin arxasında heç bir səadət, kamal və ləzzət olduğunu qəbul etməyən şəxs öz rəftar və davranışlarını yalnız özünün dünyəvi istək və ehtiyaclarını təmin etmək əsasında tənzim edir. Amma öz həqiqətini maddi varlıqlardan daha yüksəkdə olduğunu bilən, ölümü həyatın sonu hesab etməyən və onu yalnız ötəri dünyadan əbədilik dünyasına keçid hesab edən, özünün layiqli əməl və davranışlarını əbədi kamal və səadətə çatmaq üçün vasitə olduğunu bilən bir insan həyat proqramlarını elə tənzim və icra edir ki, əbədi həyatı üçün mümkün qədər daha artıq faydalı olsun. Digər tərəfdən, dünya həyatındakı məğlubiyyətlər və çətinliklər onu ümidsiz etmir, vəzifənin yerinə yetirilməsi, əbədi səadət və kamalın əldə olunması yolunda heç vaxt işgüzar fəaliyyətdən usanmır.

İnsan barəsində bu iki növ mərifətin təsiri fərdi həyatla xülasələnmir, əksinə, ictimai həyatda və ayrı-ayrı fərdlərin qarşılıqlı rəftarlarında da özünə

layiq təsir qoyur. Əbədi həyata, əbədi mükafat və ya cəzalara etiqad bəsləmək başqalarının hüququna riayət etmək, ehtiyaclılara ehsan etmək və öz haqqından keçmək kimi məsələlərdə mühüm rol ifa edir. Belə etiqadların hakim olduğu bir cəmiyyətdə ədalətli qayda-qanunların icra olunması, həmçinin başqalarının haqqına təcavüz və zülm edilməsinin qarşısının alınması üçün güc işlədilməsinə və təzyiqlərə çox az ehtiyac duyulur. Təbiidir ki, bu etiqad ümumdünya səviyyəsində bərqərar olarsa, beynəlxalq çətinliklər də nəzərə çarpacaq dərəcədə azalacaqdır.

Bu məsələyə diqqət yetirməklə məad məsələsinin dəyəri və onun barəsində geniş tədqiqat aparılmasının mühüm təsirləri aydın olur. Hətta təklikdə tövhidə etiqad (məada etiqad olmadan) həyata istənilən istiqamət verilməsində kamil və geniş təsir qoya bilməz. Buna görə də səmavi dinlərin, xüsusilə müqəddəs İslam dininin bu etiqad prinsipinə ciddi əhəmiyyət verməsinin, həmçinin ilahi peyğəmbərlərin bu əqidənin insanların ruhuna yeridilməsində nə üçün bu qədər fəaliyyət göstərmələrinin sirri aşkar olur.

Axirət aləminə etiqad bəslənməsi özünün ictimai və fərdi rəftarlara və davranışlara istiqamət verməkdəki rolunu o zaman ifa edə bilər ki, insanın bu dünyadakı əməl və fəaliyyətləri ilə o dünyadakı xoşbəxt və ya bədbəxt olması arasında səbəb-nəticə qanunu qəbul edilsin və heç olmazsa, axirət nemətləri bu dünyadakı layiqli əməllərin mükafatı, axirət əzabları isə bu dünyadakı yaramaz və pis əməllərin cəzası kimi qəbul edilsin. Əks halda, əgər axirət səadətini elə bu dünyada kəsb etməyin (yəni, dünya bəhrələrini də elə bu dünyada əldə etməyin) mümkünlüyü təsəvvür olunsa onda axirət həyatına etiqad özünün bu dünyadakı rəftar və davranışlarda təsirli rolunu əldən verəcəkdir. Çünki belə təsəvvürə əsasən, dünyəvi səadətin əldə edilməsi üçün yalnız bu dünyada, axirət səadətinə nail olmaqdan ötrü isə elə axirət aləmində çalışmaq lazımdır!

Deməli, məad və ölümdən sonrakı həyatın isbat olunmasından əlavə bu iki həyatın (dünya və axirət) arasındakı qırılmaz əlaqə, eləcə də insanın ixtiyari rəftar, əməl və davranışları ilə onun əbədi bədbəxtliyi və ya xoşbəxtliyi arasındakı olan əlaqəsi isbat olunmalıdır.

QURANIN MƏAD MƏSƏLƏSİNƏ CİDDİ DİQQƏT YETİRMƏSİ

Quran ayələrinin üçdə-birindən çoxu əbədi həyat olan axirət aləmi ilə əlaqədardır. Bu ayələrdən bir neçəsində axirət aləminin varlığına iman gətirmək təkid olunur,[1] başqa ayələrdə isə onun inkar edilməsinin ağır və acınacaqlı nəticələri xatırladılır.[2] Üçüncü qism ayələr əbədi nemətlərdən,[1]

[1] "Bəqərə" surəsi, ayə:4, "Loğman" surəsi, ayə:4, "Nəml" surəsi, ayə:3. və s.

[2] "İsra" surəsi, ayə:10, "Furqan" surəsi, ayə:11, "Səba" surəsi, ayə:8, "Muminin" surəsi, ayə:74, və s.

dördüncü dəstədən olan ayələr isə əbədi əzablardan söz açır.[2] Həmçinin çoxlu ayələrdə insanın yaxşı və pis əməlləri ilə bunların axirət nəticələri arasındakı əlaqə qeyd olunur. Qiyamətin olacağı və zərurəti müxtəlif yollarla təkid edilir. Bunu inkar edənlərin şübhələrinə cavab verilir. Çünki insanın yoldan azması və yaramaz işlərə qurşanması ya qiyamətin inkar ediməsindən, ya da unudulmasından irəli gəlir.[3]

Quran ayələrinə diqqət yetirməklə məlum olur ki, peyğəmbərlərin sözlərinin və onların insanlarla apardığı mübahisələrin ən ümdəsi məad məsələsinə aid olmuşdur. Hətta bunu da demək olar ki, onların bu məsələni isbat etmək üçün göstərdikləri səylər tövhidi isbat etmək üçün göstərdiyi səylərdən qat-qat artıq olmuşdur. Çünki camaatın əksəriyyəti məadı qəbul etmək üçün daha artıq əks-reaksiya göstərir. Səbəbini də iki amildə xülasələndirmək olar. **Birincisi,** hiss olunmayan qeybi işlərin inkar olunması, **digəri** isə məad məsələsi, yəni insanların cavabdehlik daşımamağa və məsuliyyətsizliyə olan meyllərindir. Çünki qeyd olunduğu kimi, qiyamətə və hesab-kitaba etiqad bəsləmək məsuliyyət hissi keçirməyi, əməl və rəftarlarda müəyyən məhdudiyyətlərin qəbul olunmasını tələb edir, zülm, təcavüz, fəsad və günahdan çəkinmə də müsbət təsir göstərir. Onun inkar olunması ilə isə həvəsbazlar, şəhvətpərəstlər və özbaşınaçılıq edənlər üçün yollar açılır.

Qurani-kərim buna işarə edərək buyurur:

“Yoxsa insan onun sümüklərini (çürüyüb aradan getdikdən sonra) bir yerə toplamayacağımızı zənn edir? Əlbəttə (bu işi görəcəyik), halbuki onların barmaqlarının bəndlərini belə (əvvəldə olduğu kimi) vücuda gətirməyə qadirik. Xeyr, insan öz qarşısında olan maneələri aradan qaldırmaq (açıq-saçıq olmaq) istəyir.»[4]

Məadın qəbul edilməsindən imtina etmək ruhiyyəsini öz danışıq və yazılarında Quranın məad barəsində işlətdiyi “qiyamət” və “sonrakı gün” və s. kimi təbirləri bu dünyanın varlıqlarına, millətlərin dirçəlişinə, sinifsiz və ədalətli bir cəmiyyət təşkil etməyə, yer üzündə olan behişt mənasına yozmaq istəyən şəxslərdə görmək olar ki, axirət aləmini və onunla əlaqədar olan məfhumları şərti məfhumlar və əfsanələr kimi qələmə vermək istəyirlər.[5]

Quran belə adamları “insandan olan şeytanlar” və “peyğəmbərlərin düşmənləri” kimi qeyd edir. Belə ki, onlar zahiri gözəl olan aldadıcı və bəzədilmiş söz-söhbətlərlə qəlbləri yoldan azdırır, camaatı imandan, düzgün

---

[1] “Ərrəhman” surəsi, ayə:46-dan axırıncı ayəyə qədər, “Vaqiə” surəsi, ayə:11-38, “Dəhr” surəsi, ayə:11, 21 və s.

[2] “Əl-haqqə” surəsi, ayə:20, 27, “Əl-Mülk” surəsi, ayə:6, 11, “Vaqiə” surəsi, ayə:42, 56. və s.

[3] “Sad” surəsi, ayə:26, “Səcdə” surəsi, ayə:140.

[4] “Qiyamət 3” surəsi, ayə:5.

[5] “Nəml” surəsi, ayə:68, “Əhqaf” surəsi, ayə:17.

etiqaddan və ilahi hökmlərə vəfadar qalmaqdan saxlayır:

“Beləliklə, hər peyğəmbər üçün insanlardan və cinlərdən olan şeytanlar qərar verdik ki, camaatı aldatmaq üçün bir-birinə bəzədilmiş sözlər ilham edərlər. Əgər Allah istəsəydi (məcburi olaraq onların qarşısını alardı və), onlar belə işlər görməzdilər (lakin Allahın istəyi bu olmuşdur ki, insanlar yaxşı və pis işləri seçməkdə azad olsunlar). Belə isə onları, öz yalanları ilə birlikdə boşla. (Şeytanlar bu işi görürdülər ki,) axirətə iman gətirənlərin qəlbləri onların bəzədilmiş sözlərinə uysun və onları bəyənsinlər, (nəticədə) istədikləri şeylərə mürtəkib olsunlar.»[1]

Nəticə:

Hər kəs şəxsi həyatında onu həqiqi kamala və səadətə çatdıra biləcək bir yolu seçib «onun həyatı ölümlə sona çatırmı, yoxsa ondan sonra digər bir həyat da vardır?» -deyə fikirləşməlidir. Görəsən bu dünyadan başqa bir dünyaya nəqlolunma, bir şəhərdən başqa bir şəhərə getmək kimidirmi ki, həmin yerdə yaşayış vəsaitlərini tədarük görmək mümkün olsun, yoxsa bu dünya həyatı axirət aləmindəki yaxşı və ya pis həyatın müqəddiməsidir və bu dünyada işləri görüb onların son nəticələrini orada əldə etmək lazımdır? Bu kimi məsələlər həll olunmayınca yol və həyat tərzinin, eləcə də proqramların ayırd edilməsinə növbə çatmır. Çünki səfərdə məqsəd məlum olmayınca oraya gedən yolun ayırd edilməsi də mümkün deyildir.

Bunu da qeyd etməliyik ki, belə bir həyatın varlığı ehtimalı nə qədər zəif olsa belə, ağıllı və ayıq bir insanı onun barəsində tədiqat aparmağa vadar edir. Çünki ehtimal edilən şeylərin miqdarı sonsuzdur.

SUALLAR

1.Məada etiqad bəsləməyin və ya inkar etməyin insanın həyat fəaliyyətindəki təsirini bəyan edin.

2.Axirət həyatına etiqad həyata bəyənilən bir istiqamət verilməsində özünün böyük rolunu hansı halda göstərə bilər?

3.Quranın məad barəsində təkidlərini bəyan edin.

4.İnsanların məad əqidəsini qəbul etmək qarşısındakı inadkarlıqlarının səbəblərini bəyan edin.

5.Qəlbləri xəstə olanların insanları məada etiqaddan yayındırmaq üçün göstərdikləri səylərin nümunələrini bəyan edin və Quranın belə təhrifçi insanlar qarşısındakı tutduğu mövqeyi açıqlayın.

6.Məad barəsində tədqiqat aparmağın zərurəti və onun dünyəvi məsələlərdə tədqiqat aparmaqla müqayisədə üstünlüyünü şərh edin.

[1] “Ənam” surəsi, ayə: 112-113.

QIRX İKİNCİ DƏRS

MƏADIN RUH MƏSƏLƏSİ İLƏ BAĞLILIĞI

–Canlı varlıqlarda vəhdətin meyarı
–İnsan varlığında ruhun mövqeyi

CANLI VARLIQLARDA VƏHDƏTİN MEYARI

İnsanın bədəni digər canlı varlıqlar kimi müəyyən hüceyrələrdən, toxumalardan təşkil olunmuşdur ki, onların daxilində daim kimyəvi reaksiyalar və maddələr mübadiləsi baş verir. Amma onların sayı dünyaya gəldiyi gündən ömrünün sonuna qədər dəyişilmir. Toxumaların sayı həmişə sabit qalır.

Bütün canlıların, xüsusilə insanın bədənində baş verən bu dəyişikliklərə diqqət yetirməklə belə bir sual yaranır ki, daim dəyişilməkdə olan bu məcmuə hansı əsasa və meyara görə vahid bir varlıq hesab olunmalıdır? Halbuki həyat boyunda onun hissələri bir neçə dəfə tamamilə dəyişir.[1]

Bu suala verilən sadə cavab bundan ibarətdir ki, hər bir canlı varlıqda vəhdətin meyarı onun hissələrinin həm eyni zamanda, həm də müxtəlif zamanlardakı bağlılıqlarıdır. Baxmayaraq ki, müəyyən hüceyrələr tədrici olaraq ölür və onların yerini yeni hüceyrələr tutur. Amma bu cərəyanın bağlılığı (tədricən baş verməsi) baxımından yenidən qurulan bu məcmuəni vahid bir varlıq hesab etmək olar.

Amma bu, qaneedici cavab deyildir. Çünki biz sayı müəyyən olan kərpiclərdən təşkil olunan müəyyən bir binanı təsəvvür edə bilərik. Belə ki, onun kərpiclərini tədrici olaraq elə dəyişmək olar ki, müəyyən müddətdən sonra əvvəlki kərpiclərdən heç biri qalmasın. Təzə kərpiclər məcmuəsini əvvəlki bina hesab etmək olmaz. Amma zahiri formasını nəzərə aldıqda ona bu adı vermək olar. Xüsusilə həmin məcmuəni təşkil edən kərpiclərin dəyişilməsindən xəbərsiz olan şəxslər tərəfindən belə həmin təbir işlədilə bilər.

Yuxarıdakı cavabı belə təkmilləşdirmək olar ki, bu tədrici dəyişikliklər məcmuənin vəhdətinə o zaman zərər yetirmir ki, təbii və batini amil əsasında baş vermiş olsun. Belə ki, canlı varlıqlarda bu tamamilə müşahidə olunur. Amma hər hansı bir binanın kərpiclərinin dəyişdirilməsi xarici amillər tərəfindən olduğundan hissələrin dəyişdirilməsi dövründə bu həqiqi vəhdəti onlara mənsub etmək olmaz.

Bu cavab vahid təbii amilin qəbul edildiyi təqdirdədir. Belə ki, o bu dəyişikliklər cərəyanında həmişə qalır, orqanizmin üzvlərinin nəzm və həmahəngliyini qoruyub saxlayır. Deməli, bu amilin özü barəsində sual yaranır və "onun həqiqəti nədən ibarətdir? Onun vəhdətinin meyarı hansıdır?" - deyə soruşulur.

Məşhur fəlsəfi nəzəriyyəyə uyğun olaraq hər bir təbii varlıqda vəhdətin meyarı bəsit (qeyri-mürəkkəb) və hiss olunmayan bir varlıq olan təbiət,

---

[1] Bu sual irəli çəkilməzdən öncə, digər bir sual yarana bilər: ümumiyyətlə sabit məcmuələrin vəhdətinin meyarı nədir? Kimyəvi-orqanik tərkibləri hansı meyara əsasən vahid bir varlıq hesab etmək olar? Lakin bəhsin daha geniş səviyyəli olmasının qarşısını almaq üçün bu kimi sualları irəli çəkmirik. Bax: "Amuzeşe fəlsəfə", 1-ci cild, 29-cu dərs.

yaxud surətdən ibarətdir ki, maddədəki dəyişikliklərdən təsirlənmir.[1] Qidalanma, inkişaf, nəsil artırma və s. kimi müxtəlif felləri və fəaliyyətləri yerinə yetirən canlı varlıqlarda bu amil **"nəfs "** adlandırılır.

Qədim filosoflar bitki və heyvanlara məxsus olan nəfsi maddi, insana məxsus olan nəfsi isə mücərrəd hesab edirdilər. Lakin İslam filosoflarından çoxu, o cümlədən, Sədrül-Mütəəllihin Şirazi heyvan nəfsinin də təcərrüdün müəyyən mərtəbəsinə malik olduğunu demiş, şüur və iradəni mücərrəd varlığın əlamətlərindən hesab etmişdir. Amma varlığın yalnız maddədə və onun xassələrində çərçivələndiyini iddia edən materialistlər mücərrəd ruhu inkar edirlər. Müasir materialistlər (pozitovistlər kimi) hiss olunmayan hər bir şeyi inkar edir, heç olmazsa hiss olunmayan bir şeyi də qəbul etmirlər və təbiidir ki, onlar canlı varlıqlarda vəhdətin meyarı üçün düzgün bir cavab da verə bilmirlər.

Bitkilərdə vəhdətin meyarının onlardakı nəbati nəfs olduğunu qəbul etdikdə nəbati həyat müstəidd (istedadlı) maddələrdə xüsusi nəbati nəfs və surətin varlığına bağlı olur və maddənin istedadarı aradan getdikdə nəbati surət, yaxud nəfs də məhv olub aradan gedir. Həmin maddənin yenidən nəbati surəti qəbul etmək istedadına malik olmasını fərz etdikdə onlara yeni nəbati nəfs verilir. Lakin biri köhnə, digəri isə təzə olan bitki bir-birinə tam oxşar olduğu halda onların həqiqi vəhdəti olmayacaq və dəqiq nəzərlə yeni bitkini əvvəlki bitki hesab etmək olmaz.

Amma heyvan və insana gəldikdə isə, onların nəfsi mücərrəd olduğundan bədənləri çürüyüb aradan getdikdən sonra da qala bilər. Yenidən bədənlə əlaqə yaratdığı halda şəxsin vəhdətini ("bu, elə odur" deyilə biləcək surətdə) hifz edər. Belə ki, ölümdən qabaq da həmin ruhun vəhdətinin şəxsin vəhdət meyarı idi. Bədəndəki maddələrin dəyişikliyə uğraması şəxsin birdən artıq şəxsə çevrilməsinə səbəb olmur. Amma əgər bir şəxs insanın və ya heyvanın varlığının yalnız hiss olunan bədən və onun xassələri və zahiri xüsusiyyətləri ilə xülasələndirsə, ruhu da bədənin xüsusiyyətlərindən təşkil olunan məcmuədən biri saysa, hətta əgər onu hiss olunmayan surət deyil, amma maddə hesab etsə və "bədənlərin çürüyüb aradan getməsi ilə o da aradan gedir" desə, belə bir şəxs məad barəsində düzgün təsəvvürə malik ola bilməz. Çünki bədənin həyat üçün yeni istedad tapması fərz olunduqda onlarda yeni xüsusiyyətlər vücuda gəlir və bu zaman vəhdət üçün həqiqi bir meyar qalmır, çünki əvvəlki xasiyyətlərin tamamilə məhv olması və yeni xasiyyətlərin yaranması fərz olunur.

Bir sözlə, ölümdən sonrakı həyatı yalnız o zaman düzgün şəkildə təsəvvür etmək olar ki, ruhu bədəndən, bədənin xüsusiyyətlərindən tamamilə başqa bir şey hesab edək. Hətta onu bədənə daxil olan və onun aradan getməsi ilə məhv olan maddi surət də hesab etməməliyik. Deməli, **əvvəla,** ruhun

[1] Qeyd olunmalıdır ki, bu istilahlardan hər birinin digər istilahi mənaları da vardır ki, bu dərsdə onlardan məqsəd növiyyə surətdir.

varlığını qəbul etməliyik. **İkincisi,** onu bədənə oxşar xüsusiyyətlər deyil, xüsusi mahiyyətə malik olduğunu qəbul etməliyik. **Üçüncüsü,** onu müstəqil və bədənin məhv olmasından sonra yaşamağa qabil olan bir mücərrəd varlıq hesab etməliyik. Amma bədənə daxil olub və bədənin məhv olması ilə məhv olan surət kimi qəbul etməməliyik.

RUHUN İNSAN VARLIĞINDAKI MÖVQEYİ

Burada qeyd olunmalı digər bir məsələ də budur ki, insanın ruh və bədəndən təşkil olunması oksigen və hidrogendən təşkil olunan su kimi deyildir ki, onların bir-birindən ayrılması ilə mürəkkəb birləşmədən ibarət olan müstəqil bir varlıq məhv olub aradan getsin. Əksinə, ruh insanın əsl ünsürüdür və o qaldığı bir müddətə qədər insanın insaniyyəti və şəxsiyyəti qorunub saxlanılır. Məhz buna görə də bədənin hüceyrələrinin və toxumalarının dəyişilməsi şəxsin vəhdətinə heç bir zərər vurmur. Çünki insanın həqiqi vəhdətinin meyarı onun ruhundan ibarətdir.

Qurani-kərim bu həqiqətə işarə etməklə məadı inkar edən və "insanın bədəninin çürüyüb dağıldıqdan sonra yeni bir həyata qədəm qoyması necə mümkündür?!» deyən inkarçıların cavabında buyurur:

"De: (Siz tam məhv olmursunuz, əksinə,) sizə vəkil olunan ölüm mələyi sizi (sizin canınızı) alır.»[1]

Deməli, hər kəsin insaniyyət və şəxsiyyətinin həqiqəti ölüm mələyinin aldığı şeydir, nəinki, onun yerdə qalıb çürüyən bədəni.

SUALLAR

1.Bir məcmuənin dəyişkənliyə məruz qalan hissələrinin bağılılığını onun vəhdətinin meyarı hesab etmək olarmı? Nə üçün?

2.Orqanik tərkiblərin vəhdəti üçün daha hansı bir meyar göstərmək olar?

3.Mürəkkəb varlıqların, xüsusilə canlı varlıqların vəhdəti barəsində məşhur fəlsəfi nəzəriyyə hansıdır?

4.Təbii surət və nəfs arasındakı fərq nədir?

5.Nəbati nəfsin heyvani və insani nəfslə nə kimi fərqləri var? Bu fərqin məad məsələsində nə kimi təsiri vardır?

[1] "Səcdə" surəsi, ayə:11.

6.Məad barəsində düzgün təsəvvür yaratmağın hansı prinsiplərə ehtiyacı vardır?

7.İnsanın ruh və bədəndən ibarət olması kimyəvi tərkiblərlə nə kimi fərqləri vardır?

QIRX ÜÇÜNCÜ DƏRS

RUHUN MÜCƏRRƏDLİYİ

–**Müqəddimə**
–Ruhun mücərrədliyinə əqli dəlillər
–Quran dəlilləri

MÜQƏDDİMƏ

Məlum oldu ki, məad məsələsi ruh məsələsi üzərində qurulmuşdur. Yəni o zaman "öldükdən sonra dirilən şəxs elə əvvəlki şəxsdir» demək olar ki, onun bədəni çürüdükdən sonra ruhu diri qalsın. Başqa sözlə desək, hər bir insan maddi bədəndən əlavə, qeyri-maddi (mücərrəd) və bədəndən fərqlənən, xüsusi mahiyyətə malik olan ruha da malikdir. Belə fərz olunmadığı halda isə həmin şəxsin yeni bir həyat təsəvvür etməsi ağlasığan olmayacaqdır.

Deməli, məadın isbat olunması, məad və onunla əlaqədar məsələlərin bəyan olunmasından öncə bu mətləb isbat olunmalıdır. Buna görə də bu dərsi həmin mövzu ilə əlaqələndirir, onun isbat olunması üçün iki yolla: əql və vəhy yolu ilə dəlil gətiririk.[1]

RUHUN MÜCƏRRƏDLİYİNƏ DAİR ƏQLİ DƏLİLLƏR

Qədim zamanlardan filosoflar və hikmət sahibləri ruh barəsində (bu, fəlsəfi istilahda nəfs adlanır)[2] çoxlu bəhslər aparmışlar, xüsusilə İslam filosofları bu məsələ ilə əlaqədar həddindən artıq ciddiyyət göstərmiş, öz fəlsəfi kitablarının mühüm bölmələrini bu məsələyə həsr etmişlər. Həmçinin, bu zəmində ayrıca kitablar yazmış, ruhu bədənin bir hissəsi, yaxud maddi surətə malik olan varlıq kimi təsəvvür edənlərin nəzərlərini çoxlu dəlillərlə rədd etmişlər.

Aydındır ki, belə bir mühüm mövzu barədə geniş bəhs aparmaq bu kitabın həcmi ilə münasib deyildir. Buna görə də qısa bəhs aparmaqla kifayətlənəcək və çalışacağıq ki, bu fəsildə aydın və eyni zamanda dəlil-sübut əsasında olan bəyanları təqdim edək. Bir neçə əqli dəlildən ibarət olan bu bəyanları aşağıdakı müqəddimə ilə başlayırıq:

Biz bədənimizin rəngini və formasını öz gözlərimizlə görür, onun yumşaq və ya bərk olmasını lamisə hissi ilə ayırd edir, bədənimizin daxili aləmindən yalnız birbaşa olmayan yollarla məlumat əldə edə bilirik. Amma özümüzün qorxu, mehr-məhəbbət, qəzəb, iradə və təfəkkürümüzü bədənimizin hiss üzvlərinin köməyi olmadan dərk edirik. Həmçinin bu kimi ruhi halətlər, atifələr və hisslərə malik olan «mən» barəsində hiss üzvlərinə ehtiyac

---

[1] Bəzən yanlış olaraq belə təsəvvür oluna bilər ki, ruh və məad məsələsini vəhy yolu ilə isbat edilməsi "dövr" sayılır. Çünki nübüvvətin zərurəti üçün gətirilən bürhanlarda mövzunun əsli kimi nəzərə alınan axirət həyatı (ruh məsələsi üzərində qurulduğu fərz olunur) bu prinsipin vəhy və nübüvvət yolu ilə isbat olunmasından sonradır və bu da **dövrü** tələb edir. Amma diqqət yetirmək lazımdır ki, vəhy əsasında dəlil gətirməyin düzgünlüyü nübüvvətin zərurəti məsələsinə ehtiyaclı deyil, əksinə, onun baş verməsi əsasındadır ki, möcüzə yolu ilə sübuta yetir (diqqət edin). Qurani-kərim öz-özlüyündə möcüzə və İslam Peyğəmbəri (s) haqq olduğu üçün ruh və məad məsələlərini isbat etməkdən ötrü ona əsaslanmaq səhihdir.

[2] Qeyd etmək lazımdır ki, nəfs haqqında fəlsəfi istilah əxlaq bölməsində irəli çəkilən və əqlin qarşısında dayanaraq onun ziddi sayılan nəfsdən tamamilə fərqlidir.

duymadan agahlıq əldə edirik.

Deməli, insan ümumi halda iki növ idrakdan faydalanır: Biri bədənin hissi üzvləri vasitəsilə olan idrak, digəri isə bu hiss üzvlərinə ehtiyacı olmayan idrak.

Digər məsələ bundan ibarətdir ki, hissi idraklarda baş verən müxtəlif xətalara diqqət yetirməklə bu idrakda xəta ehtimalının olması nəticəsinə gəlirik. Amma ikinci qism idraklarda heç bir xəta, səhv, şəkk və şübhədən söhbət gedə bilməz. Məsələn, birinin öz dərisinin rəngini həqiqətdə də hiss etdiyi kimi olub-olmamasında şəkk etməsi mümkündür. Amma heç kəs özünün idraka malik olub-olmamasında, qərara gəlib-gəlməməsində, şəkkə düşüb-düşməməsində şəkk edə bilməz! Bu da fəlsəfədə aşağıdakı təbirlə bəyan olunan mətləbdir:

Hüzuri-elm birbaşa həqiqətlərin, gerçəkliklərin özünə nüfuz edir və buna görə də onda xətaya yer yoxdur, amma **hüsuli-elm** idrakı surət vasitəsilə baş verdiyindən zatən onda şəkk və tərəddüdə ehtimal verilir.[1]

Yəni insanın məlumat və elmləri içərisində ən çox yəqinliyə malik olanı hüzuri elm və şühudi məlumatlardır ki, bu da insanın öz nəfsinə, hisslərinə, atifələrinə və s. ruhi halətləri barəsində olan elmdən ibarətdir. Deməli, dərk edən, düşünən, qərara gələn «mən»in varlığında qətiyyən şəkk oluna bilməz. Eləcə də qorxu, mehr-məhəbbət, qəzəb, həyəcan, düşüncə və iradə barəsində də şəkkə yol yoxdur.

İndi belə bir sual yaranır ki, bu «mən» maddi və hiss olunandırmı və bu kimi ruhi halətlər də bədənin zahiri xüsusiyyətlərindən sayılır, yoxsa, onların varlıqları bədənin varlığından tamamilə başqadır? «Mən»in bədənlə çox sıx və qırılmaz rabitəyə malik olmasına və öz işlərindən çoxunu bədənin vasitəsilə yerinə yetirməsinə baxmayaraq, həm ona təsir qoyub, həm də ondan təsirlənirmi?

Yuxarıdakı müqəddiməyə diqqət yetirməklə bu sualın cavabı asanlıqla məlum olur. Çünki:

Əvvəla, «mən»i hüzuri elm ilə başa düşürük. Lakin bədəni hiss orqanları vasitəsilə dərk etməliyik. Deməli, «mən» (nəfs və ruh) bədəndən tamamilə fərqlənir.

İkincisi, «mən» elə bir varlıqdır ki, uzun illər boyu vəhdət halında və şəxsiyyətin həqiqətilə qalır və biz bunu xətaya yol verilməyən hüzuri elm ilə dərk edirik. Halbuki, bədən üzvləri dəfələrlə dəyişikliyə məruz qalır, əvvəlki və sonradan gələn üzvlər həqiqi bir vəhdət təşkil etmir.

Üçüncüsü, «mən» bəsit və hissələrə ayrılmayan bir varlıqdır. Misal üçün, onu «mənim yarım» olaraq iki yerə bölmək olmaz. Halbuki, bədənin üzvləri çoxdur və bölünməyə qabildir.

Dördüncüsü, hiss, iradə və sair kimi ruhi halətlərdən heç biri maddiyyatın əsl xasiyyətlərinə, yəni dartılma, bölünmə və s. malik deyildir. Belə qeyri-

[1] "Amuzeşe fəlsəfə", 1-ci cild, 13-cü dərsə müraciət edə bilərsiniz.

maddi işləri maddənin (bədənin) xüsusiyyətlərindən hesab etmək olmaz. Deməli, bu xüsusiyyətin əsası qeyri-maddi (mücərrəd) mahiyyətə malikdir.[1]

Ruhun varlığına, bədən öldükdən sonra onun müstəqil şəkildə qalmağına dair ən çox ürəyəyatan və xatircəmlik gətirən dəlillərdən biri doğru yuxulardır. Belə ki, bəzi şəxslər öldükdən sonra düzgün məlumatları yuxugörənin ixtiyarına verirlər. Eləcə də ilahi övliyaların kəramətləri və hətta yoqların işlərindən bəziləri də ruhun varlığı və onun mücərrəd olmasını isbat etmək üçün faydalıdır. Bu məsələ ilə əlaqədar geniş bəhs bu barədə olan müfəssəl kitablarda gətirilmişdir.

QURAN DƏLİLLƏRİ

Quran nəzərindən insanın ruhunun mövcud olmasında heç bir şəkk-şübhə yoxdur. Elə bir ruh ki, şərafətinin artıq dərəcədə olmasından Mütəal Allaha mənsub edilir.[2] Belə ki, insanın yaradılışının necəliyi barəsində buyurulur:

«Allah ona – insana Öz ruhundan üfürdü.»[3]

Bədəni yaratdıqdan sonra Özünə mənsub olan ruhu ona üfürdü. (Amma nəuzu billah, Allahın Zatından bir şey ayrılaraq insana nəql olunmadı). Həzrət Adəmin (ə) yaradılışı barəsində belə buyurulur:

«Ona Öz ruhumdan verdim.»[4]

Başqa ayələrdən də məlum olur ki, ruh bədəndən, onun əlamət və xüsusiyyətlərindən tamamilə fərqlidir, hətta, bədənsiz qalmaq qabiliyyətinə belə malikdir. Quranda kafirlərin sözü nəql edildikdən sonra buyurulur:

Kafirlər "Biz (öldükdən və) yerdə itib-batdıqdan (bədənimizin hissələri torpağa dağıldıqdan) sonra yeni həyata malik olacağıqmı? - deyirlər."

Onların cavabında buyurulur:

«De: (Siz itib-batmırsınız, əksinə) sizin üçün təyin olunan ölüm mələyi sizi (sizin ruhunuzu) alır və sonra Pərvərdigarınıza tərəf qaytarılırsınız.»[5]

Deməli, insanın mahiyyət və şəxsiyyətinin həqiqəti onun ruhundan ibarətdir ki, ölüm mələyi vasitəsilə alınıb saxlanılır. O, bədən kimi deyildir ki, çürüyüb torpağa qarışsın.

Digər bir ayədə buyurulur:

«Allah (əcəli çatan kimsələrin) canlarını (ruhlarını) onlar öldüyü zaman, ölməyənlərin (hələ əcəli çatmayanların) canlarını isə yuxuda

---

[1] "Amuzeşe fəlsəfə", 2-ci cild, 44 və 49-cu dərslər.

[2] "Üsuli-kafi", 1-ci cild, səh134.

[3] "Səcdə" surəsi, ayə:9.

[4] "Hicr" surəsi, ayə:29, "Sad" surəsi, ayə:72.

[5] "Səcdə" surəsi, ayə:11.

alar. Ölümə hökm olunmuş kimsələrin canlarını (ruhlar aləmində) saxlayar. Digər (ölümə hökm olunmamış) kimsələrin canlarını isə müəyyən bir müddətədək (əcəlləri gəlib çatana qədər yuxudan oyandıqda bədənlərinə) qaytarar.»[1]

Zalımların necə ölməsi barəsində buyurulur:

«Kaş sən zalımları ölüm əzabı içində çabalayan, mələklərin də (bu zaman) əllərini onlara tərəf uzadıb: «öz canlarınızı çıxarın (təslim olun)! Siz bu gün Allaha qarşı nahaq sözlər danışdığınıza və Onun ayələrinə təkəbbür göstərdiyinizə görə alçaldıcı bir əzabla cəzalandırılacaqsınız!»-dediklərini görəydin.»[2]

Bu və bu kimi çoxlu ayələrdən məlum olur ki, (biz ixtisara riayət olunsun deyə bundan artığını qeyd etmirik) hər kəsin həqiqəti o şeydən ibarətdir ki, Allah, ölüm mələyi və ruhun bədəndən çıxarılması üçün təyin olunan digər mələklər onu alır. Bədənin məhv olması ilə ruhun davamına və insanın şəxsi vəhdətinə heç bir zərər vurulmur. Belə nəticə alınır ki, **əvvəla,** insanda ruh adlı bir şey vardır, **ikincisi,** insan ruhu bədəndən ayrı müstəqil şəkildə qalmağa qabildir və məhəllin aradan getməsi ilə məhv olan maddi surətlər və xüsusiyyətlər kimi deyildir, **üçüncüsü,** hər bir fərdin mahiyyəti onun ruhuna bağlıdır. Başqa sözlə desək, hər insanın həqiqəti onun ruhudur. Ruh ilə bədəni müqayisə etdikdə məlum olur ki, bədən sadəcə olaraq ruh üçün bir vasitə rolu oynayır.

SUALLAR

1.Hüzuri və hüsuli elmin tərifini deyin və fərqlərini izah edin.
2.Ruhun mücərrəd olmasına dair əqli dəlilləri bəyan edin.
3.Ruhun mücərrəd olmasını daha hansı yollarla isbat etmək olar?
4.Bu bəhslə əlaqədar ayələr hansılardır?
5.Bu ayələrdən hansı nəticələr əldə olunur?

[1] "Zümər" surəsi, ayə:42
[2] "Ənam" surəsi, ayə:93.

QIRX DÖRDÜNCÜ DƏRS

MƏADIN İSBAT OLUNMASI

–Müqəddimə
–İlahi hikmət
–İlahi ədalət

MÜQƏDDİMƏ

Kitabın əvvəlində qeyd olunduğu kimi məada, yəni hər bir insanın axirət aləmində yenidən dirilməsinə etiqad bütün səmavi dinlərin ilkin etiqadlarından olmuş, ilahi peyğəmbərlər bu prinsipə çox əhəmiyyət vermiş, bu barədə təkid etmiş və bu əqidənin insanların qəlbində nüfuz etməsi üçün əzab-əziyyətlərə sinə gərmişlər. Qurani-kərimdə məada və Allahın ədalətli olmasına etiqad yeganə Allaha etiqadla bərabər tutulmuşdur. İyirmidən artıq ayədə Allah kəlməsi «yəvmul-axir» kəlməsi ilə birlikdə işlənmişdir (axirət aləmi ilə əlaqədar iki mindən artıq ayədə söhbət açılmışdır).

Bu bölmənin əvvəlində – məadşünaslıq barəsində tədqiqat aparmağın əhəmiyyəti bəyan olundu. Orada qeyd etdik ki, məadın düzgün təsəvvür olunması hər insanın şəxsiyyətinin meyarı sayılan və onun ölümündən sonra diri qalan ruhun qəbul olunmasına əsaslanır ki, "dünyadan gedən həmin şəxs bir daha axirət aləmində diriləcəkdir" - deyilə bilsin. Sonra isə belə ruhun varlığını əql və vəhy yolu ilə isbat etdik ki, insanın əbədi həyatı ilə əlaqədar əsas bəhslərə şərait yaransın. İndi isə bu mühüm etiqad prinsipini isbat edirik.

Ruh iki yolla - əql və nəql yolu ilə isbat olunduğu kimi, bu məsələ də iki yolla isbat edilir. Bu dərsdə məadın zərurətinə dair iki əqli dəlil gətirəcək, sonra isə məadın əvvəlcə mümkünlüyü, daha sonra isə zərurəti haqqında Quran ayələrini araşdıracağıq.

İLAHİ HİKMƏT

Allahşünaslıq bölməsində qeyd olunduğu kimi, Allah heç nəyi əbəs yerə yaratmamışdır. Əksinə, Allahın Zatının eyni olan xeyir və kamala məhəbbət ilkin olaraq zatın özünə, sonrakı mərhələdə isə xeyir və kamalın müəyyən mərtəbələrinə malik olan əsərlərinə şamil olur. Buna görə də Allah dünyanı elə yaratmışdır ki, ona mümkün olan ən çox xeyir və kamal çatsın. Beləliklə, hikmət sifətini isbat etmiş oluruq ki, o da məxluqları özlərinin ləyaqəti qədər son kamal həddinə çatdırmağı tələb edir. Lakin maddi dünya təzadlar evi, maddi varlıqların xeyir və kamalları bir-biri ilə ziddiyyətdə olduğundan Allahın hikmətli tədbiri bunu tələb edir ki, onları məcmu halında daha artıq kamal və xeyirə çatacaqları mümkün olan bir şəkildə tənzim etsin. Başqa sözlə, dünya ən gözəl xilqətə malik olsun. Məhz buna görə də onların növləri, kəmiyyət, keyfiyyət felləri elə tənzim olunmuşdur ki, bitkilərin, heyvanların və nəhayət, bu dünya varlıqlarının ən kamili olan insanın yaradılışı üçün şərait yaransın. Əgər maddi aləm canlı varlıqların yaranıb inkişaf etməsinin qeyri-mümkün olduğu bir tərzdə yaradılsaydı, hikmətin ziddinə olardı.

İnsan əbədi yönə malik olan, eləcə də əbədi kamallara malik olma qabiliyyətinə yiyələnə biləcək bir ruha sahib olduğundan, (elə kamallar ki, vücud dəyəri və mərtəbə baxımından maddi kamallarla əsla müqayisə

olunası deyildir) əgər onun həyatı bu dünyəvi həyatla xülasələnsəydi, ilahi hikmətlə uyğun gəlməzdi. Xüsusilə, buna diqqət yetirsək ki, dünya həyatı daim əzab-əziyyət, çətinliklər və xoşagəlməzliklərlə yanaşıdır və əksər hallarda bir ləzzəti müəyyən əzab-əziyyətlərə qatlaşmadan əldə etmək mümkün olmur. Belə nəticə alınır ki, bu qədər xoşagəlməz hadisələrə, əzab-əziyyətlərə dözmək məhdud və ötəri bir ləzzətin əldə olunmasına dəyməz. Məhz buna görə də puçluğa, əbəsliyə meyl yaranır və hətta, həyata ifrat dərəcədə meylləri olan şəxsləri belə tənəzzülə doğru sürükləyir.

Doğrusu, əgər insan həyatı yalnız əzab-əziyyət çəkmək, təbii və ictimai çətinliklərlə qarşılaşıb onlara sinə gərmək və nəticədə müəyyən anları şadlıq və ləzzətlə keçirmək, daha sonra yorğunluğun şiddətindən bədənin yenidən fəaliyyətə hazırlığı olan vaxta qədər yatıb növbəti günü yeni işlərə başlamaqdan başqa bir şeyə malik olmasaydı (misal üçün, onun bütün səyləri bir tikə çörək əldə etmək və yalnız onu yediyi zaman ləzzət almaq olsaydı və bundan başqa heç bir şey olmasaydı) onda belə bir sonsuz ziyan və insanı bezikdirən həyatı əql heç vaxt qəbul etməzdi. Belə bir həyatın ən yaxşı oxşarı bu ola bilər ki, sürücü öz maşınını benzindoldurma stansiyasına çatdırmağa və benzin bakını doldurmağa tələssin, sonra isə bu benzinlə özünü yalnız növbəti benzindoldruma stansiyasına çatdırsın və avtomobili köhnəlib işdən düşənə, yaxud başqa bir maneələrlə qarşılaşıb məhv oluncaya qədər bu vəziyyət təkrar olunsun. Aydındır ki, insan həyatına belə baxışın məntiqi nəticəsi puçluğa meyl etməkdən başqa bir şey olmayacaqdır.

Digər tərəfdən, insanın əsaslı qərizələrindən (instiktlərindən) biri əbədiyyətə məhəbbətdir ki, Allah bu hissi onun fitrətində qoymuşdur. Bu da eynilə öz işçi qüvvəsini artıran güclü mühərrikə bənzəyir ki, bu mühərrik onu əbədiyyətə doğru sövq edir və onun hərəkət sürətini daim artırır. Əgər belə mühərrikin hərəkətinin ən sürətli anında böyük bir daşa, yaxud qayaya dəyib dağılması fərz olunsa, onda belə bir mühərrikin icad olunması bu cür tale və hədəflə uyğun gəlirmi? Deməli, belə fitri meylin varlığı o zaman ilahi hikmətlə uyğun olacaqdır ki, qarşıda fəna və ölümə məhkum olunan bu həyatdan başqa bir həyat da olsun.

Bir sözlə, bu iki müqəddiməni, yəni Allahın hikmətini və insan üçün əbədi həyatın mümkünlüyünü bir-biri ilə müqayisə etməklə belə nəticə alırıq ki, insan üçün onun bu dünyadakı məhdud həyatından başqa, digər bir həyat da olmalıdır ki, Allahın hikməti ilə müxalif olmasın.

Əbədiyyətə olan fitri bir meyli də digər bir müqəddimə ünvanı ilə qeyd etmək və ilahi hikməti ona əlavə eləməklə digər bürhan da düzəltmək olar.

Deməli, insanın əbədi həyatı başqa quruluşa malik olmalıdır ki, dünyadakı həyat kimi öz ardınca çoxlu əzab-əziyyət gətirməsin. Əks halda, elə bu dünyəvi həyatın davam etdirilməsi (hətta əbədiyyətə qədər mümkün olsa belə) ilahi hikmətlə uyğun gəlməyəcəkdir.

İLAHİ ƏDALƏT

Bu dünyada insanlar yaxşı və pis işləri seçib yerinə yetirməkdə tam azaddırlar. Bir tərəfdən bəzi adamlar bütün ömrünü Allaha ibadətdə, Onun bəndələrinə xidmətdə keçirir, digər tərəfdən bəzi əxlaqsız insanlar da öz şeytani məqsədlərinə nail olmaq üçün ən alçaq zülmlərə, ən çirkin günahlara qurşanırlar. Ümumiyyətlə, insanın bu dünyadakı yaradılışında, ona bir-birinə zidd olan meyllər, iradə və seçki qüvvəsi verilməsində, eləcə də növbənöv əqli və nəqli mərifətlərlə təchiz olunmasında, müxtəlif əməl və rəftarlar üçün şərait yaradılmasında, onun haqq və batil, xeyir və şər kimi iki yol ayrıcında qərar verilməsində əsas hədəf bundan ibarətdir ki, saysız-hesabsız imtahanlara düçar olsun, öz təkamül yolunu ixtiyar və iradə əsasında seçsin ki, ixtiyari əməlin nəticələrinə, mükafat və cəzalarına nail ola bilsin. Həqiqətdə, insan üçün dünya həyatı başdan-başa imtahan və sınaqlar vasitəsilə özünün insani şəxsiyyətinin formalaşdırmaqdan ibarətdir. Hətta insan həyatının son anlarında belə imtahandan azad olunmur, təklif və vəzifələrin yerinə yetirilməsi onun üzərindən götürülmür. Amma bu dünyada yaxşı əməl sahibləri ilə pis əməl sahibləri öz əməllərinə layiq olan mükafat və ya cəzaya tam mənada çatmırlar. Üstəlik çox hallarda pis əməl sahibləri daha artıq nemətlərdən bəhrələnirlər. Ümumiyyətlə, bu dünya həyatının insanın əməllərinin çoxunun mükafat və ya cəzasına tutumu yoxdur. Məsələn, minlərlə günahsız insanı qətlə yetirən bir şəxsdən qisas almaqla onu bir dəfədən artıq öldürmək olmaz. Şübhəsiz, belə olan halda onun sair cinayətləri cəzasız qalacaqdır. Halbuki, Allahın ədalətinin tələbinə görə hər kəs ən az miqdarda olsa belə, yaxşı və ya pis iş görsə belə onun nəticəsini mütləq görməlidir.

Deməli, bu dünya təklif və sınaq dünyası olduğu kimi başqa bir dünya da olmalıdır ki, onda insanların əməllərinin nəticələri kamil şəkildə hasil olsun, onların əməllərinə müvafiq olaraq mükafat və ya cəza verilsin, hər bir insan layiq olduğu fərdi şeylərə nail olsun ki, ilahi ədalət əyani şəkildə gerçəkləşsin.

Bunu da qeyd etmək lazımdır ki, axirət aləmi artıq yolun seçilməsi və təklif yerinə yetirilməsi yeri deyildir. Gələcəkdə bu barədə daha çox bəhs aparacağıq.

SUALLAR

1.İlahi hikmət və onun ən gözəl nizam və quruluşla olan əlaqəsini bəyan edin.

2.İlahi hikmətə əsaslanan dəlilin iki variantını bəyan edin.

3.Bu dəlildən məadın özünün isbat olunmasından əlavə daha hansı məsələlər hasil olur?

4.Bu dünyada insanın yaradılışındakı əsas hədəfi bəyan edin.

5.İlahi ədalətə əsaslanan dəlili müfəssəl şəkildə bəyan edin.

6.Bu dəlildən hansı xüsusi incə mətləblər əldə olunur?

QIRX BEŞİNCİ DƏRS

QURANDA MƏAD

–**Müqəddimə**
–Məadın inkar olunması əsassızdır
–Məada oxşar hadisələr:
–a) Bitkilərin cücərməsi
–b) Əshabi-Kəhfin yuxusu
–v) Heyvanların dirilməsi
–q) Bəzi insanların dirilməsi

MÜQƏDDİMƏ

Qurani-kərimdə məadın isbat olunması və onu inkar edənlərlə mübahisədən bəhs edən ayələri beş qismə bölmək olar:

1-Onlardan bir qismi təkid edir ki, məadın inkar olunmasına heç bir dəlil olmadığını bildirir. Bu ayələr inkarçıları sanki tərkisilah edir.

2-Bəzi ayələr məada oxşar hadisələri qeyd etməklə onun çox da qəribə bir iş olmadığını başa salır.

3-Bəzi ayələr də məadı inkar edənlərin şübhələrini rədd edərək onun baş verməsinin mümkünlüyünü sübuta yetirir.

4-Bəzi ayələr isə məadı Allahın mütləq baş verəcək, labüd vədəsi kimi təqdim edir və həqiqətdə məadın baş verməsini Müxbiri-sadiqin (doğruçu xəbər verənin) vasitəsilə isbat edir.

5-Bəzi ayələr isə məadın zərurətinin əqli dəlillərini göstərir.

Həqiqətdə əvvəldəki üç dəstə məadın mümkünlüyünü, sonuncu iki dəstə isə qəti surətdə verəcəyini çatdırır.

MƏADIN İNKAR EDİLMƏSİ BARƏDƏ HEÇ BİR QƏTİ DƏLİL YOXDUR

Quranın batil əqidə sahibləri ilə apardığı mübahisə üsullarından biri budur ki, onlardan dəlil gətirmələrini tələb edir ki, onların əqidələrinin əqli və məntiqi əsasda olmaması aşkara çıxsın. Belə ki, bir neçə ayədə **«De: öz dəlillərinizi gətirin!» deyə buyurulur.**[1]

Buna oxşar bəzi ayələrdə buyurulur ki, düzgün olmayan bu əqidə sahiblərinin elmi, real gerçəkliklə müvafiq və dəlil əsasında olan etiqadları yoxdur. Onlar sadəcə olaraq zənn, dəlilsiz gümanlar və həqiqətlə uyğun olmayan şeylərlə kifayətlənirlər.[2]

Məadı inkar edənlərin barəsində belə buyurulur:

«(Kafirlər) deyirlər: Bu dünya həyatından başqa heç bir həyat yoxdur; ölürük və dirilirik; bizi öldürən ancaq dəhrdir. Bu barədə onların heç bir bilikləri yoxdur. Onlar ancaq zənnə qapılırlar.»[3]

Başqa ayələrdə məadın inkar edilməsi dəlilsiz söz və düzgün olmayan bir gümandan ibarət olduğu bildirilir.[4] Əlbəttə, dəlilsiz gümanların həvayi-nəfsə müvafiq olduğu halda həvayi-nəfsə pərəstiş edənlərin tərəfindən qəbul

---

[1] "Bəqərə" surəsi, ayə:111, "Ənbiya" surəsi, ayə:24, "Nəml" surəsi, ayə:64.

[2] "Muminun" surəsi, ayə:117, "Nisa" surəsi, ayə:157, "Ənam surəsi, ayə:100, 119, 148, "Kəhf" surəsi, ayə:5, "Həcc" surəsi, ayə:3, 8, 71, "Ənkəbut" surəsi, ayə:8, "Rum" surəsi, ayə:29, "Loğman" surəsi, ayə:20, "Ğafir" surəsi, ayə:42, "Zuxruf" surəsi, ayə:20, "Nəcm" surəsi, ayə:28.

[3] "Casiyə" surəsi, ayə:24.

[4] "Qəsəs" surəsi, ayə:39, "Kəhf" surəsi, ayə:36, "Sad" surəsi, ayə:27, "Casiyə" surəsi, ayə:32, "İnşiqaq" surəsi, ayə:14.

olunması mümkündür.[1] Və onlarla münasib olan rəftarlar, günahlara düçar olmaq nəticəsində tədricən olaraq qəti etiqada çevrilir.[2] Hətta bəzi şəxslər belə batil etiqadların haqq olması barədə israr da edirlər.[3]

Qurani-kərim məadı inkar edənlərin sözlərinin və dəlillərinin əksər hallarda öz nəzərlərində çox qəribə və qəbul olunmayacaq dərəcədə məntiqsiz olduğunu bildirir və bəzən də məad barəsində olan zəif şübhələrə işarə edir.[4] Buna görə də bir tərəfdən məada oxşar hadisələri xatırladır ki, onların nəzərində çox da qəribə və qəbul edilməyi qeyri-mümkün görsənməsin.[5] Digər tərəfdən isə şübhələrə uyğun cavablar verir ki, heç bir şəkk-şübhəyə yer qalmasın və məadın baş verməsinin mümkünlüyü tamamilə sübuta yetsin. Lakin bu qədərlə də kifayətlənmir, bu ilahi vədənin labüd olmasına, eləcə də vəhy vasitəsilə höccətin insanlara tamamlanmasından əlavə, məadın zərurəti barəsində əqli bürhanlara da işarə edir. Bu da gələn dərslərdə qeyd olunacaqdır.

MƏADA OXŞAR HADİSƏLƏR

a) Bitkilərin cücərməsi:

İnsanın öldükdən sonra bir daha dirilməsi **"ölümdən sonrakı həyat"** olduğundan yer üzərində bitkilərin solaraq quruyub aradan getdikdən sonra bir daha cücərməsinə bənzəyir. Buna görə də insanlar öz gözləri qarşısında həmişə baş verən bu hadisəyə dərindən diqqət yetirdikdə və bu barədə yaxşı təfəkkür etdikdə ölümdən sonra həyatın mümkün olmasını başa düşə bilərlər. Həqiqətdə, bu hadisənin sadə nəzərə çarpmasının və onun əhəmiyyətindən qafil olmasının səbəbi camaatın bu kimi hadisələrə adət etməsidir. Amma yeni həyatın yaranması baxımından insanın öldükdən sonra dirilməsi ilə heç bir fərqi yoxdur.

Qurani-kərim bu cür adət pərdələrini aradan götürmək üçün təkrarən camaatın diqqətini bu hadisəyə cəlb edir və insanların öldükdən sonra yenidən dirilməsini buna oxşadır. O cümlədən buyurur:[6]

«Sən Allahın rəhmət əsərlərinə bax ki, torpağı öldükdən sonra necə

---

[1] "Qiyamət" surəsi, ayə:5.

[2] "Rum" surəsi, ayə: 10-14.

[3] "Nəhl" surəsi, ayə:38.

[4] "Hud" surəsi, ayə:7, "İsra" surəsi, ayə:51, "Saffat" surəsi, ayə:16, 53, "Duxan" surəsi, ayə: 34-36, "Əhqaf" surəsi, ayə:18, "Qaf" surəsi, ayə:3, "Vaqiə" surəsi, ayə: 47,48, "Mütəffifin" surəsi, ayə: 12, 13, "Naziat" surəsi, ayə: 10, 11.

[5] Bu dünyada bir-birinə oxşar işlərin vahid hökmü olacaqdır, istər onun mümkünlüyünə hökm olunsun, istərsə də mümkün olmamasına.

[6] "Əraf" surəsi, ayə:57, "Həcc" surəsi, ayə: 5-6, "Rum" surəsi, ayə:19, "Fatir" surəsi, ayə:9, "Fussilət" surəsi, ayə:19, "Zuxruf" surəsi, ayə:11, "Qaf" surəsi, ayə:11.

dirildir. Doğrudan da, O, ölüləri dirildəndir. O hər şeyə qadirdir.»[1]

b) Əshabi-Kəhfin yuxusu:

Qurani-kərim çoxlu ibrətamiz məsələləri əhatə edən Əshabi-kəhfin qəribə hadisəsini bəyan etdikdən sonra buyurur:

"Beləliklə, camaatı onların (Əshabi-Kəhfin başına gələnlərə) beləcə tanış etdik ki, Allahın vədəsinin doğru olduğunu və qiyamətin gəlib çatacağında heç bir şəkk-şübhə olmadığını bilsinlər.»[2]

Şübhəsiz, bir neçə nəfərin 300 ildən artıq yatdıqdan sonra yenidən oyanması məsələsinə diqqət yetirmək insana məadın mümkünlüyünə işarə etməklə onun çox da qəbul ediləcək bir məsələ olmadığını çatdırır. Çünki hər bir yuxu ölümə oxşayır ("yuxu ölümün qardaşıdır"), hər bir oyanmaq da ölümdən sonrakı diriliyə bənzəyir. Adi yuxularda bədənin biokimyəvi prosesləri təbii olaraq davam edir və ruhun yenidən bədənə qayıtması insanda təəccüb oyatmır. Amma 300 il su və qida maddələrindən istifadə etmədən yatan bir bədən təbiətdə cərəyan edən quruluş və qanunlara əsasən ölməli, çürüməli və ruhun qayıtması üçün öz imkanını əldən verməli idi. Deməli, belə xariqüladə bir hadisə insanın diqqətini adi və təbii sistemlərdən kənarda yerləşən başqa bir aləmə yönəltməlidir. O, başa düşməlidir ki, ruhun bədənə qayıtması heç də həmişə adi, təbii şərait və səbəblərin mövcudluğu ilə şərtlənmir. Deməli, insanın yeni həyatı da, hətta, bu aləmdəki ölüm və həyat qanunlarının əksinə olsa belə, qeyri-mümkün olmayacaq və Allahın vədəsinə görə hökmən gerçəkləşəcəkdir.

q) Heyvanların dirilməsi:

Qurani-kərim bir neçə heyvanın qeyri-adi yolla dirilməsinə işarə edir ki, onlardan biri də həzrət İbrahimin (ə) əli ilə dörd quşun dirildilməsidir.[3] Eləcə də peyğəmbərlərdən birinin ulağının yenidən dirilməsi də qeyd olunur. Əgər Qurana əsasən bir heyvanın yenidən dirildilməsi mümkündürsə, insanın dirildilməsi heç də qeyri-mümkün olmayacaqdır.

ğ) Elə bu dünyada bəzi insanların yenidən dirilməsi:

Daha mühüm məsələ bəzi insanların elə bu dünyada dirilməsidir ki, Qurani-kərim onlardan bir neçə nümunəni qeyd etmişdir. O cümlədən, Bəni-İsrail peyğəmbərlərindən biri barəsində qeyd olunur ki, səfər edərkən yolu bütün əhalisi evlərinin içərisində ölüb çürümüş bir şəhərə düşür, "Allah bu camaatı yenidən necə dirildəcək?" - deyə fikirləşir. Mütəal Allah onun canını alır. Yüz ildən sonra onu dirildir və ona buyurur: **"Bu yerdə neçə müddət dayandın?"** O sanki yuxudan qalxmış kimi deyir: **"Bir gün, yaxud günün bir hissəsini."** Xitab olunur: **"Xeyr, sən yüz il burada qalmısan! Bax gör: bir tərəfdən sənin suyun və çörəyin salamat qalıb, digər tərəfdən isə mindiyin heyvan çürüyüb aradan gedib! İndi bax gör**

---

[1] "Rum" surəsi, ayə:50.

[2] "Kəhf" surəsi, ayə:21.

[3] "Bəqərə" surəsi, ayə:260.

Biz onun sümüklərini necə bir-birinə birləşdirib yenidən onun üzərinə ət çəkir və onu dirildirik!”[1]

Digər bir hadisə isə Bəni-İsraildən bir qrupun həzrət Musaya (ə) “Biz Allahı aşkar şəkildə görməyincə heç vaxt iman gətirməyəcəyik!” - deyə israr etdikləri zaman baş vermişdir. Bu zaman Allah onları ildırımla həlak edib, sonra Musanın (ə) duası ilə yenidən dirildir.[2]

Eləcə də həzrət Musanın (ə) dövründə Bəni-İsraildən bir nəfər qətlə yetirilir və Allahın əmri ilə bir inək kəsib ətindən ona vurulması ilə dirilir. Bunun təfsilatı “Bəqərə” surəsində qeyd olunur. Bu surə də məhz həmin səbəbə görə “Bəqərə” (inək) adlandırılmışdır. Həmin hadisənin sonunda buyurulur:

“Allah ölüləri də beləcə dirildir və Öz ayə və nişanələrini sizə göstərir ki, bəlkə əqlinizi işə salasınız.»[3]

Həmçinin həzrət İsanın (ə) möcüzəsi ilə bəzi ölülərin dirilməsini də məadın mümkünlüyünə sübut kimi gətirmək olar.[4]

SUALLAR

1.Quranın məadı inkar edənlərlə rəftarını bəyan edin.

2.Bitkinin göyərməsinin qiyamətə nə kimi oxşarlığı var? Quranın bu barədəki nəzərini bəyan edin.

3.Əshabi-Kəhf hadisəsindən məadla əlaqədar hansı məsələlər aydın olur?

4.Quşların həzrət İbrahimin (ə) əli ilə dirilməsinin məad məsələsi ilə olan əlaqəsini izah edin.

5.Quran bu dünyada öldükdən sonra yenidən dirilən hansı şəxsləri qeyd edir?

---

[1] “Bəqərə” surəsi, ayə:159.

[2] “Bəqərə “surəsi, ayə:55 -56.

[3] “Bəqərə “ surəsi, ayə:67-73.

[4] “Ali-İmran” surəsi, ayə:49, “Maidə” surəsi, ayə:110.

QIRX ALTINCI DƏRS

QURANIN İNKARÇILARIN ŞÜBHƏLƏRİNƏ CAVABLARI

1.Yox olmuş şeyin yenidən qaytarılması (iadətul-mədum) şübhəsi
2.Bədənin yenidən həyatı qəbul etməyə qabil olmaması şübhəsi
3.Allahın qüdrəti barəsində şübhə
4.Allahın elmi barəsində şübhə

Qurani-kərimin məadı inkar edənlərlə apardığı mübahisələrdən, eləcə də onların suallarına verdiyi cavablardan belə məlum olur ki, onların beyinlərində müəyyən şübhələr olmuşdur. Biz də onları, cavabları ilə birlikdə aşağıdakı şəkildə təqdim edirik.

1. "YOX OLMUŞ ŞEYİN YENİDƏN QAYTARILMASI" ŞÜBHƏSİ

Əvvəllər də işarə olunduğu kimi, Qurani-kərim "insan öldükdən, bədəni çürüyüb torpağa qarışdıqdan sonra onun yenidən dirilməsi necə mümkün ola bilər?!» - deyən şəxslərə verdiyi cavabın məzmunu belədir: **"Sizin insanlığınızın həqiqi mahiyyəti yerin altında çürüyüb aradan gedən bədənləriniz deyil, ruhunuzdur.»**[1]

Bunlardan belə aydın olur ki, kafirlərin məadı inkar etməsinin əsas səbəbi fəlsəfədə "iadətul-mədum" (mədumun–tamamilə yox olmuş şeyin yenidən qaytarılması) adlandırılan şübhədir. Yəni, onlar belə təsəvvür edirdilər ki, insan təkcə maddi bədəndən ibarətdir ki, ölməsi ilə məhv olub aradan gedir. Əgər yenidən dirilərsə ayrı bir insan olacaqdır. Çünki yox olub aradan getmiş bir varlığı yenidən qaytarmaq qeyri-mümkündür.

Bu şübhənin cavabı Qurani-kərimin bəyanından aydın olur və o da bundan ibarətdir ki, hər bir insanın həqiqəti onun ruhudur. Başqa sözlə desək, məad yox olmuş şeyi qaytarmaq deyil, əksinə mövcud olan ruhun qayıtmasıdır.

2. «BƏDƏNİN YENİ HƏYATI QƏBUL ETMƏYƏ QABİL OLMAMASI» ŞÜBHƏSİ

Əvvəlki şübhə məadın zatən mümkün bir iş olub-olmaması ilə əlaqədar idi. Bu şübhə isə onun baş verməsinin mümkünlüyü ilə bağlıdır. Yəni, ruhun bədənə qayıtmasının əqli baxımdan qeyri-mümkün olmasa da, eləcə də bu fərziyyədə heç bir ziddiyyətin olmamasına baxmayaraq onun gerçəkləşməsi bədənin bu işi qəbul etməyə qabiliyyəti ilə şərtlənir. Biz də bilirik ki, həyatın vücuda gəlməsi xüsusi səbəb və şərtlərə bağlıdır ki, bunlar da tədrici olaraq yaranmalıdır. Məsələn, ana bətnində qərar tutan nütfənin inkişafı üçün münasib şərait vücuda gəlməlidir ki, yavaş-yavaş kamil bir rüşeym formasına düşsün və insana çevrilsin. Lakin çürümüş bədənin artıq həyat fəaliyyəti və istedadı yoxdur.

Bu şübhənin cavabı belədir: Dünyada müşahidə olunan bu quruluş mümkün olan yeganə sistem deyildir və bu dünyada təcrübələr əsasında tanınan səbəb və amillər həmin səbəb və amillərlə məhdudlaşmır. Dəlilimiz də budur ki, elə bu dünyanın özündə xariqüladə hadisələr, o cümlədən, bəzi heyvanların və insanların yenidən dirilməsi baş vermişdir.

Bu cavabı qeyd olunan hadisələrin möcüzəli şəkildə baş verməsini Qurani-kərimdə də anlamaq olar.

---

[1] "Səcdə" surəsi, ayə:10, 11.

3. ALLAHIN QÜDRƏTİ BARƏSİNDƏ ŞÜBHƏ

Növbəti şübhə bundan ibarətdir ki, bir varlığın vücuda gəlməsi üçün onun imkan və qabiliyyətindən əlavə, bu işi görənin qüdrəti də şərtdir. Allahın da ölülərli diriltməyə qüdrətli olması haradan məlumdur?

Allahın sonsuz qüdrətini tanımayan şəxslər tərəfindən irəli çəkilən bu puç şübhənin cavabı budur ki, Allahın qüdrəti üçün heç bir hədd yoxdur. Allahın qüdrəti baş verməsi mümkün olan hər bir şeyə şamil olur. Belə ki, bütün bu sonsuz dünyanı da əzəmət və insanı heyrətə gətirən ecazkarlıqla ilə yanaşı yaratmışdır.

«Məgər onlar göyləri və yeri yaratmış və onları yaratmaqdan yorulmamış Allahın ölüləri də diriltməyə qadir olduğunu görüb anlamırlarmı? Əlbəttə, O hər şeyə qadirdir.»[1]

Bundan əlavə, bir şeyin yenidən yaradılışı, heç də onun ilkin yaradılışından çətin deyildir və bu iş daha artıq qüdrət tələb etmir. Əksinə, demək olar ki, o daha asandır. Çünki bu zaman ruhun qaytarılmasından başqa bir iş görülmür.

«Məxluqatı əvvəlcə yoxdan var edən, sonra da yenidən dirildəcək Odur! Bu (iş) Onun üçün çox asandır.»[2]

«O halda bizi kim (yenidən dirildib həyata) qaytaracaqdır? De: İlk dəfə sizi yoxdan yaradan (Allah)! Onlar (istehza ilə) sənə başlarını bulayıb: Bu nə vaxt olacaqdır?-deyə soruşacaqlar. De: Bəlkə də, bu yaxın zamanda.»[3]

4. ALLAHIN ELMİ BARƏSİNDƏ ŞÜBHƏ

Digər şübhə bundan ibarətdir ki, əgər Allah insanları yenidən dirildərək onları öz əməllərinə görə mükafatlandırsa və ya cəzalarına çatdırsa, bu zaman bir tərəfdən sonsuz sayda bədənləri bir-birindən ayırmalıdır ki, hər bir ruhu öz bədəninə qaytarsın! Digər tərəfdən də bütün yaxşı və pis işləri yadda saxlamalıdır ki, onların hər birinə layiq olan mükafat və cəzanı verə bilsin! Necə mümkün ola bilər ki, çürüyüb torpağa qarışan bədənləri bir-birindən ayırsın?! Necə mümkündür ki, insanların bütün rəftarlarını – minlərlə, bəlkə də milyonlarla illər ərzində insanlarda baş vermiş rəftar və əməlləri qeyd edib onları araşdırsın?!

Bu şübhə də Allahın elminin sonsuz olmasını bilməyənlər, həmçinin o elmi özlərinin naqis və məhdud elmləri ilə müqayisə edənlər tərəfindən irəli sürülür. Onun cavabı bundan ibarətdir ki, Allahın elminin heç bir həddi, sərhədi yoxdur və Onun elmi hər şeyi əhatə edir. Allah hər hansı bir şeyi

---

1 "Əhqaf" surəsi, ayə:33, "Yasin" surəsi, ayə:81, "İsra" surəsi, ayə:99, "Saffat" surəsi, ayə:11, "Naziat" surəsi, ayə:27.

2 "İsra" surəsi, ayə:51, həmçinin bax: "Ənkəbut" surəsi, ayə:19,20, "Qaf" surəsi, ayə:15, "Vaqiə" surəsi, ayə:62, "Yasin" surəsi, ayə:80, "Həcc" surəsi, ayə:5, "Qiyamət" surəsi, ayə:40, "Tariq" surəsi, ayə:8.

3 "Rum" surəsi, ayə:27.

heç vaxt unutmaz.

Qurani-kərim Fironun dilindən nəql edib buyurur ki, o, Musaya (ə) dedi:

«Əgər Allah bizim hamımızı dirildib əməllərimizi araşdırarsa, onda bizdən qabaq ölüb məhv olan insanların vəziyyəti necə olacaqdır?!»

Həzrət Musa (ə) buyurdu:

«Bütün bunların elmi Pərvərdigarımın yanında kitabda (yazılaraq) qorunub saxlanılır. Mənim Pərvərdigarım heç vaxt səhv etməz və heç bir şeyi unutmaz.»[1]

Digər bir ayədə sonuncu iki şübhəyə belə cavab verilir:

«(Ey Peyğəmbər!) De: Ölüləri, onları ilk dəfə yaradıb vücuda gətirən şəxs dirildəcəkdir və O hər şeyə qadirdir.»[2]

SUALLAR

1.Məhv olub aradan gedən bir şeyin yenidən qaytarılmasının qeyri-mümkün olması şübhəsini cavabı ilə birlikdə yazın.

2.Bədənin yeni həyatı qəbul etməməsi şübhəsini şərh edin.

3.Allahın qüdrəti barəsindəki şübhəni cavabla birlikdə yazın.

4.Allahın elmi barəsindəki şübhəni onun cavabları ilə birlikdə yazın.

[1] "Taha" surəsi, ayə: 51, həmçinin bax: Qaf" surəsi, ayə: 3, 4.

[2] "Yasin" surəsi, ayə:79.

QIRX YEDDİNCİ DƏRS

QİYAMƏT BARƏSİNDƏ ALLAHIN VƏDƏSİ

–**Müqəddimə**
–Allahın labüd və qaçılmaz vədəsi
–Əqli dəlillərə işarə

MÜQƏDDİMƏ

Qurani-kərim bir tərəfdən Mütəal Allah tərəfindən bəndələrə xəbər verdiyi məadın gerçəkləşəcəyini təkid edib onu Allahın labüd və heç bir xilafla uyğun olmayan vədəsi hesab edir. Beləliklə də, bütün insanlara höccəti tamamlayır. Digər tərəfdən isə məadın zərurətinə əqli dəlillərlə işarə edir ki, insanın əqli mərifətə olan rəğbəti təmin olunsun və höccəti bir neçə qat artırsın. Buna görə də Quranın məadın isbat olunması barəsindəki bəyanlarını iki qismə ayırır və hər biri ilə əlaqədar ayələri qeyd edirik.

ALLAHIN LABÜD VƏ QAÇILMAZ VƏDƏSİ

Qurani-kərim axirətdə Qiyamətin bərqərar olunması və bütün insanların dirildiməsini heç bir şəkk-şübhə olmayan məsələlərdən biri kimi qeyd edərək buyurur:

«Həqiqətən, Qiyamət saatı gələcəkdir və onda heç bir şəkk-şübhə yoxdur.»[1]

Quran bu məsələni həqiqi və heç bir şübhə edilməyəcək məsələlər sırasında qeyd edərək buyurur:

«Əlbəttə! Bu, Allahın haqq olan vədəsidir.»[2]

Onun gerçəkləşəcəyinə dair dəfələrlə and içmişdir. O cümlədən buyurur:

«De: Əlbəttə! And olsun Rəbbimə! Siz hökmən diriləcəksiniz və gördüyünüz əməllərdən agah olunacaqsınız. Bu, Allaha üçün çox asandır.»[3]

Camaata bu barədə xəbərdarlıq verilməsi peyğəmbərlərin vəzifələrindən ən mühümü kimi qeyd olunur və buyurulur:

«Ruhu Öz əmri ilə bəndələrindən istədiyi kəsə ilqa edir ki, (bəndələri) Təlaq (Qiyamət) günündən qorxutsun."

Onu inkar edənlər üçün isə əbədi bədbəxtçilik və Cəhənnəm əzabını müqərrər edərək buyurur:

«Biz də o saatı (qiyaməti) yalan hesab edənlər üçün (Cəhənnəmdə) şiddətli bir atəş hazırladıq.»[4]

Deməli, bu səmavi kitabın–Quranın haqq olmasını dərk edən bir şəxsin məadı inkar etmək və ya onun barəsində şəkk-şübhə yaratmaq üçün heç bir

---

1 "Ğafir" surəsi, ayə:59; həmçinin bax: "Ali-İmran" surəsi, ayə:9, 25, "Nisa" surəsi, ayə:87, "Ənam" surəsi, ayə:12, "Kəhf" surəsi, ayə:21, "Həcc" surəsi, ayə:7, "Tur" surəsi, ayə:7, "Casiyə" surəsi, ayə:26 və 32.

2 "Nəhl" surəsi, ayə:38; həmçinin bax: "Ali-İmran" surəsi, ayə:9, 191, "Nisa" surəsi, ayə:122, "Yunis" surəsi, ayə:4, 55, "Kəhf" surəsi, ayə:21, "Ənbiya" surəsi, ayə:103, "Furqan" surəsi, ayə:16, "Loğman" surəsi, ayə:9, 33, "Fatir" surəsi, ayə:5, "Zümər" surəsi, ayə:20, "Nəcm" surəsi, ayə:47, "Casiyə" surəsi, ayə:32, "Əhqaf" surəsi, ayə:17.

3 "Təğabun" surəsi, ayə:7; həmçinin bax: "Yunis" surəsi, ayə:53, "Səba" surəsi, ayə:3.

4 "Furqan" surəsi, ayə:11, "İsra" surəsi, ayə:10, "Səba" surəsi, ayə:8, "Muminun" surəsi, ayə:74.

bəhanəsi olmayacaqdır. Əvvəlki bölmədə aydın olduğu kimi, həqiqət axtaran hər insan üçün əgər insafla araşdırma apararsa, Quranın haqq olması məlum olacaqdır. Buna görə də heç kəs onu qəbul etməmək barəsində bəhanə gətirə bilməz. Yalnız əqli cəhətdən naqis (anormal) olan, yaxud müəyyən səbəblərə görə haqqı qəbul edə bilməyən şəxslər istisna olunur.

ƏQLİ DƏLİLLƏRƏ İŞARƏ

Bir çox Quran ayələrində məadın zərurətinə dair əqli dəlillər gözə dəyir. Onları hikmət və ədalətə əsaslanan sübutlara da aid etmək olar. O cümlədən "inkari sual" formasında buyurulur:

«Yoxsa belə təsəvvür edirsiniz ki, Biz sizi əbəs yerə yaratmışıq və Bizə doğru qaytarılmayacaqsınız?»[1]

Bu ayə aşkar şəkildə göstərir ki, əgər məad və Allah dərgahına qayıdış məsələsi olmasaydı, insanın bu dünyada yaradılması əbəs olacaqdı. Lakin hikmət sahibi olan Allah əbəs və bihudə iş görməz. Deməli, Onun dərgahına qayıdış üçün mütləq bu dünyadan başqa da bir dünya olmalıdır.

Bu dəlil göstərir ki, insanın bu dünyada yaradılışı o zaman hikmətli hədəfə malik olacaqdır ki, bu dünya həyatının ardınca Allah dərgahına qayıdışdan ibarət olan axirət aləmi də olsun və orada onların əməlləri araşdırılsın. Biz bu iki məsələnin bir-birinə bağlılığını Allahın hikmətini sübut edərkən izah etmişdik və onun bir daha təkrarlanmasına ehtiyac yoxdur.

İkinci məsələyə gəldikdə isə (Allahın heç vaxt əbəs və bihudə iş görməməsi), elə ilahi hikmət və Allahın işlərinin mənasız və puç olmamasından ibarətdir. Bu da Allahşünaslıq bölməsində ilahi və hikməti sübut edərkən qeyd olundu. Deməli, yuxarıdakı ayə həmin müddəa ilə tam uyğun gəlir.

İndi əlavə edirik ki, insanın yaradılışı dünyanın yaradılışı üçün bir hədəf olmasına əsasən insanın bu dünyadakı həyatı əbəs və hikmətsiz olarsa, dünyanın da yaradılışı bihudə və boş-boşuna olacaqdır. Bu məsələni də Quran ayələrindən əldə etmək olar. Belə ki, Quran axirət aləmini dünyanın yaradılışının hikmət üzündən olmasından ötrü zəruri edir. O, əql sahibləri barəsində belə buyurur:

«...(Əql sahibləri) ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlayır. Asimanların və yerin yaradılışı haqqında təfəkkür edər (və deyərlər:) Pərvərdigara! Sən bunları boş yerə yaratmamısan! Sən (batil iş görmək kimi boş şeylərdən) pak və müqəddəssən! Bizi Cəhənnəm əzabından qoru!»[2]

Bu ayədən məlum olur ki, dünyanın yaradılışı barəsində düşünüb təfəkkür etmək insanın ilahi hikməti dərk etməsinə müsbət təsir göstərir. İnsan dərk edir ki, hikmət sahibi olan Allah bu böyük və əzəmətli yaradılışda hikmətli

---

[1] "Muminun" surəsi, ayə:115.

[2] "Ali-İmran" surəsi, ayə:191.

hədəfləri izləyir və onu boş-boşuna və əbəs yerə yaratmamışdır və əgər bu dünyanın yaradılışı üçün yekun hədəf hesab olunacaq digər bir dünya olmazsa, onda ilahi xilqət puç və hədəfsiz olacaqdır.

Quran məadın zəruriliyi barəsində olan digər əqli dəlilləri ilahi ədalətlə əlaqələndirir.[1] Yəni ilahi ədalət bunu tələb edir ki, Allah yaxşı əməl sahiblərini mükafatlandırıb, pis əməl sahiblərini cəzalandırmaqla onların aqibətlərini müəyyənləşdirsin. Belə bir ayrı-seçkilik bu dünyada olmadığından hökmən digər bir aləm bərqərar olunmalıdır ki, Allah Öz ədalətini insanlara əyani olaraq göstərsin.

"Casiyə" surəsində buyurulur:

«Yoxsa dünyada pis əməllər edənlər (axirətdə) onları iman gətirib yaxşı işlər görənlərlə bir tutacağımızı, onların həyatlarının və ölümlərinin eyni olacağınımı güman edirlər?! Onlar nə pis mühakimə yürüdürlər?! Allah göyləri və yeri haqq-ədalətlə və hər kəsin qazandığı nə isə onun müqabilində əvəz görməsi üçün yaratmışdır. Və onlara heç bir haqsızlıq edilməyəcəkdir.»[2]

Qeyd edək ki, **«və xələqəllahus-səmavati vəl-ərzə bil-həqqi»** cümləsini ilahi hikmətdən ötrü də dəlil hesab etmək olar. Ümumiyyətlə, ilahi ədalət məsələsini ilahi hikmətlə eyniləşdirmək də olar. Çünki, ilahi ədalət barəsində qeyd olunan dəlildə izah etdiyimiz kimi ədalət hikmətin nümunələrindən biridir.

SUALLAR

1.Qurani-kərim məadı isbat etməklə camaata höccəti necə tamamlayır?
2.Hansı ayələri ilahi hikmətə əsaslanan dəlil kimi göstərmək olar?
3.Hansı ayələri ilahi ədalətə əsaslanan dəlil kimi göstərmək olar?
4.Ədalətin sübut olunması məsələsini ilahi hikmətə necə aid etmək olar?

[1] "Sad" surəsi, ayə:28, "Ğafir" surəsi, ayə:58, "Qələm" surəsi, ayə:35, "Yunis" surəsi, ayə:4.

[2] "Casiyə" surəsi, ayə:21, 22.

QIRX SƏKKİZİNCİ DƏRS

AXİRƏT ALƏMİNİN XÜSUSİYYƏTLƏRİ

–**Müqəddimə**
–Əql nəzərindən axirət aləminin xüsusiyyətləri

MÜQƏDDİMƏ

İnsan heç bir təcrübə kəsb etmədiyi, batini müşahidə və agahlıq üzündən olan elm ilə dərk etmədiyi, hiss ilə qavramadığı şeylər barədə kamil təsəvvürə malik ola bilməz. Buna görə də, axirət aləmi və onda baş verən işlərin həqiqəti barədə kamil və dəqiq təsəvvürə malik olub onları olduğu kimi dərk etməyi gözləməməli, yalnız əql və vəhy yolu ilə əldə etdiyimiz məlumatla kifayətlənməliyik.

Təəssüflər olsun ki, bəziləri axirət aləmini eynilə dünya aləmi kimi təqdim etməyə çalışırlar. Onlar bu barədə olan ifrat fikirləri ilə axirət behiştinin elə bu aləmdə və hansısa planetdə mövcud olduğunu, insanın elm və texnikanın köməyi ilə nə vaxtsa ora gedə bilcəyini, orada rahat və asudə yaşayacağı fərziyyəsini irəli sürmüşlər.

Bəziləri də axirət aləminin mövcud olduğunu inkar etmiş, behişti əxlaqi dəyərlər kimi cilvələndirmişlər və nəticədə cəmiyyətin müxtəlif nümayəndələri və görkəmli şəxsiyyətləri onlara ürək bağlamış, dünya və axirət arasındakı fərqləri də dəyər və qazanc arasındakı fərqlər hesab etmişlər.

Birinci dəstədən olanlardan soruşmalıyıq ki, əgər axirət behişti hansısa planetdədirsə və gələcək nəsillər oraya çata biləcəksə, onda Quranda göstərildiyi kimi qiyamətdə insanların yenidən dirilməsi və bir yerə toplanmasının nə mənası var? Orada keçmişdəkilərin əməl və rəftarlarının mükafat və cəzası necə veriləcəkdir?

Həmçinin, ikinci dəstədən soruşmalıyıq ki, behişt əxlaqi dəyərlərdən başqa bir şey deyilsə (və təbii olaraq cəhənnəm də əxlaqa zidd olan dəyərlərin əksinə olan şeylərdən başqa bir şey deyilsə) onda Quran, məadın varlığına və insanların öldükdən sonra yenidən dirilməsinə bu qədər israr etməkdə hansı məqsədi güdür? Yaxşı olmazdımı ki, ilahi peyğəmbərlər həmin mənanı aşkar şəkildə bəyan edəydilər ki, bu qədər ittihamlara, etirazlara və s. kimi şeylərə düçar olmayaydılar?!

Bu kimi xurafatçı sözləri bir kənara qoyduqda da filosofların və mütəkəllimlərin məadın cismani yoxsa ruhani olacağı, eləcə də, qiyamətdə maddi aləmin tamamilə məhv olub aradan gedib-getməyəcəyi, axirətdəki bədənin eynilə dünyadakı kimi, yoxsa digər formada olacağı və s. kimi məsələlər barəsində ixtilafları ilə qarşılaşırıq.

Gerçəkliklərin aşkar olunması həqiqətlərə yaxınlaşmaq yolunda əqli və fəlsəfi səylər nə qədər təqdirəlayiq iş olsa və onların sayəsində düşüncələrin zəif və güclü nöqtələri nə qədər aşkar olsa belə, bu bəhslər vasitəsi ilə axirət aləmi ilə əlaqədar olan mətləbləri heç vaxt olduğu kimi dərk edə biləcəyimizi qəbul etməliyik.

Doğrusu, görəsən indiyə qədər bu dünya aləminin bütün həqiqətləri kamil şəkildə kəşf olunubmu? Görəsən, müxtəlif təbiət elmləri sahəsində çalışan mütəxəssislər, elm adamları, o cümlədən, fiziklər, kimyaçılar, bioloqlar

maddə, enerji və müxtəlif qüvvələrin həqiqətlərini olduğu kimi kəşf edə biliblərmi? Görəsən, bu dünyanın gələcəyi barədə qəti bir nəzər söyləyə bilərlərmi? Görəsən, misal üçün, cazibə qüvvəsinin dünyadan götürüləcəyi, yaxud elektronların hərəkətdən düşəcəyi təqdirdə nə kimi hadisələrin baş verəcəyini bilirlərmi? Ümumiyyətlə, belə hadisələr baş verəcəkmi?

Görəsən, filosoflar bu dünya ilə əlaqədar olan əqli məsələlərin hamısını dəqiq şəkildə həll edə biliblərmi? Cisimlərin, müxtəlif növ varlıqların həqiqəti, ruhla bədənin əlaqəsi və s. kimi məsələlər barəsində əlavə tədqiqata ehtiyac yoxdurmu?

Belə isə, barəsində heç bir təcrübəmiz olmayan o aləmin (axirət aləminin) həqiqətini dərk etmək üçün bu elmlərdən, özümüzün məhdud düşüncə və naqis fikirlərimizdən necə kömək ala bilərik? Əlbəttə, bəşər elminin çatışmazlıqları həqiqətlərin üzərindən pərdələrin götürülməsinin qeyri-mümkün olması, yaxud, bu yolda aparılan çalışmaların dayandırılması demək deyil. Şübhəsiz, biz Allah verən əql qüvvəsi ilə həqiqətlərin çoxunu dərk edirik. Eləcə də hiss və təcrübənin köməyi ilə təbiətin sirlərindən çoxunu kəşf edə bilirik. Əlbəttə, öz elm və biliyimizi artırmaq yolunda elmi və fəlsəfi səylərimizi davam etdirməliyik. Amma, həmişə əqlin qüdrəti və təcrübi elmlərin sərhədlərini tanımalı, qürurlanmamalı və bu ayəni yada salmalıyıq:

“Elmdən sizə yalnız az bir miqdar əta olunubdur.»[1]

Bəli, həm elmi və məntiqi reallıq, həm hikmətə bağlı olan təvazökarlıq, həm də dini məsuliyyət və ehtiyat tələb edir ki, qiyamətin həqiqətləri və qeyb aləmi barəsində qəti fikir yürütməkdən, heç bir dəqiq fakta söykənməyən nəzəriyyələrdən uzaq olaq. Biz bu işləri yalnız əqli dəlillərin və Quranın açıq-aşkar bəyanları həddində görə bilərik. Ümumiyyətlə, hər bir mömin şəxsin Mütəal Allah tərəfindən nazil olanlara, xüsusilə əql və təcrübənin hüdudlarından kənarda olan, elmimizin qüdrəti çatmayan şeylər barəsində imanlı olması kifayətdir. Hərçənd, onun incəliklərini dəqiq şəkildə müəyyən edib müfəssəl şəkildə açıqlaya bilməsə belə.

İndi görək axirət aləminin əlamət və xüsusiyyətlərini əql yolu ilə nə dərəcədə dərk etmək və onun dünya aləmi ilə olan fərqlərini necə bəyan etmək olar.

ƏQL NƏZƏRİNDƏN AXİRƏT ALƏMİNİN XÜSUSİYYƏTLƏRİ

Məadın zərurəti barəsində qeyd olunan dəlil-sübutlarda dərindən diqqət yetirməklə axirət aləminin xüsusiyyətləri barəsində bəzi müəyyən nəticələr əldə etmək olar. Onların ən mühümləri aşağıdakılardır:

1.Axirət aləminin, xüsusilə, birinci dəlildən əldə olunan ilk xüsusiyyəti bundan ibarətdir ki, o, əbədi olmalıdır. Çünki həmin dəlilə əsasən əbədi həyatın mümkünlüyü və insanın fitri olaraq belə bir həyata meyl etməsi

[1] “İsra” surəsi, ayə:85.

məlum olur. Onun gerçəkləşməsi də ilahi hikmətə əsaslanır.

2.Hər iki dəlildən əldə olunan və birinci dəlilə də işarə olunan digər bir xüsusiyyət bundan ibarətdir ki, axirət aləminə hakim olan quruluşda nemət və rəhmət xalis, hər növ əzab-əziyyətdən və zəhmətdən uzaq olmalıdır ki, insaniyyətin kamal həddinə çatan, qətiyyən günah və azğınlığa qurşanmayan şəxslər belə bir səadətdən bəhrələnsinlər. Amma dünya həyatında belə bir mütləq səadət mümkün deyildir; dünyadakı səadət və xoşbəxtliklərin özü də nisbi şəkildə əzab-əziyyətlərə mənsub edilir.

3.Axirət aləminin üçüncü xüsusiyyəti bundan ibarətdir ki, bu aləm əzab və rəhmət üçün bir-birindən ayrı olan iki hissədən təşkil olunmalıdır ki, yaxşı əməl sahibləri ilə pis əməl sahibləri bir-birindən tamamilə ayrılsın və hər biri öz əməllərinin nəticəsinə çatsın. Bu iki bölmə də şəriətdə behişt və cəhənnəm adlandırılır.

4.Xüsusilə, ilahi ədalətə əsaslanan dəlildən əldə olunan dördüncü xüsusiyyət bundan ibarətdir ki, axirət aləmi elə geniş səviyyəli olmalıdır ki, bütün insanların hər növ yaxşı və pis əməl sahibi olmaları ilə əlaqədar onlara mükafat və cəzasının verilmə imkanı da olsun. Misal üçün, əgər bir şəxs milyonlarla insanı nahaq yerə qətlə yetiribsə, onun həmin dünyada cəzalandırılması mümkün olsun. Bunun müqabilində də, əgər bir şəxs milyonlarla insanın asayiş və gözəl həyatına şərait yaradıbsa, onun əməlinə müvafiq mükafat verilməsi mümkün olsun.

5.Ədalətə əsaslanan dəlil vasitəsilə əldə olunan digər bir mühüm xüsusiyyət bundan ibarətdir ki, axirət aləmi təklif aləmi deyil, cəza və əvəz aləmi olmalıdır.

İzah:

Dünya həyatı elə qurulmuşdur ki, burada insan bir-birinə zidd olan, bir-birinin əksinə olan meyl və rəğbətlərə malikdir. Həmişə iki yol ayrıcında olur və onlardan birini seçməyə məcburdur. Bu məsələ də, onun ömrünün axır anlarına qədər davam etdiyi üçün ilahi təklifdən ötrü şərait yaradır. Allahın hikmət və ədaləti də bunu tələb edir ki, ilahi təklifə əməl edənləri layiqli mükafata çatdırsın, imtina edənləri isə layiqli şəkildə cəzalandırsın. Həmin təklifdən ötrü zəmin və yolun seçilməsi üçün şərait axirət aləmində də mövcud olarsa, Allahın rəhməti təklifin yerinə yetirilməsinə və yolun seçilməsinə mane olmamağı tələb edir. Beləliklə, orada görülən əməllərin əvəzi üçün də digər bir aləm lazım olur. Həqiqətdə axirət kimi fərz etdiyimiz aləm hazırda yaşadığımız kimi digər bir dünya hesab olunacaqdır. Lakin həqiqi axirət heç vaxt təklif, imtahan və bunlar üçün zəminənin mövcud olduğu yer olmayan yekun bir axirət aləm olacaqdır.

Məhz buradan da dünya və axirət aləmləri arasındakı ən mühüm fərq aydın olur. Yəni dünya aləmi elə bir aləmdir ki, onda seçim və sınaqlardan ötrü zəmin vardır. Axirət aləmi isə yalnız yaxşı və pis əməllərin əbədi nəticələrinin, cəza və mükafatlarının həyata keçdiyi yerdir:

«Bu gün hesabsız əməl günüdür. Sabah isə əməlsiz hesab günüdür.»[1]

SUALLAR

1.Nə üçün biz axirət aləmi barəsində dəqiq və tam təsəvvürə malik deyilik?

2.Axirət barəsində yanlış fikirlərdən ikisini açıqlayın.

3.Axirət aləminin xüsusiyyətlərini hansı yolla dərk edə bilərik?

4.Əql nəzərindən axirət aləminin xüsusiyyətlərini şərh edin.

[1] "Nəhcül-bəlağə", 42-ci xütbə.

QIRX DOQQUZUNCU DƏRS

ÖLÜMDƏN QİYAMƏTƏ QƏDƏR

–**Müqəddimə**
–Bütün insanlar öləcək
–Canları alan
–Canın asan və ya çətin çıxması
–Ölüm halında iman və tövbənin qəbul olunmaması
–Dünyaya qayıdış arzusu
–Bərzəx aləmi

MÜQƏDDİMƏ

Qeyd olunduğu kimi, biz öz məhdud elmimiz vasitəsi ilə axirət aləminin və ümumiyyətlə, qeyb aləminin həqiqəti barəsində tam təsəvvürə malik ola bilmərik. Sadəcə olaraq, bir sıra əqli dəlillər və vəhy vasitəsilə əldə olunan müəyyən məlumat əldə edə bilərik. Keçən dərsdə əqli dəlillərin nəticəsi olan axirətin ümumi xüsusiyyətlərindən bəziləri qeyd olundu. İndi isə Qurandan əldə olunan bəzi xüsusiyyətləri araşdırırıq.

Əlbəttə, axirət aləminin xüsusiyyətləri barəsində işlədilən sözlərdən bəzilərinin mütəşabeh (bənzədilən) olması, həmçinin onları eşitdikdə zehnimizdə yaranan təsəvvürlərin onun gerçək nümunələri ilə dəqiq şəkildə müvafiq olmaması da mümkündür. Bunun da səbəbi bəyanın çatışmamazlığına deyil, bizim idrak qüvvəmizdə mövcud olan çatışmazlığa əsaslanır. Çünki zehnimizin imkanlarına diqqət yetirməklə o həqiqətlər barədə bizdə təsəvvür oyada biləcək ən yaxşı sözlər məhz Quranın seçdiyi sözlərdir. Quranın bəyanları axirətin başlanğıc anlarına (ölüm anlarına) da aid olduğundan söhbətimizi insan ölümü ilə başlayırıq.

BÜTÜN İNSANLAR ÖLƏCƏKDİR

Qurani-kərim bütün insanların (hətta bütün canlıların) öləcəyini və heç kəsin bu aləmdə əbədi olaraq diri qalmayacağını bildirir:

«Yer üzündə olan hər kəs fanidir (ölümə məhkumdur).»[1]

«Hər kəs ölüm şərbətini dadacaqdır.»[2]

Peyğəmbərə (s) xitabən buyururlur:

«Həqiqətən sən (də) öləcəksən və onlar (da) öləcəklər.»[3]

«Səndən qabaq heç bir insan üçün əbədilik qərar verməmişik. Belə isə, əgər sən ölsən, onlar əbədi olaraqmı qalacaqlar?!»[4]

Deməli, ölümü istisnasız olaraq dünyanın bütün canlı varlıqları üçün ümumi bir qanun kimi qəbul etmək lazımdır.

---

[1] "Ər-rəhman" surəsi, ayə:26.

[2] "Ali-İmran" surəsi, ayə:185, "Ənbiya" surəsi, ayə:35.

[3] "Zümər" surəsi, ayə:30.

[4] "Ənbiya" surəsi, ayə:34.

CANLARI ALAN

Qurani-kərim bir tərəfdən canın alınmasını Mütəal Allaha mənsub edərək buyurur:

«Allah canları, onlar öldüyü vaxt alır.»[1]

Digər tərəfdən isə ölüm mələyini bu iş üçün təyin olunmuş məmur kimi təqdim edir:

«De: Sizin üçün təyin olunan ölüm mələyi sizin canınızı alacaqdır.»[2]

Başqa bir yerdə isə canın alınmasını Allahın göndərdiyi başqa mələklərə istinad verir:

«...Sizlərdən hər hansı birinin ölüm vaxtı çatan zaman Bizim (göndərdiklərimiz) mələklər onun (canını) alar.»[3]

Aydındır ki, əgər bir nəfər öz işini başqasının əli ilə görürsə həmin işin hər ikisinə aid edilməsi düzgündür. Əgər ikinci də həmin iş üçüncünün vasitəsilə həyata keçirirsə, onda bu iş üçüncüyə də aid olur. Mütəal Allah da canların alınmasını ölüm mələyinin vasitəsi ilə yerinə yetirdiyindən və o da öz fərmanı altında olan başqa mələklərdən istifadə etdiyindən hər üçünə aid edilməsi düzgündür.

CANIN ASAN VƏ YA ÇƏTİN ALINMASI

Qurani-kərimdən məlum olur ki, Allah tərəfindən təyin olunan məmurlar insanların hamısının canını eyni səviyyədə almırlar. Onlardan bəzilərinin ruhunu rahatlıqla və ehtiramla, başqalarınınkını isə çox kobud surətdə və təhqirlə alırlar. Quranda möminlər barəsində buyurulur:

«O kəslər ki, mələklər onların canlarını çox rahatlıqla alıb onlara salam verir (və ehtiram göstərirlər).»[4]

Kafirlərin barəsində isə belə buyurulur:

«O zaman ki, mələklər kafirlərin ruhunu alarlar, onların üzlərinə və kürəklərinə vurarlar.»[5]

Hətta demək olar ki, həm möminlərin öz aralarında iman dərəcəsinə görə, həm də kafirlərin öz aralarında küfr dərəcələrinə görə canın asan və ya çətin verilməsində müəyyən fərqlər də vardır.

ÖLÜM HALINDA TÖVBƏ VƏ İMANIN QƏBUL OLUNMAMASI

Günahkarlar və kafirlər əcəllərinin gəlib çatdığını gördükdə, artıq dünya həyatından ümidsiz olduqda öz keçmiş yaramaz əməllərindən tövbə etmək

---

[1] "Zümər" surəsi, ayə:42.

[2] "Səcdə" surəsi, ayə:11.

[3] "Ənam" surəsi, ayə:61.

[4] "Nəhl" surəsi, ayə:32, "Ənam" surəsi, ayə:93.

[5] "Ənfal" surəsi, ayə:50, "Məhəmməd" surəsi, ayə:27.

qərarına gəlirlər. Lakin belə tövbə heç vaxt onlardan qəbul olunmur. Qurani-kərim bu barədə buyurur:

«Pərvərdigarının ayələrindən bəziləri onlara gəldiyi zaman əvvəllər iman gətirməyən, yaxud, iman halında yaxşı iş görməyən şəxslərin imanı onlar üçün faydalı olmaz.»[1]

«Pis işlər görənlərin və hər hansı birinin (yalnız) ölüm vaxtı çatan zaman "indi tövbə etdim" deməsi ilə tövbəsi qəbul olunmaz.»[2]

Firon haqqında nəql olunur ki, qərq olma anında belə dedi:

«Bəni-İsrailin iman gətirdiyi Allahdan başqa heç bir məbudun olmadığına iman gətirdim və mən müsəlmanlardanam!»[3]

Onun cavabında isə belə buyurulur:

«Əvvəllər itaətsizlik edib fəsad törətdiyin halda indimi (tövbə edib iman gətirirsən)?!»[4]

DÜNYAYA QAYIDIŞ ARZUSU

Qurani-kərim kafirlərin və pis əməl sahiblərinin dilindən onların ölüm vaxtları gəlib çatanda, yaxud onlara həlakedici bəla nazil olan zaman yenidən dünyaya qayıtmaq, iman gətirib yaxşı əməl sahibi olmaq, yaxud, keçmiş əməllərindən tövbə etməkdən ötrü Allahdan onları dünyaya qaytarmasını arzu etdiklərini nəql edir. Lakin belə arzular və istəklər heç vaxt həyata keçməz.[5] Bəzi ayələrdə əlavə olaraq qeyd edilir ki, əgər onlar yenidən bu dünyaya qaytarılsalar yenə də öz əvvəlki azğınçılıq yollarını və yaramaz əməllərini davam etdirəcəklər.[6] Onlar qiyamətdə də belə arzu edəcəklər. Sözsüz ki, onların orada da cavabı qəbul edilməyəcəkdir:

«Nəhayət, onlardan birinin ölümü gəlib çatdığı zaman o belə deyər: "Pərvərdigara! Məni dünyaya qaytar, bəlkə (indiyə qədər) etdiyim ömrün müqabilində yaxşı işlər görüm! Tərk etdiyim əməlləri yerinə yetirim!" Heç vaxt! Bu onun dediyi boş bir sözdür.»[7]

«(Qurana tabe olun ki, sonradan bir nəfər) əzabı gördüyü zaman "kaş bir dəfə də (dünyaya) qayıda biləydim, yaxşı işlər görənlərdən

---

[1] "Ənam" surəsi, ayə:50, "Səba" surəsi, ayə: 51-53, "Ğafir" surəsi, ayə:85, "Səcdə" surəsi, ayə:29.

[2] "Nisa" surəsi, ayə:18.

[3] "Yunis" surəsi, ayə:90-91.

[4] "Yunis" surəsi, ayə: 90-91.

[5] Qeyd olunmalıdır ki, Qurani-Kərim bir ömür küfr və üsyankarlıq edərək ölüm halından dünyaya qayıdıb öz günahlarını cübran və islah etmək fikrində olanların tövbəsini, eləcə də axirət aləmindən dünyaya qayıdışı inkar edir və bu da dünyaya hər növ qayıdışı inkar etmək mənasına deyildir. Çünki əvvəllər də qeyd olunduğu kimi ölümdən sonra yenə bu dünyaya gələn şəxslər olmuşdur. Şiələrin əqidəsinə görə həzrət Məhdi (ə) zühur edəndən sonra da müəyyən şəxslər bu dünyaya qayıdacaqlar.

[6] "Ənam" surəsi, ayə: 27-28.

[7] "Muminun" surəsi, ayə:99.

olaydım!» - deməsin.»[1]

«Gətirilib od üstündə saxlandıqları zaman sən onların: «Kaş ki, biz dünyaya qaytarılıb Rəbbimizin ayələrini yalan hesab etməməydik və möminlərdən olaydıq» – demələrini görəydin!»[2]

«Kaş günahları öz Rəbblərinin hüzurunda başlarını aşağı dikib: «Ey Rəbbimiz! Gördük, eşitdik indi bizi (dünyaya) qaytar ki, yaxşı iş görək. Biz tam yəqinliklə inandıq!» - deyəndə görəydin!»[3]

Bu ayələrdən məlum olur ki, axirət aləmi yol seçimi və vəzifələrə əməl etmək yeri deyildir. Hətta ölüm zamanı, yaxud axirət aləmində hasil olan yəqinin belə insanın təkamülündə heç bir təsiri yoxdur və bu iş mükafatlandırılmağa səbəb olmur. Buna görə də kafirlər və günahkarlar dünyaya qayıdaraq ixtiyar üzündən iman gətirmək və layiqli işlər görmək arzusu edərlər.

BƏRZƏX ALƏMİ

Quran ayələrindən məlum olur ki, insan öldükdən sonra və qiyamət bərqərar olmamışdan əvvəl müəyyən müddət qəbir və bərzəx aləmində qalacaqdır. Burada o, müəyyən qədər şadlıq və ləzzət hissi keçirəcək, yaxud qəm-qüssə və əzab-əziyyətə düçar olacaqdır. Çoxlu rəvayətlərdə qeyd olunur ki, günahkar mömin bu müddətdə qiyamət aləminə günahsız gəlməkdən ötrü öz günahlarına münasib olan əzab-əziyyət və çətinliklərə düçar olmaqla paklanır.

Bərzəx aləmi ilə əlaqədar ayələrin ətraflı şəkildə araşdırılıb təfsir olunmağa ehtiyacı olduğundan bu fikirdən keçir, yalnız bir ayə zikr etməklə kifayətlənirik:

«Onların önündə dirilib (haqq-hesab üçün Allahın hüzurunda) duracaqları günə (qiyamət gününə) qədər manea (bərzəx aləmi) vardır.»[4]

SULLAR

1.Quranın insanın dünyada əbədi olmaması barədə olan ayəsini izah edin.

2.İnsanın canını kim alır? Bununla əlaqədar ayələr arasındakı ziddiyyət necə aradan qaldırılır?

3.Canların alınmasında nə kimi fərqlər vardır?

4.Quranın ölüm halında tövbə etmək və iman gətirməklə əlaqədar olan ayələri izah edin.

5.Qurani-kərim dünyaya hansı növ qayıdışı inkar edir? Bu qayıdışın rəcətə

---

[1] "Zümər" surəsi, ayə:58, Şüəra" surəsi, ayə:102.

[2] "Ənam" surəsi, ayə: 27, 28, "Əraf" surəsi, ayə:53.

[3] "Səcdə" surəsi, "Fatir" surəsi, ayə:37.

[4] "Muminun" surəsi, ayə:100.

etiqadla ziddiyyəti varmı? Nə üçün?

6.Bərzəx aləmi barəsində məlumat verin.

ƏLLİNCİ DƏRS

QURANDA QİYAMƏTİN TƏSVİRİ

–Müqəddimə
–Yerin, dəryaların və dağların vəziyyəti
–Asimanların və ulduzların vəziyyəti
–Ölüm suru
–Həyat suru (şeypuru) və qiyamətin başlanması
–Mütləq ilahi hökmranlığın zühuru
–İlahi ədalət məhkəməsi
–Əbədi iqamətgaha doğru
–Behişt
–Cəhənnəm

MÜQƏDDİMƏ

Quran ayələrindən məlum olur ki, axirət aləminin bərqərar olunması təkcə insanların dirilməsi ilə bitmir. Əsas etibarı ilə bu dünyaya hakim olan quruluş və nizam da tamamilə dəyişiləcək, digər bir aləm tamam başqa xüsusiyyətlərlə bərqərar olunacaqdır. Elə bir aləm olacaqdır ki, biz öncədən bu barədə xəbər verə bilmərik və təbiidir ki, onun xüsusiyyətləri barəsində dəqiq təsəvvürümüz də yoxdur. O zaman xilqətin əvvəlindən axırına qədər olan bütün insanlar birlikdə diriləcək və əməllərinin nəticələrini görəcək, əbədi behişt nemətlərində, yaxud cəhənnəm əzabında olacaqlar.

Bu bəhslə əlaqədar olan ayələr olduqca çoxdur və onların hamısının araşdırılması kitabın həcminə uyğun deyil. Yalnız onların məzmununu qeyd etməklə kifayətlənirik.

YERİN, DƏRYALARIN VƏ DAĞLARIN VƏZİYYƏTİ

Yerdə güclü zəlzələlər baş verər.[1] Öz içində olanları çölə tökər.[2] Onun hissələri bir-birindən ayrılıb pərakəndə vəziyyətə düşər.[3] Dəryalar yarılar,[4] dağlar hərəkətə gələr[5] və bir-birinə çırpılaraq[6] qum təpəsi kimi,[7] didilmiş yun kimi,[8] daha sonra dağılaraq fəzada pərakəndə vəziyyətə düşər. [9] Başlarını asimana dikən uca dağlar silsiləsindən ilğımdan başqa bir şey qalmaz.[10]

---

[1] "Zilzal" surəsi, ayə:1, "Həcc" surəsi, ayə:1, "Vaqiə" surəsi, ayə:4, "Müzzəmmil" surəsi, ayə:14.

[2] "Zilzal" surəsi, ayə:2, "İnşiqaq" surəsi, ayə:4.

[3] "Əl-haqqə" surəsi, ayə:14, "Fəcr" surəsi, ayə:21.

[4] "Təkvir" surəsi, ayə:6, "İnfitar" surəsi, ayə:3.

[5] "Kəhf" surəsi, ayə:47, "Nəhl" surəsi, ayə:88, "Tur" surəsi, ayə:10, "Təkvir" surəsi, ayə:2.

[6] "Əl-haqqə" surəsi, ayə:4, "Vaqiə" surəsi, ayə:5.

[7] "Müzzəmmil" surəsi, ayə:14.

[8] "Məaric" surəsi, ayə:9, "Qariə" surəsi, ayə:5.

[9] "Taha" surəsi, ayə: 105-107," Mürsəlat" surəsi, ayə:10.

[10] "Kəhf" surəsi, ayə:8, "Nəbə" surəsi, ayə:20.

ASİMANIN VƏ ULDUZLARIN VƏZİYYƏTİ

Ay, eləcə də Günəşdən milyon dəfələrlə böyük olan əzəmətli ulduzlar sönər,[1] onların hərəkətindəki qanunauyğunluqlar pozular.[2] O cümlədən, ay və ulduzlar bir-birinə qovuşar,[3] bu dünyanı möhkəm bir tavan kimi əhatə edən asiman çalxalanar[4] və parçalanaraq bir-birindən ayrılar.[5] Onun nizamı bir-birinə qarışar.[6] Səma cisimləri əridilmiş filiz şəklinə düşər[7] və dünyanın fəzası tüstü və buludla dolar.[8]

ÖLÜM SURU

Belə bir vəziyyətdə ölüm suru çalınar və bütün canlı varlıqlar ölər.[9] Təbiət aləmində həyatdan heç bir əsər-əlamət qalmaz. Vəhşət hissi və iztirab bütün canları bürüyər.[10] Yalnız varlığın sirlərindən və həqiqətlərindən agah olan, qəlbləri ilahi mərifət və məhəbbətlə dolan şəxslər iztirab hissi keçirməzlər.

HƏYAT SURU VƏ QİYAMƏTİN BAŞLANMASI

Daha sonra əbədi olan digər bir həyat başlanar.[11] Bütün dünya Allahın nuru ilə işıqlanar,[12] həyat suru yenidən səslənər[13] və bütün insanlar (hətta heyvanlar belə)[14] bir anda dirilərlər.[15] Daha sonra vahiməli halda[16] havada yayılaraq pərakəndə vəziyyətdə uçan çəyirtkə kimi olar,[17] sürətlə[18] ilahi

---

[1] "Təkvir" surəsi, ayə: 1-2.

[2] "İnfitar" surəsi, ayə:2.

[3] "Qiyamət" surəsi, ayə:9.

[4] "Tur" surəsi, ayə:1, Əl-haqqə" surəsi, ayə:16.

[5] "Ərrəhman" surəsi, ayə:37, "Əl-haqqə" surəsi, ayə:16, "Müzzəmmil" surəsi, ayə:18, "Mürsəlat" surəsi, ayə:9, "Nəbə" surəsi, ayə:19, "İnfitar" surəsi, ayə:1, "İnşiqaq" surəsi, ayə:1.

[6] "Ənbiya" surəsi, ayə:104, "Təkvir" surəsi, ayə:11.

[7] "Məaric" surəsi, ayə:8.

[8] "Furqan" surəsi, ayə:25, "Duxan" surəsi, ayə:10.

[9] "Zümər" surəsi, ayə:68, "Əlhaqqə" surəsi, ayə:13, "Yasin" surəsi, ayə:49.

[10] "Nəml" surəsi, ayə:87-89.

[11] "İbrahim" surəsi, ayə:48, "Zümər" surəsi, ayə:67, "Məryəm" surəsi, ayə:38, "Qaf" surəsi, ayə:22.

[12] "Zümər" surəsi, ayə:69.

[13] "Zümər" surəsi, ayə:68, "Kəhf" surəsi, ayə:99, "Qaf" surəsi, ayə:20, 42, "Nəbə" surəsi, ayə:18, "Naziat" surəsi, ayə:13-14, "Müddəssir" surəsi, ayə:8," Saffat" surəsi, ayə:19.

[14] "Ənam" surəsi, ayə:38, "Təkvir" surəsi, ayə:5.

[15] "Kəhf" surəsi, ayə:47, "Nəhl" surəsi, ayə:77, "Qəmər" surəsi, ayə:50, "Nəbə" surəsi, ayə:18.

[16] "Qaf" surəsi, ayə:20.

[17] "Qariə" surəsi, ayə:4, "Qəmər" surəsi, ayə:7.

[18] "Qaf" surəsi, ayə:44, Məaric" surəsi, ayə:43.

məhkəməyə doğru tələsərlər[1] və bütün insanlar böyük bir səhnədə bir yerə toplaşarlar.[2] Əksər hallarda vəziyyət elə olar ki, bərzəx aləmində qalmaları bir saat, bir gün, yaxud bir neçə gün davam etdiyini təsəvvür edərlər.[3]

MÜTLƏQ İLAHİ HÖKMRANLIĞIN ZÜHURU

Qiyamət aləmində bütün həqiqətlər aşkar olar.[4] İlahi hökumət və səltənət tam mənada zühur edər.[5] Varlıqlar elə bir heybət və əzəmət görərlər ki, heç kəs ucadan bir söz danışmaq qüdrətinə malik olmaz.[6] Və hər kəs öz taleyinin fikrində olar aqibətinin nə ilə qurtaracağı barədə fikirləşər. Hətta, bir ata-anadan olan övladlar, qohum-əqrəbalar və yaxın adamlar bir-birindən qaçar.[7] Ümumiyyətlə, səbəblər və qohumluq əlaqələri bir-birindən ayrılar.[8] Dünyəvi və şeytani meyarlar və mənafelər əsasında olan dostluqlar düşmənçiliyə çevrilər.[9] Keçmiş günah əməllərindən yaranan təəssüf və peşmançılıq qəlbləri bürüyər.[10]

İLAHİ ƏDALƏT MƏHKƏMƏSİ

Bu zaman ilahi ədalət məhkəməsi təşkil olunar və bütün bəndələrin əməlləri hazır edilər.[11] Nameyi-əməllər (əməl dəftərləri) paylanar.[12]

---

[1] "Yasin" surəsi, ayə:51, "Mütəffifin" surəsi, ayə:30, "Qiyamət" surəsi, ayə:12, 30, eləcə də "Həşr", "Nəşr", "Liqaullah", "Rucuiləllah", "Rədiləllah" ayələrinə müraciət edə bilərsiniz.

[2] "Kəhf" surəsi, ayə:99, "Təğabun" surəsi, ayə:9, "Nisa" surəsi, ayə:87, "Ənam" surəsi, ayə:12, "Ali-İmran" surəsi, ayə:-9, "Hud" surəsi, ayə:103.

[3] "Rum" surəsi, ayə:55, "Naziat" surəsi, ayə:46, "Yunis" surəsi, ayə:45, "İsra" surəsi, ayə:52, "Taha" surəsi, ayə:103-104, "Muminun" surəsi, ayə:113, "Əhqaf" surəsi, ayə:35.

[4] "İbrahim" surəsi, ayə:21, "Adiyat" surəsi, ayə:10, "Tariq" surəsi, ayə:9, "Qaf" surəsi, ayə:22, "Əlhaqqə" surəsi, ayə:18.

[5] "Həcc" surəsi, ayə:65, "Furqan" surəsi, ayə:26, "Ğafir" surəsi, ayə:16, "İnfitar" surəsi, ayə:19.

[6] "Hud" surəsi, ayə:105, "Taha" surəsi, ayə:108-111, "Nəbə" surəsi, ayə:38.

[7] "Əbəsə 34" surəsi, ayə:37, "Şüəra" surəsi, ayə:88, "Məaric" surəsi, ayə:10-14, "Loğman" surəsi, ayə:33.

[8] "Bəqərə" surəsi, ayə:166, "Muminun" surəsi, ayə:101.

[9] "Zuxruf" surəsi, ayə:67.

[10] "Ənam" surəsi, ayə:31, "Məryəm" surəsi, ayə:39, "Yunis" surəsi, ayə:54.

[11] "Ali-İmran" surəsi, ayə:30, "Təkvir" surəsi, ayə:14, "İsra" surəsi, ayə:49.

[12] "İsra 13" surəsi, ayə:14, 17, "Əl-haqqə" surəsi, ayə: 19, 25, "İnşiqaq" surəsi, ayə:7,

Qiyamət gününün xüsusiyyətlərindən biri də budur ki, hər bir işi həmin işi görənə aid edilməsi o qədər açıq-aşkar məlum olur ki, artıq bir kəsdən "nə etmisən?" - deyə soruşmağa heç bir ehtiyac qalmır.[1]

Bu məhkəmədə Allahın mələkləri, peyğəmbərlər və seçilmiş insanlar şahidlik edərlər.[2] Hətta, insanın əli, ayaqları və dərisi belə şəhadət verər.[3] Bütün insanların əməllərinin hesabı diqqətlə araşdırılar və ilahi mizanla ölçülər.[4] Onların barəsində ədalətli hökm çıxarılar[5] və hər kəs özünün dünyadakı fəaliyyət və əməllərinin nəticəsini görər.[6] Yaxşı əməl sahiblərinə əməllərinin on qat arıq mükafatı verilər[7] və heç kəs başqasının günahlarına görə cəzalandırılmaz.[8] Başqalarını haqq yoldan azdıran şəxslərə gəldikdə isə, onları öz günahlarından əlavə, aldadıb azdırdıqları şəxslərin də günahlarına görə də məhkum edərlər.[9] Heç kəsdən fidyə (əvəz) qəbul olunmaz.[10] Heç bir şəxsin şəfaət və vasitəçiliyi qəbul edilməz.[11] Yalnız o şəxslərin şəfaəti qəbul olunar ki, Mütəal Allah tərəfindən onlara icazə verilmiş olsun və onlar da məhz Allahın razı olduğu meyarlar əsasında şəfaət edərlər.[12]

---

1 "Ər-Rəhman" surəsi, ayə:39.

2 "Zümər" surəsi, ayə:69, "Bəqərə" surəsi, ayə:143, "Ali-İmran" surəsi, ayə:140, "Nisa" surəsi, ayə: 41 və 69, "Hud" surəsi, ayə:18, "Həcc" surəsi, ayə:78, "Qaf" surəsi, ayə:21, "Nəhl" surəsi, ayə:84 və 89.

3 "Nur" surəsi, ayə:24, "Yasin" surəsi, ayə:65, "Fussilət" surəsi, ayə: 21-25.

4 "Əraf" surəsi, ayə: 8-9, "Ənbiya" surəsi, ayə:47, "Muminun" surəsi, ayə:102-103, "Qariə" surəsi, ayə: 6-8.

5 "Yunis" surəsi, ayə:54, 93, "Casiyə" surəsi, ayə:17, "Nəml" surəsi, ayə:78, "Zümər" surəsi, ayə:69 və 75.

6 "Nəcm" surəsi, ayə: 40-41, "Bəqərə" surəsi, ayə: 281-286, "Ali-İmran" surəsi, ayə:25, 161, "Ənam" surəsi, ayə:70, "Hud" surəsi, ayə:111, "İbrahim" surəsi, ayə:51, "Taha" surəsi, ayə:15, "Ğafir" surəsi, ayə:17, "Casiyə" surəsi, ayə:22, "Tur" surəsi, ayə:21, "Müddəsir" surəsi, ayə:38, "Yasin" surəsi, ayə:54, "Zümər" surəsi, ayə:24.

7 "Ənam" surəsi, ayə:160.

8 "Nəcm" surəsi, ayə:39, "Ənam" surəsi, ayə:146, "Fatir" surəsi, ayə:18, "Zümər" surəsi, ayə:7.

9 "Nəhl" surəsi, ayə:25, "Ənkəbut" surəsi, ayə:13. Burada belə bir ehtimal verə bilər ki, başqalarının hidayət olunmasına səbəb olan şəxslər də ikiqat artıq savaba malik olacaqlar. Bu da rəvayətlərdə qeyd olunmuşdur.

10 "Bəqərə" surəsi, ayə:48 və 123, "Ali-İmran" surəsi, ayə:91, "Loğman" surəsi, ayə:33, "Maidə" surəsi, ayə:46, "Hədid" surəsi, ayə:15.

11 "Bəqərə" surəsi, ayə:48, 123, 254, "Müddəsir" surəsi, ayə:48.

12 "Ənbiya" surəsi, ayə:28, "Bəqərə" surəsi, ayə:255, "Yunis" surəsi, ayə:3, "Məryəm" surəsi, ayə:87, "Taha" surəsi, ayə:109, "Səba" surəsi, ayə:23, "Zuxruf" surəsi, ayə:86, "Nəcm" surəsi, ayə:26.

ƏBƏDİ İQAMƏTGAHA DOĞRU

Daha sonra Allahın hökmü elan edilər.[1] Yaxşı əməl sahibləri ilə pis əməl sahibləri bir-birindən ayrılar:[2] möminlər üzüağ, şad və gülər üzlə behiştə tərəf,[3] kafirlər və münafiqlər isə üzüqara, qəmgin, zillət və xarlıqla cəhənnəmə yola salınar.[4] Bütün insanlar cəhənnəmdən keçirilər,[5] bu zaman möminlərin siması nur saçar və onların yollarını işıqlandırar,[6] kafirlər və münafiqlər isə qaranlıqda, mütləq zülmətdə qalarlar.

Dünyada möminlərlə qaynayıb-qarışan münafiqlər onları çağırıb "Üzünüzü bizə tərəf döndərin, sizin nurunuzdan istifadə edək!" - deyərlər, amma belə cavab eşidərlər: "Nur kəsb etmək üçün arxaya (dünyaya) qayıdın!" Daha sonra deyərlər: "Məgər dünyada biz sizinlə deyildikmi?" Belə cavab eşidərlər: "Əlbəttə ki, zahirdə bizimlə idiniz, lakin özünüzü giriftar etdiniz və qəlbləriniz şəkkə, tərəddüdə və qəsavətə düçar oldu. Bu gün işiniz bitmişdir, sizdən və kafirlərdən heç bir əvəz qəbul edilməz." Nəhayət, kafirlər və münafiqlər cəhənnəm oduna tökülər.[7]

Möminlər behiştə yaxınlaşan zaman onun qapıları açılar və Allahın rəhmət mələkləri onların pişvazına çıxar, salam və ehtiramla onlara əbədi səadət müjdəsi verərlər.[8] Digər tərəfdən kafirlər və münafiqlər cəhənnəmə çatdıqda onun qapıları açılar, əzab mələkləri kobudluqla onları danlayar və onlara əbədi əzab vədəsi verərlər.[9]

BEHİŞT

Behiştdə genişliyi yerin və göylərin genişliyi qədər olan bağlar[10] və müxtəlif ağaclarla örtülən, hər növ meyvəsi olan və əlçatan yerdə olan[11] ağaclar, əzəmətli qəsrlər və zülal kimi suyu olan çaylar,[12] həmçinin süd, bal

---

[1] "Əraf" surəsi, ayə:44.

[2] "Yasin" surəsi, ayə:59.

[3] "Zümər" surəsi, ayə:73, "Ali-İmran" surəsi, ayə:107, "Məryəm" surəsi, ayə:85, "Qiyamət" surəsi, ayə:42, 24, "Ğaşiyə" surəsi, ayə:8, "Əbəsə" surəsi, ayə: 38-39.

[4] "Zümər" surəsi, ayə: 60-71, "Ali-İmran" surəsi, ayə:106, "Ənam" surəsi, ayə:124, "Yunis" surəsi, ayə:27, "Məryəm" surəsi, ayə:86, "Taha" surəsi, ayə:101, 126 və 124, "İbrahim" surəsi, ayə:43, "Qəmər" surəsi, ayə:8, "Məaric" surəsi, ayə:44, "Ğaşiyə" surəsi, ayə:2, "İsra" surəsi, ayə:72 və 97, Əbəsə" surəsi, ayə:40 və 41.

[5] "Məryəm" surəsi, ayə: 71-72.

[6] "Həd‌id" surəsi, ayə:12.

[7] "Həd‌id" surəsi, ayə: 13-15, "Nisa" surəsi, ayə:140.

[8] "Zümər" surəsi, ayə:73, "Rəd" surəsi, ayə: 22-24.

[9] "Zümər" surəsi, ayə: 71-72, "Təhrim" surəsi, ayə:6, "Ənbiya" surəsi, ayə:103.

[10] "Ali-İmran" surəsi, ayə:133, "Həd‌id" surəsi, ayə:21.

[11] "Haqqə" surəsi, ayə:23, "Dəhr" surəsi, ayə: 6, 18, 21, "Mütəffifin" surəsi, ayə:28.

[12] "Bəqərə" surəsi, ayə:25, "Ali-İmran" surəsi, ayə:15 və onlarla başqa ayə.

və pak şərabdan ibarət olan çaylar,[1] behişt əhlinin istəyinə uyğun[2] və onların arzularına müvafiq olan hər bir şey vardır.[3]

Behişt əhli ipək paltar geymiş, müxtəlif zinətlərlə bəzənmiş olar.[4] Bir-birinin qarşısında taxtların üzərində və yumşaq yataqlarda söykənmiş halda Allaha həmd-səna edərlər.[5] Dillərinə əbəs və lazımsız söz gətirməzlər. Belə sözlər də eşitməzlər.[6] Onlara nə soyuq əziyyət verər, nə də istilik.[7] Onların nə əzab-əziyyəti və yorğunluğu olar,[8] nə də qorxuları və qəm-qüssələri.[9] Qəlblərində bir kəsə qarşı kin-küdurət də olmaz.[10]

Onların ətrafında gözəl xidmətçilər hərəkət edərək[11] onlara, ləzzət və təsəvvürolunmaz ruh yüksəkliyi verən behişt camlarında şərablar içirdərlər və onlara heç cür bəla dəyməz.[12] Onlar növbənöv meyvələrdən, quş ətlərindən yeyər,[13] gözəl, mehriban və heç bir çirkinliyə aludə olmayan pak zövcələrdən,[14] bunlardan da ən yüksəkdə Allahın razılığından mənəvi nemət kimi bəhrələnərlər.[15] Onlar öz Pərvərdigarları tərəfindən çoxlu lütf və mərhəmətlərə nail olarlar. Bu da onları təsəvvürolunmaz dərəcədə şadlığa, sevincə qərq edər.[16] Bu misilsiz səadətlər, vəsfolunmaz nemətlər, Allahın rəhmət, razılıq və dərgahına yaxınlıq həmişəlik olaraq davam

---

[1] "Məhəmməd" surəsi, ayə:15, "Dəhr" surəsi, ayə:6, 18, 21,"Mütəffifin" surəsi, ayə:28.

[2] "Nəhl" surəsi, ayə:31, "Furqan" surəsi, ayə:16, "Zümər" surəsi, ayə:34, "Fussilət" surəsi, ayə:31, "Şura" surəsi, ayə:22, "Zuxruf" surəsi, ayə: 70-71, "Qaf" surəsi, ayə:35.

[3] "Qaf" surəsi, ayə:35.

[4] "Kəhf" surəsi, ayə:31, "Həcc" surəsi, ayə:23, "Fatir" surəsi, ayə:33, "Duxan" surəsi, ayə:53, "Dəhr" surəsi, ayə:21, "Əraf" surəsi, ayə:32.

[5] "Əraf" surəsi, ayə:43, "Yunis" surəsi, ayə:10, "Fatir" surəsi, ayə:34, "Zümər" surəsi, ayə:74.

[6] "Məryəm" surəsi, ayə:62, "Nəbə" surəsi, ayə:35, "Ğaşiyə" surəsi, ayə:11.

[7] "Dəhr" surəsi, ayə:13.

[8] "Məryəm" surəsi, ayə:62, "Nəbə" surəsi, ayə:35, "Ğaşiyə" surəsi, ayə:11.

[9] "Əraf" surəsi, ayə:35, "Hicr" surəsi, ayə:48.

[10] "Əraf" surəsi, ayə:43, "Hicr" surəsi, ayə:47.

[11] "Tur" surəsi, ayə:, "Vaqiə" surəsi, ayə:17, "Dəhr" surəsi, ayə:19.

[12] "Saffat" surəsi, ayə:45" surəsi, ayə:47, "Sad" surəsi, ayə:51, "Tur" surəsi, ayə:23, "Zuxruf" surəsi, ayə:71, "Vaqiə" surəsi, ayə:18" surəsi, ayə:19, "Dəhr" surəsi, ayə: 5-6, 19, "Nəbə" surəsi, ayə:34, "Mütəfiffin" surəsi, ayə: 24-28.

[13] "Sad" surəsi, ayə:51, "Tur" surəsi, ayə:22, "Ərrəhman" surəsi, ayə:52, 68, "Vaqiə" surəsi, ayə: 20-21, "Mürsəlat" surəsi, ayə:42, "Nəbə" surəsi, ayə:32.

[14] "Bəqərə" surəsi, ayə:25, "Ali-İmran" surəsi, ayə:15, "Nisa" surəsi, ayə:57, "Saffat" surəsi, ayə: 48-49, "Sad" surəsi, ayə:52, Zuxruf" surəsi, ayə:70, "Duxan" surəsi, ayə:54, "Tur" surəsi, ayə:20, "Ərrəhman" surəsi, ayə:56, 70, 74, "Vaqiə" surəsi, ayə: 22-23, 34" surəsi, ayə:37, "Nəbə" surəsi, ayə:33.

[15] "Ali-İmran" surəsi, ayə:15,"Tövbə" surəsi, ayə: 21, 72, "Hədid" surəsi, ayə:20, "Maidə" surəsi, ayə:119, "Mücadilə" surəsi, ayə:29, "Bəyyinə" surəsi, ayə:8.

[16] "Səcdə" surəsi, ayə:17.

edəcək.[1] Və onların sonu olmayacaqdır.[2]

CƏHƏNNƏM

Cəhənnəm qəlblərində heç bir iman nuru olmayan kafirlər və münafiqlərin əbədi yeridir.[3]v Onun həcmi o qədər böyükdür ki, bütün günah əhlinin qəbul etdikdən sonra yenidən "yenə varmı?» deyər.[4] O, başdan-başa oddur, od üstündən od, əzab üstündən əzab!!!

Atəş şölələri hər tərəfdən zəbanə çəkir, qəzəbli, ürək yandıran uğultusu onların vəhşət və iztirablarını daha da artırır.[5] Onların zahiri görkəmləri pis, qara, çirkablıdır.[6] Hətta, cəhənnəm əhli üçün təyin olunmuş məmur mələklərinin üzlərində belə mehr-məhəbbət, nəvaziş və mülayimlikdən heç bir əsər-əlamət yoxdur.[7]

Cəhənnəm əhli dəmirdən olan zəncirlərə bağlanmışlar,[8] Allahın qəzəb odu onları hər tərəfdən əhatə edir.[9] Onların özləri cəhənnəmin yanacaqlarıdır.[10] Cəhənnəmin fəzasında cəhənnəm əhlinin fəryadından, naləsindən və qışqırığından başqa heç bir səs eşidilmir.[11] Günah əhlinin üzərinə dağ su tökərlər ki, onların daxillərini də əridib suya döndərər.[12] Hər zaman susuzluğun və iltihabın şiddətindən su istəsələr onlara çirkablı, qaynar və

---

[1] "Bəqərə" surəsi, ayə:25, "Ali-İmran" surəsi, ayə:107, 36, 198, "Nisa" surəsi, ayə:13, 57, 122, "Maidə" surəsi, ayə:85, 119, "Əraf" surəsi, ayə:42, "Tövbə" surəsi, ayə:22, 72, 89, 100, "Yunis" surəsi, ayə:26, "Hud" surəsi, ayə:23, 108, "İbrahim" surəsi, ayə:23, "Hicr" surəsi, ayə:48, "Kəhf" surəsi, ayə:3, 108, "Taha" surəsi, ayə:76, "Ənbiya" surəsi, ayə:102, "Muminun" surəsi, ayə:11, "Furqan" surəsi, ayə: 16, 76, "Ənkəbut" surəsi, ayə:58, "Loğman" surəsi, ayə:9, "Zümər" surəsi, ayə:73, "Zuxruf" surəsi, ayə:71, "Əhqaf" surəsi, ayə:14, "Qaf" surəsi, ayə:34, "Fəth" surəsi, ayə:5, "Hədid" surəsi, ayə:12, "Mücadilə" surəsi, ayə:22, "Təğabun" surəsi, ayə:9, "Təlaq" surəsi, ayə:11, "Bəyyinə" surəsi, ayə:8.

[2] "Duxan" surəsi, ayə:56, "Fussilət" surəsi, ayə:8, "İnşiqaq" surəsi, ayə:25, "Tin" surəsi, ayə:6.

[3] "Nisa" surəsi, ayə:140 və onlarla başqa ayə.

[4] "Qaf" surəsi, ayə:30.

[5] "Hud" surəsi, ayə:106, "Ənbiya" surəsi, ayə:100, "Furqan" surəsi, ayə:12, "Mülk" surəsi, ayə: 7-8.

[6] "Ali-İmran" surəsi, ayə:106, "Mülk" surəsi, ayə:27, "Muminun" surəsi, ayə:104, "Zümər" surəsi, ayə:60.

[7] "Təhrim" surəsi, ayə:91.

[8] "Rəd" surəsi, ayə:5, "İbrahim" surəsi, ayə:49, "Səba" surəsi, ayə:33, "Ğafir" surəsi, ayə: 71, 72, "Haqqə" surəsi, ayə:32, "Dəhr" surəsi, ayə:4.

[9] "İbrahim" surəsi, ayə:50, "Furqan" surəsi, ayə:13, "Ənbiya" surəsi, ayə:98, "Cin" surəsi, ayə:15, "Təhrim" surəsi, ayə:6.

[10] "Bəqərə" surəsi, ayə:24, "Ali-İmran" surəsi, ayə:10, "Ənbiya" surəsi, ayə:98, "Cin" surəsi, ayə:15, "Təhrim" surəsi, ayə:6.

[11] "Furqan" surəsi, ayə: 13-14, "İnşiqaq" surəsi, ayə:11.

[12] "Həcc" surəsi, ayə: 19, 20, "Duxan" surəsi, ayə:48.

üfunətli su verilər. Onu da hərisliklə və acgözlüklə içərlər.[1] Onların yeməkləri özü atəşdən göyərən zəqqum ağacıdır. Ondan yedikləri vaxt daxildəki yanğıları daha da artar.[2] Onların paltarları yapışqanlı və qara maddədəndir ki, bu da onların əzablarını daha da artırır.[3] Onlar günahkar cinlər və şeytanlarla bir yerdə olarlar. Lakin, onlardan uzaq olmağı arzu edər[4] və bir-birinə lənət yağdırarlar.[5]

Allahın dərgahında öz günahları müqabilində üzrxahlıq etmək istədikləri zaman "rədd olun!", "susun!", "mumlayın!" kimi fərmanlar verilər.[6] Daha sonra cəhənnəm keşikçilərinə pənah aparıb deyərlər ki, Allahdan bizim əzabımızı bir az azaltmasını istəyin. Onlar belə cavab eşidərlər: "Məgər Mütəal Allah sizə Öz peyğəmbərlərini açıq-aşkar möcüzələrlə göndərməmişdimi?"[7]

Yenidən ölüm arzusu edərlər, amma cavabında onlara, siz həmişəlik olaraq cəhənnəmdə qalacaqsınız"–deyilər.[8] Ölüm hər tərəfdən onlara tərəf şığıdığına baxmayaraq heç vaxt ölməzlər.[9] Onların bədənlərinin dəriləri nə qədər yansa da, əzabı yaxşı dadsınlar deyə, yenidən ona təzə dəri verilər və əzabları davam etdirilər.[10]

Onlar behişt əhlindən bir az su və yemək istəyər, amma cavabda: "Mütəal Allah behişt nemətlərini sizə haram etmişdir" – cavabını eşidərlər.[11] Behişt əhli onlardan soruşar: "Hansı şey sizin bədbəxtliyinizə səbəb olub sizi cəhənnəmə çəkdi?" Deyərlər: "Biz namaz qılıb Allaha ibadət edənlərdən deyildik. Kasıblara da kömək etməzdik. Günahkarlarla oturub-duran və qiyamət gününü təkzib edərdik."[12]

Daha sonra bir-biri ilə çarpışmağa, didişməyə başlayarlar.[13] Aldanılanlar onları yoldan çıxaranlara deyərlər: "Bizi yoldan azdıran siz oldunuz!" Onlar cavabda deyərlər: "Siz öz istəyiniz ilə bizə tabe oldunuz!"[14]

---

[1] "Ənam" surəsi, ayə:70, "Yunis" surəsi, ayə:4, "Kəhf" surəsi, ayə:29, "Vaqiə" surəsi, ayə:42, 44 və 55, "Məhəmməd" surəsi, ayə:15.

[2] "Saffat" surəsi, ayə:62-66, "Sad" surəsi, ayə:57, "Duxan" surəsi, ayə: 45, 46, "Vaqiə" surəsi, ayə: 52, 53, "Nəbə" surəsi, ayə:25, Ğaşiyə" surəsi, ayə: 6, 7.

[3] "İbrahim" surəsi, ayə:17, "Taha" surəsi, ayə:74, "Fatir" surəsi, ayə:36.

[4] "Zuxruf" surəsi, ayə:38, 39, "Şüəra" surəsi, ayə: 94, 95, "Sad" surəsi, ayə:85.

[5] "Əraf" surəsi, ayə: 38, 39, "Ənkəbut" surəsi, ayə:25, "Mürsəlat" surəsi, ayə: 35, 36.

[6] "Muminun" surəsi, ayə:108, "Rum" surəsi, ayə:57, "Ğafir" surəsi, ayə:52, "Mürsəlat" surəsi, ayə: 35, 36.

[7] "Ğafir" surəsi, ayə: 49-50.

[8] "Zuxruf" surəsi, ayə:77.

[9] "İbrahim" surəsi, ayə:178, "Taha" surəsi, ayə:74, "Fatir" surəsi, ayə:36.

[10] "Nisa" surəsi, ayə:56.

[11] "Əraf" surəsi, ayə:50.

[12] "Müddəsir" surəsi, ayə:39-47.

[13]" Sad" surəsi, ayə: 59-64.

[14] "Əraf" surəsi, ayə: 38, 39, "Saffat" surəsi, ayə: 27-33, "Qaf" surəsi, ayə:27, 28.

Bu dünyada başqalarının əlinin altında olub yolunu azanlar orada öz rəislərinə deyərlər: “Bizi bu bədbəxtliyə çəkənlər siz olmusunuz!” Onlar da: “Sizi zorla haqq yoldan saxladıqmı?!” – deyərlər.[1]

Nəhayət, şeytana deyərlər: “Bizim yoldan azmağımıza sən bais olmusan!” O isə cavab verib deyər: “Allah sizə doğru vədə verdi, qəbul etmədiniz. Mən isə yalan vədələr verdim, qəbul etdiniz. Belə isə, məni danlamaq yerinə özünüzü məzəmmət edin. Bu gün bizim heç birimiz digərimizin fəryadına çata bilmərik.”[2] Beləliklə, öz itaətsizlik və küfrlərinin cəzasını çəkməkdən başqa heç bir çıxış yolu görməz və əbədi olaraq ilahi əzab içində qalarlar.[3]

SUALLAR

1.Qiyamət baş verən zaman yerin və göylərin vəziyyətini şərh edin.
2.Qiyamətin başlanğıcı və onun xüsusiyyətini bəyan edin.
3.İlahi ədalət məhkəməsini izah edin.
4.Möminlərin və kafirlərin öz əbədi iqamətgahına doğru hərəkətini bəyan edin.
5.Behişt nemətlərini barəsində məlumat verin.
6.Cəhənnəm və onun əhlinin vəziyyətini açıqlayın.
7.Cəhənnəm əhlinin söhbətlərini şərh edin.

---

[1] “İbrahim” surəsi, ayə:21, “Səba” surəsi, ayə: 31-33.

[2] “İbrahim” surəsi, ayə:22.

[3] “Bəqərə” surəsi, ayə:39, 81, 162, 217, 257, 275, “Ali-İmran” surəsi, ayə:88, 116, “Nisa” surəsi, ayə:169, “Maidə” surəsi, ayə:37, 80, “Ənam” surəsi, ayə:128, “Əraf” surəsi, ayə:36, “Tövbə” surəsi, ayə: 17, 63, 68, “Yunis” surəsi, ayə:27, 52, “Hud” surəsi, ayə:108, “Rəd” surəsi, ayə:5, “Nəhl” surəsi, ayə:29, “Kəhf” surəsi, ayə:108, “Taha” surəsi, ayə:101, “Səcdə” surəsi, ayə:20, “Muminun” surəsi, ayə:103, “Əhzab” surəsi, ayə:65, “Zümər” surəsi, ayə:72, “Ğafir” surəsi, ayə:76, “Zuxruf” surəsi, ayə:74, “Mücadilə” surəsi, ayə:17, “Cin” surəsi, ayə:23, “Bəyyinə” surəsi, ayə:6.

ƏLLİ BİRİNCİ DƏRS

DÜNYANIN AXİRƏT İLƏ MÜQAYİSƏSİ

–Müqəddimə
–Dünyanın fani, axirətin isə əbədi olması
–Axirətin həqiqi həyat olması
–Axirətdə nemətin əzabdan ayrılması
–Dünya həyatını seçməyin nəticəsi

MÜQƏDDİMƏ

Əql və nəql yolu ilə axirət aləmi barəsində əldə olunan məlumatlara əsasən dünya və axirəti müxtəlif cəhətlərdən müqayisə edə bilərik. Xoşbəxtlikdən bu müqayisələr Qurani-kərimin özündə də vardır. Biz Quran ayələrindən istifadə edərək dünya və axirət həyatlarını düzgün şəkildə qiymətləndirib axirət aləminin üstün olmasını bəyan edə bilərik.

DÜNYANIN FANİ, AXİRƏTİN İSƏ ƏBƏDİ OLMASI

Dünya ilə axirət aləmi arasında olan fərqin ən bariz nümunəsi insan ömrünün dünyada məhdud, axirətdə isə əbədi olmasıdır. Bu dünyada hər insanın ömrü üçün gec-tez gəlib çıxacaq əcəl vardır. Hətta bir şəxs bu dünyada, yaxud min il yaşasa, nəhayət, təbiət aləminin son dəyişiklikləri və birinci surun üfürülməsi zamanı ömrü sona çatacaqdır.

Digər tərəfdən isə Quranın təqribən səksən ayəsi axirət aləminin əbədi olmasını göstərir.[1] Aydındır ki, tükənən, sona yetən bir şey nə qədər uzun ömürlü olsa belə, onun sonsuz şeylə heç bir uyğunluğu olmayacaqdır.

Deməli, axirət aləmi davamlı və qalarlı olmaq baxımından dünyaya nisbətən çox böyük üstünlüyə malikdir və bu mətləb də çoxlu ayələrdə "əbqa» təbiri ilə gətirilir.[2] Axirətin qalarlı, dünyanın isə fani olmasını xatırladır.[3] Başqa ayələrdə dünya həyatı bir neçə günlük cücərib yaşıllaşan, sonra isə saralıb məhv olan və nəhayət quruyan bir bitkiyə oxşadılır.[4] "Nəhl" surəsinin 96-cı ayəsində isə ümumi bir qanun olaraq buyurulur:

«Allah yanında olan şeylər əbədidir.»

AXİRƏTDƏ NEMƏTİN ƏZABDAN AYRILMASI

Dünya həyatı ilə axirət həyatı arasındakı əsaslı fərqlərdən biri də budur ki, dünya həyatının xoşluqları həmişə əzab-əziyyətlə, zəhmətlə qarışıqdır, elə bir şəraitdə deyildir ki, camaatın bir qismi həmişə və hər cəhətdən nemətdə, şadlıqda, asayişdə olsunlar, digər dəstə isə həmişə əzabda və qəm-qüssədə. Dünya əhalisinin hamısı az-çox ləzzətlərdən, şadlıqlardan bəhrələnir, eləcə də müəyyən qədər əzab-əziyyətlərə və nigarançılıqlara düçar olurlar. Lakin axirət aləmi bir-birindən tamamilə ayrı olan iki hissədən – behişt və cəhənnəmdən ibarətdir. Onun bir hissəsində əzab-əziyyətdən, qorxu və qəm-qüssədən heç bir əsər-əlamət yoxdur, digər hissəsində isə insanı dərdə salan atəşdən, qəm-qüssədən başqa heç bir şey mövcud deyildir.

Qurani-kərimdə bu müqayisə qeyd edilmiş, axirət nemətlərinin, Allahın

---

[1] Behişt və cəhənnəmin əbədiliyi barəsində olan ayələrə müraciət edin.

[2] "Kəhf" surəsi, ayə:46, "Məryəm" surəsi, ayə:74, "Taha" surəsi, ayə:73, 131, "Qəsəs" surəsi, ayə:60, "Şura" surəsi, ayə:36, "Ğafir" surəsi, ayə:39, "Əla" surəsi, ayə:17.

[3] "Ali-İmran" surəsi, ayə:197, "Nisa" surəsi, ayə:77 və s. ayələr.

[4] "Yunis" surəsi, ayə:24, "Kəhf" surəsi, ayə: 45" surəsi, ayə:46, "Hədid" surəsi, ayə:20.

dərgahında qonşu olub Ona yaxın olmağın dünya nemətlərinə olan üstünlüyü dəfələrlə bəyan edilmiş,[1] eləcə də axirət əzablarının bu dünyadakı əzab-əziyyətlərlə müqayisəolunmaz dərəcədə şiddətli olması xatırladılmışdır.[2]

AXİRƏTİN HƏQİQİ HƏYAT OLMASI

Dünya ilə axirət arasında olan fərqin ən mühümü bundan ibarətdir ki, dünya həyatı axirət üçün bir müqəddimə, əbədi səadət və xoşbəxtlik kəsb etmək üçün bir vasitədir. Axirət həyatı son və həqiqi həyatdır. Dünya həyatı və onun maddi və mənəvi nemətləri insan tərəfindən istənildiyinə baxmayaraq onların hamısı əbədi səadətin əldə olunması və həqiqi təkamülə çatmaq üçün bir vasitə və imtahandır. Buna görə də həqiqi mahiyyətə malik olmayacaqdır. Onların həqiqəti bir növ, şəxsin əbədi həyatı üçün tədarük görəcəyi yol ehtiyatıdır.[3]

Buna görə də əgər bir şəxs axirət həyatını unudaraq özünü dünyanın müvəqqəti bər-bəzəklərinə məftun edərsə və onun ötəri ləzzətlərini özünə hədəf seçərsə, onda onun həqiqi dəyərini tanımamış və ona xəyali bir dəyər vermiş olur. Çünki o, hədəf əvəzinə vasitəni götürmüş olur. Bu da oyun-oyuncaqdan, baş qatmaqdan, aldanmaqdan başqa bir şey olmayacaqdır. Məhz buna görə də Qurani-kərim dünya həyatını oyun-oyuncaq və aldadıcı vasitələr adlandırmış,[4] axirət həyatını isə həqiqi həyat hesab etmişdir.[5] Amma diqqət yetirmək lazımdır ki, dünya barəsində bu qədər məzəmmət ona məftun olan insanların tutduğu istiqamət və onun barəsində olan nəzərləri ilə əlaqədardır. Halbuki, onun həqiqət və mahiyyətini tanıyıb ona sadəcə bir vasitə kimi baxan və ömürlərinin hər anından əbədi səadət üçün bəhrələnən layiqli bəndələr üçün dünya həyatı məzəmmətə yox, əksinə, son dərəcə yüksək dəyərə malikdir.

DÜNYA HƏYATINI (ƏSAS MƏQSƏD KİMİ) SEÇMƏYİN NƏTİCƏSİ

Axirət aləminin məziyyətləri, behişt nemətləri və Allah dərgahına yaxın olub Onun razılığını qazanmağın dünya həyatına nisbətən təşkil etdiyi üstünlüyə diqqət yetirməklə aydın olur ki, axirət əvəzinə dünya həyatını seçmək əqlə uyğun deyil[6] və bu işin ziyan və peşmançılıqdan başqa heç bir nəticəsi olmayacaqdır. Lakin belə bir seçkinin düzgün olmadığı o zaman

---

[1] "Ali-İmran" surəsi, ayə:15, "Nisa" surəsi, ayə:77, "Ənam" surəsi, ayə:32, "Əraf" surəsi, ayə:32 və s. ayələr.

[2] "Rəd" surəsi, ayə:34, "Taha" surəsi, ayə:27, "Səcdə" surəsi, ayə:21, "Zümər" surəsi, ayə:26, "Fussilət" surəsi, ayə:16, "Qələm" surəsi, ayə:33, "Ğaşiyə" surəsi, ayə:24.

[3] "Qəsəs" surəsi, ayə:77.

[4] "Ali-İmran" surəsi, ayə:185, "Ənkəbut" surəsi, ayə:64, "Məhəmməd" surəsi, ayə:36, "Hədid" surəsi, ayə:20.

[5] "Ənkəbut" surəsi, ayə:64, "Fəcr" surəsi, ayə:24.

[6] "Əla" surəsi, ayə:16, "Fəcr" surəsi, ayə:24.

daha aşkar surətdə məlum olacaqdır ki, dünyanı seçib onun ötəri ləzzətlərinə məftun olmağın nəinki insanın əbədi səadətdən məhrum olmasına, üstəlik əbədi bədbəxtliyə də səbəb olan ən mühüm amil sayılması məlum olsun.

İzah:

Əgər insan əbədi səadət yerinə dünyanın ötəri ləzzətlərini seçsəydi, amma bu işin onun əbədi dünyası üçün heç bir pis və xoşagəlməz nəticəsi olmasaydı onda bu axirət səadətinin son dərəcə üstünlüyə malik olmasını nəzərə almaqla səfehcəsinə bir iş olardı. Lakin heç kəsin axirət aləmindən qaçış yolu yoxdur və özünün bütün qüvvələrini dünya həyatına sərf edən, axirət aləmini unudan və ya ümumiyyətlə, onu inkar edən şəxslər nəinki təkcə behişt nemətlərindən məhrum olmur, üstəlik həmişəlik olaraq cəhənnəm əzabına düçar olaraq ikiqat ziyan çəkmiş olurlar.[1]

Məhz buna görə də Qurani-kərim bir tərəfdən axirət nemətlərinin üstünlüklərini xatırladır və dünya həyatının insanları aldatmaması üçün ciddi xəbərdarlıq edir,[2] digər tərəfdən isə dünyaya məftun olub axirəti unutmağın, əbədiyyət dünyasını inkar etməyin, yaxud onun barəsində şəkk-şübhə etməyin ziyanlarını sadalayır və bu iş insanın əbədi bədbəxtliyinə səbəb olacağını təkid edir.[3] Dünyanı özünə məqsəd kimi seçən adamın yalnız axirət nemətlərindən məhrum olması güman olunmamalıdır, əksinə, bundan əlavə, o, əbədi cəzalara da düçar olur.

Səbəbi də dünyapərəst bir şəxs Allahın ona verdiyi istedadlara istehza edərək əbədi səadət kimi səmərə verməli olan ömür həyatının barlı ağacını qurutması və nemət verənin haqqına riayət etməməsi, Onun nemətlərini Onun razı olmadığı yollarda sərf etməsidir. Şübhəsiz, belə bir şəxs öz seçdiyi yolun pis nəticələrini gördüyü zaman torpaq olmasını və belə ağır aqibətə düçar olmamasını arzu edəcəkdir.[4]

SUALLAR

1.Dünya ilə axirətin fərqli cəhətlərini sadalayın.
2.Dünyanın niyə məzəmmət olunmasını bəyan edin.
3.Dünyaya məftun olmağın ziyanlarını bəyan edin.
4.Axirətə iman gətirməmək niyə əbədi əzaba səbəb olur?

---

[1] "Hud" surəsi, ayə:22, "Kəhf" surəsi, ayə:104, 105, "Nəml" surəsi, ayə: 4, 5.

[2] "Bəqərə" surəsi, ayə:102, 200, "Tövbə" surəsi, ayə:38, "Rum" surəsi, ayə:33, "Şura" surəsi, ayə:20, "Zuxruf" surəsi, ayə:34" surəsi, ayə:35.

[3] "İsra" surəsi, ayə:10, "Bəqərə" surəsi, ayə:86, "Ənam" surəsi, ayə:130, "Yunis" surəsi, ayə: 7, 8, "Hud" surəsi, ayə: 15, 16, "İbrahim" surəsi, ayə:3, "Nəhl" surəsi, ayə:22, 107 və s. ayələr.

[4] "Nəbə" surəsi, ayə:40.

ƏLLİ İKİNCİ DƏRS

DÜNYA İLƏ AXİRƏTİN ƏLAQƏSİ

–**Müqəddimə**
–Dünya axirətin əkin sahəsidir
–Dünya nemətləri axirət səadətinə səbəb olmur
–Dünya nemətləri axirət bədbəxtliyinə səbəb olmur
–Nəticə

MÜQƏDDİMƏ

Məlum oldu ki, insan həyatı onun dünyadakı ötəri həyatı ilə bitmir. O, axirət aləmində bir daha diriləcək və orada həmişəlik olaraq diri qalacaqdır. Bu da məlum oldu ki, axirət aləmi həqiqi həyatdır. Belə ki, dünya həyatı onunla müqayisəyə gəlmir.

İndi isə əvvəla, dünya həyatı ilə axirət həyatı arasında əlaqə və asılılığın varlığını, sonra isə hansı növ əlaqədən ibarət olmasını müəyyən etməliyik. Əlbəttə, keçən bəhslərdən bu əlaqənin növü müəyyən qədər aydın oldu, lakin bu barədə müəyyən müəmma və şübhələr mövcud olduğundan daha artıq izahat verilməsi yerinə düşərdi. Belə ki, əqli dəlillərdən və Quran ayələrindən istifadə edərək axirət və dünya arasında əlaqəni bəyan edirik.

DÜNYA AXİRƏT ÜÇÜN ƏKİN SAHƏSİDİR

Burada qeyd olunmalı mühüm məsələ bundan ibarətdir ki, axirətdəki əbədi bədbəxtlik və ya səadət insanın bu dünyadakı əməl və rəftarlarından asılıdır. Elə də deyildir ki, insan axirət nemətlərini ələ gətirmək üçün elə axirət aləmində səy göstərməklə bilsin, daha güclü fikri və fiziki qüvvəyə malik olanlar daha artıq nemətlərdən bəhrələnsinlər və yaxud hiylə və fırıldaq yolu ilə başqalarının əməyini mənimsəsinlər. Belə ki, bəzi nadanlar belə təsəvvür edərək axirət aləmini dünyadan tamamilə ayrı bilmişlər.

Quran bəzi kafirlərin sözünü belə nəql edir:

«(Dünaya məftun olan şəxs dedi:) «Axirətin bərqərar olacağını güman etmirəm (əgər bərqərar olsa və) Pərvərdigarıma doğru qaytarılsam özümə bundan da yaxşı bir məskən taparam!»[1]

Başqa bir ayədə kafirlərin dilindən belə buyurulur:

«Qiyamətin qopacağını güman etmirəm. Doğrudan da əgər Rəbbimin hüzuruna qaytarılıb gətirilsəm, Onun dərgahında məni ən gözəl nemət (Cənnət) gözləyir» - deyər.»[2]

Belə şəxslər axirət aləmində də fəaliyyət göstərməklə çoxlu nemətlər kəsb etməyin mümkünlüyünü, ya da dünyada müxtəlif nemətlərdən bəhrələnmələrini Allahın onlar barəsində xüsusi mərhəmət göstərməsinin əlaməti kimi və buna əsasən də axirətdə də lütf və mərhəmətə nail olacaqlarını güman edirlər.

Deməli, əgər bir şəxs axirət aləminin dünyadan tamamilə ayrı və onunla heç bir əlaqəsi olmayan bir aləm olduğunu güman etsə, o, aləmin nemətlərinin bu dünyada gördüyü yaxşı əməllərə və o aləmin əzablarının əsaslandığını inkar etsə, onda bu şəxs bütün səmavi dinlərin etiqad prinsiplərindən biri olan məada iman gətirməmişdir. Çünki bu prinsipin əsası axirətin mükafat və cəzalarını dünyəvi əməllərin nəticəsinə bağlı

[1] "Kəhf" surəsi, ayə:36.

[2] "Fussilət" surəsi, ayə:50.

olması üzərindədir. Buna görə də dünya aləmi axirət üçün bazar, ticarət yeri, yaxud əkin sahəsi adlandırılmışdır ki, insan bu dünyada göstərdiyi fəaliyyətlərin, işlərin və əməllərin əvəzini orada almalıdır.[1] Məad və Quran ayələri və Məada bağlı olan məsələlər də məhz bunu bəyan edir və əlavə izaha etiyac duyulmur.

DÜNYA NEMƏTLƏRİ AXİRƏT SƏADƏTİNƏ SƏBƏB OLMUR

Bəziləri də belə təsəvvür edirlər ki, dünyadakı mal-dövlət, oğul-uşaq, eyş-işrət və s. kimi vasitələr axirətdəki rahatlığa və asayişə səbəb olacaqdır. Bəlkə də ölülərlə yanaşı qızıl-gümüşün, qiymətli daş-qaşların və hətta yemək məhsullarının dəfn edilməsi də bundan irəli gəlmişdir.

Qurani-kərim təkidlə bəyan edir ki, mal-dövlət və əhl-əyal özlüyündə (onlarla əlaqədar olan xüsusi əməl və rəftarları nəzərə almadan) insanın Allah dərgahına yaxınlaşmasına səbəb olmaz,[2] axirət aləmində də bir kəsə fayda verməz[3] və qiyamətdə də bu cür dünyəvi əlaqələr və səbəblər tamamilə qırılar.[4] Hər kəs özünün malik olduğu və ona aid olan şeylərdən məhrum halda,[5] tək-tənha Mütəal Allaha doğru qaytarılar.[6] Yalnız Allahla olan mənəvi əlaqələr əbədi qalar. Buna görə də öz həyat yoldaşı, övladı və qohum-əqrəbası ilə mənəvi iman əlaqələrinə malik olan möminlər behiştdə də bir yerdə olacaqlar.[7]

Bir sözlə, dünya ilə axirət arasında olan əlaqə və bağlılıq dünyadakı varlıqların bir-biri ilə olan əlaqəsi kimi deyildir. Belə deyildir ki, dünyada daha qüdrətli, daha gözəl, daha şad olub nemətlərdən daha çox bəhrələnən kəs axirətdə də o cür olacaq. Əks halda fironlar və qarunlar axirətdə daha artıq səadətə nail olardı. Elələri var ki, dünyada zəif, əliboş və daim əzab-əziyyətdə olurlar, lakin ilahi vəzifələri lazımınca yerinə yetirdiklərinə görə qiyamət günü sağlam, gözəl və qüvvətli, məhşur olaraq nemətlərdən bəhrələnirlər.

Qafil insanlardan bəziləri belə güman edirlər ki, **"hər kəs bu dünyada kor olsa, axirətdə də kordur və yolunu azmışdır»**[8] ayəsinin mənası budur ki, dünyadakı sağlamlıq və nemətlərdən bəhrələnmək axirət sağlamlığı və axirət nemətlərindən bəhrələnməklə birbaşa əlaqəlidir. Halbuki, onlar bu

---

[1] Diqqət yetirmək lazımdır ki, Qurani-Kərimdə dünyəvi cəza və mükafatlardan da söhbət açılır, lakin kamil və əbədi mükafat və ya cəza axirətə məxsusdur.

[2] "Səba" surəsi, ayə:37.

[3] "Şüəra" surəsi, ayə:88, "Loğman" surəsi, ayə:33, "Ali-İmran" surəsi, ayə:10, 116, "Mücadilə" surəsi, ayə:17.

[4] "Bəqərə" surəsi, ayə:166, "Muminun" surəsi, ayə:101.

[5] "Ənam" surəsi, ayə:94.

[6] "Məryəm" surəsi, ayə:80 və 95.

[7] "Rəd" surəsi, ayə:23, "Ğafir" surəsi, ayə:8, "Tur" surəsi, ayə:21.

[8] "İsra" surəsi, ayə:72.

ayədəki korluq dedikdə məqsədin zahiri korluq deyil, qəlbin korluğu olmasını başa düşməmişlər. Belə ki, sonrakı ayədə buyurulur:

«Həqiqətən gözlər kor olmaz, əksinə, onların sinələrində olan qəlbləri kor olar.»[1]

Başqa bir ayədə buyurulur:

«Hər kəs Mənim öyüd-nəsihətlərimdən üz döndərsə, güzəranı daralar və Biz qiyamət günü onu məhşərə kor olaraq gətirərik! O belə deyər: "Ey Rəbbim! Nə üçün məni məhşərə kor olaraq gətirdin, halbuki mən görürdüm?" (Allah) buyurar: "Elədir, amma sənə ayələrimiz gəldi sən isə onları unutdun. Bu gün eləcə də sən unudulacaqsan".»[2]

Deməli, o dünyadakı korluğun əsas səbəbi zahiri korluq deyil, bu dünyada ilahi ayələrin unudulmasıdır. Buradan aydın olur ki, dünya ilə axirət arasında olan rabitə dünyəvi əsaslar üzrə olan rabitə kimi deyildir.

DÜNYA NEMƏTLƏRİ AXİRƏT BƏDBƏXTLİYİNƏ DƏ SƏBƏB OLMUR

Digər tərəfdən, bəziləri belə təsəvvür edirlər ki, dünya nemətləri ilə axirət nemətləri arasında ziddiyyət mövcuddur. Yəni axirətdə o şəxslər səadətə çata bilər ki, dünya nemətlərindən məhrum olsunlar. Bunun əksinə olaraq hər kəs dünya nemətlərindən bəhrələnibsə, axirət xoşbəxtliyindən məhrum olacaqdır. Onlar bu müddəalarında dünyapərəstlərin heç bir axirət bəhrəsi olmadığına dəlalət edən bəzi ayə və rəvayətlərə istinad etmişlər.[3] Halbuki, dünyapərstlik dünya nemətlərindən bəhrələnməklə eyni tutula bilməz. Əksinə, dünyapərəst insan dünya nemət və ləzzətlərini özünə hədəf olaraq seçir və hətta öz arzusuna çatmasa belə bütün ömrünü və var-qüvvəsini onları əldə etməyə sərf edir. Axirət istəyən şəxs odur ki, dünya malına və nemətinə ürək bağlamasın. Hətta dünya nemətlərindən çox nəsibi olsa belə, hədəfi axirət həyatı olsun. Həzrət Süleymanı (ə) və bəzi peyğəmbərləri, eləcə də Allah övliyalarından çoxunu qeyd etmək olar ki, onlar dünya nemətlərindən çox bəhrələnmiş lakin, bunları öz axirət səadətlərinə, ilahi razılığa çatmaq yolunda istifadə etmişlər.

Deməli, dünya nemətlərindən bəhrələnməklə axirət nemətlərindən bəhrələnmək arasında nə birbaşa əlaqə, nə də əks nisbət vardır. Dünyanın həm nemətləri, həm də bəlaları Allahın hikmətli tədbiri əsasında olaraq insanlar arasında müəyyən olunur[4] və bunların hamısı insanların sınaqdan keçirilməsi üçün bir vasitədir.[5] Dünya nemətlərindən bəhrələnməyin

---

[1] "Həcc" surəsi, ayə:46.

[2] "Taha " surəsi, ayə:124 126.

[3] "Bəqərə" surəsi, ayə:200, "Ali-İmran" surəsi, ayə:77, "İsra" surəsi, ayə:18, "Şura" surəsi, ayə:20, "Əhqaf" surəsi, ayə:20.

[4] "Zuxruf" surəsi, ayə:32.

[5] "Ənfal" surəsi, ayə:28, "Ənbiya" surəsi, ayə:35, "Təğabun" surəsi, ayə:15, "Əraf" surəsi, ayə:168, "Kəhf" surəsi, ayə:7, "Maidə" surəsi, ayə:48 və s. ayələr.

özlüyündə ilahi rəhmətə və səadətə nail olmaqda, onlardan məhrum olmağın da axirət bədbəxtliyinə düçar olmaqda heç bir təsiri yoxdur.[1]

NƏTİCƏ

Bu bəhslərdən belə nəticə alınır ki, dünya və axirət arasında hər növ əlaqənin inkar olunması məadın inkar olunması kimidir. Lakin nə dünya məhrumiyyəti ilə axirət nemətləri arasında bir rabitə vardır, nə də dünya nemətləri ilə axirət əzabı arasında. Ümumiyyətlə, dünya ilə axirət arasındakı rabitə dünya varlıqları arasındakı rabitə kimi olaraq fiziki, bioloji qanunlara tabe deyil. Əksinə, axirətdə nemət və ya əzaba səbəb olan şeylər insanın dünyadakı ixtiyari əməllərindən asılıdır. Bunun özü də qüvvə və enerjini sərf edərək maddələrdə müəyyən dəyişiklik yaratmağa görə deyil. Əksinə, iman və küfrdən qaynaqlandığına görədir. Axirət səadətini və əbədi xoşbəxtliyi əldə etmək məhz Allaha, qiyamət gününə, ilahi peyğəmbərlərə iman gətirmək, Allah bəyənən işləri görmək, o cümlədən namaz qılmaq, oruc tutmaq, cihad etmək, cəmiyyətə yaxşılıq, əmr be məruf nəhy əz münkər etmək, kafirlər və zalımlarla mübarizə aparmaq, haqq-ədalətin bərqərar olunması üçün çalışmaq və s. kimi işlərlə bağlıdır. Bunun müqabilində də əbədi əzaba mübtəla olmaq küfr etmək, Allaha şərik qoşmaq, nifaq (münafiqlik) etmək, qiyaməti və ilahi peyğəmbərləri təkzib etmək, müxtəlif günahlara batmaq, zülmlərə qurşanmaqla əlaqəlidir. Çoxlu ayələrdə (və qısa şəkildə) axirət səadətinin amili **"iman və saleh əməl",**[2] əbədi bədbəxtliyin amili isə **"küfr və günah"** kimi təqdim edilir.[3]

SUALLAR

1.Dünya ilə axirət arasındakı əlaqənin inkar olunması nəyi gərəkli edir?
2.Dünyanın axirət üçün əkin sahəsi olmasının mənasını izah edin.

---

[1] "Ali-İmran" surəsi, ayə:179, "Muminun" surəsi, ayə:56, "Fəcr" surəsi, ayə:15" surəsi, ayə:16.

[2] "Bəqərə" surəsi, ayə:25, 38, 62, 82, 103, 112, 277, "Ali-İmran" surəsi, ayə:15, 57, 114, 115, 133, 179, 195, 198, "Nisa" surəsi, ayə:13, 57, 122, 124, 146, 152, 162, 173, "Maidə" surəsi, ayə:9, 65, 69, "Ənam" surəsi, ayə:48, "Tövbə" surəsi, ayə:72, "Yunis" surəsi, ayə:4, 9, 63, 64, "Rəd" surəsi, ayə:29, "İbrahim" surəsi, ayə:23, "Nəhl" surəsi, ayə:97, "Kəhf" surəsi, ayə:2, 29, 30, 107, "Taha" surəsi, ayə:75, "Həcc" surəsi, ayə:14, 23, 50, 56, "Furqan" surəsi, ayə:15, "Ənkəbut" surəsi, ayə:7, 9, 58, "Rum" surəsi, ayə:15, "Loğman" surəsi, ayə:8, "Səcdə" surəsi, ayə:19, "Səba" surəsi, ayə:4, 37, "Fatir" surəsi, ayə:7, "Sad" surəsi, ayə:49, "Zümər" surəsi, ayə:20, 33, 35, "Ğafir" surəsi, ayə:40, "Füssilət" surəsi, ayə:8, "Şura" surəsi, ayə:22, 26, "Casiyə" surəsi, ayə:30, "Fəth" surəsi, ayə:17, "Hədid" surəsi, ayə:12, 21, "Təğabun" surəsi, ayə:9, "Təlaq" surəsi, ayə:11, "İnşiqaq" surəsi, ayə:25, "Tin" surəsi, ayə:6, "Bəyyinə" surəsi, ayə:7-8.

[3] "Bəqərə" surəsi, ayə:24, 39, 81, 54, 161, 162, "Ali-İmran" surəsi, ayə:21, 56, 86, 88, 91, 116, 131, 176, 177, 196" surəsi, ayə:197, "Nisa" surəsi, ayə:14, 56, 121, 145, 151, 161, 168, 169, 173, "Maidə" surəsi, ayə:10, 36, 72, 86, "Ənam" surəsi, ayə:49, "Tövbə" surəsi, ayə:3, 68 və s. ayələr.

3.Dünya nemətləri ilə axirət nemətləri arasında hansı nisbət vardır?

4.Düna nemətləri ilə axirət əzabları arasında hansı nisbət vardır?

5.Dünyanın hansı işləri ilə axirətin səadət və ya bədbəxtliyi arasında həqiqi rabitə vardır?

ƏLLİ ÜÇÜNCÜ DƏRS

DÜNYA İLƏ AXİRƏT ARASINDA OLAN ƏLAQƏ

–**Müqəddimə**
–Həqiqi, yoxsa etibari və şərti rabitə?
–Bu məsələ ilə əlaqədar Quran ayələri

MÜQƏDDİMƏ

Bildik ki, həm iman və saleh əməl ilə Allah dərgahına yaxınlıq və axirət nemətləri arasında, həm də küfr və günah ilə Allahdan uzaq olub əbədi nemətlərdən məhrum olmaq arasında birbaşa əlaqə və tənasüb vardır. Bunun müqabilində də iman və əməlisalehlə axirət əzabı arasında, eləcə də küfr və günah ilə əbədi nemətlər arasında əks nisbət mövcuddur. Qurani-kərimə əsasən bu tənasüb və nisbətin əsli barəsində heç bir şübhə yoxdur və onların inkar olunması Quranın inkar olunması deməkdir.

Amma bu zəruri məsələ barədə müəyyən qədər izaha ehtiyac duyulan bəzi suallar irəli gəlir. Məsələn, "Qeyd olunan əlaqə həqiqi və təkvini əlaqədir, yoxsa, sadəcə olaraq şərtidir?" "İmanla əməli-saleh və eləcə də küfr ilə günah arasında hansı əlaqə vardır?", "Görəsən yaxşı və pis əməllərin arasında da təsirqoyma və təsirlənmə vardır, ya yox?"

Bu dərsdə birinci məsələni araşdırıb yuxarıda qeyd olunan əlaqənin şərti olmadığını izah edəcəyik.

HƏQİQİ VƏ ŞƏRTİ RABİTƏ

Təkrar-təkrar qeyd etdiyimiz kimi, dünya əməlləri ilə axirət nemətləri və ya əzabları arasında olan əlaqə adi maddi əlaqələr kimi deyildir və onu fiziki, kimyəvi və s. kimi qanunlar əsasında izah etmək olmaz. Hətta insanın əməllərinə sərf olunan enerjini, maddə və enerjinin bir-birinə çevrilərək cisim halına düşməsi, axirət əzab və ya nemətlər şəklində zahir olması fikri belə düzgün olmayan təsəvvürdür. Çünki, **əvvəla,** bir insanın əməl və rəftarlarına sərf olunan enerji nəinki sonsuz behişt nemətlərinə, heç bir almaya çevriləcək qədər belə olmaya bilər.

İkincisi, maddə ilə enerjinin bir-birinə çevrilməsi xüsusi amillər əsasında baş verir. Bu iş onu görənin niyyət və əməlinin pis və ya yaxşı olmasına bağlı deyildir. Heç bir təbii qanuna əsaslanıb xalis əməl ilə riya arasında fərq qoymaq olmaz ki, birinin enerjisi nemətə, digərinin enerjisi isə əzaba çevrilsin.

Üçüncüsü, bir dəfə ibadət yolunda sərf olunan enerjinin digər dəfə günah yolunda istifadə olunması mümkündür.

Amma belə rabitənin inkar olunması ümumi şəkildə həqiqi rabitənin mütləq şəkildə inkar olunması demək deyildir. Çünki həqiqi rabitələrin dairəsi naməlum və təcrübəyə sığmayan rabitələrə də aiddir. Təcrübi elmlər dünya ilə axirət arasındakı hadisələrin arasındakı rabitəni isbat edə bilmədiyi kimi, onların arasındakı hər növ səbəb-nəticə qanununun varlığını da isbat edə bilməz. Yaxşı və pis əməllərin insanın ruhunda həqiqi mənada təsir etdiyini, həmin ruhi təsirlərin də axirət nemət və ya əzablarının yaranmasına səbəb olduğunu fərz etsək (məsələn, bəzi nəfslərin dünyadakı xariqüladə təsirlərini misal göstərmək olar) belə bir fərz də əqldən uzaq olmayacaqdır, əksinə, onu xüsusi fəlsəfi prinsiplər əsasında isbat etmək olar

ki, o da bu kitabın həcminə uyğun deyildir.

BU MƏSƏLƏ İLƏ ƏLAQƏDAR QURAN AYƏLƏRİ

Əksər hallarda zehndə şərti rabitənin cilvələnməsinə baxmayaraq[1] çoxlu Quran ayələrindən məlum olur ki, insanın əməlləri ilə axirət savabı və ya cəzası arasında şərti əlaqədən daha geniş bir əlaqə vardır. Qeyd olunan birinci sözdən («əcr») istifadə məsələnin asan olub daha artıq başa düşülməsi, camaatın bu məfhumlarla tanış olması və onların əksəriyyətinin vəziyyətini nəzərə almaqdan ötrüdür.

Həmçinin, şərif rəvayətlərdə də bu barədə dəlillər gözə dəyir. Onlar göstərir ki, insanın ixtiyari əməlləri müxtəlif məlakuti (batini) surətlərə malikdir ki, bərzəx aləmində və qiyamətdə zahir olacaqdır.

İndi insanın əməlləri ilə onun axirət nəticələri arasındakı rabitənin varlığına dəlalət edən ayələrdən bir neçəsini nümunə olaraq göstəririk:

«Özünüz üçün əvvəlcədən göndərdiyiniz hər şeyi Allah yanında tapacaqsınız.»[2]

«O gün hər kəs etdiyi yaxşı və pis əməlləri qarşısında hazır görəcək və günahları ilə özü arasında çox uzaq məsafə olmasını arzulayacaqdır. Allah sizi öz əzabından çəkindirir, çünki Allah (Öz bəndələrinə) mərhəmətlidir.»[3]

«O gündə insan öz əlləri ilə göndərdiyi şeylərə baxacaqdır.»[4]

«Hər kəs zərrə qədər yaxşılıq etsə, onu görəcək və hər kəs zərrə qədər pislik etsə, onu da görəcəkdir.»[5]

«Görəsən, sizə verilən cəza (əvəz) dünyada etdiyiniz əməllərdən başqa bir şeydən ibarətdirmi?!»[6]

«Həqiqətən, yetimlərin mal-dövlətlərini zülmlə mənimsəyənlər öz qarınlarına od daxil edirlər.»[7]

Aydındır ki, insanın qiyamətdə özünün bu dünyadakı əməllərinin sadəcə olaraq nəticəsini "görməsi" onun cəza və ya mükafatı olmayacaq, əksinə, nemət və ya müxtəlif əzablar formasında görünən şey məhz əməllərin məlakuti surətləridir ki, zahir olacaq və şəxs onların vasitəsilə nemətə, yaxud əzaba düçar olacaqdır. Sonuncu ayədən məlum olduğu kimi, yetim malını mənimsəməyin batini surəti cəhənnəm odu yeməkdir. Axirət aləmində həqiqətlər zahir olarkən şəxs filan haram yeməyin batini aləmi atəş olduğunu görəcək. Bunun nəticəsində daxilindəki yanğını hiss edəcək

---

[1] Quranda "əcr" sözü 90 dəfə, "cəza" sözü isə 100 dəfədən artıq işlənmişdir.

[2] "Bəqərə" surəsi, ayə:110, "Müzzəmmil" surəsi, ayə:20.

[3] "Ali-İmran" surəsi, ayə:30.

[4] "Nəbə" surəsi, ayə:40.

[5] "Nəml" surəsi, ayə:40, "Qəsəs" surəsi, ayə:84.

[6] "Zilzal" surəsi, ayə:7, 8.

[7] "Nisa" surəsi, ayə:10.

və ona deyiləcəkdir: **«Bu cəhənnəm odu yediyin haram maldan başqa bir şeydirmi?!»**

SUALLAR

1.Əməllərin təcəssümünün (cism şəklinə düşməsinin) işlərə sərf olunan enerjinin maddəyə çevrilməsi kimi fərz olunmasının nə kimi iradı vardır?

2.İnsanın əməlləri ilə onun axirət nəticələri arasında həqiqi rabitəni ağlasığan tərzdə necə təsəvvür etmək olar?

3.Əməllərin təcəssümünə hansı ayələr dəlalət edir? Əcr (savab) və cəza kimi təbirlərin nə üçün işləndiyini bəyan edin.

4.Əməllərin təcəssümü dedikdə elə onları dünyadakı surətlərinin hazır olması kimi izah etmək olarmı? Niyə?

ƏLLİ DÖRDÜNCÜ DƏRS

İNSANIN ƏBƏDİ XOŞBƏXT VƏ YA BƏDBƏXT OLMASINDA İMAN VƏ KÜFRÜN ROLU

–Müqəddimə
–İman və küfrün həqiqəti
–İman və küfrün həddi
–İnsanın əbədi xoşbəxt və ya bədbəxt olmasında iman və küfrün təsiri
–Bu barədə olan Quran ayələri

MÜQƏDDİMƏ

Digər bir məsələ budur ki, imanla yanaşı olan hər biri saleh əməlin insanın əbədi xoşbəxtliyə çatmasında müstəqil rola malikdir, yoxsa onların məcmusu onun xoşbəxtliyinə çatmasına səbəb olur? Həmçinin bunun müqabilində də belə bir sual yaranır ki, hər bir günah əməl təklikdə insanın əbədi əzaba düşməsinə səbəb olur, yoxsa, onların məcmusu belə bir təsirə malikdir? İkinci halda əgər bir şəxs yalnız imana, yaxud təkcə saleh əmələ sahib olsa, onun aqibəti necə olacaqdır? Eləcə də əgər bir şəxs yalnız küfr edərsə, yaxud (küfr etmədən) təkcə günahlara mürtəkib olarsa, onun axır-aqibəti necə olacaqdır? Əgər imanlı bir şəxs çoxlu günahlara düçar olarsa, yaxud kafir bir şəxs çoxlu yaxşı əməllər görərsə, onda bədbəxt olacaq, yoxsa xoşbəxt? Hər iki halda əgər bir şəxs həyatının bir qismini iman və əməli-salehlə, digər bir qismini isə küfr və günahkarlıqla keçirmiş olarsa, onda onu hansı aqibət gözləyir?

Bu kimi məsələlər İslamın zahir olduğu ilk dövrlərdən etibarən araşdırılmış, xəvaric kimiləri inanmışlar ki, kəbirə günahlara mürtəkib olmaq müstəqil surətdə insanın əbədi bəxbəxtçiliyə düşməsinə səbəb olur. Hətta bu iş insanın küfrünə və mürtəd olmasına belə səbəb olur. Mürciə kimi digər firqələrin inancına görə isə təkcə iman əbədi səadət üçün kifayətdir, günaha mürtəkib olmaq möminin səadətinə zərər və xələl gətirmir.

Amma həqiqət bundan ibarətdir ki, hər günah küfrə və əbədi bədbəxtçiliyə səbəb olmur, hərçənd günahların çoxluğunun imandan çıxmağa da səbəb olması mümkündür. Digər tərəfdən, imanın varlığı ilə hər günahın bağışlanması və heç bir pis təsir qoymaması da düzgün təsəvvür deyildir.

Bu dərsdə əvvəlcə iman və küfrün həqiqəti barəsində izah verəcək, sonra onların insanın əbədi səadət və bədbəxtliyində nə dərəcədə əhəmiyyətə malik olduğunu araşdıracağıq. Qalan məsələləri isə növbəti dərsdə bəyan edəcəyik.

İMAN VƏ KÜFRÜN HƏQİQƏTİ

İman ruhi və qəlbi bir halətdir. O hər hansı bir məfhumla bağlı anlayışa malik olmaq və ona meyl etmək nəticəsində hasil olur. Bu iki amilin hər birinin zəif və ya güclü olması ilə əlaqədar iman da, ya kamal həddinə çatır və ya azalır. Əgər insan hər hansı bir şeyin varlığı barədə (zənn və güman yolu ilə olsa da) məlumat tapmazsa, ona iman gətirə bilməz. Amma agahlıq və məlumat da təklikdə kifayət etmir. Çünki agahlıq tələb edən işlər onun ürəyinin istədiyinin və təbii meyllərinin əksinə ola bilər və ya onun əksinə meyl edə bilər. Buna görə də o, əməli və onun törəmələrini yerinə yetirmək qərarına gələ bilər. Hətta onların əksinə olan qərar qəbul edə bilər.

Qurani-kərim Firon və onun yaxınları haqqında belə buyurur:

«Onlar zülm etdiklərinə və özlərini uca tutduqlarına görə ilahi ayələri

inkar etdilər. Halbuki, onların haqq olmağına yəqinlikləri var idi.»[1]

Həzrət Musa (ə) Firona xitabən buyurur:

«Şübhəsiz, ayə və möcüzələrin dünyanın Pərvərdigarından başqa bir şəxsin nazil etmədiyini bilirsən.»[2]

O özünün iman gətirməməsinə baxmayaraq camaata belə deyirdi:

«Mən sizin üçün, özümdən başqa bir məbud tanımıram.»[3]

Amma qərqolma ərəfəsində belə deyir:

«Mən Bəni-İsrailin iman gətirdiyi məbudun olmasına iman gətirdim.»[4]

Əvvəldə də qeyd olundu ki, məcburiyyət əsasında olan iman həqiqi iman səviyyəsində çatmır və heç vaxt ilahi dərgahda qəbul olunmur. Deməli, imanın həqiqəti qəlbən yönəlmə və ixtiyar üzündən olmaqdan ibarətdir. Amma elm və agahlıqda isə belə deyil. Çünki o ixtiyarsız olaraq da hasil ola bilir. Deməli, imanı ixtiyari və qəlbi bir əməl hesab etmək, yəni əməlin məfhumunu genişləndirməklə imanı da əməl saymaq olar.

Amma **küfr** kəlməsi bəzən **"imanın olmaması"** mənasına işlədilir. İmana malik olmamaq (istər bəsit şəkk və cəhalət üzündən olsun, istər mürəkkəb cəhalət üzündən, istərsə də müxalif meyllər, qəsdən olan inkar və ya inadkarlıq üzündən olsun) küfr adlandırılır. Bəzən sonuncu qismə, yəni, inad və inkara aid edilir ki, bu da imanın ziddi hesab olunur.

İMAN VƏ KÜFRÜN HƏDDİ

Qurani-kərim ayələri və rəvayətlərdən məlum olduğu kimi, əbədi səadətə çatmaq üçün imanın ən aşağı səviyyəsi Allaha, axirətdəki cəza və mükafatlara iman gətirmək, peyğəmbərləri və onlara nazil olanların düzlüyünü təsdiq etmək, bunun ardınca da Mütəal Allahın göstərişlərinə, əmr və fərmanlarına müəyyən mənada (icmali) əməl etməyə dair qərara gəlməkdən ibarətdir. Onun ali mərtəbəsi isə peyğəmbərlərə və ilahi övliyalara məxsusdur.

Küfrün ən zəif mərtəbəsi isə tövhidi, nübüvvəti, məadı inkar etmək, onlarda şəkk-şübhədə olmaq, yaxud Mütəal Allah tərəfindən peyğəmbərlərə nazil olmasını bildiyi şeyləri – dinin zəruri məsələlərini inkar etməkdir. Küfrün ən pis mərhələsi isə düzgün olduqlarını bildiyi halda bütün bu həqiqətləri, inad üzündən inkar etmək və haqq din ilə mübarizə etməyə dair qəti qərara gəlməkdir. Deməli, şirk də (yəni tövhidin inkar olunması) küfrün nümunələrindən biridir. Münafiqlik də aldadıcılıq və zahirdə özünü müsəlman göstərməklə yanaşı olan batini küfrdür. Münafiqin (niqablı kafirin) iman və insanlıqdan süqutu başqa kafirlərdən artıqdır. Belə ki, Quranda buyurulur:

---

[1] "Nəml" surəsi, ayə:14.

[2] "İsra" surəsi, ayə:102.

[3] "Qəsəs" surəsi, ayə:38.

[4] "Yunis" surəsi, ayə:90.

«Həqiqətən münafiqlər cəhənnəm odunun ən aşağı mərtəbələrindədir.»[1]

Burada qeyd olunmalı məsələ budur ki, fiqhdə irəli çəkilən kəsilən heyvanın paklığı, nikaha icazə, irs aparmaq və s. kimi hökmlərin üsuliddində qeyd olunan iman və küfrü tələb etmir. Çünki bir şəxsin şəhadət kəlmələrini deməsi və nəticədə İslam fiqhinin hökmlərinin onun üzərində cərəyan etməsi mümkündür, halbuki o tövhid və nübüvvətin məzmununa qəlbən iman gətirməyə bilər.

Digər məsələ budur ki, əgər birinin üsuliddin barədə məlumat kəsb etməyə qüdrəti olmasa və misal üçün, dəli və ya ağılsız olsa, yaxud mühitin, şəraitin münasib olmadığına görə haqq dini tanıya bilməsə, həmin qədər üzürlü sayılacaqdır. Amma məlumat üçün imkan ola-ola təqsirə yol versə və şəkk halında qalsa, yaxud dəlil olmadan dinin üsul və zəruriyyətlərini inkar etsə, üzürlü sayılmayacaq və əbədi əzaba düçar olacaqdır.

İNSANIN ƏBƏDİ XOŞBƏXTLİYİNDƏ İMANIN VƏ ƏBƏDİ BƏDBƏXTLİYİNDƏ KÜFRÜN TƏSİRİ

İnsanın həqiqi kamalı ilahi dərgaha yaxınlıqla, onun süqutu isə Mütəal Allahdan uzaqlıqla əlaqədardır. Buna diqqət yetirməklə Allaha, Onun təkvini və təşrii rübubiyyətinə iman (bu, məad və nübüvvətə imanı zəruri edir) bir növ insanın həqiqi təkamülünün pöhrəsinə oxşayır. Allahın bəyəndiyi işlər isə həmin pöhrənin qol-budağına və yarpaqlarına, meyvələri isə axirət aləmində zahir olan əbədi səadətə oxşayır. Deməli, əgər bir şəxs öz qəlbində iman toxumunu cücərtməsə, bu bərəkətli ağacı əkməsə, əksinə, onun yerinə zəhərli küfr və günah toxumu səpsə, Allah verən istedadları zay etmiş və elə bir ağac cücərtmiş olur ki, onun meyvəsi cəhənnəmdəki zəqqum ağacının meyvəsidir. Belə bir şəxsin əbədi səadətə çatması heç vaxt mümkün deyildir və onun gördüyü yaxşı işlər bu dünyanın sərhədlərindən aşmayacaqdır.

Səbəbi də budur ki, insanın hər ixtiyari işi, onun ruhu üçün nəzərdə tutulan hədəfə doğru olan bir hərəkətdir. Əbədiyyət aləminə, ilahi dərgaha yaxınlığa etiqadı olmayan bir şəxsin belə bir hədəf və məqsədi nəzərə alması, eləcə də öz əməl və rəftarlarına belə bir istiqamət verməsi necə mümkün olar bilər?! Təbiidir ki, belə şəxs Allah tərəfindən əbədi səadət gözləyə bilməz. Kafirlərin yaxşı əməllərinə gəldikdə isə, yalnız bunu demək olar ki, bu əməl onların əzablarının müəyyən qədər yüngülləşməsinə səbəb olur. Çünki bu cür əməllər özünəpərəstiş və inadkarlıq ruhiyyəsini müəyyən qədər zəiflədə bilər.

BU BARDƏ OLAN QURAN AYƏLƏRİ

Quran insanın əbədi səadətində imanın əsaslı və mühüm rolunu

[1] "Nisa" surəsi, ayə:145.

xatırlatmış, yüzlərlə ayədə imanın ardınca saleh əməli qeyd etmişdir. Bundan əlavə, bir neçə ayədə də imanı yaxşı əməlin axirət səadətinə mühüm təsir göstərdiyini bildirir:

«Mömin olan halda yaxşı əməl görən hər bir mömin kişi və qadın behiştə daxil olacaqdır.»[1]

Digər tərəfdən isə, kafirlər üçün cəhənnəm və əbədi əzab nəzərdə tutmuş, onların (yaxşı) əməllərini puç və səmərəsiz hesab edir:

«Rəbbini inkar edənlərin (dünyadakı yaxşı) əməlləri fırtınalı bir gündə küləyin sovurub apardığı külə bənzəyir. Onlar (dünyada) etdikləri əməllərdən heç bir fayda (savab) əldə edə bilməzlər. Budur (haqq yoldan) azıb uzaqlaşmaq.»[2]

Başqa bir ayədə buyurulur ki, kafirlərin əməllərini havada toz kimi pərakəndə edərik:

«Onların etdikləri hər hansı bir (yaxşı) əməli Biz qəsdən (havada uçan) dağınıq zərrərlərə (toz dənələrinə) döndərərik!»[3]

Başqa bir ayədə onların əməlini ilğıma bənzədir:

«Kafirlərin əməlləri düzəngah yerdə olan ilğıma bənzəyir ki, susuz adam onun su olduğunu təsəvvür edir, amma onun yanına gəlib çatdıqda heç bir şey tapa bilməz. O öz əməlinin yanında ancaq Allah cəzasını tapar. (Allah da) onun cəzasını (layiqincə) verər. Allah tezliklə haqq-hesab çəkəndir.»[4]

«Yaxud dərin dəryalardakı zülmət kimidir. Onu bir dalğa, onun üzərindən də başqa bir dalğa, onun da üzərində bulud – zülmət üstündən zülmət örtər. Əlini çıxartdığı zaman hardasa onu görməz. Allah hər kəsə nur bəxş etməsə, onun nuru olmaz.»[5]

Digər ayələrdə buyurulur ki, dünyaya məftun olanların işlərinin nəticəsi onlara elə bu dünyada veriləcək, axirətdə isə heç bir bəhrələri olmayacaqdır:

«Dünya həyatı və onun zinətlərini istəyən şəxslərin paylarını onlara verərik və ondan heç bir şey azaldılmaz. Axirətdə isə atəşdən başqa heç nələri olmaz. Dünyada gördükləri işlər və puç əməllər də zay olar.»[6]

SUALLAR

1.Xəvaric və mürciənin iman və küfr barəsindəki nəzərlərini, eləcə də bu barədə haqq nəzəriyyəni bəyan edin.

---

1 “Nisa” surəsi, ayə:124, “Nəhl” surəsi, ayə:97, “İsra” surəsi, ayə:19, “Taha” surəsi, ayə:112, “Ənbiya” surəsi, ayə:94, “Ğafir” surəsi, ayə:40.

2 “İbrahim” surəsi, ayə:18.

3 “Furqan” surəsi, ayə:23.

4 “Nur” surəsi, ayə:39.

5 “Nur” surəsi, ayə:40.

6 “Hud” surəsi, ayə:15, 16. Eləcə də bax: “İsra” surəsi, ayə:18, “Şura” surəsi, ayə:20, “Əhqaf” surəsi, ayə:20.

2.İman və küfrün həqiqətini, onların elm və cəhalətlə olan əlaqəsini şərh edin.

3.Küfr və imanın həddini bəyan edin.

4.Şirk və nifaqın küfrlə olan nisbətini bəyan edin.

5.Fiqhdə deyilən İslam və küfrün kəlam elmindəki iman və küfrlə nə əlaqəsi var?

6.İman və küfrün insanın əbədi xoşbəxt və ya bədbəxt olmasındakı təsirini və bunun sirrini bəyan edin.

7.Qurandan bu təsir barəsində olan ayələri söyləyin.

ƏLLİ BEŞİNCİ DƏRS

İMAN VƏ ƏMƏLİN QARŞILIQLI ƏLAQƏSİ

–Müqəddimə
–İmanla əməlin əlaqəsi
–Nəticə

MÜQƏDDİMƏ

Məlum oldu ki, əbədi bədbəxtçiliyin əsl səbəbi küfr, əbədi səadətin də əsl səbəbi imandır. Şəxsin əbədi və möhkəm imanı onun əbədi səadətinə zəmanət verir, hərçənd, günaha mürtəkib olması məhdud zaman ərzində əzaba düşməsinə səbəb olur. Digər tərəfdən də daimi küfr əbədi bədbəxtçiliklə nəticələnir və bunun varlığı ilə heç bir yaxşı iş sahibinin axirət səadətinə səbəb olmaz.

Onu da qeyd etdik ki, iman və küfrün güclü və zəif mərhələləri vardır, belə ki, böyük günahların çoxluğunun imanı aradan aparması, eləcə də yaxşı işlərin görülməsinin küfrün kökünün zəiflətməsi və onda imana şərait yaratması da mümkündür.

Buradan imanla əməlin əlaqəsi barədə sual meydana çıxır və bu dərsdə həmin məsələ araşdırılır.

İMANLA ƏMƏLİN ƏLAQƏSİ

Yuxarıda qeyd olunanlardan aydın olur ki, iman elm və meyllərdən qaynaqlanan ruhi bir halətdir və imanlı şəxsin, imanlı olduğu şeylərə əməl etməyə dair icmali şəkildə qərara gəlməsini tələb edir.

Deməli, həqiqətlərdən agah olan, amma onun tələbinin heç birinə əməl etməyəcəyini qərara alan şəxsin həmin şeylərə imanı olmayacaqdır. Hətta əgər əməl edib-etməməsi barədə şübhədə olsa yenə də iman gətirməmiş sayılır. Qurani-kərim buyurur:

"Ərəblər (çöl ərəblərindən bir qrupu Peyğəmbərə) dedilər: "Biz iman gətirdik." De: Siz iman gətirməmisiniz. Deyin ki, "İslamı qəbul etmişik", iman hələ onların qəlblərinə daxil olmayıb."[1]

Həqiqi imanın da müxtəlif mərhələləri vardır və onun hər bir mərtəbəsi bununla əlaqədar olan bütün vəzifələri yerinə yetirməyi gərəkli etmir. Mümkündür ki, şəhvət və ya qəzəb kimi hislər imanı zəif olan şəxsi günaha tərəf çəksin. Lakin belə də olmamalıdır ki, üsyankarlığa və imanın gərəkli etdiyi şeylərlə həmişə müxalifət etməyi qərara alsın. Əlbəttə, şəxsin imanı nə qədər güclü və kamil olarsa, ona münasib olan əməllərin yerinə yetirilməsindəki təsiri də bir o qədər çox olacaqdır.

Bir sözlə, iman onun təfərrüatına əməl etməyi zatən tələb edir və həmin zəruri təsirinin miqdarı da onun şiddətli və ya zəif olmasına bağlıdır. Nəhayət, hər hansı bir işi yerinə yetirməyi, hansısa bir işi tərk etməyi şəxsə vacib edən də məhz onun iradə və qərarıdır.

ƏMƏLİN İMANLA OLAN ƏLAQƏSİ

Hər hansı bir əməl ya imanla uyğundur, ya da uyğun deyil. Birinci halda imanı gücləndirərək qəlbə nuranilik bəxş edir. İkinci halda isə imanının

[1] "Hücurat" surəsi, ayə:14.

zəifləməsinə və qəlbin zülmətə düşməsinə səbəb olur. Deməli, mömin şəxsdə baş verən saleh əməllər onun imanından qaynaqlanmaqdan əlavə, imanın qüvvət və sabitliyini də artırır, daha artıq yaxşı işlər görməsinə şərait yaradır. Yaxşı əməlin imanın kamal həddinə çatmasındakı rolunu aşağıdakı ayədən başa düşmək olar:

"Pak söz (və etiqad) Allaha doğru yüksələr və pak sözü də saleh əməl qaldırar."[1]

Bir çox ayələrdə də yaxşı əməl sahiblərinin iman, nur və hidayətlərinin artmasından söhbət açılır.[2]

Digər tərəfdən, imana müxalif olan məqsədlər qarşıya çıxarsa və yaramaz işlər görülərsə, eyni zamanda, şəxsin imanı da onların qarşısını ala biləcək səviyyədə olmazsa, onun imanı zəifləməyə doğru gedər, günahın təkrarlanması üçün zəminə yaranar. Bu minvalla davam edərsə şəxsin daha böyük günahlara düşməsinə və onların təkrarlanmasına səbəb olar və nəhayət, iman aradan getmək və (nəuzubillah) küfrə və nifaqa (münafiqliyə) çevrilmək təhlükəsi altına düşər.

Qurani-kərim işləri nifaqla nəticələnən şəxslər barəsində buyurur:

"Allahla bağladıqları vədə xilaf çıxdıqları (ona əməl etməmələri) və yalan danışdıqlarına görə, Allah da onların qəlblərinə, Onunla görüşəcəkləri günə qədər nifaq saldı."[3]

Başqa bir ayədə buyurulur:

"Sonra da Allahın ayələrini yalan hesab edib onları məsxərəyə qoymaqla pislik edənlərin aqibəti lap pis oldu!"[4]

Bundan əlavə də, bir çox ayələrdə günahkarların küfr, zülm və qəsvətlərinin (daşürəkliliklərinin) artma məsələsindən söhbət açılır.[5]

NƏTİCƏ

İmanla əməlin qarşılıqlı əlaqəsi, eləcə də onların insanın səadətində təsirinə diqqət yetirməklə xoşbəxt həyatı[6] kökləri yeganə Allaha, və Onun peyğəmbərlərinə, mələklərə, qiyamətə və ilahi cəzaya elə iman gətirmək, gövdəsi isə iman tələbi olan şeylərə əməl etməkdən ibarət olan ağaca bənzətmək olar ki, heç bir vasitə olmadan göyərir. Onun budaqları və

---

[1] "Fatir" surəsi, ayə:10. Əgər fail zəmirini əl "əməlus-saleh"ə, məful zəmirini isə "əl kəlimut-təyyib"ə qaytarsaq.

[2] "Ali-İmran" surəsi, ayə:173, "Ənfal" surəsi, ayə:2, "Tövbə" surəsi, ayə:124, "Kəhf" surəsi, ayə:13, "Məryəm" surəsi, ayə:76, "Əhzab" surəsi, ayə:22, "Məhəmməd" surəsi, ayə:17, "Müddəssir" surəsi, ayə:31.

[3] "Tövbə" surəsi, ayə:77.

[4] "Rum" surəsi, ayə:10.

[5] "Bəqərə" surəsi, ayə:10, "Ali-İmran" surəsi, ayə:90, "Nisa" surəsi, ayə:137, "Maidə" surəsi, ayə:68, "Tövbə" surəsi, ayə:37, "İsra" surəsi, ayə:60, 82, "Səff" surəsi, ayə:5, "Nuh" surəsi, ayə:24.

[6] "İbrahim" surəsi, ayə:24, 27.

yarpaqları imandan qaynaqlanan yaxşı və layiqli əməllər, meyvəsi isə əbədi səadətdir. Təbiidir ki, əgər kökü olmazsa heç vaxt ağacın gövdəsi, budağı və yarpağı da olmaz, nəticədə meyvə də gətirməz.

Lakin kökün mövcud olması heç də həmişə ondan budaq və yarpağın cücərməsi xoşagələn meyvələr verməsi demək deyil. Əksinə, bəzən mühitin münasib olmaması və ya müxtəlif təbii fəlakətlər nəticəsində qol-budaq açmır. Nəticədə nəinki xoşagələn meyvələr vermir, hətta qurumaqla nəticələnir.

Bu da mümkündür ki, ağacın budağına, gövdəsinə, hətta, kökünə peyvənd vurmaqla başqa bir ağaca dönsün. Bu da imanın küfrə (mürtədliyə) çevrilməsinə bənzəyir.

Bir sözlə, qeyd olunan işlərə iman gətirmək insanın səadəti üçün əsas amildir. Lakin bu amilin kamil təsir qoymasının şərti budur ki, saleh əməl və bəlaları dəf etmək, ziyanları aradan aparmaq və günahlardan çəkinməklə lazım olan məqsədə doğru addım atılsın.

Vacib əməlləri tərk etmək və haram işlərə qurşanmaq iman ağacının kökünü zəiflədir, bəzən onun tamamilə quruması ilə nəticələnir. Eləcə də düzgün olmayan əqidələrlə peyvənd vurmaq onun mahiyyətinin dəyişməsinə səbəb olur.

SUALLAR

1.İmanın yaxşı əməldəki təsirini izah edin.

2.Yaxşı və pis əməllərin imanın zəif və ya güclü olmasındakı təsirlərini izah edin.

3.İmanla əməlin qarşılıqlı əlaqələrinin məcmusu və onların insanın səadəti ilə əlaqəsini bəyan edin.

ƏLLİ ALTINCI DƏRS

BİR NEÇƏ MÜHÜM MƏSƏLƏ

–Müqəddimə
–İnsanın həqiqi kamalı
–Əqli bəyan
–Niyyətin rolu

MÜQƏDDİMƏ

İslam mədəniyyəti ilə kifayət qədər tanışlığı olmayan, insani və mənəvi işləri səthi və zahiri meyarlar əsasında dəyərləndirən, failin (əməli icra edənin) niyyət və məqsədinə – hüsni-failə (bu, hüsni-fel müqabilindədir) diqqət yetirməyən və ya işin dəyərinin meyarını yalnız başqalarının dünyəvi həyatının asayişindəki təsirində təsəvvür edənlərin bəziləri İslami maarif və əqidələrin çoxunun düzgün təfsir və tərifində inhirafa düçar olur və ya onları düzgün şəkildə dərk edib açıqlamaqda aciz qalırlar. O cümlədən, imanın rolu və onun saleh əməllə olan əlaqəsi, eləcə də küfr və şirkin öldürücü təsirləri, qısamüddətli və kiçikhəcmli əməllərdən bəzilərinin böyükhəcmli və uzunmüddətli işlərdən üstünlüyünü bəyan etməklə inhirafa, azğınlığa düçar olurlar. Məsələn, onlar başqalarının asayişi və rifahı üçün müəyyən şeylər ixtira edənlərin, yaxud millətlərinin azadlıq və istiqlaliyyəti yolunda çalışanların, hətta, Allaha və qiyamət gününə azacıq belə imanları olmasa da, axirətdə yüksək məqama və dəyərli mərtəbələrə nail olacaqlarını güman edirlər. Bəzən o qədər ifrata varırlar ki, həqiqi səadət üçün lazım olan imanı insani dəyərlərə, fəhlə kütlələlərinin bu dünyadakı qələbələrinə olan inam kimi izah edirlər və hətta **"Allah"** məfhumunu belə, məfhumi bir dəyər hesab edərək onu ideal əxlaqi səciyyələrlə bərabər tuturlar!!!

Keçən dərslərdə bəyan olunan mətləblərdən bu kimi təsəvvürlərin zəif və səhv cəhətlərini başa düşdük. Lakin bu cür fikirlərin hazırkı əsrdə çox yayılmasını, eləcə də gələcək nəsillər üçün törədə biləcəyi təhlükələri nəzərə alaraq, bu barədə daha artıq izah verməyi məqsədə uyğun görürük.

Əlbəttə, bu kimi məsələlərlə bağlı lazımi qədər təhqiqat aparmaq daha geniş imkanlar tələb edir. Buna görə də kitabın üslubuna uyğun olaraq deyilən mətləblərin əqidəvi yönünə diqqət yetirməklə onların yalnız ən ümdələrini bəyan edirik.

İNSANIN HƏQİQİ KAMALI

Əgər alma ağacını barsız söyüd ağacı ilə müqayisə etsək, alma ağacının ona nisbətən daha artıq dəyərə malik və səmərəli olduğunu görərik. Bu mühakimə yalnız insanın meyvə ağacından istifadə etməsinə görə deyildir, əksinə, meyvəli ağac daha artıq kamil vücuda malik olduğundan və ondan daha artıq əsərlər vücuda gəldiyindən, zatən daha dəyərli sayılır. Amma elə həmin bu alma ağacı müəyyən xəstəliyə düçar olaraq təkamül yolundan çıxarsa, öz dəyərini əldən verəcəkdir. Hətta, başqaları üçün müəyyən infeksiya və ziyanların da mənşəyi olması gözlənilir.

İnsan da digər canlılarla müqayisədə həmin hökmdədir. Əgər öz layiqli kamalına çatsa və öz fitrətinə münasib olan əsərlər zahir etsə, onlardan (digər canlılardan) daha dəyərli olacaqdır. Amma azğınlığa düçar olarsa,

heyvanlardan da alçaq və zərərli olması mümkündür. Belə ki, Qurani-kərim bəzi insanları canlıların ən pisi və heyvanlardan da azğın hesab edir.[1]

Digər tərəfdən, əgər bəzi adamlar alma ağacını yalnız çiçəklənən vaxta qədər görmüş olsalar, onun təkamülünün son həddinin elə bundan ibarət olduğunu və bundan artıq heç bir kamala malik olmayacağını təsəvvür edərlər. Eləcə də insanın orta səviyyədə olan kamalını müşahidə edənlər onun son kamal və həqiqətini dərk edə bilməzlər. İnsanın həqiqi dəyərini yalnız o kəslər tanıya bilər ki, onun yekun və son kamalından agah olsunlar.

Amma insanın həqiqi kamalı maddi və təbii kamallar kimi deyildir. Çünki əvvəllər bəyan olunduğu kimi, şəxsin insaniyyəti onun mələkuti ruhuna bağlıdır. İnsanın təkamülü də həqiqətdə onun ruhunun təkamülüdür ki, özünün ixtiyari fəaliyyətləri ilə əldə olunur. İstər onun daxili və qəlbi fəaliyyətləri olsun, istərsə də xaricdəki və bədənin üzvləri ilə olan fəaliyyətləri. Həmçinin belə bir kamal hissi təcrübələr və kəmiyyət tipli müqayisələrlə tanıyıb dəyərləndirmək olmaz və nəticə etibarı ilə, təbiidir ki, ona çatmaq yolunu da təcrübi vasitələrlə tanımaq olmaz. Deməli, özü belə kamal mərhələsinə çatmayan, hüzuri elm və qəlbi müşahidə ilə onu dərk edə bilməyən şəxslər onu əqli dəlil, yaxud ilahi vəhy və asimani kitablar yolu ilə tapmalıdır.

Amma ilahi vəhy, Quran ayələri və Əhli-beytin (ə) sözləri nəzərindən danılmaz bir məsələdir ki, insanın son kamalı onun vücudunun elə bir mərhələsidir və **"qürbi ilahi"** təbiri ilə qeyd olunur. Onun səmərəsi axirət aləmində zahir olacaq əbədi nemətlər və Allahın razılığıdır. Onun ümumi yolları ictimai və fərdi həyatın bütün yönlərini əhatə edən Allaha itaət edib təqvalı olmaqdan ibarətdir.

Əqli nəzərdən isə, bu mətləbə dair müəyyən fəlsəfi müqəddimələrə ehtiyac duyulan çox mürəkkəb dəlillər gətirmək olar ki, burada onların ən sadəsini təqdim edirik.

ƏQLİ DƏLİL

İnsan fitri olaraq sonsuz kamal istəyir. Elm və qüdrət də onun nümayəndələrindəndir. Öz ardınca sonsuz ləzzətlər və əbədi səadət gətirən belə bir kamal insana o zaman müyəssər ola bilər ki, elm, və qüdrətin

[1] "Ənfal" surəsi, ayə:22, "Əraf" surəsi, ayə:179.

sonsuz mənbəyi olan Kamali-Mütləq ilə, yəni Allah-taala ilə əlaqə qursun. **"Qürb"** adlanan kamal da məhz bu əlaqədir.[1]

İnsanın yaradılışında əsas məqsəd kimi nəzərdə tutulan **kamal** Mütəal Allahın dərgahına yaxınlıq və Onunla əlaqə sayəsində hasil olur. Bu kamalın ən aşağı mərtəbəsinə, yəni imanın ən zəif mərtəbəsinə malik olmayan bir insan hələ meyvə verməyən, nübarı da ələ gəlməyən bir ağaca bənzəyir. Belə ağac isə xəstəlik nəticəsində meyvə vermək qabiliyyətini əldən verərsə səmərəsiz və meyvəsiz ağaclardan da alçaq səviyyəli olacaqdır.

Deməli, imanın insanın əbədi səadət və kamalındakı rolu buna görə mühüm əhəmiyyət kəsb edir ki, insan ruhunun əsl xüsusiyyətləri və səciyyələri Mütəal Allahla agahlıq və ixtiyar üzündən olan əlaqə ilədir və bu əlaqə olmadıqda insan özünə layiq olan kamaldan və onun əsərlərindən məhrum olacaqdır. Başqa sözlə desək, onun insaniyyəti feliyyət mərhələsinə çatmayacaqdır. Halbuki, düzgün olmayan seçim nəticəsində belə yüksək istedadları məhv edib aradan aparsa özünə qarşı ən böyük zülmü rəva görmüş olar və əbədi cəzaya layiq görülər. Qurani-kərim belə insanlar haqqında buyurur:

"Həqiqətən Allah yanında canlıların ən pisi küfr edərək iman gətirməyən kimsələrdir."[2]

Bir sözlə, iman insanın kamal və səadətə doğru irəliləməsinə, küfr isə onun süqut edərək bədbəxtçiliyə düşməsinə səbəb olur və təbiidir ki, bunlardan axıra hansı biri qalsa, insanın müqəddəratını da o həll edəcəkdir.

MƏQSƏD VƏ NİYYƏTİN ROLU

Yuxarıda qeyd olunan prinsipə nəzər yetirməklə aydın olur ki, insanın hər bir ixtiyari işinin həqiqi dəyəri onun həqiqi kamala, yəni Allah-taalanın dərgahına yaxınlaşmağa qoyduğu təsirinə bağlıdır. Hərçənd müəyyən (hətta bir neçə vasitə ilə başqalarının təkamülünə zəmin yaradan vasitələr olsa belə) işlər hüsn və fəzilət hesab olunsa da onların işi görən şəxsin səadətindəki təsiri onun ruhunun təkamülünə təsir qoyması ilə şərtlənir.

Digər tərəfdən, xaricdə baş verən işlərin və əməllərin failin (işi görənin) ruhu ilə olan əlaqəsi iradə vasitəsi ilə gerçəkləşir ki, bu da (iradə) onun vasitəsiz olan işidir. Bir işə olan iradə o işin nəticəsinə olan meyl və şövqdən yaranır və bu məqsəd də məhz insanın ruhunun daxilində, məqsəddə tutduğu hədəfə doğru hərəkət yaradır və işi iradə etməyin formalaşmasını cilvələndirir. Deməli, iradə üzündən olan işin dəyəri failin (iş görənin) niyyətinə tabedir, bir felin özünün hüsnü və gözəlliyi, onu görənin gözəlliyi olmadan insanın ruhunun təkamülündə və əbədi

[1] Əlavə məlumat almaq üçün "Nəfsi saflaşdırmadan qabaq özünütanıma" kitabına müraciət edə bilərsiniz.

[2] "Ənfal" surəsi, ayə:55.

səadətində heç bir təsir göstərməyəcəkdir. Məhz buna görə də maddi və dünyəvi hədəflər əsasında görülən işlər əbədi səadətdə heç vaxt səbəb olmayacaq, cəmiyyətə göstərilən ən böyük xidmətlər belə, özünü göstərmək (riyakarlıq) məqsədi ilə olsa, onu görən şəxs üçün azacıq belə fayda verməyəcəkdir.[1] Əksinə, onun ruhi cəhətdən tənəzzülə uğramasına da səbəb olması mümkündür. Buna görə də Qurani-kərim saleh əməllərin insanın axirətdəki səadətindəki təsirini iman və təqərrüblə (Allaha yaxınlıq məqsədi) şərtləndirmişdir.[2]

Bir sözlə, yaxşı iş, **əvvəla,** başqalarına xidmət etməklə bitmir. **İkincisi,** başqalarına xidmət etmək də fərdi ibadətlər kimi, o zaman yekun kamal və əbədi səadət üçün təsirli olacaqdır ki, ilahi məqsəddən qaynaqlanmış olsun.

SUALLAR

1.Hər bir varlığın həqiqi dəyəri nə ilədir?

2.İnsanın son kamalını necə tanımaq olar?

3.İnsanın son kamalının yalnız Allah dərgahına yaxınlıq və Onunla əlaqə sayəsində hasil olduğunu isbat edin.

4.Yaxşı işlərin insanın əbədi səadətindəki təsirinin ilahi məqsəd və niyyətlə şərtləndiyini isbat edin.

---

[1] "Bəqərə" surəsi, ayə:246, "Nisa" surəsi, ayə:38, 142, "Ənfal" surəsi, ayə:47.

[2] "Nisa" surəsi, ayə:124, "Nəhl" surəsi, ayə:97, "İsra" surəsi, ayə:19, "Taha" surəsi, ayə:112, "Ənbiya" surəsi, ayə:94, "Ğafir" surəsi, ayə:40, "Ənam" surəsi, ayə:52, "Kəhf" surəsi, ayə:28.

ƏLLİ YEDDİNCİ DƏRS

“HƏBT”

(İNSANIN ƏMƏLLƏRİNİN MƏHV OLMASI, TƏSİRDƏN DÜŞMƏSİ)

VƏ

“TƏKFİR”

(İNSANIN PİS ƏMƏLLƏRİNİN ÜSTÜNÜN ÖRTÜLMƏSİ, GÜNAHLARIN YAXŞI İŞLƏR VASİTƏSİ İLƏ ƏVƏZ OLUNMASI)

–Müqəddimə
–İmanla küfrün əlaqəsi
–Yaxşı və pis əməllərin əlaqəsi

MÜQƏDDİMƏ

İman və saleh əməlin axirətdəki səadətə, əksinə, olaraq küfr və günahkarlığın əbədi bədbəxtçiliyə gətirib çıxarması ilə əlaqədar yaranan suallardan biri də budur ki, iman və ya küfrün onun axirət nəticəsi ilə, eləcə də hər bir yaxşı və pis əməlin onun mükafat və ya cəzası ilə olan əlaqəsi qəti sübuta yetmiş və dəyişilməzdir, yoxsa müəyyən dərəcədə dəyişilə bilər? Məsələn, yaxşı işlərlə günahın təsirlərini aradan aparmaq və ya əksinə, yaxşı işin əsərlərini günahlarla aradan aparmaq olarmı? Görəsən ömrünün müəyyən hissəsini küfr və günah etməklə, digər bir hissəsini isə iman və itaətlə keçirən insanlar müəyyən qədər cəzaya düçar olduqdan sonra mükafatlandırılacaq, yoxsa bu iki əməlin məcmusu onların xoşbəxtlik və ya bədbəxtliklərini təyin edir və ya mətləb tamamilə başqa cürdür?

Bu, eynilə qədim dövrlərdən əşəri və mötəzili mütəkəllimləri arasında münaqişəli məsələ sayılan "həbt" və "təkfir"dən ibarətdir.[1] Biz bu dərsdə şiələrin nəzərini xülasə şəkildə bəyan edəcəyik.

İMANLA KÜFRÜN ƏLAQƏSİ

Əvvəlki dərslərdə qeyd olundu ki, etiqad prinsiplərinə iman olmadan heç bir yaxşı əməl insanın əbədi səadətinə səbəb olmur və başqa sözlə desək: küfr layiqli əməllərin təsirdən düşməsinə səbəb olur. Burada da qeyd etməliyik ki, insanın sonradan iman gətirməsi güclü bir işıq əvvəlki qaranlıqları aradan apardığı kimi, ömrünün əvvəllərindəki küfrünün təsirlərini məhv edib aradan aparır. Əksinə, ömrünün axırında küfr etməsi əvvəlki imanının təsirlərini aradan aparır və şəxsin əməl dəftərini qaraldaraq puç edir. Bu da bir növ xırmana düşüb hər bir şeyi yandıran oda bənzəyir.

Misal olaraq belə demək olar: İman insanın qəlbini, ruhunu işıqlandıran, parlaqlaşdıran və qaranlıqları aradan aparan nurlu bir çırağa bənzəyir. Küfr isə özü sönməklə bütün işıqları aradan aparan və qaranlıqlar vücuda gətirən bir çırağın sönməsinə bənzəyir. İnsanın ruhu bu maddi aləmə, dəyişikliklər dünyasına bağlı oluncaya qədər işıqla-qaranlığın, nurla-zülmətin artmasına məruz qalır, nəhayət bu dünyadan köçüb gedənə qədər iman, yoxsa küfr yolunu seçmək onun üzərinə bağlanır. Hətta, bu dünyaya qayıtmaq və qaranlıqlardan qurtarmaq arzulasa belə, heç bir faydası olmaz.

İmanla küfrün bir-birindən bu cür təsirlənməsində Qurani-kərim baxımından heç bir şəkk-şübhə yoxdur. Bu mətləbə dair çoxlu ayələr vardır. O cümlədən, "Təğabun" surəsinin 9-cu ayəsində buyurulur:

«Hər kəs Allaha iman gətirsə, və layiqli işlər görsə (Allah) onun pis əməllərini aradan aparar.»

"Bəqərə" surəsinin 217-ci ayəsində buyurulur:

[1] "Həbt" və "təkfir" – Quranda işlədilən iki termindir. Birincisi yaxşı əməllərin təsirdən düşməsi, ikincisi isə günahların aradan getməsidir.

«Sizlərdən hər biriniz dinindən dönsə (mürtəd olsa) və küfr halında ölsə, dünya və axirətdəki əməlləri puç olar və onlar cəhənnəm əhlidir və orada əbədi olaraq qalacaqlar.»

YAXŞI VƏ PİS ƏMƏLİN BİR-BİRİ İLƏ ƏLAQƏSİ

İmanla küfr arasında olan əlaqəni insanın yaxşı əməlləri ilə pis əməlləri arasında da müəyyən qədər görmək olar. Amma bu, ümumi və həmişəlik bir qanun da deyildir; belə də deyildir ki, insanın bütün nameyi-əməlində layiqli əməllər qeyd olunsun və (elə bu zaman) yaramaz əməllərini aradan aparsın (mötəzilə mütəkəllimləri buna inanır), yaxud onların kəmiyyət və keyfiyyətinə diqqət yetirməklə həmişə keçmiş əməllərin məcburi olaraq toplanmasından alınan cəm inikas tapmış olsun (bəziləri də belə güman etmişlər). Belə əməllər barədə təfsil vermək lazımdır, yəni yaxşı əməllərdən bəziləri əgər layiqincə, məqbul şəkildə yerinə yetirilsə, keçmişdəki əməllərin təsirini aradan aparır, məsələn, tövbəni qeyd etmək olar. Belə ki, əgər layiqincə yerinə yetirilərsə, şəxsin günahları bağışlanır.[1]

Bu, birbaşa həmin qaranlıq nöqtəyə saçan və onu işıqlandıran bir nura bənzəyir. Amma hər yaxşı əməl də hər günahın əsərini aradan aparmır. Buna görə də mümkündür ki, mömin olan şəxs müəyyən müddət günahlarının cəzasını çəkdikdən sonra əbədi behiştə gəlsin. İnsanın ruhu sanki müxtəlif yönlərdən təşkil olunmuşdur. Onun pis və yaxşı əməllərinin hər dəstəsi onun bir yönünə aiddir. Məsələn "a" bəndinə aid olan yaxşı əməllər "b" bəndinə aid olan günahların əsərlərini aradan aparmır. Yalnız o zaman aradan aparar ki, saleh əməl o qədər nurani olsun ki, ruhun digər yönlərinə də işıq saçsın. Yaxud günah o qədər çirkin olsun ki, ruhun digər yönlərini də aludə etsin. Şərif rəvayətlərdə qeyd olunur ki, qəbul olunan namaz günahları yuyub aradan apararaq onların bağışlanmasına səbəb olur. Qurani-kərim buyurur:

«Namazı günün iki tərəfində və gecə saatlarında bərqərar et. Həqiqətən, yaxşı əməllər pis əməlləri aradan aparır.»[2]

Günahlardan bəziləri, məsələn, valideynə ağ olmaq, şərab içmək müəyyən müddətə qədər ibadətlərin qəbul olunmasının qarşısını alır. Eləcə də bir kəsə kömək etdikdən sonra ona minnət qoymaq onun savabını aradan aparır. Quranda buyurulur:

«Minnət qoymaq və əziyyət etməklə öz ehsan və sədəqələrinizi (məhv edib) aradan aparmayın.»[3]

Lakin yaxşı və pis əməllərin növünün təyin olunmasına və bir-birinə təsir göstərib təsir qəbul etməsinə gəldikdə isə, bunu, vəhy yolu ilə və

---

[1] "Nisa" surəsi, ayə:110, "Ali-İmran" surəsi, ayə:135, "Ənam" surəsi, ayə:54, "Şura" surəsi, ayə:25, "Zümər" surəsi, ayə:53 və s.

[2] "Hud" surəsi, ayə:114.

[3] "Bəqərə" surəsi, ayə:274.

məsumların (ə) sözlərindən əldə etmək lazımdır. Onların hamısı üçün ümumi bir qayda göstərmək olmaz.

Dərsin axırında qeyd edirik ki, pis əməllərin xoşagəlməzliklər, yaxud tövfiqin[1] insandan alınması və s. yaxşı əməllərin isə xoşluqlar və tovfiqin verilməsi kimi yaxşı təsirləri elə bu dünyada zahir olur. Belə ki, başqalarına, xüsusilə ata-anaya, yaxın qohum-əqrəbaya ehsan etmək insan ömrünün uzanmasına, bəlaların dəf olunmasına səbəb olur. Əksinə, böyüklərə, xüsusilə, müəllimlərə ehtiramsızlıq etmək isə insanın tövfiqinin kəsilməsinə səbəb olur. Lakin bu kimi təsirlərin bu dünyada zahir olması cəzanın və ya mükafatın kamil şəkildə alınması mənasına deyil; mükafatların və cəzaların əsl yeri əbədi axirət dünyasıdır.

SUALLAR

1.“Həbt” və “təkfir”in mənası nədir?

2.İmanla küfr arasında neçə cür əlaqə mövcuddur? Onların hər birini izah edin.

3.Yaxşı əməllə pis əməl arasında neçə cür əlaqə mövcuddur və onlardan hansı düzgündür?

4.Yaxşı və pis əməllərin dünyəvi əsərləri onların axirətdəki cəza və mükafatlarını aradan aparırmı?

[1] Tövfiq – müvəffəqiyyət, uğur. Allah tərəfindən olan kömək.

ƏLLİ SƏKKİZİNCİ DƏRS

MÖMİNLƏRİN İMTİYAZLARI

–Müqəddimə
–Savabın artması
–Kiçik günahların bağışlanması
–Başqalarının əməllərindən istifadə etmək

MÜQƏDDİMƏ

Allahşünasılq bölməsində məlum oldu ki, Allahın iradəsi nəticəsində yalnız xeyir və kamal işlər baş verir. Şərlər və nöqsanlar isə sonradan və vasitə əsasında ilahi iradəyə aid olur. Təbiidir ki, insan barəsində də Allahın ilkin iradəsi onun təkamülü və əbədi səadətə çataraq əbədi nemətlərdən bəhrələnməsidir. Günahkarların düzgün olmayan seçimi nəticəsində hasil olan əzab və bədbəxtçilikləri də Allahın hikmətli iradəsi əsasındadır. Lakin bu bilavasitə deyil. Əgər axirətdəki bədbəxtçilik və əzaba mübtəla olmaq insanların özlərinin qeyri-doğru seçimi nəticəsində olmasaydı, Allahın geniş rəhməti heç bir məxluqun əzaba düçar olmasına yol verməzdi.

İnsanın muxtar yaranmasını məhz Allahın bu geniş rəhməti tələb etmişdir. Amma iman və küfr kimi iki yoldan hər birini seçməyin ardınca da yaxşı və ya pis nəticələrə nail olmaq gəlir. Fərqi bundadır ki, yaxşı aqibətə nail olmaq bilavasitə, əzablara düçar olmaq isə bilvasitə (vasitə əsasında) iradəyə tabedir. Həmin fərqlər də həm təkvin, həm də təşri aləmində xeyir tərəfinə üstünlük verilməsini tələb edir. Yəni insan təkvin etibarı ilə elə yaradılmışdır ki, yaxşı və xeyirli işlər onun şəxsiyyətinin formalaşmasında daha dərin təsirlər qoysun və təşri baxımından da asan işlərə mükəlləf (vəzifəli) olunsun ki, səadət və nicat yolunu ötmək və əbədi əzabdan xilas olmaq üçün üzücü, çətin təkliflərə ehtiyacı olmasın.[1] Mükafatverilmə və cəzalandırma məqamında da mükafat tərəfinə üstünlük verilir və Allahın rəhməti qəzəbindən irəli keçir.[2] Rəhmətin irəli salınıb ona üstünlük verilməsi müəyyən işlərdə daha artıq nəzərə çarpır ki, onlardan bəzilərini nümunə olaraq qeyd edirik:

SAVABIN ARTIRILMASI

Mütəal Allahın səadət yolunu seçmək istəyənlər üçün mükafatlandırılmaqdan ötrü nəzərdə tutduğu ilkin məziyyət və üstünlük bundan ibarətdir ki, onlara əməlləri qədərində deyil, əməllərindən artıq mükafat verir. Bu mətləb Quran ayələrində aşkar şəkildə qeyd edilmişdir. "Nəml" surəsinin 89-cu ayəsində belə buyurulur:

«Hər kəs yaxşı iş görsə, ondan daha yaxşısını ona verəcəklər.»

"Şura" surəsinin 23-cü ayəsində buyurulur:

«Hər kəs yaxşı iş görsə, onun yaxşılığını artırarıq.»

"Yunis" surəsinin 26-cı ayəsində buyurulur:

«Yaxşı iş görənlər üçün yaxşı iş və ondan artığı da vardır.»

"Nisa" surəsinin 40-cı ayəsində buyurulur:

«Həqiqətən, Allah zərrə qədər də zülm etməz. Əgər bu, yaxşı iş olsa, onun əvəzini bir neçə qat artırar və Öz yanında (buna) böyük mükafat

[1] "Bəqərə" surəsi, ayə:158, Həc-78.

[2] "Səbəqət rəhmətu ğəzəbəh".

verər.»

"Ənam" surəsinin 160-cı ayəsində buyurulur:

«Hər kəs yaxşı iş görsə, onqat savab alacaqdır, hər kəs pis iş görsə, onun mislindən başqa şeylə cəzalandırılmaz və ona zülm olunmaz.»

KİÇİK GÜNAHLARIN BAĞIŞLANMASI

Digər bir imtiyaz budur ki, əgər möminlər böyük günahlardan çəkinərlərsə, mehriban Allah onların kiçik günahlarını bağışlayır və onların göstərdiyi təsiri aradan aparır. Belə ki, "Nisa" surəsinin 31-ci ayəsində buyurulur:

«Əgər böyük günahlardan çəkinsəniz, kiçik günahlarınızı bağışlayıb sizi bəyənilən bir məqama daxil edərik.»

Aydındır ki, belə şəxslərin kiçik günahlarının bağışlanma şərti tövbə deyildir. Çünki tövbə böyük günahların da bağışlanmasına səbəb olur.

BAŞQALARININ ƏMƏLLƏRİNDƏN İSTİFADƏ ETMƏK

Möminlərin imtiyazlarından digər biri budur ki, Mütəal Allah mələklərin və seçilmiş bəndələrin onlar haqqında etdikləri istiğfarını,[1] eləcə də digər möminlərin onlar üçün etdiyi dua və istiğfarları qəbul edir. Hətta başqalarının mömin şəxs üçün hədiyyə etdiyi əməllərin savabını belə, ona çatdırır.

Bu məsələ çoxlu ayə və hədislərdə bəyan olunmuşdur. Lakin bu mövzu şəfaət məsələsi ilə birbaşa əlaqədar və onun barəsində nisbətən ətraflı söhbət açılmalı olduğundan biz həmin qeyd olunanlarla kifayətlənirik.

SUALLAR

1.Allah rəhmətinin qəzəbindən öndə olmasının səbəbi nədir?
2.Bunun təkvin və təşri aləmində irəli keçməsini bəyan edin.
3.Onun insanın cəza və mükafatı ilə bağlı olan hallarını bəyan edin.

[1] "Ğafir" surəsi, ayə:7, "Ali-İmran" surəsi, ayə:159, "Nisa" surəsi, ayə:64, "İbrahim" surəsi, ayə:41 və s.

ƏLLİ DOQQUZUNCU DƏRS

ŞƏFAƏT

–**Müqəddimə**
–Şəfaət məfhumu
–Şəfaətin qayda-qanunları

MÜQƏDDİMƏ

Mütəal Allahın yalnız möminlərə məxsus etdiyi məziyyətlərdən biri də budur ki, əgər mömin şəxs öz imanını ölümü çatan vaxta qədər qoruyub saxlasa, tövfiqin aradan getməsinə, aqibətin pis olmasına, nəhayət şəkk və tərəddüdün, inkar və inadın yaranmasına səbəb olacaq günahlara mürtəkib olmazsa və bir sözlə, əgər dünyadan imanla gedərsə, əbədi əzaba düçar olmayacaqdır. Onun kiçik günahları böyük günahlardan çəkinmək səbəbi ilə, böyük günahları da kamil və qəbul olunan bir tövbə ilə bağışlanacaqdır. Əgər belə bir tövbə etməyə müvəffəq olmazsa dünya çətinliklərinə və müsibətlərinə dözmək onun günah yükünü yüngülləşdirər, bərzəx çətinlikləri və qiyamətin əvvəlindəki dayanacaqlarda gözləmək onun pis işlərini aradan aparar. Əgər yenə də günahlardan paklanmazsa, şəfaət vasitəsilə cəhənnəm əzabından xilas olacaq, bu da Allahın ən böyük və geniş rəhmətinin Öz övliyaları, xüsusilə, Peyğəmbəri-Əkrəm (s) və onun Əhli-beyti vasitəsilə həyata keçəcək.[1] Çoxlu rəvayətlərə əsasən, Qurani-kərimdə Peyğəmbəri-Əkrəmə (s) vədə verilən "məqami-məhmud" məhz həmin şəfaət məqamından ibarətdir.[2] Eləcə də **«Həqiqətən sənin Pərvərdigarın sənə (o qədər) əta edəcəkdir ki, razı olasan»**[3] ayəsində Allahın bəndələri bağışlamasına işarə edilir ki, o Həzrətin (s) şəfaəti və vasitəçiliyi ilə layiqli şəxslərə şamil olacaqdır.

Deməli, günahkar möminlərin ən böyük və ən son ümidləri şəfaətdir. Lakin onlar ilahi məkrdən də arxayın olmamalı, həmişə bundan qorxmalıdırlar ki, olmaya onlarda elə bir iş çıxsın, yaxud gələcəkdə baş versin ki, axır-aqibətin pis olmasına, ölüm zamanı imanın aradan getməsinə səbəb olsun və olmaya dünyəvi işlərə məhəbbət onların qəlblərində elə bir həddə nüfuz etmiş olsun ki, (Allah eləməmiş) bu dünyadan Allahın ona qəzəbi tutduğu halda getmiş olsun. Çünki bu zaman görür ki, onunla sevdiyi şeylər arasında ölüm vasitəsilə ayrılıq salan məhz Odur.

ŞƏFAƏT MƏFHUMU

"Cüt" mənasını ifadə edən və "şəf" kökündən alınan şəfaət camaat arasında bu mənada işlənir ki, alicənab və böyük şəxsiyyətli insan daha böyük şəxsdən bir kəsin günahından güzəştə gedilməsini, yaxud xidmətçilik haqqının artırılması üçün vasitəçilik etsin. Bəlkə də şəfaət kəlməsinin bu kimi hallarda işlənməsində əsas məsələ budur ki, günahkar şəxs təklikdə bağışlanmağa, yaxud xidmətçi təklikdə əmək haqqını artırılmasına layiq deyildir. Lakin şəfaətçinin istəyinin də ona əlavə edilməsi ilə belə bir haqqa

---

[1] Peyğəmbəri-Əkrəm (s) buyurur: "Şəfaətimi ümmətimdən kəbirə (günah) əhli olan insanlar üçün saxlamışam." "Biharul-ənvar", 8-ci cild, səh. 38-40.

[2] "İsra" surəsi, ayə:79.

[3] "Züha" surəsi, ayə:5.

layiq olur.

Bir çox hallarda şəfaət edənin vasitəçiliyini qəbul edən şəxs qorxur ki, əgər qəbul etməzsə şəfaət edən şəxs inciyər və onun inciməsi də onunla ünsiyyətdə olmaq və xidmət etmək ləzzətindən məhrum olmağa, yaxud, hətta şəfaətçi tərəfindən zərərə düşməyə səbəb olar. Aləmlərin Yaradınını insani xüsusiyyətlərlə, o cümlədən qəlb dostuna, həyat yoldaşına və köməkçiyə ehtiyaclı olmaq, şəriklərdən qorxmaq kimi sifətlərə malik olmasını təsəvvür edən müşriklər böyük Allahın diqqətini cəlb etmək, yaxud Onun qəzəbindən amanda qalmaq üçün xəyali məbudlara sığınır, mələklərə, cinlərə pərəstiş edir, bütlərin qarşısında əyilir və deyirdilər:

«Bunlar bizim Allah yanında şəfaətçilərimizdir.»[1]

«Biz bunlara yalnız ona görə ibadət edirik ki, Allah yanında bizim üçün böyük bir məqam əldə etsinlər.»[2]

Qurani-kərim belə cahilanə və yanlış təsəvvürləri rədd edərək buyurur:

«Onun üçün Allahdan başqa heç bir dost və şəfaətçi yoxdur.»[3]

Amma diqqət yetirmək lazımdır ki, belə şəfaətçiləri və belə şəfaəti inkar etmək şəfaətin mütləq şəkildə inkar edilməsi demək deyildir. Belə ki, Qurani-kərimdə mövcud olan bəzi ayələr Allahın izni ilə olan şəfaəti isbat edir, şəfaət edənlərin, eləcə də şəfaətə layiq görülənlərin şərtlərini bəyan edir. Allah tərəfindən icazə verilən şəfaətçilərin şəfaətinin qəbul olunması da Allahın onlardan qorxması və ya onlara ehtiyaclı olması mənasına deyildir, əksinə bu, elə bir yoldur ki, əbədi rəhmətə nail olmaq üçün azacıq ləyaqətə malik olan şəxslərin üzünə açılır, onun üçün müəyyən qayda-qanunlar da təyin edir. Həqiqətdə səhih şəfaətlə şirklə qarışıq olan şəfaət arasındakı fərq Allahın izni ilə olan təqdir və vilayətlə tam müstəqil şəkildə olan təqdir və vilayətə olan etiqad kimidir ki, bu da Allahşünaslıq bölməsində qeyd olundu.

Şəfaət kəlməsi bəzən daha geniş mənada işlənir və insanda başqasının vasitəsilə zahir olan hər bir xeyir təsirə səbəb olan işlərə aid edilir. Belə ki, ata-ana öz övladlarına, yaxud, müəllim şagirdlərə və şagirdlər də müəllimlərə, hətta azan verən şəxs onun azanı ilə namazı yad edən və namaza gələn şəxslər üçün şəfaət edir və həqiqətdə dünyada malik olduqları xeyrə səbəb olan əsərlər qiyamətdə şəfaətçi və əlindən tutan şey kimi zahir olur.

Digər məsələ bundan ibarətdir ki, günahkarlar üçün istiğfar edilməsi elə bu dünyada bir növ şəfaətdir. Hətta, başqalarının barəsində dua etmək, Allahdan onların hacətlərinin yerinə yetirməsini dilmək də həqiqətdə Allah yanında şəfaət hesab olunur. Çünki bunların hamısı Allah dərgahında başqa

---

[1] "Yunis" surəsi, ayə:17, "Rum" surəsi, ayə:13, "Ənam" surəsi, ayə:94, "Zümər" surəsi, ayə:44 və s.

[2] "Zümər" surəsi, ayə:3.

[3] "Ənam" surəsi, ayə:70, 51, "Səcdə" surəsi, ayə:4, "Zümər" surəsi, ayə:44 və s.

bir şəxsə xeyir çatdırmaq, yaxud şərin ondan dəf olması üçün vasitəçilikdir.

ŞƏFAƏTİN QAYDA-QANUNLARI

Qeyd olunduğu kimi, şəfaət etmək və şəfaətə nail olmaq üçün əsas şərt Allahın iznidir. Belə ki, "Bəqərə" surəsinin 255-ci ayəsində buyurulur:

«Kimdir Allahın izni olmadan Onun dərgahında şəfaət edən?!»

"Yunis" surəsinin 3-cü ayəsində buyurulur:

«Onun izni olmadan heç bir kəs şəfaət edə bilməz.»

"Taha" surəsinin 109-cu ayəsində buyurulur:

«O gündə heç kəsin şəfaəti fayda verməz, yalnız o kəslərdən başqa ki, Mütəal Allah ona icazə versin və onun sözləri bəyənilmiş olsun.»

"Səba" surəsinin 23-cü ayəsində buyurulur:

«Allahın izni olmadan Onun dərgahında şəfaət fayda verməz.»

Bu ayələrdə ümumi şəkildə Allahın izninin şərt olması məlum olur. Lakin icazə verilən şəxslərin xüsusiyyətləri məlum olmur. Amma digər ayələrdən istifadə etməklə iki tərəf üçün daha aydın şərtlər nəzərə çatdırmaq olar. "Zuxruf" surəsinin 86-cı ayəsi:

«Allahdan başqa çağırılanlar (bütlər) şəfaət sahibi deyillər (və heç bir şəxs şəfaətə malik deyil). Yalnız haqqa şəhadət verib elm sahibi olanlar (şəfaətə sahib) ola bilər.»

Bəlkə də **«mən şəhidə bil-həqqi»** dedikdə məqsəd əməllərə şahid olanlardır ki, onlar Allahın təlimi ilə bəndələrin niyyət və əməllərindən agah olur və onların rəftarlarının dəyər və keyfiyyətinə şəhadət verirlər. Bu hökmə əsasən anlaşılır ki, şəfaət edənlər də elə əməl sahibləri olmalıdır ki, şəxslərin şəfaət olunması üçün səlahiyyətli olub-olmamalarını ayırd edə bilsinlər. Şübhəsiz, bu iki şərtə malik olan şəxslər Məsumlardan (ə) ibarətdir.

Digər tərəfdən, ayələrdən məlum olur ki, şəfaət olunanlar da Allahın razı olduğu şəxslər olmalıdır. "Ənbiya" surəsinin 28-ci ayəsində buyurulur:

«Allahın razı qaldığı şəxslərdən başqası şəfaət etməz.»

"Nəcm" surəsinin 26-cı ayəsində buyurulur:

«Asimanlarda o qədər mələklər vardır ki, onların şəfaətlərinin faydası yoxdur. Yalnız Allah Öz istədiyi və bəyəndiyi şəxslər üçün izn verdikdən sonra (onlar şəfaət edə bilərlər).»

Aydındır ki, ***"şəfaət olunan şəxs Allahın razı qaldığı şəxs olmalıdır"*** dedikdə məqsəd bu deyildir ki, onun bütün əməlləri bəyənilmiş olsun. Əks halda, şəfaətə ehtiyac duyulmazdı. Əksinə, rəvayətlərdə də nəql edildiyi kimi, məqsəd şəxsin din və iman nəzərindən razı olunan bir şəxs olmasıdır. Digər tərəfdən, bir neçə ayədə şəfaətə layiq görülməyən şəxslərin xislətləri bəyan olunur. "Şüəra" surəsinin 100-cü ayəsində müşriklərin dilindən belə deyilir:

«Bizim üçün heç bir şəfaət edən yoxdur.»

"Müddəssir" surəsinin 40-48-ci ayələrində qeyd olunur ki, günahkarların

cəhənnəmə getmələrinin səbəbi barəsində soruşulur, onlar da cavabında namazı tərk etmək, kasıblara infaq etməmək, qiyamət gününü təkzib etmək kimi xislətləri sadalayırlar. Sonra buyurulur:

«Şəfaət edənlərin şəfaəti onlara fayda verməz.»

Bu ayələrdən məlum olur ki, Allaha ibadət etməyən, möhtac bəndələrə kömək əlini uzatmayan, düzgün əqidə sahibi olmayan müşriklər və qiyaməti inkar edənlər heç vaxt şəfaətə layiq görülməyəcəklər. Bunu da nəzərə almaq lazımdır ki, Peyğəmbəri-Əkrəmin (s) dünyada istiğfar etməsi də bir növ şəfaət sayılır. Bir kimsə o Həzrətin (s), onun üçün istiğfar etmək və şəfaətçi olmaq üçün vasitəçi olmasına razı olmazsa, o Həzrətin (s) belə şəxs barəsindəki istiğfarı qəbul olunmur.[1] Məlum olur ki, şəfaəti inkar edən şəxs də şəfaətə layiq görülmür. Bu bəzi hədislərdən də aydın olur.[2]

Bir sözlə, mütləq və əsl şəfaətçi Allah tərəfindən icazəli olmaqdan əlavə, özü də günah əhli olmamalı, həmçinin, başqalarının itaət və üsyankarlıq mərtəbələrini dəyərləndirmə qüdrətinə malik olmalıdır. Belə şəxslərin ardıcılları onun sayəsində şəfaətin ən kiçik mərtəbələrinə nail ola bilərlər. Belə ki, belə ardıcıllar şəhidlərin və siddiqlərin cərgəsində məhşur olacaqlar.[3] Digər tərəfdən, yalnız o kəslərin şəfaətə çatmaq ləyaqətləri vardır ki, Allahın iznindən əlavə, Allaha, peyğəmbərlərə, qiyamət gününə, Allahın peyğəmbərlərinə nazil etdiyinə, o cümlədən, şəfaətin haqq olmasına iman gətirsin və bu imanı ömrünün axırana qədər qoruyub saxlamış olsun.

SUALLAR

1.Şəfaətin mənasını onun işləndiyi yerləri qeyd edin.
2.Səhih şəfaətlə şirkə qarışıq şəfaətin fərqini bəyan edin.
3.Şəfaətverənin şərtlərini izah edin.
4.Şəfaət olunan şəxsin şərtlərini bəyan edin.

---

[1] "Munafiqun" surəsi, ayə:5-6.

[2] Peyğəmbəri-Əkrəm (s) buyurur: **"Hər kəsin mənim şəfaətimə imanı olmasa mənim şəfaətimə layiq görülməz."** "Biharul-ənvar", 8-ci cild, səh.58, hədis-84.

[3] **"Allaha və Onun peyğəmbərlərinə iman gətirənlər Allahın yanında siddiqlər və şəhidlər olacaqdır."**

ALTMIŞINCI DƏRS

BİR NEÇƏ ŞÜBHƏNİN CAVABI

–Şəfaəti inkar edən ayələrin araşdırılması
–Mütəal Allah şəfaət edənlərin təsiri altına düşməz
–Şəfaət edənlər heç də Allahdan mehriban deyillər
–Şəfaətin ilahi ədalətlə ziddiyyəti yoxdur
–Şəfaət ilahi qayda-qanunların dəyişilməsinə səbəb olmur
–Şəfaət vədəsi camaatın cürətlənməsinə səbəb olmaz
–Şəfaətə layiqolma şərtlərini əldə etmək səadətə çatmaq yolunda çalışmaqdır

Şəfaət məsələsi ilə əlaqədar müəyyən iradlar və şübhələr irəli çəkilir ki, bu dərsdə onların ən mühümlərini cavabları ilə birlikdə bəyan edirik.

1.İlk şübhə bundan ibarətdir ki, Qurani-kərimin bir neçə ayəsi qiyamət günündə şəfaətin heç kəsin barəsində qəbul olunmamasına dəlalət edir. O cümlədən "Bəqərə" surəsinin 48-ci ayəsində buyurulur:

«Qorxun o gündən ki, heç kəs heç kəsin karına gəlməsin və heç kəsdən şəfaət qəbul olunmasın, bir kəsdən əvəz qəbul olunmasın və onlara kömək olunmasın.»

Cavab:

Bu kimi ayələr qayda-qanun üzərindən olmayan müstəqil şəfaətləri inkar edir. Bundan əlavə, bu ayələr ümumidir və şəfaətin, Allahın izni ilə və müəyyən qayda-qanunlar əsasında qəbul olunmasını göstərən ayələrdən fərqlənir. Belə ki, keçən dərsdə bunlar qeyd olundu.

2.Şəfaət düzgün olarsa, onda belə çıxır ki, Mütəal Allah şəfaət edən şəxslərin təsiri altına düşür, yəni onların şəfaət etməsi məğfirət kimi Allaha məxsus olan sifətə yiyələnmək deməkdir.

Cavab:

Şəfaəti qəbul etmək təsir altına düşmək mənasına deyil. Eləcə də tövbənin qəbul və duanın müstəcab olması da belə düzgün olmayan şeyləri gərəkli etmir. Çünki bu halların hamısında bəndələrin işləri ilahi rəhməti qəbul etmək üçün hazırlığa səbəb olur və fəlsəfəyə əsasən desək, failin failiyyət şərti deyil, qabilin qabiliyyət şərtidir.

3.Şəfaətdən belə çıxır ki, şəfaət edənlər Allahdan da mehriban olmalıdırlar! Çünki belə fərz olunur ki, əgər onların şəfaəti olmasaydı, günahkarlar əzaba düçar olar, yaxud əzabları davam edərdi.

Cavab:

Şəfaət edənlərin ürəyiyananlıq və mehribanlıqları Allahın sonsuz rəhmətindən bir nümunədir. Başqa sözlə desək, şəfaət bir vasitəsidir ki, Allah bu yolu özünün günahkar bəndələrini bağışlamaq üçün qərar vermişdir və həqiqətdə Onun rəhmətlərinin ən yüksək səviyyədə təcəllisidir ki, layiqli və seçilmiş bəndələrində cilvələnir. Eləcə də tövbə və dua hacətlərin rəva olunması və günahların bağışlanması üçün qərar verilən başqa vasitələrdir.

4.Əgər Allahın günahkarlara əzab vermək haqqında hökmü ədalətin tələbidirsə, onların barəsində şəfaətin qəbul edilməsi də ədalətin əksinə olacaqdır. Əgər şəfaətin qəbul olunmasının tələbi olan əzabdan qurtuluş ədalətli olsa, şəfaətin baş verməsindən öncə mövcud olan əzab hökmü ədalətsiz olacaqdır.

Cavab:

İlahi hökmlərdən hər biri – istər şəfaətdən qabaq əzaba dair hökm olsun, istərsə də şəfaətdən sonra əzabdan qurtuluşa dair – ədalət və hikmətlə müvafiqdir. Hər ikisinin hikmətli və ədalətli olmasının mənası «zidd»ləri bir yerə toplamaq deyildir. Çünki onların mövzuları bir-birindən fərqlənir. Belə

ki, günahkarların haqqında şəfaətin gerçəkləşməsi və onun qəbul olunmasına səbəb olan vasitələri nəzərə almadıqda əzaba hökm olunması günah iş görməyin tələbidir. Eləcə də əzabdan xilas olunmağa dair hökm verilməsi yuxarıdakı ziddiyyətdən irəli gəlir.

Mövzuya əlavə olaraq qeyd olunan məsələnin dəyişməsinə əsasən hökmün dəyişilməsinin hökmdə, təkvini təqdirdə, əhkamda və şəriət qanunlarında da çoxlu nümunələri vardır. Eləcə də öz zəmanəsinə nisbətən nəsx olunmuş (qüvvədən düşmüş) bir hökmün ədalətli olması nəsx edən hökmün ondan sonrakı dövrlərdə ədalətli olması ilə zidd deyildir. Dua etməkdən öncə bəlanın hikmətə uyğun olması da onun dua etdikdən və sədəqə verdikdən sonra aradan qaldırılmasının hikmətə uyğun olması ilə zidd deyildir. Şəfaətdən sonra günahın bağışlanmasına hökm etmək də şəfaətin gerçəkləşməsindən qabaq əzaba hökm edilməsi ilə zidd olmayacaqdır.

5.Mütəal Allah şeytana itaət etməyi cəhənnəm əzabına düçar olmaq səbəbi bilir və "Hicr" surəsinin 42-43-cü ayələrində buyurur:

«Həqiqətən sən (ey İblis) Mənim bəndələrimə müsəllət olmayacaqsan (onlar üzərində heç bir hökmranlığın olmayacaq). Yalnız sənə itaət edən azğınlardan başqa. Onların hamısının vədəgahı cəhənnəmdədir.»

Həqiqətdə, axirət aləmində günahkarlara əzab verilməsi ilahi qanunlardan biridir və bildiyimiz kimi ilahi qanunlar da dəyişilmir. "Fatir" surəsinin 43-cü ayəsində buyurulur:

«Allahın qanununda heç vaxt bir dəyişiklik tapmazsan.»

Bəs şəfaətin vasitəsilə bu qanunun dəyişilməsi necə mümkün ola bilər?

Cavab:

Məlum şərtlər malik olan günahkarlar barəsində şəfaətin qəbul edilməsi Allahın dəyişiklik qəbul etməyən qanunlarından biridir. Yəni, ilahi qanun real meyarlara tabedir və heç bir ilahi qanun onun vücudi (varlıq) və ədəmi (yoxluq) şərtlərinin yaranması ilə dəyişilmir. Lakin bu qanunlarda dəlalət edən ibarələr əksər hallarda mövzunun bütün və ya müxtəlif şərtlərinin bəyan edilməsi demək deyildir. Buna görə də elə hallar tapılır ki, bir neçə müxtəlif qanun ilə əlaqədar olan ayələrin zahiri onlara şamil olur. Halbuki, gerçəkdə ayənin xarici nümunəsi əxəs (dəlalət etmə həddi-hüdudu daha kiçik) və daha güclü meyara tabedir. Deməli, hər bir qanun onun öz mövzusunun həqiqi şərtlərinə diqqət yetirməklə (nəinki təkcə ibarələrdə qeyd olunan şərtlərə) sabit qalacaq və dəyişkənlik qəbul etməyəcəkdir. Onlardan biri də şəfaət qanunudur ki, müəyyən olunmuş şərtlərə malik olan xüsusi günahkarlara şamildir və bu barədə dəyişkənliyə yol yoxdur.

6.Şəfaət vədəsi insanların günaha mürtəkib olmaqda və yollarını azmaqda daha da cürətlənmələrinə səbəb olar.

Cavab: Tövbənin qəbul olunması və pis əməllərin üstünün örtülməsi ilə əlaqədar da irəli çəkilən belə şübhənin cavabı budur: şəfaətə və məğfirətə nail olmağın müəyyən şərtləri vardır ki, günahkar şəxsin onlara nail olub-

olmadığına yəqini yoxdur. Şəfaətə nail olmağın şərtlərindən biri də budur ki, öz imanını, həyatının son anlarına qədər qoruyub saxlaya bilsin. Biz də bilirik ki, heç kəs belə bir şərtə malik olmasına tam şəkildə əmin ola bilməz. Digər tərəfdən də əgər günaha batan bir kimsənin bağışlanmağa heç bir ümidi olmazsa, ümidsizliyə düçar olub məyus olar və bu da onun günahları tərk etmə məqsədini zəiflədər, onu azğın yola tərəf çəkər. Məhz buna görə də ilahi mürəbbilərin (tərbiyəçilərin) tərbiyə metodu belə olmuşdur ki, onlar insanları həmişə ümidlə qorxu arasında saxlamışlar: nə ilahi rəhmətə o qədər ümidvar etmişlər ki, nəticədə "ilahi məkrdən əmin-amanlıq, arxayınlıq hissi" keçirsinlər, nə də onları ilahi əzabdan o qədər qorxutmuşlar ki, "ilahi rəhmətdən məyus olub ümidsizliyə" düçar olsunlar. (Çünki bunların hər ikisi – ilahi məkrdən əminamanlıq hissi keçirib arxayın olmaq və Allahın rəhmətindən tam ümidsiz olmaq böyük günahlardandır.)

7.İlahi əzabdan xilas olmaqda şəfaətin təsiri başqalarının (şəfaət edənlərin) işinin əbədi səadət və ya bədbəxtçilikdə təsirli olması mənasınadır. Halbuki, bu məsələ **"və ən ləysə lil-insani illa ma səa – İnsanı səadətə çatdıran yeganə şey onun öz səy və fəaliyyətləridir"** ayəsinin məfhumu ilə ziddir.

Cavab: Şəxsin öz məqsəd və məramına çatmaq üçün göstərdiyi səylər bəzən birbaşa həyata keçir və yolun axırına qədər davam edir. Bəzən də birbaşa deyil, müəyyən vasitələrlə, müqəddimə və şərtlərin hazırlanması ilə baş verir. Şəfaətə layiq görülən şəxsin səy və fəaliyyətləri də səadətin müqəddimələrini əldə etmək üçün sərf edilir. Çünki iman gətirmək və şəfaətə layiq görülmək üçün şəraitin əldə edilməsi də, hərçənd natamam və naqis şəkildə olsa belə, səadətə çatmaq yolunda göstərilən səylər hesab olunur. Buna görə də bərzəx aləmində və məhşər səhnəsinin ilk dövrlərindəki çətinliklərə, əzaba düçar olacaq. Hər halda o öz qəlbində iman ağacını əkdiyinə, onu saleh əməllərlə inkişaf etdirdiyinə, dünyəvi həyatının axırına qədər bu ağacı qurutmadığına görə səadətin əsasını qoymuş olur. Deməli, yekun səadət onun öz səy və faliyyətlərinə istinadən verilir. Hərçənd şəfaət edən də bu ağacın ərsəyə çatmasında müəyyən qədər rol oynayır. Belə ki, dünyada bəzi şəxslər də insanların hidayət olunmasında və düzgün tərbiyələnməsində təsirli olurlar. Onların təsiri fərdlərin özlərinin səy və faliyyətlərinin inkar olunması mənasında deyildir.

SUALLAR

1.Şəfaəti inkar edən ayələrlə yanaşı varlığı ilə onun gerçəkləşəcəyinə necə etiqad bəsləmək olar?

2.Şəfaət başqalarının mütəal Allaha təsir qoyması demək deyilmi?

3.Şəfaət şəfaət edənlərin "anadan da mehriban dayə" olmasını lazım etmirmi?

4.Şəfaətin ilahi ədalətlə olan əlaqəsini bəyan edin.

5.Şəfaət ilahi qanunların dəyişilməsini lazım etmirmi?

6.Şəfaət vədəsi günahkarların öz yaramaz əməllərində daha da

cürətlənmələrinə səbəb olmurmu?

7.Bunu izah edin: “Şəfaətin, ayrı-ayrı şəxslərin səadətinin öz səy və fəaliyyətlərinə istinad verilməsi ilə heç bir ziddiyyəti yoxdur.”

Mündəricat

ƏQİDƏ ÜSULLARININ TƏLİMİ 1
AYƏTULLAH MİSBAH YƏZDİ 1
MÜQƏDDİMƏ 3
BİRİNCİ DƏRS 5
DİN NƏDİR 5
DİN MƏFHUMU 6
ÜSULİDDİN VƏ FÜRUİDDİN 6
DÜNYAGÖRÜŞ VƏ İDEOLOGİYA 6
İLAHİ VƏ MADDİ (MATERİALİST) DÜNYAGÖRÜŞ 7
DİN, ASİMANİ DİNLƏR VƏ ONLARIN PRİNSİPLƏRİ 7
SUALLAR 9
İKİNCİ DƏRS 10
DİN BARƏDƏ TƏHQİQAT 10
TƏHQİQATDAN MƏQSƏD 11
DİNLƏ BAĞLI TƏDQİQAT APARMAĞIN ƏHƏMİYYƏTİ 12
BİR ŞÜBHƏNİN HƏLLİ 13
SUALLAR 14
ÜÇÜNCÜ DƏRS 15
YAŞAMAQ İNSAN ÜÇÜN ŞƏRTDİR! 15
MÜQƏDDİMƏ 16
İNSAN KAMİLLİK AXTARAN BİR VARLIQDIR 16
İNSANIN KAMİLLİYƏ ÇATMASI ƏQLİNƏ TABE OLMAQLA MÜMKÜNDÜR 17
ƏQLİ FƏALİYYƏT NƏZƏRİ ƏSASLARA EHTİYACLIDIR 17
NƏTİCƏ 18
SUALLAR 19
DÖRDÜNCÜ DƏRS 20
ƏSASLI MƏSƏLƏLƏRİN HƏLLİ YOLU 20
MÜQƏDDİMƏ 21
MƏRİFƏTİN (TANIŞLIĞIN) NÖVLƏRİ 21
DÜNYAGÖRÜŞÜN NÖVLƏRİ 22
TƏNQİD VƏ ARAŞDIRMALAR 22
NƏTİCƏ 23
SUALLAR 24
BEŞİNCİ DƏRS 25
ALLAHI TANIMAQ 25
MÜQƏDDİMƏ 26
HÜZURİ VƏ HÜSULİ MƏRİFƏT 26
Fitri mərifət 27

SUALLAR 28
ALTINCI DƏRS 29
ALLAHI TANIMAĞIN SADƏ YOLU 29
ALLAHI TANIMAĞIN YOLLARI 30
SADƏ YOLUN XÜSUSİYYƏTLƏRİ 30
TANIŞ NİŞANƏLƏR 31
SUALLAR 33
YEDDİNCİ DƏRS 34
VACİBUL-VÜCUDUN İSBAT OLUNMASI 34
MÜQƏDDİMƏ 35
BÜRHANIN MÖVZUSU 35
İMKAN VƏ VÜCUB 35
SƏBƏB VƏ NƏTİCƏ 36
SƏBƏBLƏR SİLSİLƏSİNİN SONSUZ OLMASI QEYRİ-MÜMKÜNDÜR 37
BÜRHANIN BƏYANI 38
SUALLAR 38
SƏKKİZİNCİ DƏRS 40
ALLAHIN SİFƏTLƏRİ 40
MÜQƏDDİMƏ 41
ALLAHIN ƏZƏLİ VƏ ƏBƏDİ OLMASI 41
SƏLBİ SİFƏTLƏR 42
VARLIQ BƏXŞ EDƏN SƏBƏB 43
VARLIQ BƏXŞ EDƏN SƏBƏBİN XÜSUSİYYƏTLƏRİ 44
SUALLAR 44
DOQQUZUNCU DƏRS 46
ZATİ SİFƏTLƏR 46
MÜQƏDDİMƏ 47
ZATİ VƏ FELİ SİFƏTLƏR 47
ZATİ SİFƏTLƏRİN İSBAT OLUNMASI 48
HƏYAT 48
ELM 49
QÜDRƏT 49
SUALLAR 50
ONUNCU DƏRS 51
FELİ SİFƏTLƏR 51
MÜQƏDDİMƏ 52
XALİQİYYƏT 53
RÜBUBİYYƏT 54
ÜLUHİYYƏT 54

SUALLAR 55
ON BİRİNCİ DƏRS 56
DİGƏR FELİ SİFƏTLƏR 56
MÜQƏDDİMƏ 57
İRADƏ 57
HİKMƏT 58
ALLAHIN KƏLAMI 58
SİDQ (DOĞRUÇULUQ) 59
SUALLAR 59
ON İKİNCİ DƏRS 61
DÜZ YOLDAN ÇIXMAĞIN SƏBƏBİ 61
MÜQƏDDİMƏ 62
DÜZ YOLDAN AZMANIN SƏBƏBLƏRİ 62
İNHİRAFA SƏBƏB OLAN AMİLLƏRLƏ MÜBARİZƏ 64
SUALLAR 64
ON ÜÇÜNCÜ DƏRS 65
BİR NEÇƏ ŞÜBHƏNİN HƏLL EDİLMƏSİ 65
HİSS OLUNMAYAN VARLIĞA ETİQAD 66
ALLAHA ETİQAD BƏSLƏMƏKDƏ QORXU VƏ CƏHALƏTİN ROLU 66
SƏBƏBİYYƏT (SƏBƏB-NƏTİCƏ) PRİNSİPİ ÜMUMİ BİR QANUNDURMU? 67
TƏCRÜBİ ELMLƏRİN NAİLİYYƏTLƏRİ 68
SUALLAR 69
ON DÖRDÜNCÜ DƏRS 70
MATERİALİST DÜNYAGÖRÜŞÜ NƏZƏRİYYƏSİ VƏ ONUN TƏNQİDİ 70
MADDİ DÜNYAGÖRÜŞÜN PRİNSİPLƏRİ 71
BİRİNCİ PRİNSİPİN ARAŞDIRILMASI 71
İKİNCİ PRİNSİPİN ARAŞDIRILMASI 72
ÜÇÜNCÜ PRİNSİPİN ARAŞDIRILMASI 72
DÖRDÜNCÜ PRİNSİPİN ARAŞDIRILMASI 73
SUALLAR 73
ON BEŞİNCİ DƏRS 74
DİALEKTİK MATERİALİZM VƏ ONUN TƏNQİDİ 74
DİALEKTİK VƏ TARİXİ (MEXANİKİ) MATERİALİZM 75
ƏKSLİKLƏRİN VƏHDƏTİ VƏ MÜBARİZƏSİ 76
MÜLAHİZƏLƏR VƏ TƏNQİDLƏR 76
kəmiyyətin keyfiyyətə keçməsi 77
TƏNQİDLƏR VƏ MÜLAHİZƏLƏR 77

İNKARI İNKAR QANUNU 77
TƏNQİDLƏR VƏ MÜLAHİZƏLƏR 78
SUALLAR 78
ON ALTINCI DƏRS 79
ALLAHIN YEGANƏLİYİ 79
MÜQƏDDİMƏ 80
ALLAHIN YEGANƏ OLMASININ DƏLİLİ 81
SUALLAR 83
ON YEDDİNCİ DƏRS 84
TÖVHİDİN MƏNALARI 84
MÜQƏDDİMƏ 85
1. ÇOXLUĞUN İNKAR EDİLMƏSİ 85
2. TƏRKİBİN İNKAR OLUNMASI 85
3. ZATA ARTIRILAN SİFƏTLƏRİN İNKAR EDİLMƏSİ 85
4. ƏFALİ TÖVHİD (fellərdə tövhid) 86
MÜSTƏQİL TƏSİR 86
İKİ MÜHÜM NƏTİCƏ 87
BİR ŞÜBHƏNİN DƏF EDİLMƏSİ 88
SUALLAR 88
ON SƏKKİZİNCİ DƏRS 89
CƏBR VƏ İXTİYAR 89
MÜQƏDDİMƏ 90
İXTİYAR BARƏDƏ İZAH 91
CƏBRƏ MEYL EDƏNLƏRİN YARATDIĞI ŞÜBHƏLƏRİN DƏF EDİLMƏSİ 92
SUALLAR 93
ON DOQQUZUNCU DƏRS 95
DİN NƏDİR? 95
QƏZA VƏ QƏDƏRİN MƏFHUMU 96
ELMİ QƏZA VƏ QƏDƏR VƏ EYNİ QƏZA VƏ QƏDƏR 96
QƏZA VƏ QƏDƏRİN İNSANIN İXTİYARI İLƏ OLAN ƏLAQƏSİ 97
MÜXTƏLİF İLLƏTLƏRİN TƏSİR NÖVLƏRİ 98
ŞÜBHƏNİN DƏF EDİLMƏSİ 99
QƏZA VƏ QƏDƏRƏ ETİQAD BƏSƏLMƏYİN TƏSİRLƏRİ 99
SUALLAR 100
İYİRMİNCİ DƏRS 101
İLAHİ ƏDALƏT 101
MÜQƏDDİMƏ 102
ƏDALƏTİN MƏFHUMU 103
İLAHİ ƏDALƏTİN DƏLİLİ 104

BİR NEÇƏ ŞÜBHƏNİN CAVABI 105
SUALLAR 107
İYİRMİ BİRİNCİ DƏRS 108
NÜBÜVVƏT MƏSƏLƏSİNƏ MÜQƏDDİMƏ 108
MÜQƏDDİMƏ 109
BU BÖLMƏNİN BƏHSİNDƏ HƏDƏF 109
KƏLAM ELMİNDƏ TƏHQİQ METODU 110
SUALLAR 111
İYİRMİ İKİNCİ DƏRS 112
BƏŞƏRİN VƏHY VƏ NÜBÜVVƏTƏ OLAN EHTİYACI 112
PEYĞƏMBƏRLƏRİN GÖNDƏRİLMƏ ZƏRURƏTİ 113
BƏŞƏR ELMİNİN ÇATIŞMAZLIĞI VƏ KİFAYƏT ETMƏMƏSİ 114
PEYĞƏMBƏRLƏRİN GÖNDƏRİLMƏLƏRİNİN FAYDALARI 115
SUALLAR 116
İYİRMİ ÜÇÜNCÜ DƏRS 117
BİR NEÇƏ ŞÜBHƏNİN HƏLL EDİLMƏSİ 117
BİR NEÇƏ ŞÜBHƏNİN HƏLL EDİLMƏSİ 118
SUALLAR 122
İYİRMİ DÖRDÜNCÜ DƏRS 123
PEYĞƏMBƏRLƏRİN İSMƏTİ (HƏR BİR CƏHƏTDƏN GÜNAHSIZ OLMASI) 123
VƏHYİN TOXUNULMAZLIĞININ ZƏRURƏTİ 124
İSMƏTİN SAİR HALLARI 125
PEYĞƏMBƏRLƏRİN İSMƏTİ 126
SUALLAR 127
İYİRMİ BEŞİNCİ DƏRS 128
PEYĞƏMBƏRLƏRİN İSMƏT DƏLİLLƏRİ 128
MÜQƏDDİMƏ 129
PEYĞƏMBƏRLƏRİN İSMƏTİ BARƏSİNDƏ ƏQLİ DƏLİLLƏR 129
PEYĞƏMBƏRLƏRİN İSMƏTİNƏ NƏQLİ DƏLİLLƏR 130
PEYĞƏMBƏRLƏRİN İSMƏTİNİN SİRRİ 131
SUALLAR 132
İYİRMİ ALTINCI DƏRS 133
BİR NEÇƏ ŞÜBHƏNİN CAVABI 133
BİR NEÇƏ ŞÜBHƏNİN HƏLLİ 134
SUALLAR 138
İYİRMİ YEDDİNCİ DƏRS 140
MÖCÜZƏ 140
NÜBÜVVƏTİN İSBATOLUNMA YOLLARI 141
MÖCÜZƏNİN TƏRİFİ 142

XARİQÜLADƏ İŞLƏR 142
İLAHİ XARİQÜLADƏ İŞLƏR 142
PEYĞƏMBƏRLƏRİN MÖCÜZƏLƏRİNİN XÜSUSİYYƏTLƏRİ143
SUALLAR 144
İYİRMİ SƏKKİZİNCİ DƏRS 145
BİR NEÇƏ ŞÜBHƏNİN HƏLLİ 145
BİR NEÇƏ ŞÜBHƏNİN HƏLLİ 146
SUALLAR 149
İYİRMİ DOQQUZUNCU DƏRS 150
PEYĞƏMBƏRLƏRİN XÜSUSİYYƏTLƏRİ 150
PEYĞƏMBƏRLƏRİN ÇOXLUĞU 151
PEYĞƏMBƏRLƏRİN SAYI 152
NÜBÜVVƏT VƏ RİSALƏT 153
ULUL-ƏZM PEYĞƏMBƏRLƏR 154
BİR NEÇƏ MƏSƏLƏ 154
SUALLAR 155
OTUZUNCU DƏRS 156
İNSANLAR VƏ PEYĞƏMBƏRLƏR 156
MÜQƏDDİMƏ 157
CAMAATIN PEYĞƏMBƏRLƏRƏ MÜNASİBƏTİ 157
PEYĞƏMBƏRLƏRLƏ MÜXALİFLİYİN SƏBƏBLƏRİ 158
PEYĞƏMBƏRLƏRLƏ QARŞIDURMA 158
CƏMİYYƏTİN İDARƏ OLUNMASINDA BƏZİ İLAHİ QANUNLAR 160
SUALLAR 161
OTUZ BİRİNCİ DƏRS 162
İSLAM PEYĞƏMBƏRİ (S) 162
MÜQƏDDİMƏ 163
İSLAM PEYĞƏMBƏRİNİN (S) RİSALƏTİNİN İSBAT OLUNMASI 165
SUALLAR 166
OTUZ İKİNCİ DƏRS 167
QURANIN MÖCÜZƏSİ 167
QURANIN MÖCÜZƏ OLMASI 168
QURANIN MÖCÜZƏVİ CƏHƏTLƏRİ 169
v) Ayələr arasında uyğunluq, ixtilafın İSƏ olmaması 172
SUALLAR 172
OTUZ ÜÇÜNCÜ DƏRS 174
QURANIN TƏHRİFDƏN AMANDA OLMASI 174
MÜQƏDDİMƏ 175

SUALLAR 177
OTUZ DÖRDÜNCÜ DƏRS 178
İSLAM DİNİNİN ƏBƏDİ DÜNYA SƏVİYYƏLİ OLMASI 178
MÜQƏDDİMƏ 179
İSLAMIN DÜNYA SƏVİYYƏLİ BİR DİN OLMASI 179
QURANIN İSLAMIN ÜMUMDÜNYA DİNİ OLMASINA DAİR DƏLİLLƏRİ 180
İSLAMIN ƏBƏDİ BİR DİN OLMASI 180
BİR NEÇƏ ŞÜBHƏNİN CAVABI 181
Amma İslam dinində kitab əhlinin kafirlərdən üstün hesab edilməsinə gəldikdə isə, bu onların İslamı qəbul etməməkdə və ona əməl etməməkdə üzürlü olması demək deyildir. Əksinə onlar haqqında rəva görülən məsləhətlərə uyğun olaraq dünyəvi güzəştlərdir. Şiələrin etiqadına görə, həmin güzəştlər də müvəqqətidir. Həzrət İmam Zamanın (ə) zühur etdiyi zaman onlara yekun hökm elan olunacaq və onlarla kafirlər kimi rəftar olunacaqdır. Bu mətləbi də «li yuzhirəhu ələddini kullih» 182
SUALLAR 182
OTUZ BEŞİNCİ DƏRS 183
XATƏMİYYƏT 183
MÜQƏDDİMƏ 184
QURANDA XATƏMİYYƏTƏ DAİR DƏLİL 184
XATƏMİYYƏTƏ DAİR RƏVAYƏTLƏR 185
NÜBÜVVƏTİN TAMAMLANMASININ SİRRİ 185
BİR ŞÜBHƏ VƏ ONUN CAVABI 186
SUALLAR 187
OTUZ ALTINCI DƏRS 188
İMAMƏT 188
MÜQƏDDİMƏ 189
İMAMƏT MƏFHUMU 191
SUALLAR 191
OTUZ YEDDİNCİ DƏRS 193
İMAMIN VARLIĞINA EHTİYAC 193
MÜQƏDDİMƏ 194
İMAMIN VARLIĞININ ZƏRURƏTİ 195
SUALLAR 197
OTUZ SƏKKİZİNCİ DƏRS 198
İMAMIN TƏYİN OLUNMASI 199
SUALLAR 202
OTUZ DOQQUZUNCU DƏRS 203

İMAMIN İSMƏTİ VƏ ELMİ 203
MÜQƏDDİMƏ 204
İMAMIN İSMƏTİ 204
İMAMIN ELMİ 205
SUALLAR 209
QIRXINCI DƏRS 210
HƏZRƏT MƏHDİ (ƏCCƏLƏLLAHU TƏALA FƏRƏCƏHUŞ-ŞƏRİF) 210
MÜQƏDDİMƏ 211
ÜMUMDÜNYA SƏVİYYƏSİNDƏ OLAN İLAHİ BİR HÖKUMƏT 211
İLAHİ VƏDƏ 212
RƏVAYƏTLƏRDƏN BİR NÜMUNƏ 213
QEYB VƏ ONUN SİRRİ 214
SUALLAR 216
QIRX BİRİNCİ DƏRS 217
MƏADŞÜNASLIĞIN ƏHƏMİYYƏTİ 217
MÜQƏDDİMƏ 218
MƏADA ETİQAD BƏSLƏMƏYİN ƏHƏMİYYƏTİ 218
QURANIN MƏAD MƏSƏLƏSİNƏ CİDDİ DİQQƏT YETİRMƏSİ 219
SUALLAR 221
QIRX İKİNCİ DƏRS 222
MƏADIN RUH MƏSƏLƏSİ İLƏ BAĞLILIĞI 222
CANLI VARLIQLARDA VƏHDƏTİN MEYARI 223
RUHUN İNSAN VARLIĞINDAKI MÖVQEYİ 225
SUALLAR 225
QIRX ÜÇÜNCÜ DƏRS 227
RUHUN MÜCƏRRƏDLİYİ 227
MÜQƏDDİMƏ 228
RUHUN MÜCƏRRƏDLİYİNƏ DAİR ƏQLİ DƏLİLLƏR 228
QURAN DƏLİLLƏRİ 230
SUALLAR 231
QIRX DÖRDÜNCÜ DƏRS 232
MƏADIN İSBAT OLUNMASI 232
MÜQƏDDİMƏ 233
İLAHİ HİKMƏT 233
İLAHİ ƏDALƏT 235
SUALLAR 235
QIRX BEŞİNCİ DƏRS 236
QURANDA MƏAD 236
MÜQƏDDİMƏ 237

MƏADIN İNKAR EDİLMƏSİ BARƏDƏ HEÇ BİR QƏTİ DƏLİL YOXDUR 237
MƏADA OXŞAR HADİSƏLƏR 238
SUALLAR 240
QIRX ALTINCI DƏRS 241
QURANIN İNKARÇILARIN ŞÜBHƏLƏRİNƏ CAVABLARI 241
1. "YOX OLMUŞ ŞEYİN YENİDƏN QAYTARILMASI" ŞÜBHƏSİ 242
2. «BƏDƏNİN YENİ HƏYATI QƏBUL ETMƏYƏ QABİL OLMAMASI» ŞÜBHƏSİ 242
3. ALLAHIN QÜDRƏTİ BARƏSİNDƏ ŞÜBHƏ 243
4. ALLAHIN ELMİ BARƏSİNDƏ ŞÜBHƏ 243
SUALLAR 244
QIRX YEDDİNCİ DƏRS 245
QİYAMƏT BARƏSİNDƏ ALLAHIN VƏDƏSİ 245
MÜQƏDDİMƏ 246
ALLAHIN LABÜD VƏ QAÇILMAZ VƏDƏSİ 246
ƏQLİ DƏLİLLƏRƏ İŞARƏ 247
SUALLAR 248
QIRX SƏKKİZİNCİ DƏRS 249
AXİRƏT ALƏMİNİN XÜSUSİYYƏTLƏRİ 249
MÜQƏDDİMƏ 250
ƏQL NƏZƏRİNDƏN AXİRƏT ALƏMİNİN XÜSUSİYYƏTLƏRİ 251
İzah: 252
SUALLAR 253
QIRX DOQQUZUNCU DƏRS 254
ÖLÜMDƏN QİYAMƏTƏ QƏDƏR 254
MÜQƏDDİMƏ 255
BÜTÜN İNSANLAR ÖLƏCƏKDİR 255
CANLARI ALAN 256
CANIN ASAN VƏ YA ÇƏTİN ALINMASI 256
ÖLÜM HALINDA TÖVBƏ VƏ İMANIN QƏBUL OLUNMAMASI 256
DÜNYAYA QAYIDIŞ ARZUSU 257
BƏRZƏX ALƏMİ 258
SULLAR 258
ƏLLİNCİ DƏRS 260
QURANDA QİYAMƏTİN TƏSVİRİ 260
MÜQƏDDİMƏ 261
YERİN, DƏRYALARIN VƏ DAĞLARIN VƏZİYYƏTİ 261
ASİMANIN VƏ ULDUZLARIN VƏZİYYƏTİ 262
ÖLÜM SURU 262

HƏYAT SURU VƏ QİYAMƏTİN BAŞLANMASI 262
MÜTLƏQ İLAHİ HÖKMRANLIĞIN ZÜHURU 263
İLAHİ ƏDALƏT MƏHKƏMƏSİ 263
ƏBƏDİ İQAMƏTGAHA DOĞRU 265
BEHİŞT 265
CƏHƏNNƏM 267
SUALLAR 269
ƏLLİ BİRİNCİ DƏRS 270
DÜNYANIN AXİRƏT İLƏ MÜQAYİSƏSİ 270
MÜQƏDDİMƏ 271
DÜNYANIN FANİ, AXİRƏTİN İSƏ ƏBƏDİ OLMASI 271
AXİRƏTDƏ NEMƏTİN ƏZABDAN AYRILMASI 271
AXİRƏTİN HƏQİQİ HƏYAT OLMASI 272
DÜNYA HƏYATINI (ƏSAS MƏQSƏD KİMİ) SEÇMƏYİN NƏTİCƏSİ 272
İzah: 273
SUALLAR 273
ƏLLİ İKİNCİ DƏRS 274
DÜNYA İLƏ AXİRƏTİN ƏLAQƏSİ 274
MÜQƏDDİMƏ 275
DÜNYA AXİRƏT ÜÇÜN ƏKİN SAHƏSİDİR 275
DÜNYA NEMƏTLƏRİ AXİRƏT SƏADƏTİNƏ SƏBƏB OLMUR 276
DÜNYA NEMƏTLƏRİ AXİRƏT BƏDBƏXTLİYİNƏ DƏ SƏBƏB OLMUR 277
NƏTİCƏ 278
SUALLAR 279
ƏLLİ ÜÇÜNCÜ DƏRS 280
DÜNYA İLƏ AXİRƏT ARASINDA OLAN ƏLAQƏ 280
MÜQƏDDİMƏ 281
HƏQİQİ VƏ ŞƏRTİ RABİTƏ 281
BU MƏSƏLƏ İLƏ ƏLAQƏDAR QURAN AYƏLƏRİ 282
SUALLAR 283
ƏLLİ DÖRDÜNCÜ DƏRS 284
İNSANIN ƏBƏDİ XOŞBƏXT VƏ YA BƏDBƏXT OLMASINDA İMAN VƏ KÜFRÜN ROLU 284
MÜQƏDDİMƏ 285
İMAN VƏ KÜFRÜN HƏQİQƏTİ 285
İMAN VƏ KÜFRÜN HƏDDİ 286
İNSANIN ƏBƏDİ XOŞBƏXTLİYİNDƏ İMANIN VƏ ƏBƏDİ BƏDBƏXTLİYİNDƏ KÜFRÜN TƏSİRİ 287

BU BARDƏ OLAN QURAN AYƏLƏRİ 287
SUALLAR 288
ƏLLİ BEŞİNCİ DƏRS 290
İMAN VƏ ƏMƏLİN QARŞILIQLI ƏLAQƏSİ 290
MÜQƏDDİMƏ 291
İMANLA ƏMƏLİN ƏLAQƏSİ 291
ƏMƏLİN İMANLA OLAN ƏLAQƏSİ 291
NƏTİCƏ 292
SUALLAR 293
ƏLLİ ALTINCI DƏRS 294
BİR NEÇƏ MÜHÜM MƏSƏLƏ 294
MÜQƏDDİMƏ 295
İNSANIN HƏQİQİ KAMALI 295
ƏQLİ DƏLİL 296
MƏQSƏD VƏ NİYYƏTİN ROLU 297
SUALLAR 298
ƏLLİ YEDDİNCİ DƏRS 299
“HƏBT” 299
(İNSANIN ƏMƏLLƏRİNİN MƏHV OLMASI, TƏSİRDƏN DÜŞMƏSİ) 299
VƏ 299
“TƏKFİR” 299
(İNSANIN PİS ƏMƏLLƏRİNİN ÜSTÜNÜN ÖRTÜLMƏSİ, GÜNAHLARIN YAXŞI İŞLƏR VASİTƏSİ İLƏ ƏVƏZ OLUNMASI) 299
MÜQƏDDİMƏ 300
İMANLA KÜFRÜN ƏLAQƏSİ 300
YAXŞI VƏ PİS ƏMƏLİN BİR-BİRİ İLƏ ƏLAQƏSİ 301
SUALLAR 302
ƏLLİ SƏKKİZİNCİ DƏRS 303
MÖMİNLƏRİN İMTİYAZLARI 303
MÜQƏDDİMƏ 304
SAVABIN ARTIRILMASI 304
KİÇİK GÜNAHLARIN BAĞIŞLANMASI 305
BAŞQALARININ ƏMƏLLƏRİNDƏN İSTİFADƏ ETMƏK 305
SUALLAR 305
ƏLLİ DOQQUZUNCU DƏRS 306
ŞƏFAƏT 306
MÜQƏDDİMƏ 307
ŞƏFAƏT MƏFHUMU 307

ŞƏFAƏTİN QAYDA-QANUNLARI 309
SUALLAR 310
ALTMIŞINCI DƏRS 311
BİR NEÇƏ ŞÜBHƏNİN CAVABI 311
SUALLAR 314